TARİX VƏ ONUN PROBLEMLƏRİ X/B BAKI 2020

# TARİX VƏ ONUN PROBLEMLƏRİ

## QARABAĞ AZƏRBAYCANDIR!



*XÜSUSİ BURAXILIŞ*

BAKI – 2020

***“Ordu ölkəmizin, millətimizin, dövlətimizin müstəqilliyinin dayağıdır”.***

**Heydər ƏLİYEV**

***“Azərbaycan öz torpaqları uğrunda vuruşur ... Bizim əsgərlər xilaskar əsgərlərdir ... Biz tarixi ədaləti bərpa edirik! Bizim işimiz haqq işidir. Biz öz ərazi bütövlüyümüzü bərpa etmək istəyirik, buna bizim haqqımız çatır”.***

**İlham ƏLİYEV**

# TARİX VƏ ONUN PROBLEMLƏRİ

**1997-091**

**HİSTORY AND İTS PROBLEMS** **ИСТОРИЯ И ЕЁ ПРОБЛЕМЫ**

**NƏZƏRİ, ELMİ, METODİK JURNAL**

**ISSN** 2708-0641 (print)
2708-065X (Online)



# *XÜSUSI BURAXILIŞ*

**ADİLOĞLU**
**BAKI – 2020**

*Baş Redaktor -* **Əsməd İmamməmməd qızı Muxtarova / Asmed Mukhtarova**
*Bakı Dövlət Universiteti / Baku State University (Azerbaijan)*
*Baş redaktorun müavini -* **İsmayıl Məhəmməd oğlu Məmmədov / Ismayıl Mammadov**
*Bakı Dövlət Universiteti /Baku State University (Azerbaijan)*
*Məsul katib -* **Qabil Əli oğlu Əliyev / Qabil Aliyev**
*Bakı Dövlət Universiteti /Baku State University (Azerbaijan)*

**Redaksiya heyəti** (əlifba sırası ilə verilib / assigned in alphabetical order)
**Nərgiz Çingiz qızı Axundova / Nargiz Akhundova**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu / İnstitute of History named A.A.Bakıkhanov of ANAS (Azerbaijan)*
**Andrzej L.Bonusiak / Andrzej L.Bonusiak**
*Jeşuva Universitetinin Tarix İnstitutu (Polşa)/ University of Rzeszów (Poland)*
**Hatice Palaz Erdemir / Hatice Palaz Erdemir**
*Manisa Calal Bayar Universiteti (Türkiyə) / Manisa Celal Bayar University (Turkey)*
**Sevinc İsrafil qızı Əliyeva / Sevinj Aliyeva**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azerbaijan State Pedagogical University (Azerbaijan)*
**Hikmət Əbdül oğlu Əlizadə / Hikmet Alizade**
*Bakı Dövlət Universiteti / Baku State University (Azerbaijan)*
**Məmməd Böyükxan oğlu Fətəliyev / Mammad Fataliyev**
*Bakı Dövlət Universiteti / Baku State University (Azerbaijan)*
**İsmayıl Muxtar oğlu Hacıyev / Ismayıl Hajıyev**
*AMEA Naxçıvan bölməsi / Nakhchivan Division of ANAS (Azerbaijan)*
**Sani Tofiq oğlu Hacıyev / Sani Hajıyev**
*Bakı Dövlət Universiteti / Baku State University (Azerbaijan)*
**Zeynəddin Camal oğlu Hacıyev / Zeynaddin Hajıyev**
*Bakı Dövlət Universiteti / Baku State University (Azerbaijan)*
**İradə Mehtiqulu qızı Hüseynova / Irada Huseynova**
*Bakı Dövlət Universiteti / Baku State University (Azerbaijan)*
**Lalə Cavid qızı Hüseynova / Lala Huseynova**
*AR Prezidentinin İşlər İdarəsi Siyasi sənədlər arxivi /*
*Archive of Political Documents of the Office of the President AR (Azerbaijan)*
**Anar Camal oğlu İsgəndərov / Anar İsgandarov**
*Bakı Dövlət Universiteti / Baku State University (Azerbaijan)*
**Qüdrət Seyfulla oğlu İsmayılov / Qudrat İsmayılov**
*Bakı Dövlət Universiteti / Baku State University (Azerbaijan)*
**Musa Cəfər oğlu Qasımlı / Musa Qasımlı**
*AMEA Qafqazşünaslıq İnstitutu / İnstitute of the Caucasian Studies of ANAS (Azerbaijan)*
**Nərgiz Məlik qızı Quliyeva / Nargiz Quliyeva**
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu / İnstitute of Archeology and Etnography of ANAS (Azerbaijan)*
**Kvitsiani Con Cokiyevich / Kvitsiani John Jokiyevich**
*İ.V.Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin "Qafqazşünaslıq" Elmi-Tədris İnstitutu (Gürcüstan)*
*İnstitute of Caucasiology of İvane Javakhishvili Tbilisi State University (Georgia)*
**Yaqub Mikayıl oğlu Mahmudov / Yagub Makhmudov**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu / İnstitute of History named A.A.Bakıkhanov of ANAS (Azerbaijan)*
**Georgi Quramoviç Mamulia / Georges Quramovich Mamoulia**
*Sosial Elmlər üzrə Ali Araşdırmalar Məktəbi (Fransa) /*
*School for Advanced Studies in the Sosial Scences - EHESS (France)*
**Nisbət Canməmməd qızı Mehdiyeva / Nisbat Mehdiyeva**
*Bakı Dövlət Universiteti / Baku State University (Azerbaijan)*
**Adil Mirabdulla oğlu Mirabdullayev / Adil Mirabdullayev**
*Bakı Dövlət Universiteti / Baku State University (Azerbaijan)*
**Daniş Miroslav / Danish Miroslav**
*Bratislava Komenski Universiteti (Slovakiya)/ Comenius University in Bratislava (Slovakia)*
**Barış Özdal / Barısh Ozdal**
*Bursa Uludağ Universiteti (Türkiyə) / Bursa Uludag University (Turkey)*
**Mohammad Salmansızadeh / Mohammad Salmansızadeh**
*Təbriz Universiteti (İran)/ Tabriz University (İran)*
**Turiçın İqor Victoroviç / Turichın İqor Victoroviç / Турицын Игорь Викторович**
*Moskva Tarix, İqtisadiyyat və Hüquq Elmi-Tədqiqat İnstitutu (Rusiya)*
*Moskow Scientific Research Institute of History, Economics and Law (Russia)*
**Nailə Məmmədəli qızı Vəlixanlı / Naila Valikhanlı**
*Azərbaycan tarx müzeyi / Azerbaijan Museum of History (Azerbaijan)*
**Sevinc Ziya qızı Yusifzadə / Sevinj Yusifzade**
*Bakı Dövlət Universiteti / Baku State University (Azerbaijan)*
**İbrahim Xudaverdi oğlu Zeynalov / İbrahim Zeynalov**
*Bakı Dövlət Universiteti / Baku State University (Azerbaijan)*

web-sayt: - http://publish.bsu.edu.az/az/content/tarix_ve_onun_problemleri_jurnali_illerle
http://ek.anl.az/search/query?term_1=Tarix+v%C9%99+onun+probleml%C9%99ri&theme=e-kataloq
*Redaksiya ilə əlaqə:* TarixVeOnunProblemleri@gmail.com
Şəhadətnamə № 0060079 (1997)
©Lisenziya ser.AB - №22477

# MÜNDƏRİCAT

## QARABAĞ AZƏRBAYCANDIR!


| | | |
|---|---|---|
| HACIYEV İ. | *Vətən müharibəsində Xalq-Prezident-Ordu birliyi qələbənin əsas amili kimi*.............................................................................. | 5-10 |
| ZEYNALOV İ.X. | *Terror aktları: bəşəriyyətə, insanlığa qarşı çevrilmiş cinayət*........................................................................................ | 11-22 |
| MUXTAROVA Ə.İ. | *Vətən müharibəsindəki şanlı qələbəmiz tarixi ədalətin bərpası və təntənəsidir*............................................................ | 23-29 |
| HÜSEYNOVA İ.M. | *Müasir Azərbaycan tarixinin banisi: İlham Əliyev Azərbaycan tarixinə adı əbədi yazılmış Ali Baş Komandan*..... | 30-40 |
| ƏLİYEV Q.Ə. | *Möhtəşəm qələbə*................................................................... | 41-45 |
| MƏMMƏDOV N.Z. | *Biz Vətən müharibəsi apardıq və tarixi qələbəyə nail olduq!*...... | 46-51 |
| BƏHRAMOV C.Ə. | *Erməni faşizminin Azərbaycan xalqına qarşı törətdikləri cinayətlər tarixi faktların dili ilə*............................................ | 52-69 |
| РЗАЕВ А.А. | *Вторая Карабахская война. Причины и итоги (заметки историка)*............................................................ | 70-73 |
| HÜSEYNOVA S.B. | *Vətən müharibəsi: Azərbaycanın dünyaya yeni doğuluşu*....... | 74-78 |
| SƏİDƏ ƏLİ QIZI | *Qarabağ Azərbaycandır! Əhməd bəy Ağaoğlunun erməni millətçiliyinə qarşı mübarizəsi*............................................... | 79-89 |
| İSMAYILOVA S.A. | *Şuşa – Qarabağın döyünən ürəyi*............................................ | 90-96 |
| NƏBİYEV B.E. | *İkinci Qarabağ Vətən müharibəsində Azərbaycanın qələbəsini şərtləndirən amillər*............................................... | 97-101 |
| SƏLİMOV Ş. | *Müstəqil Azərbaycan Respublikasında ordu quruculuğu*……...... | 102-106 |
| BAXIŞOV M.Ə. | *Vətən müharibəsi və Fransanın mövqeyi*................................ | 107-112 |
| MƏMMƏDOV A.B. | *Azərbaycan xalqının daşla bağlı inanclarında Şəhid ruhlarına ehtiram və nəsil artımı ilə bağlı tarixi demoqrafik baxışlar*........................................................................................ | 113-119 |
| QULİYEVA S.Z. | *Ermənistan tərəfindən XX əsrin sonlarında işğal edilmiş Azərbaycan rayonlarının əhalisinin say dinamikası barədə*........................................................................................ | 120-124 |
| CƏFƏROV T.V. | *I və II Qarabağ müharibəsində Ermənistanın Azərbaycana qarşı informasiya-psixoloji müharibəsi və onun iflası*............ | 125-132 |


## QƏDİM DÖVR VƏ ORTA ƏSRLƏR


| | | |
|---|---|---|
| HÜSEYNLİ N. | *Ümumdünya tufanı və Şumer mədəniyyəti*.............................. | 133-139 |
| AĞABƏYOVA Ü.Ə. | *Yunus Əmrə yaradıcılığında eşq fəlsəfəsi*............................... | 140-145 |
| HƏSƏNOV Ə.H. | *Azərbaycan Səfəvi dövlətinin yerli idarəçilik sisteminin bəzi məsələləri*.............................................................................. | 146-151 |
| QƏRİBOVA A.Ə. | *XVI əsrin I yarısında Səfəvi-Şeybani münasibətləri*................ | 152-155 |

## YENİ DÖVR


| | | |
|---|---|---|
| MUSA RƏHİMOĞLU (QULİYEV) | *Abbasabad qalası ətrafında gedən döyüşlər. Qala necə təhvil verildi*........................................................................................ | 156-159 |
| MUSAYEV T.F. | *XIX–XX əsrin əvvəllərində Qarabağ bölgəsində pambıq parça toxuculuğu*.................................................................... | 160-170 |


## MÜASİR DÖVR


| | | |
|---|---|---|
| İSMAYILOVA S.A. | *Sovet hakimiyyətinin Azərbaycan SSR-də ali məktəblərin milliləşdirilməsi sahəsindəki siyasəti (1924-1930-cu illər)*..... | 171-175 |
| İBRAHİMOV Ş. | *Avropa İttifaqının yaranma səbəbləri*..................................... | 176-180 |
| ГУСЕЙНОВА Э.А. | *Региональная Политика ЕС и НАТО*.................................. | 181-186 |
| ASLANOV Z.N. | *Elmi-texniki tərəqqinin mahiyyəti və xüsusiyyətləri*................ | 187-192 |
| ASLANOVA R. | *XXI əsrin çağırışları və Türk dünyası bölgəsinin fəlsəfi irsi* .. | 193-199 |
| ВЕЗИРОВ Х.Н., ВЕЗИРОВ-КЕНГЕРЛИ Ф.Х. | *История развития института Ученых Советов*............. | 200-208 |
| TAĞIYEVA T., MEHTİYEVA L. | *Azərbaycan-ABŞ münasibətlərinə təsir edən amillər*.............. | 209-216 |
| MƏMMƏDLİ M., ASLAN-MƏMMƏDLİ A. | *Beynəlxalq təhlükəsizliyin ekoloji aspektləri*............................ | 217-220 |
| MƏSİMOV A. | *Berlin (Potsdam) konfransında erməni havadarları*................ | 221-226 |
| ZEYNALABDİNOV Ə.A. | *Şimali Qafqazda təhlükəsizlik problemləri və ABŞ*................. | 227-231 |
| HƏSƏNLİ E. | *Millilik problemi və müasir tələblər*........................................ | 232-236 |


## ARXEOLOGİYA VƏ ETNOQRAFİYA


| | | |
|---|---|---|
| ИБРАГИМОВА Р.М. | *Деятельность «Общества по обследованию и изучению Азербайджана» в этнографическом аспекте*.................... | 237-243 |


## MƏNBƏŞÜNASLIQ, TARİXŞÜNASLIQ, METODİKA


| | | |
|---|---|---|
| АГАЕВ И.Г. | *История Кореи в исследованиях азербайджанских историков*................................................................................ | 244-249 |
| İSLAMOVA Z. | *Şamaxı şəhərinin XVIII əsr tarixi dövrün qaynaqlarında*........ | 250-254 |

QARABAĞ AZƏRBAYCANDIR!

**UOT 94 (479.24)**

**İSMAYIL HACIYEV**
*AMEA Naxçıvan Bölməsinin sədri, akademik*
**E-mail: haciyev.i1951@gmail.com**

# VƏTƏN MÜHARİBƏSİNDƏ XALQ-PREZİDENT-ORDU BİRLİYİ QƏLƏBƏNİN ƏSAS AMİLİ KİMİ

*Məqalədə ermənilər tərəfindən Azərbaycanın Dağlıq Qarabağ ərazisini və 7 rayonunu işğal etməsi və 30 ilə yaxın işğal altında saxlaması, dəfələrlə təxribatlar törətməsi və Azərbaycana qarşı yeni ərazi iddiaları irəli sürməsi göstərilir. Belə təxribatların birində Azərbaycan ordusu əks-hücuma keçərək erməni ordusunu geri oturtmuş, beləliklə İkinci Qarabağ savaşı – Vətən müharibəsi başlamışdır. Müharibədə qələbənin əsas amili kimi Xalq-Prezident-Ordu birliyi əsaslandırılmış, tarixi fakt və hadisələr ümumiləşdirilərək yekun nəticə çıxarılmışdır.*

*Açar sözlər:* İkinci Qarabağ müharibəsi, işğal, xalq, Prezident, ordu, qələbə.

*Giriş*. XIX əsrin əvvəllərində Rusiya-İran və Rusiya-Türkiyə müharibələri nəticəsində Cənubi Qafqazdakı tarixi Azərbaycan ərazilərinə, eləcə də Qarabağın dağlıq hissəsinə ermənilər köçürülmüşdür. Bu ərazidə yerləşən ermənilər himayədarlarının dəstəyi ilə hər fürsətdə çirkin niyyətlərini həyata keçirməyə cəhd göstərmişdir. Bu başabəla toplum tarixi ərazilərimizdə etnik tərkibi xeyirlərinə dəyişdirmək üçün hər cür xəyanətə əl atmışdır.

XX əsrin əvvəllərində Sovet Rusiyasına arxalanan ermənilər Qarabağın dağlıq hissəsini Ermənistana birləşdirməyə cəhd göstərmişlər. Lakin bu niyyətləri alınmadıqda SSRİ-nin köməyi ilə Azərbaycanın tərkibində muxtariyyət əldə etmişlər. Sonrakı illərdə arzularının gerçəkləşməsi üçün fəaliyyət göstərsələr də məqsədlərinə çata bilməmişlər.

Uzun illər öz məkrli niyyətlərinə çatmaq üçün real tarixi şəraitin yetişməsini gözləyən düşmən, XX əsrin 90-cı illərinin əvvəllərində himayəçilərinin fəal dəstəyilə və həmin dövrdə ölkəmizdə baş alıb gedən hərc-mərclikdən, hakimiyyətsizlikdən istifadə edərək soydaşlarımızın tarixi ərazisi olan Qərbi Azərbaycandan – Ermənistandan deportasiyasına nail olmuşlar. Bununla kifayətlənməyən təcavüzkar Ermənistan bolşeviklərin süni surətdə “Dağlıq Qarabağ” adlandıraraq erməni muxtariyyətinə çevirdikləri ərazilərlə birlikdə, Azərbaycanın 7 rayonunu da işğal etmişlər. Nəticədə Azərbaycanın ərazi bütövlüyü pozulmuşdur.

Həmin vaxtdan başlayan sülh danışıqları, ərazi bütövlüyünün bərpası istiqamətində atılan addımlar heç bir nəticə verməmişdir. Hətta Ermənistan BMT-nin Təhlükəsizlik Şurasının 1993-cü il tarixli dörd qətnaməsini pozaraq, torpaqlarımızdan çıxmaqdan imtina etmişdir. Düşmən bütün bunlarla kifayətlənməyib, təxribat xarakterli bəyanat və hərəkətlərə üstünlük vermişdir. Nəhayət, işğalçının 2020-ci il sentyabrın 27-də Azərbaycana qarşı genişmiqyaslı təcavüzündən sonra silahlı qüvvələrimiz əks-hücum əməliyyatı keçirməyə məcbur oldu.

*Bütün döyüşlər Ali Baş Komandanın göstərişi ilə planlaşdırılır və həyata keçirilirdi.* Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev sentyabrın 27-də keçirdiyi Təhlükəsizlik Şurasının iclasında ermənilərə xəbərdarlıq etdi: “Biz onlara 2016-cı ildə, 2018-ci ildə, bu ilin (2020) iyul ayında dərs verdik. Amma görünür ki, bu, onlar üçün dərs olmadı. Bu dəfə də dərs veririk və verəcəyik. Bu gün şanlı Azərbaycan Ordusu böyük uğurla əks-hücum əməliyyatı keçirir və bu əməliyyat davam edir” [2, 2020, 28 sentyabr].

Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2020-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət, 28 sentyabr 2020-ci il tarixli Sərəncamı ilə qismən səfərbərlik elan edildi [2, 2020, 29 sentyabr].

Ümummilli lider Heydər Əliyevin siyasi məktəbinin yetirməsi, zəmanəmizin nüfuzlu, uzaqgörən və qətiyyətli siyasi liderlərindən olan Prezident İlham Əliyevin son 17 il ərzində yürütdüyü ardıcıl və məqsədyönlü siyasət ölkəmizin dayanıqlı və dinamik inkişafını təmin etmiş, Azərbaycanı regionun güc mərkəzinə, söz sahibinə çevirmişdir.

Sentyabrın 27-də Ali Baş Komandan İlham Əliyevin əmri ilə Silahlı Qüvvələrimiz cəbhəboyu təxribat törədən Ermənistan Ordusuna qarşı əks-hücum əməliyyatlarına başladı. İşğalçı ölkənin 30 il ərzində möhkəmləndirmə işləri apardığı təmas xəttini Azərbaycanın müzəffər Ordusu qısa zamanda yararaq Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonlarını, 150-dən çox kənd və qəsəbəni, onlarla strateji yüksəkliyi düşmən tapdağından azad etdi [3, 2020, 5 noyabr]. Heç şübhəsiz, əldə edilən bu möhtəşəm qələbənin əsas ilhamverici qüvvəsi Ali Baş Komandan, qələbəni qazanan müzəffər Ordumuz idi. Sonrakı günlərdə də rəşadətli Azərbaycan Ordusu düşmən qüvvələrini darmadağın etdi.

İkinci Qarabağ müharibəsi Prezident İlham Əliyevin bir sərkərdə, hərbi xadim, Ali Baş Komandan olaraq nə qədər qabil olduğunu təsdiq etdi. Hərbi-siyasi informasiya və digər sahələrdə gedən müharibəni Ali Baş Komandan məharətlə idarə edirdi. Növbəti gün aparılacaq savaşın planı hazırlanır, Ali Baş Komandan onunla tanış olur, tövsiyə və tapşırıqlarını verdikdən sonra təsdiq edir, bundan sonra mübarizə başlayırdı. Prezident qərar verəndə tələsmədiyi kimi, tapşırıq verəndə də gecikmirdi. Bu müharibə zərgər dəqiqliyi ilə həyata keçirilirdi. Döyüşlərdə qazanılan uğurlar hərbi əməliyyatların planlaşdırılmasından xeyli dərəcədə asılı idi. Ali baş Komandan, Prezident İlham Əliyev həm müasir Azərbaycan Ordusunun yaradılması üzrə çoxillik mürəkkəb iş dövründə, həm də Qarabağda ermənilər tərəfindən işğal olunmuş ərazilərin azad edilməsi üzrə başlanan hərbi əməliyyatlar dövründə son dərəcə məsul qərarlar qəbul edərkən göstərdiyi qətiyyətlilik, mərdlik, əzmkarlıq, siyasi iradə sayəsində Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi uğrunda Qarabağda gedən döyüşlərdə tarixi dönüş baş verdi.

Prezident İlham Əliyev müsahibələrin birində qeyd etdi ki, “Azərbaycan xalqı üçün bu müharibə azadlıq müharibəsi, Ermənistan üçün isə işğalçılıq müharibəsidir” [2, 2020, 4oktyabr].

Müharibələrin tarixi tədqiq edilərkən orada Ali Baş Komandanların rolu və fəaliyyətləri haqqında danışılır, onların xidmətləri qeyd edilir. Müharibələrin aparılmasında dövlətin təşkilati fəaliyyətinə, ordunun döyüş istiqamətlərinə ölkə başçısı rəhbərlik edir. Ali Baş Komandan, xüsusilə müharibə dövründə “xalqın bütün gücünün hərb və müdafiə işinə səfərbər edilməsini təmin edə biləcək bir strateji vəzifə sahibidir. Və ona görə də bu vəzifə sahibinin öz fəaliyyətini necə qurmasının dövlət maraqlarının qorunmasında müstəsna əhəmiyyəti vardır. Dünya təcrübəsi də göstərir ki, səriştəli, qətiyyətli və mübariz komandan olmadan müharibədən qalib çıxmaq mümkün deyil” [6, 2020, 27 noyabr].

İkinci Qarabağ müharibəsindəki möhtəşəm qələbə Ali Baş Komandan İlham Əliyevin dövlətimizin milli maraqlarını qətiyyətlə müdafiə etdiyini bir daha əyani göstərdi. Müharibənin davam etdiyi günlərdə İlham Əliyev hərb meydanında müzəffər sərkərdə, diplomatik cəbhədə böyük strateq nümunəsi sərgilədi, bütün təzyiqlərə cəsarətlə sinə gərdi, mərdlik və qətiyyətlik nümunəsi göstərdi. Qələbəmizin həlledici amili Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin adı ilə bağlıdır. Dövlət, xalq və ordu o zaman güclü olur ki, ona güclü lider rəhbərlik edir. Xalqımızın, dövlətimizin birliyi, dövlət başçısına inam bizim qələbəmiz ilə nəticələndi.

Döyüş günlərində Ali Baş Komandanın hərb işini mükəmməl bilməsi, ordumuza uğurla rəhbərlik etməsi Azərbaycan xalqı tərəfindən həssaslıqla izlənilmiş və ona ünvanlanan təbrik və minnətdarlıq məktublarında onlar ürək sözlərini yazmışlar: “Cənab Prezident, Sizin adınız Azərbaycan tarixinə qızıl hərflərlə yazılacaq; Siz müdrik, cəsarətli siyasət yürüdərək Vətən müharibəsində tarixi zəfərə nail oldunuz; Azərbaycan xalqı Sizinlə qürur duyur; Siz var olduqca qələbə Azərbaycanladır!; Azərbaycan xalqı Sizin kimi Lideri olduğuna görə xoşbəxtdir; Xalqımız məhz Sizin sayənizdə indi sevinc, zəfər salnaməsinin himni altında qürurla addımlayır; Siz müdrik və uzaqgörən siyasətinizlə Azərbaycan xalqına şərəfli bir tarix yaşatdınız; Müsəlman aləmində sözünü deyən lider meydana çıxdı...”

*Xalq mübarizə meydanında dövlətin ətrafında olduğunu göstərdi*. Qələbini şərtləndirən amillər sırasında xalqımızın milli birliyi, həmrəyliyi də əsas yer tutur. Əks-hücum əməliyyatları başladığı gündən siyasi əqidəsindən, milli mənsubiyyətindən asılı olmayaraq bütün Azərbaycan xalqı yumruq kimi birləşdi. Ölkədə fəaliyyət göstərən siyasi partiyalar da dövlətimizin başçısının ətrafında sıx birləşərək dəstəklərini ifadə etdilər. 50+1 formatında siyasi partiyaların birgə bəyanatı xalq-iqtidar birliyinin təcəssümünün parlaq göstəricisi idi [7, 2020, 4 oktyabr]. Prezident İlham Əliyev xalqa müraciətində bu məsələyə də xüsusi diqqət yönəldərək bildirmişdir: “Əgər bu birlik olmasaydı,

milli həmrəylik olmasaydı, biz heç vaxt torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Bu illər ərzində bizə qarşı aparılan qara piar kampaniyası, qarayaxma, şər-böhtan kampaniyasının da əsas məqsədi o idi ki, bizi əsas vəzifəmizdən uzaqlaşdırsınlar, biz uzaqlaşaq, daxili problemlər içində boğulaq və işğal edilmiş torpaqlar işğalçıların əlində əbədi qalsın. Güclü siyasi iradə, xalq-iqtidar birliyi bu planları da alt-üst etdi" [2, 2020, 12 noyabr].

Azərbaycan xalqı erməni hərbi təxribatlarına cavab verilməsi, işğal altında olan torpaqların azad edilməsi üçün ordumuzun əks-hücum əməliyyatlarını məmnunluqla qarşıladı, Azərbaycan dövlətinin, Azərbaycan Ordusunun yanında olduğunu nümayiş etdirdi. Bütün bölgələrdən ordumuza dəstək gəlirdi. Xalqımız hər gün dövlət başçısı İlham Əliyevin qələbə xəbərini intizarla və səbirsizliklə gözləyirdi. Hər bir zəfər sevinci böyük coşqu ilə qeyd olunurdu. Ölkəmizdə yaşayan bütün millətlərin, dini konfessiyaların nümayəndələri birlik nümayiş etdirirdilər.

Azərbaycan cəmiyyətində hər zaman olduğundan daha böyük milli birlik və siyasi həmrəylik özünü göstərirdi. Cəbhədə şiddətli döyüşlərin getdiyi bir vaxtda siyasi partiya və təşkilatlar, həmçinin ayrı-ayrı tanınmış ictimai-siyasi xadimlər, bütün ziyalılar bəyanat verərək xalqın, dövlətin, ordunun, Ali Baş Komandanın yanında olduqlarını bəyan edir, ümummilli məsələ ətrafında birlik nümayiş etdirirdilər. Müxtəlif idarə və təşkilatlar, ayrı-ayrı vətəndaşlar, hətta xarici ölkələrdə yaşayan soydaşlarımız da xalqımıza, ordumuza dəstək olur, Silahlı Qüvvələrə Yardım Fonduna ianələr edirdilər. Qismən səfərbərliyin elan olunması və bəzi vətəndaşların xidmətə cəlb olunması ilə yanaşı, on minlərlə vətəndaşımız könüllü şəkildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət edərək cəbhəyə yollanmağa hazır olduqlarını söyləyirdilər [2, 2020, 4 oktyabr]. Mərd oğullarımız gülə-gülə, sevinc hissi, valideynlərin xeyir duası ilə cəbhəyə yola düşürdülər. Savaşın ilk günündən sonuna kimi bu vəziyyət davam edirdi.

Müharibənin gedişində xalqımız düşmən qarşısında vahid toplum olmağın, güclü bir yumruğa çevrilməyin yeni bir nümunəsini yaratdı. Xalq öz təpəri ilə mübarizə meydanında, əsgərlərin yanında, dövlətin ətrafında olduğunu göstərdi.

Torpaqlarımızı Ermənistanın işğalından azad etmək üçün başladılan əks-hücum əməliyyatlarını həyata keçirən Azərbaycan Ordusuna dəstək məqsədilə bir qrup iş adamı tərəfindən "Qələbəyə Dəstək Hərəkatı" yaradıldı [2, 2020, 28 noyabr]. 22 şirkət rəhbəri əsgərə yardım yox, "Əsgərə sovqat" adı ilə ay yarım müddətində 6 yük maşını ilə 6 dəfə əsgərlərə sovqat göndərdi. Əsgərlərimizin gündəlik istifadəsi üçün nəzərdə tutulan əşyalar – corab, papaq, isti alt paltarı, əlcək, tibbi ləvazimatlar, dərman preparatları hərbi hissələrə təhvil verilirdi. Məhsullar – hərbi hissələrdən hərbi maşınlarla birbaşa döyüş bölgəsinə göndərilirdi [2, 2020, 7 oktyabr].

Müxtəlif təşkilatlar, kollektivlərin üzvləri əmək haqqından Azərbaycan Silahlı Qüvvələrinin yardım Fonduna vəsait köçürürdülər. Azərbaycan Prezidenti İlham Əliyev və Birinci Vitse-prezident Mehriban Əliyevanın başlatdıqları aksiyaya qoşulanların sayı sürətlə artırdı. Respublika Ağsaqqallar Şurası, Həmkarlar İttifaqları Şurası, "Azərsun Holdinq" Şirkətlər Qrupu, "Azərcell", "Bakcell", bir çox ali təhsil müəssisələri, Azərbaycan Milli Elmlər Akademiyası, təşkilat və müəssisələr, görkəmli elm və mədəniyyət xadimləri, ziyalılar, sadə adamlar, sıravi vətəndaşlar Yardım Fonduna vəsait köçürmüşlər [2, 2020, 7 oktyabr; 3, 2020, 3 oktyabr; 7, 2020, 6 oktyabr].

Döyüşən əsgərləri ruhlandırmaq, onlarla əlaqəni genişləndirmək və dəstək vermək üçün "Əsgərə məktub" aksiyası da çox genişlənmiş, məktəblilər bu sahədə daha fəallıq göstərmişlər.

Tanınmış elm və mədəniyyət xadimləri, müxtəlif kollektivlərin nümayəndələri, dini konfessiyaların üzvləri hərbçilərlə görüşür, onların döyüş ruhunu, vətənpərvərliyini artırmaq üçün söhbətlər edirdilər. Oktyabrın sonlarında Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev və Milli Məclisin deputatı Anatoli Rafailov Goranboy rayonuna səfər etmiş, orada döyüş bölgəsində şücaət göstərən tankçıların bir qrupu ilə görüşmüş, onları Azərbaycan Respublikasının Milli Qəhrəmanı Albert Aqarunov medalı ilə təltif etmişlər. Bu həm tankçılar həm də qonaqlar üçün yaddaqalan olmuşdur [6, 2020, 5 noyabr].

Məlumdur ki, milliyyətcə yəhudi olan Albert Aqarunov birinci Qarabağ müharibəsində könüllü cəbhəyə getmiş, erməni yaraqlıları ilə çox sayda ağır döyüşlərdə qeyri-adi şücaətlər göstərmişdir. O, 1992-ci il mayın 8-də Şuşanın müdafiəsi zamanı qəhrəmancasına həlak olmuşdur [64, s.29].

*Azərbaycan Ordusu misilsiz fədakarlıq nümayiş etdirdi.* Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsində və Qarabağ torpaqlarının işğalına son qoyulmasında, heç şübhəsiz ki, ilk növbədə Azərbaycan Ordusu öz sözünü dedi, misilsiz fədakarlıq nümayiş etdirdi.

Ordu quruculuğuna ulu öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə gəlişindən sonra başlanılmış, Prezident İlham Əliyev isə bu məsələyə daim diqqət yetirmişdir. Hələ 2003-cü ildə andiçmə mərasimindəki nitqi zamanı Prezident İlham Əliyev demişdi: "Azərbaycanda ordu quruculuğu daim mənim diqqət mərkəzimdə olacaqdır. Azərbaycanın çox güclü ordusu olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələrin yerinə yetirilməsinə imkan verəcəkdir" [2, 2003, 16 oktyabr].

Ordu quruculuğu, hərbçilərin maddi-məişət problemlərinin həlli, hərbçilərimizin iş və məişət şəraitinin yaxşılaşdırılması gənc nəslin hərbi vətənpərvərlik ruhunda yetişməsində mühüm rol oynadı. Bütün hərbi şəhərciklərin, hərbi bazalarımızın ən yüksək standartlar səviyyəsində yenidən qurulması, ilk növbədə, hərbçilərimizin döyüş qabiliyyətinin yüksəldilməsi istiqamətində mühüm əhəmiyyətli tədbirlərin keçirilməsi bugünkü qələbəmiz üçün zəmin yaratdı.

Ölkəmiz inkişaf etdikcə dövlət büdcəsində müdafiə xərcləri hər zaman üstün mövqeyə malik olmuşdur. 2003-cü ildən 2018-ci ilədək Azərbaycanın müdafiəsi üçün ayrılan vəsait 15 dəfə artaraq 135 milyon dollardan 3,7 milyard dollara yüksəlmişdir [6, 2020, 25 noyabr].

Respublikamızda 20-dən artıq hərbi təmayüllü zavodun işə salınması, mindən çox adda hərbi təyinatlı məhsulun istehsal edilməsi, müasir hərbi sənaye kompleksinin formalaşdırılması, dünyanın aparıcı silah ixracatçılarından beşinci nəsil silahların alınması ölkəmizin hərbi potensialını xeyli artırmış, qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə imkan yaratmışdır.

Azərbaycan Ordusunun formalaşması və inkişafı onun dünyanın 50 ən güclü ordusu sırasında yer tutmasına gətirib çıxarmışdır. Azərbaycan Ordusunun nəyə qadir olduğunu Ali Baş Komandan belə xarakterizə edirdi: "Ordu quruculuğu mənim fəaliyyətimdə həmişə birinci yerdədir. Hərbçilər də, Azərbaycan xalqı da bunu bilir. Həmişə demişəm ki, ordumuz üçün nə lazımdırsa, biz onu da edəcəyik. Biz güclü, iradəli ordu yaratmışıq. Bizim bütün silahlı birləşmələrimiz müasir standartlara cavab verir və döyüş tapşırığını şərəflə, vicdanla, cəsarətlə yerinə yetirir..." [5, 2020, 13 noyabr].

İkinci Qarabağ müharibəsində əvvəlki döyüşlərdə olduğu kimi, Azərbaycan Ordusunun ilk əks-hücum əməliyyatından başlamış Şuşanın alınmasına qədər olan dövrdə hansı hünərə və döyüş bacarıqlarına malik olduğunu əyani olaraq göstərdi. Rəşadətli Azərbaycan Ordusu 44 gün ərzində bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Yağı tapdağında qalmış yurd yerlərimiz –Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonları, Şuşa şəhəri, Hadrut qəsəbəsi, digər yaşayış məntəqələri, habelə strateji yüksəklikləri müzəffər Azərbaycan Ordusu geri qaytardı.

Füzuli rayonunun, başlıcası isə Şuşa şəhərinin azad edilməsi üçün göstərilən məharət və döyüşkənlik isə xalqımızın hərb tarixində hər zaman böyük bir qürurla xatırlanacaq bir şücaətdir. Azərbaycan Ordusunun mətin övladları əsl qəhrəmanlıq, mərdlik, şücaət, rəşadət nümunəsinə çevrildi. Düşmənin 30 ildə qurduğu, milyonlarla vəsait sərf etdiyi nəhəng istehkamlar qısa müddətdə darmadağın edildi, ordumuzun tətbiq etdiyi müharibə strategiyası müasir dövr hərb tarixinə qabaqcıl nümunə kimi həkk olundu.

Azərbaycan Ordusunun uğurlu fəaliyyətini xarakterizə edən Ali Baş Komandan demişdir: "Həm peşəkarlıq, həm təlim, həm döyüş qabiliyyəti, ən başlıcası mənəvi döyüş ruhu, əlbəttə ki, Azərbaycan Ordusunun texniki təchizatı da çox cəhətdən bizim uğurumuza kömək edib" [6, 2020, 5 noyabr].

Azərbaycan Ordusunun uğurlu əməliyyatları nəticəsində düşmənin çoxsaylı texnikası, silah-sursatı, silah anbarları, artilleriyası, raket silahları, komanda-idarəetmə məntəqələri, zenit-raket kompleksləri, canlı qüvvəsi ya məhv edilmiş, ya da qənimət kimi ələ keçirilmişdir.

Rəşadətli Azərbaycan Ordusu döyüşlərdə hərb tarixinə yenilik kimi düşən strategiyanın tətbiqi ilə ən müasir silahlardan istifadəyə xüsusi önəm verdi. Nəticədə həm sürətlə irəlilədi, işğal altındakı ərazilərimizi yağılardan təmizlədi, həm də düşmənin bütün hərbi texnikasını darmadağın etdi, canlı qüvvəsinə ciddi zərbə vurdu.

Müasir texnoloji silahlar Silahlı Qüvvələrimizin güc alətlərindən yalnız biri idi. Müharibənin taleyini müəyyənləşdirən başda Ali Baş Komandan İlham Əliyev olmaqla, döyüş meydanında əsl qəhrəmanlıq göstərən Azərbaycan əsgəri və onun cəsur komandirləri idi.

Dövlət başçısı İlham Əliyev döyüş meydanında əldə edilmiş bütün zəfərlərin başlıca qəhrəmanı kimi Azərbaycan əsgəri və zabiti olduğunu qeyd edirdi: "Mən bunu artıq bir neçə dəfə demişəm, bu qələbəni qazanan bizim texniki vasitələr yox, əsgər və zabitlərimizdir. Onlar torpağımızı düşməndən qarış-qarış azad edə-edə bu Qələbəni, bu Zəfəri xalqımıza nəsib etdilər. Ona görə bu qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir, Azərbaycan zabitidir və hər kəs bunu bilməlidir" [2, 2020, 27 noyabr].

Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən imzalanan birgə Bəyanatla otuz ildən artıq davan edən münaqişəyə, Azərbaycan torpaqlarının işğalına son qoyuldu, ərazi bütövlüyü bərpa olundu.

Beləliklə, dövlət, xalq və ordu birliyi qarşıya qoyulmuş məqsədi təmin etdi. Lakin bu birlik o zaman güclü olur ki, ona güclü lider rəhbərlik etsin. Bu mənada, bu gün Azərbaycan xalqının böyük coşqu ilə qeyd etdiyi qələbəmizin baş qəhrəmanı Ali Baş Komandan, Ölkə Prezidenti İlham Əliyevdir. Xalqımızın, dövlətimizin birliyi, Ordumuzun peşəkarlığı, xalqımızın dəstəyini qazanması, dövlət başçısına inam qələbəmizi təmin etdi.

*Nəticə*. Azərbaycan Ordusunun sentyabrın 27-də işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı başladığı əks-hücum əməliyyatı ölkəmizin tam qələbəsi və düşmənin kapitulyasiyası ilə nəticələndi. Bununla da Vətən müharibəsi başa çatdı. Azərbaycan bu döyüşdə parlaq qələbə qazandı, işğal altındakı torpaqlarımızı yağılardan təmizlədi. Müzəffər ordumuzun hər bir əsgəri, hər bir zabiti müharibədə qəhrəmancasına döyüşdü, düşmənin torpaqlarımızdan qovulmasında müstəsna xidmətlər göstərdi, yaralandı, öz həyatlarını risk altına atdı, lakin məqsədi uğrunda inadından dönmədi, əzmlə, cəsarətlə zəfər yürüşünü son nəticəyə qədər davam etdirdi.

Beləliklə, Ermənistanın və onun havadarlarının işğala və tədricən Azərbaycan ərazilərinin ilhaqına əsaslanan planları alt-üst oldu. Regionda Azərbaycanın maraqlarına cavab verən yeni siyasi reallıq yarandı. Nəticədə Azərbaycan vətəndaşlarının otuz ilə yaxın davam edən torpaq həsrətinə son qoyuldu. Prezident İlham Əliyev nəyi, necə və nə vaxt etməyi özünün yaxşı bildiyini bir daha nümayiş etdirdi. Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və ordumuzun rəşadəti sayəsində Vətən savaşı zəfərlə başa çatdı.

## ƏDƏBİYYAT

1. "Azad Azərbaycan" qəz., 2020, sentyabr-dekabr.
2. "Azərbaycan" qəz., 2020, sentyabr-dekabr.
3. "525-ci qəzet", 2020, sentyabr-dekabr.
4. Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları. Sumqayıt: "Dərələyəz-M", 2010, 288 s.
5. "Hərbi and" qəz., 2020, 13 noyabr.
6. "Xalq qəzeti", 2020, sentyabr-dekabr.
7. "İki sahil" qəz., 2020, sentyabr-dekabr.
8. "Olaylar" qəz., 2020, sentyabr-dekabr.
9. "Şərq qapısı" qəz., 2020, sentyabr-dekabr.
10. "Zəfər qalası" qəz., 2020, sentyabr-dekabr.

**ISMAYIL HAJIYEV**

## THE UNITY OF PEOPLE-PRESIDENT-ARMY AS A KEY FACTOR OF VICTORY IN PATRIOTIC WAR

The article provides information about the occupation of Nagorno-Karabakh and seven regions of Azerbaijan by Armenians for about 30 years, repeatedly committing provocations and making new territorial claims against Azerbaijan. In one of such provocations, the Azerbaijani army counterattacked and pushed back the Armenian army, thus the Second Karabakh War - the Patriotic War started. As the main factor of victory in the war, the unity of the People-the President-Army was shown, historical facts and events were summarized and concluded.

*Keywords*: Second Karabakh war, occupation, people, President, army, victory.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 4 dekabr 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2020-ci il.*
*Məqalə Redaksiya heyətinin qərarı ilə çapa məsləhət görülüb.*

QARABAĞ AZƏRBAYCANDIR!

**UOT 94 (479.24)**

**İBRAHİM ZEYNALOV**
*Bakı Dövlət Universitetinin professoru,*
*tarix elmləri doktoru*
**E-mail: ibrahimzeynalov@bsu.edu.az**

# TERROR AKTLARI: BƏŞƏRİYYƏTƏ, İNSANLIĞA QARŞI ÇEVRİLMİŞ CİNAYƏT

*Elmi məqalədə bəşəriyyətə, insanlığa qarşı çevrilmiş terror hərəkatlərindən, cinayət aktlarından, onların həyata keçirilməsinin üsullarından, amansız nəticələrindən bəhs edilir.*

*Elmi məqalədə ilk növbədə terror, terrorçu, terror fəaliyyəti, terrorizmin nə dəmək olması, terrorizmə qarşı mübarizə üsullarından, vandalizm məsələlərindən bəhs olunur. Burada, həmçinin dünyanın ən böyük terrorçu təşkilatlarından və nəhayət erməni terror təşkilatları və onların dünyanın bir çox ölkələrində, o cümlədən Azərbaycanda son 50-60 ildə törətdikləri terror və soyqırımı, etnik təmizləmə və digər cinayətlərindən geniş danışılır.*

*Elmi məqalədə erməni terrorçularının, xüsusilə son 30 ildə Azərbaycanın şəhər və qəsəbələrində nəqliyyat marşrutlarında və s. sahələrdə törətdikləri cinayət aktlarından, ölkəmizin tarixi mədəniyyət abidələrimizə qarşı həyata keçirdikləri vandalizmdən, həmçinin 44 günlük müharibə müddətində erməni silahlı qüvvələrinin qadağa edilmiş raketlərlə Gəncə, Bərdə, Tərtər və digər şəhərlərimizi atəşə tutmasından və onun ağır nəticələrindən bəhs edilir.*

*Açar sözlər*: terror, terrorçu, terrorçuluq, terrorizm, vandalizm, Əl-Qaidə, Taliban, ASALA, soyqırım, etnik təmizləmə.

*Giriş.* Dünya ağ dəftərə bənzəyir, hər bir xalq, millət öz əməlləri, davranış psixologiyası, yaşadıqları, yaratdıqları mədəniyyət və mənəvi xüsusiyyətləri, ömürlə bu dəftərə "avtoqraf" qoyaraq tanınır. Görəsən ermənilərin "avtoqraf"larına nə yazılıb? Yəqin ki, bu sözlər yazılıb: ikiüzlülər, riyakarlar, haramzadələr, kələkbazlar, yalançılar, millətçilər, təcavüzkarlar, xəyanət etməyi sevənlər, terroristlər və s.

Terror – fiziki, zorakılıq, siyasi rəqiblərini dinc, mülki əhalinin xüsusi amansızlıqla qətlə yetirilməsi, mülki obyektlərin, dini, mədəni ocaqların, mədəniyyət abidələrinin dağıdılması məqsədlərinə xidmət edən cinayət tərkibli hadisədir, aksiyadır.

Terrorçu – hər hansı formada terror fəaliyyətini həyata keçirən və ya keçirilməsində iştirak edən şəxs və ya dövlət nəzərdə tutulur. Terrorçu dövlət dedikdə həmin dövlətin başçısının və hökumət rəhbərinin göstərişi əsasında terror aktının həyata keçirilməsi nəzərdə tutulur (məsələn: Ermənistan hökumət və dövlət başçısı – N.Paşinyan) (18, s.982-983).

Terrorçuluq cinayətkarlığın, qəddarlığın ən təhlükəli formalarından biridir. Terrorizm siyasi, dini, ideoloji, iqtisadi məqsədlərə çatmaq üçün beynəlxalq qanunun norma və prinsiplərinə, insanlığa və bəşəriyyətə zidd olan qeyri-qanuni zorun, gücün, qəddarlığın, hədənin tətbiq olunması formasıdır.

Terror fəaliyyəti – terror aksiyalarını təşkil etmə, planlaşdırma, hazırlanma və həyata keçirilmə, mülki və maddi obyektləri, mülki, dinc insanları məhv etmə və ya zədələmə, ziyan vurma, terror aksiyalarının həyata keçirilməsi məqsədilə qanunsuz, beynəlxalq hüquq normalarına zidd olan qanunsuz silahlı birləşmələr, cinayətkar qruplar yaratma, aksiyalarda iştirak etmə, bilərəkdən terror təşkilatlarını maliyyələşdirmə, yardım etmə ilə bağlı olan fəaliyyətdir.

*Bəs terrorizm nə deməkdir*? İctimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq və ya dövlət hakimiyyət orqanları tərəfindən terrorçuların maraqlarına cavab verən qərarların qəbul edilməsinə nail olmaq məqsədilə insanların kütləvi surətdə çıxarılmasına, onlara bədən xəsarətləri yetirilməsinə, yaxud səhhətinə başqa cür zərər vurulmasına və ya onların əmlakının məhv edilməsinə və ya digər ağır nəticələrə səbəb olan əməllər törədilməsi və ya bu cür əməllərin törədilməsinə yönəlmiş fəaliyyətdir.

"Terrorizmə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun 1-ci maddəsinə əsasən terrorizm dedikdə ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq

və ya dövlət hakimiyyəti orqanları tərəfindən terrorçuların maraqlarına cavab verən qərarların qəbul edilməsinə nail olmaq məqsədilə insanların kütləvi şəkildə qırılması, onlara bədən xəsarəti yetirilməsi, habelə başqa ağır nəticələrə səbəb olan əməllərin törədilməsi başa düşülür.

Terrorizmə qarşı mübarizədə bunlar nəzərdə tutulur: terror fəaliyyətinin aşkar edilməsi, qarşısının alınması, terror nəticəsində vurulan zərərin minimuma endirilməsi ilə bağlı fəaliyyət.

Terrorizmə qarşı mübarizə aşağıdakı məqsədlərlə həyata keçirilir: İnsan hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin təhlükəsizliyinin təmin edilməsi; terrorizmin aşkar edilməsi, qarşısının alınması, və terrorizm nəticəsində gözlənilən zərərin minimuma endirilməsi; terrorizmin yaranması və həyata keçirilməsi səbəbinin və şəraitinin aşkar edilməsi və ləğv edilməsi.

Vandalizm – mədəni və maddi sərvətlərin, mülki əmlakın, obyektlərin və digər qurğuların, obyektlərin məhv edilməsi və ya zərər verilməsidir ki, burada göstərilən aktlar Gəncədə erməni terrorçu qrupunun dövlət səviyyəsində həyata keçirdiyi cinayətdə özünü tam şəkildə göstərdi.

Onu da qeyd edək ki, beynəlxalq hüquq norma və prinsipləri və onun əsas müddəaları terror aktının həyata keçirilməsini göstərməklə, həm də qadağan edir. Terror aktlarının bütün növləri insan hüquqlarını qoruyan, müdafiə edən bütün konvensiyalarda, o cümlədən 1949-cu il Ümumdünya insan hüquqları bəyannaməsində qəti şəkildə pislənir. Terrorçuluğa qarşı müxtəlif cəza tədbirləri müəyyənləşdirilmişdir (qınaq, sanksiya və s.). Bu sahədə BMT TŞ-nın, Avropa İnsan Hüquqları Məhkəməsi, Beynəlxalq Cinayət Məhkəməsi və s. fəaliyyətində terrorizmə qarşı cəza tədbirləri başlıca təsir vasitəsidir.

Dünyanın ən tanınmış terror təşkilatları sırasında ermənilərin terrorçu təşkilatları və qrupları da xüsusi yer almışdır. Azərbaycan xalqı 200 ildən artıqdır ki, davamlı olaraq erməni terrorçularının qətliamlarına, millətçi erməni şovinistlərinin etnik təmizləmə, soyqırımlarına məruz qalmış, müsəlman - türk əhalisi, günahsız insanlar - qocalar, qadınlar, uşaqlar, hətta hamilə qadınlar insanlığa sığmayan amansızlıqla, qəddarlıqla qətlə yetirilmişdir.

Ermənilərin tarixində son iki əsrin təcrübəsi, hadisələri, faktları göstərdi ki, Ermənistan ən qorxulu terrorçu ölkədir. Fransız səyyahı qraf De Şole yazırdı ki, Ermənilərin yoxsulluğu və əzab-əziyyət çəkməsi məndə onlara qarşı böyük rəhm yaratmasına baxmayaraq, onların haramzadəliyi, kələkbazlığı, xəyanətkarlığı o dərəcə biabırçı, o qədər hiddətləndirici idi ki, mən heç vaxt onlara bağlana bilmədim. Digər bir fransız mütəfəkkiri A.Düma (Ata) isə qeyd edirdi ki, Ermənilər həmişə başqa dinə qulluq edən hökmdarların hakimiyyəti altında olmuşlar. Nəticədə öz fikir, niyyət və duyğularını gizli saxlayan hiyləgər və kələkbaz adamlara, qəddarlara, rəhimsizlərə çevrilmişlər.

Roma tarixçisi Tatsit yazırdı ki, bu xalq istər xasiyyətinə, istərsə də coğrafi vəziyyətinə görə qədimdən ikiüzlü və riyakardır: Bunlar daima romalılara nifrətdən, parfiyalılara isə həsəddən az qala partlayırdılar (18, s.35; 37-39; 44).

Alman alimi Kolmer yazır ki, "Demək olar ki, bu əyalətlərdə xalqın əsas kütləsi ilə əlaqəsi olan hər bir kəs türklərə hörmət etməyi və onları sevməyi, yunanları alçaltmağı, ermənilərə nifrət etməyi və onlara həqarətlə baxmağı öyrənir...Mən bir türklə iş barəsində şərtləşəndə, yazılı müqavilə bağlamadan da kifayətlənirəm, çünki o, söz verdi qurtardı. Ermənilərlə isə, yazılı surətdə də heç bir iş görmürəm, ona görə ki, onların yalançılığı, xəyanətkarlığı və fitnə-fəsadları hətta yazılı şərti poza bilər". Daha yüzlərlə müəlliflər, mütəfəkkirlər, görkəmli şəxslər erməni davranış və mənəvi psixologiyasını, onların nəyə qadir olduqlarını, xəyanətlərini, satqınlıqlarını, şovinistliyini və s. mənfi, insanlıqdan çox-çox uzaq olan xüsusiyyətlərini, xislətlərini öz əsərlərində ifadə etmişlər (18, s.35; 37-39; 44).

XIX əsrin tarixçisi R.Q.Butkov qeyd edirdi ki, "I Pyotr ölümündən qabaq 10 noyabr 1724-cü ildə üç erməni katolikosunu qəbul edir. "Ermənilərə əl tutmaq və Xəzəryanı əyalətlərdə yerləşdirmək" barədə onların xahişini dinləyir. Elə o vaxtdan I Pyotr ermənilərin rusların işğal etdikləri Azərbaycan və digər türk ərazilərində yerləşdirilməsi haqqında fərman və general-leytenant Matuşkinin və briqadir Levaşovun adına buyruq verir".

N.S.Vartapetov: "Ermənilər xristian bayrağı altında silahlanaraq bütün zamanlarda tarixi Azərbaycanın və onun ayrılmaz hissəsi olan Qarabağın əhalisinə qarşı qırğınlar və talanlar törətmişlər. Onlar bir vaxtlar tarixi şəraitdən məharətlə istifadə edərək Bizans imperiyasına, İran

sasanilərinə, Ərəb xilafətinə və monqollara xidmət etdikləri kimi, sonralar Səfəvilərə, daha sonra Rus imperiyasına xidmət etmişlər. Özlərinin dövlətləri, idarəçiliyi, tanınmış ərazi bölgəsi olmayıb" (24).

Hətta A.Hitler də deyirdi: "Üç dəfə başqa dövlətə xəyanət etmiş ermənilər, dördüncü dəfə də bizə xəyanət edərlər". İkiüzlü, yaltaq erməni nijdeləri, paşinyanları, sarkisyanları, köçəryanları... almanlara, fransızlara, ruslara, hollandlara və s... yol tapa bilmək "bacarığına" malikdirlər. Bu "bacarıq", "keyfiyyət" isə, həmişə sonda onların ifşa olunmasına gətirib çıxartmışdır.

V.L.Veliçko - rus müəllifi yazırdı: "Erməni qadınları digər xalqlarla zorla, məcburən də olsa əlaqədə olmuşlar. Dövlətini və şərəfini çoxdan itirmiş erməni qadınları ilə münasibətlərdə İran əsgərləri, türklər, gürcülər və dağlılar, görünür heç bir ədəb-ərkan gözləməmişlər. Bu səbəbdən ermənilərin damarlarından hər cür qan axır".

V.Veliçko "Qafqaz, rus mənafeyi və xalqlararası problemlər" adlı kitabında yazırdı: "Ermənilər barədə hələ qədim zamanlardan mənfi fikirlər formalaşıb ki, bunun da əsası var. Belə olmasaydı, müxtəlif zamanlarda, müxtəlif vaxtlarda ermənilər haqqında bu cür fikirlər formalaşmazdı. Ermənilərin zəhlətökənliyi, fırıldaqçılığı, eybəcərliyi, biabırçı alçaqlığı, satqınlığı və xəyanətkarlığı var.

Bu gün dünyada fəaliyyət göstərən, müxtəlif terror aksiyalarını həyata keçirən böyük terror təşkilatları var. Onlara misal olaraq:

1. Məhəmməd Yusif tərəfindən 2002-ci ildə Nigeriyanın Borno ştatında yaradılan terror təşkilatları (şəriət tərəfdarları islamçılardan ibarətdir), Kəşmiri Hindistanının işğalından azad etmək üçün Pakistanın dəstək verdiyi və 1990-cı ildə qurmuş olduğu (məqsədləri İslamı yaymaqdır) təşkilatı, Kolumbiyada Fars təşkilatı (məqsədləri silahlı hərəkətlərə başçılıq etməkdir, mənası Xalq Qoşunu deməkdir, 1980-ci ildən kokain ticarətinə girişmişdir);

2. 1980-ci ildə Usame Bin Laden tərəfindən yaradılan Əl-qaidə təşkilatı (Əl-qaidənin törətdiyi aktlar dünyanın ən qanlı və ən məşhur terror aktlarının başında gəlir). Yüksək səviyyəli intihar hücumları və xüsusilə Dünya Ticarət Mərkəzinə (ABŞ-da) hücumla dünyaya adlarını tanıtdılar. 19 il əvvəl 11 sentyabr 2001-ci ildə bu təşkilat ABŞ-ın Nyu-York və Vaşinqton şəhərlərində iri miqyaslı terror hadisəsi törədib. Terror aktının həyata keçirilməsi nəticəsində çox böyük dağıntı, qüllələrin çökməsi ilə yanaşı 3 minə yaxın sadə, dinc insanlar ölmüş, 6 mindən çox insan yaralanmışdır.

3. Tanınmış terror təşkilatlarından biri də Əfqanıstanda yaradılmış Taliban hərəkatçılarıdır. Bu təşkilatının əsası Sovet-Əfqanıstan müharibəsi zamanı (1978-1989-cu illər) qoyulmuşdur. Talibançıların ən təsirli terror aksiyalarından biri 2007-ci ilin yayında 700 əfqan polisinin öldürülməsi ilə nəticələnmişdir (24).

Dünyada ən çox terrora məruz qalan ölkələr:

Mərkəzi Avstraliyadakı İqtisadiyyat və sülh institutunun 2020-ci il Qlobal Terrorizm indeksinə görə, 2018-ci ildə olduğu kimi, 2019-cu ildə də, Əfqanıstan ən çox terror törədilən ölkə olub. Terror nəticəsində dünya üzrə ölən 13.826 nəfərin 41 faizi -5.725 nəfər Əfqanıstanda ölüb. 6221 nəfərin yaralanması da bu ölkənin payına düşür. 163 ölkənin adının yer aldığı indeksdə göstərilir ki, ən ölümcül 20 terror hadisəsindən 7-si Əfqanıstanda baş verib.

Çoxsaylı ölümlərin baş verdiyi bu terror hadisələrindən 5-ni dünyanın ən ölümcül terror təşkilatı kimi tanınan Taliban qruplaşması, 2-ni isə digər terror təşkilatlarının həyata keçirməsi qeyd olunub.

Hazırda indeksə görə, siyahıda 10 ölkə adı - Əfqanistan, İraq, Nigeriya, Suriya, Somali, Yəmən, Pakistan, Hindistan, Konqo Demokratik Cümhuriyyəti və Filippin yer alıb.

Qeyd edək ki, bu indeksdə Türkiyə 18-ci, ABŞ 29-cu, İngiltərə 30-cu yerdə qərarlaşıb. Bundan əlavə, Avropa qitəsində ən çox terrora məruz qalan ölkə kimi Türkiyənin adı çəkilib.

*Erməni terrorizmi.* Erməni terrorçuluğunun coğrafiyası o qədər genişlənib ki, onun qatı, cinayətkar terror dövləti olduğunu artıq bütün dünya ölkələri də qəbul etməyə məcbur olublar. Dünyanın əksər ölkələrində (100-dən çox dövlətdə) və elə Ermənistanın özündə terror təşkilatlarının düşərgələri yaradılıb. Elmi araşdırmalar beynəlxalq terrorizmin tərkib hissəsi olan erməni terror təşkilatlarının, qruplarının tarixinin XIX əsrin ortalarından başladığını göstərir.

İlk öncə diqqətimizi Erməni terror təşkilatlarının dəhşətli və qanlı cinayətlərlə tamamlanan hərəkətlərinə cəlb etmək istəyirəm.

Erməni terror təşkilatları:

1.“Armenakan” partiyası: 1885-ci ildə yaradılıb. Türkiyənin Van, Muş, Bitlis,Trabzon bölgələrində və İstanbulda silahlı toqquşmalar və terror aktları törədib. İran və Rusiyada yaşayan ermənilərlə daha sıx əməkdaşlıq edir.

2.“Hnçak” partiyası: 1887-ci ildə Cenevrədə yaradılıb. Onun əsas məqsədi Türkiyənin Anadolu bölgəsini, “Rus və İran” Ermənistanı adlandırdıqları ərazilərlə birləşdirməklə “Böyük Ermənistan” dövləti yaratmaqdır. Partiyanın proqramının dördüncü bəndində göstərilir: “Qarşıya qoyulan məqsədə çatmaq üçün təbliğat, təşviqat, terrorizm və dağıdıcı təşkilat yaradılması metodu seçilməlidir”.

3."Daşnaksütyun" - Erməni federativ inqilab partiyası: 1890-cı ildə Tiflisdə yaradılıb. Əsas qayəsi Azərbaycanın Dağlıq Qarabağ, Naxçıvan və Türkiyənin Anadolu torpaqlarında "Böyük Ermənistan" dövləti qurmaqdır.

4.“Erməni gizli azadlıq ordusu” (ASOA).

5. "Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu" (ASALA): 1975-ci ildə yaradılan təşkilatın qərargahı Beyrutda, təlim-məşq bazaları isə Suriyada yerləşir. Təşkilatın məqsədi Şərqi Türkiyə, Şimali İran və Azərbaycanın Naxçıvan və Dağlıq Qarabağ əraziləri üzərində "Böyük Ermənistan" qurmaqdır. ASALA əsasən Türkiyə və Azərbaycan vətəndaşlarına qarşı terror aktları həyata keçirir.

ASALA 1980-ci ilin aprelində birgə terror aksiyalarının keçirilməsinə dair PKK ilə razılığa gəlmiş və bu niyyətlərini Livanda rəsmiləşdirmişlər. Beyrut şəhərində 28.08.1993-cü ildə açıqlanan bəyanatında ASALA "pantürkist neft borusu" (Bakı-Tbilisi-Ceyhan) ilə bağlı layihənin həyata keçirilməsinə imkan verməyəcəyini bildirmişdir. ASALA tərəfindən yaradılmış və ya onunla əməkdaşlıq edən erməni terror şəbəkəsi mövcuddur:

1."Geqaron": 2001-ci ilin fevralında ASALA tərəfindən yaradılmışdır. Məqsəd Cənubi Qafqaz və Orta Asiya ərazilərində türk məşəli siyasi lider, diplomat və biznesmenlərə qarşı terror aktlarının keçirilməsidir.

2."Erməni azadlıq hərəkatı" (AOD): 1991-ci ildə Fransada yaradılıb. Terror fəaliyyətini ASALA ilə sıx əlaqədə həyata keçirir.

3. "Erməni azadlıq cəbhəsi": 1979-cu ildə yaradılan bu terror təşkilatı ASALA-nın tərkib hissəsi sayılır. Türkiyə və Azərbaycan əleyhinə terrorçular hazırlayır.

4. "Orli qrupu": 1981-ci ildə Fransada yaşayan erməni gəncləri tərəfindən yaradılıb. Təşkilat 1987-ci ilədək dünyanın müxtəlif hava limanlarında 10-dan artıq terror aktı həyata keçirib.

5. "Erməni soyqırım ədalət komandosları": 1972-ci ildə Vyanada "Daşnaksütyun" partiyasının qurultayı zamanı yaradılıb. Məqsədi erməni əsilli gənc Livan vətəndaşlarını hərbi birləşmələrdə cəmləşdirmək, türklər və azərbaycanlılara qarşı qanlı terror aksiyaları təşkil etməkdir.

6. "Erməni birliyi": 1988-ci ildə Moskvada yaradılmışdır. "ASALA" ilə sıx əlaqələri vardır, keçmiş sovet məkanında terrorçuların fəaliyyəti üçün onları saxta sənədlərlə təmin edir. Dağlıq Qarabağa silah və muzdluların ötürülməsində iştirak edir.

7. “Demokratik cəbhə": ABŞ, Kanada və Qərbi Avropada fəaliyyət göstərir. Başlıca məqsədi türk dövlətinin parçalanmasıdır.

8. “Apostol": 2001-ci il aprel ayının 29-da əsasən Ermənistan, Suriya və Livan vətəndaşlarından ibarət olan Ermənistan Müdafiə Birliyi tərəfindən yaradılmışdır. Təşkilatın məqsədi Türkiyə və Azərbaycan ərazilərində terror aktları həyata keçirməkdir (24).

“Erməni terrorizm” terminindən ilk dəfə ABŞ-da 1982-ci il avqust ayında nəşr olunan ABŞ Dövlət Departamentinin aylıq bülletenində rəsmi olaraq istifadə edilib.

XIX əsrin 80-cı illərinin sonu - XX əsrdə və XXI əsrin əvvəllərində (ilk iki onilliyində) erməni terror təşkilatları, ilk öncə “Daşnaksütun”, “Erməni ittifaqı”, “ASALA” və digərləri Azərbaycanda və Türkiyədə dəhşətli terror aktları törətmişlər. Nəticədə on minlərlə günahsız, dinc insanlar amansızlıqla qətlə yetirilmişdir. Minlərlə mülki obyekt, yaşayış binaları, istehsal müəssisələri dağıdılmış, yararsız vəziyyətə salınmışdır (22).

Həmçinin erməni terror təşkilatları Türkiyə və Azərbaycanın ictimai-siyasi xadimlərinə qarşı da amansız terror aktları törətmişlər. Bu baxımdan "Daşnaksütyun" erməni terror təşkilatının törətdiyi cinayət aktları daha dəhşətli olmuşdur. Hələ 1892-ci ildə Tiflisdə ilk qurultayını keçirən bu terror təşkilatı müsəlman – türk əhalisinə qarşı amansız olmaqları və onlara qarşı müxtəlif xarakterli terror və sui-qəsdlər təşkil edəcəkləri barədə qərar qəbul etmişlər. XIX əsrin 90-cı illərin sonlarından başlayaraq "Daşnaksütyun"un fəaliyyəti daha dəhşətli xarakter alır. Hətta bu təşkilat "türkü hər yerdə, hər bir şəraitdə çəkinmədən öldür, sözündən dönənləri, erməni xainlərini də öldür, intiqam al!" əmrini vermişdir.

Sədi Şirazi özünün "Divan"ında yaxşı deyir: "Erməni yer üzünün Əhrimani, insanlığın düşmənidir, düşməni".

1918-1920-ci illərdə erməni terrorçu dəstələrə Andronik, Amazasp, Hayk, Dro, Nijde və digərləri başçılıq edirdi. Bakıda, Şamaxıda, Qubada, Xaçmazda, Lənkəranda, Salyanda və Azərbaycanını digər bölgələrində soyqırımı və terror aktlarını erməni terrorçu dəstələri ilə birlikdə daşnak S.Şaumyanın başçılıq etdiyi 20 minlik bolşevik hərbi qüvvələri həyata keçirirdi.

Bakı şəhərində türk-müsəlman əhalisinə qarşı soyqırımı 1918-ci il martın 30-da başladı və 3 gün davam etdi. Daşnak - bolşevik terrorçu dəstələri müsəlmanların evlərinə soxulur, sakinləri öldürür, onlara ağır işgəncələr verir, uşaqları yanan evlərin içinə atır, körpə uşaqları süngülərin ucuna keçirir, hər cür vəhşiliklərə, insanlığa yad olan cinayətlərə əl atırdılar (22).

Onlar insanlıqlarını, vicdanlarını itirmiş, vəhşiləşmiş canavarlara çevrilmişdilər. Bu ağır cinayətlərdə, soyqırımı əməliyyatlarında N. Anançenko, Suren Şaumyan, Ovçiyan, Qalstyan, Sarkis, Qaber-Kori, Artak, Manuçarov, Akopov və digər azğınlaşmış "qırmızı qvardiyaçılar" da fəal iştirak edirdilər (16).

Martın 30-aprelin 1-i müddətində (üç gün ərzində) davam edən Bakı qırğınlarında Fövqəladə istintaq komissiyasının ümumiləşdirdiyi hesabata görə, 12 min nəfər dinc əhali amansızlıqla qətlə yetirilmişdi, ictimai binalar, insanların şəxsi mülkləri məhv edilmiş, yarasız vəziyyətə salınmışdı. Qırğın zamanı daşnaklar müsəlman qadın və uşaqlarla daha qəddarcasına davranırdılar. Onların qulaqlarını, burunlarını, barmaqlarını kəsirdilər. Qarınları yırtılmış 57 qadın cəsədi tapılmışdı. Çoxlu sayda cavan qadın və qızları diri-diri divara mıxlamışdılar (19, s.35; 37-39; 44).

Bakı qırğını ilə bağlı S.Şaumyan 13 aprel 1918-ci ildə rəsmi hesabatında yazırdı: "Biz buna şüurlu şəkildə yol verdik... Biz bu döyüşlərdə parlaq qələbə qazanmışıq. Düşmən tamamilə darmadağın edilmişdir. Daşnaksütyun partiyasının köməyi ilə müsəlman "əksinqilabı" ləğv edilmişdir... Əgər müsəlman "əksinqilabi qalib gəlsəydi, Bakını Azərbaycanın paytaxtı elan edərdi və Zaqafqaziya Rusiya üçün itirilmiş olardı" (18, s.982-983). Bəlkə Anar m.- 16

Müasir-hazırki zaman üçün nəticə çıxartmaq olar, Rusiya nə istəyir?...

Erməni terrorçusu təşkilatın-Daşnakçıların qırğın siyasəti Bakıdan sonra Şamaxıda, Qubada, Lənkəranda, Salyanda və digər müsəlman - türk əhalisinin yaşadığı ərazilərdə də həyata keçirildi. Təkcə Şamaxı qəzasında 72 kənd yandırıldı, 7 min nəfərdən çox müsəlman-türk əhalisi qətlə yetirildi. Onlardan 1653 nəfəri qadın, 965 nəfəri uşaq idi (6).

Azərbaycan Xalq Cümhuriyyətinin Milli Hökuməti tərəfindən erməni-daşnak-bolşevik qüvvələrinin Bakıda və Azərbaycanın digər şəhər və kəndlərində törətdikləri cinayətləri araşdırmaq üçün 1918-ci il iyulun 15-də Fövqəladə Təhqiqat Komissiyası yaradıldı. Komissiyanın Azərbaycan ərazisində erməni terrorçularının cinayət tərkibli əməllərini sübut edən sənədlərdən ibarət toplu 36 cilddən ibarət idi.

Bakının kərpicxana adlanan hissəsində yerləşən 4-cü evdə erməni terrorçularının törətdiyi cinayəti çəkmək üçün gəlmiş fotoqraf V. Sokolov evdə talandan sonra yaranmış mənzərədən dəhşətə gələrək yazırdı: "...otağın döşəməsi üstündə 22-23 yaşlı bir qadının, 2 qoca qarının, 9 yaşlı qızın, 8 yaşlı oğlanın və bir südəmər körpənin meyidi qalmışdı. Körpənin əl-ayağını itlər gəmirib yemişdi" (9).

Quba qəzasında isə erməni quldurları 12 min nəfəri amansızlıqla qətlə yetirmiş və 122 müsəlman kəndini dağıtmış və yandırmışdır. Ümumiyyətlə, 1918-ci ilin mart-aprel aylarında bolşevik-daşnak hərbi dəstələri tərəfindən Azərbaycanın əsas bölgələrində 50 min nəfərdən çox müsəlman-türk əhalisini xüsusi amansızlıqla məhv etmişdir.

Bununla belə o zaman erməni terroristləri insanlığa-bəşəriyyətə kökündən zidd olan soyqırım siyasətini həyata keçirmiş və XX əsr boyu, onlar bu siyasətlərini bəşəriyyətin gözü qarşısında həyata keçirməkdə davam etmişlər və getdikcə də, onlara dur deyilmədikcə də, daha da azğınlaşmışlar (8).

Deməli, hələ 1918-1920-ci illərdə şaumyançı erməni daşnak qüvvələri Azərbaycanın müxtəlif bölgələrində kütləvi qırğınlar, qətliamlar törətməklə bəşər tarixində misli görünməmiş soyqırıma imza atmışlar. Yalnız 1918-ci ilin sentyabrında Nuru Paşanın başçılıq etdiyi qardaş türk ordusunun Bakıya gəlməsi ilə qırğınların qarşısı alınmışdır.

Andranik - ermənilərin "milli qəhrəman" adlandırdıqları terrorçu - cəllad öz quldur dəstələri ilə Eçmiədzinə soxularaq yerli müsəlman-türk əhaliyə divan tutmuş, 84 kəndi həmçinin Zəngəzurda 115, İrəvan quberniyasında 221, Yeni Bəyaziddə 84, Süzmalidə 75 yaşayış məntəqəsini tamamilə yandırıb yox etmişdir (7). 1919-cu ilin yazında erməni terrorçu quldur dəstələri tərəfindən Göyçə mahalında 60 min sakini olan 22 kənd yandıraraq dağıdılmışdır.

Araşdırmalar göstərir ki, 1920-ci il bolşeviklərin Aprel işğalından sonra, məhz ermənilərin fitvası və yaxından iştirakı ilə Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli siyasi xadimlərindən Fətəlixan Xoyski, Nəsib bəy Yusifbəyli, Xəlil bəy Xasməmmədov, Həsən bəy Ağayev vəhşicəsinə qətlə yetirilmişdir.

Erməni terrorçuları müxtəlif vaxtlarda Romada, Berlində, Tiflisdə, Buxarada və digər şəhərlərdə tanınmış türk ictimai siyasi xadimlərinə qarşı qanlı terror aktları həyata keçirmişlər.

Erməni terrorçuları XX əsrin ikinci yarısında - XXI əsrin əvvəllərində 24 türk diplomatını müxtəlif yerlərdə qətlə yetirilib. Erməni terrorçuları, həmçinin müxtəlif dövrlərdə Fransa, Livan, Avstriya, Türkiyə, İsveçrə, İspaniya, Danimarka, Rusiya, Niderland və bir neçə başqa ölkələrdə 120-dən çox terror aktı həyata keçirmişlər. 1975-ci ildən ermənilərin ən böyük terror təşkilatı olan ASALA tərəfindən həyata keçirilən teraktlar 1980-1981-ci illərdə daha geniş coğrafiyanı əhatə etməyə başlayıb. 1985-ci ilin 15 iyul tarixində isə, tarixə "Orli qətliamı" kimi düşən terror aktı törədildi. ASALA Türk Hava Yollarının Paris Orli hava limanındakı bürosu qarşısında bomba partlatdı. Terror aktı nəticəsində iki türk, dörd fransız, bir amerikalı və bir isveçli olmaqla 8 nəfər həlak oldu, 63 nəfər müxtəlif bədən xəsarəti aldı. Onu da qeyd edək ki, bu terror aktını törədən Varuyan Karapetyan ASALA təşkilatının üzvü olub. O, Ermənistanda qəhrəman kimi qəbul edilir (5). Xatırladaq ki, indi nasizmin şöhrətləndirilməsi Ermənistanın dövlət siyasətinə çevrilib, mənfur faşist general Qaregin Nijde "milli qəhrəmana" çevrilib. Ermənistanın paytaxtının mərkəzində Nijdenin xatirəsinə 6 metrlik abidə ucaldılıb.

*Ermənistan dövlətinin və erməni diasporunun maliyyə yardımı ilə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni terrorçu təşkilatlarının Azərbaycana qarşı apardıqları terror müharibəsi* 1980-cı illərdən başlayaraq ardıcıl xarakter almışdır (2). 16 sentyabr 1989-cu ildə "Tbilisi-Bakı" marşrutu ilə hərəkət edin sərnişin avtobusunun partladılması nəticəsində 5 nəfər həlak olmuş, 25 nəfər yaralanmış, 18 fevral 1990-cı ildə Yevlax-Laçın yolunun 105-ci kilometrliyində avtobus partladılmış, çoxlu sayda insan həlak olmuş, 11 iyul 1990-cı il "Tərtər-Kəlbəcər" sərnişin avtobusu partladılmış, 14 nəfər həlak olmuşdur. Həmçinin, 10 avqust 1990-cı ildə "Tbilisi-Ağdam" marşrutu ilə hərəkət edən sərnişin avtobusunun partladılması nəticəsində 20 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdır. 30 noyabr 1990-cı ildə isə Xankəndi aeroportu yaxınlığında sərnişin avtobusu partladılmış, 2 nəfər həlak olmuş, 11 nəfər xəsarət almışdır.

Göründüyü kimi, erməni terrorçular XX əsrin 90-cı illərindən başlayaraq azərbaycanlılara qarşı XX əsrin əvvəlindəki (1905-1906, 1918-1920) soyqırımı aktlarının yenidən təkrarlamaya başladılar.

1991-ci ildə "Molodyoj Azərbaycana" qəzetinin müxbiri Salatın Əsgərova və 3 hərbi qulluqçunun olduğu avtomobilə qarşı terror aktı törədildi. Terror aktı nəticəsində 4 nəfər qətlə yetirilmişdi. Daha sonra 31 iyul 1991-ci ildə Dağıstan Respublikasının Temirxan stansiyası yaxınlığında "Moskva-Bakı" sərnişin qatarı partladılmış, nəticədə 16 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır. Həmçinin, Hadrut rayonunun Dolanlar kəndində "Qaz-53" markalı avtomaşın, Şadaxt kəndi yaxınlığında "KAVZ" markalı 70-30 AQO dövlət nömrə nişanlı avtobus, "Yevlax-Laçın" yolunda "VAZ-2106" markalı D72-07AQ nömrə nişanlı avtomaşın, Ağdərə rayonunun Sırxavənd

kəndi yaxınlığında "UAZ-469" markalı avtomaşın və s. partladılmış və nəticədə onlarla insan həlak olması erməni terrorunun acı nəticələridir (3).

20 noyabr 1991-ci ildə Xocavənd rayonunun Qarakənd yaxınlığında "Mi-8" vertolyotunun atəşə tutulması nəticəsində vertolyot heyəti – 22 nəfər (Tofiq İsmayılov, İsmət Qayıbov, Məhəmməd Əsədov, Vəli Məmmədov, Vaqif Cəfərov, Osman Mirzəyev, Alı Mustafayev və s.) həlak olmuşdur. 1991-ci il sentyabrın 8-də Ağdam – Qaradağlı marşutu ilə işləyən avtobusun erməni terrorçuları tərəfindən partladılması nəticəsində 6 nəfər həyatını itirmiş, 36 nəfər müxtəlif bədən xəsarəti almışdır. 1992-ci ilin yanvar ayının 28-də Şuşa şəhəri yaxınlığında Ağdam-Şuşa marşrutu ilə sərnişin daşıyan mülki vertolyotun erməni terrorçuları tərəfindən vurulması nəticəsində əksəriyyəti qadın və uşaqdan 41 nəfər sərnişin və 3 ekipaj üzvü həlak olmuşdur. Erməni terrorçuları tərəfindən hava nəqliyyatında törədilən terror aktları nəticəsində, ümumilikdə 176 nəfər həyatını itirmişdir (4).

1992-ci il yanvarın 8-də "Krasnovodsk-Bakı" sərnişin bərəsinin partladılması da ermənilər tərəfindən həyata keçirilib, terror aktı nəticəsində 25 nəfər həlak olmuş, 88 nəfər yaralanmışdır.

Ermənilər tərəfindən ən dəhşətli terror aktı 1992-ci il fevralın 26-da Xocalıda törədildi. Bəşəriyyətə, insanlığa, dinc əhaliyə, qocaya, qadına, körpə uşağa qarşı çevrilmiş Xocalı soyqırımı XX əsrin ən dəhşətli cinayətlərindən biri idi. Bu faciəli gecədə "dinc əhalidən 613 nəfər, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca xüsusi amansızlıqla və işgəncə verilməklə öldürülmüş, 76-sı uşaq olmaqla 487 nəfərə ağır bədən xəsarəti yetirilmiş, 1275 sakin – uşaqlar, qadınlar və qocalar girov götürülmüşdür" (11).

2 iyun 1993-cü ildə Bakı dəmir yolu vağzalında sərnişin qatarının vaqonunun partladılması nəticəsində dövlətə külli miqdarda maddi ziyan dəymişdir. Partlayışın icraçısı Rusiya vətəndaşı İqor Xatkovski Ermənistan Respublikası Milli Təhlükəsizlik Baş İdarəsi kəşfiyyat şöbəsinin rəisi, polkovnik Ohanesyan tərəfindən məxfi əməkdaşlığa cəlb edilərək, casusluq və terrorçuluq məqsədilə Azərbaycana göndərildiyini, böyük insan tələfatı ilə nəticələnəcək partlayışlar törətmək tapşırığı aldığını etiraf etmişdir. İstintaq zamanı sübuta yetirilmişdir ki, həmin qrup 1992-1994-cü illərdə Rusiya ərazisindən Bakıya gələn sərnişin qatarlarında silsilə partlayışlar törətmişdir.

22 iyul 1993-cü il. Tərtər rayonunda törədilmiş partlayış nəticəsində 5 nəfər həlak olmuş, 18 nəfər yaralanmışdır. Həmin gün Qazax rayonunun mərkəzində törədilmiş partlayış nəticəsində 6 nəfər həlak olmuş, 10 nəfər yaralanmışdır.

30 avqust 1993-cü il. Hadrut rayonu ərazisində "ZİL" markalı maşın partladılmış, nəticədə 2 nəfər həlak olmuşdur. Həmin hadisədən bir neçə gün sonra içərisində 12 nəfər kənd sakini olan "QAZ-66" markalı sərnişin avtobusu rayondan çıxarkən partladılmış, nəticədə 4 nəfər həlak olmuş, 8 nəfər ağır dərəcədə yaralanmışdır.

1 fevral 1994-cü il. Bakı dəmir yolu vağzalında "Kislovodsk-Bakı" sərnişin qatarında terror aktı törədilmiş, 3 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır.

18 mart 1994-cü il. Xankəndi şəhəri yaxınlığında İran Hərbi Hava Qüvvələrinə məxsus "Herkules" tipli təyyarə vurulmuş, 34 diplomat və ailə üzvləri həlak olmuşdur.

19 mart 1994-cü il. Bakı metropolitenin "20 Yanvar" stansiyasında törədilmiş partlayış nəticəsində 14 nəfər həlak olmuş, 49 nəfər yaralanmışdır. Məhkəmə sübut etmişdir ki, terror aksiyası Ermənistan xüsusi xidmət orqanları tərəfindən hazırlanmış, separatçı "Sadval" ləzgi təşkilatının üzvləri tərəfindən həyata keçirilmişdir. Müəyyən olunmuşdur ki, "Sadval" separatçı təşkilatının həmin fəalları 1992-ci ildən etibarən dəfələrlə Ermənistanda olmuş, bu dövlətin Milli Təhlükəsizlik Baş İdarəsi təşkilatın formalaşmasında, maliyyələşməsində və silahlanmasında yaxından iştirak etmişdir. 1992-ci ilin aprel-may aylarında 30 nəfər milliyyətcə ləzgi olan Azərbaycan vətəndaşı Ermənistanın Nairi rayonunun Lusakert qəsəbəsində yerləşən təlim-məşq bazasında xüsusi terror-təxribat hazırlığı keçmişdir. İstintaq zamanı müəyyənləşdirilmişdir ki, təxribatçılar təlimata uyğun olaraq, "20 Yanvar" stansiyası ilə yanaşı, Bakının "Nizami" kinoteatrında, Respublika sarayında və Bakı lampa zavodunda da partlayışlar törətməyi planlaşdırmışlar. "20 Yanvar" metro stansiyasında partlayışın törədilməsində ittiham olunan və Ermənistanda xüsusi terror-təxribat hazırlığı keçmiş 30 sadvalçı cinayət məsuliyyətinə cəlb edilmişdir.

13 aprel 1994-cü il. Dağıstan Respublikasının "Daqestanskiye oqni" stansiyası yaxınlığında "Moskva-Bakı" sərnişin qatarı partladılmış, 6 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

3 iyul 1994-cü il. Bakı metropolitenin "28 may" və "Gənclik" stansiyaları arasında elektrik qatarındakı partlayış nəticəsində 13 nəfər həlak olmuş, 42 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır. Terror aksiyası Azərbaycan Respublikasının vətəndaşı, Dağlıq Qarabağ uğrunda gedən döyüşlər zamanı – 13 yanvar 1994-cü ildə əsir düşmüş və Ermənistan xüsusi xidmət orqanları tərəfindən məxfi əməkdaşlığa cəlb edilmiş Aslanov Azər Salman oğlu tərəfindən törədilmişdir. Məhkəmə araşdırmaları zamanı müəyyən olunmuşdur ki, 14 yanvar 1994-cü ildə erməni separatçılarının ideoloqlarından biri, yazıçı Zori Balayan hərbi əsir, milliyyətcə ləzgi Azər Aslanovla görüşmüş, azərbaycanlılara qarşı mübarizədə bütün azsaylı xalqların birgə fəaliyyət göstərmələrinin vacibliyini bildirmişdir. 9 iyun 1994-cü ildə Ermənistan xüsusi xidmət orqanlarının Artur adlı əməkdaşı A.Aslanovun Bakıdakı mənzilinə zəng vuraraq onun sağ olduğunu bildirmiş və azad olunması üçün yaxın qohumlarından birinin Yerevan şəhərinə gəlməsinin zəruriliyini qeyd etmişdir. 16 iyun 1994-cü il tarixində A.Aslanovun anası Tacibat Aslanova Yerevana gəlmişdir. Azər Aslanova anasının həyatının təhlükə altında olduğu bildirilmiş, bu təhdidlər altında o, Ermənistan xüsusi xidmət orqanları ilə "Ömər-75" təxəllüsü ilə daimi əməkdaşlığa cəlb edilmişdir. Azərbaycana maneəsiz gəlməsi üçün Azər Aslanovun adına saxta sənədlər hazırlanmış, partlayıcı maddə isə müvafiq qaydada peçenye, şokolad və dezodarant qutularında gizlədilmişdir. A.Aslanov "Yerevan-Mineralnıye Vodı-Bakı" marşrutu ilə Azərbaycana gələrək, 3 iyul 1994-cü ildə Bakı metrosunun "28 May" və "Gənclik" stansiyası arasında qatarda terror aktını həyata keçirmiş və yenidən Ermənistana qayıtmışdır. Bu müddət ərzində Yerevanda girov saxlanılan anası yalnız bundan sonra azad olunmuşdur. İstintaq zamanı müəyyən edilmişdir ki, terror aktının təlimatçıları Ermənistan xüsusi xidmət orqanlarının polkovniki Karen Baqdasaryan və kapitan Seyran Sarkisyan olmuşlar. Azərbaycan Respublikasının Ali Məhkəmə instansiyaları tərəfindən aparılmış araşdırmalar prosesində göstərilən terror aktlarının həyata keçirilməsində Dağlıq Qarabağın qeyri-qanuni rejiminin funksionerləri və Ermənistan Respublikasının xüsusi xidmət və digər dövlət orqanlarının təşkilatçılığı, maliyyə və texniki dəstəyi, əksər hallarda isə bilavasitə iştirakı prosessual qaydada sübuta yetirilmişdir.

1989-1994-cü illərdə erməni terrorçuları Dağlıq Qarabağda nəqliyyatda 29 iri terror aktı həyata keçirilmiş, 2 mülki vertolyotu və 2 təyyarəni vurmuşlar (17).

30 ildən artıqdır ki, Ermənistan Azərbaycana qarşı etnik təmizləmə, soyqırımı, müharibə cinayəti və dövlət terrorizm siyasətini davam etdirir. Sentyabrın 27-dən başlayaraq Azərbaycan Ordusu cəbhədə ardıcıl qələbələr qazanır, düşmən qüvvələrini məhv etdikcə erməni faşistləri daha da aqressivləşir və məğlubiyyətinin əvəzini döyüş cəbhəsindən 50-100 kilometr aralıda yerləşən şəhər və digər yaşayış məntəqələrini raket atəşinə tutur. Nəticədə, sentyabrın 27-dən – 8 noyabradək 98 nəfər mülki əhali həlak olub, 414 nəfərdən çox dinc əhali yaralanıb, 450-dən çox mülki obyekt dağıdılıb, yandırılıb, 2242-ə qədər yaşayış evi yararsız vəziyyətə düşüb, çox mənzilli bina dağıntıya məruz qalıb (10).

30 il müddətində erməni təcavüzkarları Dağlıq Qarabağ və ətraf 7 rayonun torpaqlarını işğal altında saxladılar (Xocalı – 26.02.199; Şuşa – 08.05.1992; Kəlbəcər – 02.04.1993; Ağdərə - 17.06.1993; Ağdam – 23.07.1993; Cəbrayıl – 23.08.1993; Füzuli – 23.08.1993; Qubadlı – 31.08.1993; Zəngilan – 29.10.1993 və s.).

Lakin, bu 30 il müddətində işğalçı, ədalətsiz, müharibələri, terror aktlarını bəşəriyyətə, insanlığa qarşı cinayət kimi qiymətləndirən, mülki əhalinin, körpələrin, qadınların və qocaların öldürülməsini yolverilməz sayan sülhsevər və özünü demokratiyanın lideri hesab edən dövlətlər, dünyaya ictimaiyyəti, beynəlxalq təşkilatlar susdular, ciddi mövqe bildirmədilər, işğalçıya təziqlər göstərmədilər. Yalnız, bu torpaqların Azərbaycana məxsus olmasını söyləməklə kifayətləndilər (1).

Nəticədə, Azərbaycanın bir milyondan çox vətəndaşı öz yurd-yuvasından qovuldu, ərazisinin 20 faizi işğal edildi, işğal altında saxlanıldı. Ermənistan öz təcavüzkar siyasəti ilə 30 ildən artıq müddətdə bölgədə sabitlik və təhlükəsizliyi pozmaqla, ciddi təhdid yaratdı.

Bütün dünyada sülhün və təhlükəsizliyin əsas təminatçısı olan BMT TŞ-nın Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrdə Ermənistan silahlı qüvvələrinin işğal etdiyi Azərbaycan ərazilərindən tam və qeyri-şərtsiz çıxarılmasının tələb olunmasına baxmayaraq, Ermənistan bu tələblərə məhəl qoymadı,

əməl etmədi. Azərbaycanın ərazi bütövlüyünün və beynəlxalq aləmdə tanınmış sərhədlərinin toxunulmazlığının diqqətə çatdırdığı həmin qətnamələrdə münaqişə tərəfi olmayan mülki şəxslərin qorunmasının vacibliyi və ərazi əldə etmək üçün güc tətbiqinin yolverilməzliyi qeyd olunur. Lakin, göründüyü kimi beynəlxalq hüquq normalarını saymayan Ermənistan bütün illər ərzində ciddi surətdə silahlanaraq öz millitarist siyasətini, 1994-cü ilin mayında razılaşdırılmış atəşkəsi pozmaqda davam edib. Həmçinin Azərbaycanın yeni ərazilərini işğal etməyə cəhdlər göstərib.

2016-cı ilin aprelində və 2020-ci ilin iyulun 12-də Ermənistan atəşkəs rejimini pozub, hərbi əməliyyatlara başlayıb, mülki əhalinin yaşadıqları qəsəbə və kəndləri ağır silahlardan atəşə məruz qoyub, münaqişə zonasından yüzlərlə kilometr kənarda yerləşən Azərbaycan – Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində geniş miqyaslı hərbi əməliyyatlara başlayıb. Azərbaycan Ordusunun layiqli cavab atəşlərindən sonra təcavüzkar geri çəkilməyə məcbur olub.

2020-ci il sentyabrın 27-də Ermənistan ordusu işğal altında saxladığı Dağlıq Qarabağda yenidən Azərbaycana qarşı genişmiqyaslı hərbi əməliyyatlara başladı. Bununla da, erməni təcavüzkarları öz ölümlərinə, məğlubiyyətlərinə şərait yaratdılar. Belə ki, Ali Baş Komandanın - İlham Əliyevin əmri ilə Azərbaycan Ordusunun əks hücumu başladı. Nəticədə, 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu təcavüzkarı, erməni faşistlərini ağır məğlubiyyətə uğratdı, torpaqlarımızdan qovdu, Azərbaycanın ərazi bütövlüyü təmin olundu (14).

Ağır məğlubiyyətə uğrayan Ermənistan məğlubiyyətlə razılaşmağa, məğlubiyyəti etiraf etməyə məcbur oldu. 2020-ci il noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin, Ermənistan Respublikasının baş naziri N.Paşinyan birgə bəyanat imzaladılar.

Döyüş meydanında Azərbaycan ordusunun zərbələrinə davam gətirə bilməyən faşist xislətli Ermənistan I Qarabağ müharibəsində (1991-1994) olduğu kimi yenə də mülki əhalini, mülki obyektləri, yaşayış evlərini hədəf seçdi.

Erməni quldurları döyüş bölgəsindən 50-100 kilometr kənarda yerləşən Gəncə, Bərdə, Tərtər, Mingəçevir şəhərlərini, Abşeron, Xızı, Ağcabədi, Beyləqan, Zərdab, Goranboy, Göygöl, Yevlax rayonlarına raket atəşinə tutdular.

Nəticədə, sentyabrın 27-dən noyabrın 8-ə qədər dinc əhalidən 94 nəfər qətlə yetirilib, 400 nəfərdən çox insan yaralanıb, 428 mülki obyekt məhv edilib, 2242-ə yaxın yaşayış evi dağıdılıb, 92 çoxmənzilli bina yararsız vəziyyətə salınıb.

Oktyabrın 10-da Rusiyanın vasitəçiliyi ilə humanitar atəşkəs barədə razılaşma əldə olunsa da, atəşkəs rejiminin qüvvəyə minməsindən az sonra – oktyabrın 11-i gecə saat 2 radələrində erməni silahlı qüvvələri öz ölkəsinin ərazisindən Azərbaycanın böyük şəhəri olan Gəncə “Elburus” (SOUD) ballistik raketi ilə zərbələr endirdi (14).

Bu cinayət nəticəsində 5-i qadın olmaqla 10 nəfər həlak olmuş, 16-sı qadın və 6-sı azyaşlı uşaq olmaqla, 34 müxtəlif nəfər dərəcəli xəsarət alıb, 3 uşaq hər iki valideynini itirib, 3 bina tamamilə dağıdılıb, 100-dən çox müxtəlif təyinatlı mülki obyektə ziyan dəyib. Qeyd edək ki, bu cinayət hadisəsindən bir həftə əvvəl Gəncə erməni faşistləri tərəfindən atəşə tutulanda 1 nəfər həlak olmuş və 20-dən çox dinc sakin yaralanmışdı.

Beynəlxalq qınaqları, pisləmələri nəzərə almayan Ermənistanın faşist xislətli rəhbərliyi öz əməllərinə sadiq qalaraq hərbi cinayət törətməyə davam edib, oktyabrın 17-də gecə saat 1 radələrində 500 minə yaxın əhalisi olan Gəncə şəhərinə yenidən raket zərbələri endirib. Şəhər əhalisinin şirin yuxuda yatdığı vaxt edilən bu dəhşətli raket hücumu nəticəsində 14 sakin, o cümlədən 4 azyaşlı uşaq həyatını itirib, 55 nəfər dinc sakin isə ağır bədən xəsarəti alıb (15).

4 oktyabrdan 22 oktyabra kimi ermənilərin müharibə cinayətləri nəticəsində Gəncədə 25 mülki şəxsin həyatına son qoyulub, 120 nəfərdən çox sakin müxtəlif dərəcəli bədən xəsarəti alıb, 100-lərlə mülki obyektə, tarixi abidələrə, məbədlərə, mədəniyyət obyektlərinə, təhsil müəssisələrinə ciddi ziyan dəyib.

Döyüş cəbhəsində məğlubiyyətləri daha ciddi xarakter alan Ermənistanın faşistpərəst rəhbərliyinin əmri ilə oktyabrın 28-də Bərdə şəhərinin dinc əhalisinin çox hərəkətdə olduğu və ticarət obyektlərinin kompakt yerləşdiyi əraziyə birinin içərisində 72 ədəd 9N235 saylı, ümumilikdə 144 bombacıq olan “Smerç” tipli, əməliyyat – taktiki təyinatlı 9M525 qəlpəli böyük dağıdıcı qüvvəyə

malik ballistik "claster" tipli 2 ədəd raket zərbəsi endirilməsi nəticəsində 5-i qadın olmaqla 21 nəfər həlak olmuş, 8-i uşaq, 15 qadın olmaqla 70 nəfər şəxs müxtəlif dərəcədə xəsarət almışdır. Həmçinin 30-dan çox mülki infrastruktur obyektinə, dinc sakinlərə məxsus 20-dən artıq fərdi yaşayış evlərinə, 22 nəqliyyat vasitəsinə xüsusilə küllü miqdarda ziyan dəymişdir. Ermənistan ordusu tərəfindən dinc vətəndaşların məqsədyönlü şəkildə hədəfə alınması insanlığa qarşı ən qatı cinayətdir (20).

Bununla yanaşı, Ermənistan Azərbaycana qarşı təkcə etnik təmizləmə, soyqırımı və işğal deyil, uzun illər ərzində ölkəmizin öz müxtəlifliyi fərqlənən mədəni və mənəvi irsinə qarşı təcavüz siyasəti yeridib. Ermənistanın monoetnikliyə söykənən dövlət siyasəti onun işğal etdiyi ərazilərdə də yalnız erməni izi yaratmağa xidmət edib. Erməni faşistləri Azərbaycanın işğal altında olan ərazilərində tarixən mövcud olmuş qədim alban, provaslav, müsəlman dini və mədəni irsini tamamilə silməyə çalışıb, mədəni – mənəvi irs nümunələrimizi ya tamamilə dağıdıb, ya da tarixini və mənşəyini saxtalaşdıraraq özününkiləşdirib – erməniləşdirib, qriqoryanlaşdırıb.

Belə, ki Qarabağ ərazisində mövcud olan 67 məsciddən 63-ü yerlə - yeksan edilib, qalan 3 məscidə isə ciddi zərər vurulub. Ermənistan öz ərazisində yerləşən tarixi Azərbaycan dini abidələrini – İrəvanda "Şah Abbas", "Sərdar", "Hacı Novruz Əli" və digər məscidləri tamamilə uçurub, dağıdıb. Göy məscidin arxitektura xüsusiyyətlərini dəyişərək özgəninkiləşdirib. Müsəlman məscidlərini məhv etməklə kifayətlənməyən ermənilər Şuşadakı İoanın Predteça provaslav kilsəsini, digər bölgələrdəki Alban-udi məbədlərini qəsb edərək qriqoryanlaşdırıb (12).

Ermənistandan fərqli olaraq Azərbaycanda, paytaxt Bakıda və müxtəlif bölgələrdə minlərlə erməni əsilli vətəndaş əmin-amanlıq şəraitində yaşayır. Bakının mərkəzində erməni kilsəsi və onun kitabxanası dövlət tərəfindən abadlaşdırılaraq qorunur. Azərbaycanın işğal olunmuş ərazilərdə isə məscid, məbəd və məzarlıqlar, tarixi abidələr, muzeylər, kitabxanalar erməni vandalizminə məruz qalıb. Qafqaz Albaniyasına məxsus xristian məbədləri və rus provaslav kilsələri qriqoryanlaşdırılıb, məscidlər tövləyə çevrilib.

Azərbaycanın dövlət başçısı cənab İlham Əliyev öz müraciət və müsahibələrində dəfələrlə bəyan edib ki, Azərbaycanın işğaldan azad olunmuş torpaqlarında da bütün dini və mədəni abidələr bərpa ediləcək. Tarix boyu Azərbaycanda firavan yaşayan və öz dini ayinlərini sərbəst şəkildə yerinə yetirən xristian pravoslav, katolik, Dağ yəhudiləri, Alban-udi xristian, aşkenazi – Avropa yəhudiləri və digər dini icmaların rəhbərləri Azərbaycanın bu suveren siyasətini dəstəkləyirlər (13).

Faşist xislətli işğalçı Ermənistanın hərbi qüvvələri tərəfindən təkcə Gəncə və Bərdə deyil, həm də Tərtər, Füzuli və digər şəhər və kəndlərimiz də raket atəşinə tutulmuşdur. Qeyd edək ki, dinc əhalinin ballistik raketlərlə atəşə tutulması beynəlxalq hüququn norma və prinsiplərinin, o cümlədən 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarının, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrinin kobud şəkildə pozulmasıdır. Həmçinin, mülki əhaliyə qarşı törədilən bu vəhşiliklər hərbi və insanlıq əleyhinə çevrilmiş cinayət aktıdır və buna beynəlxalq səviyyədə hüquqi qiymət verilməlidir.

*Nəticə.* Aparılan təhlillər göstərir ki, Ermənistanın siyasi rəhbərliyi terroru dövlət siyasəti vasitəsinə çevrilib. Odur ki, terrorçu dövlətə qarşı mülki və beynəlxalq hüquq mexanizmlərindən istifadə etməklə adekvat tədbirlər görülməli, mülki əhaliyə qarşı hərbi cinayət törədənlər ədalət məhkəməsinə cəlb edilməlidir.

Ölkəmizin müxtəlif siyasi qurumları və təşkilatları Millətlər Təşkilatlarına, BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinə, Qaçqınlar üzrə Ali Komissarlığına Elm, təhsil və Mədəniyyət üzrə ixtisaslaşmış qurumuna və Uşaq Fonduna (UNESCO və UNİCEF), NATO və onun Parlament Assambleyasına, ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinə, Avropa İttifaqına, Avropa Şurasına və onun Parlament Assambleyasına, Qoşulmama Hərəkatına, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına, Milli Demokratiya İnstitutuna və digər təşkilatlara bu barədə müraciətlər ünvanlanmışdır.

Lakin beynəlxalq birlik, beynəlxalq hüquq orqanları Ermənistanı törətdiyi cinayət aktlarına görə məsuliyyətə cəlb etmək istəmir. İşğalçı dövlət bu terror əməllərini bilərəkdən məqsədli şəkildə həyata keçirir. Hansı ki, kasetli bombalardan döyüş cəbhəsindən kənarda istifadə edilməsi beynəlxalq qanunlarla qadağan edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sözləri ilə desək, "əgər beynəlxalq birlik Ermənistanı törədilmiş cinayətə görə məsuliyyətə cəlb etmək istəmirsə, neçə

ki, Xocalı soyqırımına görə heç kim onları məsuliyyətə cəlb etməyib, - biz özümüz onları məsuliyyətə cəlb edəcəyik. Biz özümüz onların cəzasını verəcəyik .... bizim cəzamız ədalətli cəza olacaq (23).

Torpaqlarımızın azadlığı uğrunda Vətən müharibəsi xalqımızın qəhrəmanlıq salnaməsinə çevrildi. 44 günlük bu müharibədə Azərbaycan döyüş meydanında Ermənistanın silahlı qüvvələrinə sarsıdıcı zərbə vurmaqla, 30 ilə yaxın davam edən işğala son qoyuldu. Azərbaycanın ərazi bütövlüyü təmin olundu.

Ölkə başçısı, Silahlı qüvvələrin Ali Baş Komandanı: "Biz qələbəmizi dəmir yumruq hesabına, düşməni qova-qova qazanmışıq və indi durmuşuq öz torpağımızda" (21).

Beynəlxalq ictimaiyyət xalqımızın öz haqqı uğrunda ədalətli və mərdliklə mübarizə aparmaq əzminə şahidlik etdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu Qələbə ilə qalib Azərbaycan dövlətini dünyaya təqdim etdi. Özünün isə yenilməzliyini, cəsarətini, müdrikliyini, uzaqgörənliyini, milli qürurunun böyüklüyünü və böyük diplomatiya bacarığını sübut etdi.

## ƏDƏBİYYAT

1. "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" AR Prezidentinin sərəncamı (18 yanvar 2018-ci il) / "Azərbaycan" qəzeti, 19 yanvar 2018-ci il.
2. ARDA, F. 894, siy.10, iş 187; 192.
3. ARDA, F. 895, siy.3, iş 7; 24; 25.
4. ARDA. F. 970, siy. 1, iş 1; 138.
5. ARDA, F.1061, siy.4, iş 41; siy2, iş85.
6. Azərbaycan Respublikası İşlər İdarəsi Siyasi Sənədlər Arxivi (ARPİİSSA) Fond 1, siy.33, 38, iş.81.
7. ARPİİSSA, F.1, siy.85, iş 88.
8. ARPİİSSA, F.276, siy.7, iş 168;169.
9. ARPİİSSA, F.277, siy.2, iş 89.
10. Azərbaycanlıların soyqırımı haqqında AR Prezidentinin 1998, 24 mart tarixli fərmanı / "Azərbaycan" qəzeti, 27 mart 1998.
11. Boran Əziz. Xocalı soyqırımı: səbəbləri, həyata keçirilməsi üsulları və nəticələri. Bakı, Azərnəşr, 2008, 224 s.
12. Əliyev İ. 32 il əvvəlki dirçəliş hərəkatının hədəfləri tam reallığa çevrildi / "Azərbaycan" qəzeti, 17.11.20.
13. Əliyev İ. Biz Qələbələrimizi dəmir yumruq hesabına, düşməni qova-qova qazanmışıq və indi durmuşuq öz torpağımızda / "Səs" qəzeti, 25 noyabr 2020.
14. "İki sahil" qəzeti, 20 oktyabr 2020, №185 (7685). - https://ikisahil.az/paper/7685 [Müraciət tarixi: 10.12.2020].
15. "İki sahil" qəzeti, 29.10.2020, №192 (7692). - https://ikisahil.az/paper/7692 [Müraciət tarixi: 10.12.2020].
16. İsgəndərov A. Azərbaycanda türk-müsəlman soyqırımı problemlərinin tarixşünaslığı. Bakı, Adiloğlu, 2006, 396 s.
17. Kəngərli Rauf. Ermənilər terrorçuluq və vandalizm əməllərinə heç çür haqq qazandıra bilməyəcəklər / Mədəniyyət, 18 sentyabr 2012, s.5. - http://www.anl.az/down/meqale/xalqqazeti/2012/sentyabr/262649.htm [Müraciət tarixi: 10.12.2020].
18. Quliyev Aqşin. Hüquq Ensiklopediyası. Bakı, Qanun, 2007, 1108 s.
19. Məmmədov Nuru. Erməni yalanları və tarixi həqiqətlər. Bakı, Ülvi-Həyat, 2010, 104 s.
20. Müstəqilliyimizin xilaskarının varisi, Milli birliyimizin, işğal olunmuş torpaqlarımızın xilaskarı. Müzəffər Ali Baş Komandan / "Səs" qəzeti, 4 noyabr 2020-ci il.
21. Prezident İlham Əliyev və Mehriban Əliyeva azad edilmiş Ağdam şəhərində olublar // Azeri Defence, 24 noyabr 2020-ci il. - https://azeridefence.com/prezident-ilham-%C9%99liyev-

v%C9%99-mehriban-%C9%99liyeva-isgaldan-azad-edilmis-agdam-s%C9%99h%C9%99rind%C9%99-olublar-yenil%C9%99nib/ [Müraciət tarixi: 10.12.2020].
22. "Səs" qəzeti, 22 oktyabr 2020-ci il. - https://sesqazeti.az/ [Müraciət tarixi: 10.12.2020].
23. Strategiyanın İ.Əliyev modeli: Diplomatik və hərbi məharətin mükəmməl sintezi / "Səs" qəzeti, 31 oktyabr 2020.
24. Zeynalov İ.X. Terror aktları: Bəşəriyyətə, insanlığa qarşı çevilmiş cinayət / SİA - Səs İnformasiya Agentliyi, 14 oktyabr 2020. - https://sia.az/az/news/social/831978.html [Müraciət tarixi: 10.12.2020].

**IBRAHIM ZEYNALOV**
*Doctor of History,*
*Professor of Baku State University*

## TERRORIST ATTACKS: A CRIME AGAINST HUMANITY AND CIVILIZATION

The paper discusses terrorist attacks, criminal acts against humanity, methods of its implementation and severe consequences. The manuscript also provides an analysis of concepts as terror, terrorist, terrorism, vandalism, terrorist activity, and talks about methods of dealing with them.

The paper also widely examines the history of the creation and activities of a lot of terrorist organizations of world, including Armenian terrorist organizations and its activities in carrying out ethnic cleansing, genocide and other criminal acts for the last 50-60 years in different countries of world and in Azerbaijan.

The manuscript carefully discusses the criminal actions of Armenian terrorists, especially in vehicles in the cities and villages of Azerbaijan for the last 30 years, acts of vandalism in relation to historical and cultural monuments and the tragic result of missile attacks of the Armenian Armed Forces using ballistic missiles in Ganja, Barda, Ter-ter and other cities during 44-days Patriotic War.

*Keywords*: terror, terrorist, terrorist activity, terrorism, vandalism, Al-Qaeda, Taliban, ASALA, genocide, ethnic cleansing.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 dekabr 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2020-ci il.*
*Məqalə Redaksiya heyətinin qərarı ilə çapa məsləhət görülüb.*

QARABAĞ AZƏRBAYCANDIR!

**UOT 94 (479.24)**

**ƏSMƏD MUXTAROVA**
*Bakı Dövlət Universitetinin professoru*
**E-mail: asmadmukhtarova@bsu.edu.az**

# VƏTƏN MÜHARİBƏSİNDƏKİ ŞANLI QƏLƏBƏMİZ TARİXİ ƏDALƏTİN BƏRPASI VƏ TƏNTƏNƏSİDİR

*Tarixən erməni millətçiliyi M.Çamçyanın sərsəm və xəstə təfəkküründən qaynaqlanır və əsasən "Böyük Ermənistan" ideyaları ilə sıx əlaqəli olaraq Azərbaycan və Türkiyənin tarixi əraziləri daxilində azad, birləşmiş və müstəqil "erməni dövləti" yaratmaq, gücləndirmək və daha da genişləndirmək məqsədlərini güdür. XIX əsrin birinci yarısında silah gücü və qeyri-bərabər müqavilələrlə çar Rusiyası yerli azərbaycanlı-müsəlman əhaliyə qarşı xristian dayaq yaratmaq üçün ermənilərin tarixi ərazilərimizə kütləvi şəkildə köçürülməsini həyata keçirməyə başladı. Nəticədə Qarabağda çoxlu sayda erməni məskunlaşdırıldı. Bundan sonra gəlmə ermənilər Qarabağ və digər Azərbaycan torpaqlarına ərazi iddialarına başladılar. O zamandan etibarən Vətənimizdə uzunsürən dağıdıcı hərbi qarşıdurmalar başlandı.*

*2020-ci ilin sentyabrın 27-də Qondarma "Dağlıq Qarabağ Respublikası" və Ermənistanın birləşmiş silahlı qüvvələrinin növbəti hərbi təcavüzünə cavab olaraq, şanlı Azərbaycan ordusunun aviasiya, zirehli texnika və artilleriya dəstəyi ilə əks-hücuma keçməsi ilə irimiqyaslı hərbi əməliyyatlar alovlandı və Azərbaycanda "Vətən müharibəsi" və ya "İkinci Qarabağ müharibəsi" başlandı. Bu müharibə, 1994-cü il atəşkəsindən sonra Qarabağ ərazisində ən qanlı və genişmiqyaslı hərbi münaqişə oldu. 44 gün davam edən müharibə müzəffər ordumuzun parlaq qələbəsi və tarixi ədalətin bərpası ilə başa çatdı.*

*Açar sözlər:* İkinci Qarabağ müharibəsi, Vətən müharibəsi, erməni millətçiliyi, soyqırım siyasəti, tarixi ədalət, ərazi bütövlüyü.

*Giriş*. Tarix çox müharibələrə şahidlik edib. Geostrateji baxımdan mühüm ərazidə yerləşən ölkəmiz minilliklər boyu xarici təcavüzkaların diqqətini cəlb etmiş, zaman-zaman bu qovğalardan alnı açıq çıxan doğma Azərbaycanımız dünyanın hərb tarixinə yenilməz döyüş ruhu, Vətənə sədaqəti, məhəbbəti ilə şanlı səhifələr yazmışdır. Belə ki, Vətən tariximizdə baş verən bir çox müharibələr azadlığı, ərazi bütövlüyü uğrunda ayağa qalxan, canından keçən igid soydaşlarımızın qalibiyyəti ilə başa çatıb. Beynəlxalq hüquqla müəyyən edilmiş prinsiplər, öhdəliklər olduqca mükəmməldir. Böyüklüyündən, kiçikliyindən asılı olmayaraq bütün dövlətlərin ərazi bütövlüyünün toxunulmazlığı, onun qlobal münasibətlər sistemindəki hüquqları bu prinsiplərin əsas hissəsini təşkil edir. Təəssüf ki çox vaxt, işğalçı ilə işğala məruz qalan arasında fərq qoyulmurdu.

Azərbaycanlıların ad qoyma tarixi çox qədimdir. Əvvəllər adı qəbilə başçıları və ya həmin qəbilənin ağsaqqalı verirmiş. Bu adlar həmin qəbilənin, soyun məskunlaşdıqları yerlərin təbii-coğrafi xüsusiyyətləri və bir çox dəyərləri özündə əks etdirərmiş (3, 52). Bəzən ad özündə bütöv bir xalqın tarixini, ictimai-siyasi, sosial-mənəvi, dini cəhətləri də özündə əks etdirə bilir. Məsələn, “Ağdam”. Qarabağ xanı Pənah xanın övladlarının günbəzləri və özünün sərdabəsi ağ daşdan hörülmüşdür. Bu hadisəyə qədər damlar daşdan yox, palçıqdan tikilmişdir. Məhz bu hadisədən sonra həmin yerin adı Ağdam adlandırılır (3, 87).

Bu mənada, bu gün Ermənistan adlanan ərazidə azərbaycanlılara məxsus tarixi-etnik adların dəyişdirilməsini izləmək bədnam qonşularımızın iyrənc niyyətlərini aşkar surətdə göstərir. Ermənistanda adların ləğv edilməsi Vətən tariximizin saxtalaşdırılması, soydaşlarımızın tarixi-etnik dədə-baba torpaqlarından qovulması ilə müşayiət olunmuşdur.

*Bu gün Ermənistan adlanan ərazidə azərbaycanlılara məxsus tarixi-etnik adların dəyişdirilməsi*. Ermənistanda sovet hökuməti qurulana qədər, yəni 1920-ci ilədək Azərbaycanın İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasının bir mahalı, sonra Ermənistanın inzibati rayonlarından birinə çevrilən bu qəza öz adını 1931-ci ilədək qoruyub saxlasa da, sonralar dəfələrlə müxtəlif dəyişikliklərə məruz qalır. Belə ki, 1931-1935-ci illərdə Dərələyəzin adı Keşişkəndlə, 1935-

1957-ci illərdə Mikoyan rayonu, 1957-ci ildən Yeğednadzor adları ilə əvəz edilir. Sözügedən rayonda kəndlərin adları da ciddi şəkildə dəyişikliklərə məruz qalır. Təbii ki, tarixi adlarımıza qarşı yeridilən vandalizm soydaşlarımızın taleyindən də yan keçmir. Bu ad dəyişmə prosesləri, təkcə tariximizi saxtalaşdırmaqla kifayətlənmir, kütləvi deportasiyalarla paralel şəkildə aparılmışdır.

Belə ki, Yeğednadzor rayonunun indiki ərazisində 1918-ci ilədək 60-dan çox azərbaycanlı kəndi olmuşdur. 1988-ci ildə isə, sözügedən rayonda cəmi 29 kənd olmuşdur ki, onlarında cəmi 11-i azərbaycanlı kəndi idi. Halbuki, sözügedən rayonun ərazisi ta qədim dövrlərdən azərbaycanlılara məxsus olmuşdur. Orta əsrlərdə bu ərazi müsəlman türk dövlətlərinin tərkibində olmuşdur. Belə ki, monqolların mərkəzi hökuməti dağıldıqdan sonra, XIV-XVI əsrlərdə sözügedən rayonun ərazisi Teymurləngin və onun xələflərinin tabliyində, sonralar isə, Qaraqoyunlu və Ağqoyunlu, 1604-cü ildən isə Səfəvilər dövlətlərinin tərkibində olmuşdur.

Ermənilər tarixin onlar üçün əlverişli məqamlarında həmişə soydaşlarımıza qarşı ən ağır cinayətləri törətməkdən, yer-yurd yerlərindən qovmaqdan, sonra isə, tarixi torpaqlarımızı erməniləşdirməkdən çəkinməmişlər.

Birinci və ikinci Rusiya-İran müharibələrindən sonra Cənubi Qafqazda əsasən nüfuz dairəsini genişləndirən çar Rusiyası burada ermənilərin sayını artırmağa ciddi önəm verirdi. Ermənilər İran və Osmanlı imperiyası ərazilərindən köçürülərək, əsasən İrəvan, Qarabağ və Naxçıvan ərazilərində məskunlaşdırılmışdılar: "Köçəri həyat tərzi keçirən ermənilərin daimi yaşayış məskənləri yox idi. Onlar dünyanın bir çox vilayətlərində yaşayıblar. Nəhayət, Azərbaycana səpələnib yaşamağa başlayıblar" (2, 103-104). 1829-cu ildə İranın Xoy və Salmas qəzalarından köçürülmüş 500 erməni ailəsi Dərələyəzdə məskunlaşdırıldı.

"Azərbaycanın füsünkar məskəni Qarabağın dağlıq hissəsi də, ermənilərin döşünə yatdı. ...Bu torpağın hesabına məlik də oldular. Adlarını dəyişdirib yanında "bəy" sözünü də əlavə etdilər. Amma bilmədilər ki, "bəy" sözünü adlarına və ya familyalarına əlavə etməklə qanlarındab dəyişiklik yarana bilməz. Bu "bəylik"onların irsiyyətini dəyişə bilməz" (2, 104).

Elə ona görə də, pənah gətirdikləri doğma yurdumuza özləri ilə bitib tükənməyən qan-qada, müharibələr və fəlakətlər də gətirdilər (5, 164-165). Ümumiyyətlə ermənilərin, türk xalqlarına qarşı barışmaz nifrətini onların özləri də etiraf etmişlər. 1918-ci ilin yazında Azərbaycanda guya sovet hakimiyyəti qurmaq adı altında, bir çox şəhərlərimizdə əsl soyqırımı siyasəti həyata keçirilmişdir. S.Şaumyan "Bakı kommunası" adlı əsərində xalqımıza qarşı olan nifrəti gizlətməyərək yazırdı: "erməni-türk antaqonizminin kökləri həddindən artıq dərindir. İxtiyari bir cəhd türk-erməni əhalisi arasında ciddi milli qarşıdurmaya səbəb olur" (7, 14-15). Müəllif 1918-ci ilin martında xalqımıza qarşı yeritdiyi soyqırımı zamanı "bolşevik" ermənilərin, daşnak qüvvələrindən istifadə etmələrini gizlətmir. Mart soyqırımlarında həyatını itirən soydaşlarımızın meyitləri üzərindən qeyri-qanuni olaraq hakimiyyətə gələn, anti-Azərbaycan mahiyyətli BXKS-ni yaratan S.Şaumyan da, açıq-aşkar daşnaklarla əməkdaşlığa şüurlu şəkildə getdiyini etiraf edərək: "Bizim siyasətimiz vətəndaş müharibəsidir. Kim bu siyasətə qarşıdırsa, bizim düşmənlərimizə xidmət edir. Vətəndaş müharibəsi gələcəyimiz üçün vacib idi. Silahı yerə qoymaq, Bakını itirmək demək olardı" (8, 163).

Bakı bolşeviklərinin sovet hakimiyyəti qurmaq adı altında 1918-ci ilin yazında türk-müsəlman əhalisinə qarşı yeritdiyi soyqırım siyasəti Azərbaycanda sovet hökuməti qurulandan sonra da davam edirdi. Bunu belə bir demoqrafik göstərici də sübut edir: "1918-ci ildə Ermənistanda azərbaycanlılar respublika əhalisinin 45%-ni, 575 min nəfər təşkil etdiyi halda, 1922-ci ildə Azərbaycanda cəmi 240 min erməni əhalisi olmuşdur" (6, 479). Halbuki, sonrakı illərdə biz fərqli mənzərənin şahidi oluruq: Azərbaycan SSR-də erməni əhalinin sayı artdığı halda, Ermənistan SSR-də azərbaycanlı əhalinin sayı kəskin şəkildə azalırdı.

*Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi.* XX əsrin 80-ci illərində bütün dünyada kommunist rejimlərinin, o cümlədə SSRİ-nin tənəzzülü ilə Dağlıq Qarabağda erməni separatçılarının anti-Azərbaycan mahiyyətli hərəkatları yenidən alovlandı. 1988-1989-cu illərdə Ermənistan SSR-dən qovulan azərbaycanlıların sayı müxtəlif mənbələrdə göstərildiyi kimi 165 min, 189 min, hətta 200 min deyil daha çoxdur. Tərk etdikləri ərazi isə, bəzən mətbuatda göstərildiyi 6000 $km^2$ deyil, hesablamaların göstərdiyi kimi, 9800 $km^2$-dən çoxdur. Nəzərə almaq lazımdır ki, Ermənistanın indiki ərazisinin 1918-ci ilədək 36 rayonundan 33-də azərbaycanlılar yaşamışlar. 1976-cı ildə Ermənistanda

319 azərbaycanlı kəndi var idi. Ermənilər artıq irəlidə qeyd olunduğu kimi, tədricən kəndlərin adlarını dəyişdirdiklərinə görə, 1918-ci ildə 22 rayonda 185 azərbaycanlı kənd adı qalmışdır (1, 57).

Bütün bunlar əvvəlcədən düşünülmüş məkrli siyasətin tərkib hissəsidir ki, erməni millətçilərin xalqımıza qarşı həyasızcasına irəli sürdüyü yeni ərazi iddiaları ilə, münaqişə getdikcə daha da alovlanaraq 1992-ci ildə Birinci Qarabağ müharibəsinə çevrildi. O dövrdə, xalqımızın üzləşdiyi siyasi-iqtisadi çətinlikləri, hakimiyyətin səriştəsizliyi ucbatından ermənilər Dağlıq Qarabağ və ətraf rayonları ilə birlikdə, Azərbaycan ərazisinin təqribən 20%-ni işğal etdilər.

1993-cü ildə BMT-nin Ermənistanın işğalçı qoşunlarının Azərbaycandan qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsi qəbul olunsa da, sonrakı dövrdə onların heç biri yerinə yetirilmədi. Daha dəqiq desək, bu sənədlərə səs vermiş beynəlxalq ictimaiyyət onu icra etməyi Ermənistandan tələb etmədi. Sülh danışıqlarının ilk günündən Azərbaycan bu prosesə sadiq qalmaqla yanaşı, həm də hərbi imkanlarını müasir çağırışlara uyğun olaraq davamlı şəkildə artırıb. İkinci Qarabağ müharibəsi zamanı ortaya çıxan bir çox həqiqətlər ölkə başçısının nə qədər düzgün mövqe tutduğunu göstərir. Belə ki, Prezident İlham Əliyevin ötən 17 ildə daha çox diqqət yetirdiyi məsələ ordu quruculuğu idi. Ölkə rəhbəri müdrik və uzaqgörən siyasətçi kimi proseslərin nəticəsini əvvəlcədən görürdü.

*İkinci Qarabağ müharibəsi və tarixi ədalətin bərpası.* İlham Əliyevin həyata keçirdiyi irimiqyaslı layihələr nəticəsində, dövlətin hərbi büdcəsi nəzərəçarpacaq dərəcədə artırıldı, müxtəlif xarici ölkələrdən silah-sursat, hərbi texnika alındı. Hərbi kadrların hazırlanmasında və Silahlı Qüvvələrimizin müasir texnologiyalarla təchiz olunmasında türkiyəli mütəxəssislər mühüm rol oynadılar. İki ölkənin silahlı qüvvələrinin iştirakı ilə birgə hərbi təlimlər müntəzəm xarakter aldı. Beynəlxalq vasitəçilər isə hadisələrin gedişini seyr etməklə kifayətlənir, təcavüzkarla təcavüz qurbanına eyni cür baxır, hətta Azərbaycanı mövcud reallığı qəbul edib ərazisinin 20 faizinin işğalı ilə barışmağa və Ermənistanla əlaqələri normallaşdırmağa çağırırdı. Onlar sözügedən münaqişəni hərbi yolla həllinin mümkünsüzlüyünü dəfələrlə bəyan etməklə əslində işğalçı Ermənistanı dəstəkləyir, təcavüzkarın konstruktiv danışıqlardan yayınmasına, münaqişəni bütün vasitələrlə uzatmasına şərait yaradırdılar. Türkiyə Respublikasının prezidenti R.T.Ərdoğanın təbirincə desək, beynəlxalq vasitəçilər 30 il ərzində münaqişənin həll olunmaması üçün əllərindən gələni əsirgəmədilər.

Prezident İlham Əliyevin "Təsadüfi deyil ki, mənim prezidentlik dövrümdə bizim hərbi xərclərimiz hər il büdcə xərcləri arasında birinci yerdə idi. Mən deyirdim və ya vətəndaşlara izah edirdim ki, bəli, bizim çoxlu başqa məsələlərimiz var, həllini gözləyən problemlər var. Ancaq bizim əsas problemimiz torpaqlarımızın işğal altında olmasıdır. Ona görə bizim xərclərimiz arasında birinci yerdə hərbi xərclər dayanır. Biz lazım olan texnikanı aldıq. Bu texnikanı, müasir silahları Azadlıq meydanında dəfələrlə keçirilmiş paradlarda nümayiş etdirirdik. Biz ordumuzu inkişaf etdirərkən ən qabaqcıl meyilləri nəzərdən keçirmişdik. Biz o silahları alırdıq ki, bu silahlar bizim üstünlüyümüzü təmin etsin və İkinci Qarabağ müharibəsi bunu göstərdi" – deyə, söyləməsi bunu bir daha təsdiq edir.

Məlum olduğu ki, Ermənistan heç vaxt işğal etdiyi rayonları qaytarmaq istəməyib. Erməni işğalçıları təqribən 30 il ərzində davam edən hərbi qarşıdurmada özünü həyasızcasına qalib kimi aparır və havadarlarının köməyi ilə əldə etdiyi mövqeləri axıradək qoruyub saxlayacağına ümid edirdi. Ona görə də İrəvan Ermənistan-Azərbaycan münaqişəsinin dinc vasitələrlə tənzimlənməsinə barmaqarası baxır, ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə keçirilən danışıqları sonsuzluğadək uzatmağa çalışırdı. Hərbi təcavüzə məruz qalmış, ərazisi işğal olunmuş, yüz minlərlə vətəndaşı yurd-yuvasından didərgin düşmüş Azərbaycan təbii ki, belə bir vəziyyətlə barışa bilməzdi. İşğalçı tərəfi sülhə məcbur etmək üçün son çıxış yolu hərbi güc faktorundan istifadə etmək idi. Halbuki, bunu Prezident İlham Əliyev də, qarşı tərəfə və onun havadarlarına təkrar-təkrar xəbərdarlıq edərək problemin hərbi vasitələrlə həllinin də istisna olunmadığını bildirirdi. Odur ki, müasir dövrün tələblərinə cavab verən ordu qurulması prioritet vəzifə kimi qarşıya qoyuldu.

Ordu quruculuğu istiqamətində görülən işlər getdikcə özünü göstərməyə başladı. Düşmən 2016-cı ilin aprelində və 2020-ci ilin iyulunda ordumuzun gücünü öz üzərində hiss etdi. Belə ki, 2020-ci ilin iyulun 12-də Ermənistanın silahlı qüvvələri artilleriya və iriçaplı silahların köməyilə Tovuz rayonunun Ağdam kəndi istiqamətində Azərbaycan silahli qüvvələrinin Azərbaycan-

Ermənistan sərhədindəki mövqelərinə hücuma keçdilər. Sözügedən hücum nəticəsində Azərbaycanın 11 hərbçisi həlak oldu, bir neçəsi yaralandı, həmçinin dinc sakinlər həyatlarını itirdilər, mülki obyektlərə, kəndlilərin evlərinə və xəstəxana binasına ciddi zərər yetirildi. Hücum üçün məhz Tovuzun istiqamət seçilməsinin səbəbi o idi ki, Ermənistanla dövlət sərhədi aktiv hərbi münaqişə zonası hesab olunmadığından, orada Azərbaycan hərbi qüvvələrinin əsas hissələri cəmləşməyib. Lakin, çox təəssüf ki, erməni işğalçıları yenə də anlamadılar ki, Azərbaycan 27 il əvvəlki Azərbaycan deyil və məqam gələndə ordu işə qarışacaq.

27 sentyabr 2020-ci il səhər saatlarında Ermənistan Silahlı Qüvvələri tərəfindən Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı və Şükürbəyli və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndləri 27 sentyabr 2020-ci il saat 06:00 radələrində iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğuları vasitəsilə intensiv atəşə tutuldu. Nəticədə Azərbaycanın mülki əhalisi arasında həlak olan və yaralananlar oldu, mülki infrastruktur obyektlərinə ciddi ziyan dəydi.

Buna cavab olaraq, Azərbaycan ordusunun komandanlığı tərəfindən Ermənistan ordusunun mənfur niyyətlərinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə qoşunların bütün cəbhə boyu sürətli əks-hücum əməliyyatlarına başlaması düşməndə dərin vahimə yaratdı. Qarşıdurmalar qısa müddətdə sürətlə alovlanaraq İkinci Qarabağ müharibəsinə çevrildi və Vətən müharibəsi başladı. 44 gün davam etmiş müharibə rəşadətli ordumuzun möhtəşəm qələbəsi ilə başa çatdı, Ermənistan isə Azərbaycanın şərtlərini qəbul edərək biabırçı məğlubiyyətə uğradı. Azərbaycanın zəfəri heç kimi təəccübləndirmədi: dünya Azərbaycan Silahlı Qüvvələrinin timsalında XXI əsrin ordusunu gördü.

İşğalda olan rayonlarımızda həyata keçirilən qanunsuz məskunlaşdırmalar, kommunikasiya xətlərinin çəkilməsi, onların adlarının dəyişdirilərək erməniləşdirilməsi də bunu təsdiq edirdi. Azərbaycanla Ermənistan arasında 28 il idi ki, nəticəsiz qalan sülh danışıqları beynəlxalq hüququn normalarının yerinə yetirilməməsi baxımından ən böyük müasir tarixi ədalətsizlik idi.

Halbuki, ondan əvvəl də, sonra da bu cür qətnamələrin elə beynəlxalq təşkilatların qərarları ilə məcburi şəkildə yerinə yetirilməsinə dair faktlar var və hansı ki, bu zaman xüsusən Qərb dövlətləri ədalətin təmin olunmasını yox, əsasən öz siyasi və iqtisadi maraqlarını güdüblər. Lakin müasir dövrdə beynəlxalq münasibətlər sistemi daha çox güc amilinə əsaslandığından, ayrı-ayrı dövlətlərin konyunktur və istilaçı maraqlarına xidmət etdiyindən bir çox hallarda bəzi ölkələrin və xalqların haqq səsi elə yerindəcə boğulur.

Beynəlxalq təşkilatların qətnamələri və beynəlxalq hüququn normaları əslində Azərbaycana ərazilərini güc yolu ilə həll etməyə imkan verirdi. O cümlədən BMT-nin nizamnaməsi də hər bir dövlətin güc yolu ilə öz ərazi bütövlüyünü təmin etmək hüququnu tanıyır. Azərbaycan da ərazilərini işğaldan azad edərək məhz bu hüquqa istinad etdi və uğurlu diplomatik fəaliyyətin ardından sübuta yetirdi ki, işğala güc yolu ilə son qoymaq mümkündür.

Digər tərəfdən, Azərbaycan diplomatiyası uğurlu fəaliyyəti ilə Ermənistanın və onun havadarlarının müxtəlif təşkilatlarda anti-Azərbaycan xarakterli sənədləri qəbul etdirmək cəhdlərinin qarşısını məharətlə aldı. Ermənistanın danışıqlar prosesində imitasiya etdiyi aydın idi. Bu gün işğal olunmuş ərazilərimizdə yer adlarının erməniləşdirilməsi, tarixi Azərbaycan ərazilərinə eybəcər adların verilməsi göstərir ki, Ermənistan həmin torpaqları danışıqlar yolu qaytarmaq niyyətində olmayıb. O cümlədən ermənilər tərəfindən cəbhə xəttində bir neçə mərhələli möhkəm istehkam mövqelərinin yaradılması da bunu təsdiq edir. Torpaqları azad etməkdən uzaq olan Ermənistan və onun havadarları, həmçinin beynəlxalq səviyyədə işğal siyasətinə hüquqi don geydirilməsi istiqamətində fəal iş aparırdılar. Lakin bütün hallarda Prezident İlham Əliyevin uğurlu diplomatiyası tərəfindən bu antiazərbaycançı fəaliyyətin qarşısı qətiyyətlə alındı.

Azğın düşmənin aqressiya yolu ilə işğal olunmuş torpaqlarımızdan çıxarılmasına gedən yolda tarixi həqiqətlər və real vəziyyət də davamlı şəkildə dünya ictimaiyyətinə çatdırılıb. Prezident İlham Əliyevin səyləri nəticəsində ölkəmiz Ermənistanın və havadarlarının yaratdığı mifləri dağıtmağı, informasiya müharibəsində üstünlük əldə etməyi bacarıb. Azərbaycan Prezidenti bütün beynəlxalq təmaslarda, ayrı-ayrı dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri ilə görüşlərində,

beynəlxalq tədbirlərdə iştirakı zamanı Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı ölkəmizin mövqeyini, tarixi və mövcud vəziyyət haqqında həqiqətləri daim dünya ictimaiyyətinə çatdırıb.

Öz milli haqqı olan ərazi bütövlüyü uğrunda 30 ilə yaxın idi ki, mübarizə aparan Azərbaycan da danışıqlar prosesində işğalçı Ermənistanın maraqlarına cavab verən bir mövqe ilə üz-üzə qalmışdı. Beynəlxalq hüquq Azərbaycanın tərəfində olsa da, ayrı-ayrı təşkilatların ölkəmizin mövqeyini müdafiə edən müvafiq sənədləri, o cümlədən BMT-nin qətnamələri olsa da, Ermənistanın himayə olunması və işğal siyasətinə göz yumulması reallıq idi.

Güclənən və inkişaf edən Azərbaycan günlərin birində torpaqlarını güc yolu ilə azad edə biləcəyini heç vaxt gizlətmədi. Azərbaycan Ordusu ilk gündən hücum əməliyyatlarını sürətlə həyata keçirərək işğal olunmuş ərazilərini azad etdi. Uğurlu hərbi əməliyyatlarla Prezident İlham Əliyev indiyə qədər bütün beynəlxalq təşkilatların qəbul etdikləri sənədlərdə yer alan tələbləri təmin etdi. Azərbaycan güc yolu ilə işğal olunmuş ərazilərimizi azad etməklə hüquqi ədaləti bərpa etdi.

Artıq Ermənistana və dünya erməniliyinə da agah idi ki, əgər Azərbaycan ən çətin vaxtlarında onların şərtlərini yaxına buraxmayıbsa, güclənikdən sonra istənilən vasitə ilə ərazilərini azad edəcək. İlham Əliyevin qətiyyətli siyasəti və hücum diplomatiyası hər addımda Ermənistanın işğal siyasətini laxladır, ifşa edirdi. Ermənistanın son hərbi təxribatları isə nəticə etibarilə Azərbaycanın gözlədiyi tarixi fürsəti təmin etdi və işğalçı layiqli cəzasını alaraq torpaqlarımızdan qovuldu.

Ermənistanla bağlı bütün siyasi dairələrdə birmənalı şəkildə ümumiləşən qənaətlərdən biri odur ki, bu ölkə və onun xalqı öz işğal siyasətinin, erməni millətçilərinin əsrlərdir formalaşdırdıqları və indi də davam etdirdikləri xəstə ideologiyanın qurbanıdır. Bu siyasətə uyğun olaraq ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan torpaqlarını işğal edən Ermənistanın hərbi-siyasi dairələri, o cümlədən Fransa kimi dövlətlərin timsalında dünya erməniliyi artıq hər şeyin bitdiyini, işğal olunmuş torpaqların zamanla erməni əraziləri kimi tanınacağını düşünürdülər. Ötən əsrin 90-cı illərinin sonlarından isə Ermənistanda hakimiyyət müharibə cinayətkarlarının əlinə keçdi. Tarix sübut edir ki, ancaq xəyallarla yaşayan sərsəm təfəkkürlü insanların hakimiyyətdə olduğu cəmiyyətlər yeniliklərdən və inkişafdan məhrumdurlar. Elə buna görə Ermənistanın hərbi-siyasi rəhbərliyi bu illərdə yalnız ölkəsi və ordusu haqqında mif yaratmaqla məşğul olub, büdcəsini isə işğal olunmuş Azərbaycan ərazilərinin talan edilməsi və diasporun yardımı hesabına doldurub. Ona görə Ermənistanın bu günü ilə ötən əsrin 90-cı illəri arasında demək olar ki, fərq yoxdu.

XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan müharibəni deyil, döyüşü uduzmuşdu. Lakin, 1994-cü ildə imzalanan atəşkəs müharibənin bitməsi deyildi. O illərdən Heydər Əliyevin başlatdığı siyasət Azərbaycanda gələcək inkişafın təməlini qoydu. İslahatlar, neft kontraktları Azərbaycanı getdikcə daha güclü dövlət etdi və təbii ki, bu amillər ölkənin beynəlxalq nüfuzunun artmasında, mövqelərinin möhkəmlənməsində, həqiqətlərinin dünya tərəfindən tanınmasında böyük rol oynadı. İşğalıçı siyasətin nəticəsində Cənubi Qafqazda həyata keçirilən irimiqyaslı layihələrdən məhrum olan və buna görə də, yerində sayan Ermənistandan fərqli olaraq Azərbaycan sosial-iqtisadi sahədə irəli gedərək özünü modern bir dövlət kimi formalaşdırmağa, dövrün tələblərinə uyğun inkişaf modelini təmin etməyə nail oldu.

1994-cü ilin mayında atəşkəs haqqında Bişkek Protokolunun qüvvəyə minməsindən 2020-ci il sentyabrın 27-dək olan müddətdə Azərbaycan Silahlı Qüvvələrinin formalaşdırılması, peşəkar ordu quruculuğu istiqamətində görülən işlərin nəticəsidir ki, bu gün düşmən ciddi müqavimətlə üzləşərək döyüş meydanında bir-birinin ardınca ağır məğlubiyyətə məruz qaldı.

1994-cü ilin atəşkəsindən bəri, ötən dövrün təhlili göstərir ki, Azərbaycan heç vaxt bu reallıqla barışmadı, bir gün də olsun ruhdan düşmədi və bütün diplomatik müstəvilərdə ərazi bütövlüyünün təmin olunması istiqamətində fəal iş apardı. “Heç vaxt biz bu vəziyyətlə barışmaq fikrində deyildik. Mən Prezident kimi bu illər ərzində əlimdən gələni edirdim ki, Dağlıq Qarabağ məsələsi daim gündəlikdə olsun, özü də daim gündəliyin mərkəzində olsun” - deyə Prezident İlham Əliyev xalqa müraciətində bu barədə bildirib.

Müasir tariximizin ən şərəfli səhifəsi olan İkinci Qarabağ müharibəsi Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə nəticələndi. Sentyabrın 27-dən Dağlıq Qarabağda başlanan hərbi əməliyyatlar ilk gündən iki ölkənin atəşkəs dövründə inkişafı ilə fərqi ortaya qoydu. Bu inkişafın təsdiqi ilk növbədə Azərbaycanın döyüş əməliyyatlarını ən müasir vasitələrlə həyata keçirməsi oldu. Hətta Ermənistanın

son dərəcədə möhkəmləndirdiyi səngərlər, təbii istehkam rolunu oynayan yüksəkliklər də işğalçı ordunu xilas edə bilmədi. Bu müharibədən qalib çıxan xalqımız öz haqqı uğrunda əvvəldən axıra kimi ləyaqətlə, inamla mübarizə apardı. 44 gün davam edən hərbi əməliyyatlarla pozulmuş hüquqlarını bərpa edən Azərbaycan tək Ermənistana deyil, dünya erməniliyinə sağalmaz zərbə vurdu.

Prezident İlham Əliyev təkcə hərb meydanında qazanılan qələbənin baş memarı deyil, eyni zamanda, Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış münaqişənin gedişində blokdaya salınmış Naxçıvana gedən yolun tikintisinə dair maddənin üçtərəfli bəyanata daxil edilməsinə nail olmaqla həm bu regionun problemini həll edən, həm də bütövlükdə daha genişmiqyaslı geoiqtisadi layihənin icrasına imkan yaratmış zəmanəmizin görkəmli strateqi, dövlət və siyasi xadimidir. Həmin maddədə nəzərdə tutulanların yerinə yetirilməsilə Naxçıvanın blokadasına son qoyulacaq, İğdır - Naxçıvan dəmir yolunun tikintisi ilə Azərbaycan Türkiyə üzərindən Avropaya çıxa, eyni zamanda, Fars körfəzinə enə biləcək, Naxçıvan dünyanın mühüm nəqliyyat-kommunikasiya mərkəzinə çevriləcək, Türkiyənin türk dünyası ilə quru əlaqəsi qurulacaq. Bu yol Rusiyaya Azərbaycan və Türkiyə üzərindən Avropaya çıxmağa imkan verəcək, beləliklə, regionda iqtisadi əməkdaşlıq canlanacaq.

Prezident İlham Əliyev təkcə hərb meydanında deyil, diplomatik-siyasi sahədə də ustalıqla və böyük məharətlə qələbə qazanaraq zəmanəmizin görkəmli diplomatı olduğunu təsdiq etdi. Məlum olduğu kimi, müharibənin aparılması üçün ya əlverişli beynəlxalq şərait yaradılmalıdır, ya da ondan istifadə edilməlidir. Azərbaycan dövləti uzun illər boyu apardığı gərgin iş və yürütdüyü siyasət ilə əlverişli beynəlxalq şərait yaratmağa nail oldu. BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyü, Qoşulmama Hərəkatına sədrlik, Azərbaycan-Rusiya-İran, Azərbaycan-Türkiyə-Gürcüstan üçtəfərli formatda əməkdaşlığının səmərəliliyi 44 gündə öz bəhrəsini verdi. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin "Dağlıq Qarabağ və ətraf rayonlar Azərbaycan Respublikasının ərazisidir” deyərək müharibədə haqq-ədalətin yanında oldu.

*Nəticə.* Daşnaksütyun partiyasının 1947-ci ilin Tehran şəhərində keçirilmiş XIV konqresində belə bir müddəa səsləndirilmişdi: “Ermənistan yalnız türklər tərəfindən tutulmuş torpaqları yox, həm də Azərbaycana və Gürcüstana “bağışlanılmış” torpaqları da özünə birləşdirməlidir” (4, 21). Göründüyü kimi, ermənilər təkcə bizim üçün yox, bütün region dövlətləri üçün təhlükə mənbəyi olaraq qalırdı. Məhz bu baxımdan, Azərbaycanın zəfəri, eyni zamanda, ermənilərin birbaşa və ya gizli şəkildə əsassız ərazi iddiaları irəli sürdükləri Gürcüstan, Rusiya, Türkiyə və İranın da qələbəsidir. Məsələn, ermənilər Gürcüstanın Cavaxeti bölgəsini Ermənistana birləşdirmək üçün separatçılıq fəaliyyətlərini genişləndirərək belə hesab edirlər ki, onların təminatçısı guya Tbilisi deyil, İrəvandır. Heç əbəs deyildir ki, bir çox gürcü alimləri Azərbaycanın qələbəsini Gürcüstanın qələbəsi kimi qiymətləndirirlər. Deməli, Vətən müharibəsindəki şanlı qələbəmiz tarixi ədalətin bərpası və təntənəsidir!

## ƏDƏBİYYAT

1. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. S.Əsədovun red. ilə. Bakı, Gənclik, 1995, 464 s.
2. Əsədov F., Kərimova S. Çarizmi Azərbaycana gətirənlər. Bakı, Gənclik, 1993, 138 s.
3. Həsənov H. Söz və ad. Bakı, Maarif, 1984, 96 s.
4. Məhərrəmov N. Daşnaksütyun və Azərbaycanın taleyi. Bakı, Azərnəşr, 1995, 96 s.
5. Аббасов Ф. Гарабагское ханство. Баку, Тахсил, 2007, 278 с.
6. Большая Советская Энциклопедия. Том 3. М., 1970, 706 с.
7. Шаумян С. Бакинская Коммуна. Баку, Красный восток, 1927, 118 с.
8. Шаумян С. Статьи и речи (1908-1918). Баку, Бакинский рабочий, 1924, 231 с.

**ASMAD MUKHTAROVA**
*Professor of Baku State University*

## OUR GLORIOUS VICTORY IN THE PATRIOTIC WAR – RESTORATION AND TRIUMPH OF HISTORICAL JUSTICE

Historical Armenian nationalism originates from the delusional ideas of M.Chamchyan and is mainly built around the idea of creating, strengthening and further expanding a free, united and independent "Armenian state" within the historical territories of Azerbaijan and Turkey, being closely related to the ideas of "Great Armenia". In the first third of the twentieth century, having joined by force of arms and systemic unequal treaties, tsarist Russia in order to create a Christian outpost against the local Azerbaijani-Muslim population began to carry out a massive planned resettlement of Armenians to our territories. As a result, a large number of Armenians were settled in Garabagh. After that, the Armenian migrants began to declare their claims to this and other lands of Azerbaijan. From that moment on, never-ending destructive military conflicts began in our homeland.

Officially referred to in Azerbaijan as the "Patriotic War" and the "Second Karabakh War", large-scale hostilities between the armed forces of Azerbaijan, on the one hand, and the armed formations of the unrecognized Nagorno-Karabakh Republic (NKR) and Armenia, on the other, which became the longest and bloodiest in the region since the end of the Karabakh war in 1994. The counter-offensive of Azerbaijani troops with a large-scale use of aviation, armored vehicles, artillery, and drone UAVs began on the morning of September 27, which ended within 44 days with the historic pebeda of our people.

*Keywords:* Second Karabakh War, Patriotic War, Armenian nationalism, genocide policy, historical justice, territorial integrity.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 dekabr 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2020-ci il.*
*Məqalə Redaksiya heyətinin qərarı ilə çapa məsləhət görülüb.*

QARABAĞ AZƏRBAYCANDIR!

**UOT 94 (479.24)**

**İRADƏ HÜSEYNOVA**
*Bakı Dövlət Universitetinin "Qafqaz xalqları tarixi" kafedrasının müdiri,*
*tarix elmləri doktoru, professor, Azərbaycan Respublikasının Əməkdar müəllimi,*
*Elm, təhsil və innovasiyaların inkişafında xidmətlərinə görə Beynəlxalq "Sokrat" mükafatı laureatı,*
*Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü və həmin akademiyanın*
*Beynəlxalq Qızıl ulduz mükafatı laureatı*
**E-mail: iradahuseynova@bsu.edu.az**

# MÜASİR AZƏRBAYCAN TARİXİNİN BANİSİ: İLHAM ƏLİYEV AZƏRBAYCAN TARİXİNƏ ADI ƏBƏDİ YAZILMIŞ ALİ BAŞ KOMANDAN

*Ərazi bütövlüyümüzü bərpa etmişik, işğalçıları işğal edilmiş torpaqlardan qovmuşuq, ikinci erməni dövlətinin yaradılmasına imkan verməmişik, heç bir status haqqında söhbət gedə bilməz. Vahid Azərbaycan dövləti var. Çoxmillətli, çoxkonfessiyalı, mütərəqqi Azərbaycan dövləti var. Bütün Azərbaycan vətəndaşları, bütün xalqların, dinlərin nümayəndələri normal yaşayırlar, mehribanlıq, sülh şəraitində yaşayırlar.*

**İlham Əliyev**

*Məqalədə 44 gün davam edən və Azərbaycanın şanlı qələbəsi ilə başa çatan İkinci Qarabağ müharibəsi təhlil edilir, işğaldan azad edilən rayonlar barədə xronoloji ardıcıllıqla məlumat verilir. Müəllif qeyd edir ki, 30 ilə yaxın müddət ərzində Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlayan, bu gün mübariz və qəhrəman Azərbaycan ordusunun əks-hücumları nəticəsində geri çəkilməyə və təslim olmağa məcbur olan Ermənistan tərəfindən Azərbaycana qarşı törədilən terror, soyqırımı və təcavüz siyasəti yüz illərlə əvvəl başlayan tarixə malikdir. Oxuculara təqdim edilən icmal xarakterli qısa tarixi ekskurs faktlara əsasən sübut edir ki, ermənilər Qafqaz regionuna XIX əsrdən etibarən miqrasiya etmiş, "Böyük Ermənistan" dövləti qurmaq üçün terrorizmi ən optimal yol olaraq seçmişlər. Məqalə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə azad edilən kənd və şəhərlərimizdə, o cümlədən alınmaz qala Şuşada artıq Azərbaycan bayrağının ucaldığını, ermənilər tərəfindən yerlə-yeksan edilən yaşayış məntəqələrimizdə artıq quruculuq işlərinə başlandığını böyük sevinclə təqdim edir. Müəllifin qənaətincə, İkinci Qarabağ müharibəsinin nəticələrinin ilkin təhlilinə əsasən, Azərbaycan rəhbərliyi həm hərbi, həm də diplomatik sahədə mühüm əhəmiyyət kəsb edən qələbə qazanmışdır.*

*Açar sözlər*: ermənilərin Qafqaza köçürülməsi, erməni terror təşkilatları, Cənubi Qafqaz, İkinci Qarabağ müharibəsi, Şuşa, Azərbaycan ordusu.

*Giriş.* Bəşəriyyətin insanlığa məlum olan bütün tarixi boyu müharibəsiz və münaqişəsiz keçən, ümumi sülh və əmin-amanlığın hökm sürdüyü illər çox nadir hallarda olmuşdur. Tədqiqatlara əsasən, Yer kürəsində insanın mövcud olduğu illər ərzində cəmi 240(!) il müharibə baş verməyib. Qalan bütün dövrlərdə insanlar və dövlətlər bir-biri ilə hərbi qarşıdurmada olmuşlar. İsveçrə alimi Jan Jak Babelin 1959-cu ildə apardığı hesablamalara görə, son beş min il ərzində dünyada 15000 müharibə və silahlı münaqişə baş vermişdir. Təkcə ötən əsrdə - 1945-ci ilin 15 avqustu ilə (Yaponiyanın təslim olduğu tarix) 1993-cü ilin 1 avqustu arasında, cəmi 48 il ərzində 130-dan yuxarı münaqişə müşahidə olunub. Bu toqquşmalara cəlb olunan ölkələrin sayı 832-yə çatıb. R.Ceksonun araşdırmalarına görə, 1945-ci ildən sonra planetimizdə cəmi 26 müharibəsiz gün olmuşdur [1, 34 p.] Bütün müharibələrin –istər ədalətli, istərsə də ədalətsiz, istər qısamüddətli, istərsə də uzun müddətli müharibələrin sonu sülhdür. Bu kiçik mavi planetin sakinləri əvvəl-axır sülh şəraitində yaşamağa məhkumdurlar, çünki sülhün heç bir alternativi yoxdur.

Budur, Azərbaycan Respublikasının Ermənistan tərəfindən cəlb olunduğu və cəmi 44 gün davam edən müharibə də - İkinci Qarabağ müharibəsi başa çatdı: ölkəmiz təxminən 30 il davam edən işğaldan sonra torpaqlarımızı azad edərək və Azərbaycanın ərazi bütövlüyünü bərpa edərək şanlı

qələbə qazandı. Son 300 ildə (1722-ci ildə Səfəvilərin işğal olunmuş torpaqları geri qaytarması) ilk dəfə idi ki, Azərbaycanın işğal altında qalan əraziləri igid sərkərdəmizin – dövlətimizin başçısının rəhbərliyi ilə geri qaytarıldı. Bu qələbə ilə müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycanın yeni tarixinə qızıl hərflərlə yazılacaq sətirlərin müəllifi oldu və öz adını da tarixə əbədi yazdı.

Azərbaycan Respublikası geosiyasi və geostrateji əhəmiyyətinə görə dünyanın ən əlverişli bölgələrindən birində yerləşir. Avropa ilə Asiyanın qovuşuğunda, Şərq-Qərb sivilizasiyalarının kəsişməsində, qədim karvan yollarının üzərində qərar tutan Azərbaycan lap qədim dövrlərdən səyyahların, yadellilərin, qonşu dövlətlərin marağını cəlb etmiş, öz azadlığı və müstəqilliyi uğrunda qanlı-qadalı mübarizələr aparmalı olmuşdur. Bu mübarizələrdən sonuncusu bu günlərdə böyük və şanlı zəfərlə başa çatmışdır. Müstəqil Azərbaycan dövləti artıq 30 ildir ki, erməni işğalı altında olan doğma torpaqlarımızın tam azad edilməsi üçün qətiyyətli addımlar ataraq, ikinci Qarabağ müharibəsində qələbə qazanmışdır.

Ümummilli liderimiz Heydər Əliyev 1991-ci ildə Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyasında torpaq məsələsinin xalqımızın tarixində əsas amal olduğunu göstərərək deyirdi: "Əsrlər boyu Vətən, torpaq anlayışı xalqımızın ləyaqətini, mənliyini, şərəfini əks etdirmişdir. Xalq öz torpağının müqəddəsliyini qorumaq üçün onun uğrunda ölüm-dirim mübarizəsi aparmışdır, ulu babalarımız Vətən torpağının hər bir qarışını namus simvolu kimi qorumuş, onun yolunda canlarını, övladlarını qurban verməkdən çəkinməmişdir" [2, s. 55].

30 ilə yaxın müddət ərzində Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlayan və bu gün mübariz və qəhrəman Azərbaycan ordusunun əks-hücumları nəticəsində geri çəkilməyə və təslim olmağa məcbur olan Ermənistan tərəfindən Azərbaycana qarşı törədilən terror, soyqırımı və təcavüz siyasəti yüz illərlə əvvəl başlayan tarixə malikdir [3; 4; 5]. XX əsrin 90-cı illərində yenidən amansızlıqla həyata keçirilən həmin işğalçı-terror siyasətinin prioritet istiqamətlərini "dənizdən-dənizə Böyük Ermənistan" dövlətinin qurulması, bu məqsədlə qonşu dövlətlərə, ilk növbədə isə Azərbaycan və Türkiyəyə, eləcə də Gürcüstana, hətta Rusiyaya qarşı ərazi iddialarının irəli sürülməsi təşkil edir.

Dövlətçiliyimizə və ərazi bütövlyümüzə qarşı törədilən silahlı təcavüzlə transmilli mübarizə hələ xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən başlanmışdır. Bu gərgin, hərtərəfli iş, Ermənistanın bu cinayətə görə beynəlxalq hüquqi məsuliyyətinin reallaşdırılması ilə bağlı strategiya bu gün dövlət başçısı cənab İlham Əliyev tərəfindən güclü siyasi iradə və böyük əzmkarlıqla davam etdirilir. Ümummilli lider Heydər Əliyevin 1997-ci il 18 dekabr tarixli "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" fərmanı ilə həmvətənlərimizin Qərbi Azərbaycandakı ata-baba yurdlarından zorla köçürülməsinin, Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə dövlət komissiyası yaradılmışdır [6; 7].

Bundan bir müddət sonra – 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı haqqında" fərman imzalayan ulu öndər Heydər Əliyev gənclərin tarixi həqiqətlərlə tanışlığına daha geniş meydan açmış, onları mübarizə ruhunda kökləmişdir. 1918-ci ilin məlum mart hadisələrinin 80-ci ildönümündə imzalanmış fərman erməni millətçilərinin hərəkətlərinə verilən ilk dolğun və hərtərəfli hüquqi-siyasi qiymətdir. Bu fərman gənc nəsildə milli yaddaşın qorunması baxımından bir növ proqram sənədidir. Əsrlər boyu azərbaycanlılara qarşı aparılmış soyqırımı və deportasiya siyasətini geniş təhlil edən tarixi sənəd əsasında martın 31-i hər il Azərbaycanlıların soyqırımı günü kimi qeyd olunur. Fərmanda göstərilirdi ki, "Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif olunmuş hadisələr özünün əsl qiymətini alır. Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir" [8].

Məlum olduğu kimi, Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra ölkə rəhbərliyi 1918-ci ilin mart hadisələrinə xüsusı diqqət yetirmiş, Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etmişdi.

Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırmış, bu həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusı qurum yaradılmışdı. 1919 və 1920-ci illərdə mart ayının 31-i Azərbaycan Xalq Cümhuriyyətı tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı prosesinə tarixdə ilk dəfə siyası qiymət vermək cəhdi olmuşdur. Lakin 1920-ci ilin aprelində bolşeviklərin hakimiyyəti qəsb etməsi nəticəsində Xalq Cümhuriyyətinin süqutu bu işləri yarımçıq qoymuş və nəticədə, Azərbaycan erməni-rus qüvvələrinin dəhşətli soyqırımının miqyasını dünyaya, beynəlxalq aləmə çatdıra bilməmişdir. Əvəzində isə ermənilər istər dünyaya səpələnmiş böyük diasporları vasitəsilə, istərsə də Ermənistanda daşnak hakimiyyətini əvəz etmiş sovet hakimiyyətinin təbliğat maşınının köməyi ilə qondarma "soyqırımı" kampaniyasına geniş vüsət vermişlər.

1988-ci ildən başlayan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tarixində ən müdhiş hadisələrdən biri Xocalıda baş vermiş soyqırımı oldu. 6 min nəfər azərbaycanlının yaşadığı bu şəhər bir gecə ərzində məhv edildi. Xocalının yer üzündən tamamilə silinməsində erməni silahlı qüvvələrinə sovet ordusunun 366-cı alayı da yardım etdi. Nəticədə, 613 nəfər qətlə yetirildi, 150 nəfər itkin düşdü. Qanlı faciədə 1000 nəfər dinc sakin şikəst oldu. Bu hadisə XX əsrin ən dəhşətli və qəddar faciələrindən biri hesab edilə bilər. Xocalı faciəsi tarixdə bizə məlum olan Babiyar, Xatın, Liditse, Sonqmi faciələri ilə eyni səviyyədə durur.

Hesab edirəm ki, Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonrakı dövrdə fəaliyyətinin əsas istiqamətlərindən biri məhz Azərbaycan ətrafında yaradılan informasiya blokadasının aradan götürülməsi idi. Dahi şəxsiyyətin xarici ölkələrə hər bir səfəri ən mühüm problemimiz olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyətinin açıqlanmasında, dünya ictimaiyyətinə çatdırılmasında əhəmiyyətli rol oynayırdı. Tarixi faktlar əsasında bəyan edildi ki, ermənilərin özlərinə saxta tarix yazıb, apardıqları yalan təbliğatın əksinə olaraq, soyqırımına məruz qalan onlar yox, məhz azərbaycanlılardır.

Fəxr edirik ki, Ümummilli Liderimiz, müasir Azərbaycanın memarı, əbədi rəhbərimiz Heydər Əliyevin misilsiz, alternativi olmayan siyasətini və ideyalarını möhtərəm cənab Prezident İlham Əliyev hazırda çox böyük uğurla davam etdirir. Bu uğurları davamlı olaraq biz həyatımızın bütün sahələrində görürük və hərbi sahə də istisna deyil. 44 günlük İkinci Qarabağ müharibəsini şanlı qələbə ilə başa vurmağımız və Ermənistanın faktiki təslim olması bunun bariz nümunəsidir. Prezident İlham Əliyev dövlət başçısı kimi fəaliyyətə başladığı ilk gündən "Biz müdafiədə deyil, hücumda olmalıyıq" - deyərək erməni işğalçılarına qarşı effektiv əks-hücumun təşkilini mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmişdir.

Ali Baş komandan İlham Əliyevin rəhbərliyi ilə 2016-cı ilin aprelində cəbhə xəttində rəşadətli Azərbaycan ordusunun əks-hücumu və düşmənə vurduğu ağır zərbələr nəticəsində erməni silahlı birləşmələri ciddi itki – həm canlı qüvvə və həm də texnika sarıdan – verərək geri çəkilmişdilər. İgid əsgərlərimiz bir neçə strateji yüksəkliyi və yaşayış məntəqəsini ələ keçirmiş və üçrəngli bayrağımızı düşməndən azad edilmiş həmin ərazilərimizdə dalğalandırmışdılar. İşğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində insanlar məskunlaşmışlar. Dövlətimizin hərtərəfli qayğısı və dəstəyi sayəsində burada soydaşlarımız üçün hər cür şəraiti olan evlər tikilmiş, insanlarımız bütün zəruri vasitələrlə təmin edilmişlər.

Bütün bunlar digər sahələrdə olduğu kimi, hərbi sahədə də ölkə rəhbərliyi tərəfindən uğurlu siyasət aparıldığını bir daha sübut edir. Ümummilli liderimiz Heydər Əliyevin yaratdığı və formalaşdırdığı Azərbaycan Milli Ordusu hazırda dünyanın güclü ordularından biri hesab edilir. Bu ordu işğal altında olan torpaqlarımızın tamamilə azad edilməsi üçün bütün zəruri vasitələrlə təmin edilmişdir, Vətənin ərazi bütövlüyünün bərpa edilməsi naminə döyüşə atılmaq üçün böyük ruh yüksəkliyinə malikdir və bunu 2016-cı ilin aprel döyüşləri də, bu il sentyabrın 27-dən davam edən uğurlu döyüş əməliyyatları da sübut etdi. Möhtərəm Prezidentimiz İlham Əliyev ulu öndərin siyasətinə sadiq qalaraq, torpaqlarımızın bir qarışının da düşmənə verilməyəcəyini, Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılmasına xalqımızın heç vaxt yol verməyəcəyini qətiyyətlə bəyan etmişdir.

Noyabrın 23-də işğaldan azad edilmiş Ağdamda səfərə olarkən müzəffər Ali Baş Komandan cənab İlham Əliyev ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi məsələsinin hər an gündəmdə

prioritet məsələ olduğuna diqqəti çəkərək demişdir: “Biz bu torpaqlara Azərbaycan xalqının, şəhidlərimizin canı, qanı bahasına, qəhrəmanlarımızın şücaəti hesabına qayıtmışıq. Biz güc toplamalı idik və toplayırdıq. Mən son 17 il ərzində xalqa müraciət edərkən dəfələrlə deyirdim ki, biz daha güclü olmalıyıq, daha qüdrətli ordu qurmalıyıq. Bu gün dünyada güc amili həlledici rol oynayır. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, güc də bizim tərəfimizdə olmalıdır. Məhz gücümüzün yetərli dərəcədə olmaması nəticəsində Azərbaycan 1990-cı illərin əvvəllərində işğala məruz qalmışdır. Biz güc toplayırdıq, güclənirdik. Mən deyirdim ki, hər gün hər bir Azərbaycan vətəndaşı bu müqəddəs günü, bu zəfər gününü öz əməyi, zəhməti, Vətənə olan sədaqəti ilə yaxınlaşdırmalıdır” [9]. Həqiqətən də ötən illər ərzində ölkə rəhbərliyi tərəfindən beynəlxalq müstəvidə böyük işlər görülürdü. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən 4 qətnamə qəbul edilmişdi, sonradan isə BMT Baş Assambleyası, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası müvafiq qərar və qətnamələr qəbul etmişdilər. Bu hüquqi baza Azərbaycanın siyasi müstəvidə qələbə qazanması demək idi.

Düşmən üzərində möhtəşəm qələbə qazanmaq naminə düşünülmüş siyasət yeridən, bu yolla addım-addım irəliləyən Azərbaycan rəhbərliyi ölkə iqtisadiyyatının güclənməsi və iqtisadi potensialımızın artırılması üçün lazımi islahatlar aparırdı. İqtisadi cəhətdən müstəqil olmayan hər hansı dövlət siyasi müstəqillik də əldə edə bilməz. Digər bir mühüm məsələ Azərbaycanın hərbi qüdrətinin artırılması idi ki, cənab prezident bunu ən prioritet məsələlərdən hesab edirdi. Məlum olduğu kimi, ölkəmizin hərbi büdcəsi Ermənistanın ümumi dövlət büdcəsinə bərabərdir. Prezidentin vurğuladığı kimi, bizim əsas problemimiz torpaqlarımızın işğal altında olmasıdır. Ona görə bizim xərclərimiz arasında birinci yerdə hərbi xərclər dayanır. Biz lazım olan texnikanı aldıq. Bu texnikanı, müasir silahları Azadlıq meydanında dəfələrlə keçirilmiş paradlarda nümayiş etdirirdik. Biz ordumuzu inkişaf etdirərkən ən qabaqcıl meyilləri nəzərdən keçirmişdik. Biz o silahları alırdıq ki, bu silahlar bizim üstünlüyümüzü təmin etsin və İkinci Qarabağ müharibəsi bunu göstərdi.

Məlum olduğu kimi, humanist, sülhpərvər siyasət yeridən Azərbaycan rəhbərliyi torpaqlarımızın yalnız sülh və danışıqlar yolu ilə qaytarılacağına çalışır, hərbi əməliyyatları yalnız son çıxış yolu hesab edirdi. Cənab İlham Əliyev bəyan edirdi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli həm siyasi, həm hərbi yollarla mümkündür. Biz uzun illər ərzində bu məsələni siyasi yollarla həll etməyə çalışırdıq. Ancaq bütün dünya gördü ki, məhz Ermənistanın mövqeyinə görə bu məsələ öz həllini tapmamışdır və məsələnin hərbi yollarla həll edilməsi bizim qanuni hüququmuz idi. Bu hüququ beynəlxalq norma və prinsiplər tanıyır. Bu hüquq bizə BMT Nizamnaməsi tərəfindən verilibdir. Hər bir ölkə özünü müdafiə edə bilər və biz də özümüzü müdafiə etmişik. Ermənistanın hazırkı rəhbərliyi isə daha aqressiv bəyanatlar verərək, danışıqlara heç bir yer qoymurdu. Lakin azğın düşmən atəşkəs dövründə daim təxribatlar törətməkdə, dinc sakinləri güllləbaran etməkdə davam etmişdir.

Bu il iyulun 12-də Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətindəki mövqelərimizi ələ keçirmək məqsədilə artilleriya atəşindən istifadə edərək hücuma keçməyə cəhd göstərmişdilər. İyulun 13-14-də Tovuz rayonu istiqamətində şiddətli döyüşlər zamanı düşmənə sarsıdıcı atəş zərbələri endirildi. Düşmənin 100-ə qədər canlı qüvvəsi, çoxlu sayda döyüş və nəqliyyat texnikası, mühüm obyektləri məhv edildi. Ali Baş komandan İlham Əliyev oktyabrın 4-də “Əl-Ərəbiyyə” telekanalına müsahibə verərkən demişdir: “Ermənistan təkcə mülki əhalinin yaşadığı kəndləri ağır artilleriyadan istifadə etməklə atəşə tutmaqla yox, eyni zamanda, işğal olunmuş ərazilərdə əcnəbilərin qanunsuz məskunlaşmasını təmin etməklə Cenevrə Konvensiyanı kobud şəkildə pozur. Biz ərazilərimizin azad olunmasını istəyirik, biz iki ölkə arasında olan münaqişənin həllini tapmağa imkan yaratmaq üçün mandatı olan vasitəçilərə çox güvənirdik. Lakin danışıqlar masasında konstruktiv yanaşma nümayiş etdirmək əvəzinə Ermənistan iyul ayında bizə qarşı hərbi hücuma keçdi və biz onlara adekvat cavab verdik”.

Avqust ayında Ermənistan növbəti hərbi təxribata əl atdı. Bu dəfə Azərbaycana diversiya qrupu göndərildi. Avqustun 23-də cəbhənin Goranboy rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin diversiya-kəşfiyyat qrupu təxribat törətməyə cəhd göstərdi. Cəbhənin bu istiqamətdə yerləşən qəhrəman Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən qəti tədbirlər nəticəsində düşmən itki verərək geri çəkilməyə məcbur edildi. Döyüş zamanı erməni diversiya qrupunun

komandiri, baş leytenant Qurgin Alberyan əsir götürüldü. Diversiya qrupu başçısının ifadələrinə əsasən, bu qrup Azərbaycana terror aktları törətmək üçün göndərilmişdi.

İkinci Qarabağ müharibəsinin başladığı gün – sentyabrın 27-də Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutmağa başladılar. 30 il ərzində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, danışıqlar masası arxasında, beynəlxalq hüquq əsasında ədalətli həll olunması üçün səylə çalışan Azərbaycan Respublikası məhz sentyabrın 27-nə qədər bu istiqamətdə fəaliyyət göstərdi. Lakin düşmənin bütün cəbhə boyu genişmiqyaslı hücuma keçməsi, baş nazir N.Paşinyanın son vaxtlar verdiyi sərsəm bəyanatlar və Ermənistanın hərbi-siyasi rəhbərliyinin qeyri-konstruktiv mövqeyi münaqişənin hərbi yolla həllindən başqa heç bir yol qalmadığını sübuta yetirdi. Düşmən hücumunun elə ilk günü, sentyabrın 27-də igid ordumuzun uğurlu əks-hücum əməliyyatları nəticəsində bir sıra kəndlər erməni işğalçılarından təmizləndi. Oktyabrın 3-də Madagiz də mənfur düşmən tapdağından qurtuldu və onun əvvəlki adı – Suqovuşan bərpa edildi. Torpaqlarımızı işğaldan qurtarmaq naminə canını və qanını belə, əsirgəməyə hazır olan igid Azərbaycan əsgərinin şücaəti sayəsində oktyabrın 4-də Cəbrayıl şəhəri və rayonun 9 kəndi 27 ildən sonra düşməndən azad edildi. Ali Baş Komandan cənab İlham Əliyev bu münasibətlə xalqa müraciətində demişdir: "Biz bu gün xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq. Biz bu gün tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır. Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, yaradıb, qurub, tikib. Ancaq uzun illər ərzində - 30 ilə yaxındır ki, erməni cəlladları torpağımızı işğal edib, bizim bütün tarixi, dini, mədəni abidələrimizi darmadağın edib dağıdıblar... Biz bütün şəhərləri bərpa edəcəyik. Ermənilər tərəfindən dağıdılmış bütün məscidlərimizi bərpa edəcəyik. Bu bölgələrə həyat qayıdacaq" [10].

Nə xoşbəxtik ki, Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun düşmən üzərində möhtəşəm qələbələri nəticəsində artıq Suqovuşanda, Cəbrayıl şəhərində, Hadrut qəsəbəsində, Füzuli şəhərində, Horadiz qəsəbəsində, qədim Xudafərin körpüsündə, Zəngilanda, Ağbənd qəsəbəsində, Qubadlı şəhərində, Şuşada və Ağdamda Azərbaycanımızın üçrəngli bayrağı dalğalanır. Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun 2010-cu il iyunun 18-də təkbaşına döyüşərək xeyli sayda düşmən qüvvəsini məhv etdiyi posta da həmçinin Azərbaycanın dövlət Bayrağı sancılmışdır.

Lakin ermənilər öz ənənəvi xislətlərinə sadiq idilər: onlar döyüş meydanını qoyub-qaçır, cəbhə xəttindən xeyli kənarda yerləşən şəhər və kəndlərimizi atəşə tutur, dinc sakinləri qətlə yetirirdilər. Cəsur Azərbaycan ordusu düşmənin yalnız hərbi qüvvələrinə və obyektlərinə zərbə endirir, mülki əhalini və obyektləri hədəfə almırdı. 4 oktyabr 2020-ci il tarixdən başlayaraq döyüş bölgəsindən xeyli uzaqda – 60 km məsafədə yerləşən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə, o cümlədən strateji sənaye əhəmiyyəti daşıyan Beyləqan və Mingəçevir şəhərlərinin yaşayış məntəqələri raket və mərmilərlə atəşə tutuldu, nəticədə ölən və yaralananlar oldu. Erməni həyasızlığı heç bir sərhəd tanımır; düşmən Gəncənin raket zərbələri ilə dağıdılmış görüntülərini yayaraq, bunu azərbaycanlıların dağıtdığı erməni şəhəri kimi qələmə verdi! Erməni qəsbkarları Tərtər, Beyləqan və digər şəhərlərimizi də atəşə tutdular. Ermənistanın təcavüzkar siyasətinin davamı olaraq, 2020-ci il oktyabrın 28-də saat 13 radələrində düşmənin silahlı birləşmələri tərəfindən Bərdə şəhərinin dinc sakinlərin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin kompakt yerləşdiyi əraziyə böyük dağıdıcı qüvvəyə malik ballistik "claster" tipli 2 ədəd raket zərbələrinin endirilməsi nəticəsində 22 nəfər həlak oldu, 70 şəxs isə müxtəlif dərəcəli bədən xəsarətləri aldı. Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən baş vermiş hadisələrlə bağlı toplanmış materiallar əsasında Cinayət Məcəlləsinin 100.1-ci (təcavüzkar müharibəni planlaşdırma, hazırlama və ya başlama), 116.0.7-ci (müdafiə olunmayan ərazilərə, yaşayış məntəqələrinə və silahsızlaşdırılmış zonalara hücum etmə), 116.0.8-ci (hərbi hədəf olmayan, aydın görünən və fərqləndirilən dini, təhsil, elm, xeyriyyə, tibb obyektlərinə, xəstə və yaralıların yerləşdirildiyi yerlərə hərbi zərurət olmadan hücum etmə), 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə adam öldürmə) maddələri ilə cinayət işləri başlanıb, istintaq qrupları yaradılmaqla operativ istintaq hərəkətləri icra olunmaqdadır.

Ali Baş Komandan müharibə zamanı müxtəlif nüfuzlu əcnəbi televiziya kanallarına müsahibələr verdi və beynəlxalq aləmdə formalaşmış yanlış təsəvvürləri büsbütün dağıtdı. Bu müsahibələrin hər biri, hər bir cümləsi altından qırmızı xətt çəkiləsi, xalqın ürəyindən xəbər verən sözlərdir. Türkiyənin "A Haber", ABŞ-ın "Fox News", İtaliyanın Rai-1, Almaniyanın ARD və s. televiziya kanallarına, Rusiyanın TASS və İnterfaks, İspaniyanın EFE informasiya agentliklərinə, Yaponiyanın "Nikkei", Fransanın "Figaro", İtaliyanın "La Repubblica" qəzetlərinə və s. müsahibələr zamanı dövlətimizin başçısı erməni faşizminin əsl simasını açıb-göstərmiş, erməni vandallığının ağlasığmaz cinayətlərini faktlarla sübut etmişdir. Müdrik prezidentimiz bəzi xarici müxbirlərin bəzən ittiham xarakterli, böhtan səpkili, qərəzli mövqe nümayiş etdirən qeyri-obyektiv və dezinformasiya səciyyəli suallarını güclü məntiq, əsaslı fakt və dəlillərlə cavablandırmış, onları dəmir məntiqli arqumentləri əsasında susdurmuşdur. Müsahibələr zamanı jurnalistləri Azərbaycanın yalnız öz doğma və müqəddəs torpaqlarını azad etdiyinə və hərb qayda-qanunlarını qətiyyən pozmadığına inandırmış, həqiqətin, haqqı-ədalətin kimin tərəfində olduğunu açıqlayaraq, beynəlxalq hüququn da bizim tərəfimizdə olduğunu söyləmişdir. Məsələn, Almaniyanın ARD telekanalının müxbirinin "Nəyə görə Qarabağ Azərbaycan üçün belə önəmlidir? Orada resurslar var, yoxsa bu, bir rəmzi məna daşıyır?" sualına cənab İlham Əliyev belə gözəl və sərrast cavab vermişdir: "Elzas və Lataringe sizin üçün önəmlidir? Bavariya sizin üçün önəmlidir? Yaxud Reyn-Vestfaliya? Bu, bizim torpaqdır, beynəlxalq səviyyədə tanınan bizim ərazimizdir. Bu, resurslar məsələsi deyil. Əsas resurslar burada, Bakıdadır. Bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir. Beynəlxalq hüquq və bütün beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz ədaləti bərpa edirik və biz BMT Təhlükəsizlik Şurasının 27 il ərzində kağız üzərində qalan qətnamələrini icra edirik". Ermənilərin guya etnik təmizləməyə məruz qalmasını iddia edən müxbirin fikirlərini təkzib edən prezident qeyd etmişdir ki, əslində etnik təmizləyə məruz qalan biz olmuşuq. Ermənilər Dağlıq Qarabağı və ətrafındakı 7 rayonu işğal edəndə məhz azərbaycanlılar etnik təmizləməyə məruz qaldılar. Lakin Azərbaycan ermənilərə qarşı etnik təmizləmə aparmır və bunu planlaşdırmır: "Biz birlikdə yaşamalıyıq" [11]. "BBC News" müxbirinin də təxminən eyni məzmunlu sualını – Dağlıq Qarabağda yaşayan erməni vətəndaşlara qarşı heç bir etnik təmizləmənin aparılmayacağı ilə bağlı zəmanət verilməsini Ali Baş Komandan qısa, lakin kəskin və tutarlı cavablandırmışdır: "Bəli. Biz ermənilər deyilik. Onlar bizə qarşı etnik təmizləmə törədiblər. Onlar Dağlıq Qarabağdan və ətraf yeddi rayondan bütün azərbaycanlıları qovublar. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində bizim bir milyon qaçqın və məcburi köçkünümüz var. Lakin biz eyni qaydada davranmayacağıq. Biz qisas almayacağıq. Mən dəfələrlə demişəm, hətta onlar Gəncəni bombalayanda, hətta onlar Bərdəni bombalayanda, onlar başqa şəhərləri bombalayanda və 92 insanı, mülki şəxsi öldürdükdə mən dedim ki, biz qisasımızı döyüş meydanında alacağıq" [12].

44 günlük Vətən müharibəsi zamanı rəşadətli Azərbaycan ordusunun uğurlu hərbi əməliyyatları nəticəsində ermənilərin zəbt etdiyi şəhər və qəsəbələrimiz bir-birinin ardınca işğaldan azad olunmuşdur: Füzuli şəhəri, Horadiz qəsəbəsi, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları... Nəhayət, alınmaz qala, Qarabağın ürəyi, gözəl və qədim Şuşa da düşməndən azad edildi. Müzəffər Azərbaycan Ordusu düşmənin ən möhkəm istehkamlarını qəhrəmancasına darmadağın edərək Qarabağ dağlarının zirvəsini - milli kimliyimiz, qürurumuz, qeyrət və mənliyimizin simvolu olan, 28 il həsrət qaldığımız qədim Şuşamızı, Cıdır düzünü, İsa bulağını, xarı bülbülümüzü öz canı və qanı bahasına yenidən və əbədi olaraq fəth etdi [13]. Bu böyük hərbi qələbə münasibətilə Ali Baş Komandan İlham Əliyev Şəhidlər Xiyabanına gedərək, xalqa müraciət etdi. Cənab Prezident hakimiyyətdə olduğu zaman həmişə ulu öndər Heydər Əliyevin müdrik daxili və xarici siyasətinə sadiq qalacağını vəd etmiş və bunu real fəaliyyəti ilə də sübut etmişdir. Yaxşı yadımızdadır, 2003-cü ilin 15 oktyabr prezident seçkiləri ərəfəsində ümummilli lider Heydər Əliyevin Azərbaycan vətəndaşlarına ünvanladığı 1 oktyabr 2003-cü il tarixli müraciət də təkcə ulu öndərin deyil, bütövlükdə Azərbaycan xalqının cənab İlham Əliyevə olan böyük ümidlərinin təcəssümü kimi ortaya çıxmışdır. Ulu öndər bu tarixi müraciəti ilə xalqa onun əsasını qoyduğu siyasəti davam etdirə biləcək dəqiq ünvanı göstərmişdir: "...Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir

dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Şuşanın alınması münasibətilə xalqımızı təbrik edən Ali baş Komandan İlham Əliyev bu məsələyə də toxunmuşdur: "...Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!". [14]

Onu da vurğulamaq vacibdir ki, Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Bu şəhər o qədər müdafiə cəhətdən əhəmiyyətli, o qədər coğrafi-strateji baxımdan mühümdür ki, noyabrın 8-də məhz Şuşanın azad edilməsi Ermənistanın təslim olması ilə nəticələndi. Strateji yüksəklikdə yerləşən və ermənilər tərəfindən güclü müdafiə sisteminin yaradıldığı bu şəhəri almaq sanki mümkünsüz görünürdü. Lakin müzəffər Azərbaycan ordusu, igid əsgərlərimiz qeyri-adi şücaət göstərərək, hərb tarixinə düşəcək bir səviyyədə döyüşmüş, yaxın məsafədən əlbəyaxa döyüşlərdə düşmənə qalib gəlmişlər. Prezidentimizin qeyd etdiyi kimi, "Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi, Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaqdır. Çünki bu əməliyyatı yalnız yüngül silahlarla silahlanmış bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək icra ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir".

İşğalçı ordunun "yenilməzliyi" barədə mif qısa müddər ərzində dağıdıldı. Bu quldur dəstəsi yalnız dinc sakinlərlə, mülki əhali ilə "mübarizə" apamağı yaxşı bacarır, özü də gecə yarısı, şəhər və qəsəbə sakinləri yatdıqları zaman. Erməni faşizmi mövcud müharibə qanun-qaydalarını da pozmuş, beynəlxalq hüquq normalarını tapdalamışdır. İşğalçı ordu müharibə zamanı qadağan olunmuş silahlardan, kaset və fosforlu bombalardan geniş istifadə etmişdir. Ermənistan "Skad" və "Smerç" raket qurğularından yalnız döyüş meydanında deyil, eləcə də mülki şəxslərə qarşı istifadə edib. Bu faktlar "Human Rights Watch" və "Amnesty International" kimi nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən qeydə alınmaqla həmin əməllər "qəddar və ağılasığmaz" kimi qiymətləndirilib. Öz torpağında döyüşməyən ermənilər hər şeylərini qoyub qaçmaq məcburiyyətindəydilər. Hazırda Ermənistan həbsxanalarında fərarilərin çoxluğu səbəbindən sıxlıq yaranmışdır. Məlumatlara görə, fərarilərin sayı 10 000-dən çoxdur.

Bütün bu qeydlərimiz, sentyabrın 27-dən noyabrın 9-na qədər olan 44 günlük müharibənin nəticələrinin ilkin təhlili onu deməyə əsas verir ki, Azərbaycan rəhbərliyi həm hərbi, həm də diplomatik sahədə mühüm əhəmiyyət kəsb edən qələbə qazanmışdır. Belə ki, noyabrın 10-da Ermənistanən hərbi-siyasi rəhbərliyi onlar üçün təslimçilik anlamı verən üçtərəfli bəyanatı imzalamalı oldu. Elə həmin gün Ali Baş Komandan bununla bağlı xalqa müraciətində demişdir: "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır. Bu bəyanatı Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri imzalamışlar..." [15]. Bəyanatda göstərilir ki, "20 noyabr 2020-ci il tarixinədək Ağdam rayonu Azərbaycan Respublikasına qaytarılır. Ermənistan Respublikası 15 noyabr 2020-ci il tarixinədək Azərbaycan Respublikasına Kəlbəcər rayonunu, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonunu qaytarır. Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edəcək və bununla belə Şuşa şəhərinə toxunmayacaq Laçın dəhlizi (5 kilometr enliyində) Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalır. Tərəflərin razılığı əsasında növbəti üç il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək və bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur. Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir..."

Əslində, Ermənistanın kapitulyasiyası olan bu sənəd Azərbaycanın nəinki işğal altında olan Ağdam, Kəlbəcər və Laçın rayonlarının boşaldılmasını, habelə Naxçıvanla Azərbaycan arasında nəqliyyat-kommunikasiya dəhlizinin də yaradılmasını nəzərdə tutur. Zəngilan-Mehri-Naxçıvan dəhlizi Azərbaycanın üzərindən keçən beynəlxalq tranzit layihələrin əhəmiyyətini daha da artıracaq. Artıq işğaldan azad edilmiş ərazilərdə hərtərəfli quruculuq işlərinə başlanmışdır. Müxtəlif nazirliklərin yerli bölmələri təşkil edilmiş, Şuşada çörək sexi fəaliyyətə başlamışdır, bütün rayonlarda elektrik yarımstansiyalarının quraşdırılması işləri həyata keçirilir. Noyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar. Həmin gün 101,5 km-lik Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun təməli qoyulub.

İşğalçı erməni ordusu ərazilərimizi tərk etdikdən sonra vandal ermənilər də özlərindən sonra öz "iz"lərini müvəffəqiyyətlə qoymaqdadırlar. İşğaldan azad edilmiş və boşaldılmış torpaqlarımızda düşmən tərəfindən bütün infrastruktur dağıdılmış, bütün yaşayış binaları və tarixi-dini memarlıq abidələri məhv edilmişdir. Prezidentimizin bildirdiyi kimi, Füzuli şəhərində bircə dənə də salamat qalmış bina tapılmamışdır ki, şanlı Azərbaycan bayrağı sancılsın. Erməni barbarlığı sərhəd tanımır, onlar məsciddə donuz saxlamış, qəbirisitanlıqları dağıtmış, qəbirləri yerlə-yeksan etmişlər. Erməni vandalizminin daha bir nümunəsi Füzulinin Kürdlər kəndində tamamilə dağıdılmış qəbiristanlıqdır. Ali Baş Komandan, möhtərəm cənab Prezident İlham Əliyev Füzulidə olarkən bildirmişdir: "İkinci Qarabağ müharibəsi bizim şanlı Qələbəmizdir, işğal edilmiş torpaqlar işğalçılardan azad edilib. Düşmən tərəfindən vurulmuş ziyan hazırda hesablanır və dəqiq hesablanacaq. Zərərçəkmiş bütün insanlar dövlət dəstəyi hesabına öz dədə-baba torpaqlarına qayıdacaqlar. Bu işləri biz planlı şəkildə aparacağıq - ilk növbədə, ziyanın hesablanması, dəqiq uçotun aparılması, ondan sonra bərpa-yenidənqurma işləri.

Bildiyimiz kimi, işğal edilmiş və işğaldan azad olunmuş torpaqlarda düşmən bütün infrastrukturu dağıdıbdır. Bizim şəhərlərimiz demək olar ki, yerlə-yeksan edilibdir və bu, düşmənin vəhşiliyini bir daha göstərir. İndi bütün dünya bunu görəcək. Bütün dünya görəcək ki, biz hansı vəhşi düşmənlə üz-üzə qalmışdıq"[16].

Noyabrın 16-da müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və birinci xanım, ölkəmizin birinci vitse-prezidenti Mehriban xanım Əliyeva oktyabrın 4-də düşməndən azad edilmiş Cəbrayıl şəhərində olarkən erməni vandalizminin şəhəri yerlə-yeksan etdiyinə diqqət çəkərək demişdir: "Bura Cəbrayıl şəhərinin mərkəzidir. Bir dənə də salamat bina yoxdur. Bir dənə də salamat bina qoymayıblar. Yalnız orada özləri üçün hərbi hissə tikiblər. Bütün qalan infrastruktur, evlər, binalar, məktəblər, ictimai binalar - hamısı düşmən tərəfindən sökülüb". Dövlətimizin başçısı ilk dəfə iştirak etdiyi 2003-cü ildə keçirilən prezident seçkiləri zamanı və sonrakı dövrlərdə də xalqa verdiyi bütün vədləri tamamilə yerinə yetirmiş, əməli ilə, fəaliyyəti ilə daim xalqının yanında olduğunu sübuta yetirmişdir. O, bu gün də erməni vandalları tərəfindən dağılmış bütün torpaqlarımızda quruculuq, abadlıq işlərinə başlanılacağını vurğulayır və bu işlər artıq gedir: yol çəkilir, binalar bərpa edilir, elektrik enerjisi yarımstansiyaları tikilir və s. Lakin prezidentimiz bununla kifayətlənmir, erməni cəlladlarının vurduqları hər bir ziyana görə - istər ekologiyaya, istər tarixi və dini abidələrə vurduqları ziyana, təbii sərvətlərimizi mənimsədiklərinə görə cavab verməli olacaqlarını və bunu mütləq edəcəklərini bildirir. Ermənilər güman edirdilər ki, bu cür dağıntılardan sonra Azərbaycan əhalisi daha burada yaşaya bilməz. Amma möhtərəm prezidentimizin rəhbərliyi ilə biz bütün sahələrdə uğur qazanacağıq və Qarabağ regionunu da yenidən cənnət məkanına çevirəcəyik. Cənab İlham Əliyev Cəbrayılda olarkən bildirdi ki, bütün azad edilmiş şəhərlərimizin xüsusi baş planı hazırlanacaq, inzibati, ictimai, yaşayış binaları, məktəblər, tibb ocaqları tikiləcək, lazımi infrastruktur yaradılacaq, küçələr, parklar, xiyabanlar salınacaq. Dağlıq Qarabağda və ətraf 7 rayonda həyat əvvəlkindən də gözəl və firavan olacaq [17].

Bu günlərdə, noyabrın 20-də Azərbaycanın böyük regionlarından biri olan Ağdam rayonu işğaldan azad edildi. Ağdam rayonunun heç bir itki olmadan, döyüşsüz işğaldan azad olunması noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın nəticəsidir. Ağdam üçün yeni dövr başlayır. Ölkə rəhbərinin qeyd etdiyi kimi, bizim böyük planlarımız var. İşğal edilmiş torpaqlarda hər şey dağıdılıb. Tezliklə, Baş plan hazırlanacaq, mütəxəssislər cəlb olunacaq, infrastruktur layihələri planlı şəkildə icra ediləcək, inzibati binalar, sosial obyektlər, yollar və digər lazım olan işlər görüləcək.

Vətəndaşlara oraya qayıtmaq üçün dövlət tərəfindən kömək göstəriləcək. Ağdam rayonunun bərpası ölkəmizin gələcək planlarında xüsusi yer tutacaq. Çünki həm ərazi, həm də əhali baxımından böyük rayondur. Ağdam rayonunun dayanıqlı sosial-iqtisadi inkişafının təmin edilməsi məqsədilə artıq əhəmiyyətli addımların atılmasına başlanılıb; Azərbaycan Respublikasının Prezidenti tərəfindən müvafiq sərəncam imzalanmışdır. Sərəncama əsasən, ümumi uzunluğu 45 kilometr olan Bərdə-Ağdam dəmir yolu xəttinin layihələndirilməsi və tikintisi üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan "Azərbaycan Dəmir Yolları" QSC-yə ilkin olaraq 5 milyon manat ayrılıb.

Üçtərəfli bəyanata əsasən, noyabrın 15-dək Kəlbəcər rayonu da boşaldılmalı idi. Lakin Ermənistan tərəfinin Rusiya vasitəsi ilə Azərbaycana müraciəti oldu. İşğalçı ölkə bu müddətin noyabrın 25-dək uzadılmasını xahiş etdi; soyuq hava şəraiti boşaldılmanı ağırlaşır, o istiqamətdən yalnız bir yol - Vardenis yolu var və yolun ötürücülük qabiliyyəti azdır. Azərbaycan Kəlbəcərdə yerləşdirilmiş mülki əhalinin noyabrın 25-dək çıxarılmasına razılıq verdi. Bu, Azərbaycan dövlətinin öz humanist xarakterini bir daha nümayiş etdirməsinin bariz nümunəsidir. Amma unutmayaq ki, 1993-cü ildə Kəlbəcərin işğalı zamanı erməni hərbi birləşmələri əhaliyə rayonu tərk etmək üçün cəmi 10 saat vaxt vermişdilər. Buna baxmayaraq, Azərbaycan humanistlik göstərərək daha 10 gün gözləməyə razılaşdı. Azərbaycan tərəfi Kəlbəcər rayonunun coğrafi baxımdan böyük bir ərazini əhatə etməsini, relyefin mürəkkəbliyini, hava şəraitinin ağırlaşmasını və rayondan çıxış üçün cəmi bir yolun olduğunu nəzərə aldı. Həmçinin nəzərə alındı ki, Ermənistanın işğal etdiyi Ağdam rayonu ərazisindəki qoşunları da Qarabağdan çıxmaq üçün Kəlbəcər yolundan istifadə etməyə məcburdur.

Noyabrın 25-də qəhrəman Azərbaycan Ordusunun bölmələri Kəlbəcərə daxil oldular. Ölkəmizin ərazicə ən böyük rayonu – 3054 kv kilometrlik, 1 şəhər, 1 qəsəbə və 145 kəndi əhatə edən bu qədim və füsunkar ərazi düşmən tapdağından tam azad edildi. Beləliklə, BMT Təhlükəsizlik Şurasının 822 saylı Qətnaməsi yerinə yetirilmiş oldu.

Bundan bir neçə gün sonra – dekabrın 1-də növbəti rayonumuz – Laçın da Azərbaycana təhvil verildi. Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyanın imzaladığı 10 noyabr tarixli üçtərəfli bəyanata əsasən, işğalçı qüvvələr rayonu artıq tərk etmişlər. 28 illik işğala son qoyulan Laçın Azərbaycanın ərazicə ən böyük, təbiətinə görə nə gözəl və zəngin rayonlarından biridir. Bununla bağlı xalqa müraciət edən Ali Baş Komandan, dövlətimizin başçısı İlham Əliyev bildirmişdir: "Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz – Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq"[19]. Müraciətdə deyilir ki, azad edilmiş bütün bölgələrimizin iqtisadi potensialı, kənd təsərrüfatı, turizm potensialı çox böyükdür. Ölkəmiz bu potensialdan məharətlə istifadə edərək Qarabağ bölgəsini nəinki Azərbaycanın, həmçinin dünyanın ən gözəl, inkişaf etmiş bölgələrindən birinə çevirəcək.

Azərbaycan Prezidenti cənab İlham Əliyev həm 44 günlük müharibə zamanı, həm də hərbi əməliyyatlar başa çatandan sonra keçirdiyi bütün görüşlərdə, verdiyi bütün müsahibələrdə İkinci Qarabağ müharibəsi haqqında, erməni silahlı qüvvələrinin dinc Azərbaycan şəhərlərini vəhşicəsinə bombardman etməsi barədə, igid Azərbaycan əsgərinin öz doğma və müqəddəs torpaqları uğrunda hünərlə döyüşməsi barədə dolğun məlumatlar vermişdir. Məsələn, dövlətimizin başçısı bu yaxınlarda Rusiyadan gələn nümayəndə heyətlərini qəbul edərkən qeyd etmişdir ki, hərbi əməliyyatlar dövründə Ermənistan tərəfi müharibə aparılmasının bütün normalarını, habelə humanitar normaları kobud şəkildə pozub. Bizim şəhərlərimiz və kəndlərimiz hər gün bombardmana məruz qalırdı. Nəticədə, aralarında uşaqların və qadınların da olduğu 94 dinc Azərbaycan sakini həlak olub, 400-dən çox adam yaralanıb, 3 mindən çox ev yararsız vəziyyətə düşüb, yaxud tamamilə məhv edilib. Hərbi əməliyyatlar zonasının yaxınlığında yerləşən şəhərlər praktiki olaraq hər gün atəşlərə, minaatan və artilleriya atəşlərinə məruz qalırdı, dinc əhalinin məhv edilməsi üçün Gəncə, Mingəçevir, Bərdə və digər şəhərlərə ballistik raketlərlə məqsədyönlü şəkildə hücum edilirdi. Biz bütün bu hərbi cinayətləri – ballistik raketlərdən, kasetli və fosforlu döyüş sursatlarından istifadə edilməsini sənədləşdirmişik və Azərbaycan tərəfinin görəcəyi sonrakı hüquqi tədbirlərlə əlaqədar müvafiq tapşırıqlar vermişik.

*Nəticə*. Qeydlərimizi xalqımızın sevimli oğlu, hərbçilərimizin fəxri, igid sərkərdə, müzəffər Ali Baş Komandan, ölkəmizin rəhbəri möhtərəm cənab İlham Əliyevin elə öz sözləri ilə başa çatdırırıq: "...Mən hesab edirəm ki, ölkəmizin gələcəyi çox parlaq olacaq. Biz son illər ərzində çox böyük uğurlara imza atmışıq. Ölkəmizin həm siyasi, həm iqtisadi sahələrdə uğurları bu gün beynəlxalq təşkilatlar tərəfindən də qəbul edilir. Beynəlxalq arenada böyük uğurlar əldə edilib. Azərbaycan bu gün çox güclü bir ölkəyə çevrilib. Ölkə daxilindəki bütün məsələlər öz həllini tapır. Əlbəttə ki, Dağlıq Qarabağ münaqişəsinin həlli ölkəmizə yeni nəfəs verəcək. İnsanlar, ilk növbədə, öz dədə-baba torpaqlarına qayıdacaqlar, öz yaxınlarının qəbirlərini ziyarət edə biləcəklər. Azərbaycan dövləti mütləq bu işlərdə onlara maksimum kömək göstərəcək. Biz işğaldan azad edilmiş torpaqları yenidən quracağıq, evlər, inzibati binalar, məktəblər tikiləcək. Beləliklə, ölkəmiz üçün yeni bir dövr başlanacaq. Bu yeni dövr böyük imkanlar açacaq, təkcə iqtisadi sahədə yox, eyni zamanda, siyasi münasibətlər sahəsində hesab edirəm ki, müsbət meyillər daha da güclənəcək. Azərbaycan beynəlxalq arenada öz rolunu daha da artıracaq. Azərbaycana olan hörmət daha da artacaq ki, biz güclü dövlət kimi öz ərazi bütövlüyümüzü, ədaləti və beynəlxalq hüququ bərpa edirik. Beləliklə, ölkəmizin gələcək inkişafı əminəm ki, çox uğurlu olacaq. Biz bu günə qədər qarşımızda duran bütün vəzifələrə uğurla çatmışıq. Bəyan etdiyim bütün hədəflərə çatmışıq. Ərazi bütövlüyümüzün bərpası, torpaqlarımızın qaytarılması mənim Prezident kimi başlıca vəzifəm idi. Mən şadam ki, bu vəzifənin öhdəsindən də şərəflə gəlirəm və Azərbaycan xalqının dəstəyi, zəhməti və cəsarəti hesabına biz torpaqlarımızı qaytarırıq. Azərbaycan xalqının fədakarlığı bir daha onu göstərir ki, biz böyük xalqıq, biz birlik nümayiş etdirmişik və bu birlik bizi daha da gücləndirəcək, ölkəmizi daha da qüdrətli ölkəyə çevirəcəkdir".

## ƏDƏBİYYAT

1. Jackson R. J. NATO and Peacekeeping. Final Report for NATO Fellowship, Due 30 June 1997. Cambridge, 1997, 34 p. - https://www.nato.int/acad/fellow/95-97/jackson.pdf [Müraciət tarixi: 10.12.2020].
2. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004, 472 s.
3. Филипп Экозьянц: не врите себе и всему миру о нагорно-карабахском конфликте! // https://vestikavkaza.ru/news/filipp-ekozanc-ne-vrite-sebe-i-vsemu-miru-o-nagorno-karabahskom-konflikte.html [Müraciət tarixi: 10.12.2020].
4. Hüseynova İ. İki sahil, № 228, 8 dekabr 2010-cu il
5. Mustafa N., Qurbanov A., Əlili E. Erməni saxtakarlığı. Yalan üzərində qurulan tarix. Bakı, AR SAM, 2018, 270 s.
6. AR Pİİ SSA, F.1 Siy.33.Sax.v. 230. V.11
7. 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Fərmanı / "Azərbaycan" qəzeti, 19 dekabr 1997-ci il
8. Azərbaycanlıların soyqırımı haqqında. Azərbaycan Respublikası Prezidentinin Fərmanı / "Xalq qəzeti", 1998, 27 mart, №80
9. İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Ağdam şəhərində olublar. 23 noyabr 2020-ci il. // https://president.az/articles/47685 [Müraciət tarixi: 10.12.2020].
10. Oktyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib // https://ordu.az/az/news/173302 [Müraciət tarixi: 10.12.2020].
11. Prezident İlham Əliyevin Almaniyanın ARD televiziya kanalına müsahibəsi / "Respublika" qəzeti, 1 noyabr 2020-ci il
12. İlham Əliyev "BBC News"a müsahibə verib // https://president.az/articles/45845 [Müraciət tarixi: 10.12.2020].
13. Zahid Rza. Mənə qardaş deyən dilinə qurban!.. / "İki sahil" qəzeti, 10 noyabr 2020. // https://ikisahil.az/post/mene-qardash-deyen-diline-qurban [Müraciət tarixi: 10.12.2020].
14. Şuşa şəhəri işğaldan azad edildi! // https://beu.edu.az/az/article/susa-seheri-isgaldan-azad-edildi-540 [Müraciət tarixi: 10.12.2020].

15. Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib. // http://www.azerbaijan-news.az/view-204024/qarabag-azerbaycandir-qelebemizin-remzidir [Müraciət tarixi: 10.12.2020].
16. İlham Əliyev Qarabağda Azərbaycan bayrağını öz əli ilə ucaltdı / "Azərbaycan" qəzeti, 17 noyabr 2020-ci il.
17. Füzuli-Şuşa avtomobil yolu çəkilir / "Xalq qəzeti", 17 noyabr 2020-ci il.
18. Hüseynova İ. Tarix. Zaman. Düşüncələr. I cild. Bakı: Elm və təhsil, 2016, 512 s.
19. Prezident: Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir / "İki sahil" qəzeti, 1 dekabr 2020-ci il.

**İRADA HUSEYNOVA**
*Baku State University*

## FOUNDER OF MODERN AZERBAİJANİ HİSTORY: İLHAM ALİYEV SUPREME COMMANDER-İN-CHİEF, WHOSE NAME İS FOREVER WRİTTEN İN THE HİSTORY OF AZERBAİJAN

İt is analyzed the second Karabakh war, which lasted 44 days and ended with the glorious victory of Azerbaijan and the liberated areas are reported in chronological order in the article. The author notes that the policy with a hundred-year history of terror, genocide and aggression committed by Armenia against Azerbaijan, which has occupied 20% of Azerbaijani lands for nearly 30 years and is now forced to retreat and surrender as a result of counter-attacks by the militant and heroic Azerbaijani army. The brief historical excursion presented to the readers proves that the Armenians migrated to the Caucasus region since the 19th century and chose terrorism as the optimal way to establish the "Greater Armenia" state.

The article presents with great joy that the Azerbaijani flag has already been hoisted in our liberated villages and cities under the leadership of Supreme Commander-in-Chief Ilham Aliyev, including the impregnable fortress Shusha, and construction work has already begun in our settlements destroyed by Armenians. İn author's opinion, according to the preliminary analysis of the results of the Second Karabakh War, the Azerbaijani leadership has won a significant victory in both the military and diplomatic spheres.

*Keywords*: resettlement of armenians to the Caucasus, armenian terrorist organizations, the South Caucasus, the Second Karabakh War, Shusha, the Azerbaijani army.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 dekabr 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2020-ci il.*
*Məqalə Redaksiya heyətinin qərarı ilə çapa məsləhət görülüb.*

QARABAĞ AZƏRBAYCANDIR!

**UOT 94 (479.24)**

**QABİL ƏLİYEV**
*tarix elmləri doktoru, professor*
*Bakı Dövlət Universiteti,*
*Azərbaycan Universiteti*
**E-mail: qabil-aliyev@mail.ru**

# MÖHTƏŞƏM QƏLƏBƏ

*Məqalədə Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində Dağlıq Qarabağ münaqişəsinin ağır nəticələrinin aradan qaldırılması uğrunda Azərbaycan xalqının uğurlu mübarizəsi tədqiq edilmişdir. Ümummilli lider Heydər Əliyevin möhkəm dövlət hakimiyyəti, nizam-intizamlı ordu yaradılması istiqamətində fəaliyyəti konkret faktlarla təhlil edilmişdir. XXI əsrin ilk onilliklərində silahlı qüvvələrin ən yeni silah və döyüş texnikası ilə təchiz olunması tədbirlərinə, böyük qələbənin qazanılmasında ordu-xalq birliyinin, sərkərdə bacarığının əsas rol oynamasına xüsusi diqqət yetirilmişdir.*

*Açar sözlər:* Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın təcavüzü, Azərbaycan Silahlı Qüvvələri, torpaqların azad edilməsi, qələbənin memarları, ümummilli lider, xilaskar prezident.

*Giriş.* Azərbaycan tarixinə Vətən müharibəsi kimi daxil olan İkinci Qarabağ müharibəsində Ermənistan üzərində mühtəşəm qələbə Milli Ordumuzun 44 gün davam etmiş uğurlu əkshücumunun, düşməni sülhə məcburetmə əməliyyatının məntiqi sonluğu olmuşdur. Silahlı Qüvvələrimizin 44 günlük zəfər yürüşünün, Qarabağda itirilmiş torpaqlarımızın düşmən tapdağından sürətlə azad edilməsinin bünövrəsi 27 il öncə ulu öndərimiz Heydər Əliyevin yenidən hakimiyyətə gəldiyi zamandan qoyulmağa başlanmışdır. O dövrdə bütün istiqamətlərdə, o cümlədən ordu quruculuğu sahəsində hər şeyi yenidən başlamaq, əvvəlki iqtidarların daxili və xarici siyasət sahəsində buraxdıqları səhvləri aradan qaldırmaq, həm də bütün bunları müharibə şəraitində, torpaqlarımızın bir-birinin ardınca işğal olunduğu çox ağır bir zamanda gerçəkləşdirmək lazım gəlmişdi.

Bu dövrdə Azərbaycan xalqı öz tarixinin ən faciəli dövrünü yaşayırdı. Həmin ərəfədə Ermənistan Respublikasında yaşayan bütün azərbaycanlılar minillər boyu yaşadıqları ata-baba torpaqlarından qovulmuş, evləri yandırılmış, əmlakları qarət edilmişdi. 250 mindən çox insan bütün yaşayış vasitələrindən məhrum edilmiş qaçqın kimi Azərbaycana pənah gətirmişdi. Elə o zaman Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün açıq çıxışlar başlamış, azərbaycanlılara, türklərə nifrət təbliğatı geniş miqyas almışdı. Ardınca da Dağlıq Qarabağ əraziləri və onun ətrafındakı 7 rayonumuz Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilmişdi. O zamankı Rusiya rəhbərliyinin hərtərəfli yardımları ilə gerçəkləşən işğal prosesində bu bölgələrdə yaşayan vətəndaşlarımız soyqırımına, qətl və qarətlərə məruz qalmış, sağ qalan 750 mindən çox insan isə öz evlərini tərk etmək zorunda qalmış, məcburi köçkünə çevrilmişdi. Müstəqilliyini yeni qazanan Azərbaycan Respublikası ərazisinin 20 faizini, özü də ən məhsuldar, faydalı qazıntılarla zəngin torpağını itirmiş, 1 milyondan çox qaçqın və məcburi köçkünü sığınacaqla, zəruri həyat vasitələri ilə təmin etmək məcburiyyətində qalmışdı.

Birinci Qarabağ müharibəsinin ilk mərhələsində ordu quruculuğunda yol verilən səhvlər, ordu sıralarına soxulmuş cinayətkarlar, öz şəxsi mənfəəti üçün asanlıqla milli mənafeyə xəyanət edən ünsürlər bu ağır məğlubiyyətin əsas səbəbləri idi. Azərbaycan xalqının həqiqi vətənpərvər və qeyrətli oğullarının düşmənə layiqli müqavimət göstərmələrinə, son damla qanına qədər torpaq uğrunda igidliklə vuruşmalarına baxmayaraq, Milli Ordunun rəhbər heyətində Respublikada ali hakimiyyəti ələ keçirmək iddiaları, ayrı-ayrı şəxslərin, siyasi partiyaların ambisiyalarına qulluq edən könüllü batalyonların hərbi nizam-intizama tabe olmamaları bir-birinin ardınca uğursuzluğa düçar olmağımızı şərtləndirmişdi.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan xalqının təkidli tələbi nəticəsində ali hakimiyyətə qayıdışı ilə cəmiyyətdə hökm sürən xaos, vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı, güclü dövlətçilik strukturları yaradılmasına, iqtisadiyyatımızın dirçəldilməsi üçün zəruri

islahatlar həyata keçirilməsinə başlandı. Bütün bunların zəminində hərbi sahənin inkişafına xüsusi diqqət yetirildi, möhkəm nizam-intizama malik ordu quruculuğu işlərinə təkan verildi.

Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra ordu quruculuğunda vəziyyəti kökündən dəyişmək üçün çox mühüm təxirəsalınmaz tədbirlər həyata keçirdi. Ölkəin hərbi siyasətinə ümumi rəhbərliyi effektli həyata keçirmək üçün 1993-cü il noyabrın 1-də Dövlət Müdafiə Şurası yaradıldı. Bu qurumun elə həmin gün keçirilən ilk iclasında ordu quruculuğu işi, müdafiə məsələləri geniş müzakirə edildi, səfərbərliyin təşkili, hərbi hissələrdə döyüş hazırlığının, şəxsi heyətin təlim-tərbiyəsinin təkmilləşdirilməsi istiqamətində tədbirlər müəyyənləşdiridi [1, s.329; 2, s.129].

Ulu öndər 1993-cü il noyabrın 2-də Ermənistan Silahlı Qüvvələrinin Azərbaycana yeni hücumları və təcavüzü ilə bağlı milli televiziya və radio ilə xalqa müraciətində məğlubiyyəti doğuran səbəbləri dərindən təhlil etdi, milli ordu quruculuğunda yol verilmiş səhvlər, xəyanətlər, cinayətkarlıq əməlləri haqqında məlumat verdi. Eyni zamanda, bu son dərəcə ağır vəziyyətdən çıxmış yolunu göstərdi: “Torpağımızı, Azərbaycanın ərazi bütövlüyünü qorumaq, hər bir vətəndaş üçün, hər bir azərbaycanlı üçün ən ümdə, ən ülvi, ən başlıca vəzifə olmalıdır. ... Biz müdafiə qüvvələrimizi hər cəhətdən gücləndirməliyik” [3, s.233].

Noyabrın 23-də Azərbaycanın ali qanunverici orqanı “Müdafiə haqqında” qanun qəbul etdi, ordu quruculuğunda məsul vəzifəli şəxs və qurumların fəaliyyət dairəsi, məsuliyyət sahələri dəqiqləşdirildi. Dövlət başçısının ciddi nəzarəti altında 40 yeni ehtiyat taburu yaradıldı, onlar sürətli hərbi təlim proqramlarına cəlb edildi.

Ümummilli lider öz şəxsi nümunəsi, Vətəninə, torpağına sonsuz sevgi və məhəbbəti ilə Azərbaycan xalqına milli qürur, vətənpərvərlik ruhu, döyüş qəhrəmanlığı ruhu aşıladı. Döyüşən orduda nizam-intizam möhkəmləndirildi, komanda heyətinə, hərbi əməliyyatların planlaşdırılmasına peşəkar və Vətənə sədaqətli zabitlər cəlb edildi. Cəbhədə vəziyyətin müsbət istiqamətdə dəyişməsinə zəmin yaradıldı. Bütün bunlar tezliklə öz nəticəsini verdi.

1993-cü il dekabr ayında erməni silahlı dəstələri Füzuli rayonunun şərqinə doğru hücuma keçməyə cəhd göstərəndə, Azərbaycan ordu birləşmələrinin o zamana kimi görünməmiş kəskin müqaviməti ilə qarşılaşdı və geri çəkilməyə məcbur oldu. Bundan sonra Azərbaycan ordusu hücuma keçdi. Dekabrın 15-də Azərbaycan hərbçiləri Horadizə doğru Arazboyu irəliləməyə başladı. Gərgin döyüşlər nəticəsində Azərbaycan hərbi birlikləri düşmənin müdafiə xətlərini dağıtdı, top atəşi və raket zərbələri altında sürətlə irəliləməyi davam etdirdi. 1994-cü il yanvarın əvvəlinə kimi Azərbaycan-İran sərhədi boyunca 40 kilometr uzunluğunda ərazi düşməndən azad edildi.

Tarixə “Horadiz əməliyyatı” kimi daxil olmuş bu döyüşlərdə iştirak edən silahlı qüvvələrimiz yanvarın 5-də bir gün ərzində qənimət olaraq 3 tank, 1 ədəd “Şturm-S”, 6 ədəd top, 6 ədəd top qoşqusu, 10-a yaxın nəqliyyat vasitəsi, çoxlu sayda atıcı silah və sursat ələ keçirdi. Düşmən ağır itkilər verərək və cəsədlərini döyüş meydanında qoyaraq geri çəkildi. Yanvarın 6-da isə Azərbaycan hərbi birlikləri düşmənin müqavimətini qırıb, döyüşlə Horadiz qəsəbəsəni, oradakı dəmir yolu stansiyasını və su anbarı üzərindəki bəndi ələ keçirdilər.

Bütövlükdə, “Horadiz əməliyyatı” zamanı 23 yaşayış məntəqəsi, o cümlədən Horadiz qəsəbəsi düşməndən azad edildi [4]. Bu, yenidən qurulan Azərbaycan Silahlı Qüvvələrinin ilk böyük uğurlarından biri idi.

Lakin düşmən hücumlarını uğurla dəf etmək və itirilmiş torpaqların geri alınmasını təmin etmək üçün yüksək hazırlıqlı, ən müasir silah və döyüş texnikası ilə təchiz edilmiş ordu yaradılması böyük xərc və zaman tələb edirdi. Ona görə də 1994-cü ilin mayında atəşkəsə nail olunması zəruri bir addım idi. Silahlı Qüvvələrdə həyata keçirilən quruculuq işlərinin davam etdirilməsi, Orduya vahid rəhbərliyin təmin edilməsi, peşəkar hərbi kadrlarla gücləndirilməsi, hərbi hissələrin müasir müharibə aparılması tələblərin uyğun hazırlanması üçün imkan yarandı.

Ulu öndər peşəkar hərbi kadrlar qıtlığını aradan qaldırmaq üçün ilk növbədə keçmiş ittifaq respublikalarında hərbi xidmətdə olan azərbaycanlı zabitlərin Vətənə dönmələri üçün xüsusi diqqət və qayğı göstərdi. Bu illərdə Milli Ordunun gücləndirilməsi, Silahlı Qüvvələrin bütün növlərinin ən yeni silah və hərbi texnika ilə təchizi, eləcə də onları uğurla real döyüş şəraitində tətbiq etməyi bacaran, qabaqcıl hərbi strategiya və taktikaya yiyələnmiş hərbi kadrların hazırlanmasına diqqət artırıldı.

Heydər Əliyevin dövlətçilik fəaliyyətində çox mühüm, aparıcı sahə olan yüksək döyüş hazırlıqlı milli hərbi kadrlar hazırlanması üçün ən müasir standartlara cavab verən hərbi təhsil müəssisələri yaradılması istiqamətində çox mühüm tədbirlər həyata keçirdi. Azərbaycan Hərbi Hava Qüvvələrinin müntəzəm şəkildə milli kadrlarla təmin olunması məqsədilə 1997-ci ildə Hərbi Aviasiya Məktəbi yaradıldı. Zabitlərin hərbi təhsilini artırmaları üçün 1999-cu ildə Hərbi Akademiyanın təşkili haqqında fərman verdi. 2001-ci ildə isə mövcud zabit heyətinin bilik bə bacarıqlarının təkmilləşdirilməsi üçün Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzi təşkil edildi. Türkiyə Cümhuriyyətinin hərbi quruculuq sahəsində zəngin təcrübəsindən və potensialından istifadə olunması genişləndi. Gənc azərbaycanlı zabitləri müasir hərb elminin incəliklərinə yiyələnmək üçün xarici ölkələrin nüfuzlu hərbi akademiyalarda təhsil almağa göndərdi.

Bütün bunlarla bərabər Silahlı Qüvvələrin şəxsi heyətinin sosial müdafiəsinin təmin edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirildi. Hərbi qulluqçuların əmək haqqı əsaslı şəkildə artırıldı, şəxsi heyətin ərzaq, maddi cəhətdən təminatı yaxşılaşdırıldı, tibbi xidmətin səviyyəsinin yüksəldilməsi sahəsində işlər aparıldı. Hərbi hissələrin maddi-texniki təchizatının gücləndirilməsi daim diqqətdə saxlandı, hərbi hissə binalarının, əsgər yataqxanalarının yüksək səviyyədə təmir edilməsi həyata keçirildi.

Azərbaycanın beynəlxalq miqyasda tanınması üçün ard-arda xarici ölkələrə səfərlər edilməsi, qonşu dövlətlərlə balanslaşdırılmış siyasət yürüdülməsi, dünyanın aparıcı dövlətlərinin nüfuzlu şirkətləri ilə “Əsrin müqviləsi”nin bağlanması nəticəsində ölkəmizin nüfuzunun artmasının təməli qoyuldu. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həll edilməsi, Azərbaycanın ərazi bütövlüyünün beynəlxalq birlik tərəfindən qəbul edilmiş sərhədləri daxilində bərpa edilməsi üçün gərgin diplomatik mübarizə başlandı.

Heydər Əliyev Azərbaycanın mürəkkəb geosiyasi məkanda yerləşməsini, bir neçə regional və qlobal güc mərkəzinin maraqlarının toqquşmasını nəzərə almağı, hərtərəfli ölçülüb-biçilmiş siyasət yürüdülməsinin labüdlüyünü zərgər dəqiqliyi ilə hesablamağı bacardı. O, Respublikada ali hakimiyyətə gəldikdən dərhal sonra balanslaşdırılmış xarici siyasət kursu yürüdülməsinə keçdi, qonşu dövlətlərlə, ilk növbədə Rusiya, İran və Gürcüstanla münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə təkan verdi. Dünyada baş verən geopolitik dəyişikliklərin nəzərə alınması, qonşularla çoxşaxəli, tarazlaşdırılmış, sabit, davamlı, qarşılıqlı faydalı əməkdaşlıq kursu yeridilməsi Azərbaycanın mövqeyinin güclənməsinə gətirib çıxardı. Böyük dövlətlərin, xüsusən ABŞ və Fransanın Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyünün qorunması, beynəlxalq hüquq normaları çərçivəsində həlli prinsiplərindən çıxış etmələrinə nail olundu.

Azərbaycanın təbii ehtiyatlarından, ilk növbədə Xəzər dənizinin karbohidrogen resurslarından istifadə imkanı yaradılması o zamankı xarici siyasət kursunun prioritet məsələlərindən biri idi. Bu, bir tərəfdən respublikamızın iqtisadi potensialını dəfələrlə artırmağa, digər tərəfdən də bütövlükdə Cənubi Qafqaz regionunda sabit inkişafa zəmin yaratmağa hesablanmışdı.

Ulu öndərin layiqli varisi İlham Əliyev 2003-cü ildə Azərbaycan Respublikasının Prezudenti seçildikdən sonra çox sağlam və möhkəm zəmində qoyulmuş təməllər üzərindən bu siyasəti qaldığı yerdən əzmlə irəlilətməyə başladı. İlham Əliyevin prezidentliyi dövründə tarazlaşdırılmış, milli maraqlara söykənən qarşılıqlı faydalı tərəfdaşlıq siyasəti davam etdirilmiş, eyni zamanda xarici siyasətdə praqmatik və rasional prinsiplərə əsaslanması, dövlətin iqtisadi və hərbi potensialının gücləndirilməsi zəminində hücum diplomatiyasından istifadə edilməsinə keçilmişdir. Bu illərdə Azərbaycanın xarici siyasət xəttində milli maraqların qorunması, heç bir dövlətə qarşı olmamaq, qonşu dövlətlərlə əməkdaşlığın dərinləşdirilməsi, respublikamızı sivilizasiyalararası dialoq məkanına çevirmək aparıcı yer tutmuşdur. Azərbaycan həm yaxın qonşularına, həm də qlobal güc mərkəzlərinə praktikada, gündəlik siyasi kursunda sübut etmişdir ki, beynəlxalq hüquq norma və prinsiplərinə dönməz şəkildə hörmət edir və həm siyasi, həm də iqtisadi sahədə öhdəliklərini tam şəkildə yerinə yetirən etibarlı tərəfdaşdır.

XXI əsrin ilk onilliklərində dövlət strukturlarının daha effektli işləməsi, iqtisadiyyatın bütün sahələrinin, xüsusən qeyri-neft sektorunun inkişafı, Silahlı qüvvələrimizin ən müasir müasir silah və hərbi texnika ilə təchiz edilməsi, informasiya-kommunikasiya sahələrində çox uğurlu addımlar atılmışdır. Dövlətimizin başçısı 2020-ci ilnoyabrın 8-də Şəhidlər xiyabanında Azərbaycan xalqına

müraciətində çox haqlı olaraq qeyd etmişdir: "Bizim transmilli layihələrimiz regionda tamamilə yeni mənzərə yaratdı. Biz regionun enerji xəritəsini, nəqliyyat xəritəsini yenidən tərtib etdik. ... Bütün bunlar Azərbaycanın beynəlxalq nüfuzunu böyük dərəcədə gücləndirdi. Əgər bu nailiyyətlər olmasaydı, problem (Dağlıq Qaramağ münaqişəsi – Q.Ə.) dondurulmuş vəziyyətdə qala bilərdi". Möhtərəm Prezidentimizin son 17 il ərzində bu və digər sahələrdə dərindən ölçülüb-biçilmiş, məqsədyönlü siyasəti, vaxtında atılmış müdrik addımları sayəsində İkinci Qarabağ müharibəsində – Vətən müharibəsində möhtəşəm qələbəyə nail olmuşuq.

Ali Baş Komandanımız böyük qələbə müjdəsini – xalqımızın 30 ilə yaxın səbirsizliklə gözlədiyi Şuşanın azad edilməsi xəbərini hərbi geyimdə Şəhidlər xiyabanından bəyan etdi. Bu, hər iki Qarabağ müharibəsində şəhid olan hərbçilərimizə böyük hörmət və ehtiramın nümayiş etdirilməsi idi, torpaqlarımızın azadlığı uğrunda axıdılan qanların, verilən canların, Azərbaycan əsgərinin misilsiz igidliyinin yüksək qiymətləndirilməsi idi. Qarabağın müdafiəsi uğrunda döyüşlərdə həlak olanların qisaslarının alınması, canlarını fəda etdikləri torpaqlarımızın azad edilməsi müjdəsi, zəfər xəbəri idi.

Azərbaycan Prezidenti daxili və xarici siyasət sayəsində müdrik, uzaqgörən addımları ilə həm döyüş cəbhəsində, həm siyasi-diplomatik meydanda, həm informasiya mübarizəsində, həm psixoloji savaşda, həm də kəşfiyyat və təhlükəsizlik sahəsində çox böyük uğurlar qazanmağımızı təmin etmişdir.

İkinci Qarabağ müharibəsi davam etdiyi günlərdə möhtərəm Prezidentimizin dünyanın aparıcı informasiya agentliklərinə, televiziya kanallarına verdiyi çoxsaylı müsahibələri Qarabağ müharibəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində, informasiya müharibəsində ölkəmizə çox böyük uğurlar qazandırmışdır. Onun hər bir suala dəqiq, məntiqli, yoxlanıla bilən və faktlara söykənən cavabları ermənilərin və ermənipərəst qüvvələrin Azərbaycan haqqında yaydığı qərəzli, saxta məlumatları təkzib etməklə bərabər, erməni yalanlarını yayanları da yerinə oturtmuşdur. Onun Azərbaycan Respublikasının bütün addımlarının beynəlxalq hüququn norma və prinsipləri əsasında atılması, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrini icra etmək istiqamətində mübarizə aparmasını bəyan etməsi öz səmərəsini vermişdir. Bütövlükdə dünya birliyi, böyük dövlətlər Azərbaycanın haqlı davasını anlayışla qarşılamışlar.

Azərbaycan ordusu 44 gün ərzində 5 şəhər, 5 qəsəbə, 300-ə qədər kəndi [5] düşmən tapdağından azad etmiş, erməni silahlı qüvvələrini sarsıdıcı məğlubiyyətə uğratmışdır. Bu o deməkdir ki, Azərbaycanın işğal edilmiş ərazilərinin 45 faizi geri alınmışdır. Azərbaycan ordusunun bu parlaq qələbəsi 2020-ci il noyabrın 10na keçən gecə Azərbaycan, Ermənistan və Rusiya rəhbərlərinin imzaladıqları üçtərəfli bəyannamə ilə daha da möhkəmləndirilmişdir. Azərbaycan Prezidentinin polad iradəsi, qətiyyətli mövqeyi sayəsində qan tökülmədən, əlavə resurslardan istifadə etmədən, yerdə qalan torpaqlarımızın: Ağdam, Kəlbəcər və Laçın rayonlarının da çıx qısa müddət ərzində Azərbaycana qaytarılması məsələsi həll edilmişdir. Möhtərəm Prezidentimiz Azərbaycan xalqına 1 dekabr 2020-ci il tarixli müraciətində qürurla bildirdi: "Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz – Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq" [6]. Beləliklə, Azərbaycan Respublikası Ermənistanın XX əsrin 90-cı illərinin başlanğıcında havadarlarının hərtərəfli yardımları ilə işğal etdiyi torpaqlarımıza nəzarəti tam şəkildə bərpa etməyə, yüzminlərlə məcburi köçkünü öz evlərinə qaytarmağa nail olmuşdur.

*Nəticə.* Azərbaycan xalqı, Silahlı Qüvvələrimiz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında işğal edilmiş ərazilərimizi geri almaq, insanlarımızın dədə-baba torpaqlarında, öz doğma yurdunda azad və müstəqil yaşaması üçün savaşda qalib gəlmişdir. 1990-cı illərin əvvəllərində itirilmiş torpaqlarımızın azad edilməsi təkcə yüzminlərlə məcburi köçkünün öz ev-eşiyinə geri dönməsi demək deyil, həm də tapdalanmış heysiyyatımızın, şərəfimizin, namusumuzun qisasının alınmasıdır.

Bu möhtəşəm qələbə, çox böyük bir uğurdur. Azərbaycan Prezidenti İlham Əliyevin böyük şəxsi zəfəridir. Müharibəni nə zaman başlamaq, nə zaman, hansı şərtlərlə dayandırmaq kimi taleyüklü qərar vermək, onun məsuliyyətini öz üzərinə götürmək çox güclü insani xarakterinin, vəziyyəti dəqiq təhlil etmək və düzgün nəticələr çıxarmaq qabiliyyətinin bariz göstəricisidir. Bu möhtəşəm qələbə Azərbaycanın beynəlxalq nüfuzunu gücləndirməklə yanaşı, onun regional lider kimi mövqeyini daha da möhkəmləndirəcəkdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi.Yeddi cilddə. VII c., Bakı, "Elm", 2008, 608 s + 80 s.
2. Bəhramov C.Ə. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində vəziyyət. Dövlət çevrilişi cəhdlərinin qarşısının alınması // "Heydər Əliyev". AMEA Tarix İnstitutunun elmi toplusu. 2-ci c. Bakı, Turxan NPB, 2013, 704 s.
3. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Bakı, Azərnəşr, 1997, 612 s.
4. "Azərbaycan" qəzeti, 20.I.1994
5. İşğaldan azad edilən ərazilərimizin tam siyahısı / Axar Operativ xəbər portalı, 09.11.2020. - https://axar.az/news/siyaset/507273.html [Müraciət tarixi: 05.12.2020]
6. İlham Əliyev xalqa müraciət edib / Azərbaycan Respublikasının Prezidentinin rəsmi internet səhifəsi, 01 dekabr 2020. - https://president.az/articles/48205 [Müraciət tarixi: 05.12.2020]

**GABIL ALIYEV**
***Doctor of Historical Sciences, professor***
***Baku State University,***
***Azerbaijan University***

## A GREAT VICTORY

The article examines the reasons for the successful struggle of the Azerbaijani people to eliminate the grave consequences of the Nagorno-Karabakh conflict as a result of the military aggression of Armenia against Azerbaijan. The activity of the national leader Heydar Aliyev on the creation of a strong state power, a disciplined army was analyzed with specific facts. Special attention was paid to measures to equip the armed forces with the latest military equipment and weapons in the first decades of the 21st century, the role of the unity of the army and the people, the skillful actions of the commander in achieving a great victory.

*Keywords*: Nagorno-Karabakh conflict, Armenian aggression, Azerbaijan Armed Forces, liberation of lands, architects of victory, national leader, president-savior.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 5 dekabr 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2020-ci il.*
*Məqalə Redaksiya heyətinin qərarı ilə çapa məsləhət görülüb.*

QARABAĞ AZƏRBAYCANDIR!

**UOT 94 (479.24)**

**NURU MƏMMƏDOV**
*Bakı Dövlət Universitetinin professoru,*
*tarix elmləri doktoru,*
**E-mail: nurumemmedov@bsu.edu.az**

# BİZ VƏTƏN MÜHARİBƏSİ APARDIQ VƏ TARİXİ QƏLƏBƏYƏ NAİL OLDUQ!

*Bu gün tam əminliklə deyə bilərik ki, Azərbaycan xalqının tarixində şanlı bir tarix yazılır, yeni bir dövr başlanır. Zəfər dövrü, qələbələr dövrü, torpaqlarımızın 30 illik işğaldan azad edilməsi dövrü. Bu dövr xalqımızın tarixinə İlham Əliyev dövrü kimi, qızıl dövr kimi daxil olacaqdır. Bu günkü nəsil, gələcək nəsil bu dövrlə fəxr edəcək, qürur duyacaq və üzünü cənab Allahımızın dərgahına tutub deyəcək: Eşq olsun Azərbaycan Ordusuna, eşq olsun Azərbaycan xalqına, yaşasın Ali Baş Komandan, Prezident İlham Əliyev! Bu ürək sözləri ilə xalqımız müstəqil Azərbaycanın tarixində yeni bir dövrün, yeni bir mərhələnin və Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə Böyük Tarixi Qələbənin şahidi olacaq! İnşəAllah. Və şahidi olduq: QƏLƏBƏ!*

*Açar sözlər*: Azərbaycan xalqı, Vətən müharibəsi, prezident İlham Əliyev, Qarabağ, tarixi qələbə.

*Giriş.* Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan İlham Əliyev sentyabrın 27-də şəhər vaxtı Azərbaycan xalqına müraciətdə bildirdi ki, Ermənistan tərəfindən Azərbaycan xalqına qarşı törədilən və davam edən hərbi təxribat nəticəsində Azərbaycan Silahlı qüvvələrinin mövqeləri cəbhə xətti boyu yerləşən yaşayış məntəqələrimiz ağır artilleriya silahlarından atəşə tutulması nəticəsində mülkü şəxslərimiz və hərbi qulluqçularımız həlak olub. Azərbaycan Silahlı Qüvvələri buna cavab olaraq əks hücum əməliyyatına başlayıb və uğurla həyata keçirir. Prezident İlham Əliyevin dediyi kimi "bu, erməni faşizminin növbəti təcavüzüdür. Bəli, erməni faşistləri özlərinin çirkin və murdar niyyətini, fitnəkar və təxribatçı simasını açıb göstərdi, bir daha təcavüzkar və işğalçı olduğunu, sülhə düşmən olduğunu nümayiş etdirdi (1).

Prezident İlham Əliyev çıxışlarında dəfələrlə demişdir ki, biz Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcəyik. Bizim əsas vəzifəmiz ölkəmizin ərazi bütövlüyünü bərpa etməkdir. Ancaq təəssüflər olsun ki, ötən əsrin 90-cı illərin əvvəllərində Azərbaycanda daxili siyasi vəziyyətin gərgin olması və vətəndaş müharibəsinin başlanması səbəbindən erməni daşnak hərbçiləri torpaqlarımızın bir hissəsini zəbt etdilər. Dağlıq Qarabağı və bəzi rayonlarımızı işğal etdilər. Bu işğalı pisləyən BMT Təhlükəsizlik Şurası 1993-cü ildə 4 dəfə qətnamə qəbul edib. Bir daha xatırlayıram ki, bu qətnamələri qəbul edərkən (Kəlbəcərin işğalı ilə əlaqədar 822 saylı qərar, Ağdamın işğalı ilə əlaqədar 853 saylı qərar, Qubadlı və Fizulinin işğalı ilə əlaqədar 874 saylı qərar, Zəngilanın işğalı ilə əlaqədar 884 saylı qərar) Ermənistan hökumətindən tələb edilib ki, işğal etdiyi Azərbaycan torpaqlarını azad etsin. O vaxtdan 27 il keçməsinə baxmayaraq Ermənistan rəhbərliyi müxtəlif yalançı bəhanələrlə işğaldan əl çəkməyib. Və hər dəfə də müntəzəm şəkildə, davamlı olaraq cəbhədə atəşkəsi pozur, tez-tez bölmələrimizə hücumlar edir. Dağlıq Qarabağı işğal etməklə orada möhkəmlənməyə çalışırlar.

Prezident İlham Əliyev dəfələrlə bildirmişdi ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, tarixi Azərbaycan torpağıdır. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və Azərbaycanın haqq səsini dəstəkləyir. Dəfələrlə aparılan sülh danışıqlarını pozan Ermənistanın cinayətkar rəhbərliyi torpaqlarımızda möhkəmlənməyə ümid edir. Ancaq bu, yolverilməzdir. Prezident İlham Əliyev demişdir ki, əgər Ermənistan rəhbərliyi torpaqlarımızı işğaldan azad etməsə, o zaman sözü Azərbaycan əsgəri deyəcək. Bəli, bu gün güclü və möhkəm nizami Azərbaycan Ordusu var. Ali Baş Komandanın dediyi kimi, ordumuzun döyüş qabiliyyəti getdikcə artır. Ordumuz müasir səviyyədə NATO standartlarına uyğun komplektləşdirilib. Azərbaycan Ordusu işğalını heç vaxt cəzasız qoymayacaq və qoymadı da. Aprel döyüşlərində, Naxçıvan döyüşlərində düşmənə ağır zərbələr vuran ordumuz bu günlərdə də

güclü əks-hücum əməliyyatlarını uğurla davam etdirərək bir-birinin ardınca doğma torpaqlarımızı işğaldan azad edir. Düşmən tərəfi isə qorxaqcasına qaçmağa tələsir.

Ermənistanın xunta rəhbərliyi həmişə olduğu kimi bu dəfə də yalan və saxta danışaraq kəkəliyə-kəkəliyə özünü biabır etdi. Bu yaxınlarda "Rossiya" kanalının aparıcılarının suallarına yalan-yalan cavablar verən Paşinyan bir daha başlayan müharibənin səbəblərini saxtalaşdırdı və heç bir fakta əsaslanmayan Türkiyənin mövqeyini öz bildiyi kimi qeyd etdi. Ancaq Prezident İlham Əliyevin cavabları elmi arqumentlərlə, tarixi faktlarla əsaslandırıldı və qrammatik cəhətdən rus dilində əla cavablandırıldı. Geniş auditoriya cənab İlham Əliyevin cavabları qarşısında baş verən hadisələrin şahidi oldu. Mən şəxsən Prezident İlham Əliyevin elmi və tarixi köklərə əsaslanan cavablarından qürur hissi keçirdim və fəxr etdim ki, mənim prezidentim, Azərbaycan xalqının Prezidenti bütün istiqamətlərdə dünyanın ən istedadlı Prezidentidir. Aparıcılar da, geniş auditoriya və hamı da Prezident İlham Əliyevin məzmunlu və doğru-düzgün cavablarından məmnun qaldı. İlham Əliyev konkret faktları və tarixi köklərə əsaslanan arqumentlərlə əsaslandırdı ki, məhz indiki müharibənin başlanmasının günahları cinayətkar Ermənistan rəhbərliyidir. Çünki biz öz torpaqlarımızı azad etmək uğrunda, ərazi bütövlüyümüzü bərpa etmək məqsədilə məcbur olub müharibəyə qatılmışıq. Bu, bizim Vətən müharibəsidir. Bütün dünya və beynəlxalq təşkilatlar bizim ərazi bütövlüyümüzü dəstəkləyir. Bu bizim haqqımızdır. Biz öz torpağımızda müharibə aparırıq. Bəs Ermənistan? Bütün dünya bilir ki, Ermənistan özgə torpağa soxulub, başqa torpağı, yəni Azərbaycan torpaqlarını işğal edib. Qəribədir, bizim torpağımızda bizimlə müharibə aparır. Bu, həyasızlığın son həddidir. Bizi məcburən müharibəyə cəlb edən işğalçı öz cəzasını almalıdır və alacaq da.

Qoca tarix həmişə sübut edib ki, təcavüzkar gec-tez öz cavabını alacaq. Əgər kimsə və ya hansı dövlətsə tarixi təcrübədən ibrət dərsi çıxarmağI bacarmırsa, tarix və zaman özü onu cəzalandIrIr. Uzağa getməyək, 2016-cı ilin Aprel döyüşləri zamanı Fizuli, Cəbrayıl və Tərtər rayonlarının 2 min hektar ərazisi erməni işğalından azad edildi. 2018-ci ildə isə Naxçıvan Muxtar Respublikasında bir çox strateji yüksəkliklər azad edilərək 11 min hektar ərazi bizim nəzarətimizə keçdi. Bu döyüşlərdən heç bir ibrət dərsi götürməyən işğalçı dövlətin xunta rəhbərliyi yenidən bu ilin iyul və avqust aylarında təxribat törədərək mövqelərimizə və dinc əhaliyə ağır artilleriya atəşləri ilə hücuma keçməyə cəhd göstərdilər. Düşmən ağır itkilər verərək geri oturduldu. İndi isə yenidən təxribatçı hücuma keçməyə cəhdlər etdilər. Dərhal və vaxtında xalqa müraciət edən Prezident İlham Əliyev bu dəfə düşmənin hiyləgər və məkrli təxribatının qarşısını almaq və əks-hücüm əməliyyatına başlamaq haqqında qərar verdi. Hansı ki, bu qərarı xalqımız çoxdan gözləyirdi və bütün Azərbaycan xalqı Prezidentimizin bu ədalətli qərarına ürəkdən qoşularaq təcavüzkarı məhv etmək üçün döyüşə hazır olduqlarını bəyan etdilər.

Ölkə başçısı Ali Baş Komandan müraciətində qeyd etdi ki, "iyul təxribatından sonra demişdim ki, Ermənistanın ağır məğlubiyyəti onlar üçün dərs olmalıdır". Ancaq onlar dərs almağı bacarmadılar. Avqust ayında da onlar növbəti təxribat törətdilər. Bu dəfə onlar özlərinin layiqli cəzalarını almalıdırlar.

Əgər bir tarixi təcrübəyə diqqət versək, o zaman bilərik ki, tarix boyu təcavüzkar tərəf həmişə ağır məğlubiyyətə uğrayıb. Vaxtı ilə "məğlubedilməz ordusu" ilə öyünən və lovğa-lovğa qalibiyyətdən dəm vuran faşistlər son nəticədə nəinki ağır məğlubiyyətə uğradılar, həm də öz Vətənləri olan Berlin şəhərinin 4 hissəyə parçalanmasının günahkarı oldular. Faşist Ermənistan rəhbərliyini də elə acı və kədərli məğlubiyyət gözləyir. Ona görə ki, artıq nə bu döyüş əvvəlki döyüşlər deyil və nə də bugünkü Azərbaycan 30 il əvvəlki Azərbaycan deyil. Azərbaycan bu gün qüvvətli dayaqlara, qüdrətli rəhbərliyə, inkişaf etmiş iqtisadiyyata və dünyada ən güclü orduya malikdir. Azərbaycan Ordusu bütün sahələrdə Ermənistandan güclüdür. Faktlara müraciət etsək rəqəmləri aydın görərik. Dünya reytinqində belədir:

Azərbaycan – 52 –ci yerdə
Ermənistan-96 –cı yerdə (qərar tutub)

O cümlədən hava hücumu üzrə:

Azərbaycan – 63-cü yerdə
Ermənistan- 86-cı yerdə

Tank üzrə:

Azərbaycan – 32 –ci yerdə
Ermənistan- 78-ci yerdə

Dəniz gücü üzrə:

Azərbaycan – 67-ci yerdə
Ermənistan- dəniz yoxdur

Ermənistan cəbhələrinin faşist xislətli, işğalçı və məkrli niyyəti, avantürist və təxribatçı hərəkətləri hamını bezdirib. Cənab Prezidentimizin də dediyi kimi, daha bəsdir, "biz 32 ildir ki, dözüm göstərmişik. Amma səbrin də, dözümün də həddi var". Bəli, bu, həqiqətən belədir. Azərbaycan xalqı qonaqpərvər, beynəlmiləlçi və sülhsevər xalq olduğu kimi, həm də qəhrəman xalqdır. Ümummilli lider Heydər Əliyevin sözləri ilə desək hələ Böyük Vətən müharibəsi illərində Azərbaycan xalqı öz qəhrəman və igid əsgərləri ilə bütün dünyaya nümayiş etdirdi ki, bu xalq döyüşlərdən üzü ağ çıxan, qalib xalqdır. İsrafil Məmmədov, 7 nəfər dəstəsi ilə 700 faşisti, tək özü isə 70 nəfər faşisti məhv etdi. Hətta Sovet marşalları və generalları Jukov, Vatutin, Qreçko, Rokosovski və b. azərbaycanlıların döyüş səhnəsini müşahidə edərkən demişdilər ki, onlar (yəni azərbaycanlılar) döyüşdə şir kimi döyüşür, pələng kimi hücuma keçirlər. İsrafil Məmmədov, Həzi Aslanov, Qafur Məmmədov, Gəray Əsədov, Mehdi Hüseynzadə, Ziya Bünyadov kimi qəhrəmanlar yetirən xalqımız bu gün torpaqlarımızın işğaldan azad edilməsi uğrunda Ali Baş Komandanın əmrini igidliklə icra edirlər.

Sentyabrın 27-də başlanan müharibə Azərbaycan xalqının tarixində yeni bir dövrün başlanğıcından xəbər verir. Bu tarixdən başlayaraq bütün Azərbaycan xalqı ayağa durub. Xalq cənab Prezidentimizin əks-hücum qərarının ürəkdən bəyənir və bütün varlığı və gücü ilə ölkə başçısının yanındadır. Xalq-Prezident birliyi, xalq-dövlət birliyi, xalq-ordu birliyi bu gün tam gücü ilə özünü göstərir. Tarix də sübut edib ki, möhkəm arxa cəbhə ön cəbhədə ordunun qələbələrinə tam təminatdır. Bu birlik, xalq-ordu birliyi isə sarsılmazdır. Bu birliyin potensial gücü ilə məkrli düşmən tezliklə məhv ediləcək, torpaqlarımız işğaldan azad ediləcək, Fundamental zəfərlər əldə ediləcək, Böyük Tarixi Qələbə qazanılacaqdır.

Dünyanın dövlət və hökumət başçıları bilirlər ki, Azərbaycan ədalətli müharibəyə cəlb edilib. Xalqımız özünün ərazi bütövlüyü uğrunda Vətən müharibəsinə qalxmışdır. Bu gün işğalçı Ermənistanın davamlı təxribatına cavab olaraq Azərbaycan müharibə meydanındadır. Biz haqq işi uğrunda, torpaqlarımızı işğaldan azad etmək uğrunda, işğal altında olan Qarabağı, Şuşanı və digər ərazilərimizi azad etmək uğrunda mübarizə aparırıq. Bu, Vətən müharibəsidir. Vətən müharibəsi isə ədalətli müharibədir. Bu ədalətli müharibədə Uca Tanrı qəhrəman və igid əsgərlərimizə kömək etsin.

Ali Baş Komandan Prezident İlham Əliyev dəfələrlə demişdir: "Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaq. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

Azərbaycan xalqı bu gün tarixi günlər yaşayır, torpaqlarımız, kəndlərimiz, şəhərlərimiz və bir çox yaşayış məntəqələrimiz yağı düşmən işğalından ardıcıl olaraq azad edildi. Azərbaycan Ordusu hər gün yeni-yeni qələbələrlə xalqımızı sevindirir. Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti, Azərbaycan xalqı özünün ərazi bütövlüyünün bərpası uğrunda şiddətli müharibə meydanına cəlb edilib. Artıq 30 ildir ki, Azərbaycanın 20 faiz ərazisi düşmən tapdağı altında idi. Bir milyondan çox məcburi qaçqınlar ordusu böyük ümidlərlə və səbirsizliklə öz doğma torpaqlarına qayıtmaq arzusu ilə yaşayırlar. Əzəli torpaqlarımızın düşmən işğalından azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi hər bir Azərbaycan vətəndaşının müqəddəs arzusu idi. Bu gün bu arzu Ali Baş Komandanın göstərişi ilə həyata keçirilir.

Bizi məcburən müharibəyə cəlb edən işğalçı Ermənistanın faşist rəhbərliyi indi Azərbaycan Ordusunun mükəmməl hücumları qarşısında duruş gətirə bilmir, pərakəndə və tör-töküntü halında qaçmağa məcbur olur. Bu, belə də olmalı idi. Çünki Azərbaycan Ordusu öz torpağında düşmənlə müharibə aparır, öz torpağını işğaldan azad etmək uğrunda ölüm-dirim müharibəsi aparır. Belə müharibə isə Vətən müharibəsi adlanır, bu, müqəddəs müharibədir, haqq-ədalət müharibəsidir. Qoca tarix sübut edib ki, hər bir ədalət müharibəsində, Vətən müharibəsində xalq parlaq zəfərlər qazanır.

Ermənistanın xunta rəhbərliyi beynəlxalq hüquq qanunlarını, BMT-nin Təhlükəsizlik Şurasının məlum dörd qətnaməsini kobud şəkildə pozaraq Azərbaycan torpaqlarını işğal altında saxlayırdı və atəşkəs rejiminə baxmayaraq son 26 ildə demək olar ki, hər gün atəşkəsi pozur, Azərbaycan sərhədlərini müxtəlif silahlarla atəşə tuturdu. Ermənistanın faşist rəhbərliyi avantürist təxribatlar törədirdi və son vaxtlarda Tovuz bölgəsində, Tərtər-Ağdam-Goranboy istiqamətlərində hücumlar etməyə cəhdlər göstərirdi. Bütün bu təxribatçı hücumların qarşısı Azərbaycan Ordusu tərəfindən qətiyyətlə alınırdı. Sentyabrın 27-də başlanan müharibə xalqımızın Vətən müharibəsinə çevrildi. Bütün Azərbaycan xalqı Ali Baş Komandanın əmrini ürəkdən bəyənərək ümumxalq müharibəsinə qalxdı. Ümumxalq müharibəsi isə məğlubedilməzdir. Çünki tarix sübut edib ki, hansı xalq ki, ümumxalq müharibəsinə qalxarsa o xalqı məğlub etmək qeyri-mümkündür. Bəli, bu gün haqq-ədalət müharibəsinə qalxan Azərbaycan xalqı bir daha sübut edir ki, xalq-ordu birliyi, xalq-dövlət birliyi, xalq-Prezident birliyi potensial qüvvəyə çevrilib. Düşmən tərəfi bəlkə də xalqımızın və ordumuzun belə potensial gücünü görməmişdi və ya heç düşünə də bilmirdi. Elə ki, Ordumuzun güclü zərbələri qarşısında işğalçı tərəfin canlı qüvvəsi və döyüş texnikası darmadağın edildi və biabırçı şəkildə qaçmağa tələsdilər, belə bir vaxtda faşist rəhbərliyi olan Paşinyan hökuməti əl-ayağa düşdü, dünyanın bir çox ölkə rəhbərliyinə yalvarmağa başladı. Özləri də başa düşməlidirlər ki, düşmənin fəlakətli aqibəti uzaqda deyil.

Bu gün dünyanın bütün dövlət və hökumət başçıları aydın şəkildə bilmədirlər ki, Azərbaycan xalqı haqq müharibəsi aparır. Cənab Prezident, Ali Baş Komandan bütün çıxışlarında, müsahibələrində, xarici ölkə jurnalistlərinə verdiyi müsahibələrində demişdir: «Azərbaycan öz ərazi bütövlüyünün bərpası uğrunda mübarizə aparır. Döyüş meydanlarında əsgər və zabitlərimiz qəhrəmanlıq göstərir, düşmənə sarsıdıcı zərbələr endirir, düşməni torpaqlarımızdan qovur, canı-qanı bahasına. Bu şərəfli missiya tarixdə öz yerini tapacaqdır».

Azərbaycan əsgəri mərdi-mərdanə döyüşür, beynəlxalq müharibə qanunlarına bütün komponentləri ilə əməl edir, bir mülki əhalinin məskunlaşdığı nöqtələri vurmur. Ancaq məkrli və hiyləgər düşmən mülki əhalini, dinc əhalini nişan alır. Dinc əhalinin gecə yatdığı yerdə raket atəşinə tutulması, Gəncə, Mingəçevir, Goranboy, Ağdam və başqa şəhərlərin və yaşayış yerlərinin raket atəşinə tutulması beynəlxalq qanunlara ziddir və müharibə cinayətidir. Gəncə şəhərinə və başqa şəhərlərə ardıcıl raket atəşləri nəticəsində körpə uşaqların və dinc əhalinin vəhşicəsinə məhv edilməsinə cəhd edilməsi barbarlıqdır, alçaqlıqdır, hərbi cinayətdir. Ermənistanın hərbi-siyasi rəhbərliyinin törətdiyi bu cinayətləri, bu vəhşiliyi qoca tarix heç zaman bağışlamayacaq. Neçə ki, deyilib: biz sussaq da tarix susmayacaq, tarix sussa da həqiqət susmayacaq. Artıq dünya anlayır ki, erməni rəhbərliyi vəhşiliyin və barbarlığın bütün komponentlərindən məkrli və hiyləgər formada, avantürist və təxribatçı formada həyasızcasına istifadə edir.

Bu gün erməni yalanı, erməni məlumatları tam şəkildə iflasa uğramışdır. Məğlub olduğunu görən Ermənistanın cinayətkar hərbi-siyasi rəhbərliyi dinc əhalini, mülki evləri və obyektləri raket atəşinə tutur. Gəncə, Mingəçevir, Tərtər, Goranboy, Bərdə şəhərlərinin dinc əhalisini raket silahları ilə, özü də qadağan edilmiş silahlarla atəşə tutur. Dinc əhalinin, yaşayış evlərinin, mülki obyektlərin, uşaqların, yaşlıların, qadınların raket atəşinə tutulması alçaqlıqdır, barbarlıqdır və hərbi cinayətdir. Ermənistanın hərbi-siyasi rəhbərliyinin bu cinayətlərini qoca tarix heç zaman bağışlamayacaq və faşist rəhbərlər tarix qarşısında, ikinci beynəlxalq Nyurinberq məhkəməsində cavab verməli olacaqlar. Çünki biz sussaq da tarix susmayacaq, tarix sussa da, həqiqət susmayacaq. Ancaq Azərbaycan əsgərləri döyüş meydanında qəhrəmanlıqla vuruşur, heç bir mülki obyektlərə atəş açmır. Azərbaycan əsgəri mərdi-mərdanə döyüşür, torpaqlarımızı işğaldan azad edir. Ali Baş Komandan, Prezident İlham Əliyevin dediyi kimi, biz döyüş meydanında güc göstərərək Ermənistan muzdurlarına öz yerlərini göstəririk, onların mövqelərini darmadağın edirik. Bu müharibə

meydanında qəhrəman Azərbaycan Ordusu öz qələbələri ilə xalqımızın tale müqəddəratında yeni bir tarix yazdı.

Dinc sakinlərə qarşı, adamların yatdığı vaxt, gecə saat 01 radələrində şəhəri raket atəşinə tutmaq beynəlxalq müstəvidə müharibə cinayətidir, insanlığa qarşı , bəşəriyyətə qarşı cinayətdir. Gecə vaxtı cəbhədən 80-100 km. uzaqda yerləşən və müharibə cəbhəsi ilə heç bir əlaqəsi olmayan şəhərlərə – Gəncə, Mingəçevir və başqa şəhərlərin dinc sakinlərinin vəhşicəsinə atəşə tutulması dünya tərəfindən qəzəblə qarşılanıb. Ermənistanın faşist rəhbərliyi bununla sübut edir ki, Paşinyan rəhbərliyi cinayətkardır, terrorçu dövlətdir, bölgədə sülh üçün zərərli tərəfdir, işğalçı dövlətdir.

Azərbaycan xalqının bu haqlı müharibəsi bütün dünyada müdafiə edilir. Cənab Prezidentimizin dediyi kimi, biz yeni bir dövrün astanasındayıq. Ordumuzun və əsgərlərimizin qələbələri günbə-gün artır. Hər gün yeni-yeni kəndlərimizin, şəhərlərimizin və yaşayış məntəqələrimizin düşmən işğalından azad edilməsi müjdələri alınır. Xalqımız bu qələbələri çoxdan gözləyirdi. İndi vaxt-vədə çatıb, Ali Baş Komandanımızın rəhbərliyi ilə tezliklə Azərbaycanın ərazi bütövlüyü tam bərpa ediləcək. Suqovuşanın, Cəbrayılın, Füzulinin, Zəngilanın və digər şəhər və kəndlərimizin azad edilməsi bizim müharibə tariximizdə böyük hərbi-strateji əhəmiyyətə malik olan hadisədir. Bir tarixçi kimi onu deyə bilərəm ki, sovet xalqlarının Böyük Vətən müharibəsi tarixində Moskva yaxınlığında faşist qoşunlarının darmadağın edilməsi (dekabr, 1941-ci ildə) ilə əsaslı dönüşün başlanğıcı qoyuldu. Stalinqrad və Kursk döyüşlərində isə əsaslı dönüş baş verdi və düşmən darmadağın edilərək işğal etdikləri ərazilərdən qovulmağa başlandı. Bəlkə də bu gün oxşar hadisələr baş verir: Cəbrayıl-Füzuli-Suqovşan-Hadrut bölgələrinin işğaldan azad edilməsi, bizim apardığımız bu Vətən müharibəsində əsaslı dönüşün başlanğıcıdır. Şuşa və Xankəndində üçrəngli bayrağımızın sancılması ilə, İnşəAllah Vətən müharibəsinin tarixində əsaslı dönüş oldu. Möhkəm arxa cəbhə ilə ordu birliyi, güclü iqtisadiyyat, formalaşmış qüdrətli ordu, Ali Baş Komandanın qətiyyətli və prinsipial mövqeyi bugünkü və növbəti qələbələrin müjdəsindən xəbər verir. Oktyabrın 20-də Azərbaycan xalqına etdiyi müraciətində Prezident İlham Əliyev deyib: «…Müzəffər Azərbaycan Ordusu döyüş meydanında yeni qələbələr qazanır. Bu qələbələr hər bir Azərbaycan vətəndaşını sevindirir. Düşmən döyüş meydanında Azərbaycan Ordusunun gücünü görür. Biz öz torpağımızda vuruşuruq və işğalçıları bundan sonra da öz torpaqlarımızdan qovacağıq».

Ermənistanın xunta-faşist rəhbərliyi yalan-yalan danışmaqla nəinki öz xalqını, həm də dünyanın dövlət və hökumət başçılarını da aldadır. Dövlət başçısına xas olmayan avantürist məlumatlar yayır. Ancaq atalar demişkən yalan ayaq tutar, amma yeriməz. Eləcə də Paşinyanın yalançı məlumatları artıq beynəlxalq media tərəfindən ifşa edilir. Uzağa getməyək. Bu il oktyabrın 10-da və 17-də humanitar atəşkəsə dair üçtərəfli (Rusiya Federasiyası, Azərbaycan və Ermənistan) razılaşma sənədi imzalandı. Müqavilənin mürəkkəbi qurumamış Ermənistanın hərbi-siyasi rəhbərliyi humanitar atəşkəsi kobud şəkildə pozdu, Gəncənin, Mingəçevirin, Tərtərin və başqa ərazilərimizin dinc, mülki əhalisini raket silahları ilə atəşə tutdu. Çoxlu sayda dinc əhali, uşaq, qoca, qadın şəhid oldu, yaralananlar oldu, bir çox yaşayış binaları və mülki obyektlər dağıdıldı. Ermənistanın faşist rəhbərliyi indi bir daha sübut etdi ki, onlar işğalçı və avantürist niyyətlərindən əl çəkməyiblər. Azərbaycanın qəhrəman və igid əsgərləri əks-hücuma keçərək, düşmənin çoxlu sayda canlı qüvvəsini və hərbi texnikasını, silah anbarlarını məhv etdi. Bununla da düşmən qüvvələrinə sarsıdıcı zərbələr vuruldu. Azərbaycanın bir çox kəndləri və Zəngilan şəhəri işğaldan azad edildi (20 oktyabr).

Beləliklə, Ali Baş Komandanımızın da dediyi kimi, 30 il ərzində bizim torpaqlarımzı istismar edən mənfur düşmənin belini qırırıq və qıracağıq da.

Ötən illər ərzində Azərbaycan rəhbərliyi, Prezident İlham Əliyev öz qətiyyəti, müdrik və uzaqgörən siyasəti ilə münaqişənin beynəlxalq hüquq çərçivəsində həlli yollarına dair ciddi çalışmış və öz mövqeyini ortaya qoymuşdu. Təəssüflər olsun ki, Ermənistan rəhbərliyi radikal addımlar atmamış, bütün danışıqlar prosesində riyakar fikirlər söyləyərək münaqişənin həllini uzatmış və danışıqları pozmuşdu. Beynəlxalq müstəvidə ikili standartlarla üzləşən ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyünü bərpa etmək üçün əks-hücum əməliyyatına başlayaraq torpaqlarımzı işğaldan azad etməyə başladı. Bununla da xalqımızın Vətən müharibəsi, düşmənə qarşı ümumxalq müharibəsi başlandı. Xalqın iradəsini ifadə edən Ali Baş Komandanın göstərişlərini bütün Azərbaycan xalqı ürəkdən bəyəndi və müdafiə etdi.

Müzəffər Azərbaycan Ordusu əks hücumlarını davam etdirərək işğal altında olan şəhər və kəndlərimizi azad edir və Böyük tarixi qələbəyə lap yaxınlaşırdı. Noyabrın 8-də Şuşanın azad edilməsi çox böyük tarixi qələbənin sorağından xəbər verirdi. Artıq bütün dünya, o cümlədən Rusiya Federasiyasının Prezidenti aydın gördülər ki, Azərbaycan ordusu hər gün yeni-yeni tarixi dəyərlər qazanır. Prezident V.V.Putin son çıxışlarında deyib ki, «Dağlıq Qarabağ və ona bitişik olan rayonlar Azərbaycanın ayrılmaz hissəsidir. Azərbaycan xalqı bu Vətən müharibəsini öz torpağında aparır. Deməli Ermənistan işğalçı dövlətdir və bütün Azərbaycan torpaqlarından çıxmalıdır. Bununla da neçə illərdən bəri gözlədiyimiz tarixi həqiqət bərpa olundu və prezident V.V.Putin Azərbaycanın haqq-ədalət mövqeyini müdafiə etməyə başladı.

Noyabrın 9-da RF-in prezidenti V.V.Putin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri N.Paşinyanın imzaladığı üçtərəfli bəyanat ilə noyabrın 10-da Moskva vaxtı ilə saat 00.00-dan etibarən bütün hərbi əməliyyatlar dayandırıldı. Laçın, Kəlbəcər və Ağdam rayonlarının mərhələ-mərhələ Azərbaycana qaytarılması (yəni işğaldan azad olunması) razılaşdırıldı (2). Beləliklə, Azərbaycanın ərazi bütövlüyü tam bərpa olunur. Prezident İlham Əliyevin dediyi kimi, bu bəyanat bizim şanlı qələbəmizdir, bu bəyanatın tarixi əhəmiyyəti var.

*Nəticə*. Bəli, 44 gün davam edən İkinci Qarabağ müharibəsi Azərbaycan xalqının tam qələbəsi ilə başa çatdı. 30 illik işğala son qoyuldu, ərazi bütövlüyümüz tam bərpa edildi. Biz zəfər çaldıq, Böyük Tarixi Qələbəni qazandıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

## ƏDƏBİYYAT

1. İlham Əliyevin xalqa müraciəti. 27 sentyabr 2020-ci il. - https://president.az/articles/news [Müraciət tarixi: 12.12.2020]
2. Azərbaycan Respublikası Prezidenti, Ermənistan baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı. - https://president.az/articles/45923 [Müraciət tarixi: 12.12.2020]

**NURU MAMMADOV**
*Professor of Baku State University*

## WE HAD A PATRIOTIC WAR AND ACHIEVED A HISTORICAL VICTORY!

The article examines the reasons for the beginning of the Second Karabakh War and notes the provocative actions of the Armenian leadership. It is noted that the strong Azerbaijani army won in this Patriotic War, the 30-year occupation ended and our people achieved a great historical victory.

*Keywords*: Azerbaijani people, Patriotic War, President Ilham Aliyev, Karabakh, historic victory

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 12 dekabr 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2020-ci il.*
*Məqalə Redaksiya heyətinin qərarı ilə çapa məsləhət görülüb.*

QARABAĞ AZƏRBAYCANDIR!

**UOT 94 (479.24)**

**CƏBİ BƏHRAMOV**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun*
*elmi işlər üzrə direktor müavini,*
*tarix elmləri üzrə fəlsəfə doktoru, dosent*
**E-mail: djabibaxramov@mail.ru**

# ERMƏNİ FAŞİZMİNİN AZƏRBAYCAN XALQINA QARŞI TÖRƏTDİKLƏRİ CİNAYƏTLƏR TARİXİ FAKTLARIN DİLİ İLƏ

*Məqalədə son 300 il ərzində Azərbaycan xalqı əleyhinə erməni faşizminin cinayətlərinin tarixindən bəhs edilir. Müəllif mötəbər mənbələr, ilk növbədə arxiv, elmi və kütləvi informasiya vasitələri materialları, rəsmi sənədlər əsasında erməni faşizminin Azərbaycan xalqı əleyhinə törətdikləri cinayətlərin tarixini araşdırmışdır. Məqalədə həmçinin erməni faşistlərinin havadarlarının fəaliyyətindən, azərbaycanlılara qarşı etnik təmizləmə və deportasiya siyasətindən, 1992-1994-cü illərdə Azərbaycan torpaqlarının işğal edilməsində onların rolundan bəhs edilir. Məqalədə eyni zamanda, son illərin hadisələri, xüsusən də Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin erməni işğalı altında olan torpaqları azad etməsi, erməni faşizmi tərəfindən beynəlxalq-hüquqi normaların pozulması məsələləri işıqlandırılır.*

*Acar sözlər*: Cənubi Qafqaz, Azərbaycan, Erməni faşizmi.

*Giriş*. Erməni faşizminin və onun himayədarlarının Azərbaycan xalqına qarşı törətdiyi cinayətlərin tarixi 200 illdən artıq bir dövrü əhatə edir. XVI əsrdən başlayaraq Avropada və onun şərqində yaranan yeni mərkəzləşmiş dövlətlər yeni ərazilər əldə etmək üçün müstəmləkə müharibələrinə başladılar. XVIII əsrin I yarısında yranmış Rusiya imperiyasının hərbi-siyasi işğal planlarında Gənubi Qafqaz, xüsusilə də Azərbaycan mühüm yer tuturdu. Bu işğal planını həyata keçirmək üçün Rusiya imperiyasının hərbi-siyasi dairələri ermənilərdən bir ölüm aləti olaraq istifadə faktına üstünlük verdilər. Bütün XIX-XX əsrin əvvəlində çar Rusiyası Qacarlar İranı və Osmanlı imperiyası ərazilərılərindən Cənubi Qafqaz ərazilərinə 1mln.300 min nəfərdən çox erməni əhalisini köçürmüşdü. 1905-1906-cı illərdə çar Rusiyası,1918-1920-ci illərdə Sovet Rusiyası, Fransa, ABŞ və Böyük Britaniyanın, 1920-1991-ci illərdə SSRİ və 1992-2020-ci illərdə isə Qərb dövlətləri ilə yanaşı RF-nın təcavüzkar hərbi-siyasi dairələri öz çirkin planlarını reallaşdırmaq üçün ermənilərdən bir ölüm aləti olaraq istifadı etmişlər. 2020-ci il sentyabrın 27-ə Azərbayca xalqının Qarabağın azad edilməsi uğrunda başladığı Vətən müharibəsi erməni faşizmini məhv etməklə bərabər, onun himayədarlarının da işğalçı planlarını darmadağın etdi.

*XVIII əsrin I yarısında* Çar Rusiyasını imperiyaya çevirən I Pyotrun xarici siyasətində ən mühüm istiqamətlərdən biri Osmanlı Türkiyəsi ərazilərini və Qafqazı ələ keçirmək idi. Əslində isə müasir Rusiya Federasiyası dövlətinin işğal siyasətinin əsası XVI əsrdə Moskva Rus dövlətinin başçısı İvan Qroznı tərəfindən qoyulmuş və bu siyasət 1552-ci ildə Kazan, 1556-cı ildə Həştərxan və 1793-cü ildə isə Krım xanlıqlarının zəbt olunmaları ilə başa çatdırılmışdı. Bu vəzifələrin həlli üçün isə Rusiya imperiyasına bu ərazilərdə həm çar, sovet və həm də müasir Rusiya Federasiyasının hakim dairələri nümayəndələrinin dedikləri kimi, hərbi-siyasi qüvvə-forpost lazım idi. Bu rolu isə Osmanlı Türkiyəsi və Cənubi Qafqazın xristian əhalisi oynaya bilərdi. Lakin, qeyd etmək lazımdır ki, hələ XVIII əsrin I yarısında Azərbaycan Səfəvilər və Osmanlı Türkiyəsi dövlətləri ərazilərində yaşayan və Cənubi Qafqazın yerli (avtoxtan - C.B.) əhalisi olmayan ermənilər öz «zülmkarlarından» azad olmaq üçün o zaman Avropanın xristian dövlətlərinə daha çox ümid bəsləyirdilər. Bu məqsədlə 1678-ci ildə Azərbaycan Səfəvilər dövlətinin üçüncü paytaxtı olan İsfahan şəhəri yaxınlığında I Şah Abbas tərəfindən ermənilər üçün salınmış Culfa şəhərində Katolikos Akopun sədrliyi ilə Erməni Qriqoryan kilsəsinin və erməni tacirlərinin xüsusi müşavirəsi keçirilir və elə həmin katalikosun rəhbərliyi ilə yeddi nəfərlik nümayəndə heyəti Avropaya göndərilir. Bu heyət qarşısında qoyulan əsas məqsəd erməniləri Azərbaycan Səfəvilər dövləti hökmranlığından azad etmək yolunu Avropanın xristian dövlətlərinin köməyi ilə tapmaq idi. Avropada heç bir siyasi nəticə əldə edə bilməyən ermənilər,

Avstriya-Macarıstan imperatorunun məsləhəti ilə Rusiya çarı I Pyotra müraciət edir və onun tərəfindən böyük razılıqla qarşılanırlar. Avstriya-Macarıstan monarxı İohann-Vilhelm I Pyotura yazdığı məktubunda ermənilərin əsas məqsədini belə izah edir: «Ermənilər mənim yanıma Beros nəslindən olan Uri adlı bir məlikzadəni və vartapet Minası göndərmişlər. Onların əsas məqsədi Ermənistanı (Osmanlı Türkiyəsi ərazisində Fərat və Dəclə çaylarının yuxarı axarı ətrafında yerləşən kiçik bir ərazi nəzərdə tutulur – C.B.) İran (Azərbaycan Səfəvilər dövləti-C.B)zülmündən azad etməkdir. Əgər Siz öz imperator iradənizi göstərib Ermənistanı xilas etmək üçün bizə, ordumuzla Sizin imperiyanın ərazisindən keçməyə icazə versəniz, onda biz erməni nümayəndələrinin təklifini qəbul etməyə hazırıq». Bundan əlavə məktubda erməni nümayəndə heyətinin başçısı İsrael Urinin çar tərəfindən qəbul edilərək dinlənilməsi xahiş olunurdu. 1701-ci iyunun 30-da I Pyotr erməni nümayəndələrini qəbul edərək təklif edilən hərbi layihənin bütün detalları ilə tanış olduqdan sonra Cənubi Qafqazı öyrənmək üçün öz erməni məmurlarından birini buraya göndərir. O, göndərdiyi nümayəndəsinin məlumatını dinlədikdən sonra, Avstriya-Macarıstan imperatorunun təklifinə rədd cavabı verir və çar Rusiyası üçün çox əlverişli bir hərbi-siyasi şəraitin yarandığını yəqin edir. Belə bir fürsəti çoxdan gözləyən I Pyotr Qafqazın işğalı üçün hərbi-strateji planların hazırlanmasına 21 il vaxt sərf etdi. Bu hazırlanan planların əsas mahiyyətini Cənubi Qafqazın böyük hissəsini və müasir İran İslam Respublikasının şimalını əhatə edən bütöv Azərbaycanı ələ keçirərək buraya Osmanlı Türkiyəsi və indiki İİR-sı ərazilərindən erməniləri köçürmək və paytaxtı Xəzər dənizi sahilində yerləşən, Rusiya imperiyasının Ön Asiya, Yaxın Şərq ölkələri və ilk növbədə Hind Okeanına çıxışını maneəsiz təmin edə biləcək qondarma bir erməni «dövlətinin» - forpostun yaradılması təşkil edirdi (23, 25-30). Məlumdur ki, o zaman bu planların həyata keçirilməsinə I Pyotrun ölümü mane olsa da, onun 1724-cü ilin oktyabrında gələcəkdə işğal ediləcək Azərbaycan ərazilərinə ermənilərin köçürülməsi ilə bağlı verdiyi fərman mühüm rol oynadı. Bundan sonra bu işğal planları Azərbaycan ərazilərinin çar Rusiyası və Qacarlar İranı arasında 12 oktyabr 1813-cü il Gülüstan və 1828-ci il fevralın 10-da imzalanmış Türkmənçay müqavilələrinə əsasən həyata keçirildi. Türkmənçay müqavilənin 15-ci maddəsinə əsasən Qacarlar İranı və Osmanlı Türkiyəsi ərazilərindən ermənilərin Rusiya imperiyası tərəfindən işğal olunmuş Şimali Azərbaycan ərazilərinə kütləvi şəkildə köçürülməsinə başlanıldı. Qeyd etmək lazımdır ki, bu maddənin Türkmənçay müqaviləsinə daxil edilməsinin əsas təşəbbüskarlarından biri səfir A.Qriboyedov olmuşdur. 1826-1828-ci illər II çar Rusiya – Qacarlar İranı müharibəsi zamanı xanlığın əhalisi Hüseynqulu xan Qacar, qardaşı Həsən xan Qacar və onun nəvəsi Fətəli xan Qacarın rəhbərliyi altında 1827-ci il 27 aprel - 23 iyun və 24 sentyabr - 1 oktyabr tarixlərində Çar Rusiyası ordusunun İrəvan şəhəri və həmin ilin 16-17 aprel və 14-20 sentyabr tarixlərində Sərdarabad qalasına hücumlarını qəhrəmanlıqla dəf edərək onu dörd dəfə uğurla müdafiə etdi. Lakin, vaxtilə burada çox az sayda məskunlaşan ermənilərdən işğalçı ordusunun komandanlığı istifadə edərək İrəvan qalasını mühasirədə saxlayan general Paskeviç onlardan qala ilə bağlı ən dəqiq məlumatları əldə edə bildi. Ermənilərin etdiyi xəyanət Rusiya imperiya ordusu tərəfindən İrəvan qalasının və son nəticədə bütün xanlıq ərazisinin işğalı ilə nəticələndi. Göstərdiyi bu «qəhrəmanlığa» görə general İ.F.Paskeviç çar I Nikolayın fərmanları ilə qraf tituluna, II dərəcəli Georgi ordeni, 1 mln. rubl. miqdarında qızıl pul və İrəvan şəhərinin onun tərəfindən işğalı şərəfinə görə isə «Erivanski» titulu ilə mükafatlandırıldı. Çar Rusiyasının məqsədi İrəvan şəhərini işğal olunmuş Şimali Azərbaycan torpaqlarında yaradılacaq erməni dövlətinin paytaxtı etmək idi. Rusiya imperiyasının dövlət maraqları üstün tutan A.Qriboyedov «məzlum» erməni «xalqına» kömək etmək istəyirdi. 1826-1828-ci illərdə II çar Rusiyası - Qacarlar İranı müharibəsi gedişində Şimali Azərbaycanın İrəvan, Naxçıvan və Qarabağ xanlıqları ərazilərinə 18 min erməni ailəsi köçürüldü. 1828-1830-cu illər ərzində isə Cənubi Qafqaza İrandan 40000, Türkiyədən isə 85000 nəfər erməni köçürüldü və onlar Yelizavetpol (1868) (1804-cü ilin yanvarınadək keçmiş Gəncə və Qarabağ xanlıqlarının əraziləri) və İrəvan (1849) quberniyalarının ən yaxşı torpaqlarında yerləşdirildi, onlara 200000 desyatindən çox xəzinə torpağı ayrıldı. 1828-ci il martın 21-də I Nikolayın fərmanı ilə İrəvan və Naxçıvan xanlıqları ərazilərində ermənilər üçün qondarma «Erməni Vilayəti» yaradıldı (14, 398-405). XIX əsrin 30-cu illərindən başlayaraq Rusiya imperiyası tərəfindən Cənubi Qafqazda həyata keçirilən xristian etiqadlı xalqların bu ərazilərə köçürülməsi kompaniyası tədricən ardıcıl xarakter almış, məqsədyönlü siyasətə çevrilmişdi. Əsrin axırlarında isə çar hökuməti köçürmə üzrə qanunvericilik aktlarının hazırlanmasına başlamışdı. 1899-cu il aprelin 15-də II

Nikolay tərəfindən «Zaqafqaziyada köçürməyə icazə» haqqında qanun verilmişdi. 1900-cü il dekabrın 22-də elan olunmuş yeni qanunda isə Qafqazda mülkü işlər üzrə baş rəisə icazə verilmişdi ki, «rus mənşəli və pravoslav dininə mənsub kəndlərin» vəsatətlərini yalnız ilkin qaydada müzakirə etməklə onları xəzinə torpaqlarında yerləşdirsin. Yerli hakimiyyət orqanları bu çar sərəncamını həyata keçirərək artıq 1901-ci ilin martında köçürmə sahələrini müəyyənləşdirməyə başlamışdılar. 1904-cü ilin iyulunda çar hökuməti tərəfindən daha yeni bir qanun verilmişdi: «Kənd əhlinin və əkinçi meşşanların könüllü surətdə haqqında müvəqqəti qaydalar» qanuna görə yalnız rus mənşəli, pravoslav dininə mənsub yerli adamların və ya üç idarənin – Daxili İşlər Nazirliyinin, Hərbi İdarənin və Qafqazda Mülkü İşlər üzrə Baş rəisin mülahizəsi ilə bölücü dini sektantlarına mənsub şəxslərin imperiyanın müsəlman ucqarlarına, o cümlədən də Cənubi Qafqaz diyarına köçürülməsinə icazə verilmişdi.

Çar hökuməti tərəfindən aparılan bu məqsədyönlü siyasət bütün XIX əsr ərzində davam etmiş və nəticədə Şimali Azərbaycan ərazilərinə köçürülən ermənilərin sayı çar məmuru və publisist N.Şavrovun 1911-ci ildə yazdığı kimi: «Hazırda Cənubi Qafqazda yaşayan 1 mln. 300 min ermənin 1 mln nəfəri yerli əhali olmayıb, bizim tərəfimizdən buraya köçürülənlərdir» (33, 63). XX əsrin əvvəlində onların Cənubi Qafqazda ən başlıca himayədarı olan Qafqaz canişini İ.İ.Vorontsov-Daşkov 1912-ci ilin oktyabrın 12-də çar II Nikolaya məktubla müraciət edərək yazırdı: «Həmişə bizə böyük xidmətlər göstərmiş ermənilərə himayədarlıq etməklə biz etibarlı müttəfiq qazanmışıq» (20, 209). Rusiya imperiyasının Cənubi Qafqazda yeritdiyi milli toqquşmalarla müşayiət edilən dağıdıcı müstəmləkə siyasətinin mahiyyətini I Dövlət Dumasının Yelizavetpol (Gəncə – C.B.) quberniyasından seçilmiş deputatı İsmayıl xan Ziyadxanov 12 iyun 1906-cı ildə keçirilən I çağırış I sessiyanın 25-ci iclasında 1906-cı il mayın 27-də İrəvanda tatarlarla (azərbaycanlılarla - C.B.) ermənilər arasında baş vermiş toqquşmalar, əhalinin təhlükəsizliyinin təmin olunması tədbirləri barədə Nazirlər Şurası sədrinə verilən sorğuya dair müzakirələrdə iştirakı zamanı etdiyi çıxışında belə qiymətləndirirdi: «Biz müsəlmanlara onlar deyirdilər: siz iqtisadi cəhətdən ermənilər tərəfindən kölə vəziyyətinə salmısınız, onlar öz çarlığını yaratmaq istəyərək güclü silahlanırlar, bir gün görəcəksiniz ki, siz artıq yoxsunuz. Ermənilərə isə deyirdilər ki, panislamizm ideyası müsəlman cəmiyyətinin bütün təbəqələrinə dərin kök salmışdır və bir gün müsəlmanlar sizi tikə-tikə doğrayacaqlar. Fitnəkarlıq bu yolla gedirdi» (16, 145). İ.Ziyadxanovun Dövlət Dumasında etdiyi bu çıxışdan 106 il keçmişinə baxmayaraq, 1988-ci ildən bu günə qədər keçən dövrün hadisələrini analiz etdikdən İ.Ziyadxanovun nə qədər uzaqgörən və müdrik bir insan olduğunun şahidi olursan.Yeri gəlmişkən burada mühüm bir məsələni xüsusi olaraq qeyd etmək çox vacibdir. Belə ki, çar Rusiyasının müstəmləkələrdə, xüsusilə Cənubi Qafqazda milli münaqişələri qızışdırmaq siyasəti Azərbaycan xalqının görkəmli ziyalılarını çox narahat edirdi. Buna görə də onlar çarizm tərəfindən milli qarşıdurmaya təhrik edilən erməni siyasi təşkilatlarına tutarlı cavab vermək üçün 1907-ci ilin martında Gəncə (keçmiş Yelizavetpol – C.B.) şəhərində Cənubi Qafqaz, Şimali Qafqaz və Krım müsəlmanlarının keçirilən qurultayında Qarabağda mövcud olan erməni terror və siyasi təşkilatlarına cavab olaraq qərar qəbul edilmişdi. Qəbul edilmiş qərarda aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdu: - «Difai» təşkilatının fəaliyyəti orada təşkil edilsin; - Bakı sahibkarları H.Z.Tağıyevin və A.Ş.Əsədullayevin köməyi ilə Ağdam yaxınlığında knyaz Uçmiyevlərin mülkləri satın alınaraq orada yalnız müsəlmanlar yerləşdirilsin; - hökmən Şuşada yaşamaq azərbaycanlılara bir vəzifə olaraq tapşırılsın; - Qarabağ müsəlman vilayətinə çevrilsin. Qurultayın qərarı ilə «Difai» təşkilatının Qarabağda «Qarabağ Birlik Məclisi» adlı bölməsi də yaradılmışdı. Məclisin baş komitəsi Şuşa şəhərində yerləşirdi. Təşkilatın sədri Kərim bəy Mehmandarov idi. Təşkilatının 400 nəfərdən ibarət döyüş dəstəsi var idi. «Qarabağ Birlik Məclisi»nin 1907-ci ildə qəbul etdiyini 53 maddədən ibarət proqramda azərbaycanlı əhalinin milli mənafelərinin qorunması əsas vəzifə kimi müəyyən edilmişdi (16, 121).

1917-ilin fevralında Rusiya imperiyasının dağılmasından sonra yaranan Müvəqqəti hökumət həmin ilin martın 3-də Cənubi Qafqazın idarə olunması üzrə xüsusi komitənin – OZAKOM-un yaranması haqqında qərar qəbul etdi. 1917-ci ilin oktyabrın 26-da Rusiyada bolşeviklərin həyata keçirdikləri hərbi çevriliş nəticəsində Petroqradda hakimiyyət onların əlinə keçdi. Sovet Rusiyası XKS-nın sədri V.İ.Leninin imzaladığı sənədlərə əsasən Polşa, Finlandiya və Pribaltika ölkələrinin dövlət müstəqilliyi tanınsa da, Cənubi Qafqaz ölkələri içərisində Azərbaycan Xalq Cümhuriyyətinin dövlət müstəqilliyi tanınmadı. Bunun isə əsas səbəbi Bakı neftini əldən verməmək idi. Buna görə də

hakimiyyəti silahla ələ alan bolşeviklər çarizmin Şimali Azərbaycana qarşı yeritdiyi siyasətə daha sərt xarakter verərək daşnak xislətli kommunist ermənilərdən istifadəyə üstünlük verdilər. 1917-ci il dekabrın 16-da RSFSR XKS-nin sədri V.İ.Lenin sərəncamı ilə S.G.Şaumyan Qafqazın Fövqəladə və səlahiyyətli Komissarı təyin edildi və ona burada öz fəaliyyətini təşkil etmək üçün 500 000 rubl qızıl pul ayrıldı. Cənubi Qafqaza gələn S.G.Şaumyan Bakıda bütün antiazərbaycan siyasi qüvvələrlə birləşərək hakimiyyəti ələ keçirdi. Bolşevik-daşnak hakimiyyətini butada möhkəmləndirmək üçün 1918-ci ilin fevralın 13-də RSFSR XKS-ti yeni qərar qəbul etdi. Bu qərara əsasən S.G.Şaumyanın sərəncamına 31,8 mln. rubl qızıl pul, 5 min tüfəng, 2 mln. patron, 35 pulemyot, 2 aeroplan, 2 zirehli maşın və döyüşçü dəstələri, o cümlədən Moskva Hərbi Dairəsinin 4-cü səyyar inqilabi dəstəsi göndərildi (24, 199-200). Nəticədə 1918-ci ildə Bakı şəhəri və onun ətrafında olan ərazilərdə yaşayan azərbaycanlı əhaliyə qarşı ən ağır cinayət-soyqırımı cinayəti törədilərək ən azı 12 mindən artıq azərbaycanlı məhv edildi. 1918-ci ilin martından 1921-ci ilin avqustun 1-nədək isə bütün Cənubi və Şimali Azərbaycan ərazilərində 700 000 çox azərbaycanlı soyqırımı cinayətlərinin qurbanı oldu. Bu cinayətlərin hansı səbəbdən törədildiyini S.G.Şaumyan RSFSR XKS-nin sədri V.İ.Leninə 13 aprel 1918-ci il tarixində ünvanladığı məktubunda yazırdı: "Əgər onlar qəbul gəlsəydi Bakı Azərbaycanın paytaxtı elan edilər və bütün qeyri-müsəlman ünsürlər tərki-silah və məhv edilərdi". S.G.Şaumyanın I Dünya müharibəsi zamanı Osmanlı Türkiyəsinə qarşı vuruşan və 1917-ci il 5 oktyabr Ərzincan müqaviləsinə görə Qafqaz Cəbhəsindən geri qayıdan daşnaklardan istifadə edərək azərbaycanlılara qarşı soyqırımı cinayətləri törətməsi və ən başlıcası, Bakı şəhərində hakimiyyəti ələ keçirməsi V.İ.Lenin tərəfindən çox böyük razılıqla qarşılanmışdı. S.G.Şaumyanın Bakı Neft Komitəsinin sədri təyin etdiyi Saak Ter-Qabrielyan 7 ədəd neftlə doldurulmuş gəmi ilə əvvəlcə Həştərxana, sonra isə Moskvaya gələrək V.İ.Leninlə görüşmüşdu. Bu görüş zamanı V.İ.Lenin, S.G.Şaumyanın törətdiyi cinayətlərin miqrasiyasından heyran qaldığını söyləyərək: "… Bakı proletariatına həm mənəvi, həm də maddi kömək göstərməyə hazır olduğunu" bildirmişdi. 1918-ci ilin martından başlayaraq Rusiyada getdikcə alovlanan vətəndaş müharibəsində qələbə çalmaq və I Dünya müharibəsində çökmüş ölkə iqtisadiyyatını dirçəltmək üçün Sovet Rusiyasının rəhbəri V.İ.Lenin Bakı neftinin ələ keçirilməsi məsələsinə xüsusi əhəmiyyət verirdi. Buna görə də RSFSR XKS-nin 1918-ci il 22 may tarixli qərarı bu baxımdan diqqəti cəlb edir. Qəbul olunmuş qərarda deyilirdi ki, "… ən çox miqdarda neft yola salınması birinci növbədə və sözsüz təmin edilməlidir" (8**,** 73). 1918-ci il iyunun 5-də V.İ.Lenin Saak Ter-Qabrielyana vurduğu teleqramda S.G.Şaumyanın sərəncamına əlavə olaraq 50 milyon pul ayırdığını və "nefti birinci yerə qoymaq" tapşırığını vermişdi. Lakin bununla yanaşı 1918-ci il iyunun əvvəlində bolşevik-daşnak hakimiyyətinin məhv olacağını görən Sovet Rusiyasının rəhbəri V.İ.Lenin Bakı Sovetinə vurduğu teleqramda yazırdı: "Əgər hücum baş tutarsa, mümkündürsə siz Terə (yəni Ter-Qabrielyana - C.B.) xəbər verəsiniz ki, o Bakını tam yandırmaq üçün tədbirlər görsün və bu barədə Bakı mətbuatında elan versin" (28). Sonralar bolşeviklərin başçısının bu göstərişi ilə əlaqədar pof. E.Razin yazırdı: "Yalnız təsəvvür etmək olar ki, V.İ.Leninin bu göstərişi yerinə yetirilsə idi, neft layları üzərində duran şəhərin yandırılması yerli əhali üçün hansı bədbəxtliklərə gətirib çıxara bilərdi. Bakını mədənlərini yandırmaq əmrini yalnız və yalnız İnsanlıq hissini itirmiş cinayətkar verə bilərdi». 1918-ci il mayın 26-da Gürcüstan Cənubi Qafqaz Seyminin tərkibindən çıxmaq haqqında qərar qəbul etdikdən sonra, həmin ayın 28-də Şimali Azərbaycan quberniyalarından seçilən deputatlar Azərbaycanın müstəqilliyi haqqında İstiqlal bəyannaməsi qəbul etdilər. Maraqlıdır ki, ermənilər Azərbaycan Xalq Cümhuriyyətinin hansı ərazilərdə elan ediləcəyini gözləyirdilər. Onlar Azərbaycan Milli Şurasına müraciət edərək Aleksandropolun (Gümrünün – C.B.) Osmanlı Türkiyəsi ordusu tərəfindən tutulduğunu qeyd edir və siyasi mərkəz kimi ermənilərə güzəştə gedilməsi olabiləcək ərazilərin məsələsini müzakirə etməyi təklif edirlər. Müzakirələrdən sonra İrəvanın ermənilərə güzəştə gedilməsinin qaçılmaz zərurət olduğu, Azərbaycan xalqı üçün isə qaçılmaz acı bir bəla olduğu, Milli Şura üzvləri tərəfindən etiraf edilirdi. Bu baxımdan Fətəlixan Xoyskinin Ermənistan hökuməti başçısının məktubuna verdiyi cavabla bağlı onun AXC-nin Xarici İşlər naziri M.H.Hacinskiyə 1918-ci ilin mayın 29-da göndərdiyi məktub çox maraqlıdır. Fətəlixan Xoyski məktubunda yazırdı ki: «biz ermənilərlə bütün mübahisələri qurtarmışıq və onlar bizim ultimatu-mumuzu qəbul edəcəklər və müharibə qurtaracaqdır. Biz İrəvanı ermənilərlə güzəştə getdik» (17, 130). Lakin bu məsələyə aid arxiv sənədlərinin son dərəcə dəqiqliklə öyrənilməsi və

elmi təhlili qəbul edilən taleyüklü qərarın bütün beynəlxalq hüquq prinsiplərinin pozulması ilə müşayət olunduğu və Azərbaycan xalqının rəyi soruşulmadan qəbul edildiyi faktı təsdiq olunur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2008-ci ilin əvvəlində Ağdam rayonuna səfəri zamanı 1918-ci ildə Azərbaycan Milli Şurası tərəfindən qəbul edilən bu qərarın çox səhv və yanlış bir addım olduğunu qeyd etmişdi. Ölkə Prezidenti bu fikri ilə bütün Azərbaycan xalqı üçün çox ağır və tarixi həqiqəti təsdiqləmişdir. Bəs bu tarixi həqiqət arxiv sənədlərində öz əksini neçə tapmışdır, bu hadisələr neçə baş vermişdir sualına cavab tapmaq üçün arxiv sənədlərinə və onların əsasında yazılmış elmi-tədqiqat əsərlərinə müraciət etməyə böyük ehtiyac vardır. Qeyd etmək lazımdır ki, İrəvan şəhəri və onun ətrafında olan ərazilərin ermənilərə güzəştə gedilməsi» məsələsi son dövrdə Azərbaycan Respublikası, Türkiyə Cümhuriyyəti, ABŞ, Rusiya Federasiyası və digər ölkələrdə nəşr olunmuş elmi əsərlərdə öz əksini yarmışdır. Nəşr olunmuş bu əsərlər içərisində arxiv sənədlərinin zənginliyi ilə seçilən əsərlərdən biri t.ü.f.d. V.V.Qafarovun 2011-ci ildə «Azərnəşr» nəşriyyatında çap olunmuş «Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1920)» adlı monoqrafiyasıdır ki, bu əsərin V fəslində bütün Azərbaycan xalqını daima maraqlandıran ən ağır suallardan birinə - İrəvan şəhərinin ermənilərə verilməsi məsələsinə imkan daxilində aydınlıq gətirilmişdir. Əsərin 157-ci səhifəsindən başlayan Batum konfransı və Azərbaycan» adlı bu fəsildə müəllif 1918-ci il may ayının 11-də konfransın keçirilən ilk iclasında Osmanlı nümayəndə heyətinin rəhbəri Xəlil bəy Menteşə Türkiyənin Zaqafqaziya Federasiyası ilə apardığı müharibədə verdiyi itkilərin əvəzi olaraq Şimali Azərbaycanın İrəvan quberniyasının «Gümrü və Sürməli qəzaları, Eçmiədzin qəzasının Cənub və Cənub-Qərb hissəsini təşkil edən Kəmərli (Gərnibasar), Uluxanlı (Zəngibasar) və Vedibasar bölgələri, Şərur-Dərələyəz qəzasının Şərur hissəsi və Ordubad istisna olmaqla Naxçıvan qəzası, habelə Qars-Aleksandropol-Culfa dəmir yolu və ondan istifadə hüququnun Türkiyəyə verilməsi»ni qəbul etmişdir. Bu fakt da məlumdur ki, o zaman Bakı şəhəri Sovet Rusiyasının əlində idi. Bütün bunlarla yanaşı Şimali Azərbaycanın İrəvan, Naxçıvan və Zəngəzur bölgələrində erməni quldur dəstələri yerli azərbaycanlı əhaliyə qarşı talan və quldur hücumları davam edirdi. Çıxılmaz vəziyyətə düşən Azərbaycan əhalisi öz nicat yolunu Osmanlı dövlətinə müraciət etməkdə görürdü və bunu nəzərə alan Zaqafqaziya Seymində təmsil olunan azərbaycanlı deputatlar da belə bir fikrin tərəfdarı idilər. Bu da bir həqiqətdir ki, 1918-ci ilin birinci yarısında Osmanlı dövlətindən başqa heç bir dövlət Azərbaycan xalqına hər hansı bir yardım etmək fikrində deyildi. Bakı neftinə sahib olmaq üçün Sovet Rusiyası ilə bərabər Böyük Britaniya, Fransa, ABŞ və Almaniya dövlətləri bir-biri ilə kəskin mübarizə aparırdı. Bu dövrdə Böyük Britaniyanın baş naziri olmuş L.Corc yazırdı: «… müharibənin sonunda Antantanın üstünlüyünə baxmayaraq, alman bloku Bakı neftindən istifadə edərdisə, hərbi əməliyyatlar xeyli uzanar və onun hansı nəticələri verəcəyini qabaqcadan söyləmək olmazdı». İranda Böyük Britaniyanın Əlahiddə Korpusunun komandanı general Denstervil bu fikri təsdiq edərək yazırdı: «Bakının əhəmiyyəti böyük idi… Bizim planımız Xəzər dənizində üstünlüyü ələ almaq idi, bunu isə yalnız Bakını tutmaqla həyata keçirmək mümkün idi, yəni bu şəhəri «düşmən işğalından müdafiə etmək lazım idi». Sonralar İngiltərənin «The Times» qəzeti elə belə də yazırdı: «Biz ora getdik ki, Bakının neft mənbələrini ələ keçirək». Bu fikrin təsdiqi olaraq Uinston Çörçil 1918-ci ildə Böyük Britaniyada nəşr olunan «Nur İST» jurnalında çap etdirdiyi məqaləsində yazırdı: «Neft məsələsində Bakının tayı-bərabəri yoxdur. Bakı dünyanın ən böyük neft mərkəzidir. Əgər neft kraliçadırsa, Bakı onun tacıdır» (24, 198). Regionda baş verən hadisələrlə yanaşı onun hüdudlarından kənarda da Bakı nefti ilə bağlı yeni gizli və açıq siyasi sövdələşmələr aparılırdı. Belə ki, 1918-ci il avqustun 27-də Sovet Rusiyası və Kayzer Almaniyası arasında Osmanlı Türkiyəsindən gizli şəkildə bir saziş imzalanmışdı. Razılaşmaya əsasən Bakıda neftin çıxarılması Sovet Rusiyasının iştirakı və nəzarəti altında olmalı onun dörddə biri isə Almaniyaya verilməli idi». Qeyd etmək lazımdır ki, göstərilən dövrdə Bakı neftini ələ keçirmək uğrunda mübarizə aparan dövlətlərin Cənubi Qafqaz siyasətində erməni amili, onlardan istifadə hər addımda özünü büruzə verirdi. Buna görə də bütün bu dövrdə gedən hərbi-siyasi proseslər fonunda Azərbaycan xalqı bütün ümidlərini Osmanlı Türkiyəsi dövlətinin göstərə biləcəyi yardıma ümid edirdi. Elə bu səbəbdən də 1918-ci ilin mayın 11-dən iyunun 4-nədək Batumda Osmanlı Türkiyəsi dövlətinin nümayəndələri ilə danışıqlar aparan Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyətinin üzvləri də Osmanlı Türkiyəsinin ərazi və digər tələbləri qarşısında çıxılmaz vəziyyətdə idilər. Ermənilərin paytaxt kimi

ümid bəslədikləri Aleksandropol (Gümrü – C.B.) şəhəri isə türklər tərəfindən tutulduğu üçün ermənilər tərəfindən aparılan danışıqlar zamanı onlar tərəfindən İrəvan şəhərinin güzəştə gedilməsi məsələsi israrla gündəliyə çıxarılırdı. Belə olan vəziyyətdə türklər ya Aleksandropolu (Gümrünü – C.B.) ermənilərə geri qaytarmalı, ya da ki, İrəvan azərbaycanlılardan alınaraq onlara vermək dilemması qarşısında qalmışdılar. 1918-ci il may ayının 24-də Tələt paşa Batum konfransındakı Osmanlı Türkiyəsi nümayəndə heyətinin rəhbəri Xəlil bəy Menteşəyə göndərdiyi teleqramda yazırdı: «Ermənilərin bir hökumət halında təşəkkül etməsinə qətiyyən razı deyiləm. Kiçik bir erməni muxtariyyəti beş il sonra beş milyon əhalisi olan bir erməni dövləti halına gələcək və bütün Qafqaza hakim olaraq Şərqin Bolqarıstanına çevriləcəkdir. İran və Amerikada olan bütün ermənilər orada toplanaraq, ingilis və fransızlardan hər cür yardım alaraq, gələcəkdə xristian gürcülərlə və çox asanlıqla birlikdə bizim əleyhimizə hərəkət edəcəklər» (18, 160-161). 94 il bundan əvvəl çox müdrikliklə deyilən bu sözlər bu gün artıq öz ağır dəhşətləri ilə reallığa çevrilmişdir. Lakin onu da qətiyyətlə qeyd etmək lazımdır ki, Tələt və Ənvər paşaların Cənubi Qafqazda erməni dövlətinin yaradılmasına imkan verməmək mövqeyinə Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyətinin münasibətləri çox fərqli idi. Onlar Osmanlı Türkiyəsi tərəfinin təklif etdiyi kimi Cənubi Qafqazda İsveçrənin dövlət quruluşuna uyğun şəkildə iki kantondan (vilayət və ya ştatdan – C.B.) - Azərbaycan və gürcü kantonlarından ibarət federativ bir dövlətin yaradılması təklifini qəbul etməyərək, onun yerinə azərbaycanlı, gürcü və erməni kantonlarından ibarət bir federasiyanın yaradılmasını təklif edirdilər. Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyəti öz mövqeyini belə əsaslandırılırdı ki, əgər 11 may 1918-ci il tarixli Osmanlı Türkiyəsi nümayəndə heyətinin verdiyi ultimatumda göstərilən ərazilər Osmanlı Türkiyəsinə keçdiyi təqdirdə bu ərazilərdə yaşayan bütün ermənilər Şimali Azərbaycan ərazilərinə axışacaq və onlar böyük miqyaslı qırğınlar törədəcəklər. Onlar hesab edirdilər ki, baş verə biləcək fəlakətlərin olmaması üçün ən yaxşı variant ermənilərə onların müəyyən bir ərazidə özlərinə milli dövlət yaratmaları üçün kiçik bir ərazinin güzəştə gedilməsi ilə həll oluna bilər. Bu məqsədlə Azərbaycan nümayəndə heyəti 1918-ci il mayın 23-də Ənvər paşaya yazılı bir müraciət imzaladılar. Bu müraciətə M.Ə.Rəsulzadə, M.H.Hacınski, F.X.Xoyski, M.U.Cəfərov Əhməd bəy (Can Baba), A.Səfikürdski, Ə.C.Pepinov, N.Yusifbəyli, X.Xasməmmədov imzalamışdılar. Bu müraciətdən isə bir gün əvvəl - yəni 1918-ci il mayın 22-də eyni məzmunda müraciəti Ə.Hüseynzadə və Ə.Ağaoğlu da Tələt paşaya və Ənvər paşaya ünvanlamışdılar. Bu iki seçim qarşısında qalan türklər İrəvan şəhərinin güzəştə gedilməsinə daha çox meyl edirdilər. Osmanlı Türkiyəsinin rəhbərlərindən olan Ənvər paşa ilə Tələt paşa, ümumiyyətlə Cənubi Qafqazda erməni dövlətinin yaradılmasının qəti əleyhdarları olduqları halda, Xəlil bəy Menteşə və Vehib paşa beynəlxalq aləm qarşısından ermənilərə bir dövlət yaratmaq və güzəştlər edilməsinin vacib olduğunu təkidlə qeyd edirdilər. Osmanlı Türkiyəsi nümayəndələri arasında bu məsələdə fikir ayrılığı olmasına baxmayaraq, çox böyük təəssüf hissi ilə qeyd etmək lazımdır ki, Azərbaycan XC-ti nümayəndə heyətinin üzvləri Xəlil bəy Menteşə və Vehib paşanın mövqeləri ilə razılaşırdılar (18, 164). 1918-ci il mayın 29-da Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının dördüncü iclasında iki dəfə İrəvan şəhərinin ermənilərə güzəştə gedilməsi ilə bağlı məsələ müzakirə olunur. Birinci dəfə məsələ müzakirə edilərkən iclasda Milli Şuranın 20 nəfər üzvü iştirak edir və səsvermə zamanı 16 nəfər lehinə, 1 nəfər əleyhinə, 3 nəfər bitərəf qalmaqla qeyri leqitim qərar qəbul edilir. Həmin gün keçirilən ikinci iclasda İrəvandan olan Milli Şuranın üzvləri M.H.Seyidov, M.B.Rzayev və N.Nərimanbəyov yazılı şəkildə iki dəfə Milli Şuranın İrəvanın ermənilərə güzəşt gedilməsinə qarşı etiraz ərizəsi ilə müraciət etsələr də, iştirak edən 20 nəfər Milli Şura üzvü məsələyə münasibət bildirmədən qəbul edilmiş qərarın qüvvədə saxlanılmasına razılıq verirlər (18, 170). İrəvandan olan deputatların yazılı şəkildə təqdim etdikləri etiraz məktubu işə tikilsə də indi bu sənəd Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin müvafiq fondunda yoxdur. Milli Şura üzvlərinin bu məsələdə tutduqları belə bir mövqe bir sıra suallar doğurur. İrəvan şəhərinin ermənilərə güzəştə gedərkən şəhər əhalisinin və onları təmsil edənlərin rəyi soruşulmuşdurmu? Sənədlər təsdiq edir ki, heç bir rəy sorğusu və yaxud bu istiqamətdə hər hansı bir addım atılmamışdı. Bütün bunlar bu qərarın həm siyasi, həm də hüquqi cəhətdən nə qədər səhv və bağışlanılmaz bir siyasi yanlış addım olduğunu bir daha təsdiq edir. Digər tərəfdən, bu şəhərin ermənilərə verilməsi məsələsi Erməni Milli Şurası tərəfindən Azərbaycan Milli Şurasına müraciətindən sonra müzakirə olunmuşdu. Buradan

haqlı bir sual doğur: Müzakirələr zamanı Milli Şura üzvləri yaranmış vəziyyəti nəzərə alaraq bu ağır bəladan imtina edə bilərdilərmi və bu mümkün idimi və ya Avropanın başqa xalqların tarixində buna oxşar bir hadisə baş vermişdimi? XIX əsrin I yarısında Fransa tarixində baş vermiş mühüm bir hadisə belə bir fikir yürütməyə əsas verir ki, heç şübhəsiz Azərbaycan Xalq Cümhuriyyətini yaradanların bir çoxu bu tarixi çox gözəl bilirdi. Digər tərəfdən, 1918-ci ilin may və sentyabr aylarında Cənubi Qafqazda yaranmış siyasi vəziyyət Azərbaycan Xalq Cümhuriyyətinin hər halda xeyrinə olduğu halda belə onlar bundan istifadə edib İrəvan şəhərini güzəştə getməyə bilərdilər. Lakin, yuxarıda qeyd olunduğu kimi 1918-ci ildə İrəvanın ermənilərə güzəştə gedilməsində Milli Şura üzvləri ilə yanaşı Osmanlı Türkiyəsinin də müstəsna rolu olmuşdur. Bu bir tarixi həqiqətdir və çox təəssüflə qeyd etmək lazımdır ki, İrəvan şəhəri və quberniya əraziləri güzəştə gedildikdən sonra 1918-ci il mayın 28-də özünün müstəqilliyini elan edən Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi 99.908.86 kv.km təşkil edirdi. 13.983.10 kv. kilometr ərazi isə "mübahisəli ərazi" kimi qəbul olunaraq gələcək danışıqlar prosesində həll olunması nəzərdə tutulmuşdu. Ermənilərə güzəşt edilən İrəvan quberniyasının ərazisi 9min kv.km təşkil edirdi. Edilən güzəştdən sonra ermənilər Şimali Azərbaycanın Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ ərazilərinin Ermənistana birləşdirilməsini iddiası ilə çıxış etdilər, halbuki ermənilər 1918-ci ilin mayında Batum danışıqları zamanı bu ərazilərə iddia etməyəcəkləri barədə öhdəlik qəbul etmişdilər. Lakin, 1918-1920-ci illərdə İrəvan quberniyasından başqa əraziləri ələ keçirə bilməyən ermənilər 1920-ci aprelin 28-də Şimali Azərbaycan Sovet Rusiyası tərəfindən işğal edildikdən sonra bolşeviklərin himayəsi ilə yeni ərazilər əldə etməyə nail oldular. Sovet Rusiyası hökuməti Gürcüstan və Daşnak Ermənistanı missiyaları ilə ərazi məsələlərini Azərbaycan SSR hökumətindən gizli aparırdı. Ən dəhşətlisi isə o idi ki, Azərbaycan SSR nümayəndə heyəti belə danışıqlara cəlb edilərkən onları ya milliyyətcə ermənilər, ya da gürcülər təmsil edirdilər. Azərbaycanlılar isə nə ermənilərin, nə də ki, gürcülərin nümayəndə heyətlərinin tərkibinə daxil edilmirdilər. 1920-ci il avqustun 10-da İrəvan şəhərində Sovet Rusiyası ilə Daşnak Ermənistanı arasında müqavilə imzalanarkən, bir sıra diplomatik sənədlərin də sübut etdiyi kimi, burada Azərbaycan SSR-in milli-dövlət mənafelərinə ciddi qəsdlər edilərək Zəngəzur və Naxçıvanın Daşnak Ermənistana verilməsi planlaşdırılmışdı. Bu zaman Sovet Rusiya hökuməti S.Orconikidzenin belə bir iddiasından çıxış edirdi ki, «… məlum siyasi şəraitdə Ermənistan bizə lazım ola bilər" (6). İrəvandakı danışıqlar tərəfləri gələcək sülh müqaviləsini tanımağa məcbur edən protokolun imzalanması ilə qurtardı, ki, həmin sazişlə də Ermənistan Qarabağdan imtina etməli, ancaq Zəngəzur və Naxçıvanı almalı idi. Əslində Azərbaycanın tarixi torpaqlarının Daşnak Ermənistana verilməsi planı V.Leninin razılığı ilə İ.Stalin tərəfindən hazırlanmışdı. Çünki, sonrakı illərdə bu torpaqların hissə-hissə zəbt olunması və bu ərazilərdə yaşayan əhalinin deportasiyası da İ.Stalin tərəfindən həyata keçirilmişdi. 1920-ci il noyabrın 4-də İ.Stalin, S.Orconikidze, T.Qabrielyan, Leqran, Ə.Qarayev və başqalarının iştirakı ilə keçirilən iclasda Sovet Rusiyası ilə Daşnak Ermənistanı arasındakı müqavilənin şərtlərinə toxunularkən İ.Stalinin fikri əsasında belə bir qərar qəbul edilmişdi: «Naxçıvan və Zəngəzurun Ermənistana verilməsi haqqında təklif olunan maddə nə siyasi, nə də strateji cəhətdən sərfəli deyildir və yalnız son halda baş tuta bilər» (1). İclasda həmçinin Siyasi Büronun Naxçıvan və Zəngəzura aid fikrinin əsaslandırılmasını hazırlamaq N.Nərimanova həvalə olunmuş, habelə İ.Stalinin bu məsələ ilə RK/b/P MK ilə danışıqlar aparmasınadək Ermənistana təqdim edilən müqavilə barədə qəti qərar çıxarmamaq haqqında razılaşma əldə olunmuşdu. Bu qərarın özü bir daha göstərir ki, Şimali Azərbaycan torpaqları Sovet Rusiyası tərəfindən hərraca qoyulmuşdu. Həmin qərarın «B» bəndində yazılırdı: «Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında heç bir sərhəd mövcud deyildir». Qərarın «Q» bəndində Zəngəzur və Naxçıvanın Ermənistana verilməsi, «D» bəndində isə Qarabağın dağlıq hissəsinə öz müqəddəratını təyin etmək hüququ verildiyini göstərilirdi. Zəngəzurun ermənilərə verilməsi, sadəcə Sovet Rusiyasının təzyiqi ilə «bağışlanması» istiqamətində daha bir ciddi addım 1920-ci il dekabrın 1-də atıldı. Həmin gün Bakı Sovetinin Ermənistanda Sovet hakimiyyətinin qurulması münasibətilə keçirilən, təntənəli «tarixi» iclasında N.Nərimanov bəyanatla çıxış etdi. Lakin, qeyd etmək lazımdır ki, N.Nərimanovun bəyanatı Ermənistanda yaxın və uzaq gələcəkdə Dağlıq Qarabağla əlaqədar məsələ qaldırmaq məqsədilə, İrəvanda ermənicə nəşr olunan «Kommunist» qəzetinin 1920-ci il 7 dekabr tarixli nömrəsində saxtalaşdırılmış məzmunu dərc edilmişdi. Sonralar N.Nərimanov özü

bəyanatda elan edilən faktların saxtalaşdırılmasına etiraz etmişdi. Yuxarıda qeyd edildiyi kimi, Azərbaycan torpaqlarının Ermənistana bağışlanması həyata keçirən İ.V.Stalin Bakı Sovetinin 1920-ci il dekabrın 1-də qəbul etdiyi qərara münasibətini belə bildirmişdi: «Dekabrın 1-də Sovet Azərbaycanı mübahisəli vilayətlərdən könüllü olaraq əl çəkir, Zəngəzur, Naxçıvan və Dağlıq Qarabağın Sovet Ermənistanına verilməsini elan edir» (2). 1920-ci il dekabrın 2-də İ.Stalinin «Azərbaycanın fatehi» adlandırdığı S.Orconikidze V.İ.Leninə və onun özünə Bakı Sovetində qəbul edilən qərarın məzmununu çatdırmışdı. Yuxarıda qeyd edildiyi kimi, Zəngəzurun qərb hissəsinin Ermənistan SSR-ə verilməsi rəsmən elan olunsa da qəzanın onun idarəçiliyinə keçməsi dərhal baş vermədi. Belə ki, 1921-ci il yanvarın 12-də Azərbaycan KP MK Siyasi və Təşkilat Bürolarının iclasında Zəngəzurun müsəlman əhalisi yaşayan hissəsinin inzibati cəhətdən təşkili haqqında qərar qəbul etdi. Zəngəzurun azərbaycanlı əhalisini sıxışdırmaqda davam edən ermənilər bununla kifayətlənməyərək sonralar bir sıra ərazilərin də ələ keçirilməsinə nail oldular. Belə ki, Zaqafqaziya MİK Rəyasət Heyətinin 1927-ci il 1 yanvar tarixli iclasında Mehri-Cəbrayıl qəzasında 24 kəndin, 1927-ci il 20 iyun tarixli iclasında isə Zəngəzur-Kürdüstan qəzasının 1.065 desyatin ərazisinin bu və ya digər qəzalara aid edilməsi məsələləri müzakirə edildi. Yenə də bu qanunverici hakimiyyət orqanının 1929-cu il fevralın 18-də M.Sxakayanın sədrliyi, Azərbaycan nümayəndələrindən isə D.Bünyatzadə, M.Bağırov və S.Yaqubovun iştirakı ilə keçirilən iclasda Mehridə erməni rayonu yaratmaq adı altında Zəngilan rayonunun üç kəndi: Nüvədi, Ernəzir və Tuğut-Ermənistan SSR-ə verildi (7, 927). Beləliklə, Zəngəzurun cənub-qərb hissəsindəki torpaqların da ermənilərə «bağışlanması» və burada Mehri rayonunun təşkili ilə Azərbaycan SSR özünün tərkib hissəsi olan Naxçıvan diyarından ayrı salındı, bu bölgə ilə əlaqə çətinləşdi. Naxçıvan Muxtar Respublikasının 1921-ci il Qars müqaviləsi ilə müəyyən edilmiş sərhədlərinə gəldikdə isə, həmin müqavilədə Naxçıvan ərazilərinin qarantı kimi çıxış edən Türkiyə dövlətinin razılığı olmadan Zaqafqaziya Sovet MİK Rəyasət Heyətinin 1929-cu il 18 fevral tarixli qərarı ilə bölgənin 657 kv.km sahəsi Ermənistana SSR-ə verildi. Bu orqanın 1938-ci il 5 mart tarixli iclasının qərarına əsasən isə Şərurun Sədərək və Kərki kəndləri ətrafındakı müəyyən ərazilər Ermənistan SSR-ə keçdi (10, 73-75).

II Dünya müharibəsinin qurtarmasına 115 gün qalmış – yəni 1945-ci il aprelin 19-da bütün ermənilərin VI katolikosu – Baş patriarxın müavini, arxiyepiskop Gevorq Çeorekçiyan SSRİ dövlətinin rəhbəri İ.V.Stalinə 11 bənddən ibarət ərizə ilə müraciət edir və onunla görüşür. Bu görüş zamanı İ.Stalin katolikosa xarici ölkələrdə yaşayan ermənilərin Ermənistan SSR-ə köçməyə və bundan əlavə Türkiyə Cümhuriyyətindən qondarma «Qərbi Ermənistan» adlanan torpaqların geri alınacağını söyləyir. Katolikosun ərizəsinin üstünə: «Razıyam. Xalq Komissarları Sovetinin sədri İosif Stalin. 19.04.45-ci il» dərkənarını qoyub (9, 434). 1945-ci il noyabrın 21-də SSRİ XKS-ti «Sovet Ermənistanına xarici ölkələrdən qaytarılmaları ilə bağlı tədbirlər» haqqında 2947 saylı qətnamə qəbul edir (10, 73-75). Bu qərarı alan Ermənistan SSR rəhbəri G.Arutinov İ.V.Stalinə Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR tərkibinə verilməsi ilə bağlı ona məktubla müraciət edir. İ.V.Stalin məktubu G.M.Malenkova ünvanlayır və məsələni Azərbaycan SSR rəhbəri M.C.Bağırovla müzakirə etməyi tapşırır. 1945-ci il noyabrın 28-də UİK (b)P MK-nın katibi G.M.Malenkov Azərbaycan KP(b)P MK-nın birinci katibi M.C.Bağırova teleqram vurur (21, 6) . Qarabağın Azərbaycan torpağı olması ilə bağlı 6 tarixçi aliminin elmi arayışını alan M.C.Bağırov 10 dekabr 1945-ci il tarixdə «tam məxfidir» qrifi ilə ÜİK(b) PMK katibi G.M.Malenkova göndərdiyi elmi cəhətdən əsaslandırılmış cavab məktubunda Sovet hakimiyyəti (1921-1929-cu illərdə Ermənistan SSR-ə verilən torpaqların ümumi sahəsi 20,8 min $km^2$ təşkil etmişdir – C.B.) illərində ilk dəfə itirilmiş Azərbaycan torpaqları problemini qaldırır və bununla da erməni millətçi dairələrinin planlarının pozulmasına nail olur (5). Lakin, rədd cavabı verilməsinə baxmayaraq ermənilər 1946-cı il oktyabrın 19-da SSRİ Ali Soveti Rəyasət Heyətinin xarici ölkələrdə yaşayan ermənilərin Ermənistan SSR ərazisinə köçürülməsi ilə bağlı «Xarici ölkələrdən vətənləri Sovet Ermənistanına qayıdan milliyətcə erməni olan şəxslərin SSRİ vətəndaşlığı almaq qaydaları haqqında» adlı qərarın verilməsinə nail oldular (11, 136).

Azərbaycanlıların Ermənistan SSR ərazisindəki öz tarixi-etnik torpaqlarından qovulmasının növbəti mərhələsi başlandı. 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti «Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi

haqqında» adlı 4083 saylı qərar verdi. SSRİ Nazirlər Sovetinin 1948-ci il 10 mart tarixli «Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında» adlı daha bir qərarı ilə bu işi həyata keçirmək üçün konkret tədbirlər planı müəyyən olundu. Bu qərara görə 100 min nəfəri azərbaycanlı 1948-1950-ci illərdə: 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min, 1950-ci ildə isə 50 min nəfər «könüllülük prinsipinə əsasən» Azərbaycan SSR ərazilərinə köçürülməsi idi. Qeyd etmək lazımdır ki, o zaman Ermənistan SSR-də 400 mindən artıq azərbaycanlı yaşayırdı. SSRİ hökumətinin qərarı ilə 1948-ci ildə Ermənistan SSR-dən deportasiya edilənlərin sayı 10,504, 1949-cu ildə 15,713 nəfər, 1950-ci ildə 12,332 nəfər, 1952-1953-cü illərdə 13,760 nəfər, 1954-1956-cı illərdə isə 5876 nəfər olmuşdur. Ümumiyyətlə, Ermənistan SSR ərazisindən deportasiya və etnik təmizləmənin bu mərhələsində 100 min nəfərdən çox azərbaycanlı zorla köçürülmüş və ya köçməyə məcbur edilmişdi (8, 152). Deportasiya tədbirləri Ermənistan SSR-in 22 rayonunu əhatə etmiş və əsasən azərbaycanlıların ən qədim zamanlardan yaşadıqları ərazilərdə həyata keçirilmişdi.

1953-cü ildə İ.V.Stalinin vəfatından sonra SSRİ dövləti rəhbərliyində baş verən dəyişikliyə ümid bəsləyən Erməni Qriqoryan Kilsəsi və Ermənistan SSR rəhbərliyi yenidən DQMV-ti ərazisinin Ermənistan SSR-ə birləşdirilməsi haqqında N.S.Xruşşova müraciət etdi. 1958-ci ildə Erməni Qriqoryan Kilsəsinin başçısı II Vazgen Bakıya gəlir və o zaman Azərbaycan SSR Nazirlər Sovetinin sədri Sadıq Rəhimovla görüşür. Görüş zamanı II Vazgen Bakı şəhərində yerləşən erməni kilsəsi nəzdində erməni uşaqları üçün ruhani seminariyasının açılmasına, səhər və axşam kilsə zənginin vurulmasına icazə verilməsini və ən başlıcası Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisinin Ermənistan SSR-ə birləşdirilməsinə Azərbaycan SSR rəhbərliyinin razılıq verməsini təkliflərini irəli sürür. Azərbaycan SSR Nazirlər Sovetinin sədri S.Rəhimovdan çox sərt rədd cavabı alan II Vazgen SSRİ rəhbərliyinə şikayət edir, lakin mərkəzi hökumət qaldırılan məsələnin nə qədər təhlükəli olduğunu anlayaraq onu müzakirə etməkdən çəkinir və Azərbaycan SSR rəhbərliyi millətçilikdə ittiham edilərək 1959-cu ildə dəyişdirildi (11, 136). V.Y.Axundov Azərbaycan SSR rəhbəri təyin edildi.

XX əsrin 60-cı illərinin əvvəllərindən başlayaraq Ermənistan SSR-də növbəti dəfə antiazərbaycan təbliğatı geniş miqyas almağa başladı. 1960-cı il dekabrın əvvəlində Azərbaycan KP MK-nə ABŞ-ın Boston şəhərində erməni millətçilərinin nəşr etdikləri «Baykar» («Mübarizə») qəzetində «Sovet Azərbaycanı Prezidentinə» başlığı altında çap edilmiş müraciət daxil olur. Riyakarlıqla dolu olan bu müraciətdə Azərbaycan SSR-in iki "erməni muxtar qurumu"nun – Naxçıvan MSSR və DQMV-ti ərazilərinin Ermənistan SSR tərkibinə verilməsi təklif olunur və bunun «əbədi erməni – Azərbaycan qardaşlığı»nın «möhkəmlənməsinə kömək edəcəyi» qeyd olunurdu (11, 144-145). Azərbaycan KP MK-nın birinci katibi Vəli Axundov MK-nın katibi Nazim Hacıyevə bu təxribatın qarşısını almaq və respublikanın ərazi bütövlüyünü qorumaq üçün əsaslı cavabın hazırlamaq tapşırığını verir. Mərhum Nazim Hacıyevin oğlu Aydın Hacıyev 2000-ci ildə nəşr etdirdiyi («Все понять, но не все простить». Баку, Qanun, 2000.) əsərində yazır: «Atam məsələ ilə bağlı tarixçilərin, hüquqşünasların, kartoqrafların və MK-nın məsul işçilərinin də daxil olduğu xüsusi bir qrup təşkil etmişdi. Bu işdə çox fəal yardımı o zaman AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru Əlövsət Quliyev göstərmişdi. Xüsusi qrupun hazırladığı bu sənəd arxiv sənədləri və xəritələrlə birlikdə Sov.İKP MK-nə göndərilmişdi (22, 170-171). İdeologiya üzrə MK katibinə Sov.İKP MK-nın II katibi M.A.Suslov ondan Moskvaya təcili gəlməyi tələb edir. H.Hacıyev Sov.İKP MK, SSRİ Nazirlər Soveti və SSRİ DTK-də məsul şəxslərdə görüşür və A.Mikoyanın Azərbaycana qarşı təşkil etdiyi təxribatın qarşısını almağa nail olur (22, 170-171). Lakin bu onun həyatı bahasına başa gəlir. H.Hacıyev müzakirədən sonra SSRİ Səhiyyə Nazirliyi 4-cü Baş İdarəsinin xəstəxanasına düşür və ona «bədxassəli şiş» diaqnozu qoyulur. O Kreml xəstəxanasının «işığı» sayılan Abramyan tərəfindən əməliyyat olunur. Moskvaya gələn Nazim Hacıyevin yaxın dostu akademik M.Topçubaşov əməliyyatın gedişatı ilə tanış olduqdan sonra, onun doğru aparılmadığını müəyyən edir və Nazim Hacıyev 38 yaşında vəfat edir (22, 170-171). Lakin, erməni təxribatları davam edir. Azərbaycan SSR DQMV-də yaşayan ermənilər Ermənistan SSR rəhbərliyinə çoxsaylı müraciətlər ünvanlayaraq ondan sözdən işə keçməyi tələb etməyə başladılar. 1968-ci il aprelin 23-24-də Ermənistan KP MK-nın birinci katibinə, respublika Nazirlər Sovetinin Sədrinə və Ali Sovet Sədrinə ünvanlanmış 100-ə qədər anonim məktub aşkar edilmişdi. «Əzəli erməni torpaqları»nın Ermənistan SSR-ə qaytarılması məsələsi bu məktubların əsas

məzmununu təşkil edirdi (34, 327-383). 1959-1961-ci illərdə Azərbaycan KP MK-nın II katibi işləmiş Vladimir Semicastnı rusiyalı jurnalist Andrey Karaulova verdiyi müsahibəsində həmin dövrü belə xatırlayır: «… Qarabağ ətrafında müxtəlif şayiələr və dedi-qodular yazırdı, qeyri-sağlam hadisələr baş verirdi… Mən onların konfransında çıxış edəndə mənə saysız-hesabsız suallar verdilər: bu belə deyil, o belə deyil. Mən onlara vəziyyətin nə yerdə olduğunu dedim. Sonradan orada kimi isə rəhbərlikdə dəyişdilər, vilayət komitəsinə ikinci katib təyin etdilər və vəziyyət bir qədər düzəldi» (34, 327-383). 1960-cı illərin əvvəllərində SSRİ hökumətinin xaricdə yaşayan ermənilərə növbəti dəfə Sovet İttifaqına köçməyə icazə verməsi, «Daşnaksutyun» partiyasının casusluqla məşğul olan bölmələrini xeyli fəallaşdırdı və onlar repatriasiya kanalları vasitəsilə həmsərhəd olan ölkələrdən Ermənistan SSR ərazisinə müxtəlif təxribatçı qrupların keçirilməsinə çalışırdılar. SSRİ Nazirlər Soveti DTK-nın II Baş İdarəsinin 1962-ci il fevralın 2-də Azərbaycan SSR DTK-nın II şöbəsinin rəisi Heydər Əliyevə göndərdiyi tam məxfi məktubda bu məlumatlar öz əksini tapmışdı. Heydər Əliyevin məktuba qoyduğu dərkənarda xarici ölkələrdə fəaliyyət göstərən erməni daşnak təşkilatlarının SSRİ sərhədlərinin Azərbaycan SSR sahəsini pozduqları halda yaxalanmaları haqda tapşırıqlar verilmişdi (34, 327-383). 1962-ci il iyunun 24-də isə Azərbaycan SSR DTK-nə daxil olan məlumata görə SSRİ dövlətinin başçısı N.S.Xruşşovun Ermənistan SSR-ə səfəri ərəfəsində erməni millətçiləri tərəfindən respublikada yaydıqları şayiəyə görə Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR tərkibindən çıxarılaraq Ermənistan SSR tərkibinə veriləcəyi gözlənilir. Bu məqsədlə N.S.Xruşşovun ünvanına 2500 nəfərin imzaladığı məktub göndərilmiş və burada DQMV-nin ya Ermənistan SSR, ya da ki, RSFSR tərkibinə verilməsi tələb olunurdu (34, 327-383). Ermənistan SSR və DQMV-də yaşayan ermənilərin belə fəallaşmalarının bir səbəbi də xarici ölkələrdə yaşayan erməni diaspora təşkilatlarından aldıqları dini-ideoloji və maddi yardımlar idi. Bütün bu işlər isə Ermənistan SSR rəhbərliyinin himayəsi və nəzarəti altında həyata keçirilirdi. Buna görə də onlar 1964-cü il mayın 18-də N.S.Xruşşova ünvanladıqları yeni müraciət bu sözlərlə bitirdi: «Biz Dağlıq Qarabağ məsələsinə dair qərarın təcili qəbul olunmasında təkid edirik: ya Muxtar Vilayət və ermənilərin yaşadıqları ətraf rayonlar Ermənistana birləşməlidir, ya da onlar birbaşa SSRİ-nin bir hissəsi olmalıdır» (34, 327-383). 1965-ci ilin iyununda Azərbaycan Yazıçılar İttifaqının DQMV Filialının katibi B.Ulubabyan Muxtar Vilayətin erməni millətindən olan məsul partiya və sovet işçilərinin imzaladığı ərizəni Sovet İttifaqı KP MK-ya göndərir. Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsi bu barədə respublika rəhbərliyinə məlumat vermiş və təxribatçıların qarşısını almaq üçün zəruri tədbirlər görmüşdü. 1966-cı ildə respublikanın dövlət xüsusi xidmət orqanları gizli fəaliyyət göstərən 40 nəfər üzvü olan «Erməni gənclər ittifaqı» adlı təşkilatın İrəvandan olan emissarları Muxtar Vilayətin ərazisində öz özəklərini təşkil etməyə cəhd göstərdikləri zaman respublika xüsusi xidmət orqanları tərəfindən onların qarşısı alınmışdı. 1966-cı ilin avqustunda isə Sovet İttifaqı KP MK-nın Baş katibi L.Brejnevin ünvanına göndərilən və altında 2000-ə qədər erməni «ziyalısı»nın imzası olan məktubda deyilirdi: «Qarabağ ərazisinə və milli tərkibinə görə Ermənistanındır, quruluşuna, mənəvi dünyası və məişətinə görə Ermənistanındır, Qarabağın tarixi Ermənistanın tarixidir, Qarabağın dili, incəsənəti və ədəbiyyatı ermənilərindir. Nəzərə alınsa ki, Ermənistan SSR mövcuddur, onun ayrılmaz hissəsini süni şəkildə Sovet Ermənistanından ayırmaq məqsədəuyğun deyil» (34, 327-383). «Ermənistan SSR-in elm və mədəniyyət xadimlərinin Sovet İttifaqı Kommunist Partiyasının XXIII qurultayına müraciəti» adlı bu məktub haqqında 1966-cı il sentyabrın 30-da Ermənistan KP MK-nın birinci katibi A.Koçinyanın və Nazirlər Sovetinin Sədri B.Muradyanın Sovet İttifaqı KP MK-ya ünvanlandıqları məktubda da məlumat verilir. Məktubun müəllifləri DQMV-nin və Naxçıvan MSSR-in yaranması ilə bağlı tarixi «faktları» və «sənədləri» istədikləri kimi yozaraq, daha doğrusu, saxtalaşdıraraq, həmin ərazilərə olan iddialarını siyasi, iqtisadi və etnik amillərlə, «DQMV zəhmətkeşlərinin müxtəlif təbəqələrindən olan insanların Ermənistan KP MK-ya çoxsaylı məktubları» ilə əsaslandırmağa çalışırdılar. Həmin vaxt Azərbaycan SSR DTK sədrinin müavini işləmiş Heydər Əliyev sonralar, artıq Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdə bu hadisələri belə xatırlayırdı:«Yadımdadır, 1966-cı, ya 67-ci ildə idi, Moskvadan bir qərar gəldi. O vaxt Axundov məni çağırdı. Sov.İKP MK-nın qərarı idi, yazmışdılar ki, «Azərbaycan KP MK-ya – Axundova, Ermənistan KP MK-ya – Koçinyana tapşırılsın ki, bu məsələni müzakirə edib məruzə etsinlər». Bu nə deməк idi? Deməli, Azərbaycanın məsələsini həll etməyi Ermənistana tapşırırlar. Elə bununla da onu həll edirdilər, – yəni «siz gedin, onlarla bu məsələni həll edin». O deyəcək ki, mənim

olmalıdır, biz də deyəcəyik ki, yox. Oturduq, məsləhətləşdik. Mən ona dedim ki, bilirsiniz, Siz Moskvaya getməli və Brejnevlə görüşməlisiniz. Getdi və Brejnevi başa saldı. Brejnev onu anladı və özü də o qərarı ləğv elədi. Bu, 67-ci ildə olan hadisədir». Ermənistan SSR-in Azərbaycan SSR-ə qarşı ərazi iddiaları fonunda 1967-ci ildə Azərbaycan SSR DQMV ətrafında vəziyyət yenidən gərginləşdi. Bu baxımdan Heydər Əliyevin 1967-ci il iyunun 26-da Azərbaycan KP MK-nın Birinci katibi V.Y.Axundova yazdığı 10/579 №-li məxfi məktub diqqəti cəlb edir. Məktubda deyilirdi ki, iyun ayının 23-dən 24-ə keçən gecə Xankəndidə bəzi küçələrdə erməni dilində 8x9 sm ölçüdə 300 vərəqə yayılmışdı. Həmin vərəqələrdə Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisinin Ermənistan SSR-ə birləşdirilməsi tələb edilir və millətçi fikirlər irəli sürülürdü (3; 7, 927). 1967-ci ilin iyulunda Xankəndidə ermənilərlə azərbaycanlılar arasında münaqişə olmuş və qan tökülmüşdü. Münaqişəyə səbəb Azərbaycan SSR DQMV Martuni rayonunun (Ağdərə - C.B) Kurapatkino kəndində yerli kolxoz sədrinin oğlu, 8 yaşlı N.B.Movsesyanın müəmmalı şəraitdə qətlə yetirilməsi olmuşdu. Qətldə ermənilər yerli azərbaycanlıları – Ərşad, Ələmşad və Zöhrab Məmmədov qardaşlarını günahlandırmışdılar. 1967-ci il iyulun 3-də Xankəndidə Yay estrada parkında qardaşlara məhkəmə hökmü oxunduqdan sonra N.B.Movsesyanın valideynləri və başqa ermənilər mühafizəçilərə hücum edərək, Məmmədov qardaşlarını vəhşicəsinə öldürmüş, onların hətta başlarının dərisini soymuşdular. Bu vəhşiliyə əvvəlcədən hazırlaşan qatillər daşları şəhərə maşınlarda gətirmişdilər. Həmin məsələni dərindən araşdırmaq üçün Azərbaycan SSR DTK-nın sədri Heydər Əliyev Dağlıq Qarabağa ezam olunmuş, cinayətkarlar üzə çıxarılaraq həbs edilmişdilər. Xankəndi hadisələrinin təşkilatçıları ilə bağlı Bakıda keçirilən məhkəmə prosesi 5 nəfəri güllələnməyə məhkum etmiş, digər 14 nəfəri isə müxtəlif müddətə azadlıqdan məhrum etmişdi (3; 7, 927). 1967-ci il hadisələri hələ uzun müddət respublika rəhbərliyini gərginlikdə saxladı. Heydər Əliyev 1967-ci ildə Azərbaycan SSR DTK-nın hazırladığı hesabatda DQMV ətrafında yaranmış vəziyyəti təhlil edərək yazırdı: «Bir çox hallarda vilayətdə siyasi cəhətdən mənfi və cəmiyyətə zidd hərəkətlər onların bilavasitə təşkilatçısı və iştirakçısı olan Ermənistan SSR-in bəzi millətçi əhval-ruhiyyəli ünsürlərinin təsiri ilə baş verirdi. Bunu son 5 ildə toplanmış faktlar sübut edir. Ermənistan SSR-dən Xankəndinə gələn şəxslər burada, guya DQMV-nin Ermənistan SSR-ə birləşəcəyi haqqında müxtəlif şayiələr yayırdılar, bununla bağlı xüsusi hazırlanmış müraciətlər üçün imzalar toplayırdılar, «Qarabağ ermənilərinə çağırış» adlı millətçilik ruhunda yazılmış müraciətləri və digər təxribat xarakterli çap materiallarını kütləvi şəkildə buraya gətirərək yayırdılar» (34, 383).

1968-1969-cu illərdə də Dağlıq Qarabağda erməni millətçilərinin təxribatları davam etdi. Heydər Əliyev Azərbaycan SSR DTK-nın sədri 1969-cu ilin aprel ayında Azərbaycan KP MK Partiya Nəzarəti Komitəsinə göndərdiyi məruzəsində yazırdı: «Dağlıq Qarabağ Muxtar Vilayətində millətçi əhval-ruhiyyə mövcuddur. Son illərdə vilayətdə yaşayan millətçi ünsürlər və Ermənistan SSR-in bəzi sakinləri yerli əhalini vilayəti Azərbaycanın tərkibindən çıxardaraq, Ermənistana birləşdirilməsini qızışdırmaq üçün cəhdlər göstərirlər. Gənclərin bəzi hissəsi, o cümlədən komsomolçular da millətçi ünsürlərin təsiri altına düşürlər. Gənclər arasında millətçi əhval-ruhiyyə 1968-ci ildə də yer almışdı» (34, 383).

1968-ci ildə Ermənistan SSR-in Şəmsəddin rayonu ilə Azərbaycan SSR-in Gədəbəy rayonu arasında torpaq zəminində münaqişə baş vermişdi. Yaranmış vəziyyəti nizama salmaq üçün Sovet İttifaqı Kommunist Partiyasının 1968-ci il 23 iyun və SSRİ Nazirlər Sovetinin 1968-ci il 10 və 20 iyun tarixli tapşırıqlarına əsasən 1968-ci ilin oktyabrın 28-də Ermənistan KP MK birinci katibi A.Koçinyanın, Azərbaycan KP MK Birinci katibi V.Axundovun və SSRİ Kənd Təsərrüfatı Naziri V.Maskeviçin imzaları ilə yaranmış torpaq mübahisəsinin həlli üzrə xüsusi sənəd qəbul edilmişdi. Qəbul edilmiş sənədin 4-cü maddəsinə əsasən Ermənistan SSR və Azərbaycan SSR Ali Sovetlərinə tapşırılmışdı ki, hər iki respublikanın paritet komissiyaları tərəfindən 1927-1929-ci illərdə Zaqafqaziya FSSR MİK qərarları əsasında hazır sərhədlərin qrafik təsviri baxılsın və təsdiq edilsin (4). Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Sədri M.İsgəndərov və katibi Z.Şükürovanın 1969-cu il may ayının 7-də imzaladıqları «Azərbaycan SSR ilə Ermənistan SSR arasındakı sərhədin qrafik təsvirinin təsdiq edilməsi haqqında» iki maddədən ibarət qərarda (№805-VII) deyilirdi ki, Azərbaycan SSR ilə Ermənistan SSR arasında Zaqafqaziya MİK tərəfindən təsdiq edilmiş sərhədin göstərilən respublikaların paritet komissiyası tərəfindən 1:25.000 miqyaslı topoqrafik xəritələrin

vərəqələrinə keçirilmiş və Azərbaycan SSR Nazirlər Soveti tərəfindən təqdim olunmuş qrafik təsviri bəyənilsin; Azərbaycan SSR Nazirlər Sovetinə tapşırılsın ki, respublika sərhədi təsvirinin müvafiq sahələrdə Ermənistan SSR nümayəndələri ilə birlikdə naturaya keçirilməsini 1969-cu il noyabrın 1-dək təmin etsin. Azərbaycan KP MK Bürosunun 1969-cu il 21 may tarixdə keçirilən iclasında (pr. №100, 4-q) iki respublika arasında sərhədlərin coğrafi təsvirini təsdiq etməyə dair Azərbaycan SSR Ali Sovetinin qərar layihəsi bəyənilmişdi (15, 90).

Lakin 1968-ci il 28 oktyabr tarixli qərarı ilə müəyyən edilmiş sərhədlər Gədəbəy rayonu Hacılar kəndinin Kalinin adına kənd əhalisinin etirazına səbəb olmuş və onlar 1969-cu ilin iyun ayında müəyyən olunmuş sərhəd zolağından kənarda qalmış torpaqlarının onlara qaytarılmasını tələb etmişdilər. Arxiv sənədlərindən məlum olur ki Heydər Əliyev Azərbaycan SSR-ə rəhbər seçiləndən bir həftə sonra, 1969-cu il iyulun 22-də Azərbaycan KP MK Bürosunun iclasında Gədəbəy rayonunun kolxozları ətrafında yaranmış ağır vəziyyət haqqında məsələni cəsarətlə qaldırmış və müzakirə etmişdi. Nəticədə Azərbaycan KP MK Birinci katibi Heydər Əliyevin və Azərbaycan SSR Nazirlər Sovetinin Sədri Ə.Əlixanovun imzası ilə Gədəbəy rayonu kolxozlarının iqtisadiyyatının dirçəlməsi, sosial problemlərinin həlli məqsədilə 9 maddədən ibarət geniş tədbirlər planı nəzərdə tutan xüsusi qərar qəbul edilmişdi. Onu da qeyd etmək lazımdır ki, 1982-ci ilin dekabrında Heydər Əliyevin Moskvaya yeni vəzifəyə keçdikdən sonra iki respublika arasında yenidən sərhədlərin ayrı-ayrı sahələri üzrə mübahisələr yaranmışdı.1977-ci ildə SSRİ-nin yeni Konstitusiyası qəbul edilərkən Ermənistan SSR rəhbərliyi Erməni Qriqoryan Kilsəsinin təhriki ilə yenidən Azərbaycan SSR-in DQMV ərazisinin Ermənistan SSR-ə birləşdirilməsi ilə bağlı SSRİ Mərkəzi hökumətinə müraciət etdi. Qeyd etmək lazımdır ki, 1977-ci il noyabrın 23-də keçmiş SSRİ Nazirlər Soveti Rəyasət Heyətinin iclasında Ermənistan SSR rəhbərliyinin təkidi ilə Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisinin Ermənistan SSR-ə birləşdirilməsi məsələsi müzakirə olunmuş və bununla bağlı təklif irəli sürülmüşdü (SSRİ Nazirlər Soveti Rəyasət Heyətinin iclas protokolu. 23 noyabr 1977-ci il, № 61, 11-4133). Məsələdən xəbər tutan Heydər Əliyev erməni siyasi təcavüzünün qarşısını almaq üçün qəti addımlar atır (13, 111). O, Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunun «Azərbaycanın qədim tarixi» şöbəsinin rəhbəri t.ü.e.d., prof. İ.H.Əliyevə Qarabağ regionunun qədim Azərbaycan torpağı olması haqqında elmi arayış hazırlamaq barədə müraciət edir. T.ü.e.d., prof. İ.H.Əliyev hələ 1945-ci ildə bu məsələ ilə bağlı o zaman Azərbaycan SSR rəhbəri işləyən M.C.Bağırova belə bir elmi arayış təqdim etdiyini söyləyir və Heydər Əliyevə bu arayışı yenidən işləyərək ona təqdim etməyi təklif edir. Təklifi bəyənən Heydər Əliyev elmi arayış hazır olduqdan sonra onu Azərbaycan KP MK Bürosunda müzakirə edərək Ermənistan SSR rəhbərliyinin iddialarının əsassız olması haqqında qərar qəbul edilir və həmin qərar keçmiş SSRİ rəhbəri L.İ.Brejnevə təqdim olunur. Heydər Əliyevin atdığı qəti addımlar nəticəsində ermənilərin çirkin niyyəti baş tutmur (27, 117).

Əslində Heydər Əliyevin SSRİ rəhbərliyində olan nüfuzu, Erməni Qriqoryan Kilsəsini və erməni millətçi-separatçılarını çox narahat edirdi. Buna görə də o 1982-ci ildə Sov.İKP Siyasi Bürosunun üzvü seçildikdən və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin edildikdən sonra, ermənilər Azərbaycan SSR rəhbərliyində yaranmış zəiflikdən istifadə edərək 1984-cü ildə Qazax rayonun 5 min hektar torpağı sahəsinin Ermənistan SSR-ə verilməsi haqqında rayon əhalisinin qəti etirazlarına baxmayaraq respublika rəhbərliyinin razılığını ala bilmişdilər.

XX əsrin 80-ci illərinin ortalarından etibarən keçmiş SSRİ məkanında və ilk növbədə Ermənistan SSR ərazisində antiazərbaycan, antitürk təbliğatı və terrora səfərbərlik daha da güclənməyə başladı. 1985-ci ildə Azərbaycan SSR-in DQMV-də erməni separatizmi açıq aşkar şəkildə təbliğ olunurdu. Qeyd etmək lazımdır ki, bu proses M.S.Qorbaçovun SSRİ rəhbəri seçilməsindən sonra daha geniş miqyas aldı. 1985-ci ilin əvvəlində Ermənistan KP MK birinci katibi K.Dəmirçiyan Sov.İKP MK-nın Siyasi Bürosuna qondarma «erməni soyqırımı»nın 60 illiyi ilə bağlı 24 aprel tarixinin hər il SSRİ-də anım günü kimi qeyd olunması təklifi ilə müraciət edir. Siyasi Büronun iclasını aparan M.S.Qorbaçov buna razılıq versə də H.Ə.Əliyevin, N.A.Tixonovun və A.A.Qromıkonun sərt etirazları ilə qarşılaşır. K.Dəmirçiyanın təklifini bəyənən M.S.Qorbaçov H.Ə.Əliyevin kəskin etirazını gördükdən sonra onunla qarşıdurmaya getməyə cəsarət etmir, lakin onun bu mövqeyini də unutmur (29, 97). Buna görə də M.S.Qorbaçovun 1987-ci ilin oktyabr ayının 20-də Heydər Əliyevin SSRİ rəhbərliyində tutduğu yüksək vəzifədən uzaqlaşdırılmasına nail olduqdan sonra ermənilərin öz çirkin

və cinayətkar niyyətlərini reallaşdırmaq ümidlərini daha da artırdı. Rəsmi Moskva 1987-ci ilin noyabrında Parisdə M.S.Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri olan akademik Abel Aqenbekyanın dili ilə Qarabağ hərəkatına müsbət münasibətini, qeyri-rəsmi olsa da, bütün dünyaya bildirməkdən çəkinmədi. A.Aqanbekyan «Humanite» qəzetinin 18 noyabr 1987-ci il tarixli sayında dərc olunmuş müsahibəsində Azərbaycan SSR ərazisi olan Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-ə verilməsinin məqsədəuyğun olmasını və bu barədə dövlət başçısına təklif verdiyini bildirdi (11, 257). «Qarabağ» Komitəsinin Azərbaycan SSR-də, xüsusən DQMV-də uzun müddət gizli fəaliyyət göstərən yerli təşkilatı «Krunk» adı altında açıq fəal fəaliyyətə başlamışdı. 1988-ci il martın 2-də «DQMV-nin Ermənistanla yenidən birləşdirilməsi uğrunda mübarizə Komitəsi» - iri müəssisə rəhbərlərini birləşdirən «55-lər Komitə»si yaradılmışdı. 1988-ci ilin fevralın 26-27-də SSRİ dövlət xüsusi xidmət orqanlarının razılığı ilə ermənilər Azərbaycan SSR-in Sumqayıt şəhərində antiazərbaycan təxribatı törətdikdən sonra, bunu bəhanə edərək Ermənistan SSR ərazisindən, öz tarixi etnik torpaqlarından – İrəvan şəhəri də daxil olmaqla 185 kənddən və başqa yaşayış məntəqələrindən 250 min azərbaycanlı deportasiya olundu, onlara məxsus 31.000 ev, şəxsi təsərrüfat, 165 kollektiv təsərrüfatların əmlakı talandı, 214 nəfər öldürüldü, 1154 nəfər yaralandı, yüzlərlə adama işgəncə verildi və qız-gəlinlərin namusu təhqir olundu. 15 mindən çox kürd və bir neçə min rus millətinə məxsus əhali Ermənistan SSR-dən çıxarıldı (11, 258). 1988-1989-cu illərdə Ermənistanın hərbi-ideoloji təcavüzünün güclənməsi nəticəsində deportasiya, etnik təmizləmə və soyqırımına məruz qalan azərbaycanlı əhali Azərbaycan SSR-ə pənah gətirdi və bu da öz növbəsində respublikada ictimai-siyasi sabitliyin gərginləşməsinə səbəb oldu. Mərkəzi hökumətin Azərbaycan xalqına qarşı yeritdiyi düşmən siyasəti nəticəsində genişlənən Ermənistanın hərbi təcavüzü onu milli azadlıq mübarizəsinə qaldırdı. 1990-cı il yanvarın 20-də SSRİ Prezidenti M.S.Qorbaçov ermənilərin ərazi iddialarına qarşı etiraz edən Azərbaycan xalqını cəzalandırmaq üçün Bakı şəhərinə SSRİ və Azərbaycan SSR-in Konstitusiyaları və respublikanın suveren hüquqları pozularaq qoşun yeridilməsi haqqında fərman verdi və Azərbaycan xalqına qarşı qanlı soyqırımı cinayəti törədildi. SSRİ dövlətinin bu cinayətinə qarşı öz ilk etiraz səsini qaldıran görkəmli dövlət xadimi Heydər Əliyev oldu. O, 1990-cı il yanvarın 21-də Azərbaycan SSR-in Moskva şəhərindəki Daimi Nümayəndəliyinə gələrək SSRİ dövlətinin M.S.Qorbaçovu Azərbaycan xalqına qarşı törətdiyi soyqırımı cinayətində ittiham etdi və onun bu etirazı bütün dünyada böyük əks-sədaya səbəb oldu. SSRİ dövlətinin Azərbaycan xalqına qarşı törətdiyi cinayətə etiraz olaraq Heydər Əliyev 1990-cı ilin iyulunda Sov.İKP sıralarını tərk etdiyini bəyan edərək Vətəni Azərbaycana qayıtdı. Respublika rəhbərliyi Heydər Əliyevin ölkənin siyasi mərkəzi olan Bakıda qalmaması üçün hər cür təxribatlara əl atıldı və o terror aktı ilə hədələndi. Həyat üçün real təhlükənin mövcud olduğunu hiss edən Heydər Əliyev Naxçıvan MR-na getməyə məcbur oldu. O, 1990-1993-cü illərdə ağır blokada şəraitində olan Azərbaycan Respublikası Naxçıvan MR-nın yaşaması, onun sərhədlərinin qorunması üçün mümkün olmayanı mümkün etdi. Heydər Əliyev 1991-ci ilin fevralında Azərbaycan Ali Sovetinin sessiyasında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox sərt məzmunda məruzə ilə çıxış etdi və o zaman Azərbaycan dövlətinin problemin həlli ilə bağlı konkret tədbirlər proqramı olmadığını söylədi. Lakin, onun irəli sürdüyü tədbirlər respublika rəhbərliyi tərəfindən qəbul edilmədiyi üçün çox qısa bir zaman ərzində Azərbaycan xalqına düşmən tərəfindən çox ağır zərbələr vuruldu. 1992-ci il fevralın ortalarında Ermənistanın hərbi quldur dəstələri növbəti dəfə Xocavənd rayonunun Qaradağlı kəndinə güclü hücuma keçdilər. Dörd gün davam edən qeyri-bərabər döyüşdən sonra erməni quldurları Qaradağlı kəndini ələ keçirərək onun 92 müdafiəçisini və 54 sakinini vəhşicəsinə qətlə yetirərək onları silos quyularına atdılar. Qalan əhali isə əsir alındı. Təcavüzkar Ermənistan «dövləti» Azərbaycan Respublikasına qarşı qanlı terror aksiyalarını daha da genişləndirdi. 1992-ci il yanvarın 8-də «Krasnovodsk-Bakı» dəniz sərnişin bərəsində belə bir terror aktı nəticəsində 25 nəfər həlak oldu. 88 nəfər ağır yaralandı. Həmin il fevralın 28-də Qudermes stansiyası yaxınlığında «Kislovodsk-Bakı» sərnişin qatarının partladılması zamanı 11 nəfər həlak oldu, 18 nəfər yaralandı. Təkcə belə bir faktı qeyd etmək lazımdır ki, ermənilər tərəfindən Azərbaycan Respublikasına məxsus dəmir yolu nəqliyyatı sistemində 1989-cu il iyulun 14-dən 1994-cü il mayın 7-nədək 206 terror aktı həyata keçirilmişdi (11, 359). Erməni quldurları Rusiya Federasiyası MN-nə məxsus Xankəndindəki 366-cı mexanikləşdirilmiş atıcı alayı ilə əlbir olaraq XX əsrin Xatın, Sonqımı faciələrini geridə qoyan Xocalı soyqırımını törətdilər. 1992-ci il fevralın 25-də axşam saat 21-də

erməni hərbi birləşmələri, 366-cı alay (üç batalyondan ikisi tam tərkibdə, biri isə qismən), habelə xarici ölkələrdən gətirilmiş muzdlu quldurlar Xocalıya hücum etdilər. Hərbi təcavüz nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 azsaylı uşaq, 70 qoca öldürüldü. 1000 nəfərdən artıq dinc sakin o cümlədən 76 uşaq müxtəlif dərəcəli güllə yarası alaraq şikəst oldu. 1275 nəfər əsir alındı, 8 ailə bütövlüklə məhv edilmiş, 25 uşaq hər iki valideyninin itirmiş, 130 uşaq valideynlərindən birini itirmiş, 56 nəfər xüsusi qəddarlıq və amansızlıqla diri-diri yandırılmış, başlarının dərisi soyulmuş, gözləri çıxarılmış, başları kəsilmiş, hamilə qadınların qarnı süngü ilə deşilmişdir. Bütün bu dəhşətləri görən 366 alayın 02270 saylı xüsusi şöbəsinin rəisi polkovnik V.R.Savelyev RFMN Baş Qərargahı yanında Baş Kəşfiyyat İdarəsinə, BMT və Avropa Şurasına ünvanlandığı müraciət məktubunda (hesabatında – C.B.) Azərbaycan xalqına qarşı soyqırımı cinayətinin törədildiyini etiraf edir: «Mən məndən on addımlıqda güllə yarası almış səkkiz-doqquz yaşında qızcığaza yardım edə bilmədim. Mən Allahın məni cəzalandıracağı o gündən qorxuram. Lənətlənmiş günlər bir-birini əvəz edirdi» (30, 478). Hadisələri ilk olaraq vidiolentə olan Azərbaycan jurnalistləri Seyidağa Mövsümlü və Çingiz Mustafayev çəkdikləri videogörüntülərdən məlum oldu ki, «öldürülənlər içərisində 2 yaşından 15 yaşına qədər olan uşaqlar əksəriyyət təşkil edirdi». Faciənin şahidi olan fransız jurnalisti Jan-İv Ginyet yazırdı: «Mən müharibələr haqqında, alman faşistlərinin qəddarlığı haqqında çox eşitmişəm, lakin 5-6 yaşlı uşaqları, dinc əhalini qırmaqla ermənilər onları arxada qoydular» (11, 359).

1992-ci il martın 10-da RF-nın Prezidenti B.Yelçinin ünvanına Daxili İşlər Naziri yerin məktub göndərir və Xocalı hadisəsi ilə bağlı görüşmək istədiyini bildirir və məktuba Xocalı faciəsi ilə bağlı videokasseti əlavə edir. General Yerin B.Yelçinə yazırdı: «Xocalıda uşaqları, qadınları və qocaları güllələmişlər. Öldürülənlərin başlarının dərisi soyulmuşdur». Videolentdə RF MN 366 alayının cinayət hərəkətləri qeydə alınmışdı. Bu sözlər N.Qavrilovun 1998-ci ildə Sanktpeterburqda nəşr olunan «Военные ведомости» jurnalının 96-cı səhifəsindən götürülmüşdür. B.Yeltsin videokassetə baxdıqdan sonra xüsusi sərəncam (№ 0219/21-OD-1992.III.12 - C.B) imzaladı və bu sərəncama əsasən bu videogörüntülərin RF ərazisində göstərilməsi qadağan edildi (30, 479). Erməni quldurları Rusiya Federasiyasının hərbi dairələrinin köməyinə arxalanaraq 1993-cü ildə Kəlbəcər, Ağdam, Fizuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarını işğal edərək etnik təmizləmə aparmış və nəticədə Azərbaycan Respublikasının 1mln.10000-dən çox vətəndaşı öz ölkəsində qaçqına çevrildi. Hərbi təcavüz nəticəsində 100 000 nəfər yaralanmış, 50 000 şikəst olmuş, 20 min nəfər şəhid olmuş 4853 nəfər itkin düşmüş və onlardan 439 nəfəri əsirlikdə öldürülmüş, 783 nəfər isə indiyə qədər əsirlikdədir. Bütövlükdə isə «Əsir, itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası»nın 1 yanvar 2011-ci il tarixinə olan məlumatına əsasən əsir, itkin düşmüş və girov götürülmüş şəxslərin sayı 4049 nəfər təşkil etmişdir. Onlardan 3273 nəfər hərbçi, 771 nəfər mülki şəxsdir, 5 nəfərinin isə hərbiçi və ya mülki şəxs olduğu məlum deyil. Mülki şəxslərdən 47 nəfəri itkin düşərkən yetkinlik yaşına çatmamış uşaq (17 nəfər azyaşlı qız uşağı - C.B), 247 nəfər nəfər qadın, 347 nəfər yaşlı şəxsdir ki, onlardan 149 nəfəri qadındır. Bu günədək əsir və girovluqdan 1309 nəfər azad edilmişdir. Onlardan 343 nəfər qadın, 1056 nəfəri kişidir. Qeyd etmək lazımdır ki, azad olunan şəxslərdən 170 nəfəri uşaq (65 nəfər azyaşlı qız uşaqlar - C.B), 289 nəfərin yaşlı şəxsdən 112 nəfəri qadındır. Bundan əlavə Dövlət Komissiyasına daxil olmuş materialların analizi zamanı 563 nəfərin əsir və girovluqda qətlə yetirildiyi və ya müxtəlif səbəblərdən vəfat etdiyi müəyyən edilmişdir. Onlardan 104 nəfəri qadın, 448 nəfəri kişidir. Bu şəxslərin yalnız 137 nəfərinin yalnız adı məlum olduğu halda, onlardan 74 nəfərin adı məlum deyildir (12, 61). 1991-1992-ci illər ərzində Azərbaycan Respublikasının keçmiş DQMV-nin ərazisi Ermənistan Respublikası silahlı qüvvələri tərəfindən işğal olunduqdan sonra, 1993-cü il aprelində Kəlbəcər rayonunun işğalı ilə Azərbaycan Respublikasına qarşı hərbi təcavüzün yeni mərhələsi başlandı. 1993-cü ilin iyulun 24-dən oktyabrın 28-nədək Rusiya Federasiyasının hərbi-siyasi yardımı ilə Ermənistan Respublikası silahlı qüvvələri Azərbaycan Respublikasının Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarını işğal etdi. Ermənistan Respublikası tərəfindən həyata keçirilmiş hərbi təcavüz nəticəsində Laçın rayonundan 71000, Kəlbəcər rayonundan 74000, Ağdam rayonundan 165600, Füzuli rayonundan 146000, Cəbrayıl rayonundan 60000, Qubadlı rayonundan 87900, Zəngilan rayonundan isə 39.500 nəfər Azərbaycan Respublikası vətəndaşı məcburi köçkün vəziyyətinə düşdü (12, 62). Bununla da Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə çevrildi BMT-nin TŞ-nın Azərbaycan

Respublikasının ərazilərinin işğalı ilə bağlı qəbul etdiyi 30 aprel 1993-cü il tarixli 822, 29 iyul tarixli 853, 14 oktyabr 874 və 12 noyabr 884 saylı qətnamələr 1992-ci ildə yaradılmış Minsk qrupunun bütün səylərinə baxmayaraq yerinə yetirilməmiş olaraq qaldı. Lakin 28 illik fasilədən sonra 2020-ci il sentyabrın 27-də Azərbaycan xalqı Vətən müharibəsinə başlayaraq bu qətnamələri rəhbər tutaraq öz ərazilərini erməni işğalından azad edərək ərazi bütövlüyünü bərpa etdi. Qeyd etmək lazımdır ki, artıq 1992-ci ildən bu mühafizə beynəlxalq münaqişəyə çevrildiyi üçün, həmin ilin mart ayının 24-də münaqişənin tənzimlənməsi üzrə 9 dövlətin daxil olduğu Minsk qrupu yaradıldı. 1993-cü il iyunun 4-də Azərbaycan Respublikasında baş verən hərbi-siyasi böhran ölkədə və ilk növbədə cəbhə bölgəsində vəziyyəti daha da gərginləşdirdi. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi və Azərbaycan xalqının ictimai-siyasi və sosial-iqtisadi həyatında yeni mərhələ başlandı. Lakin, buna baxmayaraq 1993-cü ilin iyulundan-noyabrınadək Ermənistanın hərbi təcavüzünün genişlənməsi və nəticədə yeddi rayonun işğal olundu. Heydər Əliyev ölkədə ictimai-siyasi sabitliyi bərpa etmək və Ermənistanın hərbi təcavüzünün qarşısını almaq üçün qəti addımlar atdı. Yeni ordu quruculuğu sahəsində atılan addımlar nəticəsində düşmənə ağır və sarsıdıcı zərbələr vurdu, işğal olunmuş bir sıra yaşayış məntəqələri azad edildi və o 1994-cü il mayın 12-də atəşkəs imzalama məcbur edildi. Ermənistanın 1988-1994-cü illərdə həyata keçirdiyi işğalı nəticəsində Azərbaycan Respublikası ərazisində 946 yaşayış məntəqəsi 6 min sənaye, kənd təsərrüfatı və başqa müəssisə, ümumi sahəsi 9 mln. kv/m olan 150 min mənzil, 4366 sosial-mədəni təyinatlı müəssisə, 690 orta məktəb, o cümlədən 850 məktəbəqədər müəssisə, 665 tibb məntəqəsi, 927 kitabxana, 22 muzey, 4 rəsm qalereyası, 6 dövlət teatrı 44 məbəd, 9 məscidin məhvinə səbəb olmuşdur. Azərbaycan xalqına qarşı edilən hərbi təcavüz nəticəsində vurulan maddi zərərin həcmi 60 milyard ABŞ dollarından (1994-cü ilin qiyməti ilə – C.B.) çoxdur. Hazırda 2011-ci ilin qiymətləri ilə hesabladıqda vurulan zərərin miqdarı 300 milyard təşkil edir (11, 357). Bundan əlavə, Ermənistan Respublikası «dövləti»lə sərhədyanı rayonlarında xeyli miqdarda birbaşa maddi zərər vurulmuşdur. Bu rəqəmin miqdarı 1994-cü il üçün qiymətlərlə 1389233500 ABŞ dolları təşkil edir. Belə ki, bu bölgələrdə yerləşən rayonların icra hakimiyyətlərinin verdikləri məlumatlara görə işğal nəticəsində vurulmuş birbaşa maddi zərər rayonlar üzrə ABŞ dolları ilə aşağıdakı kimi olmuşdur. Tərtər və keçmiş Ağdərə rayonları üzrə - 799295100$, Qazax rayonu 327529464$, Tovuz rayonu - 189873420$, Ağcabədi rayonu - 22420050$, Ağstafa rayonu - 1998950$, Beyləqan rayonu-3812500$, Gədəbəy rayonu - 44303800$. Beləliklə, Ermənistan «dövləti»nin hərbi təcavüzü və işğalı nəticəsində Azərbaycan Respublikasına vurulmuş 60 milyarddan artıq maddi zərərin 28066 milyard ABŞ dolları keçmiş DQMV ilə qonşu olan və hazırda işğal altında olan 7 rayona, 1389233284 ABŞ dolları isə cəbhəyanı və Ermənistan Respublikası ilə həmsərhəd olan rayonlara vurulmuşdur (12, 85). Qeyd etmək lazımdır ki, Naxçıvan MR-na vurulan maddi zərər buraya daxil edilməmişdir. Bütün mövcud təkzibolunmaz faktlar təsdiq edir ki, təkcə XX əsrdə Azərbaycan xalqına qarşı ermənilər tərəfindən tətbiq edilən deportasiya, etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində Şimali Azərbaycan 1918-1929-cu illərdə 29,8 min $km^2$ ərazisini itirmiş, 1991-1993-cü illərdə 20% ərazisi işğal edilmişdu.Bütün bunları nəzərə alan Azərbaycan Respublikasının Milli Məclisi 1992-ci il fevralın 25-26-na keçən gecə erməni təcavüzkarları tərəfindən törədilmiş Xocalı soyqırımı haqqında qərar qəbul etdi və fevralın 26-sı «Xocalı soyqırımı günü» elan edildi. AR MM bu qərarı əsasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 25 fevral 1997-ci il tarixli fərmanı ilə hər il fevral ayının 26-sı saat $17^{00}$- da Azərbaycan Respublikası ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edildi. 1998-ci il martın 26-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi «Azərbaycanlıların soyqırımı haqqında» fərman imzaladı və bu fərmana uyğun olaraq Azərbaycan Respublikasının Milli məclisi 31 mart 1998-ci il tarixdə Azərbaycanlıların soyqırımı günü elan edilməsi ilə əlaqədar bəyanat qəbul etdi. 2009-cu ildə Heydər Əliyevi Fondunun vitse-prezidenti, Fondun Rusiya Federasiyası Nümayəndəliyinin rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə «Xocalıya ədalət» Beynəlxalq Təbliğat və Məlumatlandırma Kompaniyası təşkil olundu. Leyla xanım Əliyevanın təşəbbüsü ilə yaradılan «Xocalıya Ədalət» kampaniyasının keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2014-cü il fevralın 13-də «Xocalıya Ədalət» kampaniyasının keçirilməsinə dair tədbirlər haqqında sərəncam imzaladı. Son altı ərzində beynəlxalq arenada aparılan uğurlu təbliğat işləri nəticəsində bir çox dünya ölkələrinin

parlamentləri Xocalıda dinc əhaliyə qarşı törədilmiş cinayəti Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı cinayəti kimi tanıdı. 2016-cı il aprelin əvvəlində işğalçı Ermənistan tərəfindən törədilən təxribata sarsıdıcı cavab verən Azərbaycan Ordusu əks hücuma keçərəkişğal olunmuş ərazilərin böyük bir hissəsini azad etdi. Bu işğal olunmuş ərazilərin azad edilməsi istiqamətində ilk genişmiqyaslı hərbi addım idi. 2020-ci il iyulun 12-də və sentyabrın 27-də erməni faşizminin tğrətdiyi hərbi cinayətlərə cavab olaraq Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev ölkə ərazilərini erməni nasistlərindən təmizləmək və ölkənin ərazi bütövlüyünü təmin etmək haqqında qərar qəbul etdi. 27 sentyabr tarixindən başlanan hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu tərəfindən düşmənə sarsıdıcı zərbələr endirildi və ölkənin Füzuli, Cəbrayıl, Zəngilan, Xocavənd, Tərtər və Kəlbəcər rayonlarının böyük hissəsi və Şuşa şəhəri işğaldan azad edildi. Azərbaycan Ordusu tərəfindən darmadağın edilən Ermənistan Ordusu 2020-ci il noyabrın 10-da təslm olmaq aktına imza atmağa məcbur edildi.Azərbaycan Respublikasının Prezidentinin 4 dekabr 2020-ci il Fərmanı ilə 27 sentyabr ölkədə «Anım günü», 8 noyabr isə «Qələbə günü» elan edildi.2020-ci il dekabrın 10-da Bakı şəhərinin Azadlıq Meydanında «Qələbə» paradı keçirildi. Bütün tarixi, hüquqi və faktiki sənədlərə əsaslanaraq gəlinən nəticə aşağıdakılardan ibarətdir: Erməni faşizminin Azərbaycan xalqına qarşı yetirdiyi deportasiya, etnik təmizləmə, soyqırımı və işğalçı siyasət nəticəsində insan hüquqları sahəsində qəbul edilmiş çoxsaylı beynəlxalq müqavilələrdə əksini tapmış normalar, o cümlədən BMT Baş Assambleyasının 260 (III)A Qətnaməsi (179-cu plenar iclas, 9 dekabr 1948-ci il) ilə qəbul olunmuş və 1991-ci ildə qüvvəyə minmiş «Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında» konvensiyasının «İnsan hüquqlarına dair Ümumdünya Bəyannaməsi»nin, «Mülki və siyasi hüquqlar üzrə Beynəlxalq Pakt»ın, «İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında» Beynəlxalq konvensiyanın, «İşgəncələr və digər qəddar, qeyri-insani və ya insan ləyaqətini alçaldan münasibətlərə qarşı və ona görə cəzalandırma haqqında» konvensiyanın, «Uşaq hüquqları haqqında» konvensiyanın, o cümlədən «Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında» Haaqa konvensiyasının (1954-cü il), «Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında» Paris Konvensiyasının (1970-ci il) YUNESCO-nun «Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında» Konvensiyasının (1972-ci il) və «Arxeoloji irsin mühafizəsi haqqında» Avropa Konvensiyasının (1992-ci il) bütün müddəaları pozulmuşdur.

*Nəticə*. XVIII-XX əslər ərzində erməni faşizminin imperialist dövlətlərinin əllərində bir alət olaraq Azərbaycan xalqına qarşı törətdiyi cinayətlər tarixi aşkar edilmiş arxiv sənıdlərində, nəşr olunmiş elmi əsərlərdə əks olunmuş fatklar əsasında təsdiq olunmuşdur. İstinad edilən arxiv sənədləri, elmi mənbələr birmənalı şəkildə belə fikri söyləməyə əsas verir ki, imperialist dövlətlərin ermənilərdən bir alət olaraq öz işğalçı planlarını reallaşdırmaq üçün istifadə etmələri nəticəsində Azərbaycan xalqının əraziləri işğal edilərək bölüşdürülmüş, ona qarşı etnik təmizləmə, deportasiya siyasəti həyata keçirilmiş, soyqırımı cinayıtləri törədilmiş və nəticədə o çox ağır itkilərə-insan və torpaq itgilərinə məruz qalmışdır. Nəhayət, Azərbaycan xalqinin 2020-ci ilin sentyabın 27-də başladığı və 44 gün ərzində Qələbə ilə başa vurduğu Vətən müharibəsi erməni faşizmini məhv etməklə bərabər, bu dövrlər ərzində itirdiklərinin geri qaytarlmasının əsasını qoydu.

## ƏDƏBİYYAT

1. ARPİİSSA, f.I, iş 22, v.17.
2. ARPİİSSA, f.I, iş 24, v.51-52.
3. ARPİİSA, f.1, siy.54, iş 51, qov.9, v.1-5.
4. ARPİİSSA f.1, s.56, iş 93, v.10-11.
5. ARPİİSSA, f.I, s.169, iş 249, v.8-11.
6. ARPİİSSA, f.558, s.I, iş 22, v.1-2
7. Akif Muradverdiyev. Zəngəzur: tariximizin yaddaşı. Bakı, «Xəzər», 2007, 1023 s.
8. Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımları. Bakı, Azərbaycan Tarixçiləri İçtimai Birliyinin mətbəəsi, 2016, 408 s.
9. Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948-1953-cü illər). Bakı, «Zərdabi LTD» MMC, 2013, 784 s.

10. Azərbaycan tarixi. Yeddi silddə. VI cild (Aprel 1920-iyun 1941). Bakı, «Elm», 2008, 630s.
11. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər). Bakı, «Elm», 2008, 605 s.
12. Elxan Süleymanov, Vurğun Süleymanov. Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri. Bakı, CBS Polygraphic Production, 2012, 181 s.
13. Cəbi Bəhramov. "Müstəqilliyin ilk illərində daxili vəziyyət və hakimiyyət böhranı. Dövlət müstəqilliyinin qorunub saxlanılması uğrunda mübarizə (1993-1995)". "Heydər Əliyev" kitabında. I cild. Bakı, «Çaşıoğlu», 2013, s.111-132.
14. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı, Elm, 2018, 616 s.
15. Qasımlı M.C. Heydər Əliyev – istiqlala gedən yol (1969-1987-ci illər). Bakı, Bakı Universiteti nəşriyyatı, 2006, 608 s.
16. Seyidzadə Dilarə. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar. Bakı, OKA ofset, 2004, 348 s.
17. Zaqafqaziya Seyminin Müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. 1918-ci il. Bakı, Adiloğlu, 2006, 216 s.
18. Vasif Qafarov. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı, Azərnəşr, 2011, 474 s.
19. Алиев Г.А. Выступление Президента Азербайджанской Республики на встрече представителями азербайджанской интеллегенции / Газ. «Бакинский рабочий», 1999 12 ноября.
20. Бахтурина А.Ю. Окраины Российской империи: государственное управление и национальная политика в годы Первой мировой войны (1914-1917 гг.). М., РОССПЭН, 1997, 392 с.
21. Хачатрян К., Абраамян Г. Борьба армян за воссоединение НКАО с Советской Арменией. Сборник документов и материалов. Ереван. Издательство АН РА Институт Истории, 2011, 224 с.
22. Гаджиев А. Всё помнить, но не всё простить. Баку, «Qanun», 2000, 315 с.
23. Значение «армянского вопроса» в наступательном движении России на Кавказ в XVIII столетии // Журнал «Северный Кавказ», Мюнхен 1937г., №55-56, с.23-30.
24. История Азербайджана. Т.2. Баку, Издательство Академии Наук Азербайджанской ССР 1954, 521 с.
25. Караулов А. Вокруг Кремля: книга политических диалогов. В 2-х частях. Ч.1. Москва, РОССПЭН, 1990, 480 с.
26. Нагорный Карабах в международном праве и мировой политике. Документы и комментарии. В 2-х т. Т.1. М., Издательство «Круг», 2008, 480 с.
27. Нигяр Максвелл. Играр Алиев: Рожденный побеждать. Баку, «Элм», 2004, 202 с.
28. РЦХИДНИ, ф.2, оп.1, д.6212, л.45
29. Султанов Ч.А. Противостояние. Баку, «Çaşıoğlu», 2013, 424 с.
30. Султанов Ч.А. Последний удар империи. Баку, 20 января 1990 г. Баку, Нафта-Пресс, 2004, 765 с.
31. Указ Президиума ВС СССР от 19 октября 1946 г. / Ведомости ВС СССР, 1946 г., №39.
32. Хроника событий Нагорного Карабаха: история и современность (1918-1993). Составитель Р.Данильянц, Ереван, Издательство АН РА, 1995, 197 с.
33. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. СПб., Типография Редакции периодических изданий Минстерства Финансов, 1911, 78 с.
34. Эльмира Ахундова. Гейдар Алиев. Личность и эпоха. В 4-х ч. Ч.1. (1923-1969). Баку, Озан, 2007, 384 с.

**JABİ BAHRAMOV**
*PhD in history, Associate Professor*

## THE CRIME OF ARMENIAN FASCISM AGAINST THE AZERBAIJANI PEOPLE BASED ON HISTORICAL FACTS

This article is devoted to the history of the crimes of Armenian fascism against the Azerbaijani people over the past three hundred years. Using reliable sources, primarily on the basis of archival, official documents and media materials, the author was able to show the chronological sequence and general picture of the crimes of Armenian fascism against the Azerbaijani people. The article also touches upon the activities of the patrons of Armenian fascism and their assistance in ethnic cleansing, deportation of the Azerbaijani population and in the seizure of Azerbaijani lands in 1992-1994. Besides, the article deals with the events of recent years, in particular, the liberation of our lands from the Armenian occupation by the armed forces of the Republic of Azerbaijan and the violation of all international legal norms by Armenian fascism.

*Key words*: South Caucasus, Azerbaijan, Armenian fascsim.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 dekabr 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2020-ci il.*
*Məqalə Redaksiya heyətinin qərarı ilə çapa məsləhət görülüb.*

QARABAĞ AZƏRBAYCANDIR!

**UOT 94 (479.24)**

**АЗАД РЗАЕВ**
*Доктор философии по истории, доцент*
*Бакинского Государственного Университета,*
*Заведующий кафедрой истории Азербайджана*
**E-mail: azad_rzayev@mail.ru**

# ВТОРАЯ КАРАБАХСКАЯ ВОЙНА. ПРИЧИНЫ И ИТОГИ
## (Заметки историка)

*В написанных по горячим следам заметках предпринята попытка показать причины и итоги Второй Карабахской войны. Автор, оценивая успехи азербайджанской армии размышляет о дальнейших перспективах восстановления освобожденных районах, увековечивании памяти погибших и всех, кто учавствовал в Отечественной войне.*

*Ключевые слова*: Азербайджан, Армения, Вторая Карабахская война, Азербайджанская армия, Президент Ильхам Алиев.

44 дня, именно столько продолжалось Отечественная война Азербайджана за освобождение своей территории, которая почти 30 лет находилась под оккупацией армянских вооруженных формирований. За время оккупации 20% территории Азербайджана были разграблены, хищнически использовались золотые и серебряные рудники, сжигались леса, пришла в негодность вся инфраструктура. Территория Карабаха превратилась в неконтролируемую зону наркотрафика. Около миллиона беженцев принял Азербайджан с территории Армении, Карабаха и из семи оккупированных районов. Вместо них начали переселяться граждане Армении и других стран и в частности Сирии и Ливана, что противоречило всем международным нормам. Для проведения дальнейших раскопок на территории Азыхской пещеры (армяне переименовали ее в Азох) были приглашены французские археологи. К счастью после освобождения территории были обнаружены около 90 коробок со сделанными археологическими находками которые армяне не успели вывезти. Они тут же были переданы в институт Археологии и Этнографии НАНА. Масштабы нанесенного ущерба поистине колоссальны. Оккупированные районы Азербайджана, в том числе 10 административных районов Азербайджана – Ходжавенд, Шуша, Лачин, Кяльбаджар, Агдам (большая часть), Джабраил, Физули (частично), Губадлы и Зангилан подверглись тотальному разграблению и разрушению. Так Зодский рудник в Кельбаджаре который эксплуатировался крупнейшим налогоплательщиком Армении с большим количеством рабочих мест, только в январе-сентябре 2020 года перечислил в госбюджет 16,3 млрд. драмов налогов (34 млн. долларов), что на 30,4% или 3,8 млрд. драмов больше чем **за** аналогичный период прошлого года.

За эти 30 лет оккупации, ни усилия международных организаций (Минская группа ОБСЕ), ни четыре резолюции Совета Безопасности ООН (822, 853, 874, 884), ни призывы Азербайджана мирным путем решить проблему не смогли сломить стену непонимания сепаратистского режима. Наоборот последние два с половиной года руководство Армении стало проявлять еще большую «активность», продолжая нарушать режим прекращения огня достигнутого в 1994 году, совершая вооруженные провокации на границе с Азербайджаном, засылая диверсионные группы. Апофиозом режима армянской хунты стала политика ее премьер-министра и его высказывание что, «Карабах территория Армении». И когда 27 сентября 2020 года вновь были обстреляны азербайджанские территории, азербайджанская армия начала военные действия по освобождению своих земель. Как показали последующие события наша армия и в материальном и в моральном плане оказалась на голову выше врага. Во главе со своим Верховным главнокомандующим Ильхамом Алиевым доблестная азербайджанская армия в тяжелых боях и сложных географических и погодных условиях смогла за 44 дня освободить большую часть оккупированной территории и заставила врага

подписать документ о прекращения огня и последующем освобождении трех районов. 10 ноября 2020 года Президенты Азербайджана и России, премьер-министр Армении обявили о прекращении огня и всех военных действиях в зоне Нагорно-Карабахского конфликта (1). Азербайджанская армия вела войну на самом современном уровне. Как отмечают военные эксперты, вооруженная самым современным оружием, показывая высокий военный дух, азербайджанская армия открыла новую страницу военного искусства. Уже сейчас военные операции нашей армии изучаются специалистами ведущих стран. Стоимость уничтоженной или взятой в качестве трофея военной техники Армении во второй Карабахской войне при минимальной оценке составляет не менее 3,8 миллиарда долларов. Потери врага не идут ни в какое сравнение с потерями азербайджанской армии. По предворительным данным Армения потеряла до 5 тыс. убитыми, было ранено около 10 тыс (2). Азербайджанская армия потеряла убитыми 2 783 человек и 1 245 были ранены (3).

Сейчас на освобожденных территориях идет процесс разминирования. Процесс достаточно сложный т.к. за время оккупации были заминированы большие участки особенно там, откуда армяне ждали наступления наших войск. Легче будет идти разминирование на равнинной местности, труднее в горах, и, по мнению специалистов этот процесс может затянуться на несколько лет. Надеяться на то что наши соседи передадут нам карты минных полей (как это делают цивилизованные государства проигравшие войну) не приходится. Тем более что есть случаи, когда армяне сами подрывались на своих же минах. Кроме этого перед азербайджанскими саперами и организацией ANAMA стоит и другая не менее важная задача освободить территорию от неразорвавшихся боеприпасов и также утилизировать оставшуюся военную технику. Часть из них осталась здесь еще с Первой Карабахской войны. Затем начнется восстановление инфраструктуры и возвращение беженцев. Конечно, в первую очередь надо восстанавливать газофикацию, электроэнергию и водоснабжение. Во многих районах этих структур или не было (газ) или они были разрушены после оккупации наших землях. Затем на наш взгляд должна обязательно пройти перепись населения оставшегося на возвращенных землях. Бывшее проживающее в Азербайджане население сможет наверное остаться, получив новые азербайджанские паспорта. Освобожденные территории дадут нам возможность реализовать различные планы и проекты не только по восстановлению, но и созданию новых промышленных, сельскохозяйственных, культурных направлений которых до оккупации не существовало. Так, например, до оккупации Келбаджарский район был в основном скотоводческим. Сегодня есть возможность создать здесь мощную туристическую зону, в основном развивать зимний туризм. Мы не говорим уже об источниках целебных вод, о посещении туристами восстановленных исторических архитектурных албанских и азербайджанских религиозных храмов, о создании берущего популярность сегодня в Европе рыболовного туризма на многочисленных реках и водоемах. К восстановлению кроме государства которое конечно должно держать под постоянным контролем этот процесс следует конечно привлечь и частный сектор который за 30 лет накопил большой опыт как в строительстве, а также и в сельском хозяйстве и в туризме. Сейчас пришло время реализовать накопленный опыт, который основывается на новейших технологиях, с обязательным привлечением ведущих европейских и западных фирм. Восстановление всех секторов должно идти на уровне лучших и приемлимых новейших разработок и технологий. Следует наверно ввести на период восстановления новые более низкие налоги, пересмотреть оплату труда врачам, учителям, социальным работникам с обязательной передачей им земель для постройки домов и пригодных для обработки участков земли. Это сыграет роль дополнительного стимула для тех, кто вернется и кто захочет переселиться в эти районы на постоянной основе.

Важный момент после окончания каждой войны это увековечение памяти о ней. Здесь в первую очередь следует увековечить тех кто погиб в дни войны. Речь идет не только о бойцах Азербайджанской Армии но и о мирных жителях погибших от рук врага. Именами шехидов должны быть названы улицы и школы.

В каждом учебном заведении и в тех учреждениях где они учились или работали должны быть созданы стенды показывающие жизненный путь и подвиг этих воинов. Для

увековечения подвига участников Отечественной войны Президентом Республики учреждены 15 медалей и 2 ордена. На наш взгляд они должны вручаться всем кто внес свою лепту в Великую Победу и на фронте и в тылу. Следует наградить и воинские подразделения отличившиеся в боях.

В освобожденных районах можно оставить невосстановленными несколько домов или квартал как музеи под открытым небом. Следует наверно наградить званием "Город Герой" ряд городов, которые еще в годы Первой Карабахской войны оказали достойное сопротивление врагу. Уже нужно собирать аудио, видео и письменные воспоминания участников войны. Желательно привлечь к этому делу студентов исторического и факультета журналистики, чтобы затем издать эти воспоминания отдельной книгой. Должен быть обязательно поставлен памятник Победителям и создан отдельный музей Победы.

А в будущем нужно на основании конкурсного отбора снять несколько документальных и художественных фильмов о прошедшей войне. В обязательном порядке приказом Министерства образования должны быть дополнены школьные программы по истории Азербайджана и добавлены в учебники новые главы связанные с нашей победой. Это должно относиться ко всем учебным заведениям республики. История Второй Карабахской войны должна включаться в темы курсовых и дипломных работ, по ней должны быть защищены кандидатские и докторские диссертации.

Значение победы азербайджанского народа неоценимо. Своей победой Азербайджан положил начало новому миропорядку и в том числе на Кавказе. Он на деле доказал известную истину "хочешь мира - готовься к войне". Азербайджан создал новые реалии, а Армения осталась в "старом" мире. Азербайджанская армия на деле претворила в жизнь резолюции Совета Безопасности ООН. Азербайджанский народ получил всплеск национального единства и патриотизма. Победа в войне наполнила новым содержанием выражение Общенационального Лидера Г.Алиева "Я горд, что я азербайджанец". И большая заслуга в этом президента Азербайджана Ильхама Алиева. Ставший в глазах народа с первого дня нашей Отечественной войны национальным героем, он носит звание Верховного главнокомандующего не только по Конституции, но и благодаря выдающимися заслугами перед нацией. В эти дни глава нашего государства продемонстрировал помимо мудрости и проницательности руководителя страны огромный потенциал полководческого, дипломатического, патриотического, организационного и чисто человеческого таланта. Ильхам Алиев восстановил наши честь, свободу и достоинство, доказывая всему миру, что Азербайджан – это сильное, честное, гордое, терпеливое, умное, богатое, уважительное ко всем религиям и народам, светское, духовное, глубоко патриотичное, интернациональное и верное своим друзьям государство, а азербайджанцы-отважный, умный, добрый и гостеприимный народ. Наша новая история, ее победные страницы будут передаваться из поколения в поколение, являясь примером служения Азербайджану. Азербайджан показал всему миру, что такое победа добра над злом и через 30 лет вернул свои земли, доказав что Карабах это азербайджанская земля.

## ИСТОЧНИКИ

1. Azərbaycan Respublikası Prezidenti, Ermənistan baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı. - https://president.az/articles/45923 [Müraciət tarixi: 04.12.2020]

2. ВС Армении потеряли убитыми порядка 5 тыс. человек в ходе боевых действий в Карабахе – президент Азербайджана / Интерфакс-Азербайджан. Информационное Агентство, 28.10.2020. - http://interfax.az/view/817779 [Müraciət tarixi: 04.12.2020]

3. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin məlumatı. 3 dekabr 2020-ci il. - https://mod.gov.az/az/news/azerbaycan-respublikasi-mudafie-nazirliyinin-melumati-33989.html [Müraciət tarixi: 04.12.2020]

**AZAD RZAYEV**
*Associate Professor of Baku State University*

**THE SECOND KARABAKH WAR. REASONS AND RESULTS**
**(Historical Notes)**

In the notes written in hot pursuit, an attempt was made to show the reasons and results of the Second Karabakh War. The author, assessing the successes of the Azerbaijani army, reflects on the further prospects for the restoration of the liberated regions, perpetuating the memory of the victims and all who participated in the Patriotic War.

*Keywords*: Azerbaijan, Armenia, The Second Karabakh War, Azerbaijani army, President Ilham Aliyev.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 4 dekabr 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2020-ci il.*
*Məqalə Redaksiya heyətinin qərarı ilə çapa məsləhət görülüb.*

*Tarix və onun problemləri/История и ее проблемы/History and its problems, Xüsusi buraxılış 2020, 74-78*

QARABAĞ AZƏRBAYCANDIR!

**UOT 94 (479.24)**

**SEVDA HÜSEYNOVA**
*Bakı Dövlət Universitetinin dosenti*
**E-mail: sevdahuseynova@bsu.edu.az**

# VƏTƏN MÜHARİBƏSİ:
# AZƏRBAYCANIN DÜNYAYA YENİ DOĞULUŞU

*Məqalə Azərbaycanın qələbə ilə başa çatmış Vətən müharibəsinə və müharibənin yaratdığı yeni reallıqlara həsr olunub. "Qarabağ Azərbaycandır" şüarı altında prezidentimiz, dövlətinin ətrafında yumruq kimi birləşən xalqın 44 gündə keçdiyi əsrlərə bərabər bir tarix, müzəffər ordumuzun zəfər yürüşü və onun nəticələri işıqlandırılıb. Məqalədə həmçinin yeni reallıqlardan yeni Azərbaycanın doğulduğu, yeni bir xalqın yarandığı nəticəsinə gələn müəllif fikirləri də yer alır, müharibənin getdiyi dövrdə hansı tarixi hadisələrin bu prosesə təsiri təhlil edilir. Burada həmçinin Ali Baş Komandanın dünyanın müxtəlif telekanallarına verdiyi müsahibələri və bu əsasda dövlətimizin müharibə və xarici siyasət strategiyasının əsasları və məqsədinin əsas istiqamətləri də öz əksini tapmışdır. Bu şərəfli müharibə dövründə yaranan dövlət – xalq – ordu birliyinin, azərbaycançılıq dövlətçilik ideyalarının və qədərsiz Vətən sevgisinin qələbənin əsas mənbəyi olması haqqındakı fikirlər məqalədə əsas yer tutmuşdur.*

*Açar sözlər*: Azərbaycan, Ermənistan Azərbaycan Dağlıq Qarabağ problemi, Azərbaycanın Vətən müharibəsi, "Qarabağ Azərbaycandır".

*Giriş.* 2020-ci il... İlk qədəmlərindən dünyada istər siyasi, istər iqtisadi, istərsə də sosial aspektdə gərginliklərin dərinləşdiyi, ən əsası isə bütün dünyanı öz əsarətinə alan ölümcül virusun – Covid 19-un sürətlə yayıldığı il... Ancaq insanların bu səbəbdən məşum, ağır hesab edib, bəyənmədiyi bu il sən demə, bizim ulu tariximizin ən şanlı illərindən biri, bu payız isə ruhumuzun fəsli olacaqmış... Bu payız başlanan Vətən müharibəsinə görə, ulu xalqın silkənib ayağa qalxdığına, özünə qayıdığına görə, Qələbəyə görə sonrakı min illər üçün də ən gözəl payız olaraq qalacaq. 2020-ci il şəhidlərimizin qanı ilə tariximizə əbədi həkk olundu!

Əsas məsələnin təhlilindən qabaq hadisələrin xronikasına qısa nəzər salaq. Məlum olduğu kimi, Ermənistanın Azərbaycandan 1988-ci ildən başlayan ərazi iddiaları, nəhayət, 1992-ci ildə Azərbaycana qarşı elan edilməmiş müharibəyə gətirib çıxarmış oldu. Sabiq SSRİ silahlı qüvvələrinin Xankəndində yerləşən 366-cı alayının vasitəsi və iştirakı ilə Ermənistan Azərbaycanın torpaqlarını işğal etdi, yüz minlərlə sakinimizi didərgin saldı, Xocalı soyqırımını törətdi. Dünya dövlətləri və ictimaiyyəti, bu faciəyə göz yumdu, beynəlxalq təşkilatlar isə Azərbaycanın haqlı tələblərinə susdu, onun səsini eşitmədi. BMT kimi nüfuzlu bir beynəlxalq təşkilatın qətnamələri də azğın Ermənistan tərəfindən yerinə yetirilmədi.

28 ildə bu münaqişə həll edilmədi... Ermənistan bu illər ərzindədə atəşkəsə əməl etmir, təxribatlar törədir, ərazilərimizi müntəzəm atəşə tuturdu. Azərbaycan Ordu hissələri isə düşmənin atəş nöqtələrini susdurur, əks-hücum əmrini gözləyirdi. 2015-ci ilin avqustunda, 2016-cı ilin aprelində döyüşlər oldu. Ordumuz bu qısamüddətli döyüşlərdə qələbələr qazandı və məğlub dünyamıza bir ümid günəşi doğdu.

Nəhayət, 2020-ci il gəldi... İyul ayında azğınlaşmış, yeni torpaqlar zəbt etmək xülyasına düşmüş Ermənistan artıq bu dəfə Tovuz istiqamətində dövlət sərhəddimizi pozmağa cəhd etdi. Azərbaycan Ordusunun qəhrəmanlığı, şəhid olmuş generalımız Polad Həşimov və digər şəhid hərbçilərimizin qanı bahasına bu təxribatın qarşısı alındı, düşmən geri çəkildi.

Azərbaycan Ordusunun gücünü qiymətləndirməyi bacarmayan, öz sərsəm işğalçı xülyalarına qapılan düşmən bu ilin sentyabrın 27-də müxtəlif təyinatlı silahlardan, artilleriya qurğularından istifadə etməklə, təmas xəttini keçərək, irimiqyaslı təxribat törətməyə cəhd etdi. Bunun müqabilində, nəhayət, Ali Baş Komandanın əmri ilə xalqın çoxdan gözlədiyi əks-hücum əmri verildi. Bəli, ulu xalq ayağa qalxdı, yer məhvərindən titrədi! Vətən müharibəsi başlamış oldu. Doğurdan da, hər şeyin öz vaxtı var imiş. Ali Baş Komandanın dediyi kimi, nəyi nə vaxt, necə etməyi düzgün seçmək həyati

əhəmiyyətə malik imiş. Artıq bu vaxt gəlib çıxmışdı, bu bizim vaxt idi! Bu bizim bir xalq kimi yenidən doğulmağımız, kükrəyib ayağa qalxmağımız, özümüzə qayıtmağımız üçün tarixi taleyimizə yazılan vaxt idi!

Beləliklə əks-hücum əmri ilə başlanan Vətən müharibəsi bu millətin "olum və ya ölüm" məsələsini həll edirdi. Qarabağ bütün tarix boyu təkcə cənnət bir ərazi deyil, həm də Azərbaycanın isməti hesab olunmuşdur. Buna görə də bu müharibə həm də bizim qeyrət, şərəf, ləyaqət və milli qürur məsələmiz idi!..

44 günlük Vətən müharibəmiz başlamış oldu. İndi fəxrlə demək olar ki, bu günlərdə Azərbaycan Ordusu öz Ali Baş Komandanının rəhbərliyi ilə mümkünsüz olanı edə bildi. Baş sərkərdənin qırılmaz iradəsi, əzmi və Azərbaycan ordusunun qətiyyəti, şücaəti və mənəvi-psixoloji hazırlığı düşmənin darmadağın edilməsinə gətirib çıxardı. 1994-ci ilin 12 mayından indiyə kimi keçən 26 ildən artıq zaman ərzində orada qurulmuş neçə qatlı, dərin müdafiə istehkamlarını dünyada çox az ordu dağıda bilərdi. Düşmən tərəfin bütün yüksəkliklərə nəzarət etdiyi bir zamanda, çox dərindən eşalonlaşdırılmış, tamamilə minalanmış müdafiə xəttinin yarılması qarşı tərəfdə şok effekti yaratdı. Bu anlamda Azərbaycan ordusunun bu Kampaniyası şübhəsiz ki, dünya hərb tarixi dərsliklərinin səhfələrinə yazılacaq.

Daha da əhəmiyyətlisi budur ki, əməliyyat nəticəsində erməni tərəfinin illərlə özü haqqında yaratdığı miflər – "keçilməz Ohanyan xətti", "məğlubedilməz erməni ordusu", "bir həmləmizlə Bakıya çatarıq", və s. kimi sərsəm fikirləri tamamilə puç oldu. Bu şiddətdə əməliyyata əsla hazır olmayan düşmən nəinki hərbi anlamda, eyni zamanda mənəvi cəhətdən də darmadağın edildi.

Azərbaycan ordusunun əməliyyatlarından agoniyaya düşən ermənilər son 26 ildə təkrarladıqları bütün hədələri reallaşdırmağa cəhd etdilər – Tərtərə, Gəncəyə, Xızıya, Bərdəyə raketlər atdılar, strateji obyekt olan Mingəçevir su anbarını vurmaq istədilər, Bakı-Tiflis-Ceyhan boru xəttini də dağıtmağa çalışdılar. Məqsəd əhalidə qorxu, panika yaratmaq idi, lakin hamısı boşa çıxdı. Onların təfəkkürü hələ də qatil Serj Sarkisyanın "Xocalıya qədər azərbancalılar elə bilirdilər bizimlə zarafat etmək olar" səviyyəsində qalmışdı, öz xəstə təfəkkürləri ilə düşünürdülər ki, Azərbaycanı bu cür hərəkətlərlə çəkindirmək, ölkəmizdə milli təfriqə salmaq, cəmiyyəti bölmək mümkün olacaq. Nəticəsini isə bütün dünya gördü: Bu xalq elə bir milli-mənəvi və siyasi birlik, şüur nümayiş etdirdi, öz dövlətinə, prezidentinə elə bir inam, dəstək göstərdiki, dünya heyrətə gəldi və Azərbaycanı yenidən tanımaq məcburiyyəti qarşısında qaldı. Bəli, Azərbaycan özünün bütün şərəfi və ləyaqəti ilə dünyaya yenidən doğulurdu!

Rəşadətli Azərbaycan ordusunun apardığı əməliyyatlar "Dağlıq Qarabağ münaqişəsi" adı verilən süni yaradılmış bu problemin, beynəlxalq təşkilatların həll edə bilmədiyi, bəlkə də biganəliklə, qərəzliklə həll etmək istəmədiyi konfliktin qətiyyətli həlli idi. Prezident İ. Əliyev Vətən müharibəsində Azərbaycan dövlətinin niyyətini belə bildirdi: "Bizim davamız ədalətli davadır və əminəm ki, bu müharibədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək". Ali Baş Komandanın qətiyyətlə, əminliklə dediyi bu sözlər ordumuzun döyüş əzmini, xalqın qələbə ruhunu kükrətdi. Vətən müharibəsi hamını – ön cəbhəni də, arxa cəbhəni də müsəlləh əsgərə çevirdi, bir yumruq kimi birləşdirdi. 10 milyonluq xalq hər biri öz səngərində bir əsgər oldu. İndiyə qədər görünməmiş bir həmrəylik, dövlət – xalq – ordu birliyi yarandı. Bəli, vaxt gəldi, ulu xalq ayağa qalxdı: mənəvi birlik, siyasi birlik, ən əsası ürək birliyi milli-dövlətçilik ideologiyamızın necə güclü olduğunu, Azərbaycançılıq ideologiyası ətrafında necə bir həmrəylik yarandığını bütün dünyaya nümayiş etdirdi. Dünyanın gözü qabağında Azərbaycan yenidən doğulurdu.

Döyüşlərin ilk günlərindən minlərlə gənc cəbhəyə getmək üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət xidmətinə müraciət etdi. Gözləmədiyimiz halda bu gəncliyimiz necə səfərbər oldu, bu mərd vətən oğullarının qəlbində nə boyda bir Vətən, Qarabağ sevgisi varmış?! Bu oğulların anaları isə "Vətən dardadır" deyə övladlarını cəbhəyə göndərir, canlarından can ayırırdılar. Bəli, zamanın tozundan silkənərək, 30 illik məğlubiyyət utancını, əzabını intiqam hissi ilə əvəz edən, öz kimliyinə qayıdan yeni bir millət yaranırdı. Azərbaycan dünyaya yenidən doğulurdu.

Vətən müharibəsi başlayan gündən xalq bilirdi ki, bu müharibə Böyük Qələbə üçündür. Rəşadətli ordumuza güvənirdi və inanırdı ki, Ali Baş Komandanın rəhbərliyi ilə bu döyüşlər Qələbə

ilə tamamlanacaq. Çünki, bu prezidentimizin də dəfələrlə təkrar etdiyi kimi, bizim haqq işimiz idi. Bunu dövlət başçımız dünyanın müxtəlif telekanallarına verdiyi müsahibələrində də beynəlxalq ictimaiyyətə çatdırırdı. O, bu müsahibələrində inadla münaqişənin mahiyyəti, işğalçı dövlətin danışıqlardan yayınması və əsil məqsədləri, dövlət sərhədlərini pozmaq cəhdləri və s. haqqında ətraflı məlumatlar verirdi. Bu müsahibələr zamanı xalq öz prezidentini sanki yenidən tanıdı, onunla qürur duydu. Dünya ictimaiyyəti isə Azərbaycan Prezidentinin qətiyyətini gördü, dövlətə, dövlətçiliyə, azərbaycançılığa sədaqətini gördü. Onun bu müsahibələri informasiya məkanında üstünlüyümüzü təmin edən ən güclü vasitə idi.

Kifayət qədər yüksək döyüş hazırlığına malik olan Azərbaycan əsgəri Ali Baş Komandanın döyüş əmrini qələbələrlə davam etdirirdi. Vətən müharibəsi tarixi müharibədir. Vətən müharibəsi vətənpərvərliyin işğalçılıqla, şərlə döyüşüdür. Azərbaycan əsgəri qarış-qarış irəliləyir, düşməni cığnayıb keçərək qələbələr qazanırdı. Canından keçir, şəhid olur, ancaq irəli can atırdı. Doğrudan da torpaq uğrunda ölən varsa Vətəndir! Oktyabrın 3-də Suqovuşan, 4-də Cəbrayıl, 9-da Hadrut, 17-də Füzuli, 21-də Zəngilan, 25-də Qubadlının alınması müzəffər ordumuzun xalqa bəxş etdiyi ən böyük sevinc seli oldu. Hamının ürəyi cəbhə ilə döyünürdü.

Xudafərinin işğaldan azad edilməsi də böyük, çox böyük coşqularla qarşılandı. Tarixi Xudafərin körpüsü bir çox rəmzi mənalar daşıyır. Ən əsası o, milli yüksəlişimizin rəmzi, milli gürur simvoludur. Azərbaycan əsgərinin peşəkarlığının və əzmli ruhunun nəticəsi olan bu tarixi gün – Xudafərinin azad edildiyi 18 oktyabr tarixi həm də bundan sonra Xudafərinin yeni doğum tarixi kimi qeyd ediləcək. Xudafərin körpüsünün azad edilməsi ilə İranla dövlət sərhədlərimiz tam bərpa olunmuş oldu. Yenidən doğulmaqda olan Azərbaycan dünyanı heyrətə gətirməkdə davam edirdi.

Nəhayət, ismət qalamız olan Şuşa döyüşü... Bu döyüş hərb sənətində əbədi qalacaq bir döyüş oldu. İgidlərimiz əlbəyaxa döyüşdə, dişləri-dırnaqları ilə Şuşanı azad etdilər. Azərbaycan Xüsusi Təyinatlı qüvvələrinin Şuşanı azad etməsi əməliyyatı dünya mediasında manşet oldu. Bu döyüş haqqında rus mediasında çap olunan bir məqalədə müəllif Azərbaycan əsgərinin Vətən sevgisinə, döyüş qabiliyyətinə, qətiyyətinə heyrətini gizlədə bilməyərək yazmışdır: "Belə döyüş, dövlət, Vətən sevgisi görən olubmu, demək çətindir. Dağ yuxarı, şəhidi çiynində, döyüşə-döyüşə, qan-tər içində qalxırdı Azərbaycan Ordusu. Nəfəs almadan Şuşaya çıxırdılar". Düşmənlərimizin də, onların havadarlarının da ağıllarına belə gətirə bilməyəcəyi hadisə baş verdi: Azərbaycan aslanları müqəddəs bayrağımızı Şuşaya sancdılar. Bu, Vətən müharibəsində qələbəmiz demək idi. 44 günlük Vətən müharibəsi: müstəqillik, yenilməzlik, qəhrəmanlıq simvolu! Şəhidlərimizin öz qanı ilə yazdığı misilsiz qəhrəmanlıq dastanı! Nə yaxşı ki, bu xalq o 44 günü yaşadı, təmizləndi, yenidən özünə qayıtdı! Bu Azərbaycanın dünyaya yeni doğuluşu idi!

Məhz qalib, müzəffər ordumuzun qələbələri, Ali Baş Komandanımızın qətiyyəti və dəmir iradəsi, nəhayət Şuşa qələbəsi düşməni diz çökdürdü, onu kapitulyasiya aktına qol çəkməyə məcbur etdi. Xalq Prezident İ. Əliyevin noyabrın 10-dakı müraciətini Vətən müharibəsinin başa çatması kimi dinlədi, həm də bir daha əmin oldu ki, bu müqəddəs müharibənin iştirakçıları: şəhidlərimiz və qazilərimiz heç vaxt unudulmayacaq. Prezident bütün xalqın adından bəyan etdi: "...Biz bu qələbəyə görə onlara borcluyuq. Onlar torpaqlarımızı işğalçılardan qarış-qarış azad edib, onlar bizim bayrağımızı işğal edilmiş torpaqlarda qaldırıb, bayrağımızı orda dalğalandırıb. Bu, bizim hamımızın qələbəsidir, bütün Azərbaycan xalqının. Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır".

Qarabağ uğrunda müharibə yalnız torpaq üçün deyil, həm də milli kimlik və qürur hissi üçün idi. Bu qələbə xalqın inamını, milli qürurunu özünə qaytardı. Xalq sanki etnik kimliyini, türkün qüdrətini yenidən tanıdı. Məğlubiyyət kompleksindən qurtardıq, ismətimiz qayıtdı.

Müzəffər Azərbaycan Ordusu tarixi ədaləti bərpa etdi. Bütün dünya gördü ki, rəşadətli ordumuz nələrə qadirdir?! Bütün dünya gördü ki, Ali Baş Komandanın rəhbərliyi altında bu ordu necə şərəfli bir tarix yazdı... Dünya bu ordunun hərbi-texniki hazırlığına, döyüş məharətinə və şücaətinə heyran oldu. Amerika quru qoşunlarının generalının "Azərbaycan ordusunun döyüş taktikasını öyrənmək lazımdır" kimi etirafı döyüş meydanındakı reallığın etirafı etdi. Bu qələbə türk dünyasında qüdrətli, böyük Türkiyə ilə yanaşı, Azərbaycan adlı digər güclü, mübariz və ulu bir dövlətin də var olduğunu dünyaya sübut etdi. Bəli, Azərbaycan bəzən lal, bəzən kor olan bu

dünyanın gözü qabağındaca yenidən doğulurdu... Qəhrəman Ordumuzun şücaətindən, şəhidlərimizin müqəddəs qanından, yenilməz milli birliyimizdən doğuldu bu yeni Azərbaycan!

İtkilərimiz də oldu. Ürəyi Vətən üçün, Qarabağ üçün döyünən Vətən oğulları öz qanları, canları bahasına bu qələbəni qazandılar. Biz bu gün üçün onlara borcluyuq. Torpaq uğrunda ölən varsa Vətəndir! O torpaqları Vətən edən Şəhidlərimiz əbədi bizimlədir!

44 günlük Vətən müharibəsi nəticəsində yad ayaqlar altında qalan torpaqlarımız azad olundu, ərazi bütövlüyümüz bərpa olundu. Azərbaycan haqlı mübarizəsində qalib gəldi. Bu müharibə tarixi ədalətdən doğan zəfər günəşidir.

Azərbaycanın döyüş meydanında bu parlaq qələbəsi, siyasi meydanda da qələbəsini şərtləndirmiş oldu. Bu tarixi qələbə dövlətimizin başçısı, Ali Baş Komandan İ. Əliyev şəxsində siyasi-diplomatik müstəvidə davam etdirildi. Nəhayət, düşmən dəmir yumruğun təzyiqinə davam gətirməyərək təslim oldu və təslim aktına qol çəkmiş oldu.

*Nəticə.* Mövqeyi beynəlxalq hüquqa dayanan Azərbaycan yeni reallıqlar yaratdı. Vətən müharibəsindəki şanlı qələbəmiz ölkəmiz üçün yeni dövr açmışdır. Artıq Azərbaycan Cənubi Qafqazın təhlükəsizlik sistemini formalaşdıran əsas gücdür. Qələbəmiz geosiyasi konfiqurasiyaya da həlledici təsir göstərdi. Artıq yeni geosiyasi reallıqlar formalaşır.

Tarixi qələbəmiz ölkəmizin inkişafı üçün də yeni perspektivlər açır. Çox böyük iqtisadi potensiala malik olan işğaldan azad edilmiş ərazilərimizin qayıtması iqtisadi potensialımızı kifayət qədər artıracaq. 10 noyabr üçtərəfli sazişə görə işə düşməsi nəzərdə tutulan Naxçıvan dəhlizi də böyük gəlir gətirəcək. İpək yolu kontekstində Orta Asiya və Türkiyə ilə ticarət inkişaf edəcək, Türkiyə-Azərbaycan münasibətlərində yeni era başlanacaq! İqtisadi güc isə ölkəyə dominantlıq statusu verir. Bəli, milli liderimiz H.Əliyevin dediyi kimi, Azərbaycan dünyaya bir günəş kimi doğacaq. Bu dəfə həm də şər üzərində qələbə çalan qalib bir dövlət kimi! Dünyaya yeni doğuluşun mübarək Azərbaycan! Qələbən mübarək əziz Vətən!

## ƏDƏBİYYAT

1. Ermənistan silahlı qüvvələri bütün cəbhə boyu genişmiqyaslı təxribat törədib / Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi saytı, 27 sentyabr 2020. - https://mod.gov.az/az/news/ermenistan-silahli-quvveleri-butun-cebhe-boyu-genismiqyasli-texribat-toredib-32310.html [Müraciət tarixi: 09.12.2020]

2. SC-94, 27 Eylül 2020, Dışişleri Bakanlığı Sözcüsü Hami Aksoy'un Ermenistan'ın Bu Sabah Azerbaycan'a Karşı Başlattığı Saldırı Hakkındaki Soruya Cevabı / Türkiye Cumhuriyeti Dışişleri Bakanlığı sayfası. - http://www.mfa.gov.tr/sc_-94_-ermenistan-in-azerbaycan-a-karsi-baslattigi-saldiri-hk-sc.tr.mfa [Müraciət tarixi: 09.12.2020]

3. Azərbaycan Respublikası Prezidentinin müsahibələri / Azərbaycan Respublikasının Prezidentinin rəsmi səhifəsi. - https://president.az/news/interviews [Müraciət tarixi: 09.12.2020]

4. İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Vətən Müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında iştirak ediblər / Azərbaycan Respublikası Prezidentinin rəsmi səhifəsi, 10 dekabr 2020. - https://president.az/articles/48788 [Müraciət tarixi: 09.12.2020]

**SEVDA HUSEYNOVA**
*Associate Professor of Baku State University*

## PATRIOTIC WAR: AZERBAIJAN'S NEW BIRTH

The article is dedicated to the victorious Patriotic War of Azerbaijan and the new realities created by the war. Under the slogan “Karabakh is Azerbaijan”, a history equal to the centuries passed by our President, the people united around his state like a fist in 44 days, the victory march of our victorious army and its results were highlighted. The article also contains the author's views on the birth of a new Azerbaijan, the emergence of a new nation from new realities, analyzes the impact of historical events on this process during the war. It also reflects the interviews given by the Supreme Commander-in-Chief to various TV channels around the world, and on this basis, the main directions and goals of the war and foreign policy strategy of our state. The article focuses on the idea that the state-people-army union, the ideas of Azerbaijani statehood and the unconditional love of the Motherland, which emerged during this glorious war, are the main source of victory.

*Keywords:* Azerbaijan, Armenia Azerbaijan Nagorno-Karabakh problem, Azerbaijan's Patriotic War, "Karabakh is Azerbaijan".

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 09 dekabr 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2020-ci il.*
*Məqalə Redaksiya heyətinin qərarı ilə çapa məsləhət görülüb.*

**UOT 94 (479.24)**

**SƏİDƏ ƏLİ QIZI**
*Bakı Dövlət Universitetinin dosenti*
**E-mail: Saida_alikizi@ mail.ru**

# QARABAĞ AZƏRBAYCANDIR!
# ƏHMƏD BƏY AĞAOĞLUNUN ERMƏNİ MİLLƏTÇİLİYİNƏ QARŞI MÜBARİZƏSİ

*Məqalə Azərbaycanın II Vətən müharibəsində (2020-ci il) erməni işğalında olan Qarabağ torpaqlarının azad edilməsi kontekstində görkəmli ictimai-siyasi xadim və publisist Şuşalı Əhməd bəy Ağaoğlunun XX əsrin əvvəllərində erməni millətçilərinin Azərbaycan xalqına, türk-müsəlman əhalisinə qarşı törətdikləri qırğınlar, qətliamlar və soyqırımlar dövründə çoxsahəli fəaliyyətinə həsr olunmuşdur.*

*Açar sözlər*: "Qarabağ Azərbaycandır!", zəfər, Ali Baş komandan, Ə.Ağaoğlu, erməni millətçiliyi, mübarizə, publisistika, ictimai-siyasi xadim, siyasi partiya, abidə.

*Giriş.* Bu gün Azərbaycan xalqının 30 ildir həsrətlə gözlədiyi böyük **Qələbə və Zəfər** günüdür. Xalqımız Milli Müzəffər Ordumuzun və Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanı, Qarabağ uğrunda gedən II Vətən müharibəsindəki misilsiz qələbə ilə adını Azərbaycanın və bütün türk dünyasının dövlətçilik və hərb tarixinə Qalib Sərkərdə kimi qızıl hərflərlə həkk etdirən İlham Əliyevin görünməmiş yenilməzliyi, cəsarəti, hərbi və diplomatik hünəri sayəsində böyük zəfərini bayram edir. Müharibənin ilk günlərindən bir çağırışa və devizə çevrilən, dilimizin əzbəri olan müqəddəs "Qarabağ Azərbaycandır!" kəlamı bizim mənfur, məkrli düşmən və özü qədər hiyləgər olan havadarları üzərində haqq və ədalət döyüşümüzün qalibiyyətlə başa çatmasında, hakimiyyətin və xalqın dəmir bir yumruq kimi birləşib doğma Qarabağın düşmən tapdağından azad edilməsində müstəsna rol oynadı.

Müharibənin öz qanunları var. Tarixdə elə bir müharibə olmayıb ki, onun qurbanları olmasın. Biz də bu Vətən müharibəsində qurbanlar verdik, 2783 şəhidimiz, 1245 qazimiz öz qanları və canları ilə bu qələbənin qazanılmasında ağlasığmaz, görünməmiş igidliklər, qəhrəmanlıqlar göstərdilər. Açıq döyüşdə qələbə qazanmaq iqtidarında olmayan qorxaq və aciz düşmən onlarla yaşayış məskənlərimizi, dinc sakinləri, cəbhə bölgələrindən uzaq məsafədə yerləşən şəhər və kəndlərimizi namərdcəsinə atəşə tutdu, bombardman etdi, yüzlərlə dinc əhalinin ölümünə, yaşayış yerlərinin xarabazara çevrilməsinə səbəb oldu. Düşmənin bu xəyanətkar əməlləri nəticəsində 94 dinc sakin şəhid, 404 nəfər isə qazi oldu (14).

Şəhidlik ölümsüzlükdür! Bu uca zirvəyə yüksələn bütün şəhidlərimizə Allahdan rəhmət diləyir, qazilərimizin tezliklə sağalması üçün dualar edirik.

"Qarabağ Azərbaycandır!". Bu həmişə belə olmuşdur və belə də olacaqdır. Qarabağ uğrunda erməni daşnaklarının mübarizəsi bu gün, dünən deyil, çox-çox illər bundan öncə başlanmışdır. Ermənilərin Cənubi Qafqazda nə zaman və necə məskunlaşması ilə bağlı tarixi hadisələrin təfərrüatına varmadan, qeyd etmək lazımdır ki, bu proses XIX əsrin sonu – XX əsrin əvvəllərində erməni daşnakların Osmanlı imperiyasının ərazisində türk müsəlmanlara qarşı törətdikləri qətliamlar və soyqırımlardan sonra daha böyük vüsət aldı. Köçüb gəlmiş ermənilər və onların qatı millətçi siyasi təşkilatları – "Daşnaksütyun"(1890-cı ildə Tiflisdə yaradılmış, 1892-ci ildə partiyanın I qurultayında qəbul edilmiş proqramında ***Türkiyə Ermənistanında*** azad demokratik respublika yaratmağı özünün başlıca vəzifəsi elan etmişdi) və "Qnçak" (1887-ci ildə Cenevrədə bir qrup erməni tələbəsi tərəfindən yaradılmış, 1892-ci ildə Bakı təşkilatı, 1902-ci ildə Şuşada və Yelizavetpolda – Gəncədə şöbələri fəaliyyətə başlamışdı. 1897-ci ildə qəbul edilmiş 5 bənddən ibarət olan proqramında ***Osmanlı imperiyasında yaşayan erməni xalqının gələcək taleyinin həll olunması üçün Türkiyənin ərazisində milli müstəqilliyin əldə olunması uğrunda mübarizə aparmaq nəzərdə tutulurdu*** (3, s.202-204, 213) Türkiyə hadisələrinin davamı olaraq Cənubi Qafqazda da ərazi iddiaları irəli sürməyə, fitnə-fəsadlar və türk-müsəlman əhalisinə qarşı qətliamlar törətməyə başladılar.

*Tarix təkrar olunur*. XX əsrin əvvəllərində baş verənlərin təkrarı əsrin sonlarında da tariximizdə yer aldı. 1905-1907-ci illərdə baş verən milli qırğınlar zamanı Rusiya imperiyasının hakimiyyət dairələri xristian ermənilərə havadarlıq etdi, onları şirnikləndirdi, qanlı hadisələrin qarşısını almaq üçün heç bir əməli tədbir görmədi, və nəinki görmədi, hətta bu hadisələrin günahkarları kimi milli ziyalılarımızı, milli sahibkarları və müsəlman din xadimlərini suçladı. Əsrin sonlarında isə SSRİ-nin Kommunist partiyası rəhbərlərinin himayəsi və dəstəyi ilə qondarma “Dağlıq Qarabağ problemi” ortaya atıldı, Ermənistan ərazisində və Qarabağda yaşayan 1 milyondan çox soydaşımız dədə-baba torpaqlarından qovuldu, evsiz-eşiksiz qaldı, 30 il ərzində qaçqın-köçkün adı ilə yaşamaq məcburiyyəti ilə üzləşdi.

Tarix boyu demokratiyadan dəm vuran, insan haqları və azadlıqlarının “keşikçisi” missiyasını öz üzərlərinə götürən, müstəqillik və suverenlık yoluna yenicə qədəm qoyan dövlətlərə “kömək göstərmək” çağırışı edən, başqalarına insan hüquqları dərsi keçən və özlərinə lazım gəldikdə dini tolerantlıq prinsiplərini yada salan Qərb dövlətləri və onların yaratdığı beynəlxalq təşkilatlar hər iki halda ya hadisələri görməzdən gəldilər, yaxud da açıq-aşkar erməniləri dəstəklədilər, hadisələrə xristian-islam qarşıdurması donu geyindirmək cəhdləri göstərdilər. Azərbaycan öz əzəli Qarabağ torpaqlarını düşməndən azad etmək üçün apardığı II Vətən müharibəsində də eyni siyasətlə və oxşar ssenarilərlə üzləşdi.

Qarabağ tarixən Azərbaycanın cənnət guşəsi və zəngin mədəniyyət mərkəzi, Şuşa isə onun baş tacı olub. Azərbaycanın Üzeyir Hacıbəyov, Bülbül, Xan Şuşinski, Firudin bəy Köçərli, Əbdürrəhim bəy Haqverdiyev, Əbdürrəhim bəy Vəzirov, Xurşudbanu Natəvan, Həmidə xanım Cavanşir, Əhməd bəy Ağaoğlu və bir çox başqa məşhur sənətçiləri və ziyalıları məhz Qarabağdan, Şuşadandırlar.

Sözsüz ki, həyatda olmayan bu insanların 30 ildir ki, narahat olan ruhları indi şaddır. Ən çox da bütün həyatı boyu erməni millətçiliyi ilə demək olar ki, təkbətək mübarizə aparan Əhməd bəy Ağaoğlunun. Uşaqlıqdan mübariz və döyüşkən ruha sahib olan, heç bir çətinlikdən qorxmayan, düşmənlərinə sinə gərməyi bacaran Ə.Ağaoğlu ömrü boyu türk-müsəlman xalqlarının milli mənliyi, milli istiqlalı, milli özünüdərki və tərəqqisi yolunda təmənnasız və qəhrəmancasına mübarizə aparmışdır. Təsadüfi deyil ki, XX əsr Azərbaycanının görkəmli siyasi xadimlərindən biri M.Ə.Rəsulzadə Ə.Ağaoğlunun XX əsrin əvvəllərində ictimai-siyasi fəaliyyəti haqqında belə yazırdı: “Onunla əməkdaşlıq edən, necə qəhrəmancasına çalışıb-vuruşmasına yaxından bələd olan bir adam kimi, tam əminliklə deyə bilərəm ki, o dövrdə, o odlu-alovlu illərdə (erməni millətçiliyi ilə mübarizə dövründə - S.Ə. ) heç kəs Ağaoğlu Əhməd bəy qədər milli hərəkat və milli dava cəbhəsinin ön atəş xəttində olmamışdı” (13).

Bu günlərdə Qarabağın və Şuşanın azad edilməsi xəbərlərini eşidəndə hər dəfə “Əhməd bəy! Ruhun şad olsun” – deyib, sevincimdən ağlamışam.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hakimiyyətə gəldiyi ilk gündən Ümummilli lider Heydər Əliyevin siyasətini davam etdirərək xalqımızın dövlətçilik və mədəniyyət tarixində iz buraxmış bütün ictimai-siyasi və mədəniyyət xadimlərinin anılmasını, onların yubileylərinin keçirilməsini, maddi və mənəvi irslərinin öyrənilməsini, təbliğ olunmasını və gələcək nəsillərə layiqincə ötürülməsini öz fəaliyyətində prioritet istiqamətlərdən birinə çevirmişdir. Bütün bunlar Azərbaycan hakimiyyətinin daxili və xarici siyasətinin əsasında məhz Azərbaycançılıq məfkurəsinin durduğunu bir daha sübut edir.

10 aprel 2019-cu ildə əslən Qarabağlı və Şuşalı olan Əhməd bəy Ağaoğlunun 150 illik yubileyinin keçiriməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin xüsusi Sərəncamı olmuşdu. Sərəncamda deyilirdi:

“2019-cu ildə Azərbaycan ictimai fikrinin böyük nümayəndələrindən biri, görkəmli publisist və tənqidçi, tanınmış hüquqşünas və şərqşünas alim Əhməd bəy Ağaoğlunun (Əhməd bəy Mirzə Həsən oğlu Ağayevin) anadan olmasının 150 illiyi tamam olur.

Əhməd bəy Ağaoğlu ötən əsrin əvvəllərindən etibarən Azərbaycanda və onun hüdudlarından kənarda cərəyan edən mürəkkəb ictimai-siyasi proseslərdə fəal iştirak etmiş və milli oyanış hərəkatının daim ön sıralarında dayanan vətənpərvər şəxsiyyət, eyni zamanda, müsəlman Şərqində müasirləşmə siyasətinin ardıcıl tərəfdarı kimi tanınmışdır. Ümumxalq mənafeyinin qorunması

naminə çoxşaxəli, gərgin və məhsuldar fəaliyyəti ərzində o, parlaq bədii-publisistik və dolğun elmi-nəzəri irs yaratmış, Azərbaycanın ədəbi-mədəni və sosial-fəlsəfi fikir xəzinəsinin yeni ideya və konsepsiyalarla daha da zənginləşməsində diqqətəlayiq xidmətlər göstərmişdir. Əhməd bəy Ağaoğlunun ictimai problemləri mənəvi-əxlaqi aspektdə işıqlandıran, cəmiyyəti tərəqqiyə doğru yönəlməyə və qabaqcıl dünya mədəniyyətindən bəhrələnməklə yeniləşməyə çağıran geniş mövzu dairəsinə malik dərin məzmunlu əsərləri Azərbaycan maarifçiliyinə mühüm töhfədir" (15).

Görkəmli ictimai xadim Əhməd bəy Ağaoğlunun 150 illik yubileyi ilə əlaqədar Milli Azərbaycan Tarix muzeyində 2019-cu il oktyabr ayının 2-3-də Beynəlxalq Simpozium, həmçinin oktyabrın 2-də Müslüm Maqomayev adına Dövlət Akademik Filarmoniyasında təntənəli gecə keçirildi. Tədbirdə dövlət və hökumət rəsmiləri, millət vəkilləri, yerli və xarici alimlər, eləcə də Əhməd bəy Ağaoğlunun Türkiyədə yaşayan nəvəsi və nəticələri iştirak edirdi. Qonaqlar filarmoniyanın foyesində mərhum alimin həyat və fəaliyyətini əks etdirən foto və kitab sərgisi ilə tanış oldular, sonra Əhməd bəyin ömür yoluna işıq salan "Millət fədaisi" adlı sənədli film nümayiş etdirildi, maraqlı çıxışlar oldu. Prezidentin Sərəncamına uyğun olaraq müxtəlif elm, mədəniyyət və təhsil ocaqlarında da yubiley tədbirləri keçirildi.

Bu məqalənin müəllifi uzun illərdir ki, Ə.Ağaoğlunun ictimai-siyasi və publisistik fəaliyyətinin tədqiqi ilə məşğuldur. Bu yubileyə biz də öz kiçik töhfəmizi vermək istədik. 2019-cu ildə "Türk dünyasının mübariz mütəfəkkiri" adlı kitabımız çapdan çıxdı. Kitaba 2001-ci ildən 2020-ci ilədək olan dövr ərzində Əhməd bəy Ağaoğlu haqqında müxtəlif dövri mətbu orqanlarında Azərbaycan və rus dillərində nəşr olunmuş 50-dək məqalədən 19-u daxil edilmişdir. Kitabda, həmçinin, Əhməd bəyin həyatı və keçdiyi mübarizə yoluna, böyük mütəfəkkirin və şəxsiyyətin xalqımız qarşısındakı xidmətlərinə ehtiram əlaməti olaraq qələmə aldığımız kiçik bir tarixi poema da yer almışdır. Onu oxuculara təqdim etməyi məqsədəuyğun hesab edirik.

## TÜRK DÜNYASININ MÜBARİZ MÜTƏFƏKKİRİ

*Əhməd Bəy Ağaoğlunun xatirəsinə*

Publisist və tənqidçi, hüquqşünas, şərqşünas,
Həyatda bir nömrəli islamşünas, türkşünas.
Nə qədər adların var, arxasında nə zəhmət,
Qürur, vüqar, əziyyət, misilsiz milli qeyrət.

Əsilzadə kökün var, Qarabağın oğlusan,
Nəslin "qurdlar eli"dir, el üçün doğulmusan.
Doğma Şuşa Vətənin, doğma Şuşa elindir.
Şuşa əldən getsə də, amma yenə Sənindir.

Sorbonnada oxudun, hüquq təhsilin seçdin,
Həyatın sınağından mərdi-mərdanə keçdin.
Renanla, Darmsteterin sevimli tələbəsi,
Bu oldu o zamanda bir türkün qələbəsi.

Xalqın təəssübünü çəkirdin gənc yaşından,
Onun zülmü, əzabı çıxmayırdı başından.
Qurtarmaq məqsədindi onu bu cəhalətdən,
Savadsızlıq, gerilik, nadanlıq, ətalətdən.

"Firəng Əhməd" deyirdi Şuşa sənin adına,
Ən çətin zamanlarda Sən çatırdın dadına.
Şuşalı Əhməd kimi düşmənə dağ çəkirdin,
Xalqımın, millətimin qəlbinə yağ çəkirdin.

Düşüncən yeniləşmə, düşüncən Qərbləşməkdi,
Məqsədin mübarizə, çətinlə əlləşməkdi.
Fransa inqilabının şüarın deviz etdin,
“Azadlıq”, “Bərabərlik”, “Ədalət” tələb etdin.

Bunlara çatmaq üçün nələr gəldi başına,
Xalqım müqəddəs deyir torpağına, daşına.
Azadlıq döyüşümün böyük qəhrəmanısan,
Doğma Azərbaycanın ürəyisən, canısan.

“Kaspi”nin səhifəsi doldu yazılarınla,
Türk-müsəlman xalqına olan arzularınla.
Milli təfəkkürünlə işıq saçdın Vətənə,
Azadlıq düşüncəsin Sən bəxş etmisən mənə.

İslamın dəyərini yüksəltməyə çalışdın,
Bütün əsərlərində elə bundan danışdın.
İstədin müsəlmanlar Qurandan bəhrələnsin,
Quran hikməti ilə inkişafa köklənsin.

“İttihad”dan danışdın, “Tərəqqi”yə yol açdın,
Birlik, inkişaf deyib, qaranlığa nur saçdın.
“Həyat” verdin millətə, ona “İrşad” bəxş etdin,
Keçmişdən gələcəyə ümid yolunu getdin.

Səsin hər yerdən gəldi, qlasnı oldun Dumaya,
Xalqı bir an qoymadın mənasız uyumaya.
Rus-erməni birləşdi, soyqırım törətdilər,
Silahsız müsəlmanı yuvasından etdilər.

Düşmən qırırdı bizi, meydanda tək Sən vardın,
Harda başqa igidlər? Xalqa təkcə Sən yardın.
Əlahəzrət qələmin çevrildi, oldu silah,
Milləti qorumaqcun Səni göndərmiş Allah.

Qeyrətin çox böyükdü, tək qalsan da meydanda,
Xalqın arxasındaydın həmişə, hər zamanda.
Sözünlə, qələminlə ermənini dəf etdin,
Türkün düşmənlərini hər yerdə hədəf etdin.

Dedilər tərs adamdır, heç vaxt güzəştə getmir,
Dərdi, istəyi millət, onunçun nələr etmir?
“Difai”ni yaratdın, qorxutdun düşmənləri,
Xalqımın üzərinə silahla gələnləri.

Düşmən dedi adına “pantürkçü”, “panislamçı”,
Sən milli qəhrəmansan, onlar isə yalançı.
Yalan ayaq tutar da, amma yeriyə bilməz,
Zaman gedər irəli, heç vaxt geriyə gəlməz.

Zaman, tarix göstərdi Sənin böyüklüyünü,
Ömrü boyu daşıdın türkün ağır yükünü.
Göstərdin türkçülüyə Sən təmənnasız xidmət,
Güdmədin nə vəzifə, nə mənsəb, nə də şöhrət.

Dedin türklük bölünmə qəbul etməyən tamdır,
Azərbaycan anamsa, Türkiyə də atamdır.
Üz tutdun Türkiyəyə, qurtuluş savaşına,
Getdin kömək eylədin Atatürk qardaşına.

İkinci vətən oldu Sənə qardaş Türkiyə,
Yaratmaq istəyirdin yeni, çağdaş Türkiyə.
Yeni türk dövlətində Sən oldun söz adamı,
Atatürk Mustafanın ən yaxın, öz adamı.

İki türk Parlamenti seçdi səni deputat,
Belə bir etimadı görməmişdi bu həyat.
İki dövlət, bir millət etibar etdi Sənə,
Mütərəqqi düşüncən bəlli idi Vətənə.

Yaşadın igid təki, heç bir şeyə baxmadın,
Uzaqda yaşasan da bundan heç darıxmadın.
İllər uzunu tez-tez Şuşanı yada saldın,
Qarabağ xalçasından Vətən iyini aldın.

Sənin xidmətlərinlə islahatlar baş tutdu,
"Ana Yasa" yazıldı, bundan türk xalqı uddu.
Qəzet, jurnal yaratdın, əsər yazdın minlərlə,
Mətbuat tarixində yaşarsan yüz illərlə.

Türk dünyası Səninlə daim fəxr edəcəkdir,
Vətən, millət açdığın o yolla gedəcəkdir.
Milli düşüncələrin baş alıb götürüb yol,
Xalqımız buna görə deyir Sənə "çox sağ ol!"

Böyük mütəfəkkirim, nəhəng fikir adamım,
İstərəm ki, səninlə qoşa çəkilsin adım.
Uzun illərdən sonra Sən qayıtdın Vətənə,
Qayıtdın qələbəylə, bu nə böyük təntənə!

Nəhayət ki, ən yüksək yerini tutdun burda,
Deyirəm xoş gəlmisən, doğma ocağa, yurda.
Bu çoxdankı arzumdu, daha bir arzum da var,
Toplansın Qarabağda bütün Ağaoğlular!

Qarabağda düşməni sonunadək ram edək,
Xalqımın qələbəsin birlikdə bayram edək.
Ucaldaq abidəni Şuşanın mərkəzində,
Sənə ehtiram edək bu xidmət əvəzində.

Bu şeir 2019-cu ilin payızında qələmə alınmışdır. Doğrudur, biz də bütün Azərbaycan xalqı kimi, 30 ildir Qarabağımızın azad olunacağına inanır və bunu gözləyirdik. Lakin bu həlli çətin və müşkülə dönmüş, "dondurulmuş münaqişələr" sırasına salınmış məsələnin düz bir ildən sonra, Müzəffər Milli Ordumuzun və Qalib Baş Komandanımızın hünəri və rəşadəti ilə qısa müddətdə – 44 günlük müharibə nəticəsində həll oluna biləcəyi təsəvvürümüz xaricində idi. Təsəvvürümüzə gəlməyənlər reallığa çevrildi. Bu reallıq isə Möhtərəm Prezidentimiz İlham Əliyevin 17 ildir ki, həyata keçirdiyi məqsədyönlü, dərindən düşünülmüş, uzaq gələcəyə hesablanmış, kökündə Azərbaycançılıq və dövlətçilik dayanan daxili və xarici siyasətinin, böyük diplomatik məharətinin, cəsarətinin və yenilməzliyinin nəticəsidir.

Şeirdə dilə gətirdiyimiz hər iki arzunu gerçəkləşdirən Prezidentimiz İlham Əliyevdir. 10 aprel 2019-cu il Sərəncamı ilə Əhməd bəy Ağaoğlunun yubiley təntənəsi onun dövlət səviyyəsində Azərbaycana qayıdışı oldu və Əhməd bəyin öz vətənində layiqli qiymətini almasını təmin etdi. Bunun ardınca isə Əhməd bəyin ata yurdu – Qarabağ və Şuşa erməni əsirliyindən xilas edildi. Prezident öz çıxışlarında dəfələrlə qeyd edir ki, Qarabağın bütün dağıdılmış, yandırılmış, erməni vəhşiliklərinə məruz qalmış şəhərləri və kəndləri yenidən qurulacaq, bərpa ediləcəkdir. Ümid edirik ki, vətənimizin bu dilbər guşəsində də yaxın zamanlarda

Qələbə bayramı qeyd ediləcək və Şuşalı Əhməd Ağaoğluna ehtiram əlaməti olaraq onun uzun illər ərzində həsrətini çəkdiyi doğma yurdunda abidəsi ucaldılacaqdır.

Çünki Əhməd bəy bütün ömrü boyu - Azərbaycan, Qarabağ, Şuşa - dedi. Bu üç məkan ömrünün əvvəlindən sonuna kimi Əhməd bəy Ağaoğlunun həm iftixar və qürur, həm də niskil və həsrət məkanı oldu.

Bəy ailəsində dünyaya göz açan Əhməd bəy Ağaoğlu ilk təhsilini mollaxanada almış, sonradan Şuşadakı rus məktəbində oxumuş və bu məktəbə gəldiyi ilk gündən mənfur erməni xisləti və millətçiliyi ilə üzləşmişdi. Həyatının sonrakı illərində Əhməd bəy tez-tez ermənilərin azərbaycanlılara qarşı törətdiyi müxtəlif fitnə-fəsadların, milli qırğınların, soyqırımların şahidi olmuş, öz əməli ictimai-siyasi fəaliyyəti, publisistik yazıları, o cümlədən daşnak qətliamlarına və terrorizminə qarşı milli siyasi partiya yaratması ilə onlarla mübarizə aparmışdı. Bu mübarizə onun öz doğma yurd-yuvasını tərk edib Türkiyəyə mühacirət etməsi, 26 aylıq Malta əsirliyi, ömrünün sonuna qədər qürbət həyatı yaşaması ilə nəticələnmişdi. Əslində 1909-cu ildə Əhməd bəyin Azərbaycanı tərk edib getməsinin, ömrünün sonunadək Türkiyədə yaşayıb, Vətəndən ayrı düşməsinin əsl səbəbkarları və günahkarları ermənilər və onlara havadarlıq edən çar hakimiyyəti orqanları idi.

Məlumdur ki, XX əsrin əvvəlləri Rusiya imperiyasında ictimai-siyasi sarsıntılar dövrü idi. 1904-1905-ci illərin rus-yapon müharibəsində çarizmin məğlubiyyəti ilə ölkədə onsuz da gərgin olan vəziyyət daha da gərginləşdi və bu nəticə etibarilə bütün Rusiya imperiyasını əhatə edən birinci rus inqilabına gətirib çıxardı. Çarizm inqilabi hadisələrin qarşısını almaq üçün müstəmləkə ucqarlarında milli qarşıdurmalar, qırğınlar törətmək siyasətinə əl ataraq, Bakıda və Azərbaycanın digər qəzalarında ermənilərin azərbaycanlılara qarşı kütləvi qırğınlar törətməsinə imkan və rəvac vermişdi.

Əhməd bəy Ağaoğlu 1905-ci ildə çarizmin fitvası ilə erməni-daşnak quldurlarının Azərbaycan xalqına qarşı törətdiyi qırğınlar zamanı dərc etdirdiyi məqalələrində bu faciələrin səbəblərini, mahiyyətini, onların əsl günahkarları olan erməni millətçilərinin və çar hakimiyyəti orqanlarının iç üzünü cəsarətlə açıb göstərirdi.

Yeri gəlmişkən qeyd edək ki, uzun illər sovet tarixşünaslığı XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan xalqının milli-azadlıq hərəkatında iştirak edən, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında, xalqımızın İstiqlalının elan olunmasında əvəzsiz xidmətləri olan bir çox milli ziyalılarımıza "pantürkist", "panislamist" damğası vuraraq, onları qatı millətçilər kimi qələmə vermişdir. Bu "qatı millətçilər" sırasında birincilik həmişə Əhməd bəy Ağaoğluna düşürdü. Bu konteksdə Əhməd bəy Ağaoğlunun ümumiyyətlə millətçilik baxışlarını nəzərdən keçirmək maraqlı olardı.

Əhməd bəy bütün millətləri, o cümlədən də öz millətini xoşbəxt görmək arzusu ilə yaşayırdı. O, "Millətin səadəti nədədir?" sualına hələ erkən gənclik yaşlarında, N.Q.Çernışevskinin "Hə etməli?" romanını oxuyanda, Parisdə təhsil alanda, məşhur professorlar Renan və Darmsteterlə, islam mütəfəkkiri Cəmaləddin Əfqani ilə mübahisələri zamanı cavab axtarmağa başlamış və illər ona yeni-yeni nicat yolları göstərmişdi: nicat – məktəbdədir, nicat – mətbuatdadır, nicat – elmdədir, tərəqqidədir, dindədir, birlikdədir, inqilabdadır, silahdadır və s.

Tanınmış Azərbaycan alimi Əziz Mirəhmədovun yazdığı kimi, XX əsrin əvvəllərində artıq Ə.Ağaoğlunun xalqın milli intibahı ilə bağlı baxışları bir proqram şəklinə düşmüşdü. Bu proqram siyasi və milli şüurun inkişafını, milli birliyi, milli mədəniyyətin tərəqqisinə nail olmağı, dünyada yaranmış beynəlxalq münasibətlərdən xalqın xeyrinə faydalanmağın vacibliyini, milli zülmə, rus şovinizminə, milli lovğalıq və təkəbbürə, milli ədavətə qarşı, yerli istismarçı qüvvələrə, geriliyə, mövhumata və sxolastikaya qarşı mübarizəni nəzərdə tuturdu (10, s.256).

Ə.Ağaoğlu dini və milli müstəsnalıq əleyhinə çıxaraq yazırdı ki, biz müsəlmanlar "özümüzü dünya üzərində bir cəzirə hesab edib, cəmi qeyri-tayfalar ilə əlaqəni kəsmək fikrinə düşsək, böyük səhv etmiş olarıq". Dinə münasibətdə dözümlülük göstərməyə çağıraraq yazırdı: "Din və məzhəb heç vaxt nifaq və ayrılığa səbəb olmayıb və olmaz... Qafqaz müsəlmanlarına gələndə, bizim qonşularımız olan rus, erməni və gürcülər ilə bizim gözəl hərəkət və rəftarlarımızın lazım, vacib olmağı aşkardır... Bu dörd tayfa gərək həmməslək olub, mehribanlıq və yeganəliklərini artırmağa çalışsın" (1, 26 dekabr 1990).

Göründüyü kimi, hələ o zaman Azərbaycanın böyük mütəfəkkiri Əhməd bəy Ağaoğlu bu gün – XXI əsrin əvvəllərində çox dəbdə olan və dinlərarası münasibətlərdə əsas götürülən bir siyasəti - dini tolerantlıq siyasətini də gündəmə gətirmişdi. Onun əsərlərində dinlərarası dialoqun, qarşılıqlı anlaşmanın, birgə əməkdaşlıqın, ümumi düşmənə - çar Rusiyasına qarşı birgə mübarizənin vacıbliyi qeyd olunurdu.

Hələ 1905-ci il hadisələrindən çox əvvəl Ə.Ağaoğlu Rusiya imperiyası kimi çoxmillətli bir dövlətdə milli məsələnin həllinin zəruri olmasına diqqət yetirirdi. O, millətlərarası münasıbətləri, bu sahədəki dövlət siyasətini həm Ümumrusiya, həm də Ümumqafqaz müstəvisində nəzərdən keçirirdi. "Kaspi"dəki məqalələrində Ə.Ağaoğlu mərkəzi rus mətbuatının bir çox hallarda ucqarlarda milli ehtirasları qızışdırdığını, bir sıra mətbuat orqanlarının, ziyalıların, publisistlərin, yazıçıların qeyri-millətlərə, ilk növbədə yəhudilərə və müsəlmanlara qarşı ədavət toxumu səpdiyini, düşmən münasibət formalaşdırdığını qeyd edirdi (8, 19 sentyabr 1903; 25 sentyabr 1903; 21 noyabr 1904).

Ə.Ağaoğlu «Kaspi»nin səhifələrində «Novoye vremya» yazarlarının şovinist, millətçi baxışlarını tənqid və ifşa edirdi. 1903-cü ildə nəşr edilmiş «Bizim millətçilər» adlı bir məqaləsində millətçilik anlayışına öz münasibətini bildirirdi. Onun fikrincə, millətçilik bəşər cəmiyyətinin tarixində dindən sonra ən mühüm hadisədir, o çox böyük qəhrəmanlıqların mənbəyi olmuşdur və olacaqdır.Əgər belə olmasaydı, bir çox xalqlar hələ də xarici zülm altında inləməkdə davam edərdilər (8, 25 sentyabr 1903).

Əhməd bəy daim əsərlərində başqa millətlərin milli ləyaqətinə hörmətlə yanaşılmasının vacibliyini xüsusi qeyd edirdi. O yazırdı ki, «həqiqi, vicdanlı milliyyətçi özünə məxsus olanları qoruyaraq, özgəninki üzərində hər cür zorakılığı rədd etməlidir» (8, 25 sentyabr 1903). Onun fikrincə, əgər məhz bu cür qarşılıqlı münasibətlər olarsa, mədəni dövlətdə müxtəlif millətlərin birgə yaşaması mümkün olar, tərəqqi və əxlaqın ali idealları onların bir-birinə yaxınlaşmasına xidmət edə bilər (8, 25 sentyabr 1903).

Əhməd bəyə görə millətçilik müsbət hadisədir, lakin başqa millətin də milli mənliyini qəbul etmək lazımdır.

1904-cü ilin sonlarında «Kaspi»də Əhməd bəyin «Qafqazda milli məsələ» adlı məqaləsi dərc olunmuşdu (8, 21 noyabr 1904). Qafqaz regionunda milli məsələnin meydana çıxmasını kapitalizmin inkişafı ilə əlaqələndirən Ə.Ağaoğlu, bütövlükdə bu hadisənin (kapitalizmin inkişafının –S.Ə.) yırtıcı təbiətini də açıb göstərirdi. Onu narahat edən məsələlərdən biri də ondan ibarət idi ki, Qafqaz ziyalılarının müəyyən bir hissəsi maddi cəhətdən həmin kapitaldan asılı idi (8, 21 noyabr 1904).

Yuxarıda deyilənlər 1905-ci ildə Azərbaycan xalqına qarşı ermənilərin törətdikləri qırğınlar zamanı Ə.Ağaoğlunun mövqeyini müəyyən etməyə imkan verir. O bu münaqişələrin köklərini, səbəblərini dərindən təhlil etməyə çağırır, hadisələrin qeyri-obyektiv və birtərəfli işıqlandırılmasına, hər cür təhriflərə qarşı öz yazıları və əməli fəaliyyəti ilə mübarizə aparırdı.

Hələ 1904-cü ilin sonlarında «Kaspi»nin səhifələrində dərc etdirdiyi məqalələr onun erməni-müsəlman münasibətlərinin gərginləşməsindən narahatlığını əks etdirirdi (8, 21 və 24 noyabr 1904, 29 dekabr 1904). O yazırdı ki, hər iki xalqın içərisində birgə mədəni iş, xüsusilə maarifçilik işi aparılmalıdır. Əhməd bəy erməni cəmiyyətinin açıq-aşkar təkəbbürlü və iddialı mövqedən çıxış edən yuxarı təbəqəsinin münasibətlərin gərginləşməsində xüsusi məsuliyyət daşıdığını vurğulayırdı. O yazırdı: « Onlar yaddan çıxarmamalıdır ki, onların tarixi, onların həyatı, onların taleyi və hətta gələcəyi belə müsəlmanlarla sıx bağlıdır. Hara baxsanız, hər yerdə, onlar müsəlmanların içərisində yaşayırlar, onlarla qaynayıb-qarışmışlar» (8, 24 noyabr 1904). Müəllifin fikrincə, bu amil ermənilərin müsəlmanlar qarşısında mənəvi borcunu və öhdəliklərini müəyyənləşdirməlidir. Əhməd bəy bu cür öhdəliklərin Qafqazda yaşayan bütün xalqlar tərəfindən dərk edilməsinin zəruriliyini də qeyd etməyi

unutmurdu, çünki onların da taleyi ümumidir və bir-biri ilə bağlıdırlar. Şəxsi çəkişmələr, aralarındakı münasibətlərin pozulması hamısının məhvinə səbəb ola bilər (8, 29 dekabr 1904). «Bizim xilasımız birlikdə və həmrəylikdədir» - deyən Əhməd bəy üzünü ziyalılara tutaraq onları ümumi işə kömək etməyə çağırırdı (8, 29 dekabr 1904).

Təbii ki, dostluğa, həmrəyliyə, qarşılıqlı anlaşmaya və yardıma çağıran Əhməd bəyi 1905-ci ilin fevral ayının 6-9-da Bakıda baş vermiş hadisələr dərindən sarsıtmışdı.

Hadisələrin elə ilk günlərindən o, şəhərin rəhbərlərinə müraciət edərək bu faciəni dayandırmaq üçün təcili tədbirlər görülməsini tələb edir və xəbərdarlıq edirdi ki, bədxah adamlar yeni toqquşmalar törətmək cəhdləri göstərə bilərlər və sözsüz ki, bunların hamısından inzibati idarələr xəbərdardır. Ə. Ağaoğlu şəhər rəhbərlərinə məsləhət görürdü ki, öz səlahıyyətlərindən istifadə edərək, hər iki tərəfin deputatlarının iştirakı ilə duma çağırılsın, cəmiyyətin nüfuzlu adamları, o cümlədən din xadimləri sülh yaratmaq işinə cəlb olunsunlar.

Həmin günlərdə "Kaspi" qəzetində Əhməd bəyin "Rüsvayçılıq" adlı məqaləsi dərc edilmişdi. Məqalədə müəllif baş verən hadisələri hər iki tərəf üçün, hər iki xalq üçün rüsvayçılıq və faciə adlandırmışdı (8, 13 fevral 1905).

Məqalədə Əhməd bəy qeyd edirdi ki, tərəflərin arasında bir - birinə nifrət və düşmənçilik üçün genetik səbəblər yoxdur. Əhalinin müəyyən təbəqələrinin nadanlığı bədxah qüvvələr tərəfindən istifadə edilərək açıq-aşkar məqsədsiz və mənasız faciəyə səbəb olmuşdur.

Fevral günlərində Əhməd bəyin məqalələrindən biri hazırkı vəziyyətdə mətbuat işçilərinin vəzifələrinin aydınlaşdırılmasına həsr edilmişdi. Onun fikrincə, mətbuat işçiləri faciənin əsil səbəblərini və səbəbkarlarını müəyyənləşdirməli, baş verənləri açıq şəkildə pisləməli, şayiələrə uymamalı, hadisələri obyektiv şərh edərək, günahkarların ədalət məhkəməsi və cəmiyyət qarşısında cəzalandırılmasının zəruriliyi fikrini durmadan təbliğ etməlidirlər (8, 15 fevral 1905).

1905-ci ilin iyununda Bakı şəhər duması millətlərarası münasibətləri nizamlamaq üçün deputatlardan ibarət komissiya yaratdı. Bu komissiyanın yaradılmasında, sözsüz ki, Əhməd bəyin xidməti vardı və komissiyanın tərkibinə o da daxil edilmişdi. Dumanın yaratdığı komissiya "Əhalini sakitləşdirmək üzrə Bakı komitəsi" adlandırılaraq, ona geniş səlahiyyətlər verilmişdi. Komitənin daha nüfuzlu olması üçün deputatlarla yanaşı, şəhər əhalisinin nümayəndələri də buraya daxil edilmişdi. Komitə üzvləri sülhə nail olmaq işində məsuliyyətli olub, mətbuat təbliğatından istifadə etməli, münaqişə tərəflərinin dillərində və rus dilində vərəqələr buraxmalı, yerli və xarici mətbuatın səhifələrində izahat işi aparmalı idilər (8, 18 iyun 1905). Əhməd bəy bu komitənin Redaksiya komissiyasının tərkibinə də ("Həyat" qəzetinin redaktoru kimi) daxıl edilmişdi (8, 23, 26 iyun 1905).

1905-ci il iyunun 24-də komitənin birinci iclasında Qafqaz mətbuatının sülh yaratmaq işində məsuliyyəti məsələsi müzakirə olunaraq tövsiyə edildi ki, milli zəmində mənasız mübahisələrə son qoyulsun, ehtirasları qızışdıran yazılar dərc edilməsin, hər iki tərəf münaqişələrin aradan qaldırılacağına təminat versin. Əhməd bəyin daxil olduğu redaksiya komissiyası bütün yerli mətbuat orqanlarına əmin-amanlıq və sülh yaratmaq üçün təbliğat və təşviqat işini genişləndirmək çağırışı ilə müraciət etdi (8, 26 iyun 1905). Əhməd bəy özü isə Qafqaz diyarının qəzet və jurnallarına xüsusi məktubla müraciət edərək, həmin çağırışı müdafiə etməyi tövsiyə edirdi (8, 28 iyun 1905).

1905-ci ilin qanlı Bakı hadisələrindən sonra şəhər ictimai idarəsi yanında zərərçəkənlərə yardım göstərmək məqsədilə ianə toplanması və paylanması üçün komitə yaradıldı. Şəhər dumasının deputatı kimi Əhməd bəy də buraya daxil idi (8, 20 fevral 1905). İanə toplanmasını "Kaspi" qəzeti və digər mətbu orqanları həyata keçirirdilər. Ziyan çəkənlərə kömək üçün Şəhər duması, Neft Sənayeçiləri Qurultayları Şurası, azərbaycanlı neftxudarlar, xüsusilə H.Z.Tağıyev yardım fonduna böyük məbləğdə vəsait keçirmişdilər (8, 13, 15, 16 fevral, 3 mart, 14 aprel 1905).

Bu hadisələr dövründə Əhməd bəy Ağaoğlu Azərbaycan xalqına qarşı hər cür təcavüzə, onun adına, namusuna və ləyaqətinə ləkə gətirməyə çalışanlara qarşı amansız mübarizə aparırdı. Həmin vaxtlarda Rusiyanın və Qafqazın mətbuatı öz səhifələrində müsəlmanlara qarşı görünməmiş böhtan kampaniyasına başlamışdı. Əhməd bəy bunların biganə seyrçisi olmayıb, yerli və paytaxt mətbuatında M.Menşikovun, M.Neymanın, A.Arakelovun və b. qərəzli məqalələrinə kəskin cavablar yazırdı. 1905-ci ilin yazında Əhməd bəy Qafqaz müsəlmanlarının nümayəndəsi kimi onların hüquqi məsələlərinin qanunvericilik yolu ilə həll edilməsi məqsədilə tərtib olunmuş ərz-halı ali hakimiyyət

orqanlarına çatdırmaq üçün Peterburqa gedir. Bu zaman o, paytaxt və Avropa mətbuatında ermənilər və onların havadarları tərəfindən yayılan şayiələrdən, hadisələrin bütün günahını müsəlmanların, xüsusən onların din xadimlərinin və ziyalılarının üzərinə atan böhtançı yazılardan, azərbaycanlılara qarşı aparılan mütəşəkkil təbliğat kampaniyasından dəhşətə gəlmişdi. Buna cavab olaraq onun "Sankt-Peterburqskiye vedomosti" qəzetinin 1905-ci il 21 və 22 aprel tarixli saylarında "Bakı hadisələri haqqında həqiqət" adlı məqaləsi çap olunmuşdu və həmin məqalə çox böyük əks-səda doğurmuşdu (12, 21- 22 aprel 1905).

Məqalədə Əhməd bəy yazırdı ki, o, erməni tərəfinin hər cür diskussiyalara son qoyacağı barədə verdiyi vədlərin səmimiliyinə inanaraq, bu mövzuda daha danışmayacağına söz vermişdi. Onun Bakıda heç ağlına da gəlməzdi ki, burada belə bir vəziyyətlə üzləşəcək. O yazırdı: "Bakı qırğını ətrafında təşkil olunmuş təbliğat bütün gözlənilən hədləri aşıb keçmişdir. Yalnız bizim rus mətbuatı deyil, əcnəbi mətbuat da hər gün ən qərəzli, ən kobud və misli-bərabəri görünməmiş məqalə və xəbərlərlə, "işıqlandıran" və "aydınlaşdıran" yazılarla doludur Qanlı Bakı günlərinin bir neçə yüz bədbəxt qurbanının çəkdikləri əzablar və ölümləri haqqında deyilənləri cürbəcür şəkillərə salıb şitini çıxarırlar. Təbliğata rəhbərlik edən bacarıqlı əllər bütün vasitələrdən istifadə edir və nə yolla olursa olsun, öz çirkin məqsədlərinə çatmağa çalışırlar.

Bu məqsəd nədən ibarətdir? Onun iki tərəfi vardır.

Birincisi, bədbəxt hadisə ilə bağlı bütün məsuliyyəti yerli hökumətin üstünə yıxmaq, ikincisi isə guya qara camaatın ilk çağırışı ilə dərhal günahsız adamların üstünə atılıb onları öldürməyə, qarət etməyə və evlərini yandırmağa hazır olan yerli müsəlmanları başkəsənlər və soyğunçular kimi qələmə verməkdir." (12, 21 aprel 1905; 2, s. 339).

Sözünə davam edən Əhməd bəy həyəcan və əsəbiliklə yazırdı: "Hələ bu harasıdır? Ustalıqla təşkil olunmuş qəzet təşviqatı onu da müəyyənləşdirməyə dəfələrlə cəhd göstərmişdir ki, polislə əlbir olub qırğın törədənlər yalnız şəhərin başıpozuq ünsürləri – müsəlman camaatı arasında təsadüf olunan xuliqanlar, avaralar yox, həm də müsəlmanların ən şüurlu və mədəni qüvvələri olmuşdur"( 2, s. 339).

Həmin dövrdə Əhməd bəy çox böyük cəsarətlə, həm də məhz paytaxt mətbuatının səhifələrində bütöv bir ölkəyə, onun mətbuatına, ermənilərə və onların havadarları olan Avropa dövlətlərinə qarşı təkbaşına mübarizə aparırdı desək, yəqin ki, səhv etmərik.

Əhməd bəy yazırdı: "Qanlı Bakı hadisələrinin şahidi, həm hadisələrdən əvvəlki, həm də sonrakı vəziyyətlə yaxşı tanış olan bir şəxs kimi biz tam qətiyyətlə təsdiq edə bilərik ki, müsəlmanların Bakı qırğınındakı rolu ilə bağlı bütün bu qəzet hay-küyü yalnız ağ yalan üzərində qurulmuşdur."

Bundan sonra müəllif hadisələrin mahiyyətini və onları müşayiət edən səbəbləri açıqlayırdı. Ə.Ağaoğli yazırdı: " Heç kəsə sirr deyil ki, lap son zamanlara qədər Qafqaz hakim dairələri hər işdə erməniləri müdafiə edir və ruhlandırırdı. Ermənilər isə ağıllı və əlli-ayaqlı bir millət kimi özlərinin bu müstəsna vəziyyətlərindən bacarıqla yararlanırdılar. Onlar məktəblər açır, maarif və xeyriyyə cəmiyyətləri qurur, kitabxanalar təsis edir və bütün bunların sayəsində həm zehni, həm də iqtisadi cəhətdən sürətlə qabağa gedirdilər. Nəticədə sayca nisbətən az olsalar da, onlar diyarda üstün rol oynamağa başladılar. Müsəlmanlar isə böyük əksəriyyət təşkil etmələrinə baxmayaraq, hakim dairələrin inamsızlıq və şübhələri nəticəsində ətalət, cəhalət, zehni və iqtisadi yoxsulluq içərisində yaşamaqda davam edirdilər. Öz-özlüyündə də aydındır ki, müsəlmanların sayları ilə düz gəlməyən belə bir uyğunsuz vəziyyətləri əhalinin bu iki hissəsi arasında labüd ixtilaflar törədirdi. Halbuki diyarın Rusiyaya birləşdirilməsinin elə ilk günlərindən də çox asanlıqla görmək olardı ki, müsəlmanlar say və qabiliyyətləri nəticəsində bu birləşmədə üstün rol oynamalıdırlar" (2, s. 341).

Rusiya ictimaiyyətini Qafqaz müsəlmanları ilə tanış etmək məqsədilə müsəlmanlara xas olan xüsusiyyətlərdən bəhs edən Əhməd bəy yazırdı: "Qafqaz müsəlmanları ağıllı, gözüaçıq və əməksevərdirlər. Onlarda qüdrətli, qənaətcil və işləməyi bacaran üçüncü silk vardır. Məlum mədəni inkişaf da onlara iqtisadi sərbəstlik hüququ verir. Lakin heyhat! Müsəlmanların mədəniyyət yoluna qədəm qoyduqları ilk günlərdən başlayaraq ermənilər qonşularını lazımi rəğbətlə qarşılamadılar. Özlərinin xristian dininə mənsubluqları və diyarda yüksək vəzifələr tutmaları sayəsində onlar əslində

qanun təfsirçilərinə çevrildilər və qanunçuluqdakı etiqadla bağlı qeyri-dəqiq və kifayət qədər aydınlaşdırılmamış bütün sərfəli olmayan məqamları müsəlmanların əleyhinə yönəltdilər" (2, s. 341).

Ə.Ağaoğlunun bu məqaləsi çox böyük əks-səda doğurmuş, onun inandırıcı təkzibləri ictimaiyyəti sanki ayıltmış, hətta Peterburq qəzetlərindən biri nəşr etdirdiyi materialların qeyri-dəqiqliyinə görə üzr istəmişdi.

1905-ci ilin mayında Ə.Ağaoğlu yenidən Peterburqda olarkən öz əleyhdarlarının bir neçəsinə cavab olaraq ikinci bir məqalə də çap etdirmişdi. O daşnakların cinayətkar fəaliyyəti haqqında bir sıra yeni faktlar gətirib, çar hakimiyyəti orqanlarının onları himayə etdiklərini yenə də cəsarətlə diqqətə çatdırırdı.

Əhməd bəy ermənilərlə azərbaycanlılar arasında milli toqquşmaların kəskinləşməsi ilə əlaqədar Qafqaz canişini İ.İ.Vorontsov-Daşkovun 1906-cı ilin fevralında Tiflisdə çağırdığı "barışdırıcı" qurultayda da iştirak etmiş, Azərbaycan tərəfinin proqramını bəyan etmiş, çar hakimiyyəti orqanlarının və ermənilərin məkrli siyasətini tam çılpaqlığı ilə ifşa etmişdi. Erməni terrorunun əsasən Daşnaksütyun partiyasının əli ilə həyata keçirildiyini, daşnakların isə "Rusiyanın böyük şəxslərinin, generallarının, hətta Qafqaz canişini həzrətlərinin fikir və əqidələrinə qulluq etdiyini" açıqlayan Ə.Ağaoğlu, hökumətdən bu partiyaya qarşı tədbir görməyi tələb etmişdi (11). Əhməd bəyin inandırıcı, məntiqli və ehtiraslı çıxışından sonra silahlı partiyaların fəaliyyətinin qadağan edilməsi haqqında qətnamə müzakirəyə qoyulmuş və sənəd qəbul olunmuşdu (9, s. 34-35). Lakin sonradan həmin qərarın həyata keçirilməsi üçün heç bir əməli iş görülmədi.

Tiflisdəki "barışdırıcı" qurultayın siyasi nəticələrindən biri o oldu ki, Azərbaycan tərəfi Daşnaksütyun və onun silahlı birləşmələrinə qarşı öz siyasi partiyasını və hərbi drujinalarını yaratmağın zəruri olduğunu başa düşdü, cünki qurultaydan sonra da Şuşada, bütün Qarabağda, Naxçıvanda, İrəvanda ermənilərin əli ilə qanlı hadisələr yenidən vüsət aldı, görünməmiş vəhşiliklər törədildi.

1905-ci ilin sonlarına qədər ictimai fikirdə daha çox "söz" adamı kimi tanınan Ə.Ağaoğlu belə bir çətin şəraitdə artıq əməli işə başlamağın, xalqa zülm edənlərə qarşı, irticaya qarşı onu silahlandırmağın və mübarizəsini istiqamətləndirməyin zəruriliyini başa düşür. Beləliklə, Ə.Ağaoğlunun təşəbbüsü, Kərim bəy Mehmandarovun və Ələkbər bəy Rəfibəyovun iştirakı ilə "Difai" partiyası yaradılır. Partiyanın Mərkəzi Komitəsi Bakıda yerləşirdi. Partiyanın şöbələri Azərbaycanın, demək olar, bütün şəhərlərində və qəzalarında, Cənubi Qafqazda və hətta Vladiqafqazda da yaradılmışdı. Ə.Ağaoğlu qəzalarda partiyanın şöbələrinin yaradılmasında şəxsən iştirak edirdi, Qarabağın hər yerini dolaşaraq, "bütün müsəlmanları partiyanın ətrafında birləşməyə" çağırırdı. Partiyanın Ə.Ağaoğlu tərəfindən yazılmış proqram bəyannaməsi onun redaktoru olduğu "İrşad" qəzetində nəşr olunmuşdu (7, № 213, 1906).

Özünü "Qafqaz Ümummüsəlman müdafiə komitəsi" adlandıran "Difai"nin proqramında xalqı düşdüyü ağır vəziyyətdən qurtarmaq üçün iki yol təklif olunurdu: maariflənmək və qüvvətlənmək.

Partiya öz məqsədlərinə nail olmaq üçün mübarizə metodlarından biri kimi Azərbaycan xalqının düşmənlərinə qarşı terrorçuluğu da nəzərdə tuturdu. Partiyanın proqram müddəaları onun simvolikasında da öz əksini tapmışdı. Partiyanın möhürü üzərində çarpazlaşmış qılıncın üstündə ay-ulduz şəkli çəkilmis və "milli-döyüş partiyası "Difai" sözləri yazılmışdı. Mövcud olduğu dövrdə "Difai" geniş fəaliyyət göstərmiş, xalqın düşmənlərinə, lazım gəldikdə, divan tutmuşdu (4). Təsadüfi deyil ki, həm hökumət dairələri, həm də ermənilər bu partiyanın fəaliyyətindən möhkəm narahat olur, onun rəhbərlərinin, ilk növbədə isə Ə.Ağaoğlunun hər vasitə ilə aradan götürülməsinə çalışırdılar. Partiyanın və onun üzvlərinin üzə çıxarılması üçün tədbirlər görülür, müxtəlif fitnə-fəsadlar törədilirdi. Təqiblərə və təzyiqlərə daha çox məruz qalan isə Ə.Ağaoğlu olmuş və bunların nəticəsində o, 1909-cu ildə Türkiyəyə mühacirət etməyə məcbur olmuşdu.

Ə.Ağaoğlu Türkiyədəki fəaliyyəti dövründə də erməni millətçilərinin yalan və böhtanlarına məruz qalmışdı. 1919-cu ildə Azərbaycan nümayəndə heyətinin tərkibində Paris sülh konfransına gedərkən, I Dünya müharibəsi illərində erməni soyqırımlarını öz yazıları və məqalələrində təşviq etməsi bəhanəsi ilə ingilislər tərəfindən həbs edilərək 26 ay Malta sürgünündə qalmışdı. Sonrakı illərdə də Ə.Ağaoğlu türk-müsəlman xalqlarının haqq və hüquqlarının qorunması, onların tərəqqisi, azadlığı və xoşbəxtliyi yolunda yorulmaq bilmədən mübarizə aparmış, bu yolda öz bilik və bacarığını əsirgəməmişdi.

1939-cu ildə dünyasını dəyişən Ə.Ağaoğlunun adı, keçmiş fəaliyyəti və qoyub getdiyi zəngin irs hələ bu gün də erməni millətçılərini narahat edir və onlar Əhməd bəyə olan nifrətlərini öz sərsəm yazılarında əks etdirirlər. 1986-cı ildə Yerevanda nəşr olunmuş C.Kirakosyanın "Gənc türklər tarixin məhkəməsi qarşısında" əsərində Şuşalı Əhməd bəy erməni qırğınlarının əsas təşkilatçılarından biri kimi təqdim olunur (14).

*Nəticə.* Beləliklə, XX əsrin əvvəllərindən etibarən Əhməd bəy Ağaoğlunun erməni millətçiliyinə qarşı başladığı mübarizə bu gün də davam edir. Özlərinə yalançı tarix yaradan daşnakların II Qarabağ müharibəsindəki biabırçı məğlubiyyəti yəqin ki, onlara dərs olacaq. Möhtərəm Prezidentimiz və Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, onlar bir daha Azərbaycana tərəf baxmağa belə cəsarət etməyəcəklər.

## ƏDƏBİYYAT

1. "Azərbaycan" qəzeti", 28 dekabr 1990-cı il.
2. Ağaoğlu Əhməd bəy. Seçilmiş əsərləri. Bakı, Şərq-Qərb, 2007, 390 s.
3. Багирова И.С. Политические партии и организации Азербайджана в начале XX века. Баку, "Elm",1997, 335 s.
4. Əzizov E. Difai. Bakı, CBS Polygraphic Production, 2009, 360 s.
5. Əhməd bəy Ağaoğlunun anadan olmasının 150 illiyinə həsr edilmiş Beynəlxalq Simpoziumun materialları. Bakı, 2-3 oktyabr 2019, 484 s.
6. Quliyev Vilayət. Tarixdə iz qoyan şəxsiyyətlər. Bakı, Ozan, 2000, 582 s.
7. "İrşad" qəzeti, 1905-1908.
8. "Kaspi" qəzeti, 1881-1919.
9. Маевский В.Ф. Армяно-татарская смута на Кавказе, как один из фазисов армянского вопроса. Тифлис, 1915; Баку, Шур, 1993, 48 с.
10. Mirəhmədov Ə. Əhməd bəy Ağaoğlu. Bakı, Ərgünəş, 2014, 264 s.
11. Ordubadi M.S. Qanlı illər. Bakı, 1911. Bakı, Qafqaz, 2007, 184 s.
12. "Санкт-Петербургские ведомости", 21-22 апреля 1905 год.
13. Səidə Əli qızı. Türk dünyasının mübariz mütəfəkkiri. Bakı, "Elm və təhsil", 2019, 290 s.
14. Джон Кирокосян. Младотурки перед судом истории. Ереван, Издательство «Айастан», 1986, 480 с. - http://armenianhouse.org/kirakosyan/youngturks-ru/contents.html [Müraciət tarixi: 10 dekabr 2020].
15. Əhməd bəy Ağaoğlunun 150 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı / Azərbaycan Respublikası Prezidentinin rəsmi səhifəsi, 10 aprel 2019-cu il.- https://president.az/articles/32689 [Müraciət tarixi: 10 dekabr 2020].

**SAIDA ALI QIZI**
***Associate Professor of Baku State University***

## "GARABAKH IS AZERBAIJAN !"
## THE STRUGGLE OF AKHMED AGAOGLU AGAINST ARMENIAN NATIONALISM

The article is devoted to the multifaceted activity of a prominent public figure and publicist Ahmed bey Agayev against Armenian nationalists, who at the beginning of the 20th century conducted pogroms, murders and genocide against the Turkic-Muslim population of Azerbaijan.

*Keywords:* "Karabakh is Azerbaijan!", victory, Supreme Commander-Chief, A.Agaoglu, Armenian nationalism, fight, journalism, socio-politikal figure, political party, monument.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 dekabr 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2020-ci il.*
*Məqalə Redaksiya heyətinin qərarı ilə çapa məsləhət görülüb.*

QARABAĞ AZƏRBAYCANDIR!

**UOT 94 (479.24)**

**SƏNUBƏR İSMAYILOVA**
*Bakı Dövlət Universitetinin dosenti*
**Email: sanubarismailova@bsu.edu.az**

# ŞUŞA – QARABAĞIN DÖYÜNƏN ÜRƏYİ

*Azərbaycan xalqının tarixində ən aktual mövzulardan biri Qarabağ tarixi və mədəniyyəti problemidir. Elmi məqalədə 28 il əsarət altında qalan Qarabağ, Qarabağın döyunən ürəyi olan Şuşa şəhərinin nəhayət, erməni işğalından azad edilməsi öz əksini tapmışdır. Bununla əlaqədar məqalədə Şuşa şəhərinin qısa tarixi və mədəniyyəti, daha doğrusu şəhərin əsasının qoyulması, tarixi mərhələləri, tarixi və memarlıq abidələri, ədəbiyyatı, poeziyası, musiqisi mühüm faktlar əsasında qismən işıqlandırılmışdır. Azərbaycanda mədəniyyətin əsas beşiyi hesab edilən Şuşa şəhəri Azərbaycan xalqının milli sərvətidir.*

*Açar sözlər*: Qarabağ, tarix, mədəniyyət, tarixi abidələr, ədəbiyyat.

QARABAĞ AZƏRBAYCANDIR!
*Şuşa şəhərlərin baş şəhəriydi,*
*Yaddaş şəhəriydi, daş şəhəriydi,*
*Günəş güllərini öpə bilirdi,*
*Ulduzlar göz yaşı səpə bilirdi,*
*O Qızıl qayası səs qülləsiydi,*
*Allahın sonuncu möcuzəsiydi.*
(Ə.Mahmud)

*Giriş*. Bu gözəl diyar, Şuşa şəhəri Azərbaycan mədəniyyətinin mərkəzlərindən biridir. Bu şəhər muəyyən bir dövr ərzində bir çox Azərbaycan ziyalıları-şairlər, yazıçılar və xüsusən musiqiçilərin, bəstəkarların, müğənnilərin ocağı olmuşdur. Əfsuslar olsun ki, ürək ağrısı ilə qeyd etmək lazımdır ki, 1992-ci ilin 8 mayında Qarabağ cəbhəsinin komandanı Arkadi Ter-Tadevosyan Şuşa şəhərinə hucum üçün əmr imzalamışdı. Əslində isə ermənilərin Şuşa üzərinə hücumlarının icrasına artıq aprel ayının 27-dən başlanmışdı. Uzun sürən təcavüzkar erməni daşnaklarının həmlələrindən sonra Şuşanın mühasirəsinə son qoyuldu və ermeniler qala divarları üzərindən şəhərə daxil olmağa başladılar. Nəhayət, may ayının 9-da gecə saat 4-də şəhərin boş olduğuna əmin olan ermənilər Şuşa şəhəri üzərindəki qələbələrini bayram etməyə başladılar. Belə bir sual meydana çıxır, nədən şəhər boşaldılmışdı? Yəqin ki, xainlər tarixdə öz cavablarını almış və öz xalqı arasında bu təhqirli adı ləkəli ömürlərinin sonuna qədər daşıyacaqlar. Lakin bu işğal ermənilərə o qədər də asan başa gəlməyib. 1800 erməni əsgərinə 500 azərbaycanlı əsgər müqavimət göstərmişdir. Azlıqda olan azərbaycan əsgərləri isə kömək gözləyirdilər. 10 saatdan artıq davam edən döyüşdə 1860 azərbaycanlı yaralandı, 480-i həlak oldu, 22 min nəfər öz yurdundan didərgin düşdü, 68 soydaşımız əsir götürüldü (5).

*Şuşanın işğalı və tarixi abidələrimiz*. Şuşanın işgalı nəticəsində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə təcavüzkarlar 600-ə yaxın tarixi memarlıq abidələrini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa məscidini, Aşağı Gövhər ağa məscidini, Xurşudbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evini, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən Şuşa Tarix Muzeyi, Azərbaycan Xalça Muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qarabağ dövlət muzeyi, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətiəri fabrikini dağıtmış, buradakı nadir sənət incilərini talamış və məhv etmişlər. Şəhərin Tarix Muzeyinin 5 minədək əşyası, Azərbaycan xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi Şuşa filialı, Dövlət Qarabağ Tarix Muzeyinin 1000-dək əşyası, Azərbaycan musiqisinin banisi, görkəmli bəstəkar Üzeyir Hacıbəyovun (300-dən çox əşya), dahi müğənni Bülbülün (400-dək əşya), musiqiçi və rəssam Mir Möhsün Nəvvabın (100-dən çox əşya) xatirə muzeylərinin fondları qarət edilmişdir (2). Nəhayət, 28 il həsrətdən sonra doğma Qarabağımızın işğal

altında olan torpaqları, həmçinin 8 noyabr 2020-ci ildə mədəniyyətin beşiyi, Qarabağın ürəyi olan Şuşa şəhəri işğaldan azad olundu. Şanlı Ordumuzun, igid əsgərlərimizin və Ali Baş Komandanımız cənab İlham Heydər oglu Əliyevin rəhbərliyi altında bu qələbələr tarixə qızıl hərflərlə yazıldı, Azərbaycanın yeni tarixi dövrü başlandı. "Şuşa Azərbaycanın əzəli torpağıdır. Onun bütün toponimləri, tarixi Azərbaycanla baglıdır. Ermənilərin oraya gəlməsi ancaq XIX əsrin əvvəllərində başlamışdır" (4). Elmi məqalənin əsas məqsədi Şuşa şəhərinin keçmiş tarixini, mədəniyyətini qismən işıqlandırmaqdan ibarətdir.

Tarixə nəzər salaq. Şuşa adının mənşəyi haqqında müxtəlif fikirlər vardır. Eramızın II əsrində yaşamış qədim Roma tarixçisi Tasit Korneli Qafqaz ərazisində dondar türk tayfasına məxsus Sosu (latın dilində "ş" səsi yoxdur) şəhərinin olması haqqında məlumat vermişdir. Xalq əfsanəsinə görə, bu yerlərin havası büllur kimi saf və şəfalı olduğu üçün onu "Şuşa" (şüşə) adlandırmışlar. Bəzi mənbələrə görə, "Şuşa" sözü Azərbaycanda skiflərə məxsus olduğu ehtimal olunur. Bəzən "Şişə" (şiş qayalarla əhatə olunduğuna görə) şəklində də işlədilir. Bəzi mənbələrdə isə Şuşa adının qədim türk sərkərdəsi Şunun (e.ə.344-334) Makedoniyalı İskəndərlə vuruşan şəxsin tikdirdiyi "Su" qalası ilə eyniliyi, Şumer (şu+er) adı ilə səsləşməsi tədqiq olunur (7, 32).

1747-ci ildə Nadir şah Əfşarın ölümündın sonra keçmiş Qarabağ bəylərbəyliyinin ərazisində iki müstəqil xanlıq – Gəncə və Qarabağ xanlıqları yarandı. Nadir şahın sarayında eşikağası vəzifəsini tutmuş Pənahəli xan 1738-ci ildə Qarabağa qayıtmış, 1748-ci ildə müstəqil Qarabağ xanlıgının əsasını qoymuşdur. Şuşa qalası uzun illər boyu Azərbaycanın Qarabağ xanlığının paytaxtı olmuşdur.

İngilis səyyah və alimləri C.Morye və R.Burter Şuşanın qədimliyi ilə bağlı dəyərli mülahizələr söyləmişlər. C.Moryenin fikrincə, Şuşa hələ eradan əvvəl insan məskəni olmuşdur. R.Burter isə yazır ki, "Şuşada Qafqazın başqa yerlərində olmayan Avropa şəhərlərindəki kimi daş binalar, daş döşəməli geniş kuçələr, qədim Roma hamamlarını xatırladan gözəl hamam qalıqları vardır (11, 92).

Feodal ara müharibələri dövründə Şuşa bir neçə dəfə mühasirə hücumlarından uğurla çıxa bilmişdir. Qarabağ hökmdarı Pənahəli xan ərazini düşmənlərdən qorumaq məqsədilə xanlığın ən strateji mövqelərində müdafiə qurğularının tikintisinə başlamışdır. 1748-ci ildə Bayat qalası, 1752-ci ildə isə Şahbulaq qalası inşa edilmişdir. Lakin, Pənahəli xan müharibələr dövründə əhalinin sığınması üçün daha etibarlı, üç tərəfi keçilməz sıldırım qayalarla əhatə olunmuş əlçatmaz dağ yaylasında yeni bir qala ucaltmağı qərara aldı. Yeni qala ilk illərdə öz banisinin adı ilə "Pənahabad", sonralar isə "Şuşa" adlandırılmağa başlandı.

Pənahəli xanın vəfatından sonra onun oğlu, Qarabağın ikinci hakimi İbrahimxəlil xan (1721-1806) dövrünün bacarıqlı və siyasətcil dövlət xadimlərindən olmuşdur. Onun hakimiyyəti illərində xanlıq daha da güclənmiş və inkişaf etmişdir. Azərbaycan şairi və siyasi xadimi Molla Pənah Vaqif 1750-ci ildə bura köçüb saray şairi və İbrahimxəlil xanın baş vəziri oldu.

1805-ci ilin mayında İbrahimxəlil xan Rusiya ilə kapitulyasiyanın şərtləri barədə danışıqlara başladı. O öz hakimiyyətini saxladı, lakin digər dövlətlərlə münasibətlərə son qoymağı və hər il Rusiyaya səkkiz min qızıl sikkə xərac verməyi öhdəsinə götürdü. 1813 və 1828-ci illərdə bağlanmış Gülüstan və Türkmənçay sülh müqavilələri Rusiyanın Qarabağ xanlığı üzərindəki nəzarətini gücləndirdi. Sonuncu xan – Mehdiqulu xan Cavanşir 1822-ci ildə İrana qaçmağa məcbur oldu.

Şuşa Rusiya imperatoru I Nikolay tərəfindən 10 aprel 1840-cı ildə təsdiq olunmuş inzibati islahat haqqında "Zaqafqaziya ölkəsinin idaraçiliyi üçün təsisat" adlı qanun əsasında yaradılan Kaspi vilayətinin tərkibinə daxil olmuşdur. XİX əsrin birinci yarısında Şuşaya şəhər statusu verilmiş və Rusiya imperiyasının "şəhər əsasnaməsi"nin (1785) 28-29 maddəsinə əsasən, 1843-cü il mayın 21-də Şuşa şəhərinin gerbi təsdiq olunmuşdur. Gerbin 2-yə bölünmüş qalxanvari lövhəsinin yarıdan yuxarı hissəsi Kaspi vilayətinin gerbindəki təsvirlərin eyni idi: 1-ci hissədə pələng, 2-ci hissədə yerdən çıxıb alovlanan qaz dilimləri təsvir olunmuşdu. Gerbin yarıdan aşağı hissəsindəki yaşıl sahədə yəhərli qızıl rəngli at təsvir olunmuşdu ki, bu da həmin ərazidə yerli cins at növlərinin olmasından və atçılığın inkişafından xəbər verirdi (12).

Çar hökumətinin himayədarlığı ilə Şuşada ermənilər azərbaycanlıları sıxışdırmağa başladılar. 1905-1906-cı illərdə Cənubi Qafqazda ən güclü ermənilərin yerli türk-müsəlman əhalisinə qarşı təcavüzü Daşnaksütün partiyasının Tiflis, Bakı şəhərlərindən sonra güclü təşkilatı olan Şuşa şəhərində olmuşdur.

1905, 1920 və 1922-ci illərdə Şuşa üç dəfə tamamilə yandırılmışdı, lakin şuşalılar qəhrəmanlıqla müdafiə olunaraq, böyük itgilər hesabına şəhəri ermənilərə təhvil vermədilər. Şəhərin müdafiəsində Şuşanın Axundu Hacı Molla Şükür Məhərrəmzadənin böyük xidmətləri olmuşdur (13).

1920-1937-ci illərdə Şuşanın yüzlərlə azərbaycanlı sakini ermənilərin fitvası ilə həbs etdirilmiş, güllələnmiş və təqiblərə məruz qalmışdı.

Sovet hakimiyyəti dövründə Şuşa şəhərinin inzibati statusu bir neçə dəfə dəyişikliyə məruz qaldı. PK(b)P MK Qafqaz burosu plenumunun 1921-ci il 5 iyul tarixli qərarı ilə Şuşa yeni yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi kimi müəyyənləşdirildi. Bununla da Şuşa 170 ildən artıq yerinə yetirdiyi missiyadan - bütün Qarabağ mərkəzi statusundan məhrum edildi.

Şuşa şəhərinə vurulmuş ən böyük zərbələrdən biri onun qısa müddətə də olsa, rayon mərkəzi statusundan mərhum edilməsi oldu. 1963-cu il yanvarın 4-də Şuşa rayonu ləğv edilərək Stepanakert rayonunun tərkibinə qatıldı. Yalnız Sovet İKP-nın katibi Nikita Xruşşovun hakimiyyətdən uzaqlaşdırılmasından sonra 1965-ci il yanvarın 6-da Şuşanın rayon statusu yenidən bərpa edildi.

1977-ci ildə Azərbaycan hökuməti iki tarixi qərar qəbul etmişdi. Həmin qərarların yerinə yetirilməsi Şuşanın sosial və mədəni inkişafında böyük əhəmiyyət kəsb etmişdir.

13 fevral 1988-ci ildə ermənilər Xankəndiyə hücumlarından birini edəndə azərbaycanlıların çoxu Şuşaya pənah gətirdi.

Nəhayət, əvvəldə qeyd etdiyimiz kimi, 1992-ci il 8 Mayda yüzlərlə erməni əsgəri tanklarla və vertolyotlarla Şuşa istehkamına hücum etdilər və 9 Mayda şəhəri tutmağa və azərbaycanlıları geri çəkilməyə məcbur etməyə nail oldular. Qarabağ müharibəsindən sonra, Şuşada tarixi abidələrin bərpası adı altında abidələrin erməniləşdirilməsi və saxtalaşdırılması prosesi getmişdir. Lakin, acgöz düşmən öz arzularına qalib gələ bilmədilər.

Şuşa şəhərinin 135 tarixi abidələri mövcuddur. Şuşada tarixi abidələr sırasında özünə layiqli yer alan Daş dövrünə aid Şuşa mağarası şəhərin yaxınlığında, I Zarıslı (Daşaltı) çayının dərəsində dəniz səviyyəsindən 1400 metr yuksəklikdə yerləşir. Bura daş dövründə yaşamış insanların məskəni olmuşdur.

Qaraböyuk xanım sarayı və ya Qara Böyük Xanım bürcü-Şuşa şəhərinin tarixi mərkəzində yerləşən tarixi saraydır. Bu qəsrin giriş qapısı üzərindəki kitabədə onun hicri 1182-ci ildə (1768) inşa edilməsi göstərilmişdir. Mənbələrdə Şuşa qalası ərazisində bir neçə sarayın olması haqqında məlumat verilsə də, onlardan yalnız ikisi, Qaraböyük xanım sarayı və Pənahəli xan sarayı dövrümüzə çatmışdır.

Hacı Quluların mülkü-Şuşa şəhərində yerləşən tarix-memarlıq abidəsidir. Üç mərtəbəli saray tipli evin inşasına 1849-cu ildə ikinci Gildiya taciri Qulu Məhəmmədəli oğlunun sifarişi əsasında başlanılmışdır. Hacı Qulu sarayı kimi taninan bu mülk, öz memarlıq üslubu və milli koloriti ilə Şuşada hər kəsdə heyrət doğururdu.Sarayın 46 otağı və iki böyük qonaq zalı var idi.

Xan qızı Natəvanın evi - Şuşa şəhərində yerləşən XVIII əsrə aid tarix-memarlıq abidəsidir. Binanın birinci mərtəbəsində xidməti xarakterli və xidmətçilərin yaşaması üçün nəzərdə tutulmuş yeddi otaq yerləşir. Onlardan ortada yerləşən qapı dəhlizə, yanlarda yerləşən digər iki qapı isə yan otaqlara aparır. Arran memarlıq məktəbi üslubunda memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən inşa edilmişdir.

İbrahimxəlil xan sarayı və ya İbrahimxəlil xanın qəsri - Şuşa şəhərinin cənub-şərq hissəsində, Daşaltı kəndi yaxınlığında yerləşən tarixi saraydır. Bəzi mənbələrdə saray, həm də Qarabağ xan sarayı adlandırılır ki, bu da İbrahimxəlil xanın hakimiyyət dövründə sarayın xan iqamətgahı olması ilə əlaqədardır. Sarayın əsası 1751-1753-cü illərdə qoyulmuşdur.

Culfalar məscidi - XIX əsrdə Şuşanın Culfalar məhəlləsində tikdirilmişdir. Memarı Kərbəlayi Səfixan Qarabağlıdır. İki mərtəbəlidir. Arran memarlıq məktəbi üslubunda inşa edilmişdir.

Xoca Mərcanlı bulağı - Şuşanın Xoca Mərcanlı məhəlləsində Xoca Mərcanlı məscidinin yanında yerləşir. Bulaq XIX əsrə aiddir. Ermənistan Şuşanı işğal etdikdən sonra məhv edilmişdir. Hal-hazırda xarabalıqları qalmaqdadır.

Cəncə qapısı və ya Çiləbörd qapısı-Şuşa qalasının üç əsas qapısından biri olmaqla qalanın şimal tərəfində yerləşir. Qalanın digər iki qapısı isə İrəvan və Ağoğlan qapılarıdır. Pənahəli xan tərəfindən XVIII əsrdə inşa edilmişdir (3; 8).

Qeyd etmək lazımdır ki, tarixi abidələrin hamısını kiçik məqalədə işıqlandırmaq mümkün deyil. Ümumiyyətlə, şəhərdə 549 qədim bina, ümumi uzunluğu 1203 metr daş döşənmiş küçələr, 17 məhəllə bulağı, 17 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, 2 qəsr və qala divarları mövcud idi. O cümlədən, 72 mühüm sənət və tarixi abidələri, dövlət xadimlərinin və başqa tanınmış şəxslərin evləri olmuşdu. Şuşanın abidələr şəhəri olduğunu söyləyən ümummilli liderimiz Heydər Əliyev onun Azərbaycan üçün müstəsna əhəmiyyətini yuksək qiymətləndirərək bildirmişdir ki, "Şuşa bütün azərbaycanlılar üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir" (1).

XIX əsrin sonu və XX əsrin əvvəllərində Şuşa Qafqazın musiqi mərkəzinə çevrilib. Şuşa "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin Konservatoriyası" adlandırılıb. Şəhərdə sovet dövründə tar, kamança, ud, nağara və digər musiqi alətləri istehsal edən yeganə Şərq Milli musiqi alətləri fabriki fəaliyyət göstərib.

İlk yazılı ədəbi abidəmiz olan "Kitabi-Dədə Qorqud" dastanında musiqi ilə bağlı bir sıra parçaların mövcudluğu,dastan boyunca müxtəlif musiqi alətlərinin adlarının çəkilməsi Azərbaycan musiqisinin qədimliyinə əyani sübutdur.

Artıq XIX əsrin ikinci yarısında Şuşada 95 şair, 22 musiqişünas, 38 xanəndə, 19 xəttat, 16 nəqqaş, 12 nüsxəbənd, 5 astronom, 18 memar, 16 həkim, 42-yə qədər müəllim olmuşdur. Bu böyuk ziyalı təbəqəsi, Şuşa şəhərini mədəniyyət mərkəzinə çevirməkdə, burada elmi və mədəniyyəti inkişaf etdirməkdə çox böyük rol oynamışlar (14).

Azərbaycanın Üzeyir Hacıbəyov, Bülbül, Xan Şuşinski, Firudin bəy Köçərli, Əbdürrəhim bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Xurşudbanu Natəvan, Həmidə xanım Cavanşir, Əhməd bəy Ağaoğlu kimi məşhur ziyalıları, sənətçiləri əslən Şuşadandırlar.

Hələ XIX əsrdə Şuşa şəhəri Qafqazın, Yaxın Şərqin və Orta Asiyanın müxtəlif guşələrindən gəlmiş şair və yazıçıların, musiqiçilərin, teatr xadimlərinin toplaşdığı şer, sənət məkanına çevrilmişdir. Qarabağda teatr sənətinin kökləri xalqın fəaliyyəti, məişəti, şənlik və toy ənənələri, həmçinin dünyagörüşü ilə bağlıdır. Qarabağ xalq teatrı realist özəllik daşımış və əməkçi təbəqələrlə bağlı olmuşdur. XIX əsrdən başlayaraq əvvəl Şuşada, sonra isə Ağdamda professional teatr yaranmış və çox səmərəli fəaliyyət göstərmişdir. Mərasim, ayin və oyunlardakı tamaşa elementləri müstəqil xalq teatrının yaranmasında mühüm rol oynamışdır. Şuşada ilk teatr tamaşası 1874-cü ildə M.F.Axundovun "Hacı Qara" komediyası göstərilib (10).

Məhz həmin vaxtlar "Qafqazın Konservatoriyası" adını almış Şuşa vokal məktəbi kimi Yaxın və Orta Şərqdə məşhur olmuşdur. Tədqiqatçılar çox doğru olaraq qeyd edirlər ki, "İtaliya vokal məktəbi" Avropa musiqi mədəniyyəti tarixində hansı mövqeyi tutursa, "Şuşa vokal məktəbi" də Şərq musiqi mədəniyyəti tarixində eyni mövqeyi tutur.

Şuşa Azərbaycanın musiqi tarixində əvəzsiz xanəndələr və ifaçılar yetirmişdir. Əli Əsgər (Sadıqcanın müəllimi), Sadıqcan (1846-1902), Məşədi Zeynal (1850-1918), Malıbəyli Həmid (1865-1922), Məşədi Cəmil Əmirov (1875-1928), qarmonçalan Kərbəlayi Lətif (1876-1944), mərsiyəxan xanəndə, qarmon çalan Abutalıb Yusifov (1884-1937) və b. Azərbaycan ifaçılığı tarixində özünəməxsus yer tutmuşdur. Şuşada ilk musiqi məktəbinin yaradılması XIX əsrin 70-ci illərində Xarrat Qulu və Molla İbrahimin adı ilə bağlıdır (14).

XX əsrdə Şuşada musiqi təhsilinin inkişaf etdirilməsi sahəsində də bir çox işlər görülmüşdür. 1932-ci ildə Bülbülün təşəbbüsü ilə şəhərdə ilk musiqi məktəbi fəaliyyətə başlayır. 1974-cü ildə yaranan Orta İxtisas Musiqi Məktəbi 1980-ci ildə Musiqi texnikumuna çevrilir. 1990-cı ildə daha bir musiqi məktəbi - Bülbülün adına Uşaq Musiqi Məktəbi təşkil olunur. Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının Şuşa filialı yaradılsa da, artıq get-gedə gərginləşməkdə olan Qarabağ problemi bu təhsil ocağının müvəqqəti olaraq Bakıda fəaliyyət göstərməsinə səbəb olur.

Orta və son orta əsrlər Qarabağ ədəbiyyatı haqqında danışdıqda Azərbaycan-türk mədəniyyətində, ədəbiyyatında bir sıra faktların ilkinliyi, ilk başlanğıcı, bünövrəsi etibarilə Qarabağ ədəbi mühiti ilə bağlı olduğunu müşahidə edirik. Yazılı ədəbiyyatda bir fakt kimi hələlik elmə məlum olan ilk Qarabağlı şairin adı VII əsrdə yaşayıb-yaratmış Davdağın adıdır. Onun bu günə gəlib çatan yeganə şeri Alban-Partav-Bərdə çarı Cavanşirin erməni keşişlərinin fətvası ilə qətlinə yazdığı və bizə tərcümədə gəlib çatmış ağı janrında kamil şer mətnidir (9).

Qarabağ xanlığı dönəmində ədəbi mühit daha çox İbrahimxəlil xanın hakimiyyəti dövründə inkişaf etmişdi. Aşıq Valeh Azərbaycanda tanınmış aşıqlardan idi. Onun haqqında “Valeh və Zərnigar” dastanı qoşulmuşdur.

Xalq ədəbiyyatı və aşıq poeziyası nəinki Molla Pənah Vaqif yaradıcılığına, eləcə də İbrahimxəlil xanın qızı Ağabəyim ağa, oğlu Əbülfət xan və nəvəsi Cəfərqulu ağanın yaradıcılığına da böyuk təsir etmişdi.

Ağabəyim ağa qabiliyyətli, bacarıqlı və gözəl olmaqla bərabər, həm də çox vətənpərvər bir qadın olmuşdur. Rusiya-İran münasibətlərinin barışıqla nəticələnməsi işində də onun rolu az olmamışdır. Rus çariçası Ağabəyim ağaya göndərdiyi məktubunda yazırdı: “Ey Bəyim, Siz öz müdrikliyinizlə, mərhəmətli şahın 2-ci Zöhrəsi, tale ulduğu oolmuşsunuz” (11, 92). Ağabəyim ağaya Qarabağı çox sevən, öz torpağının həsrəti ilə yaşayan, ermənilərin xəyanətinə nifrət edən bir ictimaiyyətçi də demək olar. Həyat yoldaşı Fətəli şah onun vətən həsrəti çəkməsinə çox üzülür və Şuşada bitən bütün gül-çiçəklərdən öz həyatində böyuk bağ saldırır, hətta bağbanı da öz sarayına dəvət edir. Bu gülüstanın adını da “Vətən bağı” qoyurlar, sanki o Qarabağın bir parçası idi. Lakin Ağabəyim ağa seyrə çıxarkən çox qəmlənir və üzüntüsünü belə ifadə edir:

“Vətən bağı” al-əlvandır,
Yox üstündə xarıbülbül.
Nədən hər yerin əlvandır,
Köksün altı sarı, bülbül.

Azərbaycan ədəbiyyatında satirik şerin təməlini qoyanlardan biri Şuşalı Qasım bəy Zakir olmuşdur (1784-1857).

Şuşanın yetişdirdiyi istedadlardan biri də İbrahimxəlil xanın nəvəsi, Qarabağın sonuncu xanı Mehdiqulu xanın qızı Xurşud Banu Natəvan (1830-1897) dövrünün həm məşhur şairəsi və rəssamı idi. Yazdığı şerlərin əksəriyyəti itib-batmış, yalnız cüzi bir hissəsi bizə gəlib çatmışdır. Aşiqanə şerlər, təbiət gözəlliklərinə həsr edilmiş şerlər, müasirlərinə yazdığı mənzumələr, hüznlü şerlər Xan qızının yaradıcılığının əsas mövzuları idi. Onun qəzəllərindəki sevgi, atəş, ayrılıq hissələri hər zaman öz müasirliyini saxlayır:

Hicrin edibdi könlümü bərbad, ağlaram,
Çoxlar tutar bu halıma irad, ağlaram.
Könlüm evi xərabtər oldu fəraqdən,
Vəslin bu mülkü etmədi abad, ağlaram (6,13).

Şuşanın tarixində Gövhər Ağa, Fatma xanım, Kəminə, Leyla və Həmidə xanım kimi məşhur qadınların da adı çəkilir.

Şuşa görkəmli memarların, xəttatların, nəqqaşların, istedadlı rəssamların Vətəni kimi də məşhurdur. Onlardan Cəlal Qaryağdını, Əmir Hacıyevi, Nadir Əbdürrəhmanovu və b. göstərmək olar. Azərbaycan milli xalça sənətinin inkişafında, dünyaya tanıdılmasında şuşalı sənətkar Lətif Kərimovun müstəsna xidmətləri olub.

Azərbaycan folklorunun mühüm janrlarindan biri olan bayatı janrının vətəni də Qarabağ elləri olmuşdur. Bəlkə də,turk dunyasında ilk bayatı burada yaranmışdır. Bayatıların çoxunda bu qədim torpağın tarixi, işğala məruz qalması, insanların düçar olduğu ağır dərd, qəm-kədər, Qarabağ savaşında vətən uğrunda tökülən qan, Qarabağ əhalisinin köçkün həyat tərzi yanıqlı şəkildə ifadə olunur:

Dəryada bir daşam mən,
Gövhərəm mən, qaşam mən,
Şuşanı namərd alıb
Qanadım yox aşam mən.

Bu kiçik məqalədə xatırladıgımız və adlarını çəkmədiyimiz görkəmli mədəniyyət xadimlərinin ruhları artıq Şuşasız deyildir.

*Nəticə*. Nəhayət qeyd etmək lazımdır ki, Qarabağın döyünən ürəyi olan Şuşanın tarixi, mədəniyyəti haqqında küllü miqdarda kitablar nəşr etmək olar. Lakin elmi məqalədə bu mövzunu hərtərəfli əhatə etmək çox çətindir. Böyük fəxarət hissi ilə Şuşamızın 28 ildən sonra azad olmasını qeyd edirik. Bütün Şəhidlərimizin qarşısında baş əyir, yaralılarımıza Tanrıdan şəfa diləyirik.

2020-ci il noyabrın 8-də Dövlət başçımız, Ali Baş Komandanımız İLHAM ƏLİYEVİN Şəhidlər xiyabanından xalqa müraciəti tariximizə qızıl hərflərlə yazıldı: "Əziz ŞUŞA, sən azadsan! Əziz ŞUŞA, biz qayıtmışıq! Əziz ŞUŞA, biz səni dirçəldəcəyik! ŞUŞA bizimdir! Qarabağ bizimdir! QARABAĞ AZƏRBAYCANDIR!"

Biz də Şanlı Ordumuzun Vətən müharibəsində qazandığı qələbələrə rəhbərlik edən Ali Baş Komandanımız cənab İLHAM ƏLİYEVƏ ürəkdən təşəkkür edir və deyirik:

Gör neçə obanın alqışısan SƏN,
Əzilməz millətin arxasısan SƏN,
Uğrunda şəhid verən Vətənin
Azərbaycanımın dayağısan SƏN!

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Şuşa və Laçın sakinlərinin bir qrpu ilə görüşdə giriş sözü. – Prezident Sarayı, 6 may 1996-cı il / "Heydər Əliyev İrsi" Beynəlxalq Elektron Kitabxana. - https://lib.aliyevheritage.org/az/5741106.html [Müraciət tarixi: 4 dekabr 2020].
2. Ermənilər Şuşanın tarixi abidələrini kütləvi şəkildə saxtalaşdırır / Musavat qəzeti, 13.05.2013. - https://musavat.com/news/kivdf-layilieleri/ermeniler-shushanin-tarixi-abidelerini-kutlevi-shekilde-saxtalashdirir_151630.html [Müraciət tarixi: 4 dekabr 2020].
3. Erməni vandalizmi: Əsirlikdə olan Azərbaycan abidələri. - https://www.armenianvandalism.az/az_shusha.html [Müraciət tarixi: 4 dekabr 2020].
4. Əhmədov E. Heydər Əliyev: Şuşa bütün azərbaycanlılar üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir / AzərTac, 08.05.2015. - https://azertag.az/xeber/Heyder_Aliyev_Susa_butun_azerbaycanlilar_uchun_eziz_bir_seherdir_eziz_bir_torpaqdir_eziz_bir_qaladir_eziz_bir_abidedir-853551 [Müraciət tarixi: 4 dekabr 2020].
5. Əhmədov E. Şuşa Azərbaycanın tarixi mədəniyyət mərkəzidir / Xalq qəzeti,11.05.2011.- http://old.xalqqazeti.com/az/news/social/11876 [Müraciət tarixi: 4 dekabr 2020].
6. Xurşudbanu Natavan. 33 qəzəl. Bakı, Gənclik, 1981, 20 s.
7. İsmayılov F. Laçın: həqiqətlər, mülahizələr, tarixi dəyərlər. Bakı, Nurlar, 2012, 184 s.
8. Qarabağın Dövlət əhəmiyyətli tarixi abidələrinin elektron xəritəsi. - https://map.virtualkarabakh.az/monument.php?ID=74 [Müraciət tarixi: 4 dekabr 2020].
9. Qarabağ ədəbiyyatı / "Virtual Qarabağ" İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzi. - https://www.virtualkarabakh.az/az/post-item/25/41/qarabag-edebiyyati.html [Müraciət tarixi: 4 dekabr 2020].
10. Qarabağ mədəniyyətin canlı yadigarı / AzVizion.az, 25 may 2020. - https://azvision.az/news/215791/qarabag-medeniyyetinin-canli-yadigari--susa-teatrinin-yubileyidir-.html [Müraciət tarixi: 4 dekabr 2020].
11. Mustafazadə T. Qarabağ xanlığı. Bakı, Sabah, 2010, 328 s.
12. Şuşa. - https://az.wikipedia.org/wiki/%C5%9Eu%C5%9Fa [Müraciət tarixi: 4 dekabr 2020].
13. Şuşanın tarixi barədə bildiyimiz və bilmədiyimiz məlumatlar / FaktXəbər internet qəzeti, 3 may 2017. - https://www.faktxeber.com/uann-tarixi-bard-bildiyimiz-v-bilmdiyimiz-mlumatlar_h496322.html [Müraciət tarixi: 4 dekabr 2020].
14. Şuşa tarixi mədəni və strateji əhəmiyyətə malik şəhər / AzərTac, 8 may 2020. - https://azertag.az/xeber/Susa___tarixi_medeni_ve_strateji_ehemiyyete_malik_seher-1482575 [Müraciət tarixi: 4 dekabr 2020].

**SANUBAR ISMAYILOVA**
*Associate Professor of Baku State University*

## SHUSHA: THE BEATING HEART OF KARABAKH

One of the most pessinq issues in the history of Azerbaijan people is the problem of Karabakhs history and culture. Karabakh, which haz been under captivity in Medak for 28 years, haz finally been liberated from the occupation of Shusha, the urea of Karabakh. In this related scientific article, the brief history and culture of the city of Shusha,or rather the layinq of the foundation of the city of Shusha, historical stages, historical and architectural monuments, literature, poetry, and music are partially illuminated on the basis of important facts. The city of Shusha, which is considered the main nourishment of culture in Azerbaijan, is the national symbol of Azerbaijan people.

*Keywords*: Karabakh, history, culture, historical monuments, literature.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 4 dekabr 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2020-ci il.*
*Məqalə Redaksiya heyətinin qərarı ilə çapa məsləhət görülüb.*

QARABAĞ AZƏRBAYCANDIR!

**UOT 94 (479.24)**

**BƏXTİYAR NƏBİYEV**
*Bakı Dövlət Universitetinin*
*tarix fakültəsinin dekan müavini, dosent*
**E-mail: bakhtiyarnabiyev@bsu.edu.az**

# İKİNCİ QARABAĞ VƏTƏN MÜHARİBƏSİNDƏ AZƏRBAYCANIN QƏLƏBƏSİNİ ŞƏRTLƏNDİRƏN AMİLLƏR

*Son 44 günlük savaş onu göstərdi ki, Ermənistan dövlətinin terrorçu mahiyyətində heç nə dəyişməyibdir. Tərtərin və digər bölgələrimizin atəşə tutulması bunu sübut etdi. Ağır artilleriyadan açılan atəş nəticəsində mülki əhalidən və hərbçilərimiz arasından şəhid və yaralılarımız oldu. Cənab Prezidentin İlham Əliyevin rəhbərliyi ilə dövlətimiz buna qarşı dərhal adekvat reaksiya verdi və Azərbaycan ordusu əks-hücum əməliyyatlarına başladı. Əks-hücum əməliyyatının elə ilk günündə ordumuz tərəfindən düşmənin müdafiə xətti yarıldı və yeddi kəndimiz azad edildi. Daha sonra Azərbaycan ordusu daha bir qələbəyə imza ataraq Murov zirvəsini azad etdi. Bütün bunlar onun göstəricisidir ki, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan və Cənab Prezident İlham Əliyev tərəfindən davam etdirilən ordu quruculuğu siyasəti yüksək səviyyədə aparılmışdır.*

*Açar sözlər*: Şuşa, dron, ərazi, Azərbaycan, qələbə.

*Giriş.* Azərbaycan 44 günlük müharibədə dövlət aparatının işləkliyinin yüksək səviyyəsini göstərmişdir. Cənab Prezident İlham Əliyevin yürütdüyü xarici siyasət nəticəsində dünyanın bir çox ölkələri Ermənistanın bu təcavüzünü qınamışdır. Xüsusi ilə, Azərbaycan və Türkiyə arasında qardaşlıq münasibətlərinin yüksək səviyyədə olması, Türkiyənin Azərbaycanı, Azərbaycanında Türkiyəni hər zaman dəstəkləməsi öz sözünü deyir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, eləcə də qardaş ölkənin bütün hökümət nümayəndələri bəyan edib ki, Türkiyə daim Azərbaycanın yanındadır. Türkiyə hərbi imkanlarını belə hər zaman Azərbaycanın xidmətinə verməyə hazırdır. İki ölkə arasında münasibətlərin bu formatı artıq bölgəyə yeni reallıqlar gətirmişdir. Ölkə başçısı Cənab İlham Əliyevin xalqa müraciətində bu yeni reallıqlar ortaya qoyuldu. Azərbaycan Prezidenti bəyan etdi ki, erməni əsgəri bizim torpaqlarda ölmək istəmirsə öz ölkəsinə dönsün. Azərbaycan artıq kimisə gözləmək fikrində deyildir. Özünün hərbi potensialı, ümumxalq dəstəyi ilə torpaqlarını azad etmək əzmindədir.

Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyev beynəlxalq ictimaiyyəti xəbərdar etmişdi ki, Ermənistan yeni müharibə hazırlığı içərisindədir. Təəssüf ki, dünyada sülh və təhlükəsizliyə məsul olan təşkilatlar bu xəbərdarlıqdan nəticə çıxarmadılar. Ermənistanın Azərbaycan torpaqlarını atəşə tutması onun özü üçün heç də yaxşı olmadı.

Azərbaycan ordusu hücuma keçdi. Düşmənin müdafiə xətti darmadağın edildi. Düşmən texnikası və canlı qüvvəsi məhv edildi. Azərbaycan ordusunun təchizatında olan ən müasir silah və texnikalar Ermənistan ordusunun istehkamlarını çox asanlıqla dağıtmağa imkan verdi. Bütün bunlar 1994-cü il atəşkəsindən bu günə qədər ölkəmizdə möhtəşəm ordu quruculuğunun bariz nümunəsidir. Azərbaycan ordusu dünya reytinqində ən güclü ordulardan 50-ci, düşmən ordusu isə 111-ci yerdədir (1). Fərq ortadadır. Ermənilər gördü ki, bu uzaq 90-cı illər deyildir artıq. Qarşılarında vahid komandanlığı olmayan qüvvələr yox, mükəmməl idarə edilən müasir ordu vardır.

Görülən bu işlər ölkədə vətənpərvərlik ruhuna olduqca müsbət təsir etdi. Minlərlə gənc hələ Tovuz əməliyyatlarının başlaması ilə orduya könüllü yazılmış, onların bir qismi isə hazırda ordu sıralara qoşulmuşdular. Bakını və digər şəhərlərimizi Azərbaycan bayraqları bəzəməkdə idi. İnsanlar özlərinə məxsus olan evlərin eyvanlarında, minik vasitələrinin üzərlərində, ticarət obyektlərinin qarşısında milli bayraqlarımızı asır, ordumuza dəstək verirdilər.

Azərbaycan Türkiyə ilə bir millət iki dövlət nümunəsi də proseslərin gedişinə ciddi bir şəkildə təsir etdi. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev və Birinci Vitse-Prezident Mehriban Əliyeva qardaş ölkəyə və onun başçısı Rəcəb Tayyib Ərdoğana verdiyi dəstəkdən dolayı yüksək qiymət verdilər (2). Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyev bildirdi ki,

Türkiyə regionun ən güclü ordusuna sahibdir, bizim ordumuzda onun modelində qurulmuşdur. Yəni, Azərbaycan ordusu da Qafqazın ən güclü ordusudur.

Türkiyə həm də Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə çatdırılmasında bütün vasitələrini səfərbər etdi. Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyev TRT-yə və CNN TÜRK-ə verdiyi müsahibələrində bir daha bəyan etdi ki, Ermənistanın bir yolu vardır – işğal edilmiş ərazilərdən tam çıxmaq, Azərbaycan xalqından üzr istəmək və Qarabağ Azərbaycandır! Deməк. Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyev bu qətiyyətli mövqeyi Əl-Ərəbiyyə və Əl-Cəzirə kanallarında da ortaya qoymuşdur.

Azərbaycan Respublikasının xarici siyasətinin uğurlu tərəflərini göstərən əsas amillərdən biri də Rusiyanın Ermənistana dəstək verməməsidir. Vladimir Putin bəyan etdi ki, Ermənistan ərazisində savaş getmir, bu isə o deməkdir ki, Ermənistan KTMT ilə manipulyasiya edə bilməz. Bu məsələlərdə Fransanın mövqeyi isə olduqca qeyri-sağlamdır. Makronun Ermənistana bu və digər şəkildə dəstəyini ifadə etməsi ATƏT MQ-nin əslində iflasından xəbər verir. Fransanın mövqeyi konkret olaraq erməni diasporunun təsiri ilə ortaya qoyulmuşdur. Hadisələrin bu cür gedişində onun da hadisələrə təsiri ancaq simvolik ola bilərdi.

Azərbaycan Respublikasını haqqlı mübarizəsində dəstəkləyən ölkələr sırasında nüvə dövləti olan Pakistanın olması da önəmli bir hadisədir. Pakistan hər zaman Azərbaycanın yanında olmuşdur. Azərbaycan artıq köhnə reallıqlarla yaşamaq istəməyən, islamofob, türkəfob dünyaya qarşı hərəkətə keçən türk-islam dünyasının əsas aktorlarındandır. Azərbaycan-Türkiyə əməkdaşlığı əslində yeni dünya düzəninə gedən yolun əvvəli kimi xarakterizə edilə bilər.

Ümumiyyətlə, bu proseslə onu deməyə əsas verir ki, işğal edilmiş ərazilərin azad edilməsi ilə bölgədə geosiyasi vəziyyət dəyişdi. Azərbaycan Avropanın enerji təhlükəsizliyində önəmli amildir. Ermənilər isə BTC-ni vurmaq cəhdi ilə bunu təhdid edirdilər. Bu cür fəaliyyətlər təbii ki, beynəlxalq ictimaiyyətin diqqətini cəlb edəcəkdi. Azərbaycan istər hərbi baxımından, istərsə də diplomatik müstəvidə müvəffəqiyyətlə irəlilədi. Bu proseslərin məntiqi davamı işğal edilmiş ərazilərin azad edilməsinə gətirib çıxardacaqdı. Azərbaycan işğal edilmiş əraziləri bizim iqtisadi inkişafımıza təkan verəcək və geosiyasi imkanlarımızı gücləndirəcəkdir. Sovet dövründə Dağlıq Qarabağ düzən Qarabağla və Azərbaycanın digər iqtisadi rayonları ilə sıx iqtisadi əlaqədə inkişaf edib. Bütün istiqamətlərdə keçən yollar bu iki ərazini iqtisadi cəhətdən bir-birinə möhkəm bağlamışdır. Dağlıq Qarabağın ermənilər tərəfindən işğal olunması və digər Azərbaycan rayonlarından ayrılması regionun əhalisi və təsərrüfatı üçün çox ciddi problemlər yaratdı. Uzun illərdən bəri Dağlıq Qarabağın ərazisində yerləşən müəssisələrin böyük əksəriyyəti Azərbaycanın rayonlarından gətirilən yanacaq, xammal və materiallar əsasında işləyirdilər, bir çoxları isə Bakının iri müəssisələrinin filialları kimi fəaliyyət göstərirdi.

1985-ci ildə Qarabağın Xankəndindəki iri İpək Kombinatına daxil olan barama xammalının cəmi 8%-i Dağlıq Qarabağın özündə istehsal olunurdu. Yerdə qalan 92%-i isə Azərbaycanın digər rayonlarından gətirilirdi. Dağlıq Qarabağ Vilayətinin 1986-cı ildə həyata keçirdiyi xarici iqtisadi əlaqələrin həcminin cəmi 0.3 %-i, idxalının isə 1.4 %-i Ermənistan Respublikasının payına düşdüyü halda, Azərbaycana onun ixracatının 33.3 % düşürdü. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi Xankəndi vaxtilə birbaşa Azərbaycan dəmir və şosse yollarına və bütövlükdə respublikanın nəqliyyat-kommunikasiya sisteminə sıx bağlanmışdır. Xankəndindən dəmir yolu ilə Bakıya qədər olan məsafə 392 km-dir. Regionun gələcək inkişafında bu çox vacib amildir və infrastruktur layihələr sovet vaxtı mövcud olan nəqliyyat loqistikasının xəritələrindən istifadə edə bilər (3).

İşğaldan azad edilən ərazilərin bərpası üzrə Azərbaycanın kifayət qədər təcrübəsi var. Hətta ölkəmizdə Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentlik yaradılıb ki, onun da missiyası aparılan bərpa işlərinin koordinasiyasını və məcburi köçkünlərin doğma torpaqlarına qaytarılması üçün şəraitin yaradılmasını təmin etməkdir. 2020-ci ildən başlayaraq Azərbaycan Ordusunun düşmən tapdağından azad etdiyi ərazilərin də uyğun qaydada bərpası həyata keçiriləcək. 1994-cü ildə uğurlu Horadiz əməliyyatından sonra Füzuli rayonunun 42 yaşayış məntəqəsinə həyat verildi. 2016-cı ilin aprelində hərbi qələbədən sonra Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi - "Böyük qayıdışın başlanğıc" nöqtəsi oldu. Dövlətin diqqət və qayğısı nəticəsində Cocuq Mərcanlı kəndi qısa müddətdə müasir və abad bir yaşayış məntəqəsinə çevrilib. Bu məqsədlə Azərbaycan Prezidenti tərəfindən

ardıcıl olaraq bir neçə dəfə Sərəncam imzalanıb. Cocuq Mərcanlı hazırda işğal altında olan istənilən kənd yaşayış məntəqəsi ilə müqayisədə daha abaddır, iş yerləri və sosial xidmətlərlə daha yüksək səviyyədə təmin olunub. Bu da Azərbaycan və Ermənistanın inkişafa münasibətlərində fərqi göstərir. Artıq Tərtər rayonunun yenicə azad olunan Suqovuşan və Talış kəndlərinə gedən 29 kilometrlik avtomobil yollarının bərpası başlayır. Bir sözlə, Azərbaycan torpaqlara qayıtdıqca həyat da canlanır.

Ümumiyyətlə, Azərbaycanın bu gün qələbə ilə bitirdiyi savaş onun hüququdur. Bu hüququ ona milli və beynəlxalq hüquq, BMT TŞ-nin müvafiq qətnamələri verir. Uzun illər ATƏT-in Minsk Qrupunun nəticəsiz fəaliyyəti, eyni zamanda son dövrlərdə Ermənistanın aşkar aqressivliyinin artması ölkəmizin bu hüququ reallaşdırmasına səbəb olmuşdur. Qeyd etmək lazımdır ki, Azərbaycan dövlətinin strukturları bu gün öz missiyasını yüksək səviyyədə yerinə yetirir. Qismən səfərbərliyin elan edilməsi nəticəsində dünya və bölgədə gördülər ki, Azərbaycanın öz qüvvəsi kifayətdir ki, düşməni darmadağın etsin. Müharibə qaydalarına uyğun olaraq kiber təhlükəsizlik yüksək səviyyədə təşkil edilmiş, ölkədə destruktiv fəaliyyətlərin qarşısı alınmışdır. Xarici siyasətimiz birbaşa Cənab İlham Əliyevin başçılığı ilə düşməni pat vəziyyətinə gətirmişdir. Rusiya kanalına Cənab İlham Əliyevin verdiyi müsahibə iki ölkənin və onun liderlərinin arasındakı fərqi ortaya qoymaqdadır. Azərbaycan dünyanın mühüm aktoru, onun lideri Cənab İlham Əliyev isə yüksək səviyyəli intellektə, xarizmaya malik olan dövlət başçısıdır. Ermənistan isə öz rəhbərlərinin siyasəti nəticəsində bədbəxt hala salınmış ölkə, Paşinyan isə sanki əqli problemlərdən əziyyət çəkən biridir.

44 günlük müharibədə Dövlət Başçısı İlham Əliyevin fəaliyyəti göstərdi ki, Azərbaycanın mövqeyi qətidir. Bu qətiyyətə illərlə heç real iş görməyənlərin birgə bəyanatları, bəzi ölkə liderlərinin qeyri-obyektivliyi heç bir təsir göstərə bilməz. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə xalq və ordu, dövlət aparatı sistemi ərazi bütövlüyümüzün təmin edilməsi istiqamətində qətiyyətin təntənəsini dünyaya, dosta da, düşmənə də göstərdi. Bu qətiyyətin ifadəsi isə budur ki, Qarabağ Azərbaycandır!

Paşinyan hökümətinin populist çıxışları, bəzi erməni nazirlərin utopik bəyanatları Ermənistanı çox pis vəziyyətə qoydu. Ermənistanın daim birmənalı dayağı olan Rusiyanın bu münaqişədə mövqeyi maraq doğurmaya bilməzdi. Lavrovun Paşinyanın ifadələri sülh prosesinə mənfi təsir göstərir deməsi və bunu Azərbaycan parlamentinin başçısı ilə görüşdə səsləndirməsi yeni reallıqların daha bir sübutu idi. Belə ki, artıq Rusiya Ermənistana açıq dəstək vermək fikrində deyildi. Təbii ki, bunun bir sıra səbəbləri vardır. Ən başlıca səbəb Azərbaycan və Türkiyənin xarici siyasətini qarşılıqlı kordinasiya etməsidir. Digər bir səbəb isə Paşinyan hökümətinin Rusiya ilə yaşadığı problemlər idi. Doğrudur, Rusiyada mətbuatda və digər dairələrdə erməni lobbisinin təsiri yenə də mövcuddur. Ancaq bu Rusiya xarici siyasətinə hazırkı vəziyyətdə ciddi təsir etmədi. Rusiyanın ehtiyatlı davranışını milli xarici siyasətimizin uğurlarından hesab edə bilərik.

Bütün bu proseslərin gedişini onu göstərdi ki, artıq Azərbaycan Ermənistana və onu açıq və gizli dəstəkləyən dövlətlərə bəyan edir ki, torpaqlar azad ediləcəkdir. Trampın da bəyanatında məsələyə bir qədər etinasız yanaşması Ermınistanı və ABŞ-dakı erməni diasporunu hiddətə gətirdi. Azərbaycan həm sahədə, həm də diplomatiyada hücum vəziyyətində oldu və bu ölkə başçısının ifadə etdiyi kimi bizim qələbəmizlə bitdi.

Azərbaycan ordusunun 44 günlük müharibədə hərbi cəhətdən qələbə qazanmasının səbəblərindən biri də hərbi əməliyyatların düzgün bir şəkildə aparılması idi. Azərbaycan ordusu sərəncamında olan silahlı texnika və vasitələrdən məqsədli bir şəkildə istifadə edə bildi. Azərbaycanın pilotsuz təyyarələrinin Dağlıq Qarabağdakı erməni hədəflərini necə vurduğunu göstərən videogörüntülər ötən əsrdən bəri davam edən münaqişədə yeni gərginliyin vizual rəmzlərindən birinə çevrildi. Azərbaycan Müdafiə Nazirliyi kəşfiyyatçı pilotsuz təyyarələrin çəkdiyi görüntüləri, pilotsuz aparatların kameraları ilə çəkilmiş videoları və ya "kamikadze dronları" tərəfindən ötürülən kadrları yayımlayırdı. Kamikadze dronlar hədəfi atəş açmadan, ona çırpılmaq yolu ilə hədəfi məhv edirdi.

Azərbaycan ordusu bir çox pilotsuz aparatlardan və digər modellərdən istifadə edir. ABŞ-ın Bard Kollecinin hərbi pilotsuz təyyarələri üzrə tədqiqat mərkəzinin verdiyi məlumata görə, bir il əvvəl Azərbaycan ordusunun ixtiyarında İsrail istesalı olan Heron TP (2 ədəd) və Hermes 4507 (10 ədəd), Sky Striker (100 ədəd) və Harop (50 ədəd) kəşfiyyat və keşikçi pilotsuz aparatları olub.

Bundan əlavə, eyni mənbəyə görə, İsrail ilə Azad Systems adlı birgə müəssisədə Azərbaycanda kəşfiyyat dronu Aerostar və "kamikadze" Orbiter1K və Orbiter-3 istehsal olunub. Nəhayət daha iki uzaq mənzilli Hermes 900 dronu Sahil Mühafizəsi xidmətində olub (4).

Oktyabrın 5-də prezident İlham Əliyev Azərbaycanın bəzi türk hücum dronlarına sahib olduğunu bildirib. Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının bir nəticəsi kimi bu dronlar Qarabağ savaşında düşməni məhv etməyə davam etdi. Uğurlu savaşını davam etdirən Azərbaycan ordusu özünün yüksək döyüş hazırlığını Şuşanın işğaldan azad edilməsi ilə ortaya qoydu.

Şuşanın azad olunması əməliyyatının detalları barədə ilk dəfə xarici mətbuat orqanlarında məlumatlar getməyə başladı. Şəhərdən qovulan erməni hərbçilərin dediklərini dərc edən həmin mətbu orqanlardakı materiallarda Azərbaycan hərbçilərinin Şuşaya yolla deyil, sıldırım qayalarla, yüngül silahlarla çıxdıqları, şəhid və yaralı hərbçi dostlarını da özləri ilə daşıdıqları qeyd olunurdu. Daha sonra Rusiya mətbuatı Şuşanın faktiki olaraq əlbəyaxa döyüş nəticəsində azad olunduğunu yazdı. Şuşanın azad edilməsi əməliyyatı haqqında ən mükəmməl izah isə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevə məxsusdur: "“Biz ordumuzun döyüş potensialını gücləndirirdik. Çünki tam aydın idi ki, təkcə silahlarla qələbə qazanmaq mümkün deyil. Bayrağı qaldıran, bayrağı düşmənin mövqeyinə sancan, azad edilmiş torpaqlara sancan əsgərdir, zabitdir. Bizim əsgər və zabitlərimiz aslan kimi vuruşdular. Şəhidlər verdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Onların valideynlərinə Allah səbir versin! Yaralı hərbçilərimiz var, onlar da sağalırlar. Onların bir çoxu artıq sağalıb. Allah onlara şəfa versin! Biz qəhrəman əsgər və zabitlərimiz hesabına qələbə qazanmışıq. Təkcə Şuşanın işğaldan azad edilməsi əməliyyatı, əminəm ki, tarixdə əbədi qalacaq. Demək olar ki, yüngül silahlarla dərədən, meşələrdən, dağlardan keçərək əlbəyaxa döyüşdə düşməni məhv etdik, Qarabağın tacı olan Şuşanı azad etdik” (5).

Beynəlxalq hərbi ekspertlər də Şuşanın azad edilməsinə yüksək qiymət verdi. Bunlardan biri ukraynalı Arestoviç qeyd edir ki, Azərbaycan Qarabağın qədim paytaxtı, böyük simvolik əhəmiyyətə malik bir şəhəri - Şuşanı geri qaytardı. Ermənilər Azərbaycan ordusunun PUA-lar olmadan heç bir şey edə bilməyəcəyinə əmin idilər, ancaq azərbaycanlılar kiçik dəstələr və yüngül minaaltanlarla dağların arasından keçərək zirehli texnikayla qorunan şəhəri alıb. A.Arestoviç Azərbaycan ordusunun hərb tarixi kitablarına salınacaq parlaq bir əməliyyat həyata keçirdiyini vurğulayıb (7).

*Nəticə.* Bütün bu görülən işlərin nəticəsi olaraq Ermənistanın baş naziri Paşinyan Dövlət Başçısı İlham Əliyevin bildirdiyi kimi düz üstə çökərək kapitulyasiya aktını imzalamağa məcbur oldu. Rusiyanın vasitəçiliyi ilə Ermənistan Azərbaycanın işğal edilmiş torpaqlarından çəkilmək öhdəliyi götürdü və respublikanın işğal edilmiş əraziləri azad edildi. Dağlıq Qarabağda rus sülhməramlılarının yerləşdirilməsi isə Azərbaycanın icazəsi və razılığı ilə baş verdi. Dövlət Başçısı İlham Əliyevin bildirdiyi kimi artıq masada heç bir statusdan da söhbət gedə bilməz. Türkiyə bir daha Azərbaycana öz dəstəyini ifadə etdi. Eyni zamanda bölgədə sülhməramlı missiyada iştirak edəcəkdir. Bütün siyasi və hərbi tərəfləri ilə Azərbaycan İkinci Qarabağ Vətən müharibəsindən qələbə ilə çıxdı. Bölgəyə iqtisadi və demoqrafik qayıdışdan sonra qələbənin nətciələri artıq özünü göstərəcəkdir. Azərbaycan Ermənistanı Naxçıvana korridor verməyə məcbur etdi. Bir sözlə, bu qələbəb siyasi və hərbi tariximizin ən möhtəşəm hadisəsinə çevrildi.

## ƏDƏBİYYAT

1. Azərbaycan ordusu dünya reytinqində ən güclü ordulardan 50-ci, düşmən ordusu isə 111-ci yerdədir. - https://mod.gov.az/az/pre/24681.html [Müraciət tarixi: 05.12.2020].
2. İlham Əliyevlə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub. - https://president.az/articles/45998 [Müraciət tarixi: 05.12.2020].
3. İşğal olunmuş ərazilərin azad edilməsi Azərbaycan iqtisadiyyatına nə vəd edir? - http://www.iqtisadiislahat.org/news/ isgal_olunmus_erazilerin_azad_edilmesi_azerbaycan_iqtisadiyyatina_ne_ved_edir-1059 [Müraciət tarixi: 05.12.2020].
4. Qarabağdakı müharibədə Azərbaycan qələbəni necə təmin etdi? Hərbi ekspertlər cavab verir. - https://www.bbc.com/azeri/azerbaijan-54917662 [Müraciət tarixi: 05.12.2020].

5. İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Ağdam şəhərində olublar. - https://president.az/articles/47685 [Müraciət tarixi: 05.12.2020].
6. İlham Əliyev: "Paşinyan, harada imzalamısan sən bu kapitulyasiya aktını?" - https://qazet.az/gundem-az/azerbaijan/228920/ [Müraciət tarixi: 05.12.2020].
7. Aleksey Arestoviç: "Şuşanın işğaldan azad edilməsi əməliyyatı hərb tarixi kitablarına salınacaq". - https://toplum.tv/az/aleksey-arestovic-susanin-isaldan-azad-edilmesi-emeliyyati-herb-tarixi-kitablarina-salinacaq/#.X83JyL1R3IU [Müraciət tarixi: 05.12.2020].

**BAKHTIYAR NABIYEV**
*Associate Professor of Baku State University*

## FACTORS DETERMINING THE VICTORY OF AZERBAIJAN IN THE SECOND KARABAKH PATRIOTIC WAR

The last 44 days of war have shown that nothing has changed in the terrorist nature of the Armenian state. The shelling of Tartar and other regions proved it. As a result of heavy artillery fire, our civilians and servicemen were killed and wounded. Under the leadership of President Ilham Aliyev, our state reacted immediately and the Azerbaijani army launched counter-offensive operations. On the very first day of the counter-offensive, our army broke through the enemy's line of defense and liberated seven of our villages. Later, the Azerbaijani army liberated the Murov summit with another victory. All this indicates that the policy of army building, founded by National Leader Heydar Aliyev and continued by President Ilham Aliyev, has been carried out at a high level.

*Keywords*: Shusha, drone, territory, Azerbaijan, victory.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 5 dekabr 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2020-ci il.*
*Məqalə Redaksiya heyətinin qərarı ilə çapa məsləhət görülüb.*

QARABAĞ AZƏRBAYCANDIR!

**UOT 94 (479.24)**

**ŞİRXAN SƏLİMOV**
*Sumqayıt Dövlət Universiteti*
**E-mail: shirxan.salimov@mail.ru**

# MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASINDA ORDU QURUCULUĞU

*Məqalədə Azərbaycan Respublikasında ordu quruculuğundan bəhs olunur. Ordu quruculuğu tarixinə nəzər saldıqda, Çar və Sovet Rusiyası dövründə Azərbaycanda ordu quruculuğundakı əngəllərə, müstəqillik dövründə Heydər Əliyevin hakimiyyəti dövründə ordu quruculuğu sahəsində görülən tədbirlər nəzərdəndən keçirilir, İlham Əliyevin hakimiyyəti dövründə ordu quruculuğunun uğurla davam etdirildiyi bildirilir və qələbənin təmin edilməsində bu tədbirlərin rolundan bəhs olunur.*

*Açar sözlər*: Azərbaycan, ordu quruculuğu, hərbi sənaye, silahlı qüvvələr, hərbi təhsil, dəniz donanması.

*Giriş.* Milli ordu hər bir dövlətin müstəqilliyinin təminatçısıdır. Güclü milli orduya malik olan dövlətin gələcəyinə heç bir təhlükə yoxdur. Tarixə nəzər salsaq görərik ki, Milli Ordumuzun yaradılması hələ Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti dövrünə təsadüf edir. Çarizmin dövründə Rusiya imperiyasının müsəlman xalqlarına həqarətli münasibəti, onların orduda xidmətdən "azad" edilməsi bu xalqların hərbi işləri yadırğamasına gətirib çıxarmışdı. 1917-1918-ci illərdə erməni təcavüzünün güclənməsi Azərbaycan türklərini fiziki cəhətdən məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Yaranmış vəziyyət təcili olaraq ordu quruculuğuna başlamağı tələb edirdi. 1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə ölkəmizdə ilk nizami hərbi hissə - Əlahiddə Korpus yaradılmışdır.

Əsası Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoyulmuş Azərbaycan ordusunun ənənələri müasir dövrdə də qorunub saxlanılır və inkişaf etdirilir. Bu isə ümummilli lider Heydər Əliyevin ciddi səyləri nəticəsində mümkün olmuşdur. Ali Baş Komandan Heydər Əliyevin rəhbərliyi altında Silahlı Qüvvələr quruculuğu sahəsində aparılan işlər ölkəmizdə mütəşəkkil, qüdrətli ordu yaratmağa imkan vermiş, onun gələcəkdə daha da möhkəmlənməsi üçün əsaslı zəmin yaratmışdır [8].

Heydər Əliyevin Sovet dövründə diqqət yetirdiyi məsələlərdən biri də SSRİ Silahlı Qüvvələri tərkibində azərbaycanlı zabitlərin məsul vəzifələrə irəli çəkilməsi məsələsi idi. O, azərbaycanlı zabitlərin Sovet qoşunlarında hansı vəzifələrdə olmasını və vəzifə təyinatlarında necə irəliləməsini daim izləyirdi və çalışırdı ki, yüksək vəzifəli Sovet zabitləri arasında azərbaycanlılar da olsun. Keçən əsrin 70-ci illərinin sonlarında İttifaqın 45-dən artıq ali hərbi məktəbinə ildə Azərbaycandan 800-900 nəfər gənc göndərilirdi.

Sovet dövründə milli zəmində aparılan hərbi-təşkilati işin zirvəsi Azərbaycanda general Cəmşid Naxçıvanski adına hərbi-internat məktəbin açılması sayıla bilər.

İstər C.Naxçıvanski adına Hərbi Liseyin təşkil edilməsi, istərsə də Sovet dövründə azərbaycanlı gənclərin hərbi işə cəlb edilməsinin hansı tarixi əhəmiyyətə malik olduğu XX əsrin sonlarında əyani şəkildə aydın oldu [9].

1991-ci il sentyabrın 5-də Müdafiə Nazirliyinin yaradılması barədə qərar və həmin il oktyabrın 9-da Azərbaycan Respublikasının Ali Soveti tərəfindən Silahlı Qüvvələrin yaradılması haqqında qanun qəbul edildi. Təbii ki, gənc respublika və onun rəhbərliyi bu qərarların həyata keçirilməsi üçün ciddi bir səy göstərmək imkanından məhrum idi. Ordunun silah, sursat və texnika ilə təchizatında ciddi problemlər mövcud idi [6].

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılması müstəqil Azərbaycanın dövlət quruculuğunun mühüm nailiyyətərindən biridir. Ordumuzun yaradılması prosesi əslində ölkəmizin müstəqilliyinin tarixidir. Ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırılmış, maliyyə-təsərrüfat fəaliyyəti nizama salınmış, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı və döyüş ruhu yüksəldilmişdir. Ordu quruculuğunun ən müxtəlif sahələri ilə bağlı zəruri qanunlar qəbul edilmiş, silahlı qüvvələrin mükəmməl qanunvericilik bazası yaradılmışdır. Bu gün

Azərbaycan Silahlı qüvvələrinin dünyanın 50 ən güclü ordusu sırasında yer almasının əsası məhz ulu öndər Heydər Əliyev tərəfindən qoyulub [10].

Azərbaycanda ordu quruculuğunun istənilən dövrü ərzində Azərbaycan xalqı mürəkkəb, ziddiyyətli, eyni zamanda şərəfli bir yol keçib. Müxtəlif dövrlər ərzində Azərbaycan xalqı müxtəlif siyasi sistem və şəraitlərdə yaşamalı olmuş və çətin sınaqlarla qarşılaşıb. Ötən müddət ərzində Azərbaycanın milli hərbi kadrlarının yetişməsi, onun milli ordu quruculuğu tarixi də bu siyasi sistemlərin təsiri altında formalaşıb. Ona görə də Azərbaycan Ordusunun 102 illik tarixi enişli-yoxuşlu bir tarixdir və onun obyektiv şəkildə öyrənilməsi kifayət qədər aktual bir məsələdir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev müxtəlif çıxışlarında hərb tariximizin son birəsrlik dövrünün bütün mərhələləri haqqında maraqlı fikirlər söyləyib, bu dövrlərə hərbi-siyasi qiymət verib və onların obyektiv təhlilini aparıb.

“Biz bu gün böyük iftixar hissi ilə deyirik ki, Azərbaycan Respublikasının Milli Ordusu - respublikamızın milli təhlükəsizliyini, əhalimizin əmin-amanlığını və mühafizəsini təmin etmək üçün, ölkəmizin sərhədlərinin qorunması, ərazi bütövlüyünün, torpaqlarının müdafiə edilməsi üçün Azərbaycanın layiqli Silahlı Qüvvələri vardır” deyən Ümummilli Liderimizin rəhbərliyi ilə qısa müddətdə ordunun qanunvericilik bazası yaradılmış, “Silahlı Qüvvələr haqqında”, “Hərbi xidmət haqqında”, “Hərbi qulluqçuların statusu haqqında” qanunlar qəbul edilmişdir. Bununla yanaşı, Azərbaycan Silahlı Qüvvələrinin beynəlxalq əlaqələrinin qurulması da diqqət mərkəzində saxlanılmış, 1994-cü ildə Azərbaycan Respublikası NATO-nun “Sülh Naminə Tərəfdaşlıq Proqramı”na qoşulmuşdur. Bu gün artıq Silahlı Qüvvələrimizin sülhməramlıları müxtəlif münaqişə zonalarında öz missiyalarını uğurla yerinə yetirirlər [5].

Dövlət başçısı Heydər Əliyev hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədi ilə 1999-cu il yanvarın 20-də Hərbi Akademiyanın yaradılması haqqında fərman imzaladı. Prezidentin 20 avqust 2001-ci il tarixli fərmanı ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər Azərbaycan Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırıldı.Tarixi varislik ənənəsinə uyğun olaraq ulu öndər Heydər Əliyevin 1998-ci il mayın 22-də imzaladığı fərmanla, Azərbaycan Xalq Cümhuriyyəti dövründə ilk əlahiddə Azərbaycan korpusunun yaradıldığı gün - iyunun 26-sı Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan edilmişdir [8].

Ordu quruculuğu prosesinin sürətlənməsi Azərbaycanın sülh danışıqlarında mövqelərini daha da möhkəmləndirdi. Böyük tarixi şəxsiyyət Heydər Əliyevin uzaqgörənliyi sayəsində Azərbaycanda Silahlı Qüvvələrin Hərbi Akademiyası, Təlim və Tədris Mərkəzi, Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi, Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi, Azərbaycan Dövlət Tibb Universitetinin nəzdində hərbi tibbi fakültə, orta hərbi tibb məktəbi, habelə Cəmşid Naxçıvanski adına Hərbi Lisey yaradıldı. 2001-ci ilin avqust ayında Azərbayan Silahlı Qüvvələrinin həyatında çox əlamətdar, tarixi hadisə baş verdi. İlk dəfə olaraq Azərbaycan Ali Hərbi Məktəbinin müasir standartlara uyğun proqramla hazırlanmış məzunlarının ilk buraxılış mərasimi keçirildi. Bu, NATO standartlarına keçmiş hərbi təhsil sisteminə müvafiq hazırlıq almış ilk zabit kadrlarımız idi. Bu, ümummilli lider Heydər Əliyevin ordu quruculuğu prosesində, Milli Ordu yaradılması sahəsində gərgin əməyinin bəhrəsi idi [3].

Ordunun gücü, döyüş qabiliyyəti həm də döyüş texnikalarıyla, silah-sursatla bağlıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005-ci il dekabrın 16-da Müdafiə Sənayesi Nazirliyinin yaradılması haqqında imzaladığı sərəncam ordu quruculuğunun daha dinamik aparılmasını təmin edən sərancam idi. Qısa müddətdə silah, hərbi sursat istehsalına başlanıldı. Nazirliyin istehsal etdiyi məhsulların 80 faizdən çoxu müdafiə təyinatlıdır. Silahlı Qüvvələrin balansında olan zavodlarda təmir, yenidənqurma işləri aparıldı, bu müəssisələr indi ordumuzun inventarında olan hərbi texnikaların təmirini, ən müasir şəkildə modernləşdirilməsini həyata keçirməkdədir [12].

Son illər ölkəmizin iqtisadi qüdrətinin artması sosial məsələlərin həllinə və milli ordumuzun möhkəmlənməsinə geniş imkan yaradıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Hərbi xərclər dedikdə Silahlı Qüvvələrin, Dövlət Sərhəd Xidmətinin, Səfərbərlik və Hərbi

Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Müdafiə Sənayesi Nazirliyinin, Milli Təhlükəsizlik Nazirliyinin, DİN Daxili Qoşunlarının, Xüsusi Dövlət Mühafizə Xidmətinin, Dövlət Feldyeger Xidmətinin saxlanılması xərcləri, xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər nəzərdə tutulur. 2003-cü ildə cəmi 135 milyon olan hərbi büdcəmiz 2010-cu ildə 2 milyard 150 milyon dollara, 2011-cu ildə 3 milyard 300 milyon dollara, 2014-cu ildə 3 milyard 700 milyon dollara, 2015-cu ildə rekord 5 milyard dollara, 2016-cu ildə 2 milyard 642 milyon manata (ilin ortasındakı dollar məzənnəsini nəzərə alsaq 1 milyard 554 milyon dollara bərabər olur), 2017-cu ildə təxminən 1 milyard dollara, 2018-ci ilin müdafiə xərcləri üçün 1.6 milyard dollara bərabər olub [6].

Modern ordu quruculuğunun həyata keçirilməsi ilə yanaşı, respublikamızda güclü hərbi sənaye kompleksi də formalaşıb. Bu gün Azərbaycan Cənubi Qafqazda öz ordusunu daxili imkanları hesabına hərbi texnika və silah-sursatla təchiz etmək gücünə malik olan yeganə ölkədir. Dinamik templə inkişaf edən hərbi sənaye hesabına müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunur. Azərbaycan öz zavodlarında istehsal etdiyi hərbi təyinatlı məhsullarla ordumuzu əhəmiyyətli dərəcədə təchiz edə bilir. Bütün bunlar ölkə rəhbərliyinin məqsədyönlü siyasətinin məntiqi nəticəsi, Azərbaycanın iqtisadi tərəqqisinin və qüdrətinin göstəricisidir. Ölkəmizin istehsalı olan hərbi məhsullara xarici ölkələrdən də sifarişlər gəlir ki, bu da Azərbaycanın mühüm uğurlarından biridir [4].

2011-ci il iyunun 26-da Bakıda Silahlı Qüvvələrin Ali Baş Komandanı Prezident İlham Əliyev iştirakı ilə Silahlı Qüvvələr Günü və müstəqilliyin bərpasının 20 illiyi münasibətilə müasir Azərbaycan Ordusunun hərbi paradı keçirildi.Daha sonra hərbi parad 2013-cü ildə Silahlı Qüvvələr Gününün yaranmasının 95 illiyinə həsr edildi. Növbəti parad isə 2018-ci ildə Ordumuzun 100 illiyinə həsr olundu.

Bu möhtəşəm paradda Müdafiə, Daxili İşlər, Fövqəladə Hallar nazirliklərinin, Dövlət Təhlükəsizliyi, Dövlət Sərhəd və Xüsusi Dövlət Mühafizə xidmətlərinin, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələrinin parad heyətindən ibarət 4 min nəfərədək şəxsi heyəti iştirak edib. Təntənəli mərasimdə 240-dan çox hərbi texnika, gəmilər, 70-dən artıq uçuş vasitəsi, o cümlədən silahlanmaya yeni qəbul edilmiş ən müasir zirehli texnikalar, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, helikopterlər, pilotsuz uçuş aparatları kimi müxtəlif növ ən yeni silah və texnikalar nümayiş olunub [2]. Bu gün Azərbaycan Ordusunun malik olduğu silah və texnikanın 80 faizindən çoxu yenilənib, ordumuz ən müasir silahlarla təchiz olunub. Hazırda güclü Azərbaycan Ordusu istənilən döyüş tapşırığını, hücum əməliyyatını yerinə yetirməyə qadirdir və şəxsi heyətin döyüş ruhu yüksəkdir. Hərbi şəhərciklərin çox hissəsi yenidən tikilib və ya tam təmir edilib. Hərbi hissələrin müasir standartlara uyğun qurulması, şəxsi heyətin həyat və məişət şəraitinin yaxşılaşdırılması, ordumuzun müasir silahlarla təminatı istiqamətində görülən mühüm işlər sayəsində Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü orduları ilə bir cərgədə öz layiqli yerini tutub. Prezident İlham Əliyev hər çıxışında Azərbaycan Ordusunun gücünü və torpaqlarımızı azad etmək əzmində olduğunu xüsusi olaraq vurğulayır. Müstəqilliyimizin, dövlətçiliyimizin qarantı olan və yeni inkişaf mərhələsinə qədəm qoyan Silahlı Qüvvələrimiz regionun ən güclü ordusu və xalqımızın güvən yeridir. 2003-cü ildən bu günə qədər hərbi xərclərimiz 15 dəfə artıb" [5].

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Azərbaycanın müstəqilliyinin 20-ci və Silahlı Qüvvələrin 93-cü ildönümləri münasibətilə Bakıda keçirilən təntənəli hərbi paradda nitqi zamanı qeyd etmişdir. Ordumuzun hərbi imkanlarını, potensialını gücləndirmək üçün nə lazımdırsa Azərbaycan dövləti onu edir. Bizim hərbi xərclərimiz ildən-ilə artır. 2003-cü ildə hərbi büdcəmiz 160 milyon dollar idisə, 2010-cu ildə bu rəqəm 2 milyard 150 milyon dollara, bu il isə 3 milyard 300 milyon dollara çatmışdır. Bir neçə il bundan əvvəl qarşıya qoyduğum vəzifə, - yəni ki, Azərbaycanın hərbi xərcləri Ermənistanın bütün xərclərinə bərabər olsun, - artıq reallaşıb. Bu gün Azərbaycanda hərbi xərclərə sərf olunan vəsait Ermənistanın bütün büdcəsindən 50 faiz artıqdır. Biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib, müharibənin birinci mərhələsi başa çatıbdır və müharibə şəraitində yaşayan ölkə, ilk növbədə, ordu quruculuğuna diqqət göstərməlidir. Bu gün Azərbaycanın dövlət büdcəsində hərbi təyinatlı xərclər birinci yerdədir və torpaqlarımız işğaldan azad olunmayana qədər bu, belə olacaqdır.

Azərbaycanda yüksək dəqiqliklə aparılmış modernləşdirmə nəticəsində “Kaman” zenit-raket kompleksinin maksimal vurma qabiliyyəti 35 kilometrə çatdırılmışdır. Yüksək hündürlükdə uçan sürətli təyyarələri, qanadlı raketləri vurmaq üçün təyin edilmiş “Qalxan” zenit-raket kompleksinin hədəfi məhvetmə imkanları üfiqi və şaquli məsafələrə müvafiq olaraq 255 və 40 kilometrə çatdırılmışdır. “Favorit” zenit-raket sistemi isə eyni anda saniyədə 2800 metr sürətlə uçan 6 müxtəlif hədəfə qarşı atəş əməliyyatı aparır və 27 min metrədək hündürlükdə hədəfləri məhv edir. “ARI-1T” mobil avtonom zenit-raket kompleksinin ölkəmizdə modernləşdirilməsi nəticəsində 12 kilometr məsafədə və 7 kilometr hündürlükdə hədəfi məhv etmək imkanına maliik olmuşdur. Ölkəmizin müdafiə potensialının əsaslı şəkildə möhkəmləndirilməsində Müdafiə Sənayesi Nazirliyinin yaradılması da mühüm rol oynamışdır. Qısa müddətdə rəqabətə davamlı müdafiə sənayesini formalaşdıran Azərbaycan artıq NATO standartları səviyyəsində məhsullar istehsalını qaydaya salır və beynəlxalq müdafiə sənayesi sərgilərində uğurla təmsil olunur. Azərbaycan Hərbi Dəniz Qüvvələrinin qarşısında Xəzər dənizinin Azərbaycana aid hissəsində dövlətimizin maraqlarını qorumaq vəzifəsi durur. Artıq müasir standartlara cavab verən hərbi donanmamız formalaşdırılmış və peşəkar kadrlar yetişdirilmişdir. Hərbi Dəniz Qüvvələri istənilən döyüş tapşırığını yüksək səviyyədə yerinə yetirməyə qadirdir [7].

Bu gün ordumuzun xidmətində olan zirehli texnikalarımız, hava hücümundan müdafiə kompleksləri, silah sursat, texniki təhcizat, müasir modernləşdirilmiş döyüş təyyarələrimiz, vertolyotlarımız , artireliya quğularımız və s Azərbaycan ordusunu müasir güclü və öz torpaqlarını bu gün işğaldan azad etməyə qadir olduğunu isbat edir. Bütün bunlar cənab prezidentin ordu quruculuğunda gərgin əməyinin bəhrəsidir. Bu gün ən diqqəti şəkən məsələ isə Azərbaycanın öz Müdafiə Sənayesi vasitəsilə 1300 adda hərbi təyinatlı məhsul istehsal etməsidir [11].

Bakıda iki dövlət - Türkiyə və Azərbaycan arasında keçirilən "TurAz Qartalı - 2017" taktiki təlimləri təsdiqlədi ki, azərbaycanlı pilotlar yüksək pilotaj məharətinə malikdirlər. Ali Baş Komandan bu təlimi yüksək qiymətləndirdi. Belə təlimlər Hərbi Hava Qüvvələrinin, Azərbaycan Ordusunun döyüş hazırlığının göstəricisi kimi qürurvericidir və özlüyündə ordu quruculuğunun səviyyəsini ifadə edir. Bakıda keçirilən "Dəniz Kuboku - 2017" yarışı da hərbi yönümlü beynəlxalq tədbir kimi tarixləşdi. İstər bağlanış mərasimində iştirakçı dövlətlərin rəsmilərinin, istərsə də beynəlxalq müşahidəçilərin təəssüratları Azərbaycanda Hərbi Dəniz Qüvvələrinin NATO standartlarına cavab verə biləcək səviyyədə kifayət qədər geniş imkanlara, potensiala malik olduğunu təsdiqlədi. Belə tədbirlər Azərbaycanda ordu quruculuğunun hansı mərhələdə və hansı səviyyədə olması haqqında rəy yaradır və bu rəy reallıqdır, qibtəediləcək rəydir. 2016-cı ilin aprel döyüşləri təsdiqlədi ki, ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir [12].

*Nəticə.* Prezident İlham Əliyev bir ay ərzində itirilmiş torpaqların mühüm hissəsində ölkəsinin bayrağını, xalqının milli ruhunu, qürurunu, özünə inamını, Ali Baş Komandanı olduğu ordusunun qüdrətini, Prezidenti olduğu ölkəsinin nüfuzunu, master-klass səviyyəsində müsahibələri ilə beynəlxalq imicini, xalqa müraciətlərində isə xalqın qəlbindəki məqamını daha da yüksəklərə qaldırdı. Bu gün Azərbaycan Ordusunun qarşısında tab gətirə bilməyən erməni işğalçıları hərbi maşınlarını, silah-sursatlarını, hətta bayraqlarını belə döyüş meydanında qoyub qaçırlar. Haqq işi uğrunda mübarizəyə qalxan Azərbaycan isə tutduğu yoldan dönmək fikrində deyil [1].

Azərbaycanda gedən ordu quruculuğu uğurlu nəticəsidir ki, Ali baş komanandan başda olmaqla ordumuz tərəfindən aparılan 44 günlük hərbi əməliyyyat düşmən qüvvələrinin darmadağın edilməsi ilə nəticələndi.

## ƏDƏBİYYAT

1. Azərbaycan ordusu döyüş meydanında tarixi ədaləti bərpa edir. - http://khatai-ih.gov.az/news/2218.html [Müraciət tarixi: 10.12.2020].

2. Azərbaycan Silahlı Quvvələrinin yaranmasından 101il ötür. -http://www.aztv.az/az/news/260/ [Müraciət tarixi: 10.12.2020].

3. Bədəlov Ə. Ulu öndər Heydər Əliyev və Azərbaycanda ordu quruculuğu. Xalq qəzeti.- 2009.- 25 avqust. - S. 3.

4. Cəfərli R. Müasir döyüş imkanlarına malik ordu. - http://www.azerbaijan-news.az/view-197524 [Müraciət tarixi: 10.12.2020].
5. Kamalqızı R. Azərbaycan Ordusu dövlətin dayağı, xalqın güvənc yeri və qürur mənbəyidir. - https://sesqazeti.az/news/politics/747159.html. [Müraciət tarixi: 10.12.2020].
6. Verdiyev Ə. Müstəqil Azərbaycan və ordu quruculugu. - https://ordu.az/az/news/141828/ [Müraciət tarixi: 10.12.2020].
7. İlham Əliyev Silahlı Qüvvələrin 93-cü ildönümü münasibətilə keçirilən təntənəli hərbi paradda iştirak etmişdir. - https://president.az/articles/2537/print [Müraciət tarixi: 10.12.2020].
8. Silahlı Qüvvələrimiz istənilən anda ölkəmizin ərazi bütövlüyünü bərpa etmək iqtidarındadır. - https://customs.gov.az/az/xeberler/819 [Müraciət tarixi: 10.12.2020].
9. Süleymanov M, Heydər Əliyev və Azərbaycanda ordu quruculuğu. - https://mod.gov.az/az/pre/22521.html [Müraciət tarixi: 10.12.2020].
10. Seyidov K. Bayrağımız işğal olunmuş ərazilərimizdə də dalğalanacaq. - http://xalqqazeti.com/az/news/50651 [Müraciət tarixi: 10.12.2020].
11. Xəlilov A. Azərbaycanın ordu quruculuğu sahəsində əldə etdiyi uğurlar. - http://www.shusha-ih.gov.az/news/509.html [Müraciət tarixi: 10.12.2020].
12. Ordu quruculuğu Vətənə sevgidir, dövlətə, dövlətçiliyə sədaqətdir. 23 dekabr 2017. - https://mod.gov.az/az/pre/21115.html [Müraciət tarixi: 10.12.2020].

**SHIRKHAN SALIMOV**
*Sumgait State University*

## ARMY BUILDING IN THE INDEPENDENT REPUBLIC OF AZERBAIJAN

The article discusses army building in the Republic of Azerbaijan. First of all, looking at the history of army building, the attitude was expressed to the obstacles to army building in Azerbaijan during Tsarist and Soviet Russia, the measures taken in the field of army building during the rule of Heydar Aliyev in the period of independence, the role of these measures in the successful continuation during the rule of Ilham Aliyev and ensuring victory were discussed.

*Keywords*: Azerbaijan, army building, military industry, armed forces, military education, navy.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 dekabr 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2020-ci il.*
*Məqalə Redaksiya heyətinin qərarı ilə çapa məsləhət görülüb.*

QARABAĞ AZƏRBAYCANDIR!

**UOT 94 (479.24)**

**MƏMMƏDAĞA BAXIŞOV**
*tarix üzrə fəlsəfə doktoru,*
*Bakı Dövlət Universitetinin dosenti*
**E-mail: mammadagabaxisov@bsu.edu.az**

# VƏTƏN MÜHARİBƏSİ VƏ FRANSANIN MÖVQEYİ

*Məqalə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə və 44 gün davam etmiş Vətən müharibəsinə həsr olumuşdur. Müəllif 30 ildən artıq davam etmiş münaqişəni həll etmək üçün Azərbaycan dövlətinin siyasi-diplomatik və hərbi fəaliyyətindən bəhs, BMT-nin və ATƏT-in Minsk qrupunun münaqişəni tənzimləmək üçün gördüyü işləri təhlil edir. Məqalədə ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi Fransanın münaqişə ilə bağlı mövqeyinə və siyasətinə xüsusi diqqət yetirilir.*

*Açar sözlər*: diplomatiya, ərazi münaqişəsi, Minsk qrupu, obyektiv vasitəçilik, təhlükəsizlik, birtərəfli yanaşma, tarixi qələbə.

*Giriş*. 1988-ci ilin fevralında Ermənistan bütün beynəlxalq hüquq normalarını kobud şəkildə pozub Azərbaycana qarşı müharibəyə başladı. Ermənistanın məqsədi tarixi və əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağı işğal etmək idi. SSRİ-nin rəhbərliyi müharibənin qarşısını almaq üçün ciddi tədbirlər həyata keçirmədi. Şirniklənən Ermənistan 1993-cü ilin sonunadək Dağlıq Qarabağı, onun ətrafında yerləşən Laçın, Zəngilan, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı rayonlarını və Qazax rayonunun yeddi kəndini işğal etdi. Azərbaycan ərazisinin 20 %-i Ermənistan ordusu tərəfindən tutuldu və milyondan artıq azərbaycanlı doğma yurdunu tərk etməyə məcbur oldu [1, 389]. Azərbaycan ərazisində erməni işğalı 2020-ci ilin sentyabrın 20-dək davam etdi. Uzun müddətli işğal nəticəsində ölkəmizə külli miqdarda maddi və mənəvi ziyan dəydi.

Azərbaycan dövləti və xalqımız işğalla barışmadı və ardıcıl şəkildə işğal olunmuş torpaqların azad edilməsi uğrinda mübarizə apardı. Torpaqların işğaldan azad edilməsi və Ermənistan-Azərbaycan münaqişəsinə son qoymaq uğrunda mübarizə Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindən birinə çevrildi. Bu məqsədlə Azərbaycan diplomatiyası beynəlxalq təşkilatların və böyük dövlətlərin imkanlarından faydalanmağa çalışırdı. Respublikamız BMT-dən Ermənistanın təcavüzünə qarşı tədbirlər görməsini xahiş etdi. BMT bu münaqişə ilə birbaşa məşğul olmaq əvəzinə vasitəçilik funksiyasını ATƏT-ə həvalə etdi. BMT hesab etdi ki, ATƏT Ermənistan-Azərbaycan münaqişəsini həll edə bilər [5, 296]. Bu zaman BMT ATƏT-in məhəlli münaqişələri həll etmək sahəsində təcrübəsinin olmamasını nəzərə almadı. Ümumiyyətlə, ATƏT fəaliyyət göstərdiyi müddət ərzində Avropa məkanında heç bir ərazi münaqişəsini həll etməyib. ATƏT-in bu məsələdə zəif mövqeyinin səbəbləri çoxdur, biri də təşkilatda qərarların yekdillik prinsipi əsasında qəbul edilməsidir. Lakin ATƏT BMT-nin təşəbbüsünü razılıqla qarşıladı və 1992-ci ilin martın 24-də Minsk qrupunu yaratdı. Minsk qrupu Ermənistanla Azərbaycan arasında vasitəçilik edib münaqişəni diplomatik yolla tənzimləmək və aradan qaldırmaq üçün təşkil edilmişdi.

Minsk qrupuna daxil olan bir sıra dövlətlər müntəzəm şəkildə onun işini pozdu, münaqişənin tənzimlənməsinə mane oldu ki, onlardan biri Fransa idi. Fəaliyyət göstərdiyi 28 il ərzində Minsk qrupunun və onun həmsədrlərin gördüyü işlərin başlıca yekunu münaqişənin həll edilməməsi oldu.

*1993-2020-ci illərdə münaqişənin beynəlxalq təşkilatlarda müzakirəsi və Fransanın siyasəti.* Azərbaycan Respublikası BMT ilə əməkdaşlıq edir və ondan münaqişənin həllinə kömək istəyirdi. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı dörd qətnamə qəbul etdi. Bu qətnamələr yerinə yetirilsəydi, münaqişə çoxdan öz həllini tapmışdı. Lakin Təhlükəsizlik Şurasında həmin qətnamələrə səs verən dövlətlər, xüsusilə daimi üzvlər sonradan onların yerinə yetirilməsinə mane oldu. Bu dövlətlərdən biri yenə Fransa idi. Azərbaycan hökuməti həmişə BMT qətnamələrinin yerinə yetirilməsinə çalışırdı. Ermənistanın qeyri-əməli mövqeyi və bir sıra dövlətlərin ermənipərəst siyasəti nəticəsində qətnamələrin icrası mümkün olmadı. Sonrakı dövrdə Ermənistan-Azərbaycan münaqişəsi dəfələrlə BMT-də müzakirə edildi, hər dəfə Fransa kimi

dövlətlər ədalətli qərarın qəbuluna imkan vermədi. 2008-ci ilin martın 14-də BMT-nin Baş Məclisi "Ermənistan qoşunlarının dərhal, tamamilə və danışıqsız işğal edilmiş bütün Azərbaycan torpaqlarından çıxarılması"nı tələb edən qətnamə qəbul etdi. Minsk qrupuna rəhbərlik edən ABŞ, Rusiya və Fransa qətnamənin əleyhinə səs verdi. Onlar BMT qətnaməsinin birtərəfli xarakter daşıdığını bildirdilər. Əslində bu amil həmsədrlərin birtərəfli mövqe tutmasının əyani sübutu idi.

Qəribədir ki, 1993-cü ildəki qətnamələrə səs verən daimi üzvlər, xüsusilə Fransa 2020-ci ilin oktyabrında Təhlükəsizlik Şurasında dərhal müharibənin dayandırılması və Azərbaycanın hərəkətlərinin pislənilməsi haqqında qətnamə layihəsini irəli sürmüşdü. Bloklara qoşulmayan ölkələrin qətiyyəti nəticəsində həmin qətnamə qəbul edilmədi.

1994-cü ilin əvvəlində Azərbaycan ordusu əkshücuma keçib işğal edilmiş ərazilərin bir qismini azad etdi. 1994-cü ilin mayın 12-də Bişkekdə Azərbaycanla Ermənistan arasında barışıq imzalandı [6, 158]. Münaqişənin tənzimlənməsi Minsk qrupunun inhisarına keçdi. Ermənistan-Azərbaycan münaqişəsi ATƏT-in 1994-cü ilin dekabrında Budapeştdə keçirilmiş müşavirəsində müzakirə edildi. Müşavirədə Dağlıq Qarabağa göndərmək üçün ATƏT-in sülhməramlı qüvvələrinin yaradılması haqqında qərar qəbul edildi. Lakin Rusiya və Fransa kimi dövlətlərin fəaliyyəti nəticəsində həmin qərar icra olunmadı. 1996-cı ilin dekabrında ATƏT-in Lissabon sammitində "Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinin prinsipləri" adlı sənəd qəbul edildi. Sənəddə öz əksini tapmış əsas prinsiplər Azərbaycan və Ermənistanın ərazi bütövlüyünün təmin edilməsi, Dağlıq Qarabağda yaşayan əhalinin təhlükəsizliyinə təminat verilməsi və Azərbaycanın tərkibində Dağlıq Qarabağa yüksək idarəetmə statusunun verilməsi idi. Fransa kimi havadarlarının diktəsi ilə Ermənistan həmin prinsipləri qəbul etmədiyini bildirdi. ATƏT-in Lissabon sammitində Minsk qrupuna Rusiya, Fransa və ABŞ-ın həmsədrlik etməsi qərara alındı [4, 72]. 1997-ci ilin yanvarından münaqişənin tənzimlənməsi üç dövlətin inhisarına keçdi. 1997-1998-ci illərdə Minsk qrupu münaqişənin həllinə yönəlmiş üç təkliflə çıxış etdi [1, 392]. Ermənistan bu təkliflərdən yalnız birini qəbul etdi, çünki "ümumi dövlət" variantı onun mənafeyinə uyğun idi.

Azərbaycan Respublikasının prezidenti, Ulu Öndər Heydər Əliyev Minsk qrupunun fəaliyyətindən narazı idi. Qrupun həmsədrləri mənasız danışıqlar aparmaqla əslində münaqişənin müddətini uzadırdı. 1999-cu ilin aprelində Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa görüşlərinin keçirilməsinə başlandı [7, 152]. Bu görüşlər zamanı münaqişənin həllii yolları müzakirə edilirdi.

Lakin birbaşa müzakirələr də uzun müddət ərzində nəticə vermədi. Əsas səbəb prezident İlham Əliyevin 2010-cu ildə ATƏT-in Astana sammitində söylədiyi kimi, Ermənistanın sülh istəməməsi, işğal edilmiş əraziləri azad etmək fikrində olmaması idi [8]. Ermənistan Dağlıq Qarabağın müstəqil dövlətə çevrilməsini və ya onunla birləşməsini tələb edirdi. Bu mövqe ziddiyyətli idi. 2020-ci ilin dekabrın 1-də prezident İlham Əliyevin xalqa müraciətində söylədiyi kimi, Ermənistanın bu münaqişə ilə bağlı dəqiq mövqeyi olmamışdır [9], Azərbaycan torpaqlarını isə qaytarmaq istəmirdi.

Azərbaycan hökumətinin münaqişə ilə bağlı mövqeyi qəti idi: Ermənistan qoşunlarının Azərbaycan ərazisindən çıxarılması, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi, məcburi köçkünlərin doğma yerlərinə qaytarılması və Dağlıq Qarabağa Azərbaycan tərkibində müəyyən statusun verilməsi. Torpaqlarını işğaldan azad etmək üçün Azərbaycan həm Minsk qrupu çərçivəsində, həm də birbaşa Ermənistanla danışıqları davam etdirdi, lakin düşmən mövqeyini dəyişmədi.

2001-ci ildə Azərbaycan və Ermənistan prezidentlərinin ABŞ-ın Florida ştatının Ki Uest şəhərində görüşü oldu. Görüşün yekunları haqqında məlumat verilmədi, sonra danışıqlarda fasilə yarandı.

2005-ci ildə Minsk qrupunda "qarışıq", yəni "mərhələli-paket" həlli variantı müzakirəyə çıxarıldı. Bu variant əsas tənzimləmə prinsiplərinin ilkin razılaşdırılmasını nəzərdə tuturdu. Həmin prinsiplər 2007-ci ilin noyabrında münaqişə tərəflərinə təqdim edildi.

2008-ci ilin noyabrında Rusiyanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan prezidentlərinin görüşü zamanı prezident İlham Əliyev bildirdi ki, münaqişənin siyasi yolla tənzimlənməsinə ümid edir, lakin müharibə yolunu istisna etmir. Sonrakı görüşlərdə prezident İlham Əliyev münaqişənin hərbi yolla həllinin mümkünlüyünü dəfələrlə nəzərə çatdırmışdı.

2009-cu ilin iyulunda Minsk qrupunun həmsədrləri “Madrid prinsipləri”ni əks etdirən bəyanatla çıxış etdilər. Bir müddət Azərbaycan və Ermənistan rəhbərliyi Madrid prinsiplərinin öyrənilməsi ilə məşğul oldu, çünki hər iki tərəf həmin prinsiplərin yalnız bir qismi qəbul edirdi [4, 73].

2010-cu ilin oktyabrında Həştərxanda, 2011-ci ilin martında Soçidə, 2011-ci ilin iyunun 24-də Kazanda Rusiyanın vasitəçiliyi ilə Ermənistan və Azərbaycan rəhbərlərinin görüşləri oldu. Kazan görüşündə razılıq əldə olunmadı, çünki Azərbaycan “Madrid prinsipləri”nə çoxsaylı dəyişikliklər edilməsini tələb etdi [4, 217].

2016-cı ilin aprelin əvvəlində Ermənistanla Azərbaycan arasında hərbi əməliyyatlar bərpa edildi. Rusiyanın vasitəçiliyi ilə 4 gün davam edən döyüşlər dayandırıldı. Eyni zamanda hər iki tərəf Minsk qrupu çərçivəsində danışıqların davam etməsinə tərəfdar idi.

Fransa danışıqların həmsədrlər tərəfindən aparılmasına təkid edirdi. ATƏT-in Minsk qrupu Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsindən ötrü məsuliyyət daşıyırdı. Aprelin 2-də Minsk qrupunun həmsədrləri bəyanatla çıxış etdilər ki, tərəflər atəşi dayandırsın. Minsk qrupunu rəhbərləri həmişə deyirdi ki, bu münaqişənin həll etmək üçün əsas prinsiplər qüvvə tətbiq etməmək, xalqların öz müqəddəratını təyin etməsi və ərazi bütövlüyüdür. Həmsədrlər iddia edirdi ki, müharibənin yenidən başlanmasının səbəblərini tədqiq etmək Minsk qrupunun mandatında yazılmayıb.

ATƏT-in Minsk qrupu münaqişəni həll etmək üçün heç bir səmərəli iş görmədi, yalnız mənasız danışıqlar aparmaqla məşğul olduğuna görə həmsədrlərin mövqeyi, münaqişəyə ikili standart mövqeyindən yanaşdığına görə öz vəzifələrini yerinə yetirmədi. Təsadüfi deyil ki, Vətən müharibəsi günlərində həmsədrlərin mövqeyi Azərbaycan və Türkiyə prezidentləri tərəfindən tənqil edildi. Xüsusilə, Fransa açıq şəkildə erməniləri müdafiə edirdi. Ona görə Azərbaycan xalqı Fransanın Minsk qrupundan kənarlaşdırılmasını tələb edirdi.

Minsk qrupunun həmsədrlərindən biri olan Fransa 1991-ci ilin dekabrın sonunda Azərbaycanın müstəqilliyini tanıdı. Fransa ilə respublikamız arasında diplomatik münasibətlər 1992-ci ilin fevralında yaradıldı [3, 62]. Fransa Azərbaycanla müxtəlif sahələrdə əməkdaşlıq etməyə başladı, bu əməkdaşlıq tədricən genişləndi. Xüsusilə, iqtisadiyyat sahəsində Azərbaycanla geniş əlaqələr yaradan, Xəzərdə neft çıxarılmasında iştirak edən Fransa Ermənistan-Azərbaycan münaqişəsinə təəssüf ki, ermənilərin mövqeyindən yanaşırdı. 1993-cü ilin dekabrında Fransaya rəsmi səfər edən Azərbaycan Respublikasının Prezidenti, Ümummilli lider Heydər Əliyevin məqsədi həm də, münaqişəyə münasibətdə Fransanın mövqeyinin dəyişilməsinə nail olmaq idi [2, 139]. 2003-cü ildən respublikamıza rəhbərlik edən prezident İlham Əliyevin də Fransaya çoxsaylı səfərləri olub və bu səfərlər, keçirilən görüşlər zamanı müzakirə edilən əsas məsələlərdən biri Ermənistan-Azərbaycan münaqişəsi idi. Lakin bir sıra ciddi səbəblərə görə Fransa bütün münaqişə ərzində ermənilərlə dostluğa üstünlük verirdi.

Fransa Dağlıq Qarabağ münaqişəsini “açıq millətlərarası qarşıdurma” hesab edirdi [12]. Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalına Fransa Dağlıq Qarabağ ermənilərinin işi kimi baxırdı. Fransa həmişə bu məsələdə ermənilərin tərəfində olmuş, Azərbaycanın güzəşt etməsinə çalışmış və ona təzyiq göstərmişdi. Fransa bu münaqişəyə həmişə ikili standart mövqeyindən yanaşıb. Halbuki, 2008-ci ildə Rusiya-Gürcüstan müharibəsi zamanı Fransa prezidenti N.Sarkozi Gürcüstanı müdafiə etmiş və Rusiya ilə Gürcüstan arasında vasitəçilik etmişdi [7, 208]. 30 il ərzində Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün heç bir iş görməyən Fransa 1991-ci ildə Körfəz müharibəsi zamanı [4, 135] İraq ordusunun Küveytdən çıxarılmasını elə yüksək səslə tələb edirdi ki, sanki İraq ordusu Küveyti yox, Fransa torpağın işğal edib.

Fransa Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu, dinc siyasi vasitələrlə həllinə tərəfdar idi. Fransa sülh yolu deyərkən, Azərbaycanın güzəştə getməsini nəzərdə tutmuş və heç zaman səmimi şəkildə Dağlıq Qarabağın Azərbaycan ərazisi olmasını etiraf etməmişdi. Fransa 1993-cü ildən bu günədək bu münaqişənin həlli ilə bağlı elə təkliflərlə çıxış edib ki, ermənilərin xeyrinə olsun. ATƏT-in üzvü və Minsk qrupunun həmsədri olan Fransa sözdə Ermənistan-Azərbaycan münaqişəsinin Helsinki prinsipləri əsasında həllinə tərəfdar idi. İşdə isə Fransa heç zaman beynəlxalq hüquq normalarına əməl etməyib və münaqişənin millətlərin öz müqəddəratını təyinetməsi prinsipi əsasında həllini təklif etməklə ermənilərlə eyni mövqedən çıxış edirdi. Bu məsələdə Fransanın

riyakar mövqeyi 2020-ci ilin noyabrın 25-də ən yüksək zirvəyə çatdı. Həmin gün Fransa senatı uydurma "Dağlıq Qarabağ Respublikası"nın müstəqilliyini tanıdı və hökumətdən bu qətnaməyə əməl olunmasını tələb etdi [13]. Fransanın xarici işlər naziri bildirdi ki, Fransa hökuməti "Dağlıq Qarabağ respublikası"nı tanımır və vasitəçi kimi fəaliyyətinin davam etdirir. Uydurma və heç bir əsası olan "erməni soyqırımı" haqqında üç dəfə (2001, 2006, 2012) qanun qəbul edən Fransa parlamenti [2, 147] heç zaman Xocalı faciəsinə hüquqi qiymət verilməsinə çalışmadı. Bu həmin Fransadır ki, uzun müddət ərzində dünyada İngiltərədən sonra ikinci müstəmləkəçi dövlət idi və müstəmləkələrinin əhalisini kütləvi şəkildə məhv edirdi. Fransa 115 il onun müstəmləkəsi olmuş Əlcəzairdə 1,5 milyon, Ruandada 500 min insanı məhv etmişdi. Yəni əsl soyqırımı özü törətmişdi.

1991-ci ildən ötən müddət ərzində Fransadan həm işgüzar dairələrin təmsilçiləri, həm də rəsmi şəxslər müntəzəm şəkildə Dağlıq Qarabağa səfərlər etmiş, orada yaşayan ermənilərə kömək vəd etmişdilər. Fransa şirkətləri Ermənistan hökuməti ilə razılaşıb işğal olunmuş Azərbaycan ərazilərində qiymətli metalların hasilatı da daxil olmaqla müxtəlif biznes fəaliyyəti ilə məşğul olub. Fransa təmsilçiləri heç zaman Dağlıq Qarabağa getmək üçün torpağın qanuni sahibi Azərbaycandan icazə almağı özünə rəva bilməyib. İşğal dövründə Dağlıq Qarabağa Fransa jurnalistləri Ermənistandan gəlirdi və onların Dağlıq Qarabağdan yayımladığı reportajlar qətiyyən obyektiv deyildi. 44 gün davam etmiş Vətən müharibəsi Fransa mətbuatında geniş işıqlandırıldı, lakin ölkənin kütləvi məlumat vasitələrində Azərbaycanın mövqeyi öz əksini tapmadı. Fransa mətbuatı yazırdı ki, döyüş zonasında Azərbaycan ordusuna qarşı "Dağlıq Qarabağ ordusu" vuruşur [12]. Fransa həmişə Ermənistan-Azərbaycan münaqişəsini "dini münaqişə" kimi qələmə verməyə çalışmışdı. Bu zaman Fransa müsəlman ölkəsi olan İranın Ermənistana göstərdiyi yardıma göz yummuşdu.

İşğal edilmiş ərazilərdə məscidlərin kütləvi şəkildə dağıdılmasını görmək istəməyən Fransa prezidenti xüsusilə Vətən müharibəsi günlərində Azərbaycan və Rusiya rəhbərləri ilə telefon danışıqları zamanı Dağlıq Qarabağda kilsələrin qorunmasını tələb etmişdi.

Fransa çalışırdı ki, münaqişə zonasında status-kvo qalsın, danışıqlar uzansın və ermənilər işğal etdiyi torpaqlarda möhkəmlənsin. Fransada bır sıra şəhərlərin merləri Dağlıq Qarabağın bəzi şəhərləri ilə dostluq xartiyaları imzalamışdı ki, bu beynəlxalq hüquqa və Fransanın beynəlxalq öhdəliklərinə zidd idi.

Fransa öz mövqeyini ölkədə 500 min nəfərlik erməni diasporunun olması və erməni lobbisinin orada hökumətin siyasətinə təsir göstərməsi ilə əsaslandırmağa çalışırdı. Erməni lobbisi təkcə Fransada deyil, digər Qərb ölkələrində və Rusiyada da hökumətin siyasətinə təsir göstərməyə çalışır. Fransa siyasətçiləri seçki zamanı ermənilərin səsini almaq üçün erməni lobbisinin istəklərini nəzərə alır. Fransadakı erməni diasporu dünya birliyinin diqqətini Ermənistan-Azərbaycan münaqişəsinə cəlb etmək üçün həmişə canfəşanlıq göstərib [4, 72].

Vətən müharibəsi günlərində E.Makron tez-tez Azərbaycan və Rusiya prezidentlərininə zəng edib hərbi əməliyyatların dayandırılmasını, danışıqların bərpa olunmasını tələb edirdi [11]. Müharibə dövründə Fransa Ermənistana hərbi yardım da göstərmişdi. Belə mövqeyinə görə Fransanı bəzən "ermənidən çox erməni" adlandırırdılar. Yeri gəlmişkən, 1993-cü ildə Fransanın baş naziri təyin edilən E.Balladur mənşəcə erməni idi. 1995-ci ildə E.Balladur hətta hakim partiyadan ölkə prezidentliyinə namizəd irəli sürülmüşdü [3, 164].

Müharibə günlərində Rusiya daha fəal idi. 2020-ci ilin noyabrın 10-da Rusiyanın, Ermənistan və Azərbaycanın rəhbərləri bəyanat imzaladı və müharibə dayandı. Erməni işğalının qalmasında maraqlı olan Fransa sülhyaratma əməliyyatlarında iştirak etmək istəyirdi. 10 noyabr bəyanatından sonra Fransanın hiddəti daha da artdı. Belə təəssürat yaranır ki, Fransanın deyəsən, ən vacib məsələsi "erməni məsələsi"dir. Halbuki, 2017-ci ildə E.Makronun prezident seçilməsindən sonra Fransanın daxili problemləri əsaslı şəkildə artıb və məsləhətdir ki, Fransa öz problemləri ilə məşğul olsun. Yox, əgər Fransa Ermənistanı belə çox istəyirsə, onun yerinə Azərbaycana ödəməli olduğu təzminatın yarısını versin. Dekabrın 1-də Laçın rayonunun Azərbaycana qaytarılması ilə bağlı xalqa müraciət edən Ali Baş Komandan Prezident İlham Əliyev demişdi: "Heç kimin bizim daxili işlərimizə qarışmağa ixtiyarı yoxdur. Əgər Fransa erməniləri çox istəyirsə, Marseli onlara versin və orada ikinci erməni dövləti yaratsın" [9].

Fransanın ermənipərəst mövqeyi həm də onun Türkiyə ilə münasibətlərinin gərgin olması və Vətən müharibəsi günlərində Türkiyənin Azərbaycanı müdafiə etməsi ilə bağlı idi. Müharibə zamanı Türkiyə ölkəmizə böyük mənəvi siyasi yardım göstərmiş, hər gün Azərbaycanın yanında olduğunu bildirmişdi. Fransa Türkiyəni Azərbaycana hərbi yardım göstərməkdə, hətta Suriyadan terrorçular gətirməkdə ittiham edirdi. Bununla bağlı Azərbaycan Prezidenti İlham Əliyev müharibənin ilk günlərində bildirmişdi ki, Fransa öz ittihamlarını əsaslandırmaq üçün bircə fakt belə göstərə bilməz [10]. Türkiyənin Azərbaycana yardım göstərməsi Fransanı həm də Liviya və Suriya hadisələri, Kipr məsələsi, Aralıq dənizinin şərqində qaz yataqlarının axtarışı və NATO daxilində Fransa-Türkiyə gərginliyi ilə bağlı idi.

*Nəticə.* Fransa "erməni soyqırımı"nı tanıyan ölkələrdən biri kimi Azərbaycanın həmin uydurmanı rədd etməsi və bu məsələdə həmişə Türkiyə ilə eyni mövqedən çıxış etməsindən də narahat idi. Təbii ki, Türkiyə Fransanın ittihamlarını qəti şəkildə rədd edirdi. Fransa parlamentinin qəbul etdiyi qanunlardan sonra Türkiyə prezidenti R.T.Ərdoğan bildirmişdi ki, Minsk qrupunun həmsədrlərindən biri kimi Fransanın vasitəçilik imkanları tamamilə tükənib. Yeri gəlmişkən, bəzi ekspertlər belə hesab edirdi ki, Fransa Ermənistan-Azərbaycan münaqişəsində uzunmüddətli vasitəçilikdən yorulub və kənarlaşmağa bəhanə axtarır. Noyabrın 26-da Azərbaycanın Milli Məclisi hökumətə tövsiyə etmişdi ki, Fransanın Minsk qrupunun həmsədrliyindən çıxarılması məsələsini nəzərdən keçirsin. Azərbaycan ordusu həm Ermənistanın, həm də onun havadarlarının layiqli cavabını döyüş cəbhəsində verdi.

2020-ci ilin sentyabrın 27-dən noyabrın 10-dək davam etmiş əkshücum əməliyyatları nəticəsində rəşadətli Azərbaycan ordusu Ermənistan ordusunu darmadağın, onun 30 il ərzində yaratdığı hərbi potensialı məhv etdi. Azərbaycan torpaqları işğaldan azad və ölkəmizin ərazisi bütövlüyü bərpa edildi. Düşmən üzərində qələbə Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Müharibə günlərində bütün Azərbaycan xalqı "Qarabağ Azərbaycandır" ifadəsinin müəllifi olan prezident İlham Əliyevin ətrafında bir yumruq kimi sıx birləşdi və düşmən üzərində qələbəni təmin etdi.

## ƏDƏBİYYAT


1. Baxışov M.Ə. Beynəlxalq münasibətlər tarixi (1918-2003). Bakı, AzTU, 2012, 408 s.

2. Avropa və Amerika ölkələrinin müasir tarixi (İkinci dünya müharibəsindən sonrakı dövr). Bakı, Bakı Mətbəəsi ASC, 2018, 334 s.

3. Baxışov M.Ə. Fransanın yeni və müasir tarixi. Bakı, AzTU, 2013, 188 s.

4. Фененко А.В. Современная история международных отношений: 1991-2018. М., Издательство: Аспект Пресс, 2019, 456 с.

5. Кулагин В.М. Международная безопасность. М., Издательство "КноРус", 2007, 318 с.

6. Богатуров А.Д. История международных отношений, 1945-2008. М., Аспект Пресс, 2010, 520 с.

7. Косов Ю. Мировая политика и международные отношения. М., Питер, 2012, 384 с.

8. Astanada ATƏT-in VII sammitində Presindent İlham Əliyevin çıxışı (1 dekabr 2010-cu il). "Azərbaycan", 3 dekabr 2010, No265.

9. İlham Əliyev xalqa müraciət edib. 1 dekabr 2020-ci il. - https://president.az/articles/48205 [Müraciət tarixi: 07.12.2020].

10. İlham Əliyevin Fransanın "Fiqaro" qəzetinə müsahibəsi. 24 oktyabr 2020-ci il. - https://president.az/articles/44170 [Müraciət tarixi: 07.12.2020].

11. Ədalət Verdiyev. Fransa ATƏT-in Minsk qrupunun həmsədri kimi fəaliyyətini şübhə altına qoyur. 2 oktyabr 2020-ci il. - https://ordu.az/az/news/172933/fransa-atet-in-minsk-qrupunun-hemsedri-kimi-fealiyyetini-subhe-altinda-qoyur [Müraciət tarixi: 07.12.2020].

12. Армяно-азербайджанский конфликт: а что, если бы мы попробовали быть объективными. 7 октября 2020. - https://report.az/ru/karabakh/azerbajdzhano-armyanskij-konflikt-a-chto-esli-by-my-poprobovali-byt-obektivnymi/ [Müraciət tarixi: 07.12.2020].

13. Как армянское лобби давит на парламент Франции. 26 ноября 2020. - https://report.az/ru/analitika/bolshe-vsego-ot-rezolyucii-postradaet-sama-franciya/ [Müraciət tarixi: 07.12.2020].

**MAMEDAGA BAKHISHOV**
*Ph.D, docent, Baku State Universitety*

## PATRIOTIC WAR AND FRANCE POSITION

The article is devoted to the Armenian-Azerbaijani Nagorno-Karabakh War and the 44-day Patriotic War. The author examines the political, diplomatic and military activities of the Azerbaijani state to resolve the conflict, which lasted more than 30 years, and analyzes the work done by the UN and the OSCE Minsk Group to resolve the conflict. The article pays special attention to the position of France on the conflict as one of the co-chairs of the OSCE Minsk Group.

*Keywords*: diplomacy, territorial dispute, Minsk Group, objective mediator, security, unilateral approach, historic victory.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 7 dekabr 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2020-ci il.*
*Məqalə Redaksiya heyətinin qərarı ilə çapa məsləhət görülüb.*

QARABAĞ AZƏRBAYCANDIR!

**UOT 94 (479.24)**

**AYDIN MƏMMƏDOV**
*Bakı Dövlət Universitetinin dosenti*
**E-mail: aydin.mmmdov.67@ mail.ru**

# AZƏRBAYCAN XALQININ DAŞLA BAĞLI İNANCLARINDA ŞƏHİD RUHLARINA EHTİRAM VƏ NƏSİL ARTIMI İLƏ BAĞLI TARİXİ DEMOQRAFİK BAXIŞLAR

*Azərbaycan torpağının sakinləri - əcdadlarımız qədim zamanlardan döyüşlərdə şəhid olanların ruhuna böyük ehtiramla yanaşmışlar. Döyüşdə həlak olan bu əsgərlərin şərəfinə yaxın insanlar boş məzarlar hazırlayırdılar. İnsanlar bu qəbirlərin ətrafında müxtəlif dini ayinlər və tədbirlər həyata keçirirdilər. Şəhidlərin ölməzliyini, əbədi olaraq yaşamalarını ehtiva edən bu tədbirlər sonralar insanların şüurunda silinməz iz buraxmış adət və mərasimlər kimi qəbul edilmişdir. Vətənini və bütün yaxınlarını işğalçılardan qorumaq, ərazi bütövlüyünü təmin etmək üçün əcdadlarımız həmçinin daşdan da kömək istəmişlər. Əcdadlarımızın inancına görə, döyüşdə həlak olmuş, qəbri olmayan döyüşçülərin ruhlarının sakitliyini təmin edən məhz daşdır. İnanclara görə, narahat ruhlar boş qəbirlərin yanında qoyulmuş yastı daşlara hopurdu. Odur ki, Günəşlə yanaşı daş kultu ilə əlaqəli adət və mərasimlər də toy, binə atma, məhsul yığımı, dəfn mərasimləri, hər hansı bir məsələnin həlli üçün təşkil olunan icma toplantıları və s. tədbirlər kimi əcdadlarımızın həyatında mühüm rol oynamışdır.*

*Açar sözlər:* əhali artımı, əhali məskunlaşması, demoqrafik baxışlar, daş inancı, şəhid ruhları.

*Giriş.* Geostrateji baxımdan son dərəcə əlverişli bir məkanda yerləşən doğma yurdumuz zəngin yeraltı və yerüstü sərvətləri ilə düşmənlərin nəzərini cəlb etmiş, Vətənimizə ayaq açmalarına səbəb olmuşdur. Vətənin igid ərənləri zaman-zaman qarı düşmənlə ölüm-dirim mübarizəsinə qalxmış, canlarından belə keçərək yurdumuzun ərazi bütövlüyünü qoruyub saxlaya bilmişdirlər. Sərvətlərimizin toxunulmazlığı uğrunda gedən bu qanlı qovğalarda şəhid olan el oğullarımızı xalqımız həmişə dərin ehtiram hissi ilə anmış, xatirələrini əbədiləşdirməkdən ötəri onlar üçün simvolik qəbirlər belə hazırlanmışdılar. İçərisi boş olan belə simvolik qəbirlərdə adətən kiçik ölçülü küplərdən istifadə edilirdi. Belə küplər, qəbirlərdə böyrü üstə müxtəlif istiqamətlərdə qoyulurdu. Tarixi ədəbiyyatda genotaf adlanan bu növ qəbir abidələrinə dünyanın bir çox ölkələrində təsadüf edilir. Lakin, genotaf qəbirlərdən ibarət bütöv bir qəbiristanlığa ancaq Qarabağda rast gəlmək olur. Sözügedən bu cür qəbiristanlığın aşkar edilməsində iştirak edən mərhum arxeoloq R.Göyüşov yazır ki, ekspedisiyamızın Qarabağda genotaflardan ibarət açdığı qəbiristanlıq dünyada nadir hadisələrdəndir. Haqqında danışdığımız qəbiristanlıq indiki Xocavənd bölgəsinin Ağoğlan məbədi ərazisindədir (8, 27).

Bəs nə üçün döyüşlərdə şəhid olan yaxud bu və ya digər səbəblər üzündən yurduna, məmləkətinə dönməyən insanlar üçün belə məzarlıqlar düzəldilirdi. Bu, ilk növbədə ən qədim zamanlarda mövcud olan dini inanclar sistemi ilə bağlı idi. Belə ki, insanlar qəbiri olmayan yaxın mərhumlarının ruhlarının rahatlıq tapa bilməməsinə inanaraq narahat olur, onlar üçün simvolik boş qəbirlər düzəldərək yanlarına yastı daşlar qoyurdular. Qədim inanclara görə, ölən insanın ruhu məhz bu daşlara hoparaq rahatlıq tapırdılar. Zaman-zaman belə boş qəbirlər ziyarət edilir, onların ətrafında müəyyən ayin və mərasimlər icra olunurdu. Başqa sözlə desək, belə genotaf qəbirlərdə şəhid ruhlarının əbədi olaraq rahat uyuması üçün mümkün olan hər şey edilirdi. Bu isə, soydaşlarımızın bəşər tarixinin ən qədim çağlarından üzü bəri torpaq uğrunda canını fəda edən insanlara rəğbət, hörmət və sevgi hisslərindən xəbər verir. Ulu əcdadlarımızın bu cəhdləri təbii ki, hər şeydən öncə düşmən qüvvələrini ram etmək, işğalçı niyyətlərini dəf etmək, düşmən tapdağından azad olunmuş vətənlərində normal həyat və məişətlərini təmin etmək ehtiyacından, yaşamaq uğrunda apardıqları çox çətin, mürəkkəb mübarizədən irəli gəlirdi.

Təbii ki, insanların yaşamaq uğrunda apardıqları mübarizə çox çətin, mürəkkəb və çoxcəhətli bir prosesdir. Belə ki, burada söhbət insan həyatının, onun daxili mənəvi aləminin tükənməzliyindən,

potensial imkanlarının nəhayətsizliyindən gedir. İnsan özü ilə ətraf mühit, xəyal və istəkləri və təbii reallıqlar arasında körpü yaratmağa çalışır, özünü sirli-sehrli dünyanın ayrılmaz varlığı kimi dərk edirdi. Ulu əcdadlarımızın göyə, yerə, dağlara, daşlara, suya, oda, ocağa tapınması, şəhid ruhlarını müqəddəsləşdirməsi də belə baş verirdi.

Azərbaycanlıların ən qədim inanclarında odla, ocaqla bərabər, torpaq, dağ və daşlar da ən müqəddəs təbiət elementlərindən biri olmuşdur. Çünki, qədim insanların sığınacaq tapdıqları, pənah gətirdikləri ilk məskən sal qayalar, daşlar arasındakı mağaralar olmuşdur. İnsanların həyatında mühüm rol oynayan mağaralar: "onları soyuqdan, istidən saxlamış, həm də əldə etdiyi qida məhsullarının saxlanmasına imkan yaratmışdır" (2, 404)

Daşlara pənah gətirən insan məhz onun qoynunda özünə daimi yaşayış yeri tapmış, məişət və güzəranını sahmana sala bilmişdir. Lakin, qışda soyuq olan mağaraları əcdadlarımız odla, alovla qızdırırdılar. Belə olan tərzdə daşlara inam necə yarana bilərdi. İnsanın şüur və təfəkkürü inkişaf etdikcə, oddan təsadüfi istifadə halları da aradan qalxır, odun süni yolla əldə edilməsi isə, insan mədəniyyətinin ayrılmaz hissəsinə çevrilirdi.

Elə qədim əcdadlarımızın daşların insanlara həyat bəxş etməsi ilə bağlı inam və inanclar da məhz bu dövrdən, yəni insanın daşları bir-birinə vuraraq od əldə etməyi öyrənməsi ilə eyni vaxtda başlamışdır.

Ə.Cəfərovun təbirincə desək, iki çaxmaqdaşını bir-birinə vurub, qəlpə qoparmaq istəyən insanı bu zaman əmələ gələn qığılcım mat qoymuşdu: "Bu nə ola bilər? Belə bir hadisə ilk dəfə idi ki, onların diqqətini cəlb edirdi. Hamı bu hadisəni təəccüblə qarşıladı və onun necə baş verməsi səbəbi ilə maraqlandı. Daşları bir-birinə vurdular. Bu dəfə də daşlardan qığılcım qopmağa başladı (6, 33).

Ulu əcdadlarımızın ən qədim inanclarında Günəşin yerdəki bəlgəsi kimi müqəddəsləşdirilən odun daşdan yaranması, yaxud daşın odu, ocağı "doğması" təbii ki, bu təbiət elementinə də ehtiram və rəğbət qazandırmalı, onu müqəddəsləşdirməli idi.

Ulu əcdadlarımız Günəşi və onun bəlgəsi olan odu-ocağı doğum, törəmə və artım əqidəsi ilə də bağlamışlar: "Məhz ocağın müqəddəsliyinə görədir ki, onu qəbilə ilə, nəsillə eyniləşdirirdilər" (9, 238).

Günəşə, oda, ocağa aid demoqrafik xüsusiyyətlərin müqəddəs daşlara da transifikasiyası təbii ən əski çağlarda heç də bir qrup seçilmiş adamın daxili hissinin təzahürü olmayıb, bütün xalqa məxsus mənəvi prosesdir. Qədim əcdadlarımızın daşların doğum və artımla bağlı inanclarını əks etdirən folklor nümunələri ilk növbədə real gerçəklikdən alınmış təsəvvürlər üzərində yaradılmışdır. Lakin, bu təsəvvürlərdə gerçəklikdə bilavasitə əlaqə tələb olunmur. Çünki, işığı, istini "doğan" daş insanın həyat şəraitini, məişətini yaxşılaşdırmaqla, qışın məhvedici şaxta-sazağından, vəhşi heyvanların pəncəsindən qurtarmaqla yaşamasına, nəslini artırmasına misilsiz töhfə vermiş olurdu. Yaşamaq və öz nəslini artırmaq arzusu və onu reallaşdırmaq istəyi ulu əcdadlarımızın dini inanclar sistemində daşların da uca statusunu müəyyənləşdirir, onlara pərəstişin əsasını qoyurdu: "...Qədim əcdadlarımız daşları, suları, dağları, ağacları fetişləşdirməklə sonrakı dövrlərdə müqəddəs yerlər hesab edilmiş pirlərin əsasını qoymuşlar (13, 88-89; 14, 57).

Başqa sözlə desək, ulu əcdadlarımız onların gündəlik ehtiyaclarını aradan qaldırmağa kömək etmiş müqəddəs daşları öz mifoloji təsəvvürlərində xeyirxah element kimi rəzmləşdirmiş, ona doğuma və artıma yardımçı ola bilən xüsusiyyətlər şamil etmişdir. Xalq inamına görə, daşlar da ana ola bilir, yəni artım nəsil verərək çoxala bilirlər.

Şabran rayonunun Leyti kəndində ətrafında çoxlu kiçik daşlar olan iri daşa "balalayan daş" deyirlər. Hətta indinin özündə belə xalq inanclarına ehtiram göstərən həmin kəndin sakinləri, hər il həmin iri daşın ətrafındakı xırda daşların çoxalmasını guya ana daşın balalaması ilə izah edirlər. Eyni inam və inancla Azərbaycanın digər guşələrində də rastlaşırıq.

Vaxtı ikən Culfa rayonunun Xanağa kəndində yaşayan 106 yaşlı Hüseynova Səkinə Əli qızının dediklərindən: "Qızılca kəndinin yaxınlığında bir təpə var. Adına Daban təpəsi deyirlər. Orada olan daşlar ocaxdı. Onlar göydən düşüblər, keçmişi də bilirlər, gələcəyi də. Adamların dərdini də bilirlər, dərmanını da. Orada olan daşlardan biri qalanından çox böyükdü. El arasında həmin daş o birilərinin anası hesab olunur. Balaca daşlar da onun balalarıdı. Ana daş həmişə balalayır..." (4, 82).

Hələ çox qədimlərdə adamlar göy gurultusunu göydə yaşayanlar arasında baş verən toqquşma ilə izah edər və deyərdilər ki, göydəkilər iri, nəhəng daşları buludların arxasında bir-birinə tərəf

diyirlədirlər. Daşlar bir-birinə dəyəndə qulaqbatırıcı səs çıxarırmış. İnanclara görə, birdən bu daşlardan biri göydən yerə düşərsə, bədbəxtlik olmasın deyə, adamlar qorxu içində komalara, mağaralara girib gözlərmiş. Gurultu kəsilənə qədər mağaradan çıxmazmışlar. Deyərmişlər: "Yenə, göydəkilərin nəyə görəsə sözləri çəp düşüb, ona görə də, aralarında dava başlanıb" (1, 29).

Bu mifoloji mətnlərdə daşların göydə qərar tutması, yaxud göydən düşməsi təbii ki, əcdadlarımızın qədim astral baxışları ilə bağlıdır. Axı xalqımızın qədim astral baxışlarına görə Göy də müqəddəsdir. Belə ki, Göylə bağlı çoxsaylı folklor nümunələrindən birində deyilir ki, "Göydəki ulduzların sayı yer kürəsində yaşayan insanların sayı qədərdir. Hər adamın bir ulduzu var. Adam öləndə onun ulduzu da batır ki, buna ulduz axması, ya uçması deyilir. İnsan anadan olan günü onun ulduzu da göydə doğulur" (3, 282).

Başqa bir inancımızda hər adamın iki ulduzu olmasından bəhs edilir. İnanca görə, bu ulduzlar insanın bütün ömrü boyu, həmişə onun çiyinlərində olur, yalnız adam öləndə yoxa çıxırlar (3, 283). Başqa sözlə, xalqımızın mifik kosmoqonik baxışlar sistemində bir növ göy insanların nəinki artım, eləcə də ölüm dinamikasını əks etdirən demoqrafik göstərici rolunda çıxış etmişdir.

Ulu əcdadlarımızın gecə göy üzündə çoxsaylı nöqtələr kimi görünən, bərq vuran ulduzlara doğum və ölüm kimi demoqrafik xüsusiyyətləri aid etməklə, bir növ insan nəslinin artma və azalma səbəblərini anlamağa çalışmışlar. Digər tərəfdənsə, insan nəsillərinin artması – çoxalması və azalması kimi təbii demoqrafik proseslərin sanki göydən idarə olunduğunu təsdiq etmişlər. Əlçatmaz göylərdə hər bir varlıq, hadisə göründüyü qədər də asan deyildir, aydın şəkildə görünən hər şeyin arxasında bir sirr, bir müəmma vardır.

Qədim inanclara görə bu ulduzlardan bəziləri hətta nə vaxtsa yerdə yaşayan insanlar imiş, həmin insanlar guya nə vaxtsa bu və ya digər arzuedilməz hadisələrdən özlərini qorumaq üçün səmaya üz tutaraq yalvarmış və ulduz olub göylərə çəkilmişlər. Ülkər adlı ulduzla bağlı mifoloji folklor nümunəsi buna əyani misaldır: "Ülkər ulduzu guya bir gözəl qız imiş. Süleyman peyğəmbər ona aşiq olur və zorla hərəmxanasına aparmaq istəyir. Ülkər Süleyman peyğəmbərə getmək istəmir, bir uzaq yerə çəkilib dua edir. Onun duası qəbul olunur, qız ulduz olub göyə çəkilir" (3, 283).

Bu mətndə Ülkərin duasının qəbul olunması ilə insan haqqının, ləyaqətinin göylər üçün nə qədər önəmli olması aydın şəkildə özünü göstərir. Məhz bu baxımdan qədim əcdadlarımızın daşların da göydən yerə enməsi kimi astral, kosmoqonik baxışları onlara olan inamı təbii ki, artırmalı idi. Məhz ona görə də xatırladığımız mifoloji mətndə deyildiyi kimi həmin daşlar keçmişi də, gələcəyi də bilirlər, onlar ocaqdırlar: "Oda and içərlər: "Bu od haqqı!", "Ocaq haqqı!", "Ocağın sönsün!", "Gözün köz kimi qızarsın!", "Çıraq haqqı!". Hətta piri ocaq hesab edərlər. Pirə, imamzadəyə gedənə "ocağa gedib" deyərlər (3, 282).

Mifoloji mətnlərdə daşlar çox zaman hamilə qadınlara qahmar çıxır, onları çirkin niyyətli insanların məkrindən, düşmənlərin xətərindən, şər qüvvələrin zərərindən qoruyur. Məsələn, mifik mətnlərdən birində yolu daşlardan düşən, burada böyük qoyun sürüsü ilə üzləşərək, göy otlardan yeyib oynaşan əmlikləri görən hamilə qadının könlündən quzu əti yemək keçir. Üzünü çobanlara tutaraq istəyini onlara bildirdikdə, çobanlardan biri irəli yeriyib gəlinə acıqlı-acıqlı: "Ürəyin əmlik əti istəyir? Nə olar. Otur, bu saat qardaşın sənə əmlik əti verər" – deyə, söyləyir. İnsafsız çoban tez küçüklərdən birini xəlvətcə kəsərək bişirmək istədikdə bu haqsızlığa dözməyən yoldaşı ona yanaşır: "Sən sürüyə baş çək, əmliyi özüm bişirərəm" – deyə, söyləyir. İnsaflı çoban əmliyi bişirən kimi hörmətlə gəlinə verir. Gəlin əmlik ətini iştahla yeyərək alqış edir, sonra da yoluna düzəlir.

Çoban isə süfrəni yığışdırandan sonra, nə qədər gözləyirsə yoldaşı gəlib çıxmır: "Gedim, görüm nə olub" – deyə, yoldaşının dalınca yollandı. Gəlib gördü ki, yoldaşı çiynində çomaq daşa dönüb" (4, 118).

Mifoloji mətndə ana olmaq istəyən hamilə qadına qarşı nalayiq hərəkəti edən çobanın hərəkətini nəsil artımını, doğumu himayə edən hami qüvvələr xəyanət kimi qiymətləndirərək onu cəzalandırırlar, daşa çevirirlər. Digər mifoloji mətndə isə, özünü düşmənlərin təqibindən qurtarmağa çalışan hamilə gəlinin göylərə yalvarışı nəticəsində özü daşa-qayaya dönür: "Bir düşmənlər qəfildən hücum çəkirlər. ...Yağılar qabaqlarına keçənləri qoca demir, uşaq demir, qadın demir, hamısını qılıncdan keçirirlər. Bu qaçhaqaçda bir hamilə gəlin də gizlənməyə yer axtarır. Üz tutur ayaqyalın,

başı aşıq dağlara sarı. Düşmənlər sən demə gəlini görübmüşlər. Düşürlər arxasınca. Gəlin piyada, həm də hamilə, düşmənlər də atlı, yazıq hara qaça bilərdiki? (4, 116).

Mifoloji mətndə deyilir ki, düşmənlər çathaçatda gəlin arını, ismətini qoruyub saxlamaq üçün göylərə yalvarış edir. Düşmən atlıları özlərini gəlinə yetirincə heyrətdən yerlərindəcə donub qalırlar. Belə ki, onların qarşısında hamilə gəlin əvəzinə hamilə qadına oxşayan uca qaya peyda olur: "Gəlin qayaya dönübmüş. Elə o vaxtdan da bu qayaya "Gəlin qayası" deyilir" (4, 116).

Burada bir məqamı xüsusilə qeyd etmək istərdim. Belə ki, mifoloji mətndə yağı düşmənlərin at belində hamilə qadını təqib etmələri, əhaliyə divan tutmaları, qətliam törətmələri səhnələrinin təfərrüatı ilə təsvir edilməsi onu məzmun və mahiyyət baxımından tarixi mənbəyə də çox oxşadır.

Məsələn, XIII əsrin görkəmli tarixçisi İbn əl-Əsir "Əl-kamil fi-t-tarix" adlı əsərində monqolların 1221-ci ildə Beyləqan şəhərində törətdikləri qırğınlardan bəhs edərək yazırdı: "Qılıncı sıyırıb kiçik, böyük və arvad baxmadılar. Hamısını qırdılar. Hətta hamilə arvadların qarınlarını yarıb çağalarını çıxartdılar və öldürdülər. (5.114) İndi isə mifoloji mətnə nəzər salaq: "...Adamlar özlərini itirir, hara qaçdıqlarını bilmirlər. El-obanın çox igidləri qırıldı. Yağılar qabaqlarına keçənləri qoca demir, uşaq demir, qadın demir, hamısını qılıncdan keçirirlər (4, 116).

İbn əl-Əsir monqolların qadınların mənəviyyatına toxunmasından bəhs edərək: "...Özləri də (yəni, monqol əsgərləri – A.M.) arvadları zorlayıb sonra öldürdülər". – deyə, yazır. Yenə də, həmin mifoloji mətndə oxuyuruq: "...Gəlin piyada, həm də hamilə, düşmənlər də atlı, yazıq hara qaça bilərki. Ələ keçəndə də onun başına nə gətirəcəklər, kim bilir" (4, 116).

Beləliklə, mifoloji mətnin tarixi mənbə ilə müqayisəsi əslində mifoloji və ümumiyyətlə, folklor nümunələrinin tariximizi öyrənmək üçün son dərəcə etibarlı, ilkin mənbə rolunu oynamasını bir daha aydın surətdə sübut edir. Digər tərəfdən həm sözügedən mifoloji, həm də tarixi mənbənin mətnində ölkəmizə hücum edən düşmənlərin zaman-zaman xalqımıza qarşı yeritdikləri soyqırımlarının böyük siyasi məqsədlər güddüyünü göstərir. Mühüm geostrateji mövqedə yerləşən, sərvətlərlə zəngin ölkəmizin əhalisini fiziki cəhətdən məhv etməklə torpaqlarımıza sahib olmaq istəyənlər təbii ki, burada öz maraqlarına uyğun demoqrafik siyasət yeritməyi də başlıca vəzifələrindən biri sayıblar. Bu isə əhali artımı ilə bağlı demoqrafik məsələlərin tarixin bütün anlarında aktual olduğunu, heç zaman gündəmdən düşmədiyini aşkar surətdə göstərir. Bu mənada "Gəlin qayası" ilə bağlı mifoloji mətndə hamilə qadının elə özünə oxşayan uca qayaya çevrilməsi əslində həmin qadının bətnindəki övladla bərabər vətəni qoruyan sipərə, qalaya, qayaya, müdafiə istehkamına çevrilməsi anlamına da uyğun gəlir. Bu folklor nümunəsində: "Qadın ucalıq, ülvilik, bakirəlik, gözəllik tacıdır... Ana vətəndi, vətən də ana. Nə vətənsiz ana, nə anasız vətən..." (2, 125). Yəni düşmən hamilə qadını fiziki cəhətdən hətta məhv edə bilsə belə, onun heysiyyatını, ailəyə, vətənə olan bağlılığını, namusunu nəinki alçalda bilmir, əksinə vətəninin möhtəşəm qayasına çevrilən ananın qüdrəti, yenilməzliyi önündə kiçilir, cılızlaşır, aciz vəziyyətə düşür.

Məhz bu səbəbdən də, Azərbaycan folklorunda azərbaycanlı anası, qadını çox zaman yenilməzliyi, bədii monumentallığı ilə diqqət çəkir. Bəlkə də xalqımızın əsrlər boyu yaratdığı, ərsəyə gətirdiyi folklor nümunələrində təsvir olunan analarımız Tomirislərin, Sara xatınların, Tutibikələrin, Həcərlərin obrazlarıdırlar. Yəni, bu folklor nümunəsində dünyaya insan gətirən, oğul-qız doğan ana nəhəng, yenilməz bir qalaya çevrilərək Vətən sərhədlərini yağılardan qoruyan sipər rolunda çıxış edir. Bəlkə də özünü yağı düşməndən qoruyan hamilə qadın atlı düşmənləri ardınca salaraq onları yaşadığı, sakini olduğu kənddən, yaxud şəhərdən məqsədyönlü şəkildə uzaq salır, beləcə bətnindəki körpəsinə, o cümlədən gələcək nəsillərə Vətəni qorumaq, onun uğrunda lazım gələrsə canından belə keçmək tərbiyəsini aşılayır.

Daşlara ocaq kimi səcdə edən insanlar onları yerindən tərpətməyi belə günah sayıblar: "Ana daş həmişə balalayır. Onu öz yerindən götürüb başqa yerə aparanda o, gecə ikən qayıdıb gəlir, balalarının içində olur" (6, 82).

Elə xalqımızın: "Bir daş da yiyəsiz deyil, hər daşın bir sahibi var" deyimi də bu inancla bağlıdır. İnsanlar inanırdılar ki, müqəddəslik məqamı qazanan daşların yerindən tərpədilməsi belə onlara bədbəxtlik və fəlakət gətirər. Mifoloji mətnlərdən birində evinin zirzəmisində qoca bir daşı yerindən tərpətmək istəyən qadının üzləşdiyi bədbəxt hadisədən bəhs olunur. Daşı evinin

zirzəmisindən bayıra çıxarmaq istərkən: “...Daşın xofu onu basır, qayıdıb tez gedir mollanın yanına. Molla deyir ki, zirzəmini təmiz saxla, əgər natəmiz olsa, sizə ziyanlıq gətirəcək (4, 81).

Həmin arvadın nəvəsi zirzəmidəki daşı murdarladığına görə xəstələnərək ölür. Mollanın göstərişi ilə arvad həmin daşı məscidə gətirir: “Amma səhər durub görür ki, daş yenə zirzəmidədi. Ondan sonra neçə dəfə daşı aparırlar məscidə, daş yenə də qayıdıb gəlir öz yerinə” (4, 81).

İstər Ülkər ulduza, istərsə də zirzəmidəki daşla bağlı mifoloji mətndə ulu əcdadlarımızın minilliklərdən üzü bəri yol gələn astral mifoloji baxışları ilə təkallahlılığa söykənən dini əqidələri sanki, eyni məfkurə meydanını, səhnəsini bölüşürlər, lakin bir-birini inkar etmir, əksinə rəğbətlə yanaşırlar.

Yeri gəlmişkən, daşlara ehtiram, onların yerini dəyişməyin qəbahət v babal olmasına inam hətta XVIII əsrə dair tarixi qaynaqlarda da öz əksini tapmışdır.

Teymurun qəbirüstü tünd-göy rəngli nifrit daşından düzəldilmişdir. Bu daş 1425-ci ildə Uluqbəy tərəfindən monqolların məğlubiyyəti dövründə qənimət alınmışdır. 1740-cı ildə İran şahı Nadir Buxara xanlığını aldıqdan sonra Səmərqəndə daxil olur və əmr edir ki, Teymurun qəbirüstü nifrit daşını söküb Məşhəd şəhərinə aparsınlar. Söyləyirlər ki, daş çıxarılıb aparılarkən Nadir şahın yeganə oğlu ölür. Odur ki, o Allahdan qorxub daşı Səmərqəndə qaytarır (12, 128).

Deyilənlə görə, Böyük Vətən müharibəsi Əmir Teymurun qəbrinin üzərindəki sinə daşı götürüləndən sonra başlanmışdır. Milyonlarla insanın ölümü ilə nəticələnən bu müharibədə sovet qoşunlarının uduzaraq geri çəkilməsini görən generallardan biri (ehtimala görə, bu G.K.Jukov olub – A.M.) İ.Stalinə Əmir Teymurun nəşini yerinə qaytarmasını tövsiyə edir. Elə sovet qoşunlarının Böyük Vətən müharibəsi illərində ilk dəfə müdafiədən hücuma keçməsi də Əmir Teymurun sinə daşının yerinə qaytarılması ilə başlanır.

Azərbaycanın orta əsrlərdə (XIV-XV) yaşamış görkəmli alimi Ə.Bakuvi planetimizdə müxtəlif təbii zonaların yaranmasını müxtəlif keyfiyyətli daşların mövcudluğu ilə izah edirdi. O yazırdı: “Günəşin təsiri, yağışların yağmağı və küləklərin əsməsi nəticəsində Yer kürəsinin hər bir guşəsini bir-birindən ayıran fərqlər əmələ gəlir. Onların bəziləri möhkəm daşa döndü, digərləri bərəkətli torpaq oldu, üçüncüsü də şoranlığa çevrildi. Hər bir guşənin öz xüsusiyyəti var: daşlıqlarda yaqut və zümrüd yaranır, bərəkətli yerlərdə taxıl və meyvə bar verir, şoranlıqlarda isə, duzla zəy əmələ gəlir və hər bir guşəni özünəməxsus insan nəsli fərqləndirir. Bu, ya alimdir, ya dini xadimdir, ya da ki sənətkardır” (7, 8).

Göründüyü kimi, əl-Bakuvi tarixi demoqrafiyanın mühüm tədqiqat sahələrindən biri olan məskunlaşma hadisəsini daşların və torpağın xüsusiyyəti ilə sıx şəkildə əlaqələndirmişdir.

İnanclara görə, daşlar insanlara övlad da bəxş edir. Mifoloji folklor nümunələrindən birində, daş ölü uşaq doğan qadına analıq sevincini yaşamaq səadəti bəxş edir. Belə ki, həmin ana ərinin qorxusundan ölən uşağını gizlədib onun yerinə beşiyə daş qoyaraq yırğalamağa başlayır: “Əri evə qayıdanda arvadının bar - yükünü yerə qoyduğuna çox sevinir. Beşiyə tərəf gedir ki, övladına baxsın. Gəlin tez yerindən qalxır, dili tutar-tutmaz deyir ki, təzəcə yuxuya gedib oyadarsan. Kişi bir qədər gözlədikdən sonra səbri çatmır. Arvadının sözünə baxmır, özünü salır beşiyə. Görür ki, beşikdə gözəl bir uşaq var. Amma hər ikisini heyrət bürüyür. Arvad görür ki, beşiyə qoyduğu daş uşaq olub. Kişi də çaşır ki, bir günlük uşaq “nə atam var, nə anam, yaranmışam daşdan mən” deyə, mahnı oxuyur” (4, 81-82).

Yunanların baş tanrısı Zevs dünyaya gələndə anası Rey onu əri Kronosdan gizlədir. Kronos arvadının dünyaya gətirdiyi övladları udduğuna görə, Rey oğlu Zevsin əvəzinə bələyə daş bükür. Rəvayətə görə, daşa övladını zalım Kronosdan qurtarmağı xahiş edən ana istəyinə nail olur. Kronos oğlunun əvəzinə daşı udduğuna görə, Krit adasındakı mağarada gizləyir. Burada Zevsi ana südü ilə Amalfeya adlı keçi bəsləyir. Nəzərə alsaq ki, keçi dünyanın demək olar ki, bir çox xalqlarında, o cümlədən türkdilli xalqlarda yazın, günəşin, törəmənin, artımın bəlgəsi, simvoludur (10, 267-272; 11, 327-331). Onda Zevsi ölümün labüd pəncəsindən qurtaran, daşın da insan nəslinin artıb-törəməsinə yardımçı etməsi bəlli olar. Burada daş Zevsi ölümdən qurtarır, keçi isə onu öz südü ilə bəsləyir, yaşadır. Bu mənada, daşın artıq irəlidə söylədiyimiz kimi Günəşlə, artımla ilişgili olması, əlaqəsi bir daha öz təsdiqini tapır (15, 560).

Bu folklor nümunələrindən birində, daş ölən övladı əvəz edir, digərində isə, təzə doğulan körpəni real ölüm təhlükəsindən xilas edir. Hər iki halda daş nəsil artımının himayədarı kimi çıxış edir.

Yazın carçısı olan Xıdır İlyasın yolunu nəhəng əjdaha kəsəndə daş yenə də kara gəlir. Belə ki, Xıdır İlyasın atı şahə qalxır, əjdahaya bərk bir təpik vurur. Əjdaha daha yerindən birdə qalxmır, daş olur qalır (4, 82).

Bu folklor nümunəsində də, əjdahanın Xızır İlyasın yolunu kəsməsi əslində Günəşin, istinin, işığın yolunu kəsməsi anlamına gəlir. Təsadüfi deyildir ki, Azərbaycanın bəzi bölgələrində, iri buludlar Günəşin qabağını kəsəndə, yaxud uzun müddət quraqlıq olarkən insanlar daşlardan istifadə etməklə bir sıra ayinlər icra edirdilər. Soydaşlarımız yağışlar uzun müddətli ara verəndə insanlar müqəddəs ocaqlardan götürülmüş daşları, ortadan dəlib suya salardılar. Məsələn, Quba – Qonaqkənd zonasında Babadağından gətirilmiş yeddi daşı ortadan dəlib bir ipə düzər və ananın ilki olan qız uşağı onu suya salıb ipin başını sahildəki ağaclardan birinə bağlayardı. Daşlar suya salınarkən insanlar xorla oxuyardılar: “Daş başım, yaş başım. Yaş oldu üst-başım”. Sonra daşı suya salardılar və bu vaxt əsas əfsunçu oxuyardı: “Suda daşım, quda daşım, baba daşım. Gələr. Getməz yağışım” (13, 12).

Günəşin çıxmasını arzulayan insanlar da Babadağından gətirilmiş daşı ocaqda, küldə basdırır və ocaqda xəşil bişirirdilər. Xəşili ananın ilki çalmalıdır. Əfsunçu basdırılan daşın üstünə közləri yığa-yığa oxuyardı: “Qodu, odu daşı. Qodu kəssin yağışı” (13, 13).

Ulu əcdadlarımızın mifoloji inanclarında daşların insanlara şəfa verərək ömürlərini uzatması əqidəsi də mövcud olmuşdur. Şabran rayonunun Leyti kəndində kənd sakinlərinin uzun illərdən bəri inam bəslədikləri dalaq piri, yel piri, dişağrısı piri və s. bu kimi ziyarətgahları mövcuddur. Adı çəkilən pirlərin hamısında forması ilə insanda təəccüb və heyrət doğuran sal daşlar mövcuddur. İnanca görə, dalağı ağrayan, sancan insan dalaq piri daşına toxunaraq şəfa diləyir. Yaxud, yel xəstəliyinə tutulan insanlar yel piri daşına nəzir-niyaz gətirərək müəyyən ayinlər yerinə yetirərək, muradlarına çatacaqlarına inanırlar.

Təbii ki, bütün bu ayinlərin yerinə yetirilməsinin kökündə ulu əcdadlarımızın daşlara dair inancları durur.

Ulu əcdadlarımızın ətraf mühit haqqında bilikləri zaman-zaman artdıqca, təbiət hadisələrinə dair təsəvvürləri dərinləşdikcə inancları ilə gerçəklik arasında olan məsafə də azalır, yaxud üst-üstə düşürdü. Çünki, təbiət hadisələri haqqında elmi biliklərin formalaşması, elmi mücərrədləşdirmənin özü də insanın ətraf mühitlə ünsiyyəti zamanı əldə etdiyi uzun inkişafının nəticəsi olmaqla yanaşı həm də gerçəklik hadisələrinin real inikasıdır. Bu gün elmi-texniki tərəqqinin dayanmadan, sürətlə inkişaf etdiyi dövrdə belə uzaq keçmişdə yaşayan əcdadlarımızın təbiət haqqındakı bilgiləri, onu əhali artımı və azalması ilə müşayiət olunan proseslərlə əlaqələndirə bilmələri, tarixi-demoqrafik düşüncə mədəniyyəti insanı heyrətləndirməyə bilmir.

*Nəticə*. Xalqımızın minilliklərdən üzü bəri yol gələn daş inancı ilə bağlı milli folklor nümunələri bizə nəinki əcdadlarımızın düşüncə və təfəkkür tərzi ilə tanış olmaq, o cümlədən tariximizin dərin qatlarında qalan həyat həqiqətlərini olduğu kimi öyrənməyə imkan verir. Xalqımız həmişə uca dağ zirvələrini müqəddəs sanaraq ruhların burada toplaşdığına inanmışlar. İndi də, Vətənimizin ərazisində Babadağ, Şahdağ, Beşbarmaq, Haçaqaya və s. bu kimi dağların başında mövcud olan ziyarətgahlar yuxarıdakı fikri bir daha təsdiq edir. Döyüşlərdə şəhid olan əsgər və qəbilə başçılarının və digər sanılı insanların məzarlarını üzərində ucaldılan şaquli daşlar – stellalar çox zaman xalq arasında “əsgər daşı”, “ata daşı”, “dədə daşı” və s. kimi adlarla adlandırılmışdır. Ucu əcdadlarımız çətin məqamlarda əbədiyyətə qovuşmuş insanların ruhlarının məskən tapdığı bu daşların ətrafına toplaşır, çıxış yolunun tapılmasında, problemin çözülməsində onlarla – mengir daşlarla “məsləhətləşirdilər”. Məhz buna görə də, Azərbaycan xalqının milli və bəşəri dəyərlər üzərində köklənmiş dərin zəkası, böyük yaradıcı gücü müstəqil dövlətçiliyimizi qüdrətləndirmək yolundakı addımlarımızı daha qətiyyətli edəcək, dünya dövlətləri içərisində layiqli yerimizi tutmaqda önəmli rol oynayacaqdır.

## ƏDƏBİYYAT

1. Ağalı L. Sözlü, nağıllı gecələr. B., İşıq, 1991, 120 s.
2. Azərbaycan etnoqrafiyası. Üç cilddə. III cild. B., Şərq-Qərb, 2007, 568 s.
3. Azərbaycan folkloru antologiyası. B., AzSSR EA, 1968, 288 s.
4. Azərbaycan mifoloji mətnləri. B., Elm, 1988, 196 s.
5. Azərbaycan tarixi üzrə qaynaqlar. B., Azərbaycan Universiteti nəş-tı, 1989, 328 s.
6. Cəfərov Ə. Quruçay dərəsində. B., Azərnəşr, 1990, 64 s.
7. Əbdürrəşid əl-Bakuvi. Abidələrin xülasəsi və qüdrətli hökmdarın möcüzələri. B., Şur, 1992, 176 s.
8. Göyüşov R. Qarabağın keçmişinə səyahət. B., Azərnəşr, 1993, 83 s.
9. Həvilov H. Azərbaycan etnoqrafiyası. B., Elm, 1991, 256 s.
10. Məmmədov A. Azərbaycan xalqının qədim inancları tarixi tədqiqatlarda // Tarix və onun problemləri, №3 2015, s.267-272.
11. Məmmədov A. Xalqımızın Novruz bayramı ilə bağlı inancları // Tarix və Onun problemləri, №2 2016, s.327-331.
12. Mirzəyev M. Doğma yurdu gəzə-gəzə. B., Maarif, 1990, 216 s.
13. Nəğmələr, inanclar, alqışlar. B., Yazıçı, 1986, 213 s.
14. Rzayev N. Əsrlərin səsi. B., Azərnəşr, 1974, 78 s.
15. Мифы народов мира. Энциклопедия в 2 томах. Том 1. М., Дрофа, 2008, 672 с.

**AYDIN MAMMADOV**
*Associate Professor of Baku State University*

## HISTORICAL DEMOGRAPHIC VIEWS ASSOCIATED WITH THE HONORATION OF THE SPIRIT OF MARTYRS AND THE GROWTH OF DESCENDANTS IN THE BELIEFS OF THE STONE OF THE AZERBAIJAN PEOPLE

The inhabitants of the land of Azerbaijan - our ancestors, from ancient times treated with great honors the spirit of martyrs who fell in battle. For the honor of these fighters who fell in battle, close people prepared empty graves. Later, these measures were perceived as faith and belief. To ensure the integrity of the Fatherland and all our relatives from the invaders, the enemy forces, our ancestors also asked for help from the stone. According to the convictions of our ancestors, it is the stone that provides peace of mind to those who had no graves of spirits of soldiers who fell in battle. That is why, ceremonies and rituals associated with the cult of stone, together with the Sun, were also timed to coincide with the most important events in the life of our ancestors, such as weddings, housewarming, harvesting, funerals, community gatherings to resolve any issues, etc.

*Keywords:* population growth, settlement of population, demographical views, stone beliefs, spirits of martyrs

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 5 dekabr 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2020-ci il.*
*Məqalə Redaksiya heyətinin qərarı ilə çapa məsləhət görülüb.*

QARABAĞ AZƏRBAYCANDIR!

**UOT 930:314; 94 (479.24)**

**SƏİDƏ QULİYEVA**
*Bakı Dövlət Universitetinin dosenti*
**E-mail: saidaquliyeva@bsu.edu.az**

# ERMƏNİSTAN TƏRƏFİNDƏN XX ƏSRİN SONLARINDA İŞĞAL EDİLMİŞ AZƏRBAYCAN RAYONLARININ ƏHALİSİNİN SAY DİNAMİKASI BARƏDƏ

*Təqdim edilən məqalədə Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərini məcburi tərk etmiş əhalinin say dinamikası və etnik tərkibi araşdırılır. Bu barədə tədqiqat 2020-ci ildə işğalın başa çatması və məcburi köçkünlərin öz torpaqlarına geri qayıtması ilə aktuallıq qazanmışdır. Mövzunun araşdırılması müharibədən sonra geri qayıdacaq əhalinin sayının, həmçinin əhalinin artım tempinin müəyyən edilməsi üçün vacibdir. Çünki işğaldan azad ediləcək ərazilərdə məskunlaşma və iş yerlərinin qurulması uzunmüddətli hesablanmalıdır.*

*Bu məqsədlə əhali siyahıyaalma materialları və digər statistik külliyyatlar tədqiqata cəlb edilmiş, tarixi-demoqrafik vəziyyətin tədqiqi məqsədilə təhlil aparılmışdır.*

*Yekunda belə qərara gəlmək olur ki, quruculuq prosesi zamanı artım və gələcək üçün gözlənilən əhalinin artım tempi nəzərə alınmalıdır.*

*Açar sözlər*: Şuşa, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan, Kəlbəcər, Laçin, Qarabağ, Ermənistan, tarixi demoqrafiya, əhalinin say dinamikası, etnik tərkib, əhali siyahıyaalmaları.

*Giriş*. Ermənistanın Azərbaycana qarşı XX sonlarından başlayan ərazi iddiaları nəticəsində Azərbaycanın 11 rayonu işğal edildi. Bu ərazilərdə yaşayan insanların bir hissəsi qətl edildi, bir hissəsi isə öz yaşayış yerlərini məcburi olaraq tərk etməli oldular. Hərbi əmliyyatlar getdiyi dövrdə BMT Təhlükəsizlik Şurası tərəfindən 4 qətnamə qəbul edilir. Qətnamələrin əsas mahiyyəti işğal edilən ərazilərdən erməni qoşunlarının çıxarılması və insanların öz evlərinə qayıtması idi. Qətnamədə həmçinin münaqişənin həllini nəzərdə tutan prosedurlar göstərilir, bu işdə ATƏT-in Minsk qrupu məsul hesab edilirdi. Danışıqlar nəticəsində 1994-cü ildə Bişkek protokolu imzalansa da, Ermənistan ərazisindən və işğal edilmiş ərazilərdən Azərbaycan ərazilərinə qarşı təxribatlar bitmir, atəşkəs müntəzəm olaraq pozulurdu. Nəticədə günahsız mülki insanlar və əsgərlər şəhid olurdu.

2020-ci ilin 27 sentyabr tarixində növbəti təxribat zamanı Azərbaycan ordusu işğal edilmiş ərazilərdə düşmənin müqavimətini qıraraq bir neçə istiqamətdən torpaqların azad edilməsinə başladı. Ermənistanın sülhə məcbur edilməsi üçün başlayan və 44 çəkən zəfər yürüşü nəticəsində Azərbaycanın ərazi bütövlüyü bərpa edildi. Döyüşlərin dayanması Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan arasında 10 noyabrda imzalanmış Bəyanata əsasən mümkün oldu. Bu Bəyanət Ermənistan dövləti üçün kapitulyasiya idi. Hərbi əməliyyatlar və Bəyanat Azərbaycan üçün beynəlxalq hüquq prinsipləri əsasında münaqişənin həlli üçün vacib bir mərhələnin əsası oldu. Eyni zamanda bu proses BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin icrası demək idi.

Bizim tədqiqatımız Azərbaycan ordusunun 44 günlük Zəfər yürüşü və Bəyanatın nəticəsində azad edilən ərazilərə geri qayıdacaq əhalinin – bu ərazini XX əsrin sonlarında hərbi əməliyyatlar səbəbindən məcburi tərk edən sakinlərin keçən dövrdə say dinamikasını aydınlaşdırmaqdır. Bu məqsədlə, hərbi əməliyyatlardan əvvəl həmin rayonlarda yaşayan əhalinin sayını müəyyənləşdirmək üçün 1989-cu il əhali siyahıya alınması materialları ilə işğaldan sonra - müstəqillik illərində keçirilən 1999, 2009 və 2019-cu il əhali siyahıya alıması materiallarını müqayisə və təhlil etmək nəzərdə tutulur. Eyni zamanda həmin rayonlarda əhalinin etnik tərkibini də aydınlaşdırmağa çalışacağıq.

*Ərazinin inzibati bölgüsü barədə*. Əhalinin say dinamikasını aydınlaşdırmaq üçün ilk olaraq işğal edilmiş ərazinin inzibati bölgüsünü dəqiqləşdirməyə ehtiyac vardır.

Azərbaycan respublikası 1991-ci ilin oktrabrında dövlət müstəqilliyini bərpa etdikdən qısa müddət sonra dövlətin inzibati bölgüsü ilə əlaqədar bir sıra qərarlar verilmişdir. Belə ki, Azərbaycan Respublikasının 1991-ci il 26 noyabr tarixli 279-XII saylı qanunu ilə Dağlıq Qarabağ Muxtar Vilayəti, həmçinin Əsgəran və Hadrut rayonları ləğv edilmişdir. Xocalı şəhəri mərkəz olmaqla

Xocalı rayonu yaradılmış, ləğv edilmiş Əsgəran rayonunun ərazisi Xocalı rayonunun tərkibinə, Hadrut rayonunun ərazisi isə Xocavənd rayonunun tərkibinə verilmışdır. Əlavə edək ki, həmin qanunla 3 şəhərin tarixi adları qaytarılaraq Stepanakert şəhəri Xankəndi şəhəri, Mardakert şəhəri Ağdərə şəhəri və Mardakert rayonu Ağdərə rayonu, Martuni şəhəri Xocavənd şəhəri və Martuni rayonu Xocavənd rayonu adlandırılmışdır. Milli Məclisinin 1992-ci il 13 oktyabr tarixli 327 saylı qərarı ilə isə Ağdərə rayonu ləğv edilərək Ağdərə qəsəbəsi və 28 kəndi Tərtər rayonunun inzibati tərkibinə verilmişdir. Tədqiqat zamanı kəndlər üzrə təhlil aparmadığımız üçün Ağdərə şəhəri və 28 kənd barədə məlumata ayrıca deyil, bütövlükdə Tərtər rayonu üzrə nəzər salacağıq.

Müstəqilliyin ilk illərində aparılan bu inzibati dəyişiklikdən sonra mövcud olan inzibati bölgünü biz Azərbaycan Respublikasının Statistika Komitəsinin Azərbaycan regionları barədə 2019-cu ilə aid materialına əsasən dəqiq izləyə bilirik. Bu əraziyə işğal edilən ərazilərlə birlikdə ümumilikdə 1 respublika tabeli şəhər, 11 rayon tabeliyində şəhər, 46 qəsəbə və 906 kənd daxildir.

**Cədvəl 1.**

**İşğal edilən rayonların inzibati-ərazi bölgüsü**

| *Rayonlar* | *Yaranma tarixi* | *Sahəsi min km$^2$* | *Rayon tabeliyində şəhər* | *Qəsəbə* | *Kənd yaşayış məskən-ləri* |
|---|---|---|---|---|---|
| Ağdam | 08.08.1930 | 1.15 | 1 | 14 | 123 |
| Cəbrayıl | 08.08.1930 | 1.05 | 1 | 4 | 92 |
| Füzuli | 08.08.1930 | 1.39 | 2 | 16 | 82 |
| Xocalı | 26.11.1991 | 1.00 | 1 | 1 | 50 |
| Xocavənd | 26.11.1991 | 1.46 | 1 | 2 | 80 |
| Kəlbəcər | 08.08.1930 | 3.05 | 1 | 1 | 145 |
| Qubadlı | 14.03.1933 | 0.80 | 1 | - | 93 |
| Laçın | 08.08.1930 | 1.84 | 1 | 1 | 125 |
| Tərtər | 27.01.1934 | 0.96 | 2 | 1 | 74 |
| Şuşa | 08.08.1930 | 0.31 | 1 | 1 | 37 |
| Zəngilan | 08.08.1930 | 0.73 | 1 | 5 | 79 |
| **Respublika tabeli şəhərlər** | | | | | |
| Xankəndi | 1923 | 0.008 | 1 | 1 | |

***Qeyd:*** *Cədvəl müəllif tərəfindən tərtib edilmişdir.*
***Mənbə:*** Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 1999-cu il. I hissə. Bakı, Səda nəşriyyatı, 2000. 566 s., s.4-14; Azərbaycanın regionları. Statistik məcmuə. Azərbaycan Respublikasının dövlət Statistika Komitəsi. Bakı, 9№-li kiçik müəssisə, 2019, 788 s., s.64, 68

Əlavə edək ki, Ağdam rayonunun 10 kənd (işğal edilən ərazi 846,7 km$^2$), Füzuli rayonunun isə 20 kəndindən başqa digər əraziləri (işğal edilən ərazi 30 min km$^2$) işğal edilmişdir. Füzuli rayonun işğal edilməyən ərazilərində məcburi köçkünlər üçün 11 qəsəbə salınmışdır.

İşğaldan sonra ermənilər yaşayış məskənlərinə qarşı soyqırım keçirmişlər. 1988-1993-cü illərdə Qarabağda, ümumilikdə, 900 yaşayış məntəqəsi, 150 min ev, 7 min ictimai bina, 693 məktəb, 855 uşaq bağçası, 695 tibb müəssisəsi, 927 kitabxana, 44 məbəd, 9 məscid, 473 tarixi abidə, saray və muzeylər, 40 min muzey eksponatı, 6 min sənaye və kənd təsərrüfatı müəssisəsi, 160 körpü və digər infrastruktur obyektləri dağıdılmışdır.

İşğaldan sonra ermənilərin yaşadıqları əsas rayonlar Tərtər rayonun Ağdərə şəhəri və rayonun işğal altında olan bir sıra kəndləri, Xocalı, Xocavənd, Şuşa rayonu və Xankəndi şəhəri olmuşdur. Bu səbəbdən həmin ərazilərdə yaşayış olmuşdur, lakin 2020-cu ildə bu ərazilərdən çıxan ermənilər həmin evləri də yandırılmış və məhv etmişlər.

Cəbrayıl, Füzuli və Ağdam rayonlarında bütün şəhər və qəsəbələr dağıdılmışdır. Zəngilan, Qubadlı, Kəlbəcər və Laçın rayonlarının bir neçə kəndində qanunsuz məskunlaşdırma aparmışlar. Müharibə vaxtı qarət edilmiş evlərin daşları da sökülərək daşınmış və ya satılmışdır. Hazırda işğaldan azad edilən bu ərazilərdəki mənzərələr erməni vandallığının dəhşətini dünyaya əks etdirir.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin azad edilən ərazilərdən hazırladığı video materiallar tarixi video sənədlər kimi dəyərlidir.

Həmin ərazilərdəki bu vəziyyət əhalinin geri qayıtması üçün ciddi quruculuq prosesini vacib edib. Bunun üçün isə ərazi üzrə əhalinin sayı nəzərə alınmalıdır.

*Əhalinin say dinamikası.* Ümumi olaraq deyə bilərik ki, hazırkı Yuxarı Qarabağ iqtisadi rayonu və Kəlbəcər-Laçın iqtisadi rayonu əraziləri bütünlükdə erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdir (ümumilikdə, təqribən 14 min km$^2$). Biz həmin iqtisadi rayonların əhalisinin say dinamikasını təhlil edəcəyik. Əhalinin say dinamikasını təhlil edərkən nəzərə almaq lazımdır ki, məcburi köçkünlər barədə məlumatlar Azərbaycan Respublikasının vətəndaşı kimi müvafiq rayonlar üzrə göstərilmişdir. İşğal edilmiş ərazilərdə yaşayan erməni əhalinin sayı Statistika Komitəsinin məlumatına əsasən təhlil edilmişdir. Bununla yanaşı, erməni mənbələrindən əldə etdiyimiz materiallara da nəzər salınmışdır.

Ərazi üzrə üzrə 1989, 1999, 2009 və 2019-cu illərə aid say dinamikasını müqayisə etmək üçün hazırladığımız cədvələ nəzər salaq.

**Cədvəl 2.**

**Əhalinin say dinamikası (min nəfər)**

| *Rayonlar* | *1989* | *1999* | *2009* | *2019* |
|---|---|---|---|---|
| Ağdam | 128,9 | 153,3 | 175,6 | 202,2 |
| Cəbrayıl | 48,4 | 59,3 | 70,6 | 80,8 |
| Füzuli | 88,7 | 136,5 | 115,5 | 132,4 |
| Xocalı | * | 23,8 | 26,0 | 28,6 |
| Xocavənd | * | 39,7 | 41,6 | 43,8 |
| Kəlbəcər | 44,1 | 66,2 | 80,8 | 93,1 |
| Qubadlı | 28,1 | 33 | 35,6 | 41,1 |
| Laçın | 51,6 | 63,2 | 69,1 | 77,7 |
| Tərtər | 51,2 | 92,2 | 97,3 | 104,2 |
| Şuşa | 20,6 | 24,3 | 28,6 | 34,2 |
| Zəngilan | 31,3 | 35,3 | 39,3 | 44,8 |
| **Respublika tabeli şəhərlər** | | | | |
| Xankəndi | 57,8 | 54,5 | 55,0 | 55,8 |

** Xocalı və Xocavənd rayonları 1991-ci ildə təşkil edilmişdir.*

***Qeyd:** Cədvəl müəllif tərəfindən tərtib edilmişdir.*

*Mənbə:* Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 1999-cu il. I hissə. Bakı, Səda nəşriyyatı, 2000. 566 s., s.15-17; Azərbaycanın regionları. Statistik məcmuə. Azərbaycan Respublikasının dövlət Statistika Komitəsi. Bakı, 2019, 788 s., s.64.

1989-cu il siyahıyaalma materiallarına əsasən Əsgəran rayonunda 20.863 nəfər, Hadrut rayonunda 14.689 nəfər, Mardakerd (Ağdərə) rayonunda 46.870 nəfər, Martuni rayonunda 28.334 nəfər yaşayırdı (cəmi 110.758 nəfər) [2, s.17].

Əhalinin artım tempinə diqqət yetirdikdə, məlum olur ki, məsələn, son 10 ildə (2000-2019) Cəbrayıl rayonunda əhalinin sayı 20 min nəfər, Ağdam rayonunda 48 min nəfər, Xocalı rayonunda 5 min, Şuşa rayonunda 10 min, Xocavənd rayonunda 4 min, Kəlbəcər rayonunda 26 min, Laçın rayonunda 14 min, Qubadlı rayonunda 8 min, Zəngilan rayonunda 9 min artmış, Tərtər rayonunda 12 min, Fizulidə isə 2 min azalma olmuşdur [3, s.81-82].

Ümumilikdə, hər iki iqtisadi rayon üzrə birlikdə əhali 1989-cu il ilə müqayisədə təqribən 661.312 min nəfərdən 940 min nəfərə qədər artmışdır. Belə ki, Kəlbəcər-Laçın iqtisadi rayonunun 1989-cu ildə 168 min nəfər olan əhalisinin sayı 2019-cu ildə 256,7 minə, Yuxarı Qarabağ iqtisadi rayonunun 1989-cu ildə 165 min nəfər olan əhalisinin sayı 2019-cu ildə 682 min nəfərə qədər artmışdır. Keçən 30 ildə itkilər də nəzərə alınmaqla əhali təqribən 50% artmışdır.

Əlavə edək ki, I Dağlıq Qarabağ müharibəsi zamanı ümumilikdə 1 milyondan artıq azərbaycanlı məcburi köçkün vəziyyətinə düşmüş, 20 min nəfər hərbi əməliyyatlar dövründə həlak olmuş, 50 min nəfər əlil olmuşdur. Münaqişə nəticəsində 4 minə yaxın azərbaycanlı itkin düşmüş,

onların 67 nəfəri uşaq, 265 nəfəri qadın, 326 nəfəri qoca idi. Bu şəxslərin aqibəti barədə hələ də məlumat yoxdur. İki mindən çox azərbaycanlı ermənilər tərəfindən əsir və girov götürülmüşdür.

*Əhalinin etnik tərkibi*. 1989-cu il siyahıyaalma materiallarında rayonların etnik tərkibi barədə verilən materiallar bizə belə nəticəyə gəlməyə imkan verir ki, Kəlbəcər-Laçın iqtisadi rayonunda ermənilər demək olar ki, yaşamamışdır. Onlar əsasən Yuxarı Qarabağ iqtisadi rayonu (əsasən keçmiş müxtar vilayət) ərazisində yaşamışlar. 2009-cu il əhali siyahıyaalma materiallarından da görünür ki, ermənilər ancaq işğal edilmiş ərazilərdə yaşasalar da iqtisadi rayonun etnik tərkibində azərbaycanlılar üstülük təşkil edir: Xocalıda 50% azərbaycanlılar, 49% ermənilər; Xocavənddə 28% azərbaycanlılar, 71% ermənilər; Kəlbəcərdə 88% azərbaycanlılar, 12% ermənilər; Tərtərdə 76% azərbaycanlılar, 23% ermənilər; Şuşada 95% azərbaycanlılar, 4% ermənilər; Xankəndində 21% azərbaycanlılar, 79% ermənilər [4, s. 640, 648, 659, 669, 678, 685, 693, 709, 716, 723, 730].

Çətin nüanslardan biri işğal edilmiş ərazidə yaşayan ermənilərin sayının hesablanmasıdır. 1999-cu il əhali siyahıyaalınması materiallarının I hissəsində Ön sözdə göstərilir ki, keçmiş Dağlıq Qarabağ vilayətinin ərazisində yaşayan erməni millətindən olan vətəndaşların sayı əhalinin 1989-cu il siyahıyaalınmasının göstəriciləri əsasında hesablanaraq siyahıya alınmış ölkə əhalisinin sayına əlavə edilmişdir [2, s.6]. Statistika komitəsinin bu üsulla hesablamalarına əsasən, 2019-cu ildə işğal edilmiş ərazilərdə 90.503 nəfər erməni yaşadığı göstərilir [4, s. 640, 648, 659, 669, 678, 685, 693, 709, 716, 723, 730]. Erməni mənbələri etibarlı hesab edilməsə də, müəyyən təsəvvür yaratmağa imkan verir. Qarabağda yaşayan ermənilərin sayı barədə əldə etdiyimiz erməni mənbələrə əsasən, bu ərazidə 1989-cu ildə 189 min nəfər, 2005-ci ildə 137 min nəfər, 2015-ci ildə 144 min nəfər, 2019-cu ildə 148.018 nəfər yaşayırdı. Bu mənbələrə əsasən, işğal edilmiş ərazilərdə 2018-ci il üçün təbii artım hər min nəfərə 7,7 nəfər göstərilir. İllər üzrə əhalinin sayına diqqət yetirdikdə, il üzrə 1000 nəfər artım görünür. Bu göstərici işğal edilmiş ərazilərdə sosial-iqtisadi vəziyyətin və səhiyyənin aşağı səviyyədə olduğunu təsdiq edir. Əhalinin yaş-cins tərkibi barədə ermənilərin verdiyi statistikaya görə 2019-cu ildə yaşı 20-60 arasında olan kişilərin sayı təqribən 37.970 nəfər imiş. Ümumilikdə, bütün kişilərin - 72.362 nəfərin 52%-i. II Qarabağ müharibəsində iştirak edən bu əhali arasında itkiləri də gələcək təbii artımı hesablayarkən nəzərə almaq lazımdır.

Azərbaycan Statistika Komitəsinin məlumatı əsasında təbii artımı əhalinin hər min nəfərinə uyğun təhlil etmək üçün 2018-ci il məlumatlarına nəzər salaq. Ağdam rayonu üzrə təbii artım hər min nəfərə 9,1 nəfər, Kəlbəcər rayonunda 9,3 nəfər, Laçın rayonunda 9,3 nəfər, Qubadlı rayonunda 8,1 nəfər, Zəngilan rayonunda 8,4 nəfər, Tərtər rayonunda 7,4 nəfər, Xocalı rayonunda 10,9 nəfər, Şuşa rayonunda 9,4 nəfər, Xocavənd rayonunda 11,4 nəfər, Xankəndində 4,2 nəfər olmuşdur [3, 138-140]. Məlumdur ki, azərbaycanlı ailələrində təbii artım hər zaman yüksək olmuşdur. Məlumatların təhlili göstərir ki, yaşadıqları çətinliklərə baxmalayar, bu illər ərzində məcburi köçkünlər arasında təbii artım yüksək olmuşdur. Lakin həm Azərbaycan Respublikasının Statistika komitəsinin, həm də erməni mənbələrinə əsasən ermənilər arasında əhalinin artımının aşağı olduğunu görürük.

Bu vəziyyət regionda insanların evlərinə qayıtmasından sonra əsas üstünlüyün azərbaycanlılar olacağını təsdiq edir.

*Nəticə*. Apardığımız tarixi-demoqrafik təhlillər, mənbələrin təhlili, regionda baş verə siyasi-iqtisadi proseslər nəticəsində deyə bilirik ki, XX əsrin sonlarında müharibə ilə əlaqədar yaşanan siyasi, sosial, iqtisadi və psixoloji gərginliklərə baxmayaraq azərbaycanlılar arasında təbii artım yüksək olmuşdur. I Qarabağ müharibəsi nəticəsində işğal edilən ərazilərdən məcburi köçkün düşən təqribən 600 min insan əvəzinə həmin torpaqlara təqribən 1 milyon insanın qayıdacağı gözlənilir.

Əhalinin artımına sosial-iqtisadi sabitlik və səhiyyə xitməri də mütləq olaraq təsir edir. Məhz bu səbəbdən azərbaycanlılar arasında artım yüksək, ermənilər arasında aşağı olmuşdur.

Azərbaycan daxilində baş verəcək bu miqrasiya əsasən məskunlaşma və iş yerləri ilə əlaqədar bir sıra məsələləri aktual edir. Xüsusilə şəhərsalma zamanı insanların sayını və gözlənilən əhali artımını nəzərə almaq vacibdir. Eyni zamanda, daxili miqrasiya prosesi məcburi köçkünlərin müvəqqəti məskunlaşdıqları şəhər və qəsəbələrdə əhalinin sıxlığının dəyişməsinə, yeni yaradılan yaşayış məskənlərində əmək miqrantlarının yaranmasına səbəb olacaqdır.

İnanırıq ki, 2030-cu ildə növbəti əhali siyahıalınması vaxtilə məcburi köçkün düşən, lakin artıq öz ocaqlarına geri qayıtmış bütün insanların öz evlərində keçiriləcəkdir. O zaman biz reallığı daha dəqiq rəqəmlərlə təhlil edə biləcəyik.

## ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətini ləğv etmək haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 26 noyabr 1991-ci il. № 279-XII. http://e-qanun.gov.az/framework/6783. [Müraciət tarixi: 22.11.2020].
2. Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 1999-cu il. I hissə. Bakı, Səda nəşriyyatı, 2000, 566 s.
3. Azərbaycanın demoqrafik göstəriciləri. Statistik məcmuə. Bakı, 9№-li kiçik müəssisə, 2019, 512 s.
4. Azərbaycanın regionları. Statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 9№-li kiçik müəssisə, 2019, 788 s.

**SAIDA KULIEVA**
*Associate Professor of Baku State University*

## THE POPULATION DYNAMICS OF THE AZERBAIJAN REGIONS, OCCUPIED BY THE ARMENIA AT THE END OF THE 20$^{th}$ CENTURY

The presented article examines the dynamics and ethnic composition of the population of Azerbaijan, who have been displaced from the territories occupied by Armenia. The study on this became relevant in 2020 with the end of the occupation and the return of internally displaced persons to their lands. Studying the topic is important for determining the population that will return after the war, as well as the rate of population growth. Thus, the creation of settlements and jobs in the territories that will be liberated from the occupation must be calculated for the long term.

For this purpose, the study involved materials population census and other statistical data, and an analysis of the historical and demographic situation were carried out.

As a result, we can conclude that over time, the population that left these territories has now grown. During the creative process, the growth and the expected rate of population growth for the future should be taken into account.

*Keywords*: Shusha, Jabraнil, Fuzuli, Gubadli, Zengilan, Kalbajar, Lachin, Karabakh, Armenia, historical-demoqraphy, population dynamics, ethnic composition, population census

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 4 dekabr 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2020-ci il.*
*Məqalə Redaksiya heyətinin qərarı ilə çapa məsləhət görülüb.*

QARABAĞ AZƏRBAYCANDIR!

**UOT 94 (479.24)**

**TALEH CƏFƏROV**
*ADPU-nun Ümumi tarix və tarixin tədrisi metodikası kafedrasının baş müəllimi, tarix üzrə fəlsəfə doktoru*
**E-mail: taleh.ceferov.83@mail.ru**

# I VƏ II QARABAĞ MÜHARİBƏSİNDƏ ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI İNFORMASİYA-PSİXOLOJİ MÜHARİBƏSİ VƏ ONUN İFLASI

*Ermənistanın Azərbaycana qarşı informasiya-psixoloji müharibəsi XX əsrin 80-90-cı illərinin əvvəllərində pik mərhələyə qədəm qoydu. İnformasiya-təbliğat fəaliyyətində erməni millətçiləri ilkin olaraq Qarabağın onların əzəli torpaqları olduğunu, Azərbaycanın Qarabağı zorla ələ keçirməyə çalışdığını qeyd edirdilər.Ermənistanın Azərbaycana qarşı informasiya müharibəsi II Qarabağ müharibəsində cənab İlham Əliyevin apardığı ardıcıl bəyanatlar, çıxışlar sayəsində böyük zərbələr aldı. Azərbaycanın informasiya-psixoloji müharibəsində qələbəsini şərtləndirən əsas element xalq-ordu və prezident birliyidir.*

*Açar sözlər:* informasiya-psixoloji müharibə, Dağlıq Qarabağ mübaqişəsi, etnik təmizləmə, erməni diasporu, ermənilik.

*Giriş.* XX əsrin 80-ci illərinin ortalarında ölkədə ən ağır hadisə SSRİ-ni təşkil edən müttəfiq respublikalardan biri olan Ermənistanın digər bir müttəfiq respublikanın-Azərbaycanın daxili işlərinə kobud müdaxiləsi oldu. Ermənistan Azərbaycanın coğrafi-siyasi, etnik-mədəni baxımdan tarixi ərazisi olan Dağlıq Qarabağ regionuna əsassız iddialar irəli sürdü. Beləliklə, iki respublika arasında münaqişə yarandı.

O zaman M.S.Qorbaçovun rəhbərliyi dövründə yenidənqurma və aşkarlıq şüarları altında ölkə həyatının demokratikləşdirilməsi cəhdi erməni millətçi dairələrinin fəallaşmasına yeni bir təkan verdi. Xüsusilə, cəmiyyətdə bir çox hallarda məqsədi bilinməyən ictimai qurumların yaradılmasına icazə verilməsi, belə qurumlar ətrafında millətçi elementlərin toplaşması, informasiyaya ideoloji inhisarın aradan qaldırılması Azərbaycana qarşı ərazi iddialarının irəli sürülməsinə əlverişli şərait yaratdı. Erməni millətçi dairələri məhz informasiyadan məharətlə istifadə edərək bölgədə və ölkədə yeni bir situasiya yaratdılar. Nəticədə Ermənistanda və Dağlıq Qarabağda etnik zəmində qarşıdurmalar gücləndi, Azərbaycanın ictimai-siyasi həyatında gərginlik yüksək həddə çatdı.

Lakin SSRİ rəhbərliyi Ermənistanın təcavüzünün qarşısını ala bilmədi. Bu isə erməni silahlı dəstələrini şirnikləşdirir və basqınlarının artmasına rəvac verirdi. Belə ki, Dağlıq Qarabağ regionunda hərbi əməliyyatları genişləndirməklə yanaşı Ermənistan silahlı dəstələri 1988-ci ildən 1991-ci ilin sonunadək regionda 2559 toqquşma, 315 silahlı basqın, 1388 atəşə tutma halları törədilmiş, nəticədə 514 nəfər həlak olmuş, 1318 nəfər isə yaralanmışdır [1, s.120-121].

Qeyd etmək lazımdır ki, Dağlıq Qarabağ münaqişəsi bir neçə mərhələdən-gizli münaqişə; aktuallaşdırılması və potensiala çevrilməsi; yetişdirilməsi; tələbata çevrilməsi; başlanması və ziyanlar vurması mərhələlərindən keçmişdir. Heç şübhəsiz, Dağlıq Qarabağ münaqişəsinin kökləri "etnik amilin üstünlüyündə" deyil, Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddialarında idi. Uzun illər boyu anti-Azərbaycan, antitürk xətti Ermənistanda rəsmi dövlət siyasəti səviyyəsinə qaldırılmışdı. Bu respublikada azərbaycanlıların sıxışdırılması, tarix və mədəniyyət abidələrinin dağıdılması davam etdirilmişdir.

80-ci illərin sonlarından başlayaraq, erməni millətçi dairələri Azərbaycan Respublikasına qarşı ərazi iddialarının əsaslandırılması və bu iddiaların erməni birliyinə qəbul etdirilməsi üçün ölkə daxilində və xaricində total informasiya müharibəsinə start verdilər. Onlar şübhə etmirdilər ki, informasiya-təbliğat kampaniyasının kütləviliyinə nail olmadan erməni toplumunun millətçi hisslərini qızışdırmaq, erməni cəmiyyətini Dağlıq Qarabağın Azərbaycandan qoparılmasına hazırlamaq mümkün deyil. Hadisələrin iştirakçısı olan erməni ziyalılarının etiraf etdiyi kimi, SSRİ-nin süqutu ərəfəsində Ermənistan əhalisinin 90 faizinin Dağlıq Qarabağdan heç xəbəri yox idi [2, s.46].

Azərbaycan Respublikasına qarşı ərazi iddiaları ideyasının ümummilli psixoza çevrilməsinə nail olmadan qarşıya qoyulan məqsədə çatmağın mümkün olmadığını erməni millətçiləri yaxşı bilirdilər. Ona görə də bu işin nəzəri və texniki hazırlığı aparıldı, informasiya-təbliğat işinin hansı istiqamətlərdə qurulması müəyyən edildi, lazım olan taktika və qüvvələr müəyyənləşdirildi və ardınca erməni millətçi dairələrinin informasiya-təbliğat maşını işə salındı, qatı millətçilik ideyaları altında Dağlıq Qarabağın Azərbaycandan qoparılması tələbi kütlənin beyninə yeridildi. Erməni informasiya-təbliğat kampaniyasının genişlənməsi istiqamətində atılan bütün addımların qızışdırıcı millətçilik üzərində qurulması isə bu prosesin kütləviləşməsinə rəvac verdi.

İnformasiya-təbliğat fəaliyyətində erməni millətçilərinin ilkin olaraq ehtiyatlı taktikaya əl atması heç də təsadüfi deyildi. M.S.Qorbaçova yaxınlığı ilə seçilən akademik A.Aqanbekyanın 1987-ci ilin sonlarında Fransada - Humanite qəzetinə Dağlıq Qarabağın Ermənistana verilməsinin məqsədəuyğunluğu haqqında danışması, 1988-ci ilin əvvəllərində Dağlıq Qarabağın Ermənistana verilməsi haqqında Moskvaya 10 minlərlə müraciətlərin göndərilməsi, erməni nümayəndələrinin ölkə rəhbərliyi ilə görüşləri, erməni millətçilərinin radio və televiziya ilə çıxışları Dağlıq Qarabağın dinc yolla Azərbaycandan qoparılacağı təsəvvürü yaratmışdı. Lakin bu təsəvvürlərin doğru olmadığı aydınlaşanda kütləvi mitinqlərdə aparılan informasiya-təbliğat işlərinin mövzusu da dəyişdirildi [3, s.421].

Bir sıra dövlətlərin və beynəlxalq təşkilatların Azərbaycan Respublikasının tanınmış sərhədlərinin zorla pozulmasına etirazları, münaqişənin həlli ilə bağlı Minsk Qrupunun yaradılması, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi qətnamələr və digər sənədlər Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ideyasının beynəlxalq aləmdə qəbul olunmayacağına şübhə yeri qoymadı. Belə olanda erməni millətçiləri Dağlıq Qarabağın müstəqil quruma çevrilməsi ideyasının aktuallaşdırılmasına cəhd göstərdilər. Bununla bağlı 1991-ci ilin sonlarından etibarən Dağlıq Qarabağın Azərbaycandan qoparaq müstəqil dövlət olması, sonradan isə Dağlıq Qarabağın müstəqillik deklarasiyasının elan edilməsi təcavüzkar erməni millətçi separatizminin yeni şəraitə uyğunlaşması demək idi. Bununla bağlı İrəvan emissarlarının təzyiqi, təhrikçiliyi və təşkilatçılığı ilə bəzi sənədlərin qəbul olunduğu da elan edildi. Bu sənədlərdə öz əksini tapan müddəalar isə eyni zamanda Dağlıq Qarabağdakı millətçi erməni informasiya-təbliğat siyasətinin hüquqi və siyasi bazasına çevrildi.

1992-ci il sentyabrın 2-də elan edilən qondarma Dağlıq Qarabağ Respublikasının bəyannaməsində hər şeydən əvvəl, Azərbaycanın müstəqil rayonu olan Şaumyan rayonu da Dağlıq Qarabağ Respublikasının tərkibində elan edildi. Bu o demək idi ki, erməni informasiya məkanında Şaumyan rayonu Dağlıq Qarabağın tərkib hissəsi kimi özünə yer tapmalı idi. Bu bəyanatda aşağıdakı tezislər öz əksini tapdı ki, onlar eyni zamanda erməni informasiya-təbliğat siyasətinin mövzularının istiqamətləri sayılmalıdır: Azərbaycanda aparılan aparteid siyasəti erməni xalqına qarşı nifrət və dözümsüzlük yaratmışdır; Azərbaycan ərazisində yaşayan ermənilərə qarşı silahlı qarşıdurma həyata keçirilir və nəticədə ermənilər itkilərə və kütləvi deportasiyaya məruz qalırlar; Dağlıq Qarabağ SSRİ Konstitusiyası əsasında müstəqilliyini əldə edir; Erməni xalqının yenidən birləşməsi beynəlxalq hüququn normasıdır; SSRİ Konstitusiyasının verdiyi hüquqlar əsasında Dağlıq Qarabağ öz statusunu özü müəyyənləşdirir və s. [4].

Xüsusi olaraq qeyd etmək lazımdır ki, informasiya müharibəsi zamanı qarşı tərəf cəmiyyətdə ruh düşkünlüyü, xaos, qarışıqlıq yaratmaq, dövlət orqanlarının düzgün qərarlar qəbul etməsinə inamsızlıq formalaşdırmaq üçün dezinformasiyalara əl atmaqdan çəkinmir. Bunun qarşısı düzgün və çevik informasiya siyasəti ilə alına bilər. Hansı məqsədə xidmət etməsindən asılı olaraq informasiya kütləvi qırğın silahlarından da qorxulu bir silaha çevrilə bilər. Hazırkı dünyanın insan fəlakətlərinə gətirib çıxarmış istənilən hadisəsinin tarixinə diqqət yetirilərsə, bu hadisənin meydana gəlməsində, onun inkişafında informasiyadan geniş istifadə edildiyini görmək mümkündür.

Müharibə tərəflərin iqtisadi potensialından asılı olduğu kimi, hazırda informasiya müharibəsinin aparılması üçün də böyük iqtisadi və maliyyə ehtiyatları tələb olunur. Nəhayət, adi müharibədə olduğu kimi, informasiya müharibəsində də psixoloji amil mühüm yer tutur. Başqa sözlə, informasiya müharibəsinin başlıca obyektlərindən biri də qarşı tərəfin psixologiyasıdır, ona məqsədyönlü şəkildə təsir edilməsidir.

Mahiyyət yaxınlığına baxmayaraq, informasiya-psixoloji müharibə ilə adi müharibə arasında fərq də mövcuddur. Silahlı yolla aparılan müharibə qarşı tərəfin canlı qüvvəsinin məhv edilməsi və sıradan çıxarılması üçün həyata keçirilir. İnformasiya-psixoloji müharibə isə qarşı tərəfin canlı qüvvəsinin məhvi üçün deyil, həmin canlı qüvvənin ictimai şüuruna, psixikasına, düşüncəsinə, inanclarına təsir etmək və qarşı tərəfin canlı qüvvəsini öz maraqları əleyhinə fəaliyyətə sürükləmək üçün aparılır. Doğrudur, informasiya-psixoloji müharibə qarşı tərəfin canlı qüvvəsini məhv etmir. Lakin qarşı tərəfin canlı qüvvəsinin fəaliyyətinin neytrallaşdırılması, silahlı mübarizəsinin səmərəliliyinin azaldılması silahlı mübarizə yolu seçmiş rəqibin təklənməsi, xarici dəstəkdən məhrum edilməsi üçün aparılan təbliğat silahlı mübarizənin aparılmasından daha təsirli önəm kəsb edə bilər. İnformasiya müharibəsi termininin elmi-nəzəri dövriyyəyə gətirilməsi tarixi elə də böyük deyil [2, s.55].

Eyni zamanda qeyd edək ki, informasiya müharibəsi müəyyən informasiyanın yayılması yolu ilə digər dövlətin mülki əhalisinə və hərbi qulluqçularına təsir göstərilməsidir. Sonra bildirilir ki, informasiya müharibəsi öz informasiyalarının, informasiya proseslərinin və informasiya sistemlərinin qorunması ilə bərabər, düşmənin informasiyalarına, informasiya proseslərinə və informasiya sistemlərinə ziyan vurmaq yolu ilə informasiya üstünlüyü əldə edilməsi üçün məqsədyönlü fəaliyyətdir. Məlumat-yazıda informasiya müharibəsinə xas olan bir sıra əlamətlərin şərhi də verilmişdir. Həmin şərhə əsasən, informasiya müharibəsində, adətən, açıq şantaja, hədə-qorxuya yol verilmir, bir qayda olaraq, kütləvi şüur hədəfə alınır. Fərdi halda isə qarşı tərəfin məsul qərarlar qəbul etmək səlahiyyəti olan şəxsləri hədəfə alınır. İnformasiya müharibəsi zamanı qarşı tərəfə ünvanlanmış informasiyalar çox halda təhrif edilmiş faktlara əsaslanır və ya qarşı tərəfdə informasiya subyektinin maraqlarına cavab verən emosional durum yaradılmasına cəhd göstərilir

İnformasiya qarşıdurmasının nəzəri əsaslarına aid kütləvi informasiya vasitələrində işıq üzü görmüş yazıların birində deyilir ki, informasiya-psixoloji müharibə maddi sahədə müəyyən qazanc əldə edilməsi, düşmən üzərində informasiya üstünlüyünün təmin edilməsi, düşmənə ideoloji, maddi və digər ziyanların yetirilməsi məqsədi ilə ictimai, siyasi, etnik və digər sistemlərin bir-birinə qarşı məqsədyönlü şəkildə açıq və ya gizli informasiya təsiridir. Sonra bildirilir ki, informasiya müharibəsi aşağıdakı istiqamətlərdə aparıla bilər: zəruri informasiyanın əldə edilməsi, əldə olunan informasiyanın təhlili, informasiya kanallarının düşmən təsirindən qorunması, informasiyanın vaxtında və keyfiyyətlə istifadəçilərə çatdırılması, düşmənin dezinformasiya edilməsi, düşmənin informasiya əldə etmək sistemlərinin sıradan çıxarılması, düşmənin informasiya yayım sisteminin sıradan çıxarılması, informasiya vasitələrinin qarşı tərəflə müqayisədə daha səmərəli fəaliyyət mexanizminin tapılması və s.

Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistanın Azərbaycana qarşı apardığı informasiya müharibəsini də, əslində, total informasiya müharibəsi adlandırmaq olar. Çünki bu informasiya müharibəsinə bir tərəfdən Ermənistanın bütün dövlət və qeyri-dövlət informasiya resursları, bütün dünyaya səpələnmiş erməni diasporunun millətçi və iqtisadi potensialı cəlb edilib və onlar bəzən ən adi etik və jurnalist normalarına sığmayan forma və metodlarla informasiya təbliğatı aparırlar. O biri tərəfdən isə erməni informasiya müharibəsi bütün Azərbaycan xalqını, onun tarixi və müasir irsini, ictimai-siyasi, mədəni və hərbi həyatını, bütün dəyərlərini, Azərbaycanın daxili və xarici siyasətini hədəf götürmüşdür.

Birmənalı şəkildə qeyd etmək lazımdır ki, erməni informasiya müharibəsinin aparılmasına istiqamətlənmiş baxışlar erməni kilsəsinin, erməni millətçi partiyalarının, ictimai təşkilatlarının, Ermənistan dövlətinin rəsmi sənədlərində, bəyanatlarında öz ifadəsini tapmışdır. Siyasi, iqtisadi, hərbi və mədəni sahədə Azərbaycanla ayaqlaşmağı bacarmayan ermənilərin Azərbaycan ərazilərinin işğalının qorunub saxlanması üçün indi əsas diqqəti məhz Azərbaycana qarşı informasiya müharibəsinin genişləndirilməsinə yönəlmişdir. Bunun üçün Ermənistan dövləti, erməni kilsəsi və diasporu ən ifrat təcavüzkar forma və vasitələrə əl atmaqdan belə çəkinmir.

Nəzərə alınsa ki, Ermənistanda və ermənilik daxilində bütün ictimai qurumlar antitürk ideologiyası ilə zəhərləniblər, onda onların hamılıqla informasiya-psixoloji təcavüzün subyekti olmasını istisna etmək olmaz. Erməni diasporunun maliyyə dəstəyi ilə bir sıra ölkələrdə yerli elitadan formalaşdırılan erməni lobbisi, rəsmi və qeyri-rəsmi erməni qurumlarının, erməni diasporunun nə-

zarəti altında olan kütləvi informasiya vasitələri də Azərbaycan xalqına və bütünlükdə türkçülüyə qarşı informasiya-psixoloji təcavüzün subyekti ola bilərlər.

Dağlıq Qarabağ münaqişəsi ilə bağlı erməni informasiya-psixoloji təcavüzkarlığının təcrübəsi də göstərir ki, Azərbaycan xalqının bir sıra dəyərlərini xüsusi informasiya zərbəsi altına almaqla cəmiyyət daxilində anlaşılmazlıq yaradılmasına və xalqın gözdən salınmasına cəhdlər göstərilir. Xüsusilə, Azərbaycan xalqının tarixi, mədəniyyəti, mənəvi-əxlaqi keyfiyyətlərini, tarixi və siyasi şəxsiyyətlərini, Azərbaycanın tanınmış tarixçilərinin tarixə sadiqliyini şübhə altına almaq və bununla da Azərbaycan xalqında öz tarixinə, Azərbaycan dövlətinin siyasətinin doğruluğuna şübhə yaratmaq, erməni işğalına qarşı milli müqavimət gücünü zəiflətmək erməni informasiya-psixoloji təcavüzünün həmişə gündəliyindədir.

Heç kəsə sirr deyil ki, Dağlıq Qarabağ münaqişəsi ətrafında cərəyan edən informasiya qarşıdurmasının, xüsusilə, ilkin mərhələsində erməni millətçiliyi gözlənilməz informasiya təcavüzü üsullarına əl atdı. Azərbaycan tərəfi belə gözlənilməz informasiya təcavüzünə hazır olmadığı üçün informasiya blokadasına məruz qaldı və həmin blokadanın aradan qaldırılması və ermənipərəst təsəvvürlərin neytrallaşdırılması üçün xeyli vaxt və məqsədyönlü fəaliyyət aparılması lazım oldu [5].

Təbii ki, ümumi informasiya müharibəsində qalib gəlmək üçün erməni millətçiləri Dağlıq Qarabağın qədim Ermənistan torpağı olmasının sübutu ilə bağlı, Azərbaycan xalqının qəddar xalq olması və Azərbaycan xalqı ilə birgəyaşayışın mümkün olmaması, Azərbaycan xalqına qarşı törədilən erməni cinayətlərinin pərdələnməsi, dünya miqyasında Azərbaycanın informasiya blokadasına alınması və s. xarakterli informasiya əməliyyatları hazırlayıb həyata keçirmişlər. Erməni millətçiləri hətta mənsub olduqları erməni xalqının millətçi-psixoloji vəziyyətə çatdırılması üçün informasiya əməliyyatları aparmaq və erməni əhalisinin şüurunda azərbaycanlıların qəddar obrazının yaradılması məqsədi ilə ayrı-ayrı erməni fərdlərinin qətlini planlaşdırmaqdan belə çəkinməmişdilər.

Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi informasiya müharibələri beynəlxalq səviyyəlidir. Çünki bu dövlətlərin hər ikisi müstəqil dövlət olmaqla beynəlxalq münasibətlərin subyektləridir. Lakin Ermənistan dövləti beynəlxalq səviyyəli informasiya əməliyyatının tərəfi kimi yalnız Azərbaycanı hədəfə almamışdır. Azərbaycana qarşı aparılan informasiya müharibəsindən qalib çıxmaq üçün Ermənistan beynəlxalq erməni diasporunu, habelə erməni lobbiçiliyini, ermənipərəst beynəlxalq qüvvələri manipulyasiya etmək üçün də xüsusi informasiya əməliyyatları həyata keçirir. Konkret olaraq, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Amerika parlamentində ədalətsiz və birtərəfli qərarların qəbul edilməsi erməni lobbiçiliyinin və ermənipərəst qüvvələrin düşüncəsinin manipulyasiya edilməsi üçün konkret informasiya-təbliğat əməliyyatının həyata keçirilməsi buna misaldır.

Dağlıq Qarabağ münaqişəsinin elə məqamları da var ki, (məsələn, Dağlıq Qarabağın ekologiyası, Azərbaycan ərazisində yaşayan etnik qruplar, Azərbaycanın xarici ölkələrlə münasibətlərinin gözdən salınması) erməni informasiya fəaliyyətinin daim gündəliyindədir. Lakin bu mövzular davamlı deyil, daha çox konkret məqamlarla bağlı olaraq qabardılır. Elə mövzular da vardır ki, onlar qısamüddətli, kampaniya şəklində, lakin intensiv şəkildə informasiya əməliyyatının obyektinə çevrilə bilər. Məsələn, Azərbaycanda prezident seçkiləri, beynəlxalq təşkilatlarda Ermənistanın əleyhinə qəbul edilmiş qərarların ədalətsizliyinin sübut edilməsi, təmas xəttində baş verən hadisələrin günahının Azərbaycan üzərinə atılması və s.

Dağlıq Qarabağ münaqişəsinin informasiya qarşıdurmasında da belə xüsusi əməliyyatların müəyyən konturlarını müşahidə etmək mümkündür. Çünki Azərbaycan ətrafında informasiya blokadasının qırılması, dünya birliyində Azərbaycanın öz layiqli yerini tutması və dünya geopolitikasının müəyyənləşməsində Azərbaycanın rolunun artması Azərbaycana qarşı xüsusi informasiya müharibələrinin aparılmasının uğurunu elə əvvəlcədən məhdudlaşdırır. Bununla belə, hər halda müəyyən cəhdlər göstərilməlidir. Məsələn, Azərbaycan Respublikası Prezidentinin Azərbaycanın ərazi bütövlüyü və Ermənistanın işğalçılıq siyasəti haqqında qətiyyətli mövqe nümayiş etdirməsindən sonra erməni millətçi qüvvələri tərəfindən Azərbaycan Prezidentinin nüfuzdan salınması üçün informasiya əməliyyatlarının keçirilməsinə cəhd göstərilir. Və ya Azərbaycan siyasi və iqtisadi baxımdan möhkəmləndikcə, Azərbaycan cəmiyyətində Azərbaycan dövlətçiliyinə inamsızlıq toxumu səpilməsinə cəhdlər göstərilir.

Tarixdən yaxşı məlumdur ki, Dağlıq Qarabağda, eləcə də Dağlıq Qarabağ ətrafında və Ermənistan ərazisində yaşayan azərbaycanlı əhaliyə qarşı silahlı hücumlar başlamazdan əvvəl, Ermənistan Respublikasının və erməni millətçilərinin informasiya hücumları başlandı. Həmin hücumların nəticəsində informasiya məkanında ermənipərəst mövqenin qabarması baş verdi. Bunun nəticəsində də Ermənistan ərazisindən yüz minlərlə azərbaycanlı əhalinin qovulması, Dağlıq Qarabağ ətrafındakı ərazilərin işğalı ciddi beynəlxalq qınağa məruz qalmadı.

Yuxarıda qeyd edildiyi kimi, Dağlıq Qarabağ ətrafında cərəyan edən informasiya qarşıdurmasında üstünlüyü əldə etmək və təcavüzkar millətçi və işğalçı siyasətinə don geyindirmək üçün Ermənistan dövləti və erməni diasporu geniş miqyasda dezinformasiyadan istifadə edirlər. Azərbaycanın uzun müddət informasiya blokadasında qalması və hətta ABŞ Parlamentində 907-ci Düzəliş kimi ədalətsiz qərarın qəbul edilməsi erməni dezinformasiyasının nəticəsidiк. Azərbaycan-Ermənistan informasiya qarşıdurmasının elə bir sahəsi yoxdur ki, həmin sahə ilə bağlı erməni dezinformasiya axını informasiya məkanına yeridilməsin. Eyni zamanda elə bir informasiya vasitəsi tapmaq çətindir ki, orada erməni dezinformasiyası yerləşdirilməsin və ya həmin vasitə ilə erməni dezinformasiyası ötürülməsin. Nəticədə, Dağlıq Qarabağ münaqişəsinin mahiyyəti, Dağlıq Qarabağın tarixi, Azərbaycan tarixi, mədəniyyəti, mənəvi-əxlaqi dəyərləri, tarixi-mədəni irsi, iqtisadiyyatı, hərbisi, etnoqrafiyası, habelə Ermənistanın tarixi, mədəniyyəti, həyata keçirdiyi siyasətin mahiyyəti erməni informasiya məkanının əsas hissəsini tutur.

XXI əsrin əvvəllərində neft gəlirlərindən Azərbaycanın informasiya siyasətinin həyata keçməsinə xeyli vəsaitin ayrılması, Azərbaycanda informasiya texnologiyalarının inkişaf etdirilməsi, Azərbaycan informasiyasının təsir auditoriyasının genişlənməsi ermənilər tərəfindən böyük təəssüflə qarşılanır. Cənab İlham Əliyevin prezidentliyi dövrü isə erməni mütəxəssisləri tərəfindən Azərbaycanın informasiya fəallığının yeni bir mərhələsi kimi xarakterizə olunur. Belə mülahizələr irəli sürülür ki, cənab İlham Əliyevin Azərbaycana rəhbərliyi dövründə Ermənistan Respublikası, Dağlıq Qarabağ Respublikası (?) və ermənilik Azərbaycanın informasiya fəaliyyətinin müstəqim obyektinə çevrildi, Ermənistanla müharibəyə hazırlıq, Türkiyə ilə hərbi-siyasi əməkdaşlığın dərinləşdirilməsi, hərbi büdcənin artırılması əvvəlcə Azərbaycan daxilində, sonra da xaricdə antierməni təbliğatının genişləndirilməsi ilə müşayiət olundu. Erməni mütəxəssislərinin qənaətinə görə, 2003-cü ildən başlayaraq antierməni siyasətinin bütün sahələrində hücum funksiyasını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz üzərinə götürdü və onun iştirakı ilə antierməni informasiya-təbliğat sistemi yaradıldı. Həmin sistemin yaradılmasında məqsəd o idi ki, Ermənistan Respublikası və erməni diasporu gözdən salınsın, Ermənistanla diaspora arasında nifaq yaradılsın, Ermənistan soyqırımı törədən bir dövlət kimi tanınsın [6, s.150].

Dağlıq Qarabağ münaqişəsinin bütün inkişafı boyu informasiyaların məqsədyönlü və əhatəli şəkildə istifadə edilməsini, xüsusilə, son illərdə münaqişə ətrafında cərəyan edən hadisələrin, əsasən, informasiya müstəvisinə keçirilməsini bu münaqişənin xarakterik xüsusiyyətlərindən biri kimi qiymətləndirmək olar.

Diqqət edilərsə, hətta münaqişənin ilkin mərhələsi ilə son mərhələsində aparılan informasiya təbliğat siyasətinin məzmununda bir fərqlilik vardır. Bu məsələ, xüsusilə, Ermənistanın informasiya-təbliğat siyasətinə aiddir. Çünki Dağlıq Qarabağ münaqişəsinin başlanğıcında Ermənistanın informasiya-təbliğat siyasəti Azərbaycan Respublikasına qarşı ərazi iddialarının əsaslandırılmasına, işğala hazırlıq və işğal prosesinin pərdələnməsinə, erməni cəmiyyətinin də Azərbaycana qarşı başlanacaq işğala cəlb edilməsinə və bu tipli vəzifələrin icrasına istiqamətlənmişdisə, münaqişənin son dövründə aparılan informasiya-təbliğat siyasəti Azərbaycan ərazilərinin işğalının və bu ərazilərdə aparılmış etnik təmizlənmənin qanuniləşdirilməsinə, işğal edilmiş ərazilərdə yaradılmış qondarma separatçı qurumun beynəlxalq aləmə qəbul etdirilməsinə istiqamətlənmişdir.

Belə nəticəyə gəlmək olar ki, Dağlıq Qarabağda millətçi separatizmin qısa zaman ərzində geniş vüsət alması, əslində, Ermənistan rəhbərliyinin, erməni kilsəsinin və erməni millətçi dairələrinin neçə onilliklər ərzində sovet məkanında apardığı fəaliyyətin məntiqi davamı idi. SSRİ dövründə ölkənin bütün informasiya vasitələri dövlətin inhisarında olduğu üçün erməni millətçi dairələrinin separatçı fəaliyyəti ictimaiyyətdən gizli saxlanılırdı. Lakin SSRİ-nin süqutundan sonra

informasiya vasitələrinin və informasiyaya nəzarətin dövlətin monopoliyasından çıxarılması ilə Ermənistan rəhbərliyinin və erməni kilsəsinin Dağlıq Qarabağın Azərbaycandan qoparılması üçün göstərdikləri təxribatçı fəaliyyət də ictimaiyyətə bəlli oldu. Həmin faktlar onu göstərirdi ki, Azərbaycana qarşı ərazi iddiaları sovet beynəlmiləlçiliyinin geniş təbliğ edildiyi illərdə belə erməni dairələrinin və kilsəsinin gündəmindən kənarda qalmamışdı.

Bununla belə, Azərbaycana qarşı işğalçılıq siyasətini pərdələmək və ona haqq qazandırmaq üçün Ermənistan müvafiq informasiya-təbliğat siyasətini həyata keçirməkdədir. Bunun üçün çoxsaylı tezislər irəli sürülür, bu tezislərin kütlələrə çatdırılması üçün çoxsaylı şəbəkələrdən istifadə olunur. Qeyd etmək lazımdır ki, bu istiqamətdə erməni informasiya-təbliğat maşını kifayət qədər fəal mövqeyə malikdir. Bunun da heç şübhəsiz ki, öz səbəbləri vardır. Dağlıq Qarabağla bağlı erməni informasiya-təbliğat maşınının xeyli fəal işləməsinin iki təkanverici qüvvəsi vardır. Bunlardan biri Ermənistan siyasəti, digəri isə erməni ənənəvi millətçiliyidir. Ermənistanın informasiya-təbliğat maşınının fəaliyyət istiqamətləri, əsasən, dövlətin apardığı siyasətlə müəyyənləşir. Lakin o da qeyd edilməlidir ki, müasir dövrdə Ermənistan dövləti ermənilərə məxsus olan bütün informasiya vasitələrinə nəzarət etmir. Ermənistanın dövlət nəzarətindən kənarda olan informasiya vasitələrində, xüsusilə ölkə xaricindəki informasiya vasitələrində aparılan informasiya-təbliğat işləri ənənəvi erməni millətçiliyi tərəfindən idarə olunur. Əslində, Azərbaycan Respublikasına qarşı işğalçı siyasətində Ermənistan dövlətinin siyasəti ilə dünya ermənilərinin millətçi-təcavüzkar mövqeyi arasında elə bir fərq yoxdur. Hətta qonşu dövlətlərə ərazi iddiaları ilə bağlı məsələdə erməni diasporunun daha radikal mövqe tutmasının şahidi olmaq mümkündür. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həyata keçirilən informasiya-təbliğat fəaliyyətində isə Ermənistan dövləti ilə erməni diasporu arasında tam bir vəhdət mövcuddur.

2016-cı il aprelin 1-dən 2-nə keçən gecə Azərbaycanın düşmənlə təmas xəttində yerləşən mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələrinin intensiv atəşinə məruz qalanda Milli Ordumuz əks-hücum əməliyyatı ilə düşmənin təxribatlarının qarşısını alıb Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəklikləri, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyini və Cocuq Mərcanlını, Goranboy rayonunun Gülüstan kəndini və Tərtər rayonunun Madagiz (Suqovuşan) kəndi istiqamətində bəzi mövqeləri işğaldan azad etdi. 2018-ci ilin may ayında Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşməndən azad olundu, dövlət sərhədi boyunca əlverişli strateji yüksəkliklər ələ keçirildi, Yerevan-Gorus-Laçın yolu nəzarətə götürüldü. 2020-ci il iyulun 12-də Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində atəşkəs rejimini kobud şəkildə pozaraq hərbi təxribata əl atdı. Lakin Azərbaycan Ordusu düşmənin mənfur niyyətinin qarşısını qətiyyətlə alaraq, onu xeyli sayda canlı qüvvə və texnika itkisinə məruz qoydu. Ermənistanın növbəti hərbi təxribatı nəticəsində 2020-ci il sentyabrın 27-dən başlayaraq davam edən döyüşlərdə Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr endirərək, işğal edilmiş torpaqlarımızın azad olunması üçün uğurlu hərbi əməliyyatlar həyata keçirdi. Bütün bunlar Azərbaycanın hərbi gücünü və qüdrətini nəinki Ermənistana, bütün dünyaya göstərdi [7].

Aparılan son əməliyyatlar nəticəsində birinci mərhələdə göstərildiyi kimi, ilkin olaraq münaqişə ilə bağlı ictimai rəy yaradıldı, cəmiyyət daxilində orduya inam formalaşdırıldı. Əməliyyatlar aparılan müddət ərzində ikinci mərhələ uğurla həyata keçirildi. Belə ki, Madagizdə erməni komanda-qərargah məntəqəsinin dəqiq atəşlə məhv edilməsi, düşmənin illərlə fəxrlə danışdığı müdafiə istehkam qurğularının dağıdılması, o cümlədən “Ohanyan xətti” kimi əfsanələşdirilən, əslində isə erməni cəmiyyətini aldatmağa hesablanan siyasi xəttə son qoyulması Ermənistan rəhbərliyi tərkibində xaos yaratdı. Nəticədə, bu proses qarşı tərəfin ictimaiyyətinə və hərbi-siyasi qurumlarına olduqca güclü psixoloji təsir göstərdi [8].

Ermənistanın baş naziri Nikol Paşinyanın hakimiyyətə gəldiyi vaxtdan Ermənistanın gələcəyi və Dağlıq Qarabağ münaqişəsinin Ermənistanın xeyrinə həll olunması məsələsinə dair erməni siyasətçilərinin və ekspertlərinin inamsızlığı əhəmiyyətli dərəcədə artmışdır. Belə inamsızlığın yaranmasının başlıca səbəblərindən biri də ölkəmizin informasiya məkanında fəallığının ciddi şəkildə artmasıdır [9].

Ermənistan hakimiyyəti məqsədli şəkildə təxribatlara əl atmaqla dünya ictimaiyyətində belə bir fikir formalaşdırmağa çalışır ki, hərbi əməliyyatlar Dağlıq Qarabağdan Ermənistan-Azərbaycan sərhədinə transformasiya olmuşdur. N.Paşinyanın niyyəti Azərbaycanı, guya, Ermənistanın ərazi bütövlüyünü bilərəkdən pozmaqda və güc nümayiş etdirməklə Dağlıq Qarabağdakı separatçı rejimə, ümumiyyətlə, regional təhlükəsizliyə təhdid yaratmaqda günahlandırmaqdır.

Ermənilərin işğal olunmuş torpaqlarımızın azad olunması uğrunda gedən əks-hücum əməliyyatlarına kölgə salmaq, cəmiyyətdə çaşqınlıq, xaos, şübhə yaratmaq məqsədilə tirajladığı yalan məlumatların qarşısının alınması üçün bəzi məhdudiyyətlər, təhlükəzlik qaydaları tətbiq edilib. Obyektiv səbəblərdən internetin məhdudlaşdırılması sosial şəbəkələrdə dezinformasiyaların qarşısının alınmasına xidmət edir. Bunu cəmiyyətdə informasiya blokadası, məlumat təlabatının qarşısının alınması kimi qiymətləndirmək olmaz. Çünki, Azərbaycan telekanallarında mütəmadi xəbərlər, cəbhə bölgəsinə ezam olunan müxbirlər vasitəsilə canlı yayım və reportajlar yayımlanır. Bundan başqa, internet saytlarına girişə məhdudiyyət olmadığından auditoriya istədikləri xəbərləri əldə edə bilir. Dövlətin trateji informasiya müharibəsində əsas məqsədi düşmənin dezinformasiyalarından müdafiə, təhlükəsizliyin təmin olunmasıdır [9].

Bu gün Azərbaycan artıq kifayət qədər səmərəli informasiya təhlükəsizliyi siyasətini həyata keçirə bilir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi, hüquqi və siyasi aspektlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində ölkə başçısı İlham Əliyevin çıxışları, nitqləri xüsusi əhəmiyyət daşıyır. İşğalçı Ermənistanın təxribatları ilə başlayan Ermənistan-Azərbaycan müharibəsinin gedişində Azərbaycan Prezidentinin xalqa müraciətləri, beynəlxalq və transmilli televiziya kanallarında yayımlanan müsahibələri, dünya mediasında geniş yer alan çıxışları dövlətimizin döyüş meydanında hərbi uğurlarına paralel informasiya müharibəsində üstünlüyünun təcəssümüdür. Ali Baş Komandan konstruktiv, prinsipial mövqe sərgiləyərək, ciddi arqumentlərlə dünya ictimaiyyətinə çatdırdı ki, təxribatlar məhz işğalçı Ermənistan tərəfindən törədilib. Azərbaycan öz torpaqlarında ərazi bütövlüyünü təmin etmək uğrunda mübarizə aparır. Bu mübarizə BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin tələbidir.

Ermənistan hakimiyyəti məqsədli şəkildə təxribatlara əl atmaqla dünya ictimaiyyətində belə bir fikir formalaşdırmağa çalışır ki, hərbi əməliyyatlar Dağlıq Qarabağdan Ermənistan-Azərbaycan sərhədinə transformasiya olmuşdur. N.Paşinyanın niyyəti Azərbaycanı, guya, Ermənistanın ərazi bütövlüyünü bilərəkdən pozmaqda və güc nümayiş etdirməklə Dağlıq Qarabağdakı separatçı rejimə, ümumiyyətlə, regional təhlükəsizliyə təhdid yaratmaqda günahlandırmaqdır.

*Nəticə.* Qeyd etmək lazımdır ki, Vətən müharibəsi nəticəsində Ermənistanın Azərbaycana qarşı apardığı informasiya müharibəsi də iflasa uğramışdır. Dünya ictimaiyyəti bilir ki, Ermənistan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq hüquqa zidd mövqe tutur. Ermənistanın işğalçılıq siyasətinin mahiyyəti, Dağlıq Qarabağ münaqişəsinin səbəbləri və nəticələri barədə beynəlxalq ictimai rəyin obyektiv şəkildə formalaşması istiqamətində Prezident İlham Əliyev məqsədyönlü siyasət aparır və bu sahədə mühüm uğurlar əldə edilir. Ermənistan rəhbərliyi cəbhə bölgəsində hərbi təxribatlar törədərkən çirkin niyyətini ört-basdır etmək üçün yaydığı dezinformasiyalarla və feyk xəbərlərlə ictimai rəyi çaşdırmağa çalışır ki, bu yaxınlarda onun bir daha şahidi olduq. Belə ki, bu il sentyabrın 27-də cəbhədə başlayan döyüşlər zamanı Ermənistanın qeyri-obyektiv və əsassız informasiyalar (guya, Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus F-16 təyyarələrinin, xarici ölkələrdəki muzdlu silahlı dəstələrin Azərbaycan tərəfindən döyüş əməliyyatlarında iştirak etməsi və s.) yaymaqda əsas məqsədi ictimai rəydə Azərbaycan Ordusunun döyüş qabiliyyətini süni şəkildə azaltmaqdan və münaqişəyə üçüncü ölkələrin qoşulmasına çalışmaqdan ibarətdir. Təbii ki, Ermənistanın bu cür əsassız iddialarla beynəlxalq ictimaiyyəti aldatmaq cəhdləri mənasızdır və artıq dünya ölkələri yaxşı bilirlər ki, Azərbaycan dövləti özünün ərazi bütövlüyündən heç vaxt imtina etməyəcək və nəyin bahasına olursa-olsun işğal edilmiş ərazilərini azad edəcəkdir. Buna görə də N.Paşinyanın Ermənistanda hökm sürən böhrandan və siyasi qarşıdurmalardan əhalinin diqqətini yayındırmaq üçün Azərbaycana qarşı informasiya təbliğatı aparmaqla nəyəsə nail olması qeyri-mümkündür [10].

Göründüyü kimi, Vətən müharibəsində Azərbaycanın Ermənistan üzərində parlaq zəfər qazanması bir çox sahələrdə olduğu kimi informasiya-psixoloji müharibəsində də ölkəmizin üstünlüyünü təmin etdi, illərlə aparılan saxta erməni təbliğatına sarsıdıcı zərbə vura bildi. Artıq dünya erməni yalanlarına əvvəlki tək inanmır və inanmaq belə istəmir.

## ƏDƏBİYYAT

1. Seyidova S. Ermənistanın Azərbaycan qarşı təcavüzü və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində beynəlxalq təşkilatların mövqeyi. Bakı: ADPU-nun mətbəəsi, 2014, 411 s.
2. Süleymanlı N. Dağlıq Qarabağ münaqişəsinin informasiya modeli. Bakı: Qızıl Şərq, 2011, 280 s.
3. Qasımlı M. Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları: tarix - olduğu kimi (1920-1994-cü illər). Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2016, 520 s.
4. Hacızadə Əli. İnformasiya müharibəsi və biz / Gülüstan info, 24.11.2010. - https://gulustan.info/2010/11/24/informasiya-muharib%c9%99si-v%c9%99-biz/ [Müraciət tarixi: 09.12.2020].
5. Карабахская проблема как составная часть Армянского вопроса. - www.karabah88.ru.history/karabah/25h [Müraciət tarixi: 09.12.2020].
6. Жамакочян Анна, Галстян Диана. Система и методология антиармянской политики Азербайджана. Ереван, Айпедрад, 2009, с.150
7. Ermənistanın Azərbaycana qarşı informasiya müharibəsinin detalları məlum olub / Mediapost İnformasiya Agentliyi, 05.07.2020. - https://mediapost.az/ermenistanin-azerbaycana-qarsi-informasiya-muharibesinin-detallari-melum-olub [Müraciət tarixi: 09.12.2020].
8. Qocayev Ş. Qarabağ ətrafında psixoloji və informasiya savaşı – TƏHLİL / Ordu.Az, 24 oktyabr 2017. - https://ordu.az/az/news/122332/qarabag-etrafinda-psixoloji-ve-informasiya-savasi-%E2%80%93-tehlil [Müraciət tarixi: 09.12.2020].
9. Leyla Rəşid. İnformasiya müharibəsi: məqsəd və hədəflər / Xalq qəzeti, 17 oktyabr 2020. - http://xalqqazeti.com/az/news/60136 [Müraciət tarixi: 09.12.2020].
10. Mübariz Qurbanlı. Təcavüzkar Ermənistanın iflası / Azərbaycan qəzeti, 06.10.2020. - http://www.azerbaijan-news.az/view-199759/tecavuzkar-ermenistanin-iflasi [Müraciət tarixi: 09.12.2020].

**TALEH JAFAROV**
*Doctor of Philosophy in History,*
*Senior teacher of Azerbaijan State Pedagogical University*

## THE INFORMATION-PSYCHOLOGIC WAR OF ARMENIA AGAINST AZERBAIJAN DURING THE I AND II KARABAGH WARS

The information-psychological war of Armenia against Azerbaijan reached its peak point in the early 80-90s of the XX century. Initially, Armenian nationalists declared Karabagh to be their historical land in their information-propagandist activities, and Azerbaijan to attempt capturing Karabagh by force. The information war led by Armenia against Azerbaijan suffered and weakened a lot due to the resistant statements and speeches of mr.Ilham Aliyev. The main factor conditioning the victory of Azerbaijan in the information-psychological war was the unity of the people-army and the President.

*Keywords:* information-psychological war, the Daghlig Karabagh conflict, the ethnic cleansing, the Armenian diaspora, Armenianism.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 9 dekabr 2020-ci il.*
*Məqalənin çapa qəbul olma tarixi: 15 dekabr 2020-ci il.*
*Məqalə Redaksiya heyətinin qərarı ilə çapa məsləhət görülüb.*

*Tarix və onun problemləri/История и ее проблемы/History and its problems, Xüsusi buraxılış 2020, 133-139*

**UOT 94(3)**

**NAZİM HÜSEYNLİ**
*fəlsəfə elmləri doktoru,*
*Bakı Avrasya Universitetinin professoru*
**E-mail: hüseynlin1956@rambler.ru**

# ÜMUMDÜNYA TUFANI VƏ ŞUMER MƏDƏNİYYƏTİ

*Qədim xalqların mədəniyyətini, düşüncə tərzini və dini inanclarını ən yaxşı təcəssüm etdirən faktorlardan biri onların mifologiyasdır. Şumer mifologiyası da Mesopatomiya ərazisində yaşamış qədim tarixə malik Şumerlərin dünya görüşünü və mədəniyyətini öyrənmək baxımından böyük əhəmiyyət kəsb edir. Tarixi faktlar günümüzə qədər gəlib çatmış bir çox əfsanə, hekayə və ideyaların ilkin formasının Şumerlərə məxsus olduğunu təsdiq edir. Bunlardan biri də tufan haqqında əfsanədir. Dünyanın böyük bir qasırğa nəticəsində yox olması və yenidən yaradılması fikrini irəli sürən bu əfsanə bir çox mədəniyyətlərdə və dini kitablarda öz əksini tapmışdır. Məzmun etibarı ilə eyni olsa da hər bir mədəniyyət qasırğanın baş vermə səbəbini və nəticəsini fərqli şəkildə təqdim etmişdir. Ümumdünya tufanı olaraq da adlandırlan bu təbii fəlakətə dair Uruq şəhərində tapılmış 37 sətirlik yazılı mənbə əfsanənin ilkin formasının Şumer mədəniyyətinə aid olmasını təsdiqləyir. Bu yazılı mənbədə daşqın təbii fəlakət olaraq deyil, tanrının insanlara qəzəbi olaraq göstərilmişdir. Əfsanənin əsasını təşkil edən tanrının qəzəbinin 7 gün çəkməsi, insanların Ziusudra tərəfindən xilas edilməsi, dünyanın yenidən yaradılması və s. kimi fikirlər Şumer dünya görüşünün, düşüncə tərzinin və dini inanclarının əsas ifadəçisidir. Bu sahədə araşdırmalar etmiş arxeoloqlar tarixə mif olaraq daxil olmuş təbii fəlakətin heç də ümumdünya səciyəsi daşımadığını, sadəcə Dəclə və Fərhat çayları arasındakı ərazini əhatə etdiyi fikrini irəli sürmüşlər. Həmin arxeoloqlar daşqının səbəbi olaraq isə buzlaşma dövründən istiləşmə dövrünə keçid və İkiçayarasında suyun səviyəsinin həddindən çox qalxmasını göstərmişlər. Şumer mədəniyyətində bunun ümumdünya tufanı adlandırılması isə Şumer xalqının dünyasının elə Mesopatomiyadan ibarət olması ilə əlaqələndirilir. Beləliklə, buzlaqların əriməsi nəticəsində Mesopatomiya ərazisində baş vermiş bu böyük tufan Şumer təxəyyülü nəticəsində dövrümüzə qədər gəlib çatan məşhur əfsanəyə çevrilmişdir.*

*Açar sözlər:* mif, ümumdünya tufanı, İkiçayarası, Şumer, dünya, Allah.

*Giriş.* Dünyanın yox olub yenidən yaradılmasına dəlalət edən ümumdünya tufanı ilə bağlı miflər bir çox mədəniyyətlərdə mövcuddur. Məzmunundakı kiçik fərqlərə baxmayaraq yaradılışın yox olması ilə bağlı fikirlər yer üzündəki bütün dini inanclarda yer almaqdadır. İlkin forması Şumer mədəniyyətinə əsaslanan ümumdünya tufanı əfsanəsi Xristianlıq, Yəhudilik və İslam ilə birlikdə bütün dünyanın ortaq bir inancına çevrilmişdir. Arxeloqların araşdırmaları və müxtəlif yazılı mənbələr tarixdə belə bir tufanın mövcudluğunu, onun bütün dünyanı deyil sadəcə Mesopotamiyanı əhatə etməsini təsdiqləyirlər. Təbii fəlakətin ümumdünya tufanı adlandırılması isə Mesopotamiyanın bu bölgədə yaşayan sakinləri üçün bütün dünya anlamına gəldiyinin əsas göstəricisi idi. Araşdırmalar nəticəsində tufanın yeri və səbəbləri haqqında bir sıra yazılı qaynaqlar tapılmışdır. Bu mənbələrdən "Gilqameş" dastanında tufan haqqında mifin Şumer variantı geniş təsvir olunmuşdur. Dastana görə ümumdünya tufanı təbii fəlakət deyil, Allahdan gələn cəza idi. Tufandan öncə insanlara xəbərdarlıq edilmiş, ancaq onlar buna heç bir əhəmiyyət verməmişdirlər. Gilqameş dastanında təsvir olunmuş eyni məzmunlu hadisələr daha sonradan digər epik poema və müqəddəs kitablarda da öz əksini tapmışdır. Lakin, dünyanın yox olmasının qarşısını alıb, insanlığı xilas edən şəxs hər bir mədəniyyətdə müxtəlif adlarla təsvir edilmişdir. İnsanlığın xilaskarı olan bu şəxs Şumer mədəniyyətində Ziusudra, Akkad variantında Utanapiştim, "Tövrat"da Noya, "İncil" və "Quran" da isə Nuh kimi verilmişdir. Miflərdə "ümumdünya tufanı" olaraq adlandırılan bu təbii fəlakət, əslində, buzlaşma dövründən istiləşmə dövrünə keçiddən başqa bir şey deyildi. Tarix boyunca bu keçid dövrünə dair müxtəlif mülahizələr irəli sürülməsinə baxmayaraq, hələ də bu məsələ sual altında qalmaqdadır.

*Şumer Tufanı Əfsanəsi.* İngilis arxeoloqu L.Vulli İkiçayarasının cənub hissəsində arxeoloji qazıntı apararaq ümumdünya tufanının olduğu yeri müəyyənləşdirmişdir. O, Uruq şəhərində

qazıntılar apararkən 14 metr dərinliyi olan şaxta aşkar etmişdir. Arxeoloq orada b.e.ə. III minilliyin əvvəlində yaşamış hökmdar qəbrini tapmış, habelə külli miqdarda ləl-cəvahirata və insan qalıqlarına rast gəlmişdir. Onun göstərişi ilə fəhlələr yeni təbəqələr qazmış, lakin heç bir insan qalığı əldə edilməmişdir. Qazıntı işləri davam etdirilmiş, 3 metr dərinlikdən sonra qədim yaşayış məskəninin qalıqları-kərpic, məişət tullantıları, keramika qalıqları aşkar edilmişdir.

L.Vulli layların yerləşməsinə görə belə bir nəticəyə gəlmişdir ki, hər hansısa güclü subasma bizə məlum olmayan qədim insan məskənini məhv edib dağıtmışdır. Su çəkildikdən sonra isə həmin ərazidə başqa insanlar - ən qədim dünya sivilizasiyasının yaradıcıları hesab edilən şumerlər yerləşmişlər. Burada lilin qalınlığı 8 metrdir. Bu İkiçayarasında güclü subasmanın baş verməsinə dəlalət edir (9, s.45-48).

Belə bir yanaşmada "Gilqameş dastanı"nındakı tufan haqqında ideyanın genezisini araşdıraq. Arxeologiyanın verdiyi informasiyalara görə, şumerlərin beş qədim şəhərlərindən biri olan Şuruppak tufana məruz qalmışdır. Epik poemada təsvir olunduğu kimi, insanlığı və bütövlükdə canlıları xilas etmək üçün həmin şəhərdə gəmi düzəldilmişdir. Onun müəllifi isə adı çəkilən şəhərin hökmdarının oğlu, əslən şumer mənşəli Ziusudra olmuşdur. Sonralar həmin ad dastanın Akkad variantında Utanapiştim, babil versiyasında,"Tövrat"da Noya, "İncil" və "Quran"da isə Nuh kimi verilmişdir (7, s.155-157)

Deməli, Tufan hadisəsi Şumerlərin dönəmində olmuşdur. Ancaq bu fakt Akkadlar, Babillər, Qədim Yəhudilər, Qədim Yunanlar və Ərəblərin yaşadıqları ərazilərdə, habelə adları çəkilən epik poemaların və müqəddəs kitabların yazıldığı dövrdə tufan, subasma və daşqın kimi kəskin təbiət hadisələrinin baş verdiyinə dəlalət etmir. Bu isə həmin poemaların, müqəddəs kitabların ontoloji əsasının Şumer kökünə əsaslandığının göstəricisidir.

Dastanın, adları çəkilən müqəddəs kitabların, habelə digər epik əsərlərin genetik əlaqəsinin kökündə tufan ideyası fundamental rol oynamışdır. Həmin ideyanın mahiyyəti belədir: tanrılar və tanrıçalar bir yerə toplaşaraq bütün canlıları, o cümlədən insanlığı məhv etmək üçün tufan qaldırmaq, daşqın, sel yaratmaq qərarına gəlmişlər. Bu qərarın layihəsi şumerlərin tanrılar şurasının sədri Enlil tərəfindən irəli sürülmüş, şura isə qərar qəbul etmişdir. Qeyd edək ki, şuranın qərarı tanrılar və tanrıçalar tərəfindən sirr saxlanmalı idi. Lakin canlıların, xüsusən də insanların məhvi haqqında qərarın kökündən yalnış olduğunu dərk edən müdriklik tanrısı Enki vəziyyətdən çıxış yolunu gəminin hazırlanmasında gördü. O, dolayısı yolla Şuruppak şəhərinin hökmdarı Ziusudraya onun verdiyi layihə əsasında gəmi hazırlayıb insanları və digər canlıları bu gəmiyə toplayıb suya buraxmağı həvalə etdi. Sonrakı hadisələr dastanda Ziusudra tərəfindən belə təsvir olunur: "Altı gün yeddi gecə dəli küləklər əsdi, yer üzünü tufanlar, daşqınlar bürüdü. Yeddi gün tamam olduqdan sonra daşqınlar, qasırğalar sovuşdu.Yer üzərində aydınlıq əmələ gəldi. Nəfəsliyi açdım, üzümə işıq düşdü. Sakit dənizə baxıb gördüm ki, tanrının qəzəbi sönüb, bütün bəşəriyyət isə tamam torpağa dönüb. Hər nə varsa, hamısı yerlə yeksan olub, dümdüz hamarlanıb. Mən dizi üstə çökdüm, gözlərim yaşardı, hönkür-hönkür ağladım. Sahillərə baxırdım ki, görüm orada nə var. On iki mənzillikdə bir ada görünürdü. Bizim gəmi həmin Nisir dağında (Ağri dağı – N.H. ) dayandı. Dağ gəmini dayaq kimi tutub saxlamışdı. Düz iki gün qoymadı ki, gəmi yerindən tərpənsin. Dağ gəmini üç-dörd gün də saxladı. Beş-altı gün də keçdi, gəmini buraxmadı. Yeddinci gün mən göyərçin çıxarıb havaya buraxdım. Göyərçin uçaraq gedib geriyə döndü, qonmağa yer tapmadığı üçün yenidən geri qayıtdı. Sonra qaranquş çıxarıb onu da havaya buraxdım. Lakin o da göyərçin kimi qonmağa yer tapmadığı üçün geri döndü (1, s.53-54). Mən qartalı çıxarıb havaya buraxdım. Qartal yol gedib suyu çəkilmiş ərazini tapdı. Mən çıxıb dörd tərəfin dördünə də qurban kəsdim. Dağın başına qalxıb göylərə tərif dedim. Mən orada yeddi dəfə yeddi buxurdan düzdüm. Buxurdana tökmək üçün mərsin, sidr, qamış əzdim. Tanrılar buxurdanın buxarını duydu, xoş ətri tanıdı, ora qədəm qoydular. Tanrılar qurbanların başına yığışdı, tanrılar və tanrıçalar atası An da gəlib çıxdı. Onun boynunda altun qaşlı gözəl boyunbağı var idi. O, söylədi: "Ey tanrılar! Boynumda əvəzsiz daş olacaq, o mənim yaddaşımda əbədi qalacaq. Bu tarixi günlər də xatirimdə qalacaq. Bunları ömrü boyu unudan deyiləm! Ey tanrılar, Enlildən başqa hamınız qurbana yığışın gəlin, yaxın gəlin. Bu qurban Enlilə qismət deyil, çünki o, düşünmədən belə bir daşqın törətdi, mənim adamlarımı ölümə düçar etdi!" Bundan sonra

Enlil çıxartdığı səhv qərarın mahiyyətini anlayaraq insanları və digər canlıları xilas edən Ziusudraya tanrılıq statusu verdi, həmçinin ona ölməzlik bəxş etdi (1, s.53-54)

Şumerlərin yaşadığı dövrdə hələ axirət dünyası və cəhənnəm haqqında fikirlər tam formalaşmadığı üçün bu cür təbii fəlakətlərin Allahın onlara göndərdiyi cəza olduğunu düşünürdülər. Ümumdünya tufanı kimi böyük fəlakətlərdən istifadə edən din adamları isə insanları tanrının qəzəbi ilə qorxudaraq idarə altında saxlamağa çalışırdlar (6, s.254).

*Ümumdünya Tufanına Dair Yazılı Mənbələr.* 1914-cü ildə Arno Pöbel ABŞ-ın Filadelfiya ştatının Pensilvani universitetindəki muzeyin Nippur kolleksiyasından şumer lövhəsinin aşağı hissəsini altı sütunda dərc etdirmişdir. Bu fraqmentin məzmununu əsasən, tufan təşkil edir. Heç bir muzeydə, heç bir yeni qazıntıda, heç bir xüsusi kolleksiyada tufana həsr olunmuş yazılı lövhə qalıqlarına rast gəlinməmişdir. Pöbelin üzərindəki yazını oxuduğu lövhəcik bizim üçün yeganə mənbə olaraq qalır və onun tərcüməsi indiyədək hamı tərəfindən qəbul edilir. Mətndə otuz yeddi sətirlik boşluq vardır. Görünür, burada əsasən tanrıların yerdə tufan qoparıb insan nəslinin kökünü kəsməsindən söhbət gedir. Mətn yenidən kifayət qədər aydınlaşan kimi görürük ki, tanrıların bəziləri belə amansız qərardan narazı olub kədərlənmişlər (1, s.52). Sonra səhnəyə "Tövrat"dakı Nuhun şumer prototipi olan Ziusudra çıxır. O, yuxuda gələcəyi görmə qabiliyyətinə malik, tanrılardan aldığı göstərişlərə sözsüz əməl edən, tanrılardan qorxan dindar bir hökmdar olmuşdur. Belə başa düşmək olar ki, Ziusudra hansısa bir divarın yanında duran zaman ilahi səs ona tanrıların qərarını xəbər verir: "Yer üzündən insan nəslinin kökünü kəsmək üçün yeri tufan bürüyəcək" (7, s.155-157).

Təbii ki, boş qalmış otuz yeddi sətir tufanın baş vermə səbəblərinin təsviri ilə əlaqədardır. Ali Tanrılar Şurasının hansı qərarı verdiyi, Ziusudranın canlıları qurtarmaq üçün hansı hərəkətləri etdiyi, tufanın törətdiyi fəlakətlərin necə yaşandığı şumerlərin başqa miflərindən aydın olur. Onların arasındakı genetik əlaqə və Tanrılar Şurasının çıxardığı qərarın mahiyyəti, güman ki, otuz yeddi sətirdə təsvir olunmuşdur. Başqa sözlə, tufan ideyası üç tərkib hissədən ibarət olmuşdur: 1) tufanın başlanma səbəbləri; 2) tufandan xilas olmaq üçün görülən işlər; 3) tufanın törətdiyi fəlakətlər. S.N.Kramerin irəli sürdüyü fikirlər Q.Henkok tərəfindən də təsdiq edilir: "Şumer lövhələrinin ilk otuz yeddi sətri yoxdur. Odur ki, bu əhvalatın necə başlandığını bilmirik. Mətnin bizə çatan hissələrində tufanın hələ yaxınlaşmasından söhbət açılır. Əvvəlcə biz insanın, heyvan və bitkilərin yaradılması haqqında deyilənləri oxuyuruq, sonra isə otuz yeddi sətirlik fasilə əmələ gəlir və biz artıq yüksək inkişaf etmiş sivilizasiyaya gəlib çatırıq. Öyrənirik ki, tufandan əvvəl hökmdarlıq bilavasitə "göydən yerə göndərilmişdi". Bu ifadə Göyün və Yerin "Piramida mətnlərində" (e.ə. 2300-cü ilədək), "Duatda olanlar haqqında kitabda" (e.ə. 1400-cü ilədək) və daha sonralar "Hermetikada" (Hermenivtika –N.H.) (e.ə. 300-cü ilədək) olan simvolizmi xatırladır (1, s.52).

Sonra mətndə tufandan əvvəl adı çəkilməyən hökmdar və ya tanrı tərəfindən şəhərlərin təməlinin qoyulması barədə məlumat verilir. Bu şəhərlərdən birincisi Eredu, ikincisi Badtibira, üçüncüsü Larak, dördüncüsü Sippar, beşincisi Şurrupakdır... Mətnin bu hissəsində gözlənilmədən "Tövrat"dakı Noyun şumer sələfi - Ziusudra adlı adam peyda olur (11, s.27-29). Henkok fikirlərini davam etdirərək, S.N.Kramerə istinadən özünün "Şumerlər" klassik kitabında göstərmişdir ki, tufan haqqında əfsanənin ən qədim versiyası olan "Gilqameş dastanı"nda "həyəcan doğuran dolaşıqlıq və qeyri-müəyyənlik" vardır. Eyni zamanda, dastanda daşqına qədər şəhər sivilizasiyasının mövcudluğu tam dəqiqliyi ilə qeyd edilir. Fars körfəzi bölgəsində Eredu, Badtibira, Larak, Sippar, Şurrupak kimi müqəddəs şəhərlər mövcud olmuşdur. İkiçayarasında şumer sivilizasiyalarının yox olmasından sonra xristian zamanına qədər beş şəhər haqqında rəvayətlər davam etmişdir (11, s.29-30).

Söylənilənlərə və yazılanlara görə ilk hökmdarlıq Nippur şəhərində deyil, Eredu şəhərində olmuşdur. Sonra isə hökmdarlıq Badtibira, Larak, Sippar və Şurrupak şəhərlərində yaranmışdır. Yazılanlara görə, həmin beş şəhərdə 8 hökmdar yaşamış və onların hamısının yaşadığı müddət təxminən 241200 il (tanrı ili) olmuşdur. Şumerlər öz taleləri haqqında belə fikirlər söyləmişlər ki, ilk 8 hökmdadan sonra ölkədə baş verən fəlakət nəticəsində bütün şəhərlər yerlə-yeksan olmuşdur.

Qədim şumer inancına görə, tufan zamanı gəmidə 7 növdə heyvan olmuşdur, onların 7-si erkək, 7-si dişi heyvan idi. Fəlakətli hadisə 7 gün 7 gecə durmadan davam etmişdir. 7-ci gün Günəş tanrısı Utu gur işıq saçaraq göy üzündə peyda olmuş və yağışa «dur!» əmrini vermişdir. Bundan sonra sular yavaş-yavaş çəkilməyə, yer üzü isinməyə başlamışdır. Şumer rəvayətinə görə özü ilə

fəlakət gətirən tufan keçdikdən sonra ölkədə yenidən hökmdarlıq əmələ gəlir və ilk səltənət Kiş şəhərində bərqərar olur (1, s.53-54). Digər bir mənbədə isə göydən ikinci dəfə enən yeni krallığın Ur şəhər-dövlətinə verilməsindən və bu krallığın I Sarqonun dövrünə qədər şəhərdən-şəhərə keçməsindən bəhs olunur (2, s.3; 6, s.239).

Digər etnosların mif və müqəddəs kitablarında Ziusudranın obrazı ideallaşdırılmış və başqa adlarla verilmişdir. Bununla yanaşı, digər tərəfdən atmosferdə baş verən dəyişikliklər Yer üzərində müsbət və mənfi təsirini göstərmişdir. Əgər Yerin tarixini xronoloji ardıcıllıqla izləsək, müxtəlif tarixi dövrlərdə fasiləli şəkildə əvvəlcə buzlamalar, sonra isə buzlaşmalararası müddətlərdə istiləşmə halları baş verdiyini görərik. İstiləşmə hallarında buzlaqlar ərimiş, okean, dəniz və çayların səviyyələri qalxmış, öz məcralarından çıxaraq yer üzündə fəlakətlər törətmişdir. Həmin fəlakətlər ümumdünya yox, regional xarakter daşımışdır. Bu baxımdan şumerlərin irəli sürdüyü "Ümumdünya tufanı" da, təbii ki, regional xarakterlidir.

Tufanla bağlı Rouxun verdiyi məlumatada isə b.e.ə 3300-3100-cü illərdə böyük bir təbii fəlakətin Übeyd mədəniyyətini məhv etdiyini və onun yerində yeni bir mədəniyyətin yarandığını qeyd edir. Lakin eyni mənbədə bu hadisənin tufan deyil böyük bir istilla olması ehtimalından da bəhs olunur (4, s.71; 6, s.198).

Qeyd edək ki, ümumdünya tufanının İkiçayarasının cənub hissəsində baş verməsi müqəddəs kitablarda və rəvayətlərdə də təsdiqini tapmışdır. Başqa sözlə, tufan, subasma və daşqın şumerlərin məskunlaşdığı ərazidə baş vermişdir. Deyilənlərlə yanaşı, arxeoloqların və digər alimlərin göstərilən məsələyə münasibətlərində ziddiyyətli məqamlar özünü göstərməkdədir. İngilis tədqiqatçısı Qrem Henkok L.Vulliyə istinadən yazır ki, o, Ziusudradan və "Tövrat"dakı Noyundan başlayan tufan haqqında konkret sübut tapmışdır: "Şumer və yəhudi mənbələrində tufanın olması haqqında söhbət açılır və həqiqətən də daşqının olması göstərilir. Əlbəttə, bu ona dəlalət etmir ki, rəvayətdə göstərilən bütün detallar doğrudur. Daşqın ümumdünya tufanı deyil, Dəclə və Fərat çayları hövzələrinin aşağı səviyyəsi ilə bağlı olmuşdur (11, s.31-32).

*1. Tufan həqiqətləri.* Şumerdə baş verən subasma hadisəsinə araşdırıcıların baxış bucaqlarında rəngarəngliyə, göstərdikləri buzlaşma və istiləşmə dövrlərindəki fərq çalarlarına baxmayaraq, yekdil nəticə fəlakətin yalnız buzlaşmanın gözlənilmədən istiləşməyə keçməsi ilə bağlanılır. Q.Henkok axırıncı buzlaşma dövrünün 125-17 min il əvvəlki dövrü əhatə etdiyini və bu interval arasında buzlaşmanın 22-17 min illə ərzində maksimum həddə çatdığını, təxminən 19 min il əvvəl buzlaqların tədricən əriməsi, dəniz səviyyəsinin isə qalxması, təxminən 16 min beş yüz – 7 min il arasındakı müddəti isə buzlaqların sürətlə əriməsi müddəti kimi vermişdir (11, s.50). Müəllifin gətirdiyi dəlillərdən aydın olur ki, göstərilən ərazidə subasma hadisəsi bundan əvvəl 16,5-7 min il intervalında olmalıdır. Bu isə Şumerlərin İkiçayarasında məskunlaşması faktı ilə ziddiyyət təşkil edir. Çünki Şumerlərin göstərilən ərazidə məskunlaşması həmin dövrdən sonrakı müddətə təsadüf edir. Bununla yanaşı, tufana qədər Şumerin beş şəhərinin mövcudluğu da tarixi ədəbiyyatda özünə yer tapmışdır.

Q.Henkok tufana qədər mövcud olmuş şəhərlərdə baş vermiş subasma hadisəsinin təsvirini belə vermişdir: "Subasmaya qədər mövcud olmuş Şurrupak şəhərində aparılan arxeoloji qazıntılar nəticəsində subasma faktı aşkar edilmişdir. Şurrupak şəhərində subasma hadisəsinin bundan 4900 il əvvəl baş verdiyi qeydə alınmışdır. Bu şəhər Ziusudranın məkanı idi... Günəş tanrısı Utunun şərəfinə salınmış Sippar şəhəri şumer tufanı tarixində əsas yer tutur. Sippar şəhəri də subasmaya məruz qalmışdır. Şumerlərin Badtibira və Larak şəhərlərinin əhalisi Sippar, Şurrupak və Eredu şəhərlərinə nisbətən az olduğuna görə, həmin şəhərlərdə çox itki olmamışdır" (11, s.34-35). Sonra müəllif Kurt Lambekin verdiyi məlumatları diqqətlə araşdıraraq, bundan 14 min il əvvəl Fars körfəzinin subasmaya məruz qalmadığını, bundan 12-9 min il əvvəl "Adəm bağı"nın çiçəklənməsini qeyd edir və göstərir ki, təxminən 8-7 min il əvvəl körfəzin böyük hissəsi su ilə örtülmüşdür (11, s.39). Coğrafiyadan məlumdur ki, Fars körfəzi adı çəkilən əraziyə yaxındır və müəllifin qənaətinə görə 8-7 min il müddətində Fars körfəzi su ilə dolmuşdur. Deməli, Fars körfəzində su öz məcrasından çıxmamış və şumerlərin məskunlaşdığı ərazini basmamışdır.

Başqa bir müəllifin - görkəmli tədqiqatçı Zaxariya Sitçinin hadisələrə münasibəti Q.Henkokdan o qədər də fərqlənmir. O yazır: "Alimlərin gəldiyi qənaətə görə, axırıncı buzlaşma

dövrü təxminən 75 min il əvvəl, müvəqqəti istiləşmə isə 40 min il əvvəl başlamışdır. Təxminən 38 min il əvvəl yenidən güclü buzlaqlar dövrü başlamış... 3 min il əvvəl birdən-birə başa çatmış və planetimizdə indikinə uyğun mülayim iqlim şəraiti hökm sürmüşdür (10, s.411). Z.Sitçinin söylədiyi bu fikirdə qeyri-müəyyənlik bundan ibarətdir ki, 13 min il əvvəl başlayan istiləşmə prosesinin hansı mərhələsində buzlaqların əriməsi ən yüksək nöqtəyə çatmış və subasma hadisəsi baş vermişdir. Bu sualın isə cavabı yoxdur.

V.P.Maksakovski bundan 125 min iləvvəl başlayan buzlaşma dövrünün bundan 50-35 min il əvvəl buzlaşmanın sürətlə getdiyini və bundan 12-10 min il əvvəl buzlaşlaşma dövrünün başa çatdığını, mülayim iqlim şəraitinə keçid dövrünün başlandığını irəli sürmüşdür (8, s.16-17). Əslində V.P.Maksakovskinin fikri Q.Henkok və Z.Sitçindən o qədər də fərqlənmir. Göstərilən tarixin, yəni buzlaşmadan istiləşməyə keçid dövrünün şumerdakı subasma hadisəsi ilə heç bir genetik əlaqəsinin olmadığına dəlalət edir. A.Oppenheymer isə özünün "Adəm Şərqdə" əsərində belə bir fikir irəli sürmüşdür ki, daşqın bundan 6000-5500 il əvvəlki dövrdə (b.e.ə. 4000-3500 il) "flandr transqressiyası" adlandırılan hadisənin - suyun ümumdünya səviyyəsinə qalxmasının yerli təzahürüdür. Bu təbiət hadisəsi nəinki Fars körfəzinin sahillərində, həmçinin Asiyanın bir çox başqa hissələrində də baş vermişdir (5, s.46). O, göstərilən tarixin şumer subasma hadisəsi ilə birbaşa bağlı olduğuna diqqəti cəlb edir.

Təbii ki, Yer kürəsində okean sularının səviyyəsinin qalxması bir sıra hövzələrdə, o cümlədən Fars körfəzində suyun öz məcrasından çıxaraq ətraf sahələri basmasına səbəb ola bilər. 1990-cı ildə Avstraliya Milli Universitetindən olan tədqiqatçı Kurt Lambek İkiçayarasını, Fars körfəzi və onun sahillərini ciddi araşdıraraq, Şumer miflərində tufana qədər beş şəhərin mövcudluğu faktını təsdiq etmiş, bundan 18 min il əvvəldən başlayaraq (təxminən axırıncı buzlaşmanın sonundan) bu günə qədər körfəzin sahil xətlərinn konturunu çəkmiş və müəyyənləşdirmişdir ki, təxminən 6 min il əvvəl, okeanın səviyyəsi indikindən 1-2 m yüksək olduğuna görə İkiçayarasında şumerlərin məskunlaşdığı bölgələrdə subasma hadisəsi olmuşdur (3, s.43-47). K.Lambek, A.Oppenheymer, C.Runu və başqaları belə nəticəyə gəlmişlər ki, şumerlərin ən qədim şəhəri olan Eredunun yerləşdiyi ərazi nisbətən yüksək olduğuna görə burada subasma hadisəsi baş verməmişdir.

1946-cı və 1949-cu illərdə İraqda qədim dövrü araşdırma mərkəzi tərəfindən Fuad Safarın rəhbərliyi altında təşkil olunmuş qrup Eredu şəhərində arxeoloji qazıntılar aparmışdır. Arxeoloqlar şumerlərin müdriklik tanrısı və Eredu şəhərinin himayədarı Enkinin məbədinə xüsusi diqqət yetirmişlər. Onlar b.e.ə. 4000-ci ilə aid olan təbəqəyə çatmış, və həmin təbəqədən qədim şumer izlərini təstiqləyən arxeoloji nümunələrə rast gəlmişlər. Tədqiqatçılar qədim şəhərin mərkəzində şumerlərin hökmranlığı dövründə Amar Sin adlı hökmdar tərəfindən b.e.ə. 2030-cu ildə inşa edilmiş zikkuratı- mərtəbəli piramidanı aşkar etmişlər... Corc Runun gəldiyi qənaətə görə, Eredu Yaxın Şərqdə ən qədim yaşayış məskənlərindən biri kimi şöhrət qazanmışdır. Şumerlərin miflərində də təsdiq olunur ki, Eredu tufana qədər mövcud olmuş yaşayış məskənlərindəndir. Başqa sözlə, təxminən 5500 il bundan əvvəl flandr transqressiyası nəticəsində baş vermiş subasma zamanı həmin bölgədə yaşayış olmuşdur (11, s.33).

Şumer dövründəki subasma hadisəsinin mahiyyətini açmaq və onun tarixini daha da dəqiqləşdirmək üçün "sonuncu buzlaşma dövrü" termininin qiymətini anlamaq lazımdır. Yuxarıda bir sıra alimlərdən gətirdiyimiz sitatlardan aydın olur ki, həmin terminin özünün qiymətində qeyri-səlislik hələ də mövcuddur. Onlardan bir qismi 125 min il əvvəl buzlaşma olduğunu qeyd edir. Digərləri buzlaşmanın 21 min il bundan əvvəl təsadüf etdiyini irəli sürür. Başqaları isə buzlaşmanın 25-18 min il civarında olduğunu iddia edir. Bir qrup alim buzlaşmanın 2,6 min il bundan əvvəl olduğu qənaətindədir. Həmin alimlər qeyd edir ki, təxminən 17 min il bundan əvvəl buzlar əriməyə başlamış və bu proses 10 min ilədək davam etmişdir (11, s.49).

*Nəticə.* Dini kitablardan və bir sıra mixi yazılı mətnlərdən hər kəsə məlum olan tufanın əslində necə və harda olduğu haqqında bir çox mülahizələr irəli sürülmüşdür. Bu haqda ilkin məlumat İngilis arxeoloqu L.Vullinin Mesopotamiyada apardığı araşdırmalar nəticəsində ortaya çıxmışdır. Arxeoloji qazıntılar nəticəsində tufanın yeri olaraq Uruq şəhəri müəyyənləşdirilmişdir. L.Vullinin araşdırmaları Şumerdə, Dəclə və Fərhat çayları arasında güclü daşqın olması və buradakı bir çox şəhər dövlətlərin məhv etməsi fikrini sübüt edirdi. Tufan əfsanəsinə dair yeganə yazılı mətn

isə 1914-cü ildə Arno Pöbel tərəfindən aşkarlanmış, üzərində 37 sətirdən ibarət yazı olan lövhəcikdir. Daşqın hadisələri, əslində, İkiçayarasında baş versədə, bu mövzuda yaradılmış əfsanə və rəvayətlərə bir çox mədəniyyətinlərdə rastlamaq mümkündür. Lakin hər bir xalq mövcud məzmun üzərində müəyyən dəyişiklik etmişdir. Sonrakı dövrlərdə arxeloqların araşdırmaları göstərir ki, bu əfsanənin əslində həqiqət durur. Bir çox tarixçilər İkiçayarasında baş vermiş subasma hadisəsini buzlaşma dövründən gözlənilmədən istiləşmə dövrünə keçid ilə əlaqələndirirlər. Lakin, bu iki dövr arasındakı keçidin tarixi haqqında fikir müxtəlifliyi hələdə qalmaqdadır. Əsli həqiqətə söykənən subasma hadisəsi daha sonradan yerli xalqın xəyal gücü ilə də birləşərək günümüzə qədər gəlib çatan əfsanəyə çevrilmişdir.

## ƏDƏBİYYAT

1. Çığ M.İ. Sumerlilerde Tufan, Tufan'da Türkler. İstanbul, Kaynak Yayınları, 2008, 168 s.
2. Kramer S.N. The Sumerian King List. Chicago, The University of Chicago Press, 1963, 355 p.
3. Lambeck K. Shoreline Reconstruc-tions for the Persian Gulf since the last glacial maximu // Journal Earth and Planet-ary Science Letters, 1996, p.43-57.
4. McNeill W.H., Sedlar J.W. The Origins of Civilization. Vol.1. London; Toronto, Oxford University Press, 1968, 203 p.
5. Zarins J. The Early Settlement of Southern Mesopotamia // Journal of the American Oriental Society. Vol.112, №1, 1992, p.32-45.
6. Şenel A. İlkel Topluluktan Uygar Topluma Geçiş Aşamasında Ekonomik Toplumsal Düşünsel Yapıların Etkileşimi. Ankara, Ankara Üniversitesi Siyasal Bilgiler Fakültesi Yayınları, 1982, 324 s.
7. Крамер С.Н. История начинается в Шумере. М., Наука, 1991, 234 с.
8. Максаковский В.П. Исторческая география мира. Москва, Экопрос, 1997, 584 с.
9. Матвеев К.П. Сазонов А.А. Земля Древнего Двуречья: История, мифы, легенды, находки и открытя. Москва, Мол.гвардия, 1986, 160 с.
10. Ситчин З. Двенадцатая планета. Москва, ЭКСМО, 2007, 432 с.
11. Хенкок Г. Загадки затонувших цивилизаций. Москва, Вече, 2007, 640 с.

**NAZIM HUSEYNLI**
*Professor of Baku Eurasian University*

## WORLDWIDE HURRICANE AND SUMERIAN CULTURE

One of the factors that best reflects the culture, way of thinking and religious beliefs of ancient nations is their mythology. Sumerian mythology also plays an important role in studying outlook and culture of the Sumerian people who lived in the territory of Mesopotamia and had an ancient history. Historical facts confirm that the origin of many legends, stories and ideas that have come down to the present day belongs to the Sumerians. One of them is the legend about hurricane. This legend, which proposes the destruction and reconstruction of the world as a result of a great hurricane, is embodied in many cultures and religious books. Although the content is essentially the same, each culture has represented the causes and effects of the hurricane in different ways. A 37-line written inscription found in Urugu, also known as the global storm, confirms that the original form of the legend belongs to Sumerian culture. In this written source, the flood was noted not a natural disaster, but the wrath of God on the people. 7 days of the wrath of the god that forms the basis of the legend, the salvation of Ziusudra, the reconstruction of the world and other thoughts are the main determinants of Sumerian outlook, way of thinking and religious beliefs. The archaeologists who have carried out research in this area suggested that natural disasters that entered as mythology are not universal; they just refer to the territory between the rivers Euphrates and Tigris. The same archaeologists have shown that the flooding is due to the transition from the Ice Age to the warmer period and the increase of water levels in the two rivers. In Sumerian culture, the fact that it is called

a global storm is associated with the fact that the Sumerian people's world consisted of just Mesopotamia. Thus, this huge flood, caused by the melting of the glaciers in the territory of Mesopotamia, has become a popular legend that has survived to nowadays as a result of the Sumerian imagination.

*Keywords*: myth, worldwide flood, the territory between the two rivers, Sumerian, world, God.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 24 dekabr 2019-cu il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2020-ci il.*
*Rəyçilər: s.e.d.Gülzar İbrahimova, t.e.d. İsmayıl Məmmədov.*

**UOT 94"04/15"**

**ÜLVİYYƏ AGABƏYOVA**
*Bakı Dövlət Universitetinin dosenti*
**E-mail: ulviya.agabeyli@mail.ru**

# YUNUS ƏMRƏ YARADICILIĞINDA EŞQ FƏLSƏFƏSİ

*Yunus Əmrə özünün fəlsəfi, etik və dini görüşləri ilə türk təsəvvüf ədəbiyyatını işıqlandırmış, yazmış olduğu şeirlərində insanı dərindən düşündürən mətləbləri açıqlayaraq, daha çox insan-Allah münasibəti, eşqin mahiyyəti və vacibliyi, insanın özünün həqiqi varlığı, ilahi sevgi və ona bağlılıq hissi, əxlaq, dünyəvilikdən uzaq mənəvi həyat tərzi kimi problemlərlə məşğul olmuşdur. Adı çəkilən məqalədə Yunus Əmrənin eşq və onun fəlsəfəsinə dair fikirləri işıqlandırılmışdır. Yunus Əmrə düşüncəsinə görə eşq atəşi ilə yanmağın sirrini öyrənməyən həqiqi aşiq ola bilməz. Həqiqi aşiq ilahi vüsala nail olmaq üçün var gücü ilə çarpışan insandır. Aşiq məclislərində yalnız zikirlə məşğul olub, eşqin sirrini öyrənə bilməyənlər ömürlərini boşa keçirən insanlardır. Belə insanlarda güclü iradə ola bilməz. Onlar dünya nemətlərinə bağlananlardır. Bu fikri ilə Yunus Əmrə təsəvvüf yolunun hamı üçün asan və münasib olmadığını bildirmişdir. İlahi eşqi özündə yetişdirən insan, ilahi hikmətin dərkinə varandır. Onun eşq fəlsəfəsində əsas diqqət çəkən məqam eşqin özünün yaradıcı qüdrət, əzəli və əbədi bir mahiyyət olmasıdır. Belə ki, tədqiqat işində Yunus Əmrənin qarşıya qoyulan eşq fəlsəfəsinin əsas mahiyyətini tədqiq etməyə, ilahi eşq, həqiqi aşiq məsələlərini təhlil etməyə çalışmışıq.*

*Açar sözlər:* Yunus Əmrə, dərviş, İlahi eşq, eşq fəlsəfəsi, həyat tərzi, güclü iradə.

*Giriş.* Fəlsəfi-etik baxışları ilə türk sufi ədəbiyyatını zənginləşdirmiş Yunus Əmrə dövrünün böyük mütəfəkkiri olmaqla şöhrətə sahib olmuş, yüksək məqama çatan sufi övliyası idi. Onun yaradıcılığının mühüm hissəsi olan dini və etik problemlərinin əsasını eşq və əxlaq məsələləri təşkil etmişdir. Yazdığı irfani-fəlsəfi şeirlərində insan - Allah münasibəti, eşq, ilahiyə olan təmənnasın məhəbbət mühüm yer tutur. Mənəvi dünyasını sadə, ürəyəyatan dildə ifadə edən Yunus Əmrə türk-islam tarixində dini-irfani fəaliyyət göstərmişdir.

Yunus Əmrə şəriət və fiqh elmləri ilə yanaşı, dünyəvi elmləri dəyərləndirərək, qeyd edirdi ki, elm insanın həyatda xilaskarıdır. Əqlə üstünlük verən mütəfəkkir göstərirdi ki, əql vasitəsilə insan həm özünü, həm də dünyanı dərk edir. Yunus Əmrəyə görə, həyatın əzab-əziyyətindən, dünya malına hərislikdən uzaqlaşaraq bilik qazanan insan kamil insan dərəcəsinə yüksələrək Allaha qovuşandır.

Daha sonralar sufilik yoluna qədəm qoymuş şair dinin zahiri tərəfindən batini tərəfinə dönüş etmiş, insanın daxili dünyasını açıb göstərməyə çalışmışdır. O, hesab edirdi ki, yalnız elmə yiyələnməklə ilahi həqiqəti dərk etmək qeyri-mümkündür. Bu yolda o, eşqə, ilahi sevgiyə mühüm əhəmiyyət verir. Haqqa çatmaq üçün artıq əqlin deyil, sevginin gücünü isbat etməyə çalışır.

Eyni zamanda, Yunus Əmrə sevginin, eşqin gücünə önəm verir ve göstərirdi ki, sevgi dünyəvi hisdən ilahi eşqə çevrilərək əbədiləşir. Dünyəvi eşqdən keçərək insan kamilləşir və ilahi eşqin ucalığını anlayır.

Belə ki, Yunus Əmrənin dünyagörüşünün əsasını təşkil edən eşq fəlsəfəsi ilahi mahiyyət kəsb edir. O, ruhunu bütünlüklə eşqə, sevgiyə həsr edən təsəvvüf şairi olmuşdur.

İslam filosofu, mistik sufi şairi Hacı Bektaşi Vəlinin xəlifəsi Tapdıq Əmrənin müridi olmuş Yunus Əmrə (1238-1320) türk təsəvvüf ədəbiyyatının böyük nümayəndəsi, yüksək məqamlı sufi övliyası, eşq və əxlaq mütəfəkkiri özünün fəlsəfi, etik və dini görüşləri ilə həm yaşadığı dövrü işıqlandırmış, həm də özündən sonrakı bütün əsrlərə işıq salmışdır. O, hər kəlməni rahatlıqla yüksək şəkildə mənalandırmağı bacaran şair olmuşdur [5, s.138].

Yunus Əmrə yaradıcılığı orta əsrlər Anadolu türk yazılı xalq ədəbiyyatının ən mühüm tərkib incisi hesab edilir. Şeirlərində irfani-fəlsəfi məsələlərə geniş yer verən mütəsəvvif şair insan - Allah münasibəti, eşq, ilahi sevgi, insanın özünün həqiqi varlığı və bu kimi problemlərə toxunmuşdur. O öz mənəvi dünyasını sadə xalq dilində, axıcı, ürəyəyatan üslubda ifadə etməyə çalışmışdır.

Yunus Əmrə türk və islam tarixində ədəbi yaradıcılıqla məşğul olmuş, eyni zamanda dini - irfani fəaliyyət göstərmişdir. Böyük şairin ailəsi Anadoluya Xorasandan gəlmişdir. Mənbələrdə qeyd

olunur ki, onun atası və babası Türküstanın böyük sufi övliyası, Yəsəviyyə ordeninin banisi, görkəmli türk sufi şairi Şeyx Əhməd Yəsəvinin (1103-1166) davamçısı olmuşlar. XII əsrdə Xorasanda yaranan Yəsəviyyə ordeni Şeyx Əhmədin adı ilə bağlıdır. Onun yüz minə yaxın müridi bu təlimi bütün Asiya, Şimali Afrika və Avropanın bir hissəsinə yaymışdır. Ustad Əhməd Yəsəvinin 12 minə yaxın müridi isə bu məqsədlə Anadolu və Balkanlara köç etmiş, müsəlmanlar arasında Yəsəviliyi, xristianlar arasında isə müsəlmanlığı və öz mürşidləri olan Əhməd Yəsəvinin sufi təlimini yaymağa çalışmışlar. Həmin insanların Anadoluya köç etməsi ilə bu böyük və gözəl məmləkət həmişəlik olaraq türk yurduna çevrilmiş, hələ XI əsrdə Səlcuqlar dönəmində buraya gəlmiş olan türklərlə qaynayıb qarışan Xorasanlı türk sufilər Anadoluda özünəməxsus türk-islam düşüncəsini meydana gətirmiş, Türk dünyasını təsəvvüfün mərkəzi dayağına çevirmişlər [7, s.15-17].

Anadoluda Yəsəvilik ordeninin yayılması üçün buraya köç edən sufilərin arasında böyük türk şairləri və sufi övliyaları Hacı Bektaş Vəli, Mövlanə Cəlaləddin Rumi, Əhməd Fəqih, Geyikli Baba, Orxan Qazi kimi şəxsiyyətlərin ailələri də olmuşdur. Bu mütəfəkkirlərin bir qismi uşaq yaşlarında ailələri ilə birlikdə buraya gəlmiş, bir qismi isə ailəsi Anadoluda yerləşdikdən sonra dünyaya göz açmışlar. Yunus Əmrə də məhz belələrindəndir. Onun ailəsi əvvəlcə Qaramanda məskunlaşmış, Yunus burada anadan olmuş, daha sonra isə Sakaryaya köçmüşlər. Ustad Hacı Bektaş Vəli isə özünün "Vilayətnamə" adlı əsərində Yunus Əmrənin Sarıköydə (Əskişəhir) doğulduğunu qeyd etmişdir. Yunus uşaqlıq və gənclik yaşlarında Konyada mədrəsə təhsili almış, daha sonra isə əqli elmlərin onun istədiyi nəticəni vermədiyi qənaətinə gələrək mədrəsədən uzaqlaşmış, bir müddət odunçuluq və əkinçiliklə məşğul olduqdan sonra Ankaranın Nallıxan əyalətində yaşayan Tapdıq Əmrə dərgahına qoşularaq təsəvvüf həyatına qədəm qoymuşdur [8, s.15, 23-24].

Təəssüflər olsun ki, onun həyatı haqqında dəqiq tarixi və elmi faktlar olmadığından, məlumatlar ehtimali xarakter daşıyan rəvayətlərdən götürülmüşdür. Onun haqqında çox sayda rəvayətlər söylənilmişdir. Məsələn, onun mədrəsə təhsili alıb-almaması ilə bağlı fərqli fikirlər irəli sürülmüşdür. Rəvayətlərin bir çoxunda onun mədrəsə təhsili almadığı, ümumiyyətlə savadsız olduğu, şeirlərini ilhama gələrək yazdığı və ağızdan-ağıza dolaşaraq yayıldığını, onun əsərlərinin özündən bir əsr sonra yazıya alındığı söylənilmişdir. Lakin, digər rəvayətlərdə isə qeyd edilir ki, Yunus Əmrə Konyada mədrəsə təhsili almış, burada dini və dünyəvi elmlər öyrənmiş, fiqh elminə yiyələnmişdir. Buna görə də o, "Konyalı molla" olaraq da tanınmışdır. Hətta onun bir müddət Əskişəhirdə baş qazi olduğu, bu vəzifədən imtina etdikdən sonra əkinçilik və odunçuluqla məşğul olduğu, daha sonralar isə Tapdıq Əmrə dərgahına qatıldıqdan sonra şeyxinin razılığı ilə Candaroğulları bəyliyinin qazisi vəzifəsini tutduğu da iddia olunur [4, s.108-109].

Yunus Əmrə mədrəsə təhsili aldığı dövrlərdə mötədil islam mövqeyində durmuş, şəriət və fiqh elmlərini üstün elmlər hesab etmişdir. Eyni zamanda, əqli elmlərə də dəyər vermişdir. O, qeyd edirdi ki, ağıl insanın yolgöstəricisi, elm isə xilaskarıdır. İnsan elm vasitəsilə özünü tanıyır, dünyanı dərk edir.

Biz əvvəlki məqalələrimizdə Yunus Əmrənin mistik təliminə, ümumi sufi görüşlərinə dair fikirlərini tədqiq etməyə səy göstərmişdik. Bu məqalədə Yunus yaradıcılığında eşq fəlsəfəsinin əsas mahiyyətini açmağa çalışacağıq. Ümumiyyətlə, təsəvvüf yolunda əsas məqamlardan biri eşq məsələsidir.

Təsəvvüf fəlsəfəsində "İlahi eşq" hökmünü ilk dəfə qadın sufi Rəbiyyə əl-Ədəviyyə əl-Qeysiyyə işlətmişdir. Onun bu nəzəriyyəsinin əsasında Allaha təmənnasız, qarşılıqsız məhəbbət, sevgi, ibadət dayanır. Rəbiyyənin "İlahi eşq" konsepsiyası sonralar sufi fəlsəfəsinin təməl əsaslarından birinə çevrilərək, mistik və təsəvvüf yolçularının dünyagörüşünü inciləmişdir.

Yunus Əmrə də sufilik yoluna qədəm qoyduqdan sonra dinin zahiri tərəfindən batini tərəfinə dönüş etmiş, insanın daxili mahiyyətinə nüfuz etməyə çalışmışdır. Mütəfəkkir hesab edir ki, yalnız elmə yiyələnməklə, hüquq öyrənməklə insan ilahi həqiqəti, dünyanı dərk edə bilməz [7, s.39-40].

O, İbn Ərəbinin Əhməd Yəsəviyə təlim etdiyi, Yəsəvinin isə öz müridlərinə aşıladığı "vəhdəti-vücud" təliminə uyğun olaraq, zahiri və batini elmlər sırasında ikinciyə meyl etmiş, insan həyatının əsl mənasını özünü və Allahı, daha doğrusu özünüdərk vasitəsilə Allahı dərk etmənin elm yolu ilə mümkün olmadığını bildirmişdir:

Oxudun nə mənası,
Əgər haqqı bilməsən,
Haqqı ki, bilmədin sən,
Demək, quru əməkdir.

Və yaxud:

Elm ilə, hikmət ilə
Kimsə bu sirrə çatmaz,
Bu bir əcaib sirdir,
Elmə, kitaba sığmaz [4, s.112].

Yunus Əmrəyə görə, bilik əldə etməkdə məqsəd Haqqı tapmaq, Haqqa qovuşmaqdır. Bunun üçün vacib olan insan idealı kimi kamil insan dərəcəsinə yetişməkdir. Bu insan irfan əhli, övliyalıq dərəcəsinə çatmış mükəmməl əxlaq sahibi olan sufidir. Kamil insan olmaq üçün, Yunus Əmrəyə görə, həyatın iztirabından, həyəcan və təşvişdən, dünya malına hərislikdən qurtulub mənəvi sakitliyə meyl etmək, aza qane olmaq yolu ilə ilahi xoşbəxtliyi axtarmaq lazımdır. Buna görə də, insan bu yolda dini, ilahi inancı özünə rəhbər, yolgöstərən seçməlidir. Lakin, dinin zahiri tərəfi, onun sadəcə gündəlik ibadətlərlə məhdudlaşan hissəsi deyil. İnsanın daxili hislərini, onun xoşbəxtlik və qəlb aramlığı tapmaq meylini əks etdirən mistik tərəfi daha önəmlidir [7, s.77-78].

Yunus Əmrə “Vəhdət əl-Vücud”un (Varlığın vəhdəti) fəlsəfi mənasını “ictimai birlik” mənasında qəbul etməyərək, “universal birlik” anlamında səsləndirirdi. Çünki bu səs eşqin səsidir. Eşq Yaradandan gələn ilahi bir nəfəsdir. Ona görə də sevgi ayrılığın deyil, “bir” olmanın mücəssəməsidir. Yunus insanları sevgiyə və birliyə çağırırdı. Bu baxışdan onun “Emre ” təxəllüsü ilə adlandırılması təsadüfi deyildir. “Emre” sözünün mənası aşiq, sevən, dost deməkdir. Yunus üçün dost Həqdir [1, s.135].

Şükür Həqqə kim, dost bizə ayıtdı dost yüzinə baq,
Açdum bən də könlüm gözin, sultanumi gördüm mütləq [2, s.56].

Beytdən göründüyü kimi, Həqqə çatmaq üçün bu yolda əsas amil ona kömək edən sufi şeyxinin, mürşidin nəsihətlərini dinləmək, göstəriş və əməllərinə tabe olmaqdır. Bu işdə kamil insan dərəcəsinə yüksəlmək lazımdir.

Yunus haqqa çatmaq üçün ağılın deyil, sevginin gücünü isbat etməyə çalışır. Şair üçün sevgi öncə dünyəvi hiss idisə, sonradan o, həmin hissin ilahi eşqə çevrildiyindən bəhs edir, ilahi eşqin əzəli və əbədiliyindən danışır. Dünyəvi eşqdən keçərək insan kamilləşir və ilahi eşqin ucalığını anlayır [1, s.136].

Eşq məqamı alidür, eşq qədim, əzəlidür,
Eşq sözini söyləyən cümlə qüdrət dilidür [2, s.25].

Qeyd etdiyimiz kimi, təsəvvüf təliminin əsasında “ilahi eşq” ideyası dayanır. Sufi dünyagörüşündə qəbul olunan vahid , tək varlıq Allahdır. Allahın təcəlli etdiyi mövcud şeylərin hamısı gözəldir. Bu gözəlliyi duyan kəs hər şeyə qadir olan Allahın qüdrətini, böyüklüyünü, ucalığını dərk edir. Allah onu sevənlərin sevgilisidir. İlahi eşq atəşi ilə yanan aşiq üçün sevgi hər şeydir. Aşiqin əsas istəyi sevgilisinin yolunda hər şeydən keçərək canını belə gözə alaraq vüsalına qovuşmaqdır. Aşiq üçün bu dünyada önəmli olan sevgilisidir [1, s.136-137].

Sən Həqqə aşiq isən Həqq sana qapu açar,
Qo səni bəgənməyi, varlıq evini bir yıq [2, s.57].

Yunus Əmrə burada aşiqin sevgisini Allahın qarşılıqsız qoymasının qeyri-mümkünlüyü izhar edir. Mütəfəkkir qeyd edir ki, hər kəs dünyadan köçəcək. Ona görə də çalışıb bu dünyada Yaradana qovuşmaq lazımdır. Bu da yalnız təmənnasız sevgi ilə mümkündür. İnsanın dünyaya gəlişinin əsas məqsədi sevgidir, eşqdir.

Təsəvvüf təliminə görə Haqqa qovuşmaq üçün insan irfani elmlə silahlanmalı, həm zahiri, həm də batini biliklərlə zənginləşməlidir. Yunus Əmrə də dörd mərhələdən (şəriət, təriqət, mərifət, həqiqət) keçən sufinin kamillik məqamına qədəm qoymasından söhbət açırdı.

Şəriət, təriqət yoldur varana,
Həqiqət, mərifət andan içərü [2, s.209].

Sufilikdə bu mərhələ miskinlik və ya dərvişlik dövrü hesab edilir. Bildiyimiz kimi, "dərviş" sözü fars dilindən tərcümədə yoxsul, fəqir deməkdir. Dərvişlik insanın dünya malından əl çəkərək ilahi vüsala catması üçün nəfsini, iradəsini tərbiyələndirmək yoludur.

Dərviş olan kişilərün miskinlikdür sərmayəsi,
Miskinlikdən özgə bizə malü mülkü şər gərəkməz [2, s.169].

Dərvişlik dedükləri xirqə ilə tac dəgül,
Könlin dərviş eyləyən xirqəyə möhtac dəgül [2, s.177].

Allaha qovuşmaq üçün, ilahi vusala yetişmək üçün dərvişlik yolunu tutmuş kəsin nə mal-mülkə, nə xirqəyə (dəb-dəbəli geyimə) ehtiyacı yoxdur. Dərvişlik yolunu tutmaq istəyən mütləq ilahi sevgini özündə hiss etməli, ilahiyə qovuşmaq, mənəvi vüsal üçün alışıb yanmalıdır:

Bu dərvişlik yolına eşq ilə gələn gəlsün,
Ya dərvişlik nəydügin, bir zərrə tuyan gəlsün [3, s.208].

Dərvişlik eşqlə bağlıdır. Daxili aləmində, iç dünyasında ilahi eşqin olduğunu hiss etməyən insan dərviş ola bilməz. Təsəvvüf fəlsəfəsində "kamil insan" konsepsiyasının ən vacib şərti, ideal insana aparan vasitə mistik metod olan dərvişlik mərtəbəsidir ki, bu da insanı bütün maddi şeylərdən, dünyəvi həyat və şövqdən çəkindirir. Buna görə də, dərvişlik iddiasında olanın qəlbində ilahiyə sevgidən başqa heç nə olmamalıdır. Bu vasitə ilə insan günahlardan, pisliklərdən çəkinməli, dünya malına aludə olmamalıdır. Dərvişlik üçün əsas xüsusiyyət sadə fəqir həyat tərzidir, Yunus Əmrə sufilər arasında dəbdə olan xüsusi dərviş libasını, dərviş adətlərini, ayinlərini, cah-cəlallı təkkə həyatını qəbul etmirdi. Belə vərdişlərin eşq yolundan azmaq, yalnışlığa meyllənmək olduğunu bildirirdi. Yunus Əmrəyə görə, sufi dərvişinin geyimi, xirqəsi (bəzi yalnış fikirdə olan dərvişlərin bahalı və gözəl xalatı), başında bahalı papağı, tacı yox, daxili dünyası, ilahiyə bağlılığı, Allahdan qorxması önəmlidir:

Dərvişlik dedikləri xirqə ilə tac deyil,
Könlünü dərviş edən, xirqəyə möhtac deyil [3, s.178].

Bu yolda irəliləyən insanın sevgisi ilahi eşq dərəcəsinə qədər yüksəlir. Bu yolda paxıllıqdan, təkəbbürdən, tamahkarlıqdan, dünyaya bağlılıqdan uzaq olaraq nəfsini paklaşdıran Allaha yaxınlaşa, Ona qovuşa bilər [1, s.139].

Könül pisin yudın isə, kibrü kini qodun isə,
İqrar bütün olmayınca ərdən nəzər olmayısar [2, s.25].

Bu mənada Yunus Əmrəyə görə, insanın özünü dərk etməsi, özünün əsl mahiyyətini daxilindəki ilahi cövhəri tapması üçün kamil insan dərəcəsinə çatmış olan mürşidə təqlid etməsi lazımdır. Allah insanın yarıdır, dostudur. Bu dosta çatmaq üçün onun dostuna (mürşidə) dost olmaq vacibdir:

Sən gerçək aşiq isən dostun dostuna dost ol,
Bu haldə qalur isən dosta dəgül yaraşıq [2, s.57].

Öz daxilində ruhən sakitlik tapmış, ilahi eşq ilə dolub-daşan bir qəlbə sahib olan şəxsin, yəni kamil sufi dərvişi və kamil insan olan mürşidin istər davranışları ilə, istər sözləri ilə müridləri üzərindəki təsiri son dərəcə önəmlidir:

Söhbət canı səmirdür, həm aşiqün ömridür,
Haqq Çələbün əmrilə, ərənün himmətidir [2, s.30].

Yunus Əmrəyə görə həqiqi aşiq eşq atəşi ilə yanmağın sirrini öyrənməlidir. Əks təqdirdə o, həqiqi aşiq ola bilməz. Həqiqi aşiq ilahi vüsala nail olmaq üçün var gücü ilə çalışan insandır. Yalnız aşiq məclislərində iştirak edib, zikr və səma ilə məşğul olub aşiqlik sirrini öyrənə bilməyənlər ömürlərini boşuna keçirmiş adamlar kimidir. Deməli, belə insanlarda iradə zəifliyi, dünyaya bağlılıq var. İlahi eşqi özündə yetişdirməyən insan ilahi hikməti dərk edə bilməz [7, s.94-96].

İnsanı digər canlılardan ayıran əsas cəhət onun mənəvi-ruhani tərəfidir. İnsan öldükdən sonra onun ruhu qalıcıdır. Ona görə də insan digər varlıqlardan üstündür. İnsanın üstünlüyü isə onun daxili dünyasını bəzəyən sevgiyə, eşqə malik olma hissidir. Sevgi hissi fərqlidir. Kimsə qarşı cinsə, kimsə təbiətə, kimsə var-dövlətə aşiq ola bilər. Əsl eşq isə qarşılıq gözləmədən, təmənna ummadan Yaradana olan sevgidir, məhəbbətdir. Bu hiss keçici olandan daimi olana çevrilir. Bu o zaman baş verir ki, insan maddi dünyasından keçib, mənəvi dünyasında zənginləşir. İnsanın batini dünyası Allah və ona olan sevgi ilə tamamlanır. Digər tərəfdən isə eşq Allahda başlayıb Onda bitməz. Çünki eşq Yaradandan başlayıb yaradılanlara çevrilir.

Yunis Emre fəlsəfəsinin əsas cəhəti də məhs bu idi: yaradılmışı Yaradana görə sevmək lazımdır. Məsələn, Qüdsi-hədislərin birində söylənilir ki, Allah Davud əleyhissəlama buyurur: "Ey Davud! Məni sev, Məni sevəni sev və Məni qullarıma sevdir. Qullarım Məni sevsinlər". Davud əleyhissəlam soruşur ki, "Bunu necə edə bilərəm?" Allah-təala buyurur: "Sən, Məni gözəl bir şəkildə an. Mənim nemət və ihsanlarımı onlara xatırlat, onlar məndən ancaq yaxşılıq görsünlər" deyə buyurdu [9].

Sufi şairi kimi Yunus Əmrənin şeirlərində eşq İlahiyə olan sevgi kimi tərənnüm etdirilir.

Bən gəlmədüm dəvi içün, bənüm işüm sevi içün,
Dostum evi könüllərdür, könüllər yapmağa gəldüm [2, s.77].

Dünyanın yaradılmasında əsas məqsəd insanlığa olan sevgidir ki, bu da sonda ilahi eşqdə bitir. Eşq Yaradanla yaradılan arasında vəhdətin, birliyin işarəsidir [8, s.78].

Yunus Əmrənin dünyagörüşünün, fəlsəfi sisteminin əsasını təşkil edən eşq fəlsəfəsi ilahi mahiyyət kəsb edir. O, bütün ömrünü, düşüncəsini və ruhunu məhz ilahi eşqə, sevgiyə həsr etmiş, yalnız eşq və məhəbbətdən yazmışdır. Bu da səbəbsiz deyil. Çünki, təsəvvüf fəlsəfəsi, hər şeydən əvvəl, eşq və məhəbbət mistikasıdır [6, s.29-30].

Yekun olaraq bildirmək istəyirik ki, Yunus Əmrə eşq və sevgi hissi ilə alışıb yanan şairdir. Onun yaradıcılığının mərkəzi xətti insana məhəbbət, Allaha hüdudsuz sevgidir. İnsan yer üzünün ən şərafətlisidir, çünki Allahın bir zərrəsidir. İnsanı sevməyən, Allahı da sevə bilməz. Yunus Əmrə şeirlərində ilahi sevginin tərənnümü önəmli yer tutsa da, onun insansevərlik, sadə xalqa rəğbət, ədalətsizliyə və haqsızlığa qarşı fikirləri də mühüm əhəmiyyət kəsb edir [1, s.140-142].

*Nəticə.* İlk dəfə təsəvvüf fəlsəfəsində qadın sufi Rəbiyyə əl-Ədəviyyə əl-Qeysiyyənin irəli sürmüş olduğu “İlahi eşq” hökmü sonralar sufi fəlsəfəsinin təməl əsaslarından birinə çevrilmişdir. Onun bu nəzəriyyəsinin əsasında Allaha təmənnasız, qarşılıqsız məhəbbət, sevgi, ibadət dayanır. Ümumiyyətlə, təsəvvüf yolunda əsas məqamlardan biri eşq məsələsidir.

Yunus Əmrə yaradıcılığında da eşq fəlsəfəsinin özünəməxsus yeri vardir. Yunus Əmrə İbn Ərəbinin Əhməd Yəsəviyə təlim etdiyi, Yəsəvinin isə öz müridlərinə aşıladığı “vəhdəti-vücud” təlimindən təsirlənərək, “Vəhdət əl-Vücud”un fəlsəfi mənasını “ictimai birlik” mənasında deyil, “universal birlik” anlamında səsləndirmişdir. Çünki bu səs eşqin səsidir. Eşq Allahdan gələn ilahi bir nəfəsdir. Yunusa görə bu hissə yiyələnən kəs hər şeyə qadir olan Allahın qüdrətini, böyüklüyünü, ucalığını dərk edir. İlahi eşq atəşi ilə yanan aşiq üçün sevgi hər şeydir. Aşiqin əsas istəyi sevgilisinin

yolunda hər şeydən keçərək canını belə gözə alaraq vüsalına qovuşmaqdır. Mistik, sufi Yunus Əmrə isbat etməyə çalışırdı ki, Allahu-təala onu sevənlərin sevgilisidir. Aşiq üçün hər şeydən önəmli olan onun "Sevgilisidir". "Haqqa aşiq olana Haqq qapılarını açar" deyərək, şair aşiqin sevgisinin, eşqinin Allahın qarşılıqsız qoymayacağını izhar etməyə çalışmışdır.

## ƏDƏBİYYAT

1. Aydın, Abi Aydın. Türkiyə ədəbiyyatı tarixi. I cild. – Bakı: "Təknur" – 2010, 448 s.
2. Əmrə, Y. Əsərləri. (tərtibçi C.Bəydilli). – Bakı: Öndər nəşriyyatı, - 2004, 326 s.
3. Əmrə, Y. Əsərləri. – Bakı: Şərq – Qərb, - 2009, 360 s.
4. Quliyev, E. Türk xalqları ədəbiyyatı. – Bakı: Apoctoroff, - 2014. – 612 s.
5. Kamil, Yılmaz H. Tasavvuf ve tarikatlar. – İstanbul: Ensar, - 2002. – 357 s.
6. Görmek A.Emrah. Mevlana ve Yunus Emrenin aşk felsefelerinin mukayesesi (Mesnevi ve Yunus Emre divanından). – Konya: TC Selçuk Universitesi,Mevlana Araştırmaları Enstitüsü Müdürlüyü, - 2019, - 83 s.
7. Özçelik, M. Bizim Yunus. – Eskişehir: TC Eskişehir Valiliği yayınevi, - 2010. – 239 s.
8. Özçelik, M. Yunus Emre. – İstanbul: Kültür Yayınları, - 2015. – 232 s.

**ULVIYYA AGHABAYOVA**
*Associate Professor of Baku State University*

## THE PHILOSOPHY OF LOVE IN YUNUS AMRA'S CREATIVE WORK

Yunus Amra with his philosophical, ethics and religious meetings enlightened Turkish literature. In his poems he opened the realities which make people think, especially human and God relationships, the essence and importance of love, the real being of humans themselves, the real love and feelings, moral and problems of spiritual life style as well. In the given article some thoughts on Yunus Amra's love and its philosophy have been lightened. As to Yunus Amra's thinking there is no lover who cannot exist without the flame of love. The real lover is a man who struggles strongly for his (her) target. There are some people who spend their lives in vain without knowing the secrets of love in ashug majlises. There is no strong will in such people. They are only people who are closely connected with the world's wealth. With such thoughts Yunus Amra showed that it is not easy work to put into life. In his love philosophy the main thing that draws attention is love itself that means creative power and everlasting essence. In the presented research work we tried to investigate the love philosophy put forward by Yunus Amra and analyse the real lover problems.

*Key words:* Yunus Emre, dervish, Divine love, love philosophy, life style, strong will.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 iyul 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2020-ci il.*
*Rəyçilər: t.ü.f.d.Q.Mürşüdlü, t.e.d. İsmayıl Məmmədov.*

**UOT 94(479.24)**

**ƏRŞAD HƏSƏNOV**
*tarix üzrə fəlsəfə doktoru,*
*Bakı Dövlət Universitetinin baş müəllimi*
**E-mail: ershad_63@mail.ru**

# AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİNİN YERLİ İDARƏ SISTEMİNİN BƏZİ MƏSƏLƏLƏRİ

*Məqalədə dövrün qaynaqları xüsusilə də, salnamə tipli mənbələr və səyyah gündəliklərinin məlumatları əsasında Səfəvi dövlətinin yerli inzibati idarə sistemini araşdırma obyektinə çevirmişdir. Qaynaq materiallarının təhlili nəticəsində əyalət idarə sistemində ən böyük inzibati ərazi vahidi olan bəylərbəyliklər və valiliklər, daha xırda ərazi vahidi olan mahal, şəhər idarəçiliyində mövcud olan ayrı-ayrı mənsəblər, onların statusu, hüquq və səlahiyyətləri müəyyən olunmuş, bununla yanaşı yerli idarə strukturunda qeydə alınan vəzir, kələntər, darğa, şeyxülislam, mustovfi, möhtəsib və s. kimi səlahiyyət sahibləri haqqında qaynaqlarda əksini tapmış məlumatları tədqiq edərək əhəmiyyətli nəticələr əldə edilmişdir.*

*Açar sözlər*: Azərbaycan Səfəvi dövləti, yerli idarə sistemi, bəylərbəyilik, darğa, kələntər.

*Giriş.* Səfəvi imperatorluğunun yerli idarəçilik sisteminin ətraflı öyrənilməsi mühüm əhəmiyyətə malik tarixi problemlərdən biridir. Bu barədə qaynaqlarda və tarixi ədəbiyyatlarda müəyyən məlumatların olmasına baxmayaraq inzibati-ərazi vahidlərinin sayının, sərhədlərinin dəqiqləşdirilməsi və s. kimi məsələlər hələ də tam həllini tapmamışdır. Biz də bu problemin bəzi cəhətlərini öyrənməyə çalışacağıq.

*Səfəvi imperatorluğunun idarəçilik strukturu, inzibati-ərazi quruluşu.* Çox geniş coğrafi arealı – Fərat çayından Qəndəhara, Qafqazdan Hind okeanına qədərki ərazini əhatə edən Səfəvilər dövləti inzibati baxımdan vilayətlərə və mahallara bölünürdü [1, 101]. M.Səmianın «Təzkirət əl-müluk» əsərində Səfəvi dövlətinin inzibati baxımdan Ərəbistan, Luristan, Gürcüstan, Kürdüstandan ibarət dörd valilik və Qəndəhar, Şirvan, Herat, Azərbaycan, Çuxur-Səd, Qarabağ və Gəncə, Astrabad, Kuhgiliyə (Fars), Kirman, Mərv, Şahicahan, Həmədan, Məşhəd və Qəzvindən ibarət 13 bəylərbəylikdən ibarət olduğu göstərilmişdir [2, 4-5]. Qaynaqda Qəzvinin, həm paytaxt, həm də bəylərbəyliyi kimi göstərilməsi bu məlumatın XVI əsrin sonuna aid olduğunu göstərir.

XVIII əsrin əvvəlində İsfahana səfər etmiş rus elçisi A.Volınski Səfəvi dövlətinin əyalətlərə bölündüyünü, İrəvan, Şirvan, Qəndəhar, Kuhgiluyə əyalətlərinin qubernatorlarının bəylərbəyi, digər əyalətlərin qubernatorlarının xan titulu daşıdığını qeyd etsə də, onların dəqiq sayını göstərməmişdir [3, 182]. Ə.Rəhmani Səfəvi dövlətinin bəylərbəyliklərdən təşkil edildiyini, vilayətlərin qolbəyilər, daha xırda inzibati vahidlərin sultanlar tərəfindən idarə olunduğunu, Azərbaycan ərazisində 4 bəylərbəyliyinin yerləşdiyini yazmışdır [4, 90-93]. Göründüyü kimi, qaynaqlarda və tarixi ədəbiyyatda Səfəvi dövlətinin inzibati strukturu və yerli idarəçilikdə vəzifə iyerarxiyası haqqında terminoloji baxımdan müxtəlif istilahlara rast gəlinir. Bununla belə cüzi fərqlərə baxmayaraq, Səfəvi dövlətinin inzibati strukturu mahiyyət baxımından düzgün şərh olunmuşdur.

Səfəvi imperatorluğunun mərkəzi idarəçilik strukturu, saray, maliyyə, hərbi, məhkəmə-polis təşkilatları nisbətən dar səlahiyyət çərçivəsi daxilində yerlərdə də fəaliyyət göstərirdi. İ.P.Petruşevskinin yazdığına əsasən hər vilayətdə şeyx-ül islam, qazı, sədr, canişin (bəylərbəyinin müavini), vilayət vəziri, şəhərlərdə kələntər çalışırdı. Bəylərbəylərin sarayında bütün vəzifələr–süfrəçibaşı, şərbətçibaşı, şərabçıbaşı, halvaçıbaşı, əmir-axur, mirşikarbaşı, quşçubaşı və s. mərkəzi sarayda olduğu kimi mövcud idi [5, 118-119]. Bu isə Səfəvi dövlətinin mərkəzi və yerli idarəçilik strukturunun səlahiyyət baxımından fərqli, forma baxımından isə nisbətən oxşar olduğunu sübut edir.

Fransız səyyahı J.B.Tavernye Səfəvi dövlətinin inzibati-ərazi quruluşu haqqında məlumat verərkən onun 17 əyalətdən ibarət olduğunu göstərmişdir. Səyyah 6-cı əyalətin iki hissədən ibarət olduğunu qeyd edərək yazır: «VI əyalət iki hissədən ibarətdir. Onlardan biri Xəzər sahilində yerləşən Şirvan əyalətidir. Mühüm şəhərləri Dərbənd və ya Dəmir qapı, Badkubə (Bakı) və Şamaxıdır. Digər əyalət isə Azərbaycandır. Təbriz, Ərdəbil və Sultaniyyə bu əyalətdə yerləşir» [6, 358]. Tavernye Səfəvi dövlətinin 17 əyalətdən (bəylərbəylik və valilik – *Ə.H.*) ibarət olduğunu düzgün qeyd etsədə tarixi Azərbaycan

torpaqlarında iki əyalətin yerləşdiyini göstərməklə yanlışlığa yol vermişdir. Belə ki, Səfəvi dövründə tarixi Azərbaycan ərazilərində Azərbaycan və Şirvanla yanaşı Gəncə-Qarabağ və Çuxur-Səd bəylərbəylikləri də var idi. Digər tərəfdən, Tavernye özü də səfərləri zamanı Azərbaycan, Şamaxı, İrəvan və Gəncə xanları haqda məlumat verməklə dolayısı yolla olsa da, bu tarixi həqiqəti təsdiqləmişdir [7, 35; 6, 274-275].

*Bəylərbəyiliklər və ya vilayətlər.* Səfəvilər dövründə vilayətləri şahzadələr, qızılbaş tayfalarının əyanları və bəzi hallarda isə qulamlar içərisindən seçilmiş nümayəndələr idarə edirdilər. Vilayətlərə hakimlər, xan, sultan titulu, əmir əl-ümərа və yaxud bəylərbəyi rütbəsi ilə təyin olunurdular. Tavernye də öz gündəliyində böyük əyalətlərin xan və hakimlər tərəfindən idarə olunduğunu qeyd etmişdir [6, 585]. Dövrün digər qaynaqlarında vilayət xanlarının səlahiyyətləri haqqında geniş məlumatlara rast gəlmək olur. P.della Valle qeyd edir ki, vilayətin bütün mülki və hərbi məmurları xana tabedir, xan vilayəti necə istəyirsə, o cür də idarə edir və şahdan başqa heç kimə tabe deyildir [8, 54]. Vilayət hakimlərinin statusundan bəhs edən Oruc bəy Bayat qeyd edir ki, xanlar öz vəzifələrini öz mülkləri kimi hesab edirdilər. Lakin hər hansı qanun pozuntusuna yol versə idilər şahın mülahizəsinə uyğun olaraq vəzifələrindən kənar edilirdilər. Çünki onlar şahın xidmətçiləri idilər. Siyasi və dövlət işlərində, müharibə ilə bağlı məsələlərdə vilayət canişinləri olan xanlar bütün qanuni hüquqlara malik idilər [9, 32]. Vilayət hakimləri sərhədlərin qorunması və vilayət daxilində nizam-intizam qaydalarını təmin etmək üçün müəyyən miqdarda hərbi qüvvə saxlamaq səlahiyyətinə malik idi. Onlar həmçinin müharibə zamanı əvvəlcədən müəyyən edilmiş sayda hərbi qüvvələrlə şahın xidmətinə getməli idilər. Vilayət hakimləri vilayət daxilində maliyyə məsələlərinin nizamlanmasına da nəzarət edirdilər. Kənəkirli Zəkəriyyənin məlumatına görə Çuxur Səd bəylərbəyi Əmirgünə xan Qacar (1604-1625) Aslan ağanı vilayətin amili təyin etmişdi və o xanın göstərişi ilə siyahıya alma və əmlakın həcminin müəyyənləşdirilməsi ilə məşğul olurdu [10, 87-89]. Bəylərbəyləri və yaxud xanlar vilayət ərazisindən keçən ticarət yollarında təhlükəsizliyin təminatı üçün cavabdeh idilər. Karvan yolları və karvansaralarda qarət, oğurluq halları baş verdikdə vilayət hakimləri oğrunu tapıb cəzalandırmalı və oğurlanmış malı sahibinə qaytarmalı idilər. Əks təqdirdə hakim oğurlanmış malın dəyərini öz mənfəəti hesabına ödəməyə borclu sayılırdı [6, 608-609].

*Mahallar.* Bəylərbəyliklər və ya vilayətlər inzibati baxımdan nisbətən kiçik ərazi vahidi olan mahallara bölünürdülər. Z.Bayramlının yazdığına görə, XVI əsrin 40-cı illərindən etibarən mahal hakimlərinə əsasən sultan, bəy, çox nadir hallarda isə xan titulu verilirdi. Mahal hakimləri vəzifəyə şahın fərmanı əsasında təyin edilir və işdən azad olunurdular [1, 164-165]. Ə.Rəhmaninin fikrincə, bəylərbəylərinə tabe olan mahal hakimləri qolbəyi adlanırdı və onlar vəzifəyə bəylərbəyinin təqdimatı əsasında şah fərmanı ilə təyin edilirdilər. Tədqiqatçının fikrincə, sultan titulu daşıyan şəxslər daha xırda inzibati vahidlərə rəhbərlik edirdilər [4, 90]. Tavernye Səfəvi dövlətinin əyalət idarəçiliyində üçüncü dərəcəli hakimlərin də olduğunu və onların asəf (ağıllı müşavir) adlandıqlarını qeyd etmişdir. Asəflər əsasən hökmdarın vilayətlərdə naibləri idi və hər əyalətin xanı kimi onların özlərinin qulluqçuları və sahibmənsəbləri olurdu. Əyalətlərin gəlirləri əsasən yerlərdəki məmurların saxlanılmasına sərf edildiyindən az bir qismi şah sarayına göndərilirdi. Elə buna görə də, şah vilayətlərdəki artıq xərclərə qənaət etmək və dövlət mədaxilini artırmaq üçün bəzi vilayətlərdə xanlıq mənsəbini ləğv edərək onların yerinə asəflər təyin etmişdi. Səyyahın məlumatına görə, bu mənsəbin yaradılması təşəbbüsü ilə ilk dəfə Şah I Səfi (1629-1642) çıxış etmişdi [6, 586].

*Dövlət məmurları.* Səfəvilər dövlətində vilayətlərin idarəçiliyində xan və ya bəylərbəyidən sonra mühüm mövqeyə malik olan məmurlardan biri də vəzir mənsəbi idi. Hər vilayətə maliyyə məsələləri ilə bağlı təyin olunan vəzir əslində müfəttiş olub, burada bütün işlərə, o cümlədən maliyyə, vergi, nizam-intizam qaydaları, məhkəmə və s. nəzarət edirdi [11, 179]. Vilayət vəzirləri bəylərbəyinin məsləhəti və şahın fərmanı əsasında vəzifəyə təyin və yaxud azad edilirdi. Vəzir şah tərəfindən təyin olunsa da, bəylərbəyinə tabe idi. Vilayətin maliyyə işçiləri olan mustoufilər və vergi toplayan məmurları ona tabe idi. Vəzir bəylərbəyinin tabeçiliyində olsa da, dövlətin mərkəzi maliyyə idarəsinə hesabat verirdi [4, 91]. Tavernye Təbrizdə olarkən Azərbaycan bəylərbəyliyinin vəziri Mirzə İbrahimlə görüşüb söhbət etmiş və onu Azərbaycanın maliyyə işlərinin nəzarətçisi kimi təqdim etməklə vilayət vəzirlərinin əsasən maliyyə, vergi, iqtisadi inkişaf məsələləri ilə bağlı məsuliyyət daşıdıqlarını bildirmişdir [6, 524]. M.İbrahimin çoxlu dükanları və karvansaraylarının olduğunu qeyd edən səyyah göstərir ki, onun hörmət və etibarı Səfəvi

sarayında ən nüfuzlu bəylərbəyi hesab olunan Təbriz xanının etibar və hörmətinə bərabər idi [6, 69]. Bəzi hallarda iki vilayətə bir vəzir təyin olunurdu. Qaynaqların məlumatına əsasən M.İbrahim Azərbaycanla yanaşı Çuxur-Səd bəylərbəyliyinin də maliyyə işlərinə nəzarət edirdi. K.Zəkəriyyə yazır ki, şah M.İbrahimdən İrəvanın vergilərini tələb etdikdə İrəvan xanı Məhəmməd xan vergiləri gecikdirdiyi üçün xanla vəzir arasında münaqişə yaranmış və vəzirin şikayəti əsasında bəylərbəyi həbs edilmişdi [10, 146]. Son araşdırmalar göstərir ki, M.İbrahim Azərbaycan və Çuxur-Sədlə yanaşı Qarabağ bəylərbəyliyinədə nəzarət etmişdir. 1679-cu il İrəvan zəlzələsinin nəticələrini aradan qaldırmaq üçün M.İbrahimin Qarabağ bəylərbəyliyi ərazisindən bölgəyə qüvvələri səfərbər etməsi də bu faktı təsdiq edir [12, 448].

Vilayət xanlarının saraylarıda şah sarayı kimi böyük idi. Buradada çoxlu qulluqçu və məmurlar fəaliyyət göstərirdilər. Əslində mahiyyət etibarilə eyni funksiyanı yerinə yetirən vilayət məmurları yalnız səlahiyyət çərçivəsinin məhdudluğu və məvaciblərinin azlığına görə mərkəzi idarə aparatında çalışan məmurlardan fərqlənirdilər. Tavernye mərkəzi idarə aparatında sədr, şeyxülislam və qazı haqqında məlumat verərkən məmləkətin bütün əsas şəhərlərində şeyxülislam və qazının olduğunu, onların din və qanun işlərini yoxladıqlarını göstərmişdir. Onun yazdığına görə hər məsciddə «pişnamaz» var ki, hamıdan birinci namaza dayanmalı, camaat onu izləməli və namaz qılmalıdırlar. Mollalar haqqıda məlumat verən Tavernye yazır ki, onlar şəriət qanunlarının hüquqşünaslarıdırlar. Onların vəzifələrindən biri də şəriət elmlərinin tədrisidir ki, hər kəs oxumaq istəsə, ona təlim verməlidirlər. Möminlik əlaməti olaraq başlarına ağ kətandan əmmamə qoyurlar və həmin parçadan paltar geyinirlər [6, 589]. Hər məsciddə pişnamaz və molla ilə yanaşı müəzzin və mütəvəllilərdə fəaliyyət göstərirdilər. Müəzzinin əsas vəzifəsi səhər, günorta və axşam minarəyə çıxaraq Allahın vahidliyi, Məhəmməd peyğəmbərin onun elçisi olması haqqında ucadan məlumat verməsindən ibarətdir [6, 590]. Ruhani idarəetmə strukturunda özünəməxsus rol oynayan mütəvəllinin vəzifələri və səlahiyyətləri haqqında qaynaqlarında və tarixi ədəbiyyatlarda maraqlı və müfəssəl məlumatlar vardır. Qaynaqların məlumatına əsasən sədrin təklifi ilə vəzifəyə təyin edilən və yalnız şah və sədrin əmri ilə işdən azad edilən mütəvəllilər vilayət və şəhər ərazilərində yerləşən müqəddəs yerlər və vəqf əmlakının idarə olunması ilə məşğul olurdular [2, 47]. Mütəvəllilər vəqfə məxsus olan bütün əmlakın idarə olunması ilə bərabər vəqf gəlirlərinin bölüşdürülməsi, lazımi yerlərə xərclənməsi, vəqf əmlakında çalışanların işlərinə nəzarət, onların məvaciblərinin verilməsi və s. kimi işlərə nəzarət edirdilər. Z.Bayramlı bəzi hallarda mütəvəllinin vəqf əmlakının yerləşdiyi ərazinin hakimi statusunu da icra etdiyini göstərmişdir [1, 220-222].

XVI-XVII əsrlərdə Səfəvi dövlətinin mərkəzi idarəetmə aparatında maliyyə məsələlərinə mustoufi əl-məmalik, vilayətlərin maliyyə işlərinə isə onun tabeçiliyində olan mustoufilər rəhbərlik edirdilər. Səfəvi dövlətinin maliyyə sistemi haqqında məlumat verən Tavernye mərkəzi mühasibat divanı ilə bərabər vilayətlərin maliyyə idarələrində çalışan mustoufilərin bütün xalisə, ərbabi, şah əmlakının gəlirləri, mülklərin icarəsi, qoşunun təchizatı, məmurların xərcləri və məvacibləri kimi məsələlərə nəzarət etdiklərini bildirmişdir [6, 592-593].

*Şəhər idarəçiliyi.* Səfəvilər dövründə yerli idarəçilik sistemində şəhər idarəçiliyi də özünəməxsus yer tuturdu. Tarixən şəhərlər ölkəsi kimi tanınan Azərbaycanda bəhs edilən dövrdə bəylərbəylik mərkəzi olan Təbriz, Gəncə, Şamaxı və İrəvan şəhərləri ilə yanaşı, Ərdəbil, Qəzvin, Zəncan, Marağa, Bakı, Dərbənd, Naxçıvan, Culfa və s. kimi mühüm əhəmiyyətə malik şəhərlər də var idi. Mənbələrdə vilayət və mahalların inzibati ərazisinə daxil olan şəhərlərin idarə olunması, şəhər idarəçiliyində xüsusi yer tutan darğa, kəlantər, divanbəyi, ehdas və s. kimi dövlət məmurları, onların hüquq və vəzifələri haqqında maraqlı məlumatlar verilmişdir. Tavernye şəhərdə mövcud olan divanbəyi məsəbinə toxunaraq qeyd edir ki, hər bir şəhərdə şah tərəfindən təyin edilən divanbəyi fəaliyyət göstərir və o yalnız şahın hökmlərini icra edirdi [6, 601]. Mərkəzi idarə aparatında olan divanbəyi kimi şəhərlərdə fəaliyyət göstərən divanbəyilər də əhalinin şikayət və ərizələrinə baxır, polis funksiyasını yerinə yetirirdi. Şəhər divanbəyiləri bilavasitə şaha tabe olmaqla, vilayət və mahal hakimlərinin özbaşınalıqlarının qarşısının alınmasında qarant rolunu oynayan dövlət məmuru funksiyasını icra edirdilər.

XVI-XVII əsrlərdə şəhər idarəçiliyində mühüm əhəmiyyətə malik olan mənsəblərdən biri də darğa vəzifəsi idi. Şəhər divanbəyisinin sərəncamına xan tərəfindən təyin edilən darğa mənsəbi var idi və o, birbaşa polis funksiyasını icra edirdi. Şəhər darğaları döyülmə, dava, mübahisə, qətl, cinayət işlərinə baxır, fahişəliyə qarşı mübarizə aparırdılar. «Təzkirət əl-müluk»ün məlumatına əsasən divanbəyiyə tabe

olan darğa şəhərin daxildən və xaricdən qorunmasına, qanunların icrasına nəzarət edir, şəri qanunlara zidd olan işlərə, meyxana, fahişəxana və qumarxanalara qadağa qoyur, şəriət qaydalarını pozanları cəzalandırır, cinayətkarları müvafiq qaydalara uyğun cərimə edirdi. Qaynaqların məlumatına görə şəhərin qorunması ilə məşğul olan bütün məmurlar, həmçinin mühafizə işilə məsul olan qorçular, qulamlar, topçu və tüfəngçilər də müəyyən mənada darğaya tabe idilər [2, 48]. Bununla yanaşı, bilavasitə darğanın tabeçiliyində möhtəsib, şəhnə, əsəs, nəqib kimi silahlı dəstə və yaxud köməkçilər fəaliyyət göstərirdilər. Darğa ilə divanbəyi vəzifəsi arasında fərq ondan ibarət idi ki, dəyəri 5-12 tümən arasında olan mübahisələri darğa, bu məbləğdən yuxarı mübahisələri isə divanbəyi həll edirdi. Darğanın həll edə biləcəyi məsələlərə divanbəyinin müdaxilə etmək hüququ olduğu halda, divanbəyinin sərəncamına verilmiş məsələlərə darğanın qarışmaq səlahiyyəti yox idi [2, 48]. Sansonun məlumatına əsasən günahkar və ya cinayətkarları cərimələmək və ya kiçik cəza vermək hüququna malik olan darğanın ölüm hökmü vermək səlahiyyətləri yox idi [11, 209]. Qeyd etmək lazımdır ki, əksər hallarda polis rəisi funksiyasını icra edən darğa bəzi hallarda hakim statusuna da malik olurdu. Şəhərlərə təyin edilmiş darğalar yalnız polis funksiyasına malik olduğu halda, xassə əmlakına təyin edilmiş darğalar hakim vəzifəsini də icra edirdilər. Z.Bayramlı qaynaqların məlumatına əsasən 1534-1578-ci illərdə Təbriz şəhərində xassə əmlakının olduğunu və bu müddət ərzində darğa tərəfindən idarə edildiyini göstərmişdir [1, 197]. Darğa anlayışının iki - geniş və dar anlamda işləndiyini qeyd edən Ş.Fərzəliyev yazır ki, darğa istilahı geniş mənada işləndikdə hakimlik, əmirlik rütbəsini, dar mənada işləndikdə isə yalnız darğalıq (yəni polis rəisi – *Ə.H.*) mənsəbini bildirmişdir [13, 56-57]. Qaynaqların və tədqiqat əsərlərinin təhlili nəticəsində belə bir qənaətə gəlmək mümkündür ki, ümumiyyətlə darğa istilahı bəzi hallarda, əsasən xassə əmlakına təyin edildikdə hakim, qeyri-xassə əmlakına təyin edildikdə polis rəisi səlahiyyətlərinə malik olmuşdur. Mənbələrdə darğanın ehdas, əsəs, möhtəsib, şəhnə, nəqib kimi köməkçilərinin olduğu göstərilir. Tavernye ehdas və möhtəsib haqqında qısa məlumat verərək yazır ki, darğanın hökmü altında başqa bir sahib mənsəb də var ki, ona ehdas deyirlər. Onun vəzifəsi gecələr öz silahlı adamları ilə küçələrdə nizam-intizam yaratmaqdan ibarətdir. Ehdas gecələr küçələrdə gəzir, gecəyarısı küçədə adam gördükdə, onu tutub zindana salırdı [6, s.601]. Əslində darğanın müavaini olan ehdas gecə gözətçilərinin rəisi idi. Çox maraqlıdır ki, «Təzkirət əl-mülük»də gecə gözətçilərinin rəisi ehdas deyil, mirşəb adlandırılmışdır [2, s.48]. Ehdas və ya mirşəbın sərəncamında əsəs adlanan silahlı gecə gözətçiləri fəaliyyət göstərirdilər. Mənbələrin məlumatına görə ehdas və onun gecə gözətçiləri gecələr məhəllələri gəzir, bazarları, ticarət və sənətkar dükanlarını qoruyur, şübhəli adamları zindana salır, oğurluq və cinayətlərin qarşısını alırdılar. Ehdas cinayətkarları və oğurlanmış malı aşkara çıxardıqda onun altıda iki hissəsini özünə götürür, qalan hissəsini isə divanbəyi və darğanın iştirakı ilə sahibinə qaytarırdı. Oğurlanmış mal və cinayətkar tapılmadıqda, ehdas özü malın dəyərini sahibinə qaytarmaq məcburiyyətində idi [2, 48-49]. Məhz buna görə də ehdas və onun silahlı dəstələri cinayətkarın və oğurlanmış malın tezliklə tapılmasında maraqlı olurdular.

Səfəvi dövlətinin yerli idarəçilik təsisatında mühüm rol oynayan mənsəblərdən biri də möhtəsib vəzifəsi olmuşdur. Bu mənsəb islam ölkələrində sosial ədalətin qorunmasında özünəməxsus rol oynayırdı. Səfəvi dövrünün qaynaqlarında möhtəsibin hüquq və vəzifələri göstərilmişdir. Tavernyenin məlumatına görə möhtəsib polis qazısı mənasındadır. Onun 2-3 nəfər müavini vardı. Möhtəsibin əsas vəzifəsi bazar mallarına qiymət qoymaqdır. O, müavinləri ilə birlikdə hər həftənin ilk günü məsləhətləşərək növbəti həftə üçün qiymətləri müəyyən edirdi. Qiymətlərin qoyulması zamanı fəsillər, quraqlıq, qıtlıq, müharibə kimi hallar nəzərə alınır, şəraitə uyğun olaraq məhsulların qiymətinin qaldırılması və ya aşağı salınması haqqında qərar qəbul edilirdi [14, 166]. Möhtəsiblər şərab istehsalçıları və istehlakçılarına qarşı mübarizə aparmaq, şəriət qayda-qanunlarına əməl edilməsinə nəzarət etmək, bu qanunları pozanları cəzalandırmaq, bazarda qiymət, ölçü və çəki vahidlərinin düzgünlüyünü yoxlamaq, bazarlarda ictimai asayişi qorumaq, qiymətlərin özbaşına qaldırılması hallarına qarşı çıxmaq, belə hallara yol verənləri cəzalandırmaq və s. kimi geniş səlahiyyətlərə malik idilər. Qeyd etmək lazımdır ki, qiymətlərin qoyulmasında möhtəsib mütləq hakimiyyətə malik idi və hətta şəhər hakiminin bu məsələdə onun işlərinə müdaxilə etməsinə yol verilmirdi. Tavernye Təbriz hakiminin möhtəsibin qərarını dəyişdirmək səlahiyyətinin olmaması, həmçinin qiymətləri özbaşına qaldırmış alverçilərin cəzalandırılması haqqında maraqlı məlumatlar vermişdir [6, 612]. Mənbələrin məlumatından aydın olur ki, dövlətin bütün şəhərlərində möhtəsib vəzifəsi

mövcud idi və onlar mərkəzi idarə aparatında fəaliyyət göçtərən «möhtəsib əl-məmalik»ə tabe olurdular. Qeyd edək ki, darğa, ehdas, şihnə və möhtəsiblərin səlahiyyət və hüquqları bəzi məsələlərdə yaxın olduğu üçün onlar bir-birləri ilə əlaqəli şəkildə fıaliyyət göstərirdilər.

XVI-XVII əsrlərdə şəhər idarəçiliyində mühüm əhəmiyyətə malik vəzifələrdən biri də kələntər mənsəbi idi. Qeyd etmək lazımdır ki, iri şəhərlərlə yanaşı xırda şəhərlər, nisbətən böyük kəndlərdə, hətta strateji əhəmiyyətli qalalarda da kələntər vəzifəsinin olmasına təsadüf edilmişdir. E.Çələbinin yazdığına görə Azərbaycanda 100 evdən ibarət olan Qumla qalası və Şirvanda 600 evdən ibarət olan Niyazabadda da kələntər mənsəbi var idi [15, III, 262]. E.Kempferin verdiyi məlumata əsasən böyük şəhərlərdə eyni vaxtda bir neçə kələntər fəaliyyət göstərmişdir [16, 164]. Tavernye qeyd edir ki, hər şəhərdə şah tərəfindən təyin edilən bir kələntər vardır və o heç kimə tabe deyildir [6, 601]. Şəhərin ağsaqqalı və şəhər mülki idarəsinin rəisi olan kələntər vəzifəyə şah tərəfindən təyin olunurdu. Şəhər əhalisi arasında xüsusi bacarığı, fərasəti və nüfuzu ilə seçilən şəxslərdən birinin kələntərliyə namizədliyi irəli sürülür və şah fərmanı əsasında vəzifəyə təyin edilirdi. Mənbələrin məlumatına görə kələntər şəhərlərdə məhəllə kəndxudalarına, müxtəlif silklərin, o cümlədən sənətkar və tacirlərin nümayəndələrinə başçılıq edir, kəndxudaları və əsnaf ağsaqqallarını vəzifəyə təyin edir, əsnaflar üzərinə qoyulmuş vergi və mükəlləfiyyətlərin miqdarına nəzarət edir, rəiyyətin mənafeyini qoruyurdu [17,39; 2,47-48]. E.Kempferin məlumatına əsasən kələntər əsasən şəhər işlərini idarə edir, sakinlərlə bağlı qarşıya çıxan çətinlikləri həll edir, vergi və mükəlləfiyyətlərin əhali arasında düzgün bölüşdürülməsinə nəzarət edir, hakim qarşısında əhalinin hüquqlarını müdafiə edirdi» [16, 164]. Kələntər əhalidən vergilərin alınmasında nöqsanlara yol verən müqəssirləri cəzalandırmaq və cərimə etmək hüququna da malik olmuşdur. Kələntər nəqib adlanan müavini və tabeçiliyində olan məmurların köməyi ilə öz funksiyasını icra edirdi.

*Nəticə.* Dövrün qaynaqları xüsusilə də, salnamə tipli mənbələr və səyyah gündəliklərinin məlumatları əsasında Səfəvi dövlətinin yerli inzibati idarə sisteminin araşdırması və təhlili nəticəsində belə qənaətə gəlmək mümkündür ki, Azərbaycan Səfəvi dövlətinin yerli idarəçilik sistemində qanunların qorunmasına və sosial ədalətin təmin olunmasına çalışılır və bu istiqamətdə mühüm nəticələr əldə olunurdu.

## ƏDƏBİYYAT

1. Bayramlı Z.H. Səfəvi sövlətinin quruluşu və idarə sistemi. Bakı,"ADPU" mətbəəsi, 2006, 258 s.
2. Mirzə Səmia. Təzkirəti əl-mülk. Be kuşeşe doktor Səid Məhəmməd Dəbirsiyaqi. Tehran, Enteşarete Əmir Kəbir, h.1368, 140 s.
3. Бушев П.П. Посольство Артемия Волынского в Иран 1715-1718 гг. (по русским архивам). М., Изд. «Наука», 1978, 286 с.
4. Рахмани А.А. Азербайджан в конце XVI и в XVII вв. (1590-1700 гг.). Баку, «Элм», 1981, 238 с.
5. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI - нач. XIX вв. Л., «ЛГУ», 1949, 382 с.
6. Jan Batist Tavernye. Səfərname-yi Tavernye. Tərcome-yi Əbuturab Nuri. İsfahan: Çapxane-ye Pərvin, h.1336, 719 s.
7. Tavernye J.B. XVII asr ortalarında Türkiyə üzerindən seyahət. İstanbul, "Kervan kitabçılıq basım senaye və ticaret", 1980, 112 s.
8. Pyetro della Valle. Səfərname-yi Pyetro della Valle. Tərcome-ye əz mətne əsliye İtaliyayi doktor Şüaəddin Şəfa. Tehran: Şirkəte enteşarate elm və fərhəngi, h.1348, 483 s.
9. Книга Орудж-Бека Баята-Дон Жуана Персидского. Перевод с английского, введение и комментарии д.и.н. Октая Эфендиева, к.и.н. Акиф Фарзалиева. Баку, «Язычы», 1988, 215 с.
10. Захарий Канакерци. Хроника. Перевод с армянского М.О.Дарбинян. М., Изд. «Наука», 1968, 320 с.
11. Səfərname-ye Sanson. Vəze keşvəre şahanşahi-ye İran dər zamane-ye Süleyman. Tehran: Tərcome-ye Tağı Təfəzzül. H.1346, 237 s.
12. Şəbiyev B. Azərbaycan Səfəvi dövlətinin İrəvan vilayəti. Mingəçevir ME, 2019, 442 s.
13. Fərzəliyev Ş. Azərbaycan XV-XVI əsrlərdə. Bakı, "Elm", 1983, 150 s.
14. Мустафаев Ш.М. Восточная Анатолия: от Аккоюнлу к Османской империи. М., «Восточ. лит.», 1994, 224 с.

15. Evliya Çelebi. Seyahatname. III kitab. İstanbul, Haliyle, 1972, 466 s.
16. Engelbert Kempfer. Dər dərbdqe Şahanşahe İran. Tərcome-ye Keykavus Cahandari. Tehran. Enteşarate Daneşgah, h.1350, 719 s.
17. Musəvi T.M. Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazilmış sənədlər, Bakı, “Elm” nəşriyyatı, 1965, 131 s.

**ARŞAD HASANOV**
*Doctor of Philosophy in History,*
*Senior teacher of Baku State University*

## SOME ISSUES OF THE LOCAL ADMINISTRATION SYSTEM OF THE AZERBAIJAN SAFAVID STATE

The article deals with the local administration system of Safavids. Safavid empire surrounded a very wide rauge: from Qandahar to Euphrates river, from Caucasus to İndian Ocean. The Safavids Empire was administratively divided into provinces and districts. Beylerbeyliks ruled beylerbeyies which appointed by shah. Beylerbeyies and provinces divided into districts and other adminstrative structures. District’s naibs worked in the adminstration system, Mustoufi in the finance system, darga, and others kalantar in the city management system.

*Keywords*: Azerbaijan Safavid state, Local adminstration system, beylerbeylik, dargha, kalantar.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 16 iyun 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2020-ci il.*
*Rəyçilər: t.ü.f.d. Bəymirzə Şabiyev, t.e.d. İsmayıl Məmmədov.*

**UOT 94"04/15"**

**AYSEL QƏRİBOVA**
*Tarix üzrə fəlsəfə doktoru,*
*Bakı Dövlət Universitetinin müəllimi*
**E-mail: ayselgaribova@bsu.edu.az**

# XVI ƏSRİN I YARISINDA SƏFƏVİ-ŞEYBANİ MÜNASİBƏTLƏRİ

*XVI əsrdə Azərbaycan Səfəvi dövlətinin Şeybanilər ilə münasibətləri əsasən Xorasan uğrunda mübarizə əsasında qurulmuşdu. Xorasan iqtisadi və ticari baxımdan vacib bölgə olub, Mərkəzi Asiyanın ən əhəmiyyətli ərazisi hesab edilir. Hər iki türk sülaləsi bu vacib ərazini itirmək istəmirdi, müxtəlif dövrlərdə Xorasan qarşıdurması hökmdarların və dövlətin qüdrətindən asılı olaraq şiddətlənir və ya zəiflyirədi. Münaqişədə hər iki tərəf üçün qələbə məsələsi ola bilməzdi, belə ki, müharibə və hərbi əməliyyatlar bölgənin iqtisadiyyatına ağır zərbə vurur, eləcə də vuruşan tərəfləri zəiflədirdi.*

*Açar sözlər:* Səfəvilər, Şeybanilər, XVI əsr, Mərkəzi Asiya, Xorasan.

*Giriş.* Azərbaycan Səfəvilər imperatorluğu Şərqin ən qüdrətli dövləti olaraq təqribət iki əsr ərzində beynəlxalq aləmi yönləndirən qüvvə olmuşdur. 1501-ci ildə yaranmış Azərbaycan Səfəvilər dövləti Şah I İsmayıl (1501-1524) və Şah I Təhmasibin (1524-1576) hakimiyyəti dövrlərində aparılmış uğurlu fəthlər nəticəsində təqribən 2,8 milyon kv.km. əraziyə sahib olmuşdu. Səfəvilər dövlətinin xarici siyasətinin əsas istiqamətlərini Osmanlı, Böyük Moğol, Şeybani, Moskva knyazlığı, Portuqaliya, İspaniya, İtaliya, İngiltərə, Hollandiya, həmçinin digər Qərbi Avropa dövlətləri ilə qarşılıqlı münasibətlərin qurulması təşkil edirdi. Qərbi Avropa ölkələri ilə Səfəvilər dövləti arasındakı münasibətlərdə əsas diqqət iqtisadi-ticarət əlaqələrinin inkişafına, Osmanlı təhlükəsinə qarşı birgə mübarizənin təşkilinə, həmçinin Qərbdən – Avrpadan artilleriya və odlu silahların gətirilməsinə yönəlmişdi. XVI əsrdə Avropa dövlətlərini Qızılbaş Səfəvi dövləti ilə yaxınlaşdıran daha bir məsələ Osmanlı təhlükəsi idi. Osmanlılara qarşı Avropa kral sarayları və Papa dövləti ilə ittifaqa girən Azərbaycan Səfəviləri Mərkəzi Asiyada daha sərbəst hərəkət edirdilər. Lakin ingilis ticarət faktoriyalarının yaranması Səfəvilərin xarici siyasət istiqamətində dəyişiklik etməyə məcbur oldu. Səfəvilər Mərkəzi Asiyada da Avropanın, eləcə də digər Şərq dövlətlərinin gərgin mübarizəsi ilə üzləşirdi. Avropa ölkələri ilə münasibətlərdən fərqli olaraq Səfəvi dövlətinin yaxın qonşuları ilə qarşılıqlı əlaqələri daha mürəkkəb və çoxşaxəli zəmində təşəkkül tapırdı. Yaxın qonşularla münasibətlərdə soykök birliyi, vahid din, təriqət ayrılığı, iqtisadi-ticarət maraqlarının toqquşması, siyasi-hərbi qarşıdurma və s. kimi amillər mühüm əhəmiyyət kəsb edirdi. Səfəvi dövləti ilə Böyük Moğol imperatorluğu arasında əlaqələr bəzi dövrlər istisna olmaqla əsasən dinc xarakter daşısa da, Osmanlı və Mərkəzi Asiya dövlətləri ilə əksinə, hərbi-siyasi qarşıdurma ilə müşahidə olunmuşdur.

*Səfəvilərin xarici siyasət istiqamətləri.* XVI-XVII əsrlərdə Azərbaycanın siyasi tarixi dörd nəhəng türk - Osmanlı, Səfəvi, Böyük Moğol və Şeybani imperatorluqlarının tarixi ilə bilavasitə bağlı olmuşdur. Azərbaycan Səfəvi sülaləsi digər qonşu dövlətlər ilə sıx əlaqədə olmaqla yanaşı, bəzən nigah diplomatiyası yolu ilə qohumluq münasibətləri yaradırdı. Lakin bu heç də onun siyasi iqtisadi maraqlardan imtinası demək deyildi, əksinə qohumluq münasibətləri yaratmaqla qonşu əraziləri ələ keçirmək, ərazilərini genişləndirməyə nail olurdular. Səfəvilərin Azərbaycanda, ümumilikdə Cənubi Qafqazda və Mərkəzi Asiyada əsas rəqibi olan Osmanlı dövləti XIII əsrin sonunda Osman Qazı tərəfindən yaradılıb, XIV-XVI əsrlərdə çox geniş əraziləri əhatə edən böyük imperatorluğa çevrilmişdi. Osmanlı imperatorluğundan fərqli olaraq digər üç türk imperatorluğu qısa zaman fasiləsi ilə XVI əsrin əvvəllərində təşəkkül tapmışdı. XVI əsrdə Osmanlı imperatorluğu həm qərbə Avropaya, həm də şərqə Qafqaz istiqamətində hücumlar təşkil edir, daha geniş əraziləri ələ keçirməyə çalışırdı. Cənubi Qafqaz, xüsusilə Azərbaycan uğrunda mübarizədə Osmanlıların ən böyük rəqibi olan Qızılbaş Səfəvilərə qarşı bəzən hərbi siyasi ittifaqlar da yaradılırdı. Osmanlılar Qızılbaş Səfəvilərə qarşı mübarizədə Şeybanilərdən geniş istifadə etməyə cəhd etmişdilər.

XVI-XVII əsrdə Şərqin beynəlxalq arenasında rol almış türk dövlətlərindən biri də Böyük Moğol imperiyasıdır. Teymuri nəslindən olan Babur tərəfindən yaradılan türk müsəlman imperatorluğu 1526-cı ildə yaradılmışdı. Bu imperiya 1526-1858-ci illərdə şimali Hindistan və cənub-şərqi Əfqanıstan ərazilərində yaranmış, ayrı-ayrı hökmdarların vaxtında Şərqin siyasi hadisələrini yönləndirə bilmişdi. Müəyyən dövrlərdə Azərbaycan Səfəvilər ilə iqtisadi və siyasi cəhətdən sıx münasibətləri olan Böyük Moğol imperatorluğu Mərkəzi Asiya uğrunda mübarizə aparan tərəflərdən biri olmuşdur.

Cuci nəslinin nümayəndəsi olan Məhəmməd Şeybani xan tərəfindən yaradılan, əsasən Mavərəünnəhri, Əfqanıstanın şimalını əhatə edən Şeybanilər dövləti 1500-1599-cu illərdə mövcud olmuşdu. Məhəmməd Şeybani xan (1451-1510) tərəfindən gərgin mübarizədən sonra yenidən yaradılan Şeybani dövləti tarixi ədəbiyyatda həm də Buxara xanlığı adlanır. Belə ki, 1506-cı ildə Buxara ələ keçirildikdən sonra paytaxt buraya köçürülmüş və dövlət Buxara xanlığı kimi adlanmağa başlamışdı [4, s.221].

Azərbaycan Səfəvilər dövlətinin Qərbi Avropa ölkələri, Osmanlı imperatorluğu ilə qarşılıqlı münasibətləri Azərbaycan tarixşünaslığında O.Əfəndiyev, Ş.Fərzəliyev və A.Rəhmani tərəfindən geniş tədqiq olunsa da, onun Böyük Moğol və Mərkəzi Asiya dövlətləri ilə əlaqələri olduqca zəif araşdırılmış, Azərbaycanın görkəmli tarixçiləri Z.Bayramov və Z.Həsənalıyev tərəfindən Şah II Abbasın dövrünə dair tədqiqatlarında, eləcə də R.Ağayevin XV-XVI əsrlərə dair Azərbaycan-Mərkəzi Asiya münasibətlərinə həsr edilmiş əsərində izləmək mümkündür [1].

*Səfəvilərin Şeybanilər ilə münasibətləri.* XVI əsrdə Şərqin ən güclü dövləti hesab edilən Azərbaycan Səfəvilər imperiyası şimal-şərq istiqamətində özbək Şeybanilər dövləti ilə həmsərhəd idi. Məlum olduğu kimi, 1507-ci ildə özbəklərin hökmdarı Şeybək (bəzən Şeybəxt) xanın rəhbərliyi altında köçəri özbək tayfalarının hücumları nəticəsində Teymurilər dövləti süquta uğradılmış və onun yerində Şeybanilər dövləti təşəkkül tapmışdı. Onu da qeyd edək ki, 1598-ci ildə daxili siyasi çəkişmələr nəticəsində bu dövlətə rəhbərlik Həştərxanilər sülaləsinin əlinə keçmişdi. Tarixi ədəbiyyatlarda bəzən Canilər kimi adlandırılan bu sülalə faktiki olaraq 1785-ci ilə kimi Mərkəzi Asiyada Buxara xanlığı olaraq hökmranlıq etmişlər. Bu sülalə tədqiqata cəlb etdiyimiz XVI əsr boyu Mərkəzi Asiyanın bütün xalqlarının tarixində mühüm rol oynamışdı. Onu da qeyd etmək lazımdır ki, XVI-XVII əsrlərdə bütün Mərkəzi Asiyada Şeybanilər və Həştərxanilər sülaləsi hegemon rol oynasa da, bu regionda sabit mərkəzləşdirilmiş dövlətin yaradılması baş tutmamışdı. Belə ki, özbəklərin aparıcı rol oynadığı Buxara xanlığı ilə yanaşı, XVI-XVII əsrlərdə ona qarşı daim müxalif mövqedə olan və türkmən tayfalarının nəzarətində olan Xarəzm (Xivə) xanlığı da özünəməxsus yer tuturdu. Hər iki türk xanlığının rəqabəti bölgənin hərbi müdafiə qabiliyyətini zəiflədirdi. Digər tərəfdən, qazax tayfalarının mütəmadi hücumları, həmçinin hakim sülalə üzvlərinin separatizmi, xüsusilə də Bəlx şahzadələrinin müstəqilliyə can atması Mərkəzi Asiyada daxili stabilliyi pozan əsas amillərdən idi. Bu dövrün dərindən öyrənilməsində böyük özbək tarixçisi B.Ə.Əhmədovun əsərlərinin böyük rolu vardır. Alim hesab edir ki, Mərkəzi Asiyanın ayrı-ayrı bölgələrə bölünməsi və bu ərazilərin siyasi-iqtisadi, sosial-mədəni cəhətdən özünəməxsus xüsusiyyətlərinin formalaşması burada vahid şəkildə hər hansı bir sülalə tərəfindən idarə edildiyi halda belə mərkəzləşmiş dövlətin yaranmasına mane olmuşdu. Əlbəttə ki, Mərkəzi Asiya dövləti olaraq Şeybanilər ilə münasibətlərin tarixinin araşdırılması zamanı bu bölgənin yerli tarixçilərinin əsərlərinə müraciət edilməsi və müqayisəli təhlillərin aparılması tarixi gerçəkliyin üzə çıxarılmasında mühüm rol oynayır.

*Səfəvi-Şeybani münasibətləri Məhəmməd Şeybani xan dövründə.* Qızılbaş Səfəvi dövləti ilə özbək Şeybanilər arasında qarşılıqlı münasibətlər 1507-ci ildən başlamış və bütün XVI əsr boyu hərbi-siyasi qarşıdurma şəraitində davam etmişdi. İki dövlət arasında başlanmış qarşıdurmanın əsas səbəbi strateji baxımdan çox mühüm mövqedə yerləşən və geniş əraziləri əhatə edən Xorasan uğrunda rəqabət idi. Dörd böyük vilayəti - Bəlx, Mərv, Herat və Məşhədi əhatə edən Xorasan Hindistan, Mərkəzi Asiya və Azərbaycan Səfəvi dövlətini birləşdirən tranzit ticarət yollarının qovşağında yerləşməklə yanaşı, geniş iqtisadi potensiala malik bir bölgə idi. 1510-cu ildə baş vermiş Mərv savaşında Şah I İsmayılın özbəkləri məğlub edərək Xorasana yiyələnməsi ilə Mərkəzi Asiya həm qərbə - Aralıq dənizi sahillərinə, həm də cənuba - Hindistana gedən ticarət yollarına çıxışdan məhrum olmaqla yanaşı, geniş ərazilərin də nəzarət altından çıxması ilə üzləşmişdi [7, s.69]. Mərv

döyüşü Şah I İsmayılın xarici siyasətdə atdığı uğurlu addımlardan biri olmuşdu. Belə ki, məhz bu döyüşdən sonra Qızılbaş Səfəvilər Mərkəzi Asiyaya nəzarət etməyə başlamış və şərq istiqamətində daha da genişlənməyə nail ola bilmişdi. Siyasi əhəmiyyət kəsb etməsi ilə yanaşı, Xorasanın iqtisadi mahiyyətini də unutmayaq. Sovet və Rusiya tarixçisi, şərqşünas alim D.Arapovun (1943-2015) fikirlərinə əsasən Xorasanın şimaldan cənuba, şərqdən qərbə gedən beynəlxalq ticarət yollarının qovşağında yerləşməsi bu ərazinin mübahisə obyektinə çevrilməsinə səbəb olmuşdu. Yaranmış vəziyyətlə heç cür razılaşmaq istəməyən Şeybani hökmdarlarının xarici siyasətində Xorasanın qaytarılması həmişə prioritet məsələ olmuşdu.

*Səfəvi-Şeybani münasibətləri Übeydulla xan dövründə.* Xorasanın Şeybanilər dövlətinə qaytarılması Mərkəzi Asiya ictimaiyyətinin əksər təbəqələrinin - köçəri özbək əyanlarının, ruhanilərin, beynəlxalq tranzit ticarətlə bağlı olan iri tacirlərin maraqları baxımından mühüm əhəmiyyət kəsb edirdi. Buna görə də Şeybani hökmdarları XVI əsrin 20-30-cu illərində, xüsusilə də Şeybani hökmdarı Übeydullah xanın hakimiyyəti dövründə (1533-1539) dəfələrlə Xorasan istiqamətində yürüşlər təşkil etmişdilər [1, s.109-115]. İddialı bir hökmdar olan Übeydullah xan qanuni olaraq 1533-cü ildə taxt-taca otursa da, lakin faktiki olaraq 1510-cu ildə Şeybani xanın ölümündən sonra dövləti idarə etmişdir. Onun əsas məqsədlərindən biri dövlətin sərhədlərini genişləndirmək və iqtisadi cəhətdən mühüm bölgələri öz hakimiyyəti altına almaq idi. 1510-cu ildən sonra Xorasanı qaytarmaq məqsədilə dəfələrlə bu bölgəyə yürüş etsə də, Xorasan bəylərbəyisi Durmuş xan Şamlı tərəfindən məğlun edilərək geri çəkilmişdi. Qızılbaşların məşhur sərkərdəsi Durmuş xan Əbdi bəy oğlu Şamlı Təbriz sarayında eşikağası vəzifəsində çalışmışdı. Sam Mirzəyə lələ təyin edilmiş, daha sonra isə 1521-ci ildə Herata hakimi təyin olunmuş, 1525-ci ilədək bu bölgənin bəylərbəyi olaraq idarə etmişdi. Yerli özbək xan nəsillərinə qarşı uğurlu mübarizə aparan Durmuş xan Übeydulla xanla dəfələrlə toqquşmuşdur. 1525-ci ilədək heç bir uğur qazanmayan Übeydulla xan Qızıbaş bəylərbəyi Durmuş xanın ölümündən sonra 1527-ci ildə Tus, 1528-ci ildə isə Astrabadı ələ keçirə bildi. Bir sıra əraziləri əldə edə bilən özbəklər hətta 1528-ci ildə Xorasan vilayətinin mərkəzi Heratı mühasirəyə alırlar [6, s.115]. Şah I Təhmasibin qoşunlarının hücum xəbərini eşidən Übeydulla xan kifayət qədər hərbi qüvvələrinin olmasına baxmayaraq geri çəkilməyi qərara alır. Übeydulla xan qızılbaş hərbi dəstələrinin qüdrətini bilir və onlardan düzgün olaraq açıq döyüşə girməkdən çəkinmək istəyirdi. Cam vilayətində yerləşən Sarıqamış yaxınlığında baş vermiş döyüşdə Mərkəzi Asiyanın bütün vilayətlərinin özbək döyüş hissələri iştirak edirdi. İlk toqquşmalarda üstünlük əldə edən özbəklər həlledici döyüşdə ağır məğlubiyyətə uğradılar.

Şah I İsmayılın ölümündən sonra Şah Təhmasibin hakimiyyətə gəlişinin ilk illərində Təbriz sarayında siyasi qruplaşmalar və onlar arasında gərginlik hökm sürürdü. Şamlı tayfa başçılarının Xorasan bəylərbəyisi təyin edilməsi, ardınca təkəli tayfalarının buraya köçürülməsi Xorasanda siyasi mübarizəyə zəmin yaradı. Mərkəzi hakimiyyətin zəifliyi adları şəkilən tayfa hərbiçilərinin siyasi çəkişmələrinə yol açdı. Gördüyümüz kimi, Übeydulla xan Qızılbaş Səfəvi dövlətində baş verən qarışıqlıqdan istifadə edərək müəyyən ərazilərə nəzarət etsələr də, ümumilikdə bu dövrdə Xorasan Səfəvilərin əlində olur. Şeybanilərin bu siyasi istiqamətdə fəaliyyəti uzun çəkməmiş, Übeydullah xanın 1540-cı ildə ölümü ilə taxt-tac uğrunda şahzadələr arasında gərgin mübariz başlamış, bununla da Xorasan uğrunda Səfəvilər ilə münaqişə unudulmuşdur.

*Nəticə.* Beləliklə, XVI əsrdə Səfəvi-Şeybani münasibətləri Xorasan uğrunda mübarizə zəminində formalaşdığını görürük. Ayrı-ayrılıqda iki böyük türk dövləti iqtisadi və ticarət cəhətdən əhəmiyyətli ərazi olan Xorasanı əldə saxlamaq istəyirdi. Müxtəlif dövrlərdə dövlətin siyasi cəhətdən qüdrətini nəzərə alaraq Xorasan münaqişəsi kəskinləşərək şiddətlənmiş və ya zəifləmişdir. Əlbəttə ki, türk sülalə nümayəndələrinin xüsusi rolunu da burada qeyd etməliyik. Hər hansı qüvvənin bu münaqişə zamanı qalibiyyətindən söhbət gedə bilməzdi. Qızılbaşların XVI əsr boyunca mübarizə aparması və sonda iqtisadi cəhətdən mühüm əhəmiyyət kəs b edən əraziyə tam yiyələnməsi əlbəttə mühüm nailiyyət idi. Şah İsmayılın dövründən başlayaraq özbəklərin kəskin müqaviməti ilə rastlaşan qızılbaş hökmdarlar Azərbaycan Səfəvilər dövlətinin idarə edilməsində əsaslı rol oynayan şamlı, təkəli və ustaclı tayfalarından, onların hərbi qüvvələrindən istifadə etmişdilər. Xorasan bəylərbəyiliyinə məhz adı çəkilən qızılbaş tayfalarından etibarlı şəxslər hakim təyin edilmişdirlər. XVI əsr boyu Səfəvilərin Şeybanilər ilə mübarizəsində bu tayfa başçıları və hərbi qüvvələrini unutmamalıyıq.

## ƏDƏBİYYAT

1. Ağayev R.Ə. Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri (XV-XVI əsrlər). Bakı, Kür, 2004, 151 s.
2. Azərbaycan tarixi (ən qədim zamanlardan XXI əsrin ilk onilliklərinə qədər). Dosent M.Q. Abdullayevin elmi redaktəsi ilə. Bakı, Bakı Universiteti nəşriyyatı, 2014, 391 s.
3.Azərbaycan tarixi üzrə qaynaqlar. Professor S.S.Əliyarlı və dosent Y.M.Mahmudovun redaktəsi ilə. Bakı, Azərbaycan Universiteti, 1989, 328 s.
4. Azərbaycan tarixi. 7 clilddə, III cild. Bakı, Elm, 1999, 584 s.
5. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci ilə qədər. Redaktor: Süleyman Əliyarlı. Bakı, Azərbaycan, 1996, 872 s.
6. Əfəndiyev O.A. Azərbaycan Səfəvilər dövləti. Bakı, Şərq-Qərb, 2007, 344 s.
7. Арапов Д.Ю. Из истории взаимоотношений Средней Азии и Ирана в конце века // Вестник Московского Университета. вып. 1, Москва, Московский Университет, 1969, с.68-81.
8. Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке. Баку, Элм, 1981, 237 с.

**AYSEL QARIBOVA**
*Phd, Lecturer of Baku State University*

## SAFAVİD-SHEYBANİDS RELATİONS IN THE FIRST HALF OF THE XVI CENTURY

In the 16th century, Safavid-Sheybanids relations were formed on the basis of the struggle for Khorasan. Khorasan was economically and commercially important. Both Turkic dynasties did not want to lose this important territory. At various times, the Khorasan conflict intensified and weakened. There could be no question of victory for either side in the conflict.

*Keywords:* Safavids, Sheibanids, XVI century, Central Asia, Khorasan.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 iyul 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2020-ci il.*
*Rəyçilər: t.ü.f.d. Bəymirzə Şabiyev, t.e.d. İsmayıl Məmmədov.*

**UOT 94(479.24)**

**MUSA RƏHİMOĞLU (QULİYEV)**
*AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru*
**Email:kuliyevm@yandex.ru**

# ABBASABAD QALASI ƏTRAFINDA GEDƏN DÖYÜŞLƏR. QALA NECƏ TƏHVİL VERİLDİ

*Məqalədə Rusiya imperiyası qoşunlarının Naxçıvan xanlığında yerləşən Abbasabad qalasını işğal etməsindən söhbət açılır.Müəllif yeni tapılmış arxiv sənədlərinin köməyi ilə bir çox ziddiyətli məsələlərə aydınlıq gətirir.Tarixi faktlara obyektiv yanaşan müəllif göstərir ki, Ehsan xan Naxçıvanı erməniləşdirməkdən xilas edib.Bunu Ehsan xanın diplomatiyasının uğuru hesab etmək olar.*

*Açar sözlər:* Naxçıvan, Abbasabad qalası, süvari, Ehsan xan, Rusiya, qraf İ.Paskeviç, Vənənd.

*Giriş.*1826-1828-ci illərdə baş verən müharibənin əsas hədəfinə çevrilən Abbasabad qalası haqqında rus şərqşünaslarının yazdıqlarından istifadə etmədən onunla bağlı problemi də həll etmək çətinləşir. Çünki Rusiya qoşunları Irəvan və Naxçıvan xanlıqlarını tutmazdan əvvəl Abbasabad qalasını hədəf kimi seçdilər. Sərdarabad, Irəvan, Üçmüəzzin və Abbasabad qalalarının üzərinə var qüvvələri ilə hücuma keçmişdilər. Irəvan qalasını mühasirədə saxlayan knyaz Paskeviç Naxçıvan üzərinə yürüşə əmr verdi. Yeri gəlmişkən deyək ki, Abbasabad qalası ətrafında gedən döyüşlər və qalanın təhvil verilməsi haqqında bir-birinə zidd olan fikirlər bu tarixi məsələni daha da çətinləşdirir. Doğrudanmı Abbasabad qalası elə-belə asanca Rusiya tərəfə verilib.

Naxçıvanın cənub-şərqində yerləşən Abbasabad qalası XVIII yüzilliyin ilk illərində tikilmişdi (13, s.77). Qaladan çox bir hərbi istehkamı xatırladan bu qala haqqında xeyli kitab yazılıb (11, s.131; 9, s.200; 4, s.61). Araşdırmalar göstərir ki, Paskeviçin komandanlıq etdiyi rus qoşunları Naxçıvana hücum edəndə 1826-1828-ci illər müharibəsinin ən qanlı döyüşü Naxçıvanın 25 km-də, Xok kəndində baş verib (6). Hətta, Abbas Mirzənin tarixçisi çox soyuqqanlıqla həmin döyüşləri doğru-dürüst qələmə alıb. Onun yazdığına görə, Şahtaxtı körpüsü ətrafında və Xok kəndində rus qoşunları çox təlafat verdilər. Müəllif göstərir ki, gecə kənddə əhali ilə rus qoşunları arasında əlbəyaxa döyüş başlandı. Və onun yazdığına görə, gürcü knyazı Eristovun başçılıq etdiyi qoşunlar iki gün Xokda döyüşəndən sonra Abbas Mirzənin qoşunları Araza tərəf geri çəkildi. Rus qoşunları Abbasabad qalasına Araz çayının sol sahili ilə getməyə başladılar (6).

Rus şərqşünası K.N.Smirnovun şəxsi fondundan Cəmil Quzanlının tapdığımız əsəri (ruscaya çevrilmiş) hadisələrin dəqiq təsviri cəhətindən çox əhəmiyyətlidir. O, döyüşən hər iki tərəfin səhvlərini və zəif cəhətlərini də açıb göstərir. Müharibəni dövrlərə bölərək təhlil edir (6). Paskeviçin özü isə qoşunların bir hissəsi ilə Naxçıvana tərəf yoluna davam etdi. Bu yürüş yay vaxtına təsadüf etdiyi üçün Naxçıvan ətrafındakı çöllərdə bolluca taxılın olduğunu da yazanlar var. Məsələn, Paskeviçin yaxın dostu knyaz Şerbatov öz kitabında yazır ki, Naxçıvanın ətrafındakı geniş düzənliklərdə taxıl yaxşı yetişmişdi. Paskeviç elan etdi ki, bir çərək döyülmüş dən üçün o, biçinçilərə kömək məqsədilə 1 manat gümüş pul verəcək (14, s.276).

Bəzən deyirlər ki, Paskeviçi hər yerdə ermənilər müşayiət ediblər. Ancaq həmin illərin rus xronikaçıları bunların əksəriyyətinin müsəlmanlar olduğunu yazıblar (7, s.440). Çünki zahirən rus qoşunları sadə əməkçi camaata dəymirdilər. Paskeviç belə əmr vermişdi. Hətta, zorakılıq edən rus əsgərini həmin andaca güllələməyi də qəti tapşırmışdı. Heç təsadüfi deyil ki, sonralar Abbas Mirzə rus diplomatı A.S.Qriboyedova demişdi: "Mən general Paskeviçin özünün ən təhlükəli silahını bizim müsəlmanlara göstərdiyi insan sevgisini və ədalətini hesab edirəm. Biz hamımız bilirik ki, o, özünü Irəvandan Naxçıvanadək köçəri tayfalara qarşı necə apardı, əsgərlər heç kimi incitmədilər və o, hamını dostcasına qəbul etdi. Özgə xalqla etimad qazanmağın bu yolu mənə də məlumdur..." (7, s.559). Knyaz Şerbatov daha sonra yazır: "Havanın temperaturu müsbət 43 dərəcə idi və rus əsgərlərindən 1000 nəfərədək xəstələnən vardı. Şəhərin özündə az adam qalmışdı. Əhalinin çox hissəsini Arazın o tayına köçürmüşdülər. Paskeviç əmr etdi ki, onların evlərini qorusunlar. Pulsuz heç nə almasınlar. Elə birinci gecə şəhər əhalisi ailəlikcə qayıdıb gəlməyə başladı..." (14, s.276).

İ.Paskeviç bilirdi ki, onu Abbasabad qalası ətrafında ciddi döyüş gözləyir. Elə buna görə də Naxçıvan yürüşünə başlayanda çara yazmışdı ki, mühasirə etmədən qalanı tutmaq olmaz. Həlledici döyüş üçün mənə çoxlu top mərmisi lazımdır ki, Naxçıvanı tutam (1, s.57). Bundan sonra Paskeviçin qoşun hissələri hərəkətə başlamışdı. Burada bir məsələyə toxunmağı vacib sayırıq. Çox vaxt yazırlar ki, ermənilər Paskeviçə kömək etməsəydilər Rusiya tərəfi qalib gəlməyəcəkdi və sair. Bizcə, ermənilərin fəaliyyəti bu məsələdə şişirdilir. Çünki o illərin xronikalarını və 1833-cü ildə rus diplomatı və şairi V.N. Qriqoryevin yazdığı kitabı oxuyanda aydın olur ki, ermənilərin döyüş qabiliyyətləri olmayıb. V.Qriqoryev qeyd edir ki, Naxçıvan Kəngərliləri çox cəsur və bacarıqlı döyüşçülərdir, ermənilər isə ticarətlə və sənətkarlıqla məşğuldurlar (8, s.39). Sadəcə, Qafqazda həmişə ara qarışanda onlar xəyanətkarlıqla məşğul olublar və qalib tərəfdən sonra həmişə öz paylarını istəyiblər.. Erməni mənşəli tədqiqatçılardan I.K.Yenikolopov isə sovet hakimiyyəti illərində yazdığı kitablarda erməniləri tərifləyib, guya ki, Rusiyanı qalib edən onlardır (10, s.63, 65). Amma yanlış fikirlərdir. Qayıdaq əvvəlki söhbətimizə. Naxçıvanda yerləşən Rusiya ordusunun hərbçisi N.Muravyov iki yüz kazakla Abbasabad qalasının ətrafında kəşfiyyat işləri aparırdı. Hətta, bu haqda A.S.Qriboyedov Muravyovun qayınanası P.N.Axverdovaya geniş məktub yazmışdı (10, s.74).

Abbasabad qalası ətrafında döyüşlər gedəndə artıq Talış xanlığından Naxçıvanadək Arazboyu ərazilər rusların əlində idi. Baxmayaraq ki, Cavanbulaqda rus qoşunları döyüşdə qələbə çalmışdılar, amma Abbasabad qalası təslim olmurdu. Ona görə də Paskeviç daha iri lüləli toplar gətirilməsi üçün əmr vermişdi. Bu haqda daha ətraflı məlumatlar Vasili Aleksandroviç Pottonun (1836-1912) yazdığı "Qafqaz müharibəsi ayrı-ayrı oçerklərdə, epizodlarda, əfsanə və bioqrafiyalarda" adlı beş- cildlik kitabda (Tiflis, 1885-1891) vardır. Potto rus ordusunun zabiti və hərbi yazıçısı olmuşdur. 1855-ci ildən 60-cı illərin ortalarınadək, sonralar isə 1887-ci ildən Qafqazda hərbi xidmətdə olmuşdur. 1899-cu ildən Qafqaz hərbi dairəsi yanında hərbi-tarixi şöbənin rəisi və "Kavkaz" hərbi muzeyinin direktoru olmuşdur. Onu da deyək ki, nəzərdən keçirdiyimiz sənədlərdə Rusiya qoşunlarının sayı dəqiq göstərilməyib. Rusiya bunu həmişə gizli saxlayıb. Məsələn, həmin illərin hərbi döyüşlərinin qeyd edildiyi bir jurnalda yazılıb ki, Naxçıvana hücum edən Paskeviçin komandanlığı altında olan hərbi qüvvələrin sayı aşağıdakı kimidir: 4800 nəfər piyada, 800 nəfər nizami süvari dəstəsi, 3000 nəfər qeyri-nizami süvari və onlara məxsus 42 top. General-leytenant B.D.Ilovayski Don kazaklarının atamanı idi. Cavanbulaq döyüşlərində Rusiyanı qalib edən onun polku oldu. Bu döyüşə görə ona brilyantlarla bəzədilmiş qızıl papiros qutusunu bağışladılar (5). Ilovayskinin qoşunları Abbasabad qalasını mühasirədə saxlayırdı. Bəs, bu zaman Abbasabad qalasının içərisində nələr baş verirdi? Yaxşı olar ki, elə həmin vaxtlarda döyüşlərdə iştirak edən və 1834-cü ildə bu haqda maraqlı bir kitab qələmə alan Platon Pavloviç Zubovun (1796-1857) yazdıqlarını təhlil edək. Platon Zubov general oğludur, özü 1812-ci il müharibəsinin iştirakçısı idi. O, həm şair, həm də yazıçı kimi şöhrət tapmışdı. O, Abbasabad qalasının içərisindəki əhvalatları təsvir edərək yazır: "... Qalanın komendantı Məmmədemin xan görür ki, Abbas Mirzə tərəfindən heç bir kömək göstərilmir, onda qərara alır ki, qalanı təhvil versin. Ancaq bunun üçün general Paskeviçdən 3 gün möhlət istəyir ki, fikrini bir daha götür-qoy etsin. General Paskeviç onun bu istəyinə etiraz edir. Və tələb edir ki, qeyri-şərtsiz tabe olsun. Əks halda, qalaya çox güclü hücum olacaq. Paskeviçin bu hədəsindən sonra qaladan qoşun bölüklərinin rəisləri onun yanına gəlib bildirdilər ki, qalanı təhvil verməyə hazırdırlar..." (12, s.56).

Platon Zubov 1836-cı ildə yazdığı digər bir kitabda ("Rus döyüşçülərinin 1800-1834-cü illərdə Qafqaz ölkələrində göstərdiyi qəhrəmanlıqlar") Abbasabad qalasında gedən döyüşləri geniş təsvir etmişdir. 23 səhifədə təsvir edilən bu döyüş səhnələri bir daha təsdiqləyir ki, Abbasabad qalasındakı qoşunlar əvvəlcə var gücləri ilə döyüşüblər. Amma sonradan qalanın daxilində olan qoşun birləşmələri arasında fikir ayrılığı yaranıb. Naxçıvanın Kəngərli süvariləri (rəisləri I Ehsan xan) döyüşmək istəmədiklərini bildiriblər. Və nəticədə rusların hücumundan ehtiyat edən qala komendantı, Fətəli şahın kürəkəni Məhəmmədemin xan qalanı təhvil vermək qərarına gəlib. Hərbi yazıçı həmin əsərin 135-ci səhifəsində qalanın təhvilini belə təsvir edir: "Şahın kürəkəni Məhəmmədemin xan qaladan çıxan qoşunun önündə idi və qalanın açarlarını gətirib təhvil verdi. Onun arxasınca yüzbaşılar və nüfuzlu şəxslər gəlirdilər..." (12, s.117-140). Yerindəcə deyək ki, hadisəni öz gözləri ilə görən Zubov yazmayıb ki, qapını I Ehsan xan açdı, açarları verdi və sair. Zubovun yazdıqları ermənilərə tərəf saxlayan Muravyovun və xüsusən Yenikolopovun fikirlərini

təsdiqləmir. Bəzi tədqiqatçılar unudurlar ki, farsdilli sənədlər də I Ehsan xanın olduqca cəsur hərbçi olduğundan xəbər verir. Cəsur döyüşçülər isə rütbəsindən asılı olmayaraq təslim olmurlar. Sadəcə, bu döyüşlər zamanı I Ehsan xan Naxçıvan xanlığının və naxçıvanlıların xilası naminə özünün qəti addımını atıb. Digər Azərbaycan xanlıqları kimi vəziyyətin çətinliyi ucbatından, torpaqları mənasız müharibələrdən azad etmək üçün bu addımı atmağa məcbur olub. 1795-ci ildən başlayaraq onun atası I Kalbalı xan Rusiya ilə diplomatik danışıqlar aparmışdı. Və I Ehsan xanın bu danışıqlardan xəbəri vardı. Çünki o, Kalbalı xanın sevimli oğlu olmaqdan savayı, həm də silahdaşı və məsləkdaşı idi. Böyük qardaşı Nəzərəli xan Abbas Mirzənin qoşununda döyüşürdü. O biri qardaşı Şeyxəli xan Ordubadda idi. Və sözsüz ki, kəngərlilərdən xəbərsiz I Ehsan xan bu addımı atmazdı. Qriboyedovun yazdığına görə Kərim Sultan da o vaxt sağ idi və Abbas Mirzənin ordusunda xidmət edirdi (7, s.560). Bu II Kərim Sultandır. I Kalbalı xanın hakimiyyəti illərində Naxçıvan xanlığının qoşun rəisi olmuşdu. Bax, I Ehsan xan bunlarsız heç nə edə bilməzdi. Əgər biz I Ehsan xanın general Paskeviçlə, yaxud polkovnik Abxazovla gizli yazışmalarının əslini tapa bilsəydik, çox yaxşı olardı. Onda həqiqət bütün ehtimalları yoxa çıxarar.

Araşdırmalar belə söyləməyə əsas verir ki, Rusiya generalı Paskeviçin göstərişi ilə I Ehsan xanla çox ciddi danışıqlar aparılıb. Əlbəttə, I Ehsan xanın Naxçıvan xanlığı ilə bağlı ciddi şərtləri olub. Və I Ehsan xan digər Azərbaycan xanlıqlarının da xilası haqqında Paskeviçdən razılıq alıb. Çünki bu ipucunu bir arxiv sənədi göstərir: "Pul tələbatı rədd edildiyi halda, Raskeviç Azərbaycan vilayətlərinin... həmişəlik Rusiyaya qatılmasını təklif edirdi..." (17).

General Paskeviç Azərbaycan xanları içərisində heç kimə I Ehsan xan kimi ehtiram bəsləməmişdir. Bu mənəvi yaxınlıq imkan yaradırdı ki, I Ehsan xan öz şərtlərini qəti şəkildə bildirsin. O cümlədən Naxçıvanın hakimiyyətinin ona tapşırılması məsələsini də. Bizcə, burada heç bir qəbahət yoxdur. Bu addım o zaman "xəyanət" adlanardı ki, Naxçıvan xanlığı müstəqil olaydı. Nəşr edilmiş "Naxçıvan xanlığı" (Naxçıvan-2009) kitabında çox haqlı olaraq yazılıb: "xəyanət" sözü XVII-XIX əsrin... Qarabağ tarixçilərinin qiyməti idi. Bizcə, bu fraza bəzi tədqiqatçılara da verilən cavabdır (2, s.72).

1828-ci il martın 6-da I Ehsan xanı Ordubaddan Abbasabad qalasına gətirdilər ki, Rusiya dövlətinə sədaqət andı içsin. Ona həmin gün Naxçıvanın naibliyi həvalə olundu (18). "Naib" ərəb sözüdür. Azərbaycan dilində əvəz edən, müavin, canişin valı deməkdir. Azərbaycanda xanlıqlar dövründə naiblər mahal hakimi vəzifəsini (yəni, general-qubernator) icra edirdilər. Artıq bu xanlıq titulu deyil. Əslində I Ehsan xanın naibliyi 6 oktyabr 1827-ci ildə Irəvanda rusların yaratdığı Müvəqqəti Vilayət Idarəsindəki üçlükdən asılı idi (10, s.100). Bunu bilərəkdən etmişdilər və hər şey martın 21-də aydınlığı ilə üzə çıxdı (15, s.272-273). Əlbəttə, bütün bunların hamısını I Ehsan xan əla anlayırdı. Amma Naxçıvanı erməniləşdirməkdən xilas etmək onun ən ümdə amalı idi. Bir çox arxiv sənədlərində fürsətdən istifadə edib Naxçıvana doluşan ermənilərin torpaq zəbt etmələrinə imkan verməməsi buna yaxşı sübutdur. Hətta, sonradan belə bir missiyanı onun oğlanları tam süvari generalı Ismayıl xan və general-mayor II Kalbalı xan davam etdirdilər. Kəngərlilər tarixən içdiyi anda sədaqətli olublar. Amma Rusiya imperiyası verdiyi vədlərə əməl etmədi və Paskeviçin də gücü çatmadı. Qərbi Avropa ölkələri ilə müharibə etmək istəməyən Rusiya öz siyasətində axırıncı nöqtə Abbasabadı qəbul etmişdi. Bütün oyunlar yalnız təzminatın başında idi.

Qafqaz canişinlərinin Naxçıvana ögey, bəzən qərəzli münasibəti I Ehsan xanı vadar etdi ki, könüllü ərizə ilə naiblikdən getsin. Bəlkə bu da bir uzaqgörənlik idi. Çünki I Ehsan xan naiblikdən azad olandan bir az sonra Rusiya çarı naibliyi ləğv elədi (3, s.89). I Ehsan xan çox sevdiyi Kəngərli süvarilərinin rəisi oldu (16, s.278). O, altı il bir daha Naxçıvan hərbiçilərinin əvvəlki döyüş ruhlarını qaytarmağa çalışırdı. Bu isə Qafqaz canişinlərini qorxuya salırdı. Ara vermədən çara donosçuluq edirdilər. Bütün bunlara baxmayaraq, I Ehsan xan Naxçıvanın xoş gələcəyi üçün əlindən gələni əsirgəmirdi. Yenə də Rusiya çarları I Ehsan xanla hesablaşırdılar. Naxçıvanı qədim türk yurdu kimi tanımağa məcbur idilər və I Ehsan xanın ölümündən 6 il əvvəl qondarma "Erməni vilayəti" fərmanlarını ləğv etdilər (8, s.195).

Nəticə. Məsələyə tam aydınlıq gətirmək üçün xeyli axtarışlar apardıq. Nəticədə aydın oldu ki, tədqiqatçıların bəziləri ifrat dərəcədə emosional hisslərin təsiri altında atılan qəti addımı az qala "xəyanət" kimi qələmə alıblar. Doğrudanmı belədir? Əgər belədirsə Naxçıvan xanlığının xilas edilməsi nəyə görə "xəyanət" adlandırılsın? Bir də ki, Azərbaycan xanlıqlarının Rusiya təbəəliyinə

keçməsi "xəyanət" adlanmırsa, böyük dövlətlərin müharibə meydanına çevrilən Naxçıvanın xilası üçün I Ehsan xanın atdığı diplomatik addım nəyə görə "xəyanət" adlandırılır və hər tərəfdən qılınclamaqda davam edənlər bu gün də tapılır. Abbasabad qalası ətrafında gedən döyüşlərlə bağlı olan arxiv sənədlərinin araşdırılması gösrtərdi ki, I Ehsan xanın məcburən atdığı qəti addım Naxçıvan xanlığını ermənləşdirmə siyasətindən xilas etmişdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixində Naxçıvan (tarixi oçerklər). Bakı:ADPU-nun mətbəəsi,1996, 144s.
2. Naxçıvan xanlığı. Naxçıvan: Əcəmi, 2009, 117s.
3. Naxçıvan Ensiklopediyası. İstanbul: Uniprint Basım San. və Tic.A.Ş., 2002, 594s.
4. Şükürov K. Türkmənçay - 1828, tarixi xronika. Bakı: Çaşıoğlu, 2006, 188s.
5. Военная энциклопедия. T.V. Петербург: Товарищество И.Сытина,1912, 320с.
6. Национальный Центр Манускриптов Грузии. Фонд К.Н.Смирнова. дело № 135. Гузанлы Джамиль. Русско-персидская война - 1827-28 гг.,машинопись, 39 с.
7. Грибоедов А.С. Сочинения. Москва: Художественная литература, 1988, 751 с.
8. Григорьев В.Н. Статистическое описание Нахичеванской провинции составленное В.Н.Григоревым. Санкт-Петербург: Типография Департамента Внешней Торговли, 1833, 263 с.
9. Евецкий О. Статическое описание Закавказского края в исходе XVIII в. И сравнение оного с ненешным. СПб: Типография Штаба отдельного корпуса Внутренней Стражи,1835, 306 с.
10. Ениколопов И.К. Грибоедов и Восток. Ереван: Айастан, 1974, 158 с.
11. Зубов П. Картина последней войны России с Персией. СПб: Типография К.Вингебера, 1834, 134 с.
12. Зубов П. Подвиги русских воинов в странах Кавказских с 1800-1834 годах. т.II. Санкт-Петербург: Книжное издание,1836, 269 с.
13. Корф Ф. Воспоминание о Персии 1834-1835. СПб: Типография Гуттенбергова,1838, 262 с.
14. Князь Щербатов. Генераль-фельдмаршаль Князь Паскевич его жизнь и деятельность. т. II. СПб: Типография Р.Голике,1890, 609с.
15. Полное собрание законов российской империи. Собр. второе, т. III, 1828, СПб:Типография отделения Собственной ЕГО ИМПЕРАТОРСКАГО ВЕЛИЧЕСТВА Канцелярия ,1830, 1595 с.
16. Список генерал-майорам по старшинству. По 1 февраля 1846 г.,СПб:Военная-походная канцелярия Е.И.В.,1846,с.256.
17. НАГ (Национальный Архив Грузии), ф. 11. архивное дело 11, Дело о заключении мира с Персиею в Туркменчае (12 феврал-20 август), на 142 листах.
18. НАГ, ф.2. опись 1, дело № 2041 (Эхсан хана) (21 август 1827-август 1831), на 44 листьях.

**MUSA GULIYEV**

## THE BATTLES AROUND THE ABBASABAD CARTLE. HOW WAS THE CASTLE SUVEDERED

The article has been devated invision of Abbasabad catle bu Russia. Which situated in Nakhchivan khanate. Ehsan khan has been claimed to be the responsible for surrender of Abbasabad castle so far. Based on nekly discovered archive documents and original sources author of article firstly has proved that such approach is deliberately. Objektive approach to historial sources diselose the reality of suvvender of Abbasabad castle. Ehsan khan didnt allow armenianzation and destroying of Nakhchivan. It can be supposed to be hist best success of his diplomacy.

*Keywords:* Nakhchivan, Abasabad castle, cavalier, Ehsan khan, Russia, graf I Pascevich, Vanand.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 09 yanvar 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2020-ci il.*
*Rəyçilər: Akedemik İsmayıl Hacıyev, t.e.d Qabil Əliyev.*

**UOT 94(479.24)**

**TELMAN MUSAYEV**
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*
**E-mail: telman.musaiev@mail.ru**

# XIX–XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ QARABAĞ BÖLGƏSİNDƏ PAMBIQ PARÇA TOXUCULUĞU

*Pambıq bitgisi iqtisadi əhəmiyyətinə görə əsrlər boyu Azərbaycan xalqının məişətində və təsərrüfat həyatında mühüm rol oynamışdır. XIX əsrin əvvəllərində rus işğalı nəticəsində Azərbaycanda, o cümlədən Qarabağ bölgəsində yaranmış mürəkkəb hərbi-siyasi vəziyyət şəraitində pambıqçılıqda başlanmış tənəzzül, XIX əsrin 90-cı illəri – XX əsrin əvvəllərində sürətli inkişafla əvəz olunmuşdu. Pambıqçılıqda müşahidə edilən tənəzzül və inkişaf pambıq parça istehsalında heç də həmişə uyğun əks olunmamışdır. Rusiya-İran müharibələrinin dağıdıcı təsiri ilə pambıqçılıqda başlanan tənəzzül pambıq parça istehsalında müəyyən bir inkişafla müşayət olunmuşdu. Lakin XIX əsrin 90-cı illərindən Rusiyanın pambıq parça istehsal edən fabriklərinin xammala artan təlabatı ilə Azərbaycanda, o cümlədən Qarabağ bölgəsində pambıqçılıqda müşahidə edilən sürətli yüksəliş parça istehsalının həcminin artmasına gətirib çıxarmamışdı. Avropa və Rusiyadan fabrik istehsalı olan keyfiyyətli və ucuz pambıq parça məmulatlarının bölgəyə kütləvi idxalı nəticəsində yerli pambıq parça istehsalı rəqabətə tab gətirməyərək XIX əsrin əvvəllərindən tədricən tənəzzülə uğramış, 60-cı illərdən isə tamamən sıradan çıxmışdır.*

*Açar sözlər:* Azərbaycan, Qarabağ, pambıq, pambıqçılıq, toxuculuq, pambıq parça, kustar sənət.

*Giriş.* Toxuculuq Azərbaycanda meydana gəlib inkişaf etmiş ən qədim sənət sahələrindən biridir. Ölkə ərazisinin bu sənət sahəsinin inkişafı üçün zəruri olan müxtəlif növ lifli bitkilərlə zənginliyi bu sənətin dərin kök salmasına və bütn bölgələrə yayılmasına təkan vermişdi. Lifli bitkilərdən olan pambıq bitkisi iqtisadi əhəmiyyətinə görə əsrlər boyu Azərbaycan xalqının məişətində və təsərrüfat həyatında mühüm rol oynamışdır. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ bölgəsi erkən orta əsrlərdən başlayaraq pambıq parça istehsalı mərkəzlərindən birinə çevrilmiş və özünəməxsus inkişaf yolu keçmişdir. Qarabağlı toxucu sənətkarlaırın bu sənət istehsalında yaratdığı zəngin ənənələr XIX-XX əsrin əvvəllərində də hifz edilib saxlanılmışdı. Azərbaycnının sənətkarlıq mərkəzlərindən biri kimi Şuşa şəhərində müxtəlif növ pambıq parça istehsalı xüsusilə mühüm iqtisadi əhəmiyyət kəsb etmişdi. Tədqiq olunan dövrdə Azərbaycanda, o cümlədən Qarabağ bölgəsində cərəyan etmiş hərbi-siyasi və iqtisadi proseslər pambıqçılığın inkişafında, eləcə də pambıq parça istehsalının həcmində, forma və xarakterində də dəyişikliklərin baş verməsinə təsir göstərmişdi.

*Azərbaycanda pambıq parça toxuculuğu tarixindən.* Pambıq bitkisinin Azərbaycana təxminən IV-VI əsrlərdən İran vasitəsilə Hindistandan gətirildiyi və ölkəmizin isti iqlimə malik bölgələrində yayılması ehtimal edilir [5, s.100]. Mingəçevirdə aparılmış arxeoloji qazıntılar zamanı əldə edilmiş pambıq kələfləri isə V-VIII əsrlərdə Azərbaycanda əhalisinin pambıqçılıqla artıq intensiv şəkildə məşğul olmasını təsdiq edir [9, s.74]. Alban tarixçisi, əslən qarabağlı olan M.Kalankatuklunun Kür sahilində yaşayan əhalinin xeyli hissəsinin pambıqçılıqla məşğul olması haqqında məlumatı [4, s.14-23] Qarabağ bölgəsində də pambıq becərildiyini və pambıq parça toxuculuğunun inkişaf etdiyini deməyə əsas verir.

Azərbaycanda pambığın daha çox becərilməsi nəticəsində X əsrə qədər toxuculuqda xammal kimi istifadə olunan kətan, tədricən pambıq tərəfindən sıxışdırılaraq öz əhəmiyyətini itirmiş [34, s.193], parça toxuculuğunun əsas xammallarından birinə çevrilmiş və daha çox bu sənət sahəsinə xidmət edərək toxuculuq sənətinin inkişaf etdiyi mərkəzlərin ətrafında becərilmişdi [15, s.140].

Orta əsrlərin sonrakı dövrlərində daxildə və xarici ölkələrdə pambıqdan toxunmuş parçalara artan təlabat Azərbaycanın digər bölgələrində olduğu kimi, Qarabağ bölgəsində də pambıq sahələrinin daha da genişlənməsinə səbəb olmuşdu. XVI əsrin ikinci yarısında Səfəvilər dövlətində

səfərdə olmuş ingilis səyyahı L.Çepmen Azərbaycanda çoxlu pambıq palnatasiyalarına rast gəldiyi və yüksək keyfiyyətli pambıq becərildiyi haqqında məlumat vermişdir [13, s.248]. Alman səyyahı Adam Oleari də XVII əsrin 30-cu illərində Azərbaycanda olmuş, bölgələrdə, həmçinin Qarabağda, Araz sahili ərazilərdə pambıq becərildiyi, külli miqdarda pambıq parça istehsal olunduğu, pambıqçılığın və pambıq parça istehsalının əhalinin iqtisadi həyatında mühüm yer tutduğu haqqında qiymətli məlumatlar vermişdir [29, s.738, 790].

XVII əsrdə Azərbaycanın digər bölgələri ilə yanaşı Qarabağ da ən çox pambıq məhsulu götürülən bölgələrdən idi və əhalnin bir hissəsi pambığın hesabına dolanırdı [15, s.140]. Lakin fasilələrlə 100 ilə qədər davam etmiş Osmanlı-Səfəvi müharibələri, dağıntı və əhalinin kütləvi köçləri Qarabağ bölgəsinin iqtisadi həyatına, o cümlədən pambıqçılığa da böyük zərbə vurmuşdu. Bunu XVIII əsrin birinci yarısınadək Qarabağ bölgəsində pambıqçılığın vəziyyətinə aid ilk sistemli mənbə olan "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"nin tədqiqi aydın gösətrir. Mənbədə cəmləşmiş statistik məlumatlarla tanışlıq mürəkkəb siyasi-iqtisadi vəziyyət şəraitində belə Qarabağ bölgəsinin XVIII əsrin əvvəllərində pambıqçılığın əsas mərkəzlərindən biri olaraq qaldığını və bölgənin 19 nahiyəsindən 8-də əhalinin pambıqçılıqla məşğul olduğunu göstərir [2, s.171-193, 277-436, 472-542]. Mənbədə verilmiş məlumatlar əsasında apardığımız hesablamalardan aydın olur ki, türk vergi orqanları 1727-ci ildə "pambıq üşürü" adı ilə bölgənin 76 kəndindən 222480 ağça həcmində vergi toplanmış [2, s.25], toplanan pambığın ümumi həcmi isə 7416 batman və ya 2472 pud olmuşdur [2, s.171-193, 277-436, 472-542]. "Müfəssəl dəftər"dən aydın olur ki, Osmanlı işğalı dövründə Qarabağ bölgəsində pambıq becərilməsi Keştək, Bərdə və Sir nahiyələrində geniş yayılmışdı. Təkcə Bərdə nahiyəsinin 24 kəndindən 1727-ci ildə 56400 ağca "pambıq üşrü" toplanmışdı. Mənbənin təhlili göstərir ki, bölgənin əsas pambıqçılıq mərkəzi Kəştək nahiyəsi idi və nahiyənin əhali yaşayan cəmi 7 kəndindən 6-da əhali pambıqçılıqla məşğul olurdu. Nahiyənin təkcə Seyid Sultan kəndində 7 nəfər vergi ödəyicisi qeydə alınmışdı və 1727-ci ildə türk vergi məmurları bu kənddən 36000 ağça "pambıq üşrü" toplamışdılar. Bu fakt bölgənin bəzi kəndlərində pambıqçılığın əhalinin əsas məşğuliyyət sahəsi olduğunu göstərir [2, s.374-380]. "Müfəssəl dəftər"də pambıq parça istehsalı haqqında məlumat verilməsə də bu bölgədə pambıq parça toxuculuğunun olamadığı mənasına gəlməməlidir. Belə ki, istər osmanlı işğalı ərəfəsində, istərsə də ondan sonrakı dövrdə Qarabağ bölgəsində əhalinin pambıq toxuculuğu ilə məşğul olduğu haqqında faktiki materiallara rast gəlinir.

*Qarabağ bölgəsində pambıqçılıq və pambıq parça toxuculuğu.* Siyasi vəziyyətin mürəkkəbliyinə baxmayaraq Qarabağ bölgəsi xanlıqlar dövründə də Azərbaycanın mühüm pambıqçılıq və pambıq parça toxuculuğu mərkəzlərindən biri idi. Lakin təəssüflə qeyd etmək lazım gəlir ki, yerli mənbələrdə bu dövrə aid məlumatlar çox məhdududr.

Qarabağ bölgəsində pambıqçılıq və pambıq parça istehsalının vəziyyəti haqqında ətraflı məlumatlara XIX əsrin əvvəllərindən başlayaraq meydana çıxan rus mənbələrində rast gəlinir. Bu məlumatlardan aydın olur ki, xanlıqlar dövründə tarixən formalaşmış süni suvarma sistemi və münbit torpaqların bolluğu burada pambığın daha geniş sahələrdə becərilməsi üçün əlverişli şərait yaradırdı. XIX əsrin 30-cu illərinin əvvəllərinə aid mənbənin məlumatına görə bu dövrdə bölgədə hər il orta hesabla 550 çətvər (və yaxud 5225 pud) pambıq çiyidi əkilirdi və 1100 çətvər (və yaxud 10450 pud) xam pambıq məhsulu yığılırdı. Statistik məlumatlar göstərir ki, 1727-ci ildə Qarabağ bölgəsində 2472 pud pambıq istehsal edildiyi halda, rus müstəmləkə rejiminin bərqərar olduğu dövrdə onun həcmi bir qədər artaraq 3200 puda yüksəlmişdi və Qarabağ əyaləti pambıq istehsalına görə Şirvan əyalətindən (3750 pud) sonra Azərbaycanın ikinci mühüm pambıqçılıq mərkəzi idi [27, s.284]. Əldə olan məlumatların təhlili XIX əsrin əvvəllərində Qarabağ bölgəsində istehsal edilən pambığın əsas hissəsinin yerli sənətkarlar tərəfindən parça istehsalında istifadə olunuduğunu söyləmək olar. Pambıq parça toxuculuğu ilə həm kəndlərdə, həm də bölgənin əsas sənətkarlıq mərkəzi olan Şuşa şəhəriundə məşğul olunurdu. Digər Azərbaycan xanlıqlarından fərqli olaraq Qarabağ xanlığında pambıq parçaların istehsalı daha üstün mövqeyə malik idi. Bu dövrdə Şuşa şəhəri Azərbaycanın əsas pambıq parça istehsal edilən şəhərlərindən biri idi və burada daha çox bəzzazlıq sənəti yaılmışdı [1, s.280]. Mənbələrin birində xüsusi qeyd olunurdu ki, Rusiyada kətan istehsalı kimi, burada da bez istehsalı adi və kütləvi bir iş idi [27, s.118], burada bütün sadə adamlar özlərinin becərdikləri pambıqdan öz ailə üzvlərinin əli ilə toxunmuş paltar geyirlər [28, s.375]. Lakin bu heç də digər pambıq parça növlərinin

istehsal edilmədiyinə dəlalət etmir. Çünki bez parçalar pambıq parçalrın ancaq bir növü olub digər pambıq parça növləri üçün bir növ xammal rolunu oynayırdı. Bez parçalar əsasında hazırlanan pambıq parçalara misal olaraq qədək, basma, qələmkar, burmet və başqalarını göstərmək olar [7, s.88-89]. Bu fikri həm də Şuşa şəhərində yalnız bez parçaların boyanması ilə məşğul olan 5 nəfər boyaqçının fəaliyyət göstərməsi də təsdiq edir [30, s.5-16]. XVIII əsrin sonlarında Şuşada və onun ətrafında yerləşən yaşayış məntəqələrində pambıq parça istehsal edən 1000-dək dəzgah fəaliyyət göstərirdi. Burada böyük həcmdə istehsal edilən keyfiyyətli və müxtəlif çeşidli pambıq parça məmulatları yerli əhalinin tələbatını ödəməklə yanaşı xaricə – Rusiya və İrana da ixrac edilirdi [11, s. 123].

Öyrənilən dövrdə toxuculuq müəyyən qədər ev sənəti xarakteri daşıyırdı və bu barədə xeyli məlumata rast gəlmək mümkündür. Belə məlimatlardan birində göstərilir ki, "bütün İranda olduğu kimi, bizim müsəlman vilayətlərində də ipək və pambıq parçalar fabrikdə deyil, daha çox şəhər əhalisi tərəfindən evlərdə istehsal edilir" [16, s.244].

Azərbaycanın başqa toxuculuq mərkəzlərində olduğu kimi, Qarabağda da pambıq parçanın toxunması bu məqsədlə hazırlanmış mütəhərrik quruluşa, yəni təpkən vasitəsilə hərəkət gətirilən nirə-şana sisteminə malik xüsusi toxucu dəzgahlarda həyata keçirilirdi [6, s.281]. Bu dəzgahların bəzilərində pambıq parçalar ədədi, bəzilərində isə arşınnüma qaydada toxunurdu. XIX əsrin 30-cu illərinə aid məlumatdan aydın olur ki, Şuşa şəhrinin bez karxanalaırnda işlədilən toxucu dəzgahlarında pambıq parçalar daha çox ədədi qaydada istehsal edilirdi [27, s.312].

XIX əsrə aid bəzi mənbələrdə Azərbasycanda toxuculuqda istifadə edilən əmək alətləri haqqında da məlumatlar verilir. Bu dövrün tədqiqatçılarından O. Markqraf yerli toxucuların istifadə etdikləri dəzgah və alətləri kobud və yöndəmsiz dəzgah və alətlər kimi xarakterizə edərək, onlarla məhsul istehsal etməyin sənətkarlardan böyük fiziki güc, zəngin təcrübə və vərdişlər tələb etdiyini göstərirdi. Bununla yanaşı o, yerli sənətkarların toxuduğu parçaların öz gözəlliklərinə görə rus kəndlilərinin daha təkmil dəzgahlarda toxuduqları oxşar məhsullardan daha üstün olduğunu xüsusi qeyd etmişdir [25, s.31-33]. O. Markqrafın bu fikrlərini Qarabağ bölgəsində istifadə edilən toxucu dəzgahlarına da aid etmək olar.

Tədqiq olunan dövrdə toxuculuğun inkişaf səviyyəsini müəyyənləşdirmək üçün istehsal olunan parçaların növlərinin, onların istehsal texnologiyasının müəyyənləşdirilməsi də mühüm əhəmiyyət kəsb edir. Qarabağ bölgəsində pambıq parçalar arasında ədədi qaydada və ağ rəngdə toxunan bez parçalar daha kütləvi xarakter almışdı və bez parça istehsalının əsas mərkəzi Şuşa şəhərində cəmləşmiş toxucu karxanaları idi. Ağ rəngə boyanmış bez parçaların müxtəlif rənglərə boyanması ilə yeni parça növləri əldə edilirdi. Qırmızı rəngə boyanmış bez "şilə", göy rəngə boyanmış bez isə "qədək" adlanırdı. Qaba bezi mavi rəngə boyamaqla möhkəm və dözümlü pambıq parça olan "codana" alınırdı [6, s.28-282]. Bez parçalar əsasında hazırlanan pambıq parçalara basma, qələmkar, burmet və başqaları da aid idi [7, s.88-89].

XIX-XX əsrin əvvəllərində Azərbaycanda zolaqlı və damalı parça istehsalı da geniş yayılımışdı. Bezin əriş və arğacı bəzən müxtəlif rənglərə boyanaraq zolaqlı ("təfsilə"), yaxud damalı ("çadraşan") olmaqla müxtəlif çeşiddə parça toxunurdu. Qeyd etmək lazımdır ki, Azərbaycanda, xüsusilə zolaqlı paraçaların toxunması ən azı monqol işğalı dövründən məlumdur və mənbələrdə daha çox "alaca" adı ilə təqdim edilir [15, s.140]. Belə parçaların həm pambıqdan, həm pambıq və ipək qarışığından, həm də ipəkdən toxunması haqqında məlumatlar var. Belə ki, XIX əsrə aid bir mənbədə qarışıq xammaldan toxunmuş zolaqlı parça "şam alaca", yalnız ipəkdən hazırlanan isə "ipəkçi" adlandırılırdı [10, s.333].

Azərbaycanın digər bölgələrində olduğu kimi, Qarabağ bölgəsində də pambıqdan çit parçalar toxunurdu. Bu növ parçaların istehsalı ilə məşğul olan sənətkarları "basma naxışçılar" adlandırırdılar. Onlar xammal kimi nazik toxunuşlu bez parçadan istifadə edirdilər. Digər pambıq parçalardan fərqli olaraq çit parçaların ortasına və kənarlarına həndəsi və nəbati naxışlar vurulurdu. Naxışların vurulması üçün taxdadan hazırlanmış və üzərinə qərənfil, lalə, yarpaq, zambaq kimi nəbati, habelə, üçbucaq, dördbucaq, dairə, paxlava kimi həndəsi naxışlar həkk olunmuş qəliblərdən istifadə olunurdu. Bu naxışlarla bəzədilmiş qəliblərin əvvəlcədən hazırlanmış rənglərə batırılaraq bez parçanın üzərinə basılması ilə bəzəkli çit parçalar istehsal edilirdi [8, s.115].

Bədii parçalardan olan qələmkar parçalar da bez parçalar əsasında istehsal edilirdi. Bu parçalar incə toxunuşlu bez üzərində əl ilə həndəsi və nəbati naxışlar çəkmələ istehsal edilirdi. Bəzi hallarda qələmkar parçaların haşiyələrində Qurandan və Şərq şairlərinin əsərlərindən ibrətamiz kəlamlar da yazılırdı. Bəzi tədqiqatçılar qələmkarlıqla məşğul olan bu rəssam-sənətkarların yaradıcılığına orta əsr miniatür sənətinin və xalçaçılığın güclü təsiri olduğu haqında fiki irəli sürürlər [8, s.115; 6, s.284]. Bu üsulla istehsal olunmuş parçalardan ən çox pərdə, süfrə, dəsmal və sairə ipək mənulatları hazırlamaq üçün istifadə edilirdi. İstehsalı kütləvi xarakter daşıyan digər pambıq parçalardan fərqli olaraq qələmkar parçalar məhdud miqdarda və daha çox sifarişlə istehsal edilirdilər.

Mənbələrin təhlilindən aydın olur ki, Azərbaycanın digər toxuculuq mərkəzlərində olduğu kimi XVIII əsrin sonlarında Qarabağ bölgəsində də kənd təsərrüfatı və sənətkarlıq istehsalında müşahidə edilən az-çox inkişaf Ağa Məhəmməd şah Qacarın hücumları, daha sonra isə XIX əsrin əvvəllərində baş vermiş Rusiya-İran müharibələrinin dağıdıcı təsiri ilə pambıqçılıq və pambıq parça istehsalında da uzun sürən tənəzzüllə əvəz olunmuşdu. Yuxarıda qeyd edildiyi kimi, XVIII əsrin sonlarında Şuşada və onun ətrafında pambıq parça istehsal edən 1000 toxucu dəzgahı fəaliyyət göstərdiyi halda, Qarabağ xanlığı ləğv edildikdən bir neçə il sonra onların sayı 80-ə enmişdi [27, s.312]. Hərbi əməliyyatlar pambıq parçaların təkcə kəmiyyətinə deyil, çeşidlərinə və keyfiyyətinə də təsir göstərmişdi. Bu dövrdə pambıq parçalardan yalnız bez toxunurdu və pambıq parça toxucuları, hətta yerli tələbatı belə ödəmək iqtidarında deyildilər. Belə ki, bu dövrdə 80 dəzgahda ildə uzunu 10 xan arşını, eni 7 verşok (1 verşok – 4,45 sm) olan sadəcə 8000 ədəd bez parça toxunurdu. Bu məlumatı verən mənbə istehsal olunan bez parçalarının dəyəri haqqında da məlumat verir. Onlar gümüş pulla 80 qəpik - 1 rubl arası, pambıq iplik isə gümüş pulla 20-30 qəpiyə satılırdı [27, s.312]. Mənbənin məlumatına görə Şuşa şəhərində 28 pambıq parça toxuyan müəssisə fəaliyyət gösətrirdi [27, s.311]. Əslində pambıq parça toxuyan müəssisələr say etibarı ilə yalnız ipək parça istehsal edən müəssisələrdən (42) geri qalırdı [27, s.312]. Bununla belə, mənbədə istər pambıq, istərsə də ipək parça toxuyan sənətkarlaırn sayı haqqında verilən məlumatların real vəziyyəti əks etdirdiyini demək olamaz. Belə ki, XIX əsrin ilk onillilyində Qarabağ ərazisində baş vermiş hərbi əməliyyatlar sənət istehsalının digər sahələri kimi, parça istehsalının da vəziyyətinə ağır təsir göstərmişdi. Bölgəni işğal etmiş ruslar XIX əsrin ilk onilliyində Şuşa şəhərində ipək parça istehsal edən 500 toxucu dəzgahın fəaliyyət göstərdiyini qeyd etmişlər [11, sənəd 95]. Lakin işğal başa çatdıqdan və Qarabağ xanlığı ləğv edildikdən sonra şəhərdə fəaliyyət göstərən cəmi 132 dəzgah qalmışdı [27, s.312]. Heç şübhəsiz ki, eyni vəziyyət pambıq parça istehsalı üçün də xarakterik olmuş, müharibələr istər pambıq, istərsə də ipək parça toxuculuğuna ağır zərbə vurmuşdur.

Mənbələrin verdikləri məlumatlardan aydın olur ki, pambıq parça istehsalı yalnız Şuşa şəhərində deyil, həm də xammalın bol olduğu bütün kəndlərdə də geniş yayılmışdı. Mənbədə gösətrilir ki, bölgədə, təkcə bez toxuculuğu ilə 1200 nəfərdən çox toxucu məşğul idi. [27, s.299]. Şəhər sənətkarlarından fərqli olaraq, başlıca məqsədləri özlərinin məişət və geyim əşyalarına tələbatlarını ödəmək olan kənd sənətkarları əmtəə-pul münasibətlərinin inkişafı ilə əlaqədar istehsal etdikləri məhsulun xeyli hissəsini bazara çıxarmağa da başlamışdılar.

Rusiya hökuməti Cənubi Qafqaz pambığının rus pambıq parça istehsal edən sənayesi üçün əhəmiyyətini nəzərə alaraq XIX əsrin 30-cu illərin ortalarından bu qiymətli bitkinin inkişafı üçün tədbirlər görməyə, rus sənayeçilərini Cənubi Qafqazda, o cümlədən Azərbaycanda pambıqçılığın inkişafına maraqlandırmağa, xarici pambıq sortlarının – uzun lifli Misir, Braziliya, Siciliya, Şimali Amerika sortlarının Cənuibi Qafqazda, o cümlədən Azərbaycanda yaymaq üçün təcrübədən keçirməyə başlamışdı [40, s.38]. İlk təcrübələr Azərbaycanın digər pambıqçılıq mərkəzlərində olduğu kimi, Qarabağ bölgəsində də uğursuz olmuşdu. Belə ki, Şuşa və Cavanşir qəzalarında Siciliya sortunun tətbiqi uğursuzluğa düçar olmuşdu [12, sənəd 154]. Bu proses XIX əsrin 40-cı illərinə qədər davam etmiş, yalnız uzun lifli Misir pambıq sortunun Azərbaycanda geniş yayılması müəyyən uğurlara səbəb olmuşdu. Xüsusilə Kür sahili əkin sahələrində bu sort böyük uğurla əkilirdi [42, s.102]. Əldə edilən uğurlar pambıqçılığın inkişafına marağı daha da artırmışdı. Şuşa qəzasından təmizlənmiş pambıq Cənubi Qafqazda istehsal edilmiş kənd təsərrüfatı və sənaye istehsalı nümunələrinin 1857-ci ildə təşkil edilmiş sərgisində nümayiş edilmiş və yüksək qiymətləndirilmişdi [42, 102].

*Pambıqçılığın və pambıq parça toxuculuğunun tənəzzülü, səbəbləri.* XIX əsrin 40-50-ci illərində xarici sortaların tətbiqinin uğursuzluqla nəticələnməsindən sonra Azərbaycanda, o cümlədən Qarabağ bölgəsində pambıqçılığın tənəzzülü müşahidə olunurdu və pambıq getdikcə daha məhdud ölçüdə əkilirdi. Belə ki, 1845-ci ildə Qarabağ qəzasında cəmi 450 pud pambıq səpilmişdi. Müqayisə üçün göstərək ki, əsas pambıqçılıq mərkəzlərindən olan Şirvanda da həmin ildə 490 pud pambıq əkilmişdi [42, s.103]. XIX əsrin 50-ci illərin birinci yarısında isə bölgədə pambıq səpini daha çox – 15 dəfə geriləyərək cəmi 30 pud təşkil etmişdi. Əkisinə, Şirvan bölgəsində pambığın əkin sahəsi əhəmiyyətli miqyasda artaraq 1340 puda şatmışdı [42, s.103].

Pambıq bitkisinin Rusiya pambıq parça sənayesi üçün mühüm əhəmiyyət kəsb etməsinə baxmayaraq yetişdirilməsindəki gerilənmənin bir sıra səbəbləri var idi. Azərbaycanın Rusiya tərəfindən işğalından sonrakı dövrlərdə əhalinin artımı buğda, düyü, qarğıdalı və digər ərzaq məhsullarına tələbatı kəskin artırmışdı. Bu isə həmin məhsulların qiymətlərinin qalxmasına səbəb olmuş və pambıqçılığın iqtisadi cəhtədən səmərəliliyini aşağı salmışdı. "Qafqaz" qəzəti XIX əsrin 50-ci illərindəki pambıqçılığın səmərəliliyi haqqında belə yazırdı: "buğdanın xalvarı (30 pudu) yerində 40 rubla qədər çatırdı və pambıq becərilməsi ən kiçik fayda belə kəsb etmirdi" [28, s.376]. Digər tərəfdən, pambıq əkini üçün yararlı torpaq sahələrinin azlığı və su qıtlığı da pambıqçılığı inkişafdan saxlayırdı. "Qafqaz" qəzeti 1862-ci ildə Kür və Araz çaylarında sululuğun azalması nəticəsində bölgənin bu çayların hövzəsinə yaxın pambıq əkilən sahələrinin susluqdan əziyyət çəkdiyini yazırdı [28, s.376].

Pambıqçılıqda höküm sürən tənəzzül pambıq parça toxuculuğnun da geriləməsinə səbəb olmuşdu. Statistik məlumatların azlığından yalnız Şuşa şəhərində ümumi toxucu sayına diqqət yetirdikdə XIX əsrin 40-cı illrəindən başlayaraq Şuşa şəhərində toxucu sayının kəskin azalmasını görmək olar. 1848-ci ildə Şuşa şəhərində 51 toxucu fəaliyyət göstərirdisə, növbəti 1849-cu ildə bu rəqəm 24-ə enmişdi [41, s.55]. 1850-ci ildə "Qafqaz" qəzeti Şuşa qəzasında cəmi 27000 rubl həcmində bez istehsal edildiyini yazırdı [39, s.305]. 1860-cı ildə isə şəhərdə artıq bir nəfər də olsun toxucu qeydə alınmamışdı [41, s.55]. Beləliklə, Şuşa şəhərində bir zamanlar inkişaf etmiş pambıq parça istehsalı XIX əsrin 40-cı illərindən başlayaraq zəifləməyə başlamaış, 60-cı illərində isə tamamilə tənəzzülə uğramışdı. Bu dövrdə Qarabağ bölgəsində pambıq parça istehsalının tənəzzülə uğramasında pambıq xammal qıtlığı ilə yanaşı ucuz, keyfiyyətli rus və xarici fabrik pambıq parçalarının geniş yayılmağa başlanmasının rolu da böyük olmuşdur. Qeyd etmək lazımdır ki, pambıq parça toxuculuğundakı bu tənəzzül təkcə Qarabağ bölgəsinə xas olmayıb ümumazərbaycan, hətta ümumqafqaz səciyyəsi daşımışdı. Qafqaz Kustar Komitəsinin XX əsrin əvvəllərinə aid hesabatlarının birində bu məsələyə toxunularaq göstərilirdi ki, vaxtilə Qafqazda xeyli inkişaf etmiş pambıq parça, xüsusilə də basma və qələmkar parça istehsalı 25-30 ildir ki, tənəzzülə uğramışdır. Hesabat müəllifi bunun səbəbini yerli sənətkarların istehsal etdikləri pambıq parça məmulatlarının xaricdən gətirilən eyni növ məmulatlarla rəqabətə tab gətirə bilməməsində görürdü [32, s.32]. Şuşa şəhərində karxana toxuculuğunun tənəzzülünün digər səbəbi XIX əsrin 60-cı illərində Azərbaycanın digər şəhərlərində olduğu kimi müəyyən səviyyədə kapitalist müəssisələrinin meydana çıxması idi. Ucuz və keyfiyyətli xarici məhsullaırn daxili bazara nüfuz etməsi, bu sahədə çalışan sənətkarları daha sabit əməkhaqqı vəd edən yeni açılmış müəssilərdə və fabriklərdə işə düzəlməyə həvəsləndirirdi. XIX əsrin 60-cı illərində Şuşanın təkcə ipəksarma müəssisələrinin sayı sürətlə artaraq 1865-ci ildə 500-ə çatmışdı. Bu ipəksarma müəssisələrdə çalışan fəhlələrin xeyli hissəsinin əvvəllər parça toxucusu olduğunu və öz peşələrindən imtina edərək muzdlu fəhlələrə çevrildiyini təxmin etmək olar. Bu proses XIX əsrin ikinci yarısında Azərbaycanın digər toxuculuq mərkəzləri üçün də xarakterik olmuşdur. Məsələn, əgər 1804-cü ildə Gəncə şəhərində karxana şəraitində pambıq parça toxuyan 30 dəzgah var idisə [7, s.57], 1859-cu ildə burada bir dənə də olsun toxucu karxanası qeydə alınmamışdı [41, s.55]. Buna baxmayaraq şəhər əhalisi pambıq parça toxuculuğundan heç də tam imtina etməmişdi və ev peşəsi səviyyəsində, əsasən öz tələbatını ödəmək üçün digər ev peşələri ilə yanaşı pambıq parça toxuculuğu ilə də məşğul olurdu.

Göründüyü kimi, XIX əsrin 60-cı illərindən başlayaraq Qarabağ bölgəsində pambıq parça toxuculuğunun xarakterində və coğrafiyasında dəyişiklik baş vermiş, bu sahə daha çox ev peşəsi səciyyəsi daşımaqla daha çox kənd yerlərində yaılmışdı. Azərbaycanın digər bölgələrində olduğu

kimi, Qarabağ bölgəsində də kənd əhalisinin böyük hissəsi ev peşəsinin müxtəlif sahələri ilə, o cümlədən pambıq parça toxuculuğu ilə hələ də məşğul olurdu. Tədqiq olunan dövrdə kənd yerlərində mövcud olan şərtlər digər sənət sahələri ilə yanaşı pambıq parça toxuculuğunu da stimullaşdırırdı. Bu şərtlərin başında kəndlərin əksəriyyətində az miqdarda olsa da pambığın becərilməsi və xammalın mövcudluğu dururdu. Kəndli istehsal etdiyi məhsulun bir hissəsini satdıqdan sonra onun digər hissəsini özündə saxlayaraq əkin-biçin işlərinin olmadığı qış aylarında öz tələbatını ödəmək üçün pambıq parça toxumaq üçün istifadə edirdi. Digər tərəfdən, xüsusilə kənd yerlərində qadınların simasında işçi qüvvəsinin bolluğu əyirmə və toxuculuq sənətilərinin inkişafına təkan verirdi. Cənubi Qafqazda sənətkarlığın vəziyyətini tədqiq etmiş S.A.Yegizarov bu haqda yazaraq göstərirdi ki, “ev qayğılarından başqa digər məşğuliyyəti olmayan qadınlar bütün bütün sərbəst vaxtlarını yun, pambıq və ipək əyrilməsinə sərf edir, sonra isə pambıq parça toxuyurlar” [17, s.183]. Kəndlərin böyük qismini mərkəzlə birləşdirən yolların olmaması və yaxud bərbadlığı kəndliləri fabrik məhsullaırını almaq imkanından məhrum edir və onları zəruri tələbat məhsullarına olan ehtiyaclarını ödəmək üçün bu məhsulları ev şəraitində istehsalı ilə məşğul olmaq məcburiyyətində qoyurdu.

XIX əsri 60-70-ci illərində bütün Azərbaycanda olduğu kimi, Qarabağ bölgəsində də pambıq məhdud miqdarda istehsal edilirdi. “Qafqaz” qəzeti 1862-ci ildə yazırdı ki, “Kürün sağ sahili boyu ərazilər pambıq bitgisi üçün daha əlverişlidir və buna görə də Cavanşir və Kəbirli vadiləri, Zəngəzur və Vərənd sahələrininm düzənlikləri quberniyanın əsas pambıqçılıq mərkəzlərini təşkil edə bilər, lakin burada pambıqçılığn inkişafı xeyli məhduddur...pambıq, Şuşa qəzasında daha əhəmiyyətli həcimdə əkilirdi” [28, s.375]. Quberniyada hər 100 təsərrüfatdan yalnız 2-3-də pambıq əkilirdi ki, bunun nəticəsində də pambıq parça istehsalçıları özlərinin xammala olan təlbatını ödəmək üçün kənar yerlərdən pambıq almağa məcbur olurdular [28, s.375].

Doğrudur, Avropanın xam pambıqla əsas təminatçısı olan ABŞ-da 1861-1865-ci illərdə vətəndaş müharibəsi nəticəsində dünyada, o cümlədən Rusiyada “pambıq aclığı”nın yaranması Azərbaycanda pambıqçılığın inkaşafına müvəqqəti də olsa təkan vermişdi. Müharibə dünyada, o cümlədən Azərbaycanda pambığın qiymətinin kəskin qalxmasına səbəb olmuşdu. Belə ki, pambıq qıtlığı nəticəsində 1862-ci ildə Azərbaycanda pambığın 1 pudunun qiyməti 3 rubldan 22-23 rubla yüksəlmişdi [33, s.10]. Əvvəllər ancaq ölkə daxilində istifadə olunan Azərbaycan pambığı artıq Avropa bazarlarında ticarət məhsuluna çevrilmişdi. Bu xammala tələbatın kəskin artması XIX əsrin 60-cı illərində rus ticarət-sənaye dairələrinin diqqətini Azərbaycana yönəltdi və onların da iştirakı ilə Azərbaycanda pambıq istehsalının inkişafına təkan verdi. Pambıq əkinlərinin genişləndirlməsində, daha məhsuldar və keyfiyyətli pambıq sortlarının həcminin artırılmasında Moskva ticarət şirkətlərinin böyük rolu olmuşdu [42, s.208]. Bu tədbirlərin nəticəsi idi ki, ayrı-ayrı illərdə Tiflisdə və Moskvada təşkil olunmuş sərgilərdə Azərbaycanın bölgələrində yetişdirilmiş pambıq yüksək qiymətləndirilmişdi [21, s.2-56; 22, s.4-5]. Bununla belə qeyd etmək lazımdır ki, Qarabağ bölgəsində pambıqçılıq ölkənin digər pambıqçılıq mərkəzləri ilə müqayisədə hələ də ləng inkişaf edirdi. Belə ki, 1870-ci ildə Qarabağ bölgəsinin də daxil olduğu Yelizavetpol quberniyasında ümumilkdə cəmi 1500 pud pambıq yığıldığı halda [42, s.209], İrəvan quberniyasında 600000 pud pambıq yığılmışdı [43, s.302]. Təkcə bu faktın özü gösətrir ki, bölgənin kənd təsərrüfatında pambıqçılığın xüsusi çəkisi elə də böyük deyldi. Yalnız XIX əsrin 70-ci illərindən başlayaraq quberniyada pambıq istehsalı nisbətən artmağa başlamış və 1871-ci ildə 3992 puda, 1873-cü ildə 7020 puda yüksəlmişdi [42, s.209].

Beləliklə, XIX əsrin 70-ci illərində və 80-ci illərinin əvvəllərində 60-cı illərlə müqayisədə bölgədə pambıq istehsalında elə də ciddi irəliləyiş müşahidə edilmirdi və pambıqçılıq istehsal həcminə görə kənd təsərrüfatının əhəmiyyətsiz sahəsi kimi qalırdı.

*Azərbaycanda pambıqçılığın yeni yüksəlişi və Qarabağ bölgəsində vəziyyət.* Azərbaycanda pambıqçılığın yeni yüksəlişi XIX əsrin 80-ci illərinin ikinci yarısına təsadüf edir. Bu ilk növbədə inkişaf edən rus pambıq parça istehsalı sənayesinin yerli xammala olan təlbatı ilə izah oluna bilər. Digər tərəfdən 1888-ci ildə Rusiya hökuməti xaricdən gətirilən pambığın hər puduna qızıl pulla 50 qəpik gömrük haqqı tətbiq etməyə başlaması da rus pambıq sənayeçiləırini yerli xammala yönəlməyə məcbur edirdi. Sonrakı illərdə Rusiya hökuməti xaricdən gətirilən pambıq gömrük rüsumunu kəskin artıraraq 1891-ci ildə qızıl pulla 1 rubl 25 qəpiyə, 1894-cü ildə 2 rubl 10 qəpiyə, 1900-cu ildə isə 4 rubl 15 qəpiyə qədər qaldırmışdı [42, s.210; 20, s.22]. Bu vəziyyət, xüsusilə 90-cı illərdə istehsal

həcmi artan rus fabrik sahiblərini xammal axtarışında diqqətlərinin ilk növbədə qədim ənənləri olan və həm də Rusiyanın toxuculuq mərkəzlərinə daha yaxın olan Azərbaycana yönəlməsinə məcbur etdi və Azərbaycanın əsas pambıqçılıq mərkəzlərində pambığın əkin sahələrinin genişlənməsinə səbəb oldu. Qarabağ bölgəsində bu proses XIX əsrin 90-cı illərinin əvvəllərindən sürətlənməyə başlamışdı. Belə ki, 1890-cı ildə Şuşa qəzasının Ağcabədi və Xəlfərədin kəndlərində artıq pambığçılıqla məşğul olmağa başlanmış və burada ilk sınaq pambıq əkini salınmışdı [38, s.378]. Cavanşir qəzasının 6 kəndində də pambığçılıqla məşğul olunmağa başlanmış və burada 475 pud pambıq yığılmışdı [42, s.211].

Bununla belə qeyd etmək lazımdır ki, bu dövrdə Azərbaycanın digər qəzaları ilə müqayisədə Qarabağ qəzalarında pambıqçılığın inkişafı nisbətən ləng gedirdi. Bunu Qarabağ qəzaları kimi Yelizavetpol quberniyasına daxil olan Ərəş qəzası ilə müqayisədə daha aydın görmək olur. XIX əsrin 90-cı illərinin ortalarında Ərəş qəzasında pambıq əkinlərinin sahəsi 1200 desyatin təşkil etdiyi halda, Cavanşir qəzasında bu 344, Şuşa qəzasında isə 215 desyatin təşkil etmişdi [4, s.18 ].

Qarabağ bölgəsinin pambıqçılıq təsərrüfatında yaranmış əsaslı dönüşü 1893-1894-cü illərdə bölgədə yığılmış pambığın həcmindəki artışdan da görmək mümkündür. 1893-cü ildə Şuşa qəzasında 4300 pud, Zəngəzur qəzasında 3500, Cavanşir qəzasında isə 2752 pud pambıq yığılmışdısa, 1894-cü ildə bu rəqəmlər müvafiq olaraq 17000, 3750 və 3496 pud təşkil etmişdi [38, s.93]. Göstərilən statistik məlumatlar Qarabağ bölgəsində pambıq istehsalının cəmi 1 il ərzində 2 dəfədən çox artdığını və 24246 puda çatdığını göstərir. İstehsal olunan pambığın keyfiyyəti də artırdı. Pambığın keyfiyyətinin yüksəlməsində 1896-cı ildə Cavanşir qəzasının Qaziyan kəndində yaradılmış pambıq nümayiş sahəsinin də böyük rolu olmuşdur [42, s.212].

Pambıqçılıqdakı bu inkişafa görülən tədbirlər və xam pambığa olan təlabatın sürətlə artması ilə yanaşı pambıqçılığın iqtisadi cəhətdən gəlirli sahəyə çevrməsinin də böyük rolu olmuşdur. Belə ki, pambıq əkilən bir desyatin əkin sahəsi buğda əkilən sahələrdən 3 dəfə, arpadan isə 4 dəfə artıq gəlir gətirirdi [37, s.119-120]. Digər tərəfdən pambıqçılıqda ucuz qadın və uşaq əməyindən istifadə pambığın maya dəyərini bir az da aşağı salaraq sahibkarın gəlirini daha da artırırdı [42, s.213-214]. Pambığın qiymətinin yüksəlməsi pambığın əkin sahələrinin genişlənməsinə təkan verirdi. Müasirlərdən birinin yazdığı kimi, kimin imkanı vardısa pambıqçılığa əl atır, hətta “meşələri qırırdılar ki, təmizlənmiş xam torpaqlarda pambıq əksinlər” [14, s.66]. Kəndlilər və xırda mülkədarlarla yanaşı, getdikcə daha çox böyük torpaq sahibləri dənli bitgilərin becərilməsindən imtina edərək pambıq becərilməsinə keçirdilər.

Rus pambıq parça istehsal edən fabriklərinin yerli xam pambığa artan təlabatı nəticəsində Azərbaycanın pambıqıçılıq mərkəzlərində yığılan məhsul, demək olar ki, bütünlüklə Rusiyanın Avropa hissəsinə göndərilirdi. Məhsulun yalnız cüzi hissəsi yerlərdə emal edilirdi [19, s.427].

Gömrük rüsumlarının artırılmasından sonra daxili bazarda pambığın qiymətinin kəskin yüksəlməsi və bunun nəticəsi olaraq əhalinin müxtəlif təbəqələri arasında pambıqçılığa marağın artması XIX əsrin sonlarına doğru Qarabağ bölgəsində pambıq istehsalının 2 dəfədən çox artmasına səbəb olmuşdu. Belə ki, 1897-ci ildə Qarabağın Cavanşir qəzasında 35000, Şuşa qəzasında 20000 və Zəngəzur qəzasında 1980 pud olmaqla cəmi 56980 pud pambıq yığılmışdı [24, s.80].

Rus fabriklərinin pambığa olan təlabatının getdikcə artması və pambıq istehsalının sürətli artımı böyük həcmdə xam pambığın yerlərdə emalını və pambığın təmizlənməsi texnikasının yaxşılaşdırılmasını şərtləndirirdi. XIX əsrin 80-ci illərin sonlarında Azərbaycanın pambıq becərilən bölgələrinə xaricdən, daha çox isə İngiltərədən pambıq təmizləyici maşınlar – kotton-cinlər gətirilməyə başlanmışdı. Bu prosesdə Pozanan və Moskva firmaları xüsusi fərqlənirdilər. Onların gətirdikləri son model kotton-cinlər 3 fəhlənin xidmət edə bildiyi böyük gücə malik maşınlar idi. Belə maşınlar Tiflisdə 250-300 rubla satılırdı [24, s.65]. Qarabağ bölgəsində bu maşınlar ilk olaraq pambığın daha çox becərildiyi qəzalarda – Cavanşir (2 ədəd) və Şuşa (1 ədəd) qəzalarında yerləşdirilmişdi [20, s.375]. Artıq 1897-ci ildə Cavanşir qəzasında 4, Zəngəzur qəzasında 3, Şuşa qəzasında isə 2 olmaqla cəmi 9 kotton-cin fəaliyyət göstərirdi [41, s.374]. XIX əsrin sonlarından pambıqtəmizləmədə maşınların tərbiqi Azərbaycanda, o cümlədən Qarabağ bölgəsində pambığın kustar üsulla – əllə təmizlənməsini sıradan çıxmağa başlamış və yeni emal sənayesinə keçidin əsası qoyulmuşdu.

Qarabağ bölgəsində pambıqçılığın inkişafında əsl dönüş XX əsrin əvvəllərində baş verdi. Bu dövrdə pambığın hər pudunun qiymətinin əvəllki illərlə müqayisədə bir neçə dəfə artaraq 11 rubla yüksəlməsi [23, s.99] bütun ölkədə olduğu kimi, Qarabağ bölgəsində də əkini sahələrinin daha da genişlənməsinə səbəb olmuşdu. Şuşa və Cavanşir qəzaları pambıq istehsalının sürtəli inkişafı ilə xüsusi fərqlənirdilər. XX əsrin əvvəllərinə aid mənbədə gösətilir ki, bu iki qəzada "bu günə qədər pambıqçılıqla məşğul olmayan kəndli və mülkədarlar da öz əkin sahələrinin bir hissəsini pambıq əkini üçün ayırıdılar" [37, s.120-121]. Pambıq sahələrinin genişlənməsi, Şuşa qəzasında suvarmanın genişlənməsi, Şuşa və Cavanşir qəzalaırnda kol-kos yerlərin yararlı torpaqlara çevrilməsi yolu ilə olurdu [44, s.379]. Bu işdən hamı, həm bəylər, həm sıravi əkinçilər, həm də köçərilər yapışmıdılar. Böyük torpaq sahələrinə malik olan bəylər belə vəziyyətdən istifadə edərək öz torpaqlarını olduqca ağır şərtlər əsasında icarəyə verirdilər. Torpağı icarəyə götürmək istəyənlər çox olduğuna görə icarə qiymətləri ildən ilə artırdı. Əgər 1910-cu ildə Qarabağda bir desyatin torpaq üçün icarə haqqı 12,5 rubl idisə, 1913-cü ildə bu rəqəm 4 dəfə artaraq 40-60 rubl təşkil etmişdi [3, s.103, 137]. Nəticədə, 1909-cu ildə Cavanşir qəzasında 45900 pud, Şuşa qəzasında 23940 pud pambıq olmaqla cəmi 69840 pud pambıq yığılmışdı. Növbəti, 1910-cu ildə isə bölgənin bu iki qəzasında birlikdə 1897-ci illə müqayisədə 2,5 dəfə çox – 145000 pud pambıq yığılmışdı [26, s.47]. 1912-ci ildə bu göstərici daha 1,5 dəfə artaraq hər iki qəzada müvafiq olaraq 131285 pud və 92280 pud olmaqla cəmi 223565 pud təşkil etmişdi [36, s.57]. Verilən statistik məlumatlarda Qarabağ bölgəsinin ənənəvi pambıqçılıq rayonu olan Cavanşir qəzasında pambıqçılığın daha sürətlə inkişaf etdiyi aydın görünür. Bu dövrdə Azərbaycanda pambıqçılıqla məşğul olan ən böyük torpaq sahibkarı da məhz Cavanşir qəzasından olan Serqey bəy Məlik Bəylərov idi [22, s.98].

Pambıqçılıqdan əldə edilən böyük gəlir mülkədar-bəylərlə yanaşı bölgələrdə öz mülklərini yaratmış bəzi iri neft sənayeçilərini də bu sahə ilə məşğul olmağa sövq edirdi. Məsələn, Bakı neft sənayeçilərindən H.Z.Tağiyev və A.Tsaturov 1893-cü ildə məhz Cavanşir qəzasında 20 min desyatin sahəsi olan "Yevlax mülkü" adlanan mülkü satın alaraq 1896-ci ildə 40-50 desyatin, 1897-ci ildə isə 5 dəfədən çox - 250 desyatin sahədə pambıq əkmişdilər [42, s.213]. Sonralar "Yevlax mülkü"ndə pambıq sahəsinin genişləndirilməsi məqsədilə H.Z.Tağıyev 1909-cu ildə "Qafqaz kənd təsərrüfatı cəmiyyətinə" müraciət etmiş, "Cəmiyyət" bu məqsədlə xüsusi komissiya ayırmış və Z.Tağıyevin mülkündə pambıq əkin sahəsi xeyli genişləndirilmişdi [31, s.13].

Göründüyü kimi, XIX əsrin 90-cı illərindən başlayaraq bütün Azərbaycanda olduğu kimi əsas panbıqçılıq və toxuculuq mərkəzlərindən biri olan Qarabağ bölgəsində də pambıq istehsalı sürətli inkişaf mərhələsinə qədəm qoymuşdu. Bu inkişaf Rusiyanın toxuculuq sənayesinin yerli xammala olan tələbatın artması ilə bağlı idi və pambıq əkən kəndli və mülkədarlar istehsal etdikləri pambığı satmağı daha üstün tuturdular. Bunun nəticəsi idi ki, pambıq istehsalındakı yüksəliş pambıq parça istehsalının bərpasına gətirb çıxarmamışdı. XX əsrin əvvəllərində Qafqazda kustar sənayenin vəziyyətini araşdırmış tədqiqatçı A.S.Piralov parça toxuculuğunda yaranmış vəziyyəti təsvir edərək yazırdı ki, "hazırda pambıqçılıq mərkəzlərində yerli əl istehsalı olan pambıq parçaların hətta nadir nümunələrinə belə rast gəlinmir" [35, s.17].

*Nəticə.* Beləliklə, XIX əsrin 20-ci illərindən Azərbaycanda, o cümlədən Qarabağ bölgəsində pambıqçılıqda başlayan tənəzzül həmin əsrin 90-cı illərində sürətli inkişafla əvəz olunmuşdu. Lakin pambıqçılıqda müşahidə edilən bu tənəzzül və inkişaf pambıq parça toxuculuğunda heç də həmişə uyğun əks olunmamışdı. Rusiya-İran müharibələri ilə əlaqədar olaraq XIX əsrin əvvəllərində pambıqçılıqda yaranmış tənəzzül, əsasən ev peşəsi xarakteri daşıyan pambıq parça toxuculuğunda müəyyən bir inkişafla müşahidə olunmuşdu. Hər bir kəndli torpağın və iqlim şəraitinin imkan verdiyi hər yerdə ev şəraitində pambıq parça istehsal etmək üçün həyətyanı sahəsində az miqdarda da olsa pambıq əkməyə çalışırdı. XIX əsrin sonlarından Azərbaycanda, o cümlədən Qarabağ bölgəsində pambıqçılıqda müşahidə edilən sürətli yüksəliş parça istehsalının həcminin artmasına gətirib çıxarmalı olduğu halda, tamamilə əks proses başlanmışdı. Pambıqçılığın inkişafının kökündə, əsasən Rusiyanın pambıq parça istehsal edən fabriklərinin xammala olan tələbatı dayanırdı. Bu dövrdə əvvəllər Avropadan, sonralar isə Rusiyadan fabrik istehsalı olan ucuz pambıq parça məmulatlarının kütləvi idxalı yerli parça məmulatları ilə güclü rəqabət yaratmışdı. Bu rəqabətə tab gətirə bilməyən yerli pambıq parça istehsalı XIX əsrin əvvəllərindən tədricən tənəzzülə uğramağa, 60-cı illərdən isə

tamamən sıradan çıxmağa başlamışdı. XX əsrin əvvəllərində Azərbaycanın pambıqçılıq mərkəzlərindən olan Qarabağda pambıq istehsalında başlamış sürətli inkişaf da bölgədə xalq üsulu ilə pambıq parça istehsalının bərpasına gətirib çıxara bilmədi.

## ƏDƏBİYYAT

1. Çəmənzəminli Y.V. Tarixi, coğrafi və iqtisadi Azərbaycan. Bakı: Bakı Dövlət Universitetinin nəşriyyatı, 1993, 54 s.
2. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri / Ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi H.Məmmədov (Qaramanlı). Bakı: "Şuşa" nəşriyyatı, 2000, 576 s.
3. İsmayılov M.Ə. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1960, 240 s.
4. Moisey Klankatuklu. Albaniya tarixi. (Müqəddimə, tərcümə, qeyd və şərhlər akademik Ziya Bünyadovundur). Bakı: "Elm" nəşriyyatı, 1993, 288 s.
5. Muradov V. Naxçıvan diyarında sənətkarlıq və ticarət (XVIII-XX əsrin əvvəlləri). Naxçıvan: "Elm" nəşriyyatı, 2017, 264 s.
6. Musatfayev A.N. Azərbaycanda sənətkarlıq. Bakı: "Elm", 1999, 323 s.
7. Mustafayev C.M. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı: "Elm", 2002, 272 s.
8. Əfəndiyev R. Azərbaycanın bədii parçaları (XVI-XVIII əsrlər) // - Bakı: Azərb.SSR EA Xəbərləri. Ədəbiyyat, dil və incəsənət seriyası, 1968 № 3, s.105-118.
9. Vahidov R.M. Mingəçevir III-VIII əsrlərdə. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1961, 160 s.
10. Акты, собранные Кавказской Археографической Комиссией. Архив Главного управления наместника Кавказскою. (АКАК) / Издан под редакцией председателя Комиссии А.Д.Берже. Тифлис: Типография Главного управления Наместника Кавказского, т. III, 1869. 760 с.
11. АКАК. т. IV, Тифлис, 1870. 580 с.
12. АКАК. т. X, Тифлис, 1885. 855 с.
13. Английские путешественники в Московском государстве в XVI веке. Перев. с англ. Ю.В.Готье. Ленинград: Издательство «Огиз», 1937, 306 с.
14. Гаджигасанский Х.Б. Хлопководство в России (Экономический очерк). Москва, 1915,101с.
15. Гейдаров М.Х. Города и городское ремесло Азербайджана XIII-XVII вв. Баку: Издательство «Элм», 1981, 281 с.
16. Григорьев В.Н. Статистическое описание Нахичеванской провинции. СПб.: Типография Департамента Внешней торговли, 1833, 263 с.
17. Егизаров С.А. Исследования по истории учреждений в Закавказье. ч. 2, Городские цехи. Казань: Типография Императорского Казанского Университета, 1891, 242 с.
18. Ежегодник Главного Управления землеустройства и земледелия по департаменту земледелия. 1909 год. Год третий. СПб.: Типография В.Ф.Киршбаума, 1910, 1151 с.
19. Записки Кавказского отдела Имперского русского географического общества. кн. XVIII, Тифлис: Типография Канцелярии Наместника Кавказского, 1896, 334 с.
20. Записки Кавказского отдела русского географического общества. т. XVIII, вып. I, Тифлис: Типография Канцелярии Наместника Кавказского, 1886, 410 с.
21. Записки Кавказского общества сельского хозяйства. Тифлис: Типография Канцелярии Наместника Кавказского, 1862 № 3-6, 178 с.
22. Записки Кавказского общества сельского хозяйства. Тифлис: Типография Канцелярии Наместника Кавказского, 1865. № 11, 334 с.
23. Исмаилов М. Социально-экономическая структура Азербайджана в эпоху империализма. Баку: Издательство «Элм», 1982, 165 с.
24. Кондратенко Е.И. Сборник статистических данных о землевладении и способах хозяйства в пяти губерниях Закавказского края, Тифлис: Закавказский стат. ком., 1899, 637 с.
25. Маркграфь О.В. Очерк кустарных промыслов Севернего Кавказа с описанием техники производства. Москва: Издательство С.В.Лепешкина, 1882, 288 с.

26. Обзор Елизаветпольской губернии за 1910 год. Тифлис: Издание Елизаветпольского Губернского Статистического Комитета, 1912, 345 с.
27. Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях. ч. III, СПб.: Типография департамента внешней торговли, 1836, 392 с.
28. О Кавказском хлопчатнике. (Учено-литературный отдел) // Газета «Кавказ», 1862, 22 август, № 66.
29. Олеарий А. Подробное описание путешествия голштинского посольства в Московию и Персию в 1633, 1636 и 1639 гг. Перев. с немецкого П.Барсова. Москва: Университетская типография, 1870, 292 с.
30. Описание Карабахской провинции, составленное в 1823 г. по распоряжению главноуправляющего в Грузии Ермолова, действительным статским советником Могилевским и полковником Ермоловым II-м. Тифлис: Типография управления наместника Кавказского, 1866, 425 с.
31. Отчет о деятельности Императорского Кавказского общества сельского хозяйства за 1909 год. Тифлис, 1911, 378 с.
32. Отчет о деятельности Кавказского кустарного комитета и учреждений по кустарной промышленности на Кавказе в 1912-1914 гг. Тифлис, 1915, 382 с.
33. Петрович П. Хлопководство в Закавказье. Тифлис: Канцелярия наместника Е.И.В. на Кавказе, 1912, 137 с.
34. Петрушевский И.П. Земледелие и аграрные отношения в Иране в XIII-XIV вв. Москва-Лениниград: Издательство «Наука», 1960, 494 с.
35. Пиралов А.С. Краткий очерк кустарных промыслов Каваказа. СПб.: Типо-Литография «Якорь», 1913, 128 с.
36. Площадь, сбор и урожайность хлопчатника в Закавказьи 1909-1914 гг. и 1924-1928 гг. (Сост.: И.В.Авалишвили; Ред. А.М.Гончарова). Тифлис: Закав. Центр. Стат. Упр., 1928, 90 с.
37. Сборник сведений о Елизаветпольской губернии. (Составлен Секретарем губернского статистического Комитета И.Л.Сегал). Тифлис: Типография Т-ва «Веренчев и Каменмакер», 1902, 174 с.
38. Статистические сведения // Кавказский календарь на 1895 год. V отдел, Тифлис: Типография Грузинского издательского товарищества, 1894, с.82-202.
39. Статистическая таблица о произведениях земледельческих, мануфактурных и других, обращающих в продажу в Шемахинской губернии // Газета «Кавказ», 1850, 11 сентябрь, № 76.
40. Статистические труды И.Ф.Штукенберга, статья XI, Описание Закавказского края. СПб.: Типография И.И.Глазунова и компании, 1859, 961 с.
41. Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX веке. Баку: Издательство АН Азерб. ССР, 1964, 501 с.
42. Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX веке. Баку: Издательство АН Азерб. ССР, 1958, 364 с.
43. Хатисов И.С. Хлопководство в Закавказье // Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края. т.IV, ч.2, Тифлис: Типография М.Д.Ратинянца, 1888, с.279-328.

44. Хлопководство в Закавказье // Кавказский календарь на 1913 год. IV отдел, Тифлис: Типография Грузинского издательского товарищества, 1912, с.369-388.

**TELMAN F.MUSAYEV**
*Azerbaijan State Oil and Industry University*

## COTTON CLOTH WEAVING IN KARABAKH REGION EARLY 19TH AND 20TH CENTURIES

For of its economic importance, cotton plant has played an important role in the welfare life and economic life of the Azerbaijani people for centuries. The dekline in cotton production begun at the complex military-political situation in the Karabakh region as a result of Russian occupation in the early 19th century, and it had been replaced by rapid development in the 1990s 19th century and early XX century. The decline and development observed in cotton production has not always been properly reflected in the production of cotton cloth. The decline in cotton-growing, which began with the devastating effects of Russian-Iran wars, has been followed by some progress in cotton production. However, the rapid rise in cotton-growing in Azerbaijan, including the Karabakh region, has led to an increase in cotton cloth production from beginning of the 90s of the nineteenth century with the growing demand of Russian cotton cloth factories to raw cotton. As a result of the massive importation of high-quality and with low price of cotton wares of cloth from Europe and Russia, local cotton produktion and gradually declined in the early 19th century, and failed to compete in 1960s.

*Keywords: Azerbaijan, Karabakh, cotton, cotton-growing, weaving, cotton cloth, handicraft*

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 yanvar 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2020-ci il.*
*Rəyçilər: t.e.d.Camal Mustafayev, t.e.d. Qabil Əliyev.*

**UOT 94(479.24)**

**SEVDA İSMAYILOVA**
*Bakı Dövlət Universiteti Tarix fakültəsi*
**E-mail: sevdaismayilova@rambler.ru**

# SOVET HAKİMİYYƏTİNİN AZƏRBAYCAN SSR- də ALİ MƏKTƏBLƏRİN MİLLİLƏŞDİRİLMƏSİ SAHƏSİNDƏKİ SİYASƏTİ (1924-1930-cu illər)

*BDU qanununda bütün fakültələrdə Azərbaycan türk dilinin icbari fənn kimi tədris edilməsi də göstərilirdi. Lakin sovet rejimi Azərbaycan xalqının milli ruhunu məhv etməyə çalışırdı. M.Ə.Rəsulzadənin 1923-cü ildə Türkiyədə "Azərbaycan Cümhuriyyəti" kitabının nəşrindən sonra Stalinin göstərişi ilə ona qarşı hücum kampaniyası başladı. Sovetlər bu yazıları təkzib etmək üçün Sovet Azərbaycanının "nümunəvi", "milli" bir respublika olduğunu sübut etməli idilər. AK(b)P MK Rəyasət Heyətinin 03 aprel 1927-ci il göstərişindən sonra BDU-nun ilk azərbaycanlı rektoru olan T.Şahbazinin fəaliyyəti ilə Universitetdə təhsilin türk (Azərbaycan) dilində aparılması həyata keçirildi, azərbaycanlı tələbələrin və milli kadrların sayı artdı, BDU respublikada milli ali məktəbə çevrildi.*

*Açar sözlər:* Bakı Dövlət Universiteti, dövlət qərarları, təhsil, kadr, milliləşdirmə.

*Giriş*. 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti tərəfindən Bakı şəhərində Dövlət Universitetinin təsis edilməsi haqqında qanun qəbul edilmişdi (70 saylı iclas, II oxunuşda) (23, s.57). Universitet açılarkən tədris dilinin rus dili olacağı mübahisəyə səbəb olduğundan M.Ə.Rəsulzadə bildirmişdi ki, tarixən başqa dövlətlərdə də universitetlər açılarkən belə çətinliklər olub. Heç bir millət tarixən ilk addımında milli bir darülfünuna sahib olmamışdır. Əvvəlcə, özgələrdən istifadə edərək, sonda get-gedə qüvvət kəsb etmişlər (23, s.10-13). Parlament üzvlərindən bir qrupu da Universitetdə tədricən türkləşdirilmə prosesinə keçiləcəyini təsdiqləyirdilər. Universitet qanununda bütün fakültələrdə Azərbaycan türk dilinin icbari fənn kimi tədris edilməsi də göstərilirdi (27, s.627).

Lakin Azərbaycanın bolşeviklər tərəfindən işğalindan sonra vəziyyət dəyişdi. Sovet rejimi Azərbaycan xalqının milli ruhunu məhv etməyə, dövlətçilik ənənələrini yox etməyə çalışırdı. 1922-ci ilin oktyabrında AK(b)P-nin XI Bakı konfransı öz qərarlarında ali məktəblərin müstəqilliyini ləğv etməyin zəruriliyini göstərdi. Azərbaycan maarif işçilərinin 1923-cü ilin fevralında keçirilən III qurultayı da ali məktəblərin müstəqilliyinə qarşı çıxdı. 1923-cü il fevralın 26-da Xalq Maarif Komissarlığının kollegiyası Azərbaycan Dövlət Universitetinin (XMK-nın qərarı ilə 1922-ci il dekabrın 6-dan Bakı Dövlət Universitetinin adı dəyişdirilərək Azərbaycan Dövlət Universiteti adlandırılmışdı) dördüncü nizamnaməsini qəbul etdi. Seçilmiş rektor, prorektor, dekanlar Xalq Maarif komissarı tərəfindən təsdiq edilməli idilər. Universitet Şurasının səlahiyyətinə aid olan məsələlərin siyahısı saxlanılsa da, bütün qərarlar Xalq Maarif Komissarlığı tərəfindən təsdiq edilməli idi. (22, s.112-115) Beləliklə, Azərbaycan təhsil sistemi Mərkəzə tabe etdirildi. Proqramlar, dərsliklər mərkəzdən göndərildi.Universitetdə də təhsil sovet ideologiyasına xidmət edirdi.

*Sovet hakimiyyətinin Azərbaycan SSR-də ali məktəblərin milliləşdirilməsi sahəsindəki siyasəti*. Azərbaycan Xalq Cümhuriyyəti dövründə əlifba islahatının da əsası qoyulmuş, lakin ölkənin hərbi-siyasi çətinlikləri üzündən bu proses başa çatdırılmamışdı. Aprel işğalından sonra kommunistlər inzibati-amirlik sisteminin iradəsi olaraq yeni türk əlifbasına keçidi sürətləndirdilər. 1923-cü il oktyabrın 20-də Azərbaycan SSR MİK-in qəbul etdiyi "Yeni Azərbaycan əlifbasının dövlət əlifbası kimi tanınması haqqında" dekretinə uyğun olaraq bütün idarə və təşkilatlara kargüzarlığı həm əski, həm də yeni əlifbada aparmaq haqqında ğöstəriş verildi. 1924-cü il 27 iyun "Yeni türk əlifbası haqqında" dekretə əsasən o, "dövlət və məcburi" əlifba kimi elan edildi. Lakin əhalinin əksəriyyəti hələ bu əlifba ilə tanış deyildi (29, s.214). Kommunistlərin məntiqinə görə əlifba islahatı sosializm cəmiyyətinin yeni keyfiyyətli insanını formalaşdırmaqdan, xalqların irəli getməsi üçün öz keçmişləri ilə əlagələri qətiyyətlə qırmalarından ötrü bir vasitə idi.

K(b)P-nin X qurultayının bitməsindən iki həftə sonra, 29 mart 1921-ci ildə Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanov "Azərbaycan SSR-də kargüzarlıq işinin türk dilində aparılması üçün komitənin təşkil edilməsi haqqında" sərəncam imzalamışdı. Bu isə, bolşeviklərin "milli dilə olan qayğısını" əhaliyə nümayiş etdirməkdən ötrü idi. 27 iyun 1924-cü ildə Azərbaycan SSR MİK-in dövlət dili haqqında dekreti verildi (29, s.214). Əslində bunlar hüquqi qanunlardan çox, siyasi xarakterli deklarasiyalar idi. Milli respublikalarda kommunst rejiminin mövqeyini möhkəmləndirməkdən ötrü milli dilin işlədilməsi üçün şəraitin yaradılması tələb olunurdu. Həm də xalq kütlələrinə kommunst ideyalarını aşılamaqdan ötrü savadlılığı, təhsil sisteminin səviyyəsini qaldırmaq lazım idi (28, s.94-95).

1920-ci il aprel işğalından sonra AXC xadimləri Azərbaycanın müstəqilliyi uğrunda mübarizələrini mühacirətdə davam etdirdilər. M.Ə.Rəsulzadənin 1923-cü ildə Türkiyədə "Azərbaycan Cümhuriyyəti" kitabının nəşrindən sonra Stalinin göstərişi ilə ona qarşı hücum kampaniyası başladı. Bu haqda Azərbaycan milli hərəkatının görkəmli nümayəndəsi Mirzə Bala Məmmədzadə öz əsərində yazir: "Rəsulzadə Məmməd Əmin bəyin əsərilə Azərbaycan Kommunist Partiyasının XII Bakı konfransı da məşğul olmuşdur. Konfransda geniş nitq söyləyən məşhur Serqo Orconikidze "Müsavat"in Türkiyədə və İranda sovetlər əleyhinə propaqandaya başladığını qeyd etdikdən sonra demişdir: "Müsavatçılar bolşeviklərin milli məsələdə tətbiq etdikləri siyasəti Şərq xalqlarının gözündə etibardan salmaq istəyirlər. Onlar isbat etmək istəyirlər ki, bu gün müstəqil bir Azərbaycan yoxdur, Azərbaycanı idarə edən ruslardır. Rəsulzadənin kitabı çantamdadır. Burada müəllif bütün diqqətini bir şeyi isbata həsr edir və deyir ki, əvvəllər Azərbaycan üçün Denikin təhlükəsi vardı, indi isə Lenin təhlükəsi vardır". (24, s.184). Orconikidze Azərbaycanın milliləşdirilməsindən və türkləşdirilməsindən söz açarkən, "Biz bunu Rəsulzadənin söylədiyi üçün deyil, öz arzumuzla edirik" deyərkən, şübhəsiz ki, İstanbuldakı nəşrlərin Bakıdakı inikasına dolayısıyla cavab vermişdir." (24, s.188). M.Ə.Rəsulzadənin bu əsəri ilə bağlı İ.V.Stalinin Azərbaycan Kommunist Partiyası rəhbərliyinə 16 sentyabr 1923-cü il tarixdə göndərdiyi məktubda deyilirdi: "Rəsulzadənin mürtəce broşurası münasibətilə yol. Musabəyova, Mirzəyana, Axundova, Kirova və Orxelaşviliyə məsləhətim. Rəsulzadə əleyhinə cavab broşurasının ümumi ruhu hücum xarakterli olmalı, daha doğrusu, heç bir halda özünü təmizə çıxarmağa və müdafiə olunmağa yol verilməməlidir, əksinə, aşağıdakılara görə günahlandırılaraq ona hücum olunmalıdır." Daha sonra M.Ə.Rəsulzadə dönüklükdə, Türkiyə xalqına xəyanətdə, Azərbaycan xalqının mənafeyinə xəyanətdə, erməni-tatar qırğınının təşkilində, və s.də günahlandırılırdı və göstərilirdi ki, "müsavatdan sonra xalq mədəniyyəti tənəzzülə uğrayıb" – qənaətilə Rəsulzadə Azərbaycan proletariatı və ziyalilarına yalan söyləyir (26, s.69).

Sovetlər bu yazıları təkzib etmək üçün Sovet Azərbaycanının "nümunəvi", "milli" bir respublika olduğunu sübut etməli idilər. Beləliklə, göstərilən səbəblərdən 1924-cü ildə Azərbaycan dili haqqında qərar qəbul edildi, ali məktəblərin milliləşdirilməsi prosesi başlandı. 1923-cü il iyulun 15-də AK(b) P MK-nın qərarı ilə ali məktəblərə qəbul zamanı azərbaycanlılara üstünlük verilməli idi. 1923/24-cü dərs ilində qəbul artırıldı. ADU tələbələrinin ümumi sayı 1955 nəfər oldu ki, bunun da 404-ü azərbaycanlı idi (22, s.141).

*Tağı Şahbazinin Universitetin türkləşdirilməsi sahəsində fəaliyyəti.* Az.K(b)PMK Rəyasət Heyətinin 08 iyul 1926-cı il tarixli iclasında Azərbaycanda ADU-ya kommunist rektor tapmağın mümkün olmadığı və mərkəzdən birinin təyin edilməsi qərara alinmışdı (20, v.129). Belə ki, 11 oktyabr 1926-cı ildə Tağı Şahbazi MİK katibi vəzifəsindən azad edilərək ADU-ya rektor təyin edildi (21, v.59). 6 dekabr 1926-cı ildə Universitet İdarəsinin tərkibi təsdiq edildi (12, v.66). İctimai xadim, ədib Tağı Abbas oğlu Şahbazi keçmiş sovetlər dövründə mühüm dövlət vəzifələrində çalışmış, 1926-1929-cu illərdə Bakı Dövlət Universitetinin rektoru olmuşdu (o dövrdə V.İ.Lenin adına Azərbaycan Dövlət Universiteti). BDU-nun ilk azərbaycanlı rektoru olmuş Tağı Şahbazinin Universitetin türkləşdirilməsi sahəsində böyük fəaliyyəti olub.

8. «Каспий», 2020 г. - https://www.kaspiy.az/archive.php?date=2020-06-12 [Дата обращения: 22.05.2020].
9. Шишелина Л., Ведерников М. Выборы в Европейский парламент 2019 и новый этап консолидации Вышеградской четверки // Современная Европа. – 2019. – № 5. – с.45-58.



**ELMIRA HUSEYNOVA**
*Associate professor of Baku State University*


## REGIONAL POLICY OF EU AND NATO


Regional cooperation is mutually beneficial collaboration between neighbouring countries. This holds regardless of whether it is a matter of cooperation between the Benelux countries, the Nordic–Baltic states, France and Germany, or the Visegrád countries. The last-mentioned countries' dismissive attitude to tackling the migration crisis has thrust them into the limelight. The most recent cooperative forums in the Central Eastern Europe region, such as the Slavkov Triangle and the Three Seas Initiative, evidence a new dynamic and a regrouping of forces on the basis of national interests and EU themes. Western and Eastern Europe have different approaches to the most pressing challenges, such as migration. These differences have caused deep divisions between their respective leaders. However, the disagreements on the migration issue and the future of the EU notwithstanding, regional cooperation among the Central and Eastern European countries remains valuable in areas that include the integration process, security and defence.



*Keywords: CEE countries, European Union, results of transformation, national security, Russia,* Balkans.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 22 may 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2020-ci il.*
*Rəyçilər: t.e.d. Məmməd Fətəliyev, t.e.d. Sevinc Yusifzadə.*

**UOT 94"19/..."; UOT 32:34**

**ZAMİQ ASLANOV**
*AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun*
*Hüquq sahələrinin müqayisəli təhlili şöbəsinin*
*müdiri, hüquq üzrə fəlsəfə doktoru, dosent*
**E-mail: zamigaslanov@gmail.com**

# ELMİ-TEXNİKİ TƏRƏQQİNİN MAHİYYƏTİ VƏ XÜSUSİYYƏTLƏRİ

*Məqalədə elmi-texniki tərəqqinin mahiyyəti və xüsusiyyətləri təhlil edilmişdir. Müəllif elmi-texniki inqilab və elmi-texniki tərəqqi anlayışlarını, habelə müasir elmi-texniki tərəqqini əvvəlki dövrlərin elmi-texniki tərəqqisindən fərqləndirən xüsusiyyətləri qeyd edir. Elmi-texniki tərəqqi elm, texnika və texnologiyanın inkişafı, əmək predmetlərinin, istehsalın təşkilinin forma və metodlarının təkmilləşdirilməsi üzrə arasıkəsilməz proses kimi xarakterizə olunur.*

*Açar sözlər*: elmi tədqiqatlar, elmi-texniki tərəqqi, elmi-texniki inqilab, sivilizasiya, innovasiya, istehsal qüvvələri, texnologiya

*Giriş*. Tarixin lokomotivi bəşəriyyəti elə bir gələcəyə aparır ki, onun konturlarını bu gün təxmin etmək çox çətindir. Lakin düşünən insanlar müasir sivilizasiyanın perspektivləri barədə fikirləşməyə bilməzlər. Bu gün cəmiyyətin inkişafı bir çox cəhətdən elmi-texniki tərəqqi ilə şərtləndiyi üçün onun gələcək inkişaf perspektivlərinin qiymətləndirilməsində elm, texnika və texnologiyanın inkişaf qanunauyğunluqlarının və tendensiyalarının öyrənilməsinə xüsusi diqqət yetirilməlidir [7, s. 320]. Bu sahədə tədqiqatlar və təhlillər müasir cəmiyyətin qlobal destabilizasiya prosesləri ilə bağlı olaraq son dərəcə aktual əhəmiyyət kəsb edir. Elə bir dövrdə yaşayırıq ki, elmi-texniki tərəqqinin insan həyatının müxtəlif sahələrinə təsiri ilə bağlı elmi araşdırmaların zəruriliyi və aktuallığı hər keçən gün daha da artır. Müasir inkişaf mərhələsində fundamental elmlə real istehsalı və gündəlik həyat fəaliyyətimizi əlaqələndirən innovasion mexanizmlər xüsusi aktuallıq və əhəmiyyət kəsb edir.

Bəşəriyyət özünün bütün tarixi ərzində ətraf aləmə, yaşadığı mühitə müəyyən təsir göstərmiş, onun ayrı-ayrı predmetlərini özünün "həyat dünyasına" cəlb etmişdir. Müxtəlif dövrlərdə insanın təbiət resurslarından istifadə və onların dəyişdirilməsi üzrə belə məqsədyönlü fəaliyyəti özünəməxsus cəhətləri ilə fərqlənmişdir. Çünki uzun tarixi inkişaf prosesində istehsal üsulları da dəyişmiş və təkmilləşdirilmişdir. Hamılıqla tanınmış ilk antropoloji innovasiya insan tərəfindən əmək alətlərinin hazırlanması və istifadəsi hesab olunur. Sonra isə koqnitiv fəaliyyətin mənəvi, yüksək keyfiyyətli, dərk olunan və virtual alətləri kimi tamamilə yeni olan rəmzlər, işarələr və məna nişanların kəşfi və geniş istifadəsi həqiqi inqilabi sosial-mədəni innovasiyaya çevrilmişdir [6, s. 138].

Bəşər sivilizasiyasının inkişafı elmi-texniki tərəqqi ilə bağlıdır. Göstərilən tərəqqi fonunda istehsal qüvvələrinin sürətli və əsaslı şəkildə dəyişdiyi dövrlər fərqləndirilir. Bu proses çərçivəsində həmin qüvvələrdə əhəmiyyətli keyfiyyət dəyişiklikləri baş verir. Elm cəmiyyətin bilavasitə istehsal qüvvəsinə çevrilir. Belə dövrləri elmi-texniki inqilablar adlandırırlar. Müasir elmi-texniki inqilab qarşılıqlı əlaqədə olan dörd elementi özündə ehtiva edir: 1.elm; 2.texnika və texnologiya; 3.istehsal; 4.idarəetmə [19].

"Elmi-texniki inqilab" və "elmi-texniki tərəqqi" anlayışlarını fərqləndirmək lazımdır. Onlar bir-biri ilə sıx bağlı olsalar da, eynimənalı məfhumlar deyildirlər. Belə ki, elmi-texniki tərəqqi elmi-texniki inqilabdan daha geniş anlayışdır, yəni elmi-texniki inqilab elmi-texniki tərəqqinin tərkib hissəsi olmaqla, belə tərəqqi prosesinin yalnız müəyyən mərhələsində baş verir. Elmi-texniki tərəqqi həm təkamül, həm də inqilabi xarakterli proses olduğu halda, elmi-texniki inqilab, adından da göründüyü kimi, yalnız inqilabi prosesdir. Həmçinin elmi-texniki inqilab elmi-texniki tərəqqinin keyfiyyətcə yeni mərhələsidir. Elmi-texniki inqilab gedişində elmin birbaşa istehsal qüvvəsinə çevrilməsi prosesi başa çatır, əməyin xarakteri və məzmunu, habelə cəmiyyətin peşə strukturu əsaslı dəyişikliklərə məruz qalır, elm və texnikanın yeni nisbəti formalaşır.

Əvvəllər insanlar daha çox fiziki əməklə məşğul olurdular. Elmi-texniki tərəqqi gedişində insanın əzələ qüvvəsini əvəz edən və dəfələrlə daha çox iş görə bilən maşınların meydana çıxması vəziyyəti tamamilə dəyişdi. Artıq insanların əqli əməklə məşğul ola bilməsi üçün daha çox vaxtları var idi, çünki fiziki işlər böyük ölçüdə maşınlar tərəfindən icra edilirdi. Əqli əmək potensialından istifadənin genişlənməsi yaradıcılıq fəaliyyəti üçün geniş üfüqlər açdı. Bütün bunların nəticəsində yeni biliklərin əldə olunması tempi əvvəlki dövrlərlə müqayisədə əhəmiyyətli dərəcədə yüksəldi. Artıq elmi-texniki tərəqqi elmi-texniki inqilablarla müşayiət olunmağa başladı. Daha sonra elmi-texniki inqilablar arasında zaman fasiləsi də nəzərəçarpacaq dərəcədə qısalmağa başladı.

“Tərəqqi” termini ilk dəfə ingilis din mütəfəkkiri Heylin (XVII əsr) əsərlərində meydana çıxmışdır. O, öz inkişaf prosesində insan orqanizminin tədrici və davamlı dəyişməsi ilə bağlı qanunauyğunluğu irəli sürürdü. Tərəqqi ilə bağlı təsəvvürlərin inkişafına K.Ber, A.Smit və T.Maltus da əhəmiyyətli töhfələr vermişlər.

V.A.Krasilovun fikrincə, tərəqqi tarixi əhəmiyyətli nəticələrlə müşayiət olunan davamlı dəyişikliklər seriyasıdır [15].

Elmin tərəqqisi onun məntiqi-qneseoloji aspekti ilə sıx surətdə bağlıdır. Qərb fəlsəfəsində elmin məntiqi-qneseoloji aspekti əsasən epistemologiya adı altında öyrənilir və buraya ən çox elmiliyin meyarı və ya başqa sözlə, elmi biliyin qeyri-elmi bilikdən, xüsusən fəlsəfədən fərqləndirilməsi məsələsi, nəzəri və empirik biliklərin əlaqəsi, nəzəriyyənin həqiqiliyinin yoxlanması, həqiqət problemi və s. daxil edilir. Qərb elmşünaslarının bu sahədəki xidmətləri daha çox elm tarixinin məntiqi təhlili, elmi inqilabların strukturunun öyrənməsi ilə bağlıdır [16; 23].

Elmiliyin meyarı problemi, yuxarıda qeyd edildiyi kimi, elmin məntiqi-qneseoloji aspektinə və ya epistemologiyaya aiddir. Lakin “elm” və “elmilik” anlayışları müxtəlif əhatə dairələrinə malikdir. Məsələ burasındadır ki, elmilik şərti Qərb fəlsəfəsində bir qayda olaraq yalnız biliklə əlaqədar olaraq işlədilir, yəni biliklərin elmiliyindən və ya başqa sözlə, elmi bilikdən söhbət gedir. Halbuki “elmi fəaliyyət”, “elmi mübahisə”, “elmi jurnal”, “elmi müəssisə”, “elmi işçi” və s. bu kimi çox müxtəlif obyekt və hadisələr üçün də elmilik meyarından danışmaq olar və bütün bu hadisələr “elm” anlayışında əhatə olunduğundan onun həcmi çox genişdir. Elmin müxtəlif en kəsiklərində, müxtəlif aspektlərdə tədqiqinə ehtiyac da buradan irəli gəlir [2].

Müəlliflərdən Q.N.Volkovun fikrincə, elmin mahiyyəti artıq dərk edilmiş olan həqiqətlərdən yox, onların axtarılmasından, təbiət və cəmiyyət qanunlarının öyrənilməsi və istifadə olunmasına yönəlmiş eksperimental tədqiqat işlərindən ibarətdir. Elm özlüyündə heç də bilik olmayıb, cəmiyyətin bilik istehsalı üzrə fəaliyyətidir, başqa sözlə, elmi istehsaldır [8, s. 121]. Lakin bu yanaşma ilə razılaşmaq olmaz. Çünki göstərilən yanaşma elm anlayışının məzmununu daraldır və onu yalnız elmi istehsalla məhdudlaşdırır, cəmiyyətin əldə etdiyi elmi biliklər isə bu anlayışdan kənarda qalır.

Elm təbiətin və cəmiyyətin obyektiv qanunları haqqında insanların biliklərinin məcmusudur. Bu bilikləri toplayan və sistemləşdirən insanların əməli fəaliyyəti də “elm” anlayışına daxildir. Təbiətin və cəmiyyətin obyektiv qanunları haqqında məlumatları insanlar toplayır və tədricən onları öyrənirlər və müəyyən elmi nəticələr çıxarırlar. Çıxarılan bu nəticələr obyektiv qanunlar haqqında tam və natamam biliklər əldə etməyə imkan verə bilər. Təbiətin və cəmiyyətin obyektiv qanunlarını tam mənada dərk etmək və onlardan təcrübədə istifadə etmək çox mürəkkəb bir məsələdir. Elm özünün tərəqqisində iki mərhələni keçir. Birinci mərhələdə elm tədricən inkişaf edir, təbiətin və cəmiyyətin bu və ya digər qanunauyğun proseslərini yavaş-yavaş öyrənir. Lakin belə tədrici (evolyusion) inkişaf müəyyən bir dövrü əhatə edir. Sonrakı inkişaf üçün yeni əsas (baza) yaranmalıdır. Belə yeni əsas elmin inkişafının ikinci pilləsində - inqilabi pilləsində yaranır. Birinci pilləyə nisbətən ikinci inqilabi pillə qısa bir müddətdə (anda) baş verir. Bunun nəticəsində elmi biliklər daha da zənginləşir. Belə zənginləşmiş əsas üzərində elm yeni inkişaf xəttinə düşür və təzədən elmin (bu yeni əsas üzərində) tədricən (evolyusiya) inkişafı başlayır. Deməli, belə nəticə çıxarmaq olar: elmin tərəqqisi onun tədricən (evolyusion) və inqilabi inkişafının məcmusudur. Elmin tədricən inkişafı pilləsində onun inqilabi inkişafı üçün zəmin hazırlanır. Baxılan dövrdə elmin tərəqqisi bu dövrdə elmdə baş verən inqilabların sayı ilə şərtləşir. Elmi kəşflərin sayı artdıqca elmin tərəqqisinin sürətlənməsi üçün şərait yaranır [1, s. 285].

T.Kunun fikrincə, elmin inkişafı paradiqmaların dəyişməsi yolu ilə baş verir və müəllif bunu "elmi inqilab" adlandırır.

Qeyd etmək lazımdır ki, biliklərin və bütövlükdə informasiya resurslarının inkişaf tarixi bir neçə dövrə bölünür. İlkin dövr nitqin meydana gəlməsi və insanlar arasında nitq və siqnallarla mövcud olan informasiya mübadiləsinin inkişafı ilə bağlıdır. Şifahi informasiyanın yaranması nitqin inkişafına təkan vermişdir. İkinci dövr yazının meydana gəlməsi dövrünə aid edilir (b.e.ə. IV minilliyin sonu və III minilliyin əvvəllərində). Bu zaman insanlar arasında ünsiyyət və biliklərin mübadiləsi daha yüksək səviyyəyə - sənədli ünsiyyət səviyyəsinə qalxmışdır. İctimai həyatı və ayrı-ayrı insanların davranışlarını əks etdirən ilk sənədlər arxivi yaranmağa başlamışdır. Üçüncü dövr çapın meydana gəlməsi ilə xarakterizə olunur (Çində XI əsrin ortalarında, Avropada XV əsrin ortalarında). Bu kəşf sənədlərin kitab və ya qəzet halında çapına, onların paylanmasına, o cümlədən kitabxanaların, arxivlərin formalaşmasına, eyni zamanda, bir əraziyə mənsub olan bilik mənbələrinin toplanmasına imkan vermiş, bilik və məlumatlar bütün dünyada yayılmağa başlamışdır. Artıq formalaşan informasiya resursları insanın proporsional olaraq artan informasiya tələbatlarının səviyyəsinə yaxınlaşmağa başlamışdır. İnformasiya resursları inkişafının dördüncü fazası texnikada elektrik siqnallarının və elektromaqnit dalğalarının kəşf edilməsi və onlardan istifadə edilməsi dövrünə aiddir (XIX əsrin ortaları). Teleqrafın, telefonun, radio və televiziyanın meydana gəlməsi bütün dünyada istənilən həcmdə operativ informasiya mübadiləsini təmin etməyə imkan vermişdir. Bu mərhələdə informasiya resurslarının artan həcmi son dərəcə intensiv xarakter almışdır. Məsələn, əgər əvvəllər məlumatların ümumi sayı çox yavaş dəyişirdisə, 1900-cü ildən sonra bu həcm 50 ildən bir iki dəfə, 1950-ci ildən sonra - 10 ildən bir, 1970-ci ildən sonra - artıq 5 ildən bir, 1990-cı ildən sonra - hər il artmağa başlamışdır [17, s. 23; 14; 11, s. 22-31; 25; 13; 26, s. 116].

İlk sənaye inqilabı (1750-1850) elmsiz və bu prosesdə alimlərin konkret və birbaşa iştirakı olmadan baş vermişdir. C.Uattın buxar maşının və Britaniya toxuculuq sənayesi üçün yeni dəzgahın meydana çıxması bu inqilabın baza innovasiyaları olmaqla, "sınaq və səhv" metodu ilə hərəkət etmiş talantlı özü öyrənmiş ixtiraçıların bəhrəsi idi. Bu ixtiraların elm üçün töhfəsi elmin bu ixtiralara köməyindən dəfələrlə çox olmuşdur. Məşhur Britaniya tarixçi mütəfəkkiri C.Bernal göstərir ki, həm buxar maşınının kəşfi, həm də onun təkmilləşdirilməsi işlərinin böyük hissəsi, elmin hər hansı ciddi köməkliyi olmadan, mexanik-praktiklər tərəfindən həyata keçirilmişdir. Lakin bu maşının işi onu dərk etmək və hətta yaxşılaşdırmaq istəyən çoxsaylı alimlərin diqqətini özünə cəlb etdi [3, s. 10; 5, s. 326].

Elmi-texniki tərəqqi əməyin məhsuldarlığının və ictimai istehsalın səmərəliliyinin artırılmasının başlıca faktoru kimi çıxış edir və elmin aparıcı istehsal faktoruna çevrilməsi nəticəsində istehsal qüvvələrinin əsaslı keyfiyyət dəyişikliyinə uğraması ilə xarakterizə olunur. Elmi-texniki tərəqqi elm, texnika və texnologiyanın inkişafı, əmək predmetlərinin, istehsalın təşkilinin forma və metodlarının təkmilləşdirilməsi üzrə arasıkəsilməz prosesdir.

Müasir elmi-texniki tərəqqini əvvəlki dövrlərin elmi-texniki tərəqqisindən fərqləndirən başlıca xüsusiyyətlərdən biri onun əhatə dairəsi ilə bağlıdır. Belə ki, əvvəllər elmi-texniki tərəqqi əsasən sənaye sahəsində yeni keyfiyyət dəyişikliklərinə səbəb olurdusa, müasir elmi-texniki tərəqqi bütün sahələrdə: həm maddi istehsal, həm xidmətlər, həm də əqli əmək sahəsində son dərəcə ciddi və əhəmiyyətli elmi-texniki və texnoloji nəticələrin əldə edilməsi ilə xarakterizə olunur.

Göstərmək lazımdır ki, elmi-texniki tərəqqinin anlayışı və mahiyyəti ilə bağlı ədəbiyyatda vahid fikir formalaşmamışdır. Bu məsələ ilə bağlı ayrı-ayrı müəlliflər tərəfindən fərqli yanaşmalar irəli sürülür. Məsələn, bir qrup müəlliflər elmi-texniki tərəqqinin mahiyyətini cəmiyyətdə istehsal qüvvələrinin dəyişməsi, ikinci qrup müəlliflər istehsal proseslərinin avtomatlaşdırılması, üçüncü qrup müəlliflər texnikanın inkişafında elmin rolunun artması, dördüncü qrup müəlliflər isə informasiya texnologiyalarının yaranması və inkişafı ilə əlaqələndirirlər [21, s. 181].

Elmi-texniki tərəqqi iki formada reallaşır - təkamül forması və inqilabi forma:

1. təkamül forması – istehsal prosesində tətbiq edilən texnika və texnologiya artıq məlum olan elmi biliklər əsasında təkmilləşir, məsələn, buxar enerjisinin, elektrik enerjisinin və ya atom enerjisinin inkişafı və təkmilləşdirilməsi;

2. inqilabi forma – tamamilə yeni elmi ideyalara əsaslanan texnika və texnologiyaya keçid, məsələn, əl əməyinin maşınlarla, buxar enerjisinin elektrik və ya atom enerjisi ilə əvəz olunması, lazer və digər müasir texnologiyaların tətbiqi [12, s. 336-337].

Müasir dünya bir sıra faktorlar əsasında formalaşmışdır. Belə əsas faktorlardan biri kimi elmi-texniki tərəqqi çıxış edir. Belə ki, elmi-texniki tərəqqi müasir sivilizasiyanın əsasını təşkil edir. Elmi-texniki tərəqqi istehsalın bütün elementlərinin mütəmadi yenilənməsi prosesidir və bu prosesdə başlıca yer texnika və texnologiyanın yenilənməsinə məxsusdur. Əmək fəaliyyətində son nəticənin əldə edilməsinə çəkilən insanın fiziki və əqli əməyinin azaldılması fikri qədər bu məsələ də əbədi və daimi xarakter daşıyır [27, s. 45-46].

Böyük sovet ensiklopediyasında elmi-texniki tərəqqiyə elm və texnikanın vəhdətdə, qarşılıqlı şərtlənmiş, yüksələn xətt üzrə inkişafı kimi tərif verilir və göstərilir ki, elmi-texniki tərəqqinin tarixi kökləri 16-18-ci əsrlərin manufaktura istehsalına gedib çıxır. Həmin dövrdə elmi-nəzəri və texniki fəaliyyət yaxınlaşmağa başlamışdır. Buna qədər maddi istehsal yavaş və daha çox empirik təcrübənin toplanması hesabına təkamül etmişdir. 16-cı əsrdə ticarətin, gəmiçiliyin, iri manufakturaların ehtiyacları bir sıra bəlli vəzifələrin nəzəri-eksperimental həllini tələb edirdi. Bu dövrdə İntibah ideyalarının təsiri ilə elm sxolastik ənənələrdən uzaqlaşaraq praktikaya yönəlir. Kompas, barıt və kitab çapı (xüsusən də sonuncu) elmi və texniki fəaliyyətin möhkəm ittifaqının əsasını qoymuş üç möhtəşəm kəşf idi [20].

A.İ.Ançişkinin fikrincə, elmi-texniki tərəqqi prosesi çərçivəsində elm və texnika həmişə öz nisbi müstəqilliklərini qoruyub saxlayırlar. Elmi idrak təbiətin və cəmiyyətin inkişaf qanunlarının aşkar edilməsinə yönəlir, texnika isə özündə iki - elmi və praktiki başlanğıcı birləşdirir. Bu o deməkdir ki, elmin praktiki ehtiyaclara yönəlməsi elm və texnikanın birləşməsi ilə eyni anda baş verir və elm yalnız texnika ilə vəhdətdə sosial-mədəni kateqoriyadan praktiki kateqoriyaya, birbaşa istehsal qüvvəsinə çevrilir [4; 10].

T.P.Lyubanova və D.M.Zozulya hesab edir ki, elmi-texniki tərəqqi dedikdə, istehsalla bağlı biliklərin yeni istehsal sahələrini, mövcud məhsulların yeni variantlarını və tamamilə yeni məhsul və xidmətləri yaratmağa imkan verən tərəqqisi başa düşülür. Bu tərəqqi məhsulu fərqli və daha mühüm xüsusiyyətlə istehsal etməyə imkan verən yeni istehsal metodlarında, konstruktor həllərində, habelə yeni təşkilati və idarəetmə metodlarında öz əksini tapır [18, s. 50].

L.T.Qilyarovskayanın mövqeyinə görə isə elmi-texniki tərəqqi dedikdə, ictimai istehsalın bütün, həm əşyavi-maddi, obyektiv (əmək alətləri və əmək predmetləri), həm də subyektiv (istehsal işçiləri) elementlərinin kəmiyyətcə artması və keyfiyyətcə təkmilləşməsi, habelə elm və texnikanın yeni nailiyyətləri əsasında istehsal prosesində onların balanslı qarşılıqlı təsir metodlarının mükəmməlləşməsi prosesi başa düşülməlidir [9].

Bəzən elmi-texniki tərəqqiyə daha lakonik anlayış verilir və göstərilir ki, elmi-texniki tərəqqi fasiləsiz olaraq yeni biliklərin əldə edilməsi və onların ictimai istehsala tətbiq edilməsi üzrə elə prosesdir ki, bu zaman daha az məsrəflə daha yüksək keyfiyyətli son məhsulun istehsalı üçün mövcud resursların yeni şəkildə əlaqələndirilməsi mümkün olur [22].

Ümumiyyətlə, qeyd olunanlardan da göründüyü kimi, Avropada Qaliley dövründən başlayan elmi-texniki tərəqqi düşüncənin rasionalizmə doğru istiqmətlənməsini özündə əks etdirməklə, insan ağlının qüdrəti ilə bağlı ideyaya əsaslanır. Həmin dövrdən etibarən elm və texnika dünyanın əsaslı surətdə yenidən qurulmasının universal vasitələri kimi nəzərdən keçirilməyə başlamışdır və hesab olunmuşdur ki, insan öz istəyi ilə istənilən məqsədləri qarşısına qoya və onları real olaraq tam şəkildə həyata keçirə bilər [24, s. 60].

*Nəticə*. Beləliklə, bu məqalə çərçivəsində aparılmış təhlilləri və irəli sürülmüş fikirləri aşağıdakı kimi ümumiləşdirmək olar.

1. "Elmi-texniki inqilab" və "elmi-texniki tərəqqi" anlayışlarını fərqləndirmək lazımdır. Onlar bir-biri ilə sıx bağlı olsalar da, eynimənalı məfhumlar deyildirlər. Belə ki, elmi-texniki tərəqqi elmi-texniki inqilabdan daha geniş anlayışdır, yəni elmi-texniki inqilab elmi-texniki tərəqqinin tərkib hissəsi olmaqla, belə tərəqqi prosesinin yalnız müəyyən mərhələsində baş verir. Elmi-texniki tərəqqi həm təkamül, həm də inqilabi xarakterli proses olduğu halda, elmi-texniki inqilab, adından da göründüyü kimi, yalnız inqilabi prosesdir. Həmçinin elmi-texniki inqilab elmi-texniki tərəqqinin

keyfiyyətcə yeni mərhələsidir. Elmi-texniki inqilab gedişində elmin birbaşa istehsal qüvvəsinə çevrilməsi prosesi başa çatır, əməyin xarakteri və məzmunu, habelə cəmiyyətin peşə strukturu əsaslı dəyişikliklərə məruz qalır, elm və texnikanın yeni nisbəti formalaşır.

2. Əvvəllər insanlar daha çox fiziki əməklə məşğul olurdular. Elmi-texniki tərəqqi gedişində insanın əzələ qüvvəsini əvəz edən və dəfələrlə daha çox iş görə bilən maşınların meydana çıxması vəziyyəti tamamilə dəyişdi. Artıq insanların əqli əməklə məşğul ola bilməsi üçün daha çox vaxtları var idi, çünki fiziki işlər böyük ölçüdə maşınlar tərəfindən icra edilirdi. Əqli əmək potensialından istifadənin genişlənməsi yaradıcılıq fəaliyyəti üçün geniş üfüqlər açdı. Bütün bunların nəticəsində yeni biliklərin əldə olunması tempi əvvəlki dövrlərlə müqayisədə əhəmiyyətli dərəcədə yüksəldi. Artıq elmi-texniki tərəqqi elmi-texniki inqilablarla müşayiət olunmağa başladı. Daha sonra elmi-texniki inqilablar arasında zaman fasiləsi də nəzərəçarpacaq dərəcədə qısalmağa başladı.

3. Elmi-texniki tərəqqi əməyin məhsuldarlığının və ictimai istehsalın səmərəliliyinin artırılmasının başlıca faktoru kimi çıxış edir və elmin aparıcı istehsal faktoruna çevrilməsi nəticəsində istehsal qüvvələrinin əsaslı keyfiyyət dəyişikliyinə uğraması ilə xarakterizə olunur. Elmi-texniki tərəqqi elm, texnika və texnologiyanın inkişafı, əmək predmetlərinin, istehsalın təşkilinin forma və metodlarının təkmilləşdirilməsi üzrə arasıkəsilməz prosesdir.

4. Müasir elmi-texniki tərəqqini əvvəlki dövrlərin elmi-texniki tərəqqisindən fərqləndirən başlıca xüsusiyyətlərdən biri onun əhatə dairəsi ilə bağlıdır. Belə ki, əvvəllər elmi-texniki tərəqqi əsasən sənaye sahəsində yeni keyfiyyət dəyişikliklərinə səbəb olurdusa, müasir elmi-texniki tərəqqi bütün sahələrdə: həm maddi istehsal, həm xidmətlər, həm də əqli əmək sahəsində son dərəcə ciddi və əhəmiyyətli elmi-texniki və texnoloji nəticələrin əldə edilməsi ilə xarakterizə olunur.

## ƏDƏBİYYAT

1. Əliyev A.Ə., Şəkərəliyev A.Ş., Dadaşov İ.Ş. Dünya iqtisadiyyatı: müasir dövrün problemləri. Monoqrafiya. Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2003, 455 s.
2. İctimai inkişafın elmi-intellektual potensialı. http://www.felsefedunyasi.org/files/58_iag3fvw1nv.doc [Müraciət tarixi: 23.01.2020].
3. Авдулов А.Н., Кулькин А.М. Парадигма современного научно-технического развития. Монография. М.: ИНИОН РАН, 2011, 304 с.
4. Анчишкин А.И. Наука – техника – экономика. 2-е изд. М.: Экономика, 1989, 383 с.
5. Бернал Дж. Наука в истории общества. М.: Издательство иностранной литературы, 1956, 736 с.
6. Веревичев И.И., Тихонов А.А. Актуальные проблемы философии науки и техники. Ульяновск: УлГПУ, 2015, 220 с.
7. Веревичев И.И. Научно-технический прогресс в контексте теории глобального эволюционизма // Известия Самарского научного центра Российской академии наук, 2017, № 4 (2), с. 320-327.
8. Волков Г.Н. Социология науки. М.: Политиздат, 1968, 328 с.
9. Гиляровская Л.Т. Комплексный экономический анализ хозяйственной деятельности. М.: Проспект, 2006, 360 с.
10. Глазьев С.Ю. Теория долгосрочного технико-экономического развития. М.: ВлаДар, 1993, 310 с.
11. Зверева Е.А. Информация как объект неимущественных гражданских прав // Право и экономика, 2003, № 9, с.22-31.
12. Ильясов А.С. Научно-технический прогресс и его последствия // NovaInfo, 2016, № 54-1, с. 336-338.
13. Информатика. Учебное пособие / Под ред. Е.К.Хеннера. М.: Издательский центр «Академия», 2000, 282 с.
14. Копылов В.А. Информационное право. Учебник. М.: Юристъ, 2002, 462 с.
15. Красилов В.А. Нерешенные проблемы теории эволюции. Владивосток: ДВНС АН СССР, 1986, 91 с.

16. Кун Т. Структура научных революций. М.: Прогресс, 1977, 300 с.
17. Лопатин В.Н. Информационная безопасность России. Человек. Общество. Государство. СПб.: Фонд «Университет», 2000, 212 с.
18. Любанова Т.П., Зозуля Д.М. Инженерный маркетинг как инструмент повышения эффективности развития промышленных предприятий. Саарбрюкен: LAP LAMBERT, 2012, 177 с.
19. Научно-техническая революция: характерные черты и составные части. https://www.yaklass.ru/materiali?mode=cht&chtid=215 [Müraciət tarixi: 23.01.2020].
20. Научно-технический прогресс. http://www.endic.ru/enc_sovet/Nauchno-tehnicheski-progress-40252.html [Müraciət tarixi: 23.01.2020]
21. Негодаев И.А. Философия техники. Учебное пособие для технических вузов. Ростов н/Д: ДГТУ, 1997, 319 с.
22. Понятие научно-технического прогресса. https://psyera.ru/3850/ponyatie-nauchno-tehnicheskogo-progressa [Müraciət tarixi: 23.01.2020].
23. Поппер К. Логика и рост научного знания (избранные работы). М.: Прогресс, 1983, 605 с.
24. Степурко Т.Н., Кибец Н.И. Гуманизм, экология и прогресс / Научно-технический прогресс как фактор развития современной цивилизации: материалы международной научно-практической конференции 15–16 ноября 2011 года. Пенза – Семей: Научно-издательский центр «Социосфера», 2011, с. 60-62.
25. Угринович Н.Д. Информатика и информационные технологии. М.: БИНОМ, 2003, 68 с.
26. Черных А.В. Обеспечение безопасности автоматизированных информационных систем // Советское государство и право, 1990, № 6, с.116-122.
27. Ястребова М.В., Ефимова Д.В. Научно-технический прогресс в экономике / Научно-технический прогресс как фактор развития современной цивилизации: материалы международной научно-практической конференции 15–16 ноября 2011 года. Пенза – Семей: Научно-издательский центр «Социосфера», 2011, с. 44-51.

**ZAMIG ASLANOV**
*Head of department Comparative analysis branches of law*
*of the Institute of Law and Human rights of ANAS, Ph.D in law, associate professor*

## THE NATURE AND FEATURES OF SCIENTIFIC-TECHNICAL PROGRESS

In this article have been analyzed the nature and features of scientific-technical progress. Author shows distinctive features of notions of scientific-technical revolution and scientific-technical progress, also distinctive features of modern and previous scientific-technical progress. Scientific-technical progress defines as continuous process on the development of science, technique and technology, on perfection of labor subjects, forms and methods of organization of production.

*Keywords***:** scientific researches, scientific-technical progress, scientific-technical revolution, civilization, innovation, production forces, technology.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 23 yanvar 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2020-ci il.*
*Rəyçilər: f.ü.f.d. Şikar İbrahimov, f.e.d.Zeynəddin Hacıyev.*

**UOT 1(09)**

**RƏBİYYƏT ASLANOVA**
*Fəlsəfə elmləri doktoru, professor,*
*Bakı Dövlət Universitetinin Fəlsəfə tarixi*
*və mədəniyyətşünaslıq kafedrasının müdiri*
**E-mail: rabiyyat.aslan@mail.ru**

# XXI ƏSRİN ÇAĞIRIŞLARI VƏ TÜRK DÜNYASI BÖLGƏSİNİN FƏLSƏFİ İRSİ

"XXI əsr türk dünyasının əsri olmalıdır.... Biz öz tariximizi, bu reallıqları dünya miqyasında daha da dolğun təqdim etməliyik. Nəyə görə? İlk növbədə, bizi tanısınlar, görsünlər ki, nə qədər zəngin tariximiz var. Digər tərəfdən, bizə qarşı təxribatlar aparılır. Yəni, ermənilər tarixi təhrif etməyə çalışırlar və diaspor imkanlarından istifadə edərək, bəzən buna nail olurlar. "Erməni alimləri" xüsusilə regionun, Cənubi Qafqazın tarixi ilə bağlı yalan və uydurmalar dərc edirlər."

**Prezident İlham Əliyev**

*Tarixi zamanın hazırki XXI əsr zirvəsindən fəlsəfi düşüncəyə – "ümumilikdə hansı dəyişikliklər və meyllər özünü göstərir?" sualı ilə nəzər salsaq – Türk dünyasında fəlsəfi fikir sistemində baş verən ciddi, əhəmiyyətli yeniliklərin şahidi oluruq. Qlobal inkişaf konsepsiyasının Qərb yanaşmasına əsaslanmasından fərqli olaraq Qlobal və milli inkişafın türk modelinin aktivləşməsi təkzib olunmaz faktdır. Ötən əsrin sonlarından başlayaraq Sovetlərin dağılması ilə müstəqil türk dövlətlərinin yaranmasına, böyük intellektual-mədəni məkanın formalaşmasına başlanıldı, türk dünyasında tarixən dönüş sayıla biləcək yeni mərhələ start götürdü. Qloballaşma proseslərinin təkan verdiyi dəyişikliklərlə paralel olaraq, müstəqil türk dövlətlərinin birlik və səfərbərlik modellərinin, qarşılıqlı mədəni əlaqələrin yaradılması üçün axtarışlara təkan verildi, əməkdaşlıq və inteqrasiya prosesinin fəlsəfəsi formalaşmaga başladı. Əsas məsələ qlobal çağırışlara cavab vermək iqtidarında olan türk xalqlarının elmi-fəlsəfi irsinin tədqiqi və təqdimatı, dünyaya alternativ türk baxışının mövcud olduğunu göstərməkdir. Tariximizin, dəyərlərimizin, mənəvi irsimizin qoruyaraq gələcəyə ötürülməsi istiqamətində türk filosoflarının elmi əməkdaşlığı yeni tarixi reallığın əsas vəzifəsidir.*

*Açar sözlər*: Türkdilli dövlətlər, fəlsəfə, "türk fəlsəfəsi"anlayışı, dünya irsi, türk xalqları, mədəniyyət, dəyər.

*Giriş*. Son bir neçə əsrdən çox müddətdə istər dövlətlərarası əməkdaşlıq sahəsində,istərsə də dövlətdaxili milli quruculuq və inkişaf proseslərinin nəzəri –fəlsəfi əsaslarının müəyyən edilməsində Qərb dövlətləri nəinki yüksək fəallıq nümayiş etdirmiş, hətta qlobal dünyada ən müxtəlif: siyasi, iqtisadi, hüquqi, mədəni və s. baxışlar sisteminin əsası ola biləcək yeganə elmi model kimi özünü qəbul etdirə bilmişdir. Xüsusilə vurğulanmalıdır ki, Qərb məkanında ortaya çıxan istər dövlət-cəmiyyət münasibətlərinin,birgəyaşayışın fəlsəfəsi, tarixin fəlsəfəsi, inkişafın fəlsəfəsi,insan fəlsəfəsi və s.sahələrdə təlim və konsepsiyalar "universal" hesab edilmişdir.Bütün qitələrdən olan ölkələr Qərb modelli milli modellərinin və buradan yönəldilən beynəlxalq münasibətlər sisteminin-könüllü olsun yaxud təzyiq altında- qəbul və inkişaf etdirilməsinin iştirakçılarına çevrilmişlər. Məhz həmin məkanda hər hansı bir dövlətin fəaliyyətini dəyərləndirən meyarlar müəyyən edilmişdir. Bununda da dünya birliyində qlobal sülh və ədalətə, beynəlxalq hüquq və nizama, bir Qərb baxışı ilə yanaşma hakim olmuşdur. Bu vəziyyətin formalaşması ilk baxışda sezilməsə də, ən qabarıq şəkildə elmi-fəlsəfi nəzəriyyə və konsepsiyalara dərindən nüfuz etmişdir. Nəticədə, məs. ictimai-humanitar elmlər sahəsində Qərb alimlərinin, filosofların, dövlət və ictimai xadimlərinin baxış və mövqeləri birtərəfli olaraq daha geniş yayılmış,daha dərindən öyrənilmişdir.

Bu ümumi mənzərə fonunda, bəşəriyyərin elm xəzinəsinə misilsiz adlar və fəlsəfi düşüncə xəzinəsi tədqim etmiş Şərq, islam, türk məkanının nəzəri irsi Qərblə müqayisədə arxa planda

qalmışdır. XXI yüzillikdə dərin böhran yaşayan Qərb siyasi, iqtisadi, mədəni və s. nəzəriyələrin böhranı fonunda - Türk dünyasının gələcəyini quracaq olan yeni nəsil gənclərin əksər hallarda- özlərinin hansı irsin varisi olduqları haqda dərin və ətraflı məlumata malik olmaması elmi reallıqdır.

*Mövcud dünya nizamına, beynəlxalq ədalət sisteminə, dövlət-cəmiyət münasibətlərinə birtərəfli "Qərb baxışı" və onun nəticələri.* Ötən əsrin sonlarında ikiqütblü dünya düzəninin çökməsi və qlobal geosiyasi sistemin dərin transformasiyaya uğraması nəticəsində dünya sisteminin inkişafına dair Qərb elmi-nəzəri irsinin, liberal fəlsəfəsinin dəyəri göylərə qaldırıldı. ABŞ alimi Frensis Fukuyama "Tarixin sonu və Postinsan"adlı əsərində dünyada dövlətlər üçün istər Şərqdə,istərsə də, Qərbdə liberal inkişaf modelinə alternativ olacaq heç bir siyasi quruluşun məqbul olmaması iddiasını irəli sürdü (3). F.Fukuyama həmçinin liberalizm fəlsəfəsini-dövlət quruculuğu üçün Qərbdən dünyaya təqdim edilən triumfal ideyanın-zəfərin zirvəsi bəyan etdi.

Artıq bu gün- XXI əsrin iki onilliyi başa çatmaq üzrədir. Dünyada gedən ziddiyyətli proseslər, Qərb alim və filosofları tərəfindən göylərə qaldırılan liberalizmin universal fəlsəfi model kimi iflasa ugraması, qlobal iqtisadi böhran, sivilizasiyalar arası münasibətlərdə baş verən dərin çatlar, multikulturalizm siyasətindən rəsmən imtina edilməsi və s. meyllər, nəinki böyük güc hesab edilən dövlətlərin liderləri (V.Putin, D.Tramp və s.) tərəfindən bəyanatlar verilir. Bu nəzəriyyəni mütləq hesab edən Qərb alimləri tərəfindən onunla bağlı tənqidi və etiraf xarakterli tədqiqatlar işıq üzü görür.

Beləliklə də, qlobal sivilizasiyanın belə demək olarsa kollektiv zəkası, xüsusilə də, son illər aparıcı hesab edilən Qərb fəlsəfi-nəzəri düşüncəsi hazırda tarixinin ən ciddi düşüncə problemini yaşamaqdadır. Dünya birliyinin gələcək inkişafının konturlarını müəyyən edə biləcək yeni fəlsəfi paradiqmaya, yeni tarix fəlsəfəsinə dərin elmi və sosial sifarış mövcuddur.

Müasir dünyanın taleyüklü problemlərinin ilk baxışda siyasi,hərbi, elmi-texnoloji vasitələrlə çözülə bilməsi ilə bağlı qənaət dəyişikliyə uğramışdır. Ictimai şüur,milli və mədəni identiklik,dəyər oriyentasiyaları kimi fundamental sahələrin təsir altına alınması uğrunda mübarizə aşkar fazaya keçmişdir. Milli dövlətlər,cəmiyyət "yumşaq güc" adlanan geosiyasi konsepsiya fonunda dərin təzyiqlərə məruz qalır.

Tarixi zamanın hazırkı XXI əsr zirvəsindən fəlsəfi düşüncəyə -"ümumilikdə hansı dəyişikliklər və meyllərin özünü göstərir?"- sualı ilə nəzər salaq. Reallıqda bugünkü qlobal inkişaf konsepsiyalarının birtərəfli Qərb yanaşmasına əsaslanması inkaredilməzdir. Qlobal miqyasda dünyanı bürüyən böhran və ziddiyyətlərin baş verməsində əsas hesab edilərək yayılan, fəaliyyət üçün rəhbər prinsiplərə çevrilən Qərb fəlsəfəsinin rolu yaxud "gunahı" varmı? Ən yığcam şəkildə cavablandırmağa çalışsaq, qlobal ədalətin dərin böhrana qərq olmasında bütövlükdə "avropamərkəzçilik, ikili standartlar, multikulturalizmin iflası, tarixin saxtalaşdırmaqla xalqları, maddiyyat və mənəviyyat nisbətində birincinin üstünlük əldə etməsi, "qədim-mədəni, yeni və ümumiyyətlə tarixsiz" kimi bölgülərə ayırmaq və s." kimi meyllərin normaya çevrilməsində təsiri olan birtərəfli baxışı xeyli təkmilləşdirilməyə möhtacdır. XX əsrin sonlarından tarix fəlsəfəsinə sivilizasion yanaşma ortaya çıxsa da, hələlik Qərb baxışının "universallığı"na münasibətdə tədqiqatçıların mövqeləri daha qətiyyətlə və ardıcıl olaraq səslənməmişdir.

Dövlət-cəmiyyət münasibətlərində son bir neçə onillik müddətində liberalizm ideologiyasının hakimliyi, fərdin dövlətlə nisbətdə yüksək statusu, onun azadlığının "göylərə qaldırılması", ifrat individualizm kimi meyllər məhz liberalizm ideoloqlarının yenidən "güclü dövlət" tezisini irəli sürməsini şərtləndirmişdir. Digər tərəfdən Şərqdə və Qərbdə həm dövlət, həm də insana dair baxışlarda da fərqli yanaşmaların olması sivilizasion amillərlə bağlı olan təbii-tarixi prosesdir.

*Qlobal və milli inkişafın türk modelinin formalaşmasının aktuallığı və ona təkan verə biləcək amillər.* Bir həqiqətdir ki, Türk xalqları özlərinin çoxəsrlik tarixi boyu bəşər mədəniyyətinə böyük töhfələr vermiş, onu zənginləşdirmişlər. Tarixin dərinliklərindən gələn zəngin kökləri,bir-birinə mənəvi bağlılığı onları bütün bu mərhələlərdə ağır sınaqlardan çıxarmışdır. Məhz hazırkı reallıqda da türk dünyası özünün malik olduğu möhtəşəm fəlsəfi irsi zəmin götürərək yeni ideya-nəzəri paradiqmaları irəli sürməyə təşəbbüs göstərməlidir.

Türkdilli xalqların çoxsaylı dövlətlərinin mədəniyyət və sivilizasiya kimi ənənəvi və müasir varlığının əsasında duran təməl fəlsəfi, sosial-mədəni "genetik kodlar" - ideya və təlimlərdən, həyat

tərzi və fəaliyyətin praqmatik prinsipləri kimi reallığa nüfuz etmiş, əsrdən-əsrə keçərək təfəkkür və düşüncəni önləndirən həlledici amilə çevrilmiş, inkişaf yolunu müəyyən etmişdir.

Tarix boyu fəlsəfənin, eləcə də, bəşəriyyətin ən böyük mütəfəkkirlərinin missiyası həm də, uğurlu ümumbəşəri nizam, harmonik sivilizasiya idealı ilə yanaşı olaraq, optimal dövlət quruluşu, cəmiyyətdə insanlararası münasibətlər modelinin axtarışları olmuşdur. Türk dünyasının fəlsəfi, ictimai-siyasi fikir tarixində bu sahədə çoxsaylı təlim və nəzəriyyələr meydana gəlmiş, ümumdünya irsinin zəngin xəzinəsinə çevrilmişdir.

Qərblə müqayisədə, Şərqin ideya və təlimlərinin nisbətən arxa planda qalması müxtəlif səbəblərlə izah edilir. Onlardan biri-uzun zamanlardan bəri səslənən - "Türklər tarixi yaratmışlar, onu yazmağa fürsət tapmamışlar yaxud yazmamışlar", həmçinin "qılınc-qələm"paralelləri və s.-dir. Halbuki mütəfəkkir şairimiz Hüseyn Cavidin fərqli "baxışı-vəsiyyəti" də yaddaşlarımızda həkk edilməlidir:

Turana qılıncdan daha kəskin ulu qüvvət:
Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət.

Ötən əsrin sonlarından başlayaraq, Sovetlərin dağılması ilə müstəqil türk dövlətlərinin yaranmasının təkan verdiyi, Türk dünyasında tarixən dönüş sayıla biləcək yeni mərhələ başlanğıcını götürdü. Belə ki, sirr deyil ki Sovet dövründə elmin siyasiləşməsi, xüsusilə də ictimai-humanitar elmlərin "qırmızı" ideologiyaya tabe etdirilməsi cəmiyyətşünaslığa dair tədqiqatların inkişafına, insanlararası münasibətlərin, dövlət idarəçiliyinin elmi əsaslar üzərində qurulmasına böyük əngəl olmuşdur. Qloballaşma proseslərinin təkan verdiyi proseslərlə paralel olaraq, müstəqil türkdilli dövlətlərin birlik və səfərbərlik modellərinin, assosiasiyalarının, Avropa dövlətlərinin inteqrasiya təsisatlarına adekvat olan, institutsional-təşkilatlanma Postsovet Türk respublikalarının siyasi müstəqillik əldə etməsi mövcud əlaqələr sisteminə yenidən baxılmasına və qarşılıqlı mədəni əlaqələrin yaradılması üçün yollar axtarılmasına şərait yaratdı. Bu məkanda elmi-fəlsəfi irsin daha dərin tədqiqi üçün Beynəlxalq Türk Akademiyası təsis edildi. Türkdilli ölkələr tərəfindən müxtəlif istiqamətlərdə əməkdaşlığı əhatə etmək üçün mühüm statusa malik institusional strukturlar yaradıldı. Bu strukturlara - TürkPA, TÜRKSOY, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, Ağsaqqallar Şurası, eləcə də Türk Ticarət-Sənaye Palatası daxildir. Azərbaycan Respublikası ilk gündən TÜRKSOY-un yaradılmasında təşəbbüskarlıq göstərdiyi kimi, onun sonrakı fəaliyyətinin intensivləşməsində, yeni əməkdaşlıq təsisatlarının formalaşmasında də əzmli mövqeyində durub. Azərbaycan rəhbərliyi türk dünyası xalqlarının elm və mədəniyyətinin inkişafında və təbliğ olunması yönündə ardıcıl olaraq fəaliyyətini genişləndirmək və gücləndirmək üçün əlindən gələn töhfəni verir və verəcək.

Bu yaxınlarda - 2019-cu il oktyabrın 15-də Bakıda - Türk Şurasının VII Zirvə Görüşü Naxçıvan Sazişinin imzalanmasının onuncu ildönümünə təsadüf edən - Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü keçirilib. Azərbaycan-Qırğızıstandan Türk Şurasına sədrliyi qəbul edib. Zirvə Görüşündə haqlı olaraq, iştirakçıları tərəfindən "tarixi dönüş" əhəmiyyəti daşıdığı, Türk dövlət başçılarının 10 il əvvəl Azərbaycandan başlayan əməkdaşlığına Macarıstan və Özbəkistanın da qoşulması ilə birliyin daha da güclənəcəyinə inamın artması vurğulanıb. Sitat: "Özbəkistanın tamhüquqlu üzv dövlət kimi Türk Şurasına qoşulması çox əlamətdar addımdır, Türk Şurasının coğrafiyasını genişləndirir və gücümüzü artırır. Macarıstanda Şuranın nümayəndəliyinin ofisinin açılması Avropa dövlətləri və təsisatları ilə daha sıx əməkdaşlıq üçün yeni imkanlar açır. Bu gün çıxışlarda səslənən dəyərli fikirlər əminəm ki, bizim işimizi zənginləşdirəcək və bu təkliflərin reallaşması əməkdaşlığımızın keyfiyyətcə yeni pilləyə qalxmasına imkan yaradacaqdır. Təqdirəlayiq haldır ki, TÜRKSOY da dahi Azərbaycan şairi İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi münasibətilə 2019-cu ili "Nəsimi ili" elan edib" (2).

Sözü gedən sammitdə-Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun" yaradılması ilə Türk dünyasının elm, təhsil və mədəniyyətinin inkişafına verdiyi önəm xüsusi qeyd edilib. Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsində mədəni irsin məhv edilmə təhlükəsi altında olmasına diqqəti cəlb edib. Türk sivilizasiyasının bəşər elminə verdiyi töhfənin təbliğ edilməsində və hazırkı inkişafı ilə bağlı problemlərin həlli üçün daha sıx birləşməli olması gündəmə gətirilib. Türk Şurasının VII Zirvə Görüşündə bu təşkilatın öz

inkişafında tamamilə yeni-növbəti mərhələyə keçildiyi, gündəlikdə “Türk baxışı 2040” proqramının işlənilməsi məsələsinin durduğu da qeyd edildi. Bununla əlaqədar Şuranın katibliyi tərəfindən təşkilatın perspektivlərini müəyyən edən “Türk Şurası 2025” adlı yeni strategiya hazırlanır.

Beləliklə, bəzi qənaətləri yekunlaşdırmaq istəsək, ***bu gün üçün demək olar ki, türk dünyası siyasi liderlərinin səyləri nəticəsində-əməkdaşlıq və inteqrasiyasının konsepsiyası ümumən formalaşıb və qəbul olunub.*** Eyni zamanda, türkdilli dövlətlərin elm adamları və filosoflarının, ziyalıların bu konsepsiyanı gerçəkləşdirmək yönündə cəhdləri, həmin proseslərlə ayaqlaşmaq səyləri yetərlidirmi?

Türkdilli dövlətlər arasında indiyə qədərki dostluq və əməkdaşlıq proseslərinin nəticələrini ən ümumi şəkildə səciyyələndirməyə çalışsaq, deyə bilərik. Siyasi, iqtisadi, mədəni əməkdaşlıq və s. sahələrdə bu proseslər son dərəcə çoxşaxəli, rəngarəng məzmunlu tədbirlərlə davamlı olaraq yüksəlməkdədir. Əməkdaşlığın məhz bu çoxşaxəli məzmununun təhlili onun önəmli olan digər çox mühüm istiqamətdə - elmi-fəlsəfi əməkdaşlıq sahəsində siyasi liderlərin ortaya qoyduğu əzmli addımlarla ayaqlaşmaq tələbini irəli sürür.

Burada qarşıda duran mühüm məsələlərdən biri də, mövcud qlobal çağırışlara cavab vermək potensialı olan türkdilli xalqların fəlsəfi irsini, hazırda yaşanan qlobal böhran, sivilizasiyalararası münasibətlərin miqrasiya axınında humanitar faciə həddinə çatan problemlərin,multikulturalizmin fəlsəfəsinin çökməsi və s. istiqamətlərdə həlli üçün mövcud olan cavabların aşkara çıxarılması və dünyaya alternativ türk baxışının mövcud olduğunu bildirməkdir.

Elə isə nədən başlamalı? Bəzi filosof həmkarlarımızın fikrinə görə, hazırkı dövrdə türk fəlsəfəsi anlayışı ümumiyyətlə yoxdur. Bunun siyasi və ideoloji səbəblərini, avropamərkəzçiliklə bağlı olması məlumdur. Türkdilli xalqların fəlsəfəsinin öyrənilməsi böyük bir vəzifədir (1).

Ortaq fəlsəfi-mədəni, mənəvi təməllərə malik olmaqla yanaşı, həm də müxtəlif ənənə və özünəməxsusluğa malik olan türk dövlətlərinin siyasi liderlərinin bir araya gəlməsi, regionlar və dünya üçün vacib olan məsələlərin həllində ortaq mövqe ortaya qoyması-elmi-fəlsəfi əməkdaşlıq sahəsində də bir örnək kimi qəbul edilməlidir.

Təsadüfi deyil ki, Türk Tarix Cəmiyyətinin prezidenti Refik Turan türk dövlətlərinə müstəqilliyini qorumaq və zamanın mürəkkəb vəziyyətindən çıxmaq yönündə məsələləri həll edərkən ilk növbədə türk fəlsəfəsinə, mədəniyyətinə və ədəbiyyatına müraciət etməyi tövsiyə etmişdir. “Yaşadığımız XXI əsr - çox vacib bir zaman kəsiyidir. Biz bütün tariximizi, dəyərlərimizi, mənəvi irsimizi indiki və gələcək nəsillərimizə ötürməliyik. Tarixini unudan nəslin gələcəyi yoxdur. Bu gün türk dövlətləri üçün ən böyük missiya-müstəqilliklərini qorumaq və möhkəmləndirmək, birlik və səfərbərlikdir" (12).

Qeyd edilən məsələlər-fəlsəfə elminin bütün sahələrində rəhbər prinsiplər kimi qəbul edilməlidir. Biz xüsusilə də, "tarix fəlsəfəsi" adlanan sahə ilə bağlı düşüncələrimizi bölüşmək istərdik. Məlum olduğu kimi, tarixin fəlsəfəsi fəlsəfi biliyin xüsusi sahəsi kimi bəşər tarixinin ümumi təhlilinə yönəlib. Tarixin fəlsəfəsinin əsas məsələləri - bəşər tarixinin başlanğıcı, yəni tarixin reallıqda baş vermiş gerçək tarixi hadisələrə söykənməsi, tarixin müəyyən bir istiqamətinin mövcudluğu, şəxsiyyətin yoxsa kütlənin tarixin yaradıcısı olması, tarixi hadisələrin yaranması və s. ilə bağlıdır. Tarix fəlsəfi baxışın zərurilyi həm də onunla şərtlənir ki, tarixdə baş verən proseslərə münasibətdə tarixi tədqiq edən alimlərlə, tarixə epoxal zamanlar üzərində nəzər salaraq təhli edən filosofların baxışları eyni olmur (6).

Alman filosofu D.Rikertin təsnifatına görə üç qisim tarix mövcuddur: 1.empirik tarix; 2.nəzəri tarix; və 3.tarix fəlsəfəsi. Müəllifə görə, üçüncüsü, yəni tarix fəlsəfəsinin inkişaf etdirilməsi çox önəmlidir. Tarix fəlsəfəsinin üç vəzifəsi var:

1.Tarixi prosesin ümumiləşdirilməsi, vahid dünya tarixində fərdi "hekayələrin" azalması;

2.Tarixin mənasının axtarılması;

3. Tarixi idrakın metodologiyası.

Bir məsələ də diqqət mərkəzində olmalıdır ki, yazının əvvəlində qeyd edildiyi kimi, əsasən ötən - XX əsrdən etibarən tarixin fəlsəfəsi ilə bağlı paradiqmal böhranlar aşkara çıxmağa, yaşanan mürəkkəb ziddiyyətlərdə əks olunmağa başlayıb (13).

Qeyd edilənlər baxımından, tarix fəlsəfəsinin qlobal ümumdünya, sivilizasion və lokal milli problemlər müstəviləri var. Bu da öz növbəsində qloballaşan dünyanın ümumi tarixi gedişatında "tarix fəlsəfəsinin milli məktəbləri" mövzusunu müzakirələrin mərkəzinə gətirir. Sivilizasion aspektdə Şərqin və Qərbin tarixi fəlsəfi fikir paradiqmaları- avropamərkəzçiliyin klassik, modern və postmodern müstəvilərinin hazırda qlobal hegemonizmə və messianizmə xidmət edən, "vesternləşmə-qərbləşmə", "geomədəniyyət" və s. kimi konsepsiyalar nümunəsində bəhs edilən fundamental prinsiplərdən uzaqlaşması həm tarixçiləri, həm də filosofları düşündürməkdədir. Birmənalı olaraq dərk edilməlidir ki, tarix fəlsəfəsi anlayışı elmi dövriyyəyə Qərb məkanında gəlsə də, nə Qərb, nə də ki, Şərq ümumbəşəri qlobal paradiqmalarının yaradılmasında monopoliyaya iddialı ola bilməz. Milli tarixi fəlsəfi fikir məktəbləri ümumi tarixi prosesin adekvat izahı işinə öz töhfələrini verə, onu zənginləşdirə bilərlər.

Türk xalqlarının yaşadığı, yayıldığı və fəth etdikləri çoğrafiya miqyası baxımından dünyanın heç bir ölkəsi ilə müqayisə edilə bilməz. Məşhur fransız filosofu S.Monteskye "Fars məktubları" adlı kitabında qədim türklərin hərbi sənətindən, Böyük Çöl köçərilərinin özünəməxsus ənənlərindən bəhs edərək yazıb: "Dünyada başqa heç bir millət bu qədər başqa dövləti və xalqları fəth etməyib və zaman müddəti baxımından bu qədər çox illər ərzində fəth olunan xalqları öz hakimiyyəti altında saxlaya bilməyib" (11).

Sakit Okeandan Atlantikaya qədər türk çöğrafiyası uzanıb. Xüsusilə Türk Xaqanlığı, Çingiz xan imperiyası, Teymurilər imperiyası, Qəznəvilər, İrandakı Moğollar, Cəlairlər, Osmanlı İmperiyası və s. Türklərin nəinki dünyanın yarısını zəbt etməyi, eyni zamanda uzun müddət hökmran qalmağı bacarmaları sirri də var. Onlar zamanları üçün ən yaxşı ordu yaratdıqlarını və ən yaxşı hərbi sənətinin sahibi olduqlarını sübut ediblər. L.N.Qumilyov bu məqamla bağlı heyranlığını belə ifadə edirdi: "Onlar qələbəyə layiq idilər" (10, s.86).

***Nəticə.*** Türklərin mədəniyyəti və sivilizasiyasının bütün sahələrdə elmi-fəlsəfi irsi, qazandığı uğurların miqyası, eyni zamanda görüləcək işlərin əhatəsi o qədər genişdir ki, onların bir məqalədə əhatə edilməsini mümkünsüz edir. Bu məqalədə əsas diqqət- türk xalqlarının mənəvi irsi zəminində, onun dirçəldilməsi, tarixdə yaşanan cahanşümul fəth dövrlərinin təhlili və XXI əsrdə türh dünyası elmi və fəlsəfəsi sahəsində həmin tarixi qələbələrə layiq olan mövqelərin ortaya qoyulması, böhran yaşayan Qərb ideya və cərəyanlarına alternativ baxışın bəyan etmək üçün səylərin birləşdirilməsinə cəlb etməkdir. Türk dünyası siyasi liderlərinin yaratdığı təsisatların verdiyi imkanlarla onu-elmi-fəlsəfi konsepsiyası və birgə fəaliyyəti aydın şəkildə təmin edən proqramı,dəqiq oriyentirlər müəyyən edilməlidir.

Tarix boyu humanizm, tolerantlıq, sülh və birgəyaşayış kimi bəşəri dəyərlərin daşıyıcısı olan türk dünyasının - miqrasiya böhranı, beynəlxalq terrorizmlə mübarizə, ksenofobiya və islamofobiya, ifrat siyasi ideoloji hərəkatların yüksəlməsi, qlobal problemlərin həllində çıxış yolu ola biləcək yanaşmalar ortaya qoyması fonunda, dünya tarixinə yalnız bir Qərb baxışının mövcudluğu məqbul hal sayıla bilməz.

Dünyada gedən proseslərə, qlobal inkişafın mürəkkəb problemlərinə bu fəaliyyət konsepsiyasından - ilk növbədə türklərin özünüdərkini, türk mənəviyyatını, yüksək siyasi-əxlaqi potensialını dirçəltmək, müasir Qərbin müasir bazar və istehlak sivilizasiyasının formalaşdırdığı maddiyyata önəm verən dövlət və nihilist-fərdiyyətçi insan obrazına alternativ olan ali dəyərlərin daşıyıcısı olan mənəviyyatlı qlobal cəmiyyətə fərqli və nikbin perspektivlər vəd edən insan obrazının, formalaşdırılması gündəmdə durur. Türk dövlətlərinin tarix fəlsəfəsində, mədəniyyət və yazılı abidələrində bu insan və dövlət obrazının qaynaqları kifayət qədərdir.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Bakı Sammitindəki çıxışında qeyd edib. "Türk Şurası kimi təsisatların dünya siyasətində rolunun daha da artdığını görürük. Türk Şurasının digər çoxtərəfli platformalarla əməkdaşlığına və əlaqələndirilmiş şəkildə fəaliyyət göstərməsinə önəm veririk. Şuranın BMT Baş Assambleyasında və İslam Əməkdaşlıq Təşkilatında müşahidəçi statusuna sahib olmasını arzu edirik. Beləliklə, türk dünyasında ortaq bir fondun qurulması təklifini dəstəkləyirik. 160 milyona yaxın sayda qardaşlıq ailəmiz möhkəmlənir, genişlənir və inkişaf edir. Hazırda Türk Şurasına üzv ölkələrdən təxminən 1300 tələbəyə Türkiyə təqaüdləri ilə universitetlərdə təhsil almaq imkanı təqdim edirik. Türkiyə universitetlərindən məzun olan on

minlərlə tələbəmiz, bu gün həkim, mühəndis, məmur, siyasətçi kimi türk dünyasına qürurla xidmət edir. Başda mədəniyyət və təhsil olmaqla elm, tarix, gənclər, idman, arxiv, kitabxanaçılıq kimi sahələrdəki fəaliyyətimizi genişləndirərək davam etdirməliyik. Beləliklə, mərkəzi Bakıda yerləşən TürkPA-nı, Türk Mədəniyyəti və İrsi Fondunu, Astanadakı Türk Akademiyasını və Ankarada fəaliyyət göstərən TÜRKSOY-u hamımız birlikdə dəstəkləməliyik. Bu təşkilatlarımız arasında əlaqələri genişləndirəcək əlaqələndirmə komitəsinin yaradılmasına dair qərarı Zirvə Görüşündə qəbul etməyi nəzərdə tuturuq" (8).

Bundan əlavə, XX əsrin axırlarında ABŞ-ın Azərbaycana marağının artması, ABŞ-ın Azərbaycan siyasətində bəzi müsbət dəyişikliklərlə səciyyələndi. Belə ki, rəsmi Vaşinqonun ölkəmizə diqqətinin artmasında, ABŞ şirkətlərinin Azərbaycanın karbohidrohen ehtiyatlarının istismarı və nəqlinə fəal şəkildə

cəl olunması, ABŞ-ın Cənubi Qafqaz siyasətinin onun geostrategiyasının əsas amilinə çevrilməsi və bu kontekstdə Azərbaycana xüsusi əhəmiyyət verməsi, Aİ və ABŞ tərəfindən önəm kəsb edən Böyük İpək Yolunun bərpası (Şərq-Qərb nəqliyyat dəhlizinin yaradılması) haqqında önəmli layihənin reallaşmasında Azərbaycanın açar ölkə olması faktı da mühüm rol oynamışdır (3.s, 515-516).

İki dövlət arasındakı əlaqələrə təsir edən amilləri siyasi, iqtisadi, hərbi və mədəni olmaqla dörd kateqoriyaya ayırmaq olar. Azərbaycan-ABŞ münasibətlərindəki siyasi amil dedikdə, əsasən Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesində ABŞ-ın Azərbaycana dəstəyi, ABŞ-ın Ermənistan Azərbaycan arasındakı Dağlıq Qarabağ konfliktinin nizamlanması istiqamətində gördüyü işlər, bu tədbirlərin Azərbaycanın beynəlxalq hüquq tərəfindən tanınmış sərhədləri və ərazi bütövlüyü çərçivəsində ölkəmizin haqlı mövqe və mənafeyini qorumaqla həyata keçirilməsi, xüsusilə ABŞ ictimaiyyətinin diqqətini bu münaqişəyə yönəltmək və bununla da dünya ictimai birliyini beynəlxalq hüquqa, demokratiyaya zidd anlayış olan ikili standartların tətbiqindən yayındırmaq kimi məsələlər nəzərdə tutulur. Sadalanan fikirlər arasında Azərbaycan xarici siyasət sferasında ən həyati əhəmiyyətli məsələ də məhz Dağlıq Qarabağ problemidir. Bu nöqteyi nəzərdən, ABŞ Konqresinin qəbul etmiş olduğu 907-ci əlavə həm münaqişənin sülh yolu ilə həll edilməsi, həm də iki dövlət arasındakı əlaqələrə ciddi zərbə vurmuşdur.

Belə ki, 1992-ci il 24 oktyabr tarixində ABŞ Konqresi tərəfindən erməni lobbisinin təsiri ilə, Azərbaycana hər cür yardımın göstərilməsini qadağan edən “Azadlığı Müdafiə Aktı” (Freedom Support Act) adlı sənəd qəbul edildi. Bu qanunun 907-ci bölməsinə edilən düzəlişə əsasən ABŞ hökümətinin Azərbaycanın rəsmi strukturlarına humanitar yardım göstərilməsi qadağan olundu. ABŞ Konqresi 907-ci düzəliş üçün Azərbaycanın münaqişədə olduğu Ermənistanı guya blokadada saxlaması, Dağlıq Qarabağ ermənilərinə qarşı zorakılıq işlətməsi səbəblərini əsas kimi qəbul etdi. Ancaq, Azərbaycan torpaqlarının 20%-nin Ermənistan tərəfindən işğal edilməsi həqiqəti və faktı, təcavüzkar dövlət olan Ermənistana qarşı hər hansı bir sanksiyaların və ya qadağaların qəbul edilməsiylə nəticələnmədi (10, s.165).

Baxmayaraq ki, sabiq prezident Bill Klinton dövründə erməni lobbisi öz təsir gücü baxımından xüsusi seçilirdi, artıq Corc Buşun prezidentliyi dövründə qlobal təhlükəsizlik məsələləri ABŞ xarici siyasət xəttinin özəyini təşkil edirdi. Bunu artıq zamanla erməni lobbisinin müəyyən qədər ABŞ-da təsir dairələrinin zəifləməsi və ABŞ-ın öz dövlət maraqlarını hər şeydən daha üstün hesab etməsi faktı göstərdi (8, s.3049-3055). Artıq, 2001-ci ilin 24 oktyabr tarixində ABŞ Senatı 907-ci düzəlişin qüvvəsinin dayandırılması haqqında senator Sem Braunbekin layihəsini təsdiqlədi. Daha Sonra 2002-ci ilin yanvar ayında isə, prezident C. Buş tərəfindən “Azadlığa Dəstək Aktına” 907-ci əlavənin qüvvəsinin dayandırılması haqqında fərman imzalandı. 907-ci düzəlişin qüvvəsinin dayandırılması ikitərəfli münasibətlərdə yeni bir mərhələnin başlanğıcı kimi qiymətləndirilir.

Bundan əlavə, ikitərəfli münasibətlərdə iqtisadi amilin daha çox nəzərə çarpdığını görmək mümkündür. Bu baxımdan Azərbaycan-ABŞ münasibətlərində iqtisadi amilin, yəni enerji faktorunun bir növ açar rolu oynadığını söyləmək olar. Xüsusiylə də, Azərbaycanın Xəzər dənizi hövzəsində zəngin karbohidrogen ehtiyatlarına sahip olduğunu nəzərə aldığımız təqdirdə, ABŞ-ın Azərbaycanla mövcud əlaqələrə və bu əlaqələrinin daha çox inkişaf etdirilməsinə olan marağının əsl səbəbini də görmək mümkündür. Həmçinin, ikitərəfli iqtisadi münasibətlərin ABŞ-ın Cənubi Qafqaz və Xəzər regionundakı siyasətiylə düz mütənasib olduğunu açıq-aydın söyləmək olar. ABŞ-ın Xəzər regionu siyasətini şərtləndirən amillər aşağıdakılardan ibarətdir:

- Xəzər regionunun zəngin karbohidrogen ehtiyatlarının mənimsənilməsi,
- Karbohidrogen ethiyatlarının dünya bazarlarına çıxarılmasında Cənubi Qafqazın tranzit rolu oynaması,
- Regionda yaşayan xalqların tarixi və coğrafi baxımdan yaxınlığı,
- Cənubi Qafqaz regionun Avrasiyada yerləşdiyi əlverişli mövqe,
- Regionda ABŞ-ın müttəfiqi olan Türkiyə ilə və rəqibi hesab edilən İran və Rusiyanın qonşuluğu,
- Cənubi Qafqazda, xüsusən də Azərbaycanda nüfuz qazanmaq uğrunda böyük, o cümlədən qonşu dövlətlərin apardığı diplomatik-siyasi mübarizə.

- Bütün yuxarıda sadaladığımız fikirləri incələdikdə, çox mühüm bir sual meydana çıxır. Bəs ABŞ-ın Xəzər regionuna qarşı marağının artmasına səbəb olan faktorlar hansılardır? Bu əsas faktorları aşağıdakı şəkildə izah edə bilərik:
- Yaxın Şərq neftinə olan asılılığı azaltmaq (bu çərçivədə enerji mənbələrinin diverifikasiyası, yəni şaxələndirilməsi siyasəti),
- Daha ucuz qiymətə enerji əldə etmək,
- Neft boru kəmərlərinin marşurutuna nəzarət etmək (Burada əsas məsələ, təbii ki, ABŞ-ın regiondakı geosiyasi maraqlarıdır),
- Yeni neft yataqlarının kəşfi (Bu məsələ, əsas etibariylə regionun strateji əhəmiyyətini artırır).

Xüsusiylə neft boru kəmərlərinin marşrutuna nəzarət ABŞ-ın əsas maraq dairəsini təşkil edir. Çünki, ABŞ Xəzər hövzəsi regionunda İran-Rusiya-Çin faktorunun təsir gücünü mümkün qədər azaltmaq, yəni minimuma endirmək niyyətindədir. Buna görə də, Xəzərin neft və təbii qaz ehtiyatlarının beynəlxalq bazarlara Rusiya ərazisindən keçməyən yollarla daşınması ABŞ üçün enerji təchizatı təhlükəsizliyinin təmin olunması istiqamətində böyük rol oynayır. Məhz bu baxımdan, ABŞ enerji mənbələrinin və hətta boru xətlərinin çoxşaxələndirilməsi prinsip və siyasətini maxsimum dərəcədə dəstəkləyir. İki dövlət arasındakı münasibətlərdə iqtisadi amil baxımından "Əsrin müqaviləsinin" mühüm əhəmiyyət kəsb etdiyini ifadə edə bilərik. Bildiyimiz kimi, 1994-cü il 20 sentyabr tarixində Bakıda Gülüstan sarayında 8 ölkənin 13 beynəlxalq neft şirkəti tərəfindən Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" neft yataqlarının və "Günəşli" neft yatağının dərinlikdə yerləşən hissəsinin müştərək işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş yəni, "Əsrin müqaviləsi" imzalanmışdır. Müqaviləyə əsasən, "Azəri" və "Çıraq" yataqları bütövlükdə, "Günəşli" yatağının isə suyun dərinliyi 200 metrdən çox olan hissəsi birlikdə istismar olunacaqdır. Çıxarılan neftin 253 milyon tonu Azərbaycana çatacaqdır. Bu müqaviləni həyata keçirmək üçün kapital qoyuluşunun 80%-ni Qərb şirkətləri, yəni bu konsorsiuma daxil olan şirkətlər qoyacaqdır. Kapital qoyuluşu 1994-cü ilin qiymətləri ilə hesablandığı təqdirdə, Azərbaycana 34 milyard dollar məbləğində mənfəət gələcəyi proqnozlaşdırılır.

Bu bölgələrdə neft axtarış və hasilat əməliyyatları üzrə səlahiyyət Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinə (ABƏŞ) verildi. Mega Layihə olaraq da adlandırılan saziş 30 il müddətində imzalanmışdır. İlkin hesablamalara görə "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsində çıxarıla bilən neft ehtiyatının 511 milyon ton, təbii qaz ehtiyatlarının isə 90 milyard $m^3$ olduğu hesab edilir. Maliyyə dəyəri təxminən 8 milyard dollar olan saziş XX əsr tarixində siyasi, iqtisadi və strateji əhəmiyyətinə görə ən mühüm müqavilələrdən biridir (9, s.90).

Əsrin müqaviləsinin imzalanmasından sonrakı əsas məsələ çıxarılan neftin hansı neft boru kəmərləri vasitəsiylə dünya bazarlarına daşınması idi. Bu məsələdə Azərbaycan boru xətlərinin diverifikasiyası, yəni çoxşaxələndirilməsi nöqteyi nəzərindən çıxış etdi. Mövcud Bakı-Novorossiysk ilə yanaşı, Bakı-Tiblisi-Supsa və Bakı-Tiblisi-Ceyhan neft boru kəmərləri alternativ olaraq gündəmə gəldi. 1997-ci ildə Azərbaycan, Gürcüstan və Ukrayna hökümətləri arasında neftin Bakı-Tiblisi-Supsa maşurut xətti üzrə Qara dənizə daşınması barədə razılıq müqaviləsi imzalanmışdır. Lakin, Bakı-Supsa neft boru kəməri, geniş miqyaslı neftinin daşınması üçün yetərli deyildi. Buna görə də, 90-cı illərin ortalarından etibarən Heydər Əliyev tərəfindən Azərbaycan neftinin dünya bazarlarına daşınmasında Bakı-Tiblisi-Ceyhan neft boru xəttinin inşası ideyası irəli sürüldü. Bir çoxları, buna şübhə ilə yanaşsalar da, Heydər Əliyevin əzmi və məqsədyönlü siyasəti nəticəsində bu ideya bir reallığa çevrildi (7, s. 55). ABŞ da, Bakı-Tiblisi-Ceyhan neft boru kəmərinin əsas ixrac boru kəməri seçilməsi istiqamətində Azərbaycana xüsusi kömək göstərmişdir. Çünki, ABŞ boru xətlərinin çoxşaxələndirilməsi prinsipindən çıxış edərək, məsələni Cənubi Qafqazda Rusiya ilə rəqabəti çərçivəsində dəyərləndirmişdir.

Sazişin imzalanması ölkəmizə xarici investisiyaların cəlb edilməsi ilə bərabər regionda beynəlxalq enerji əməkdaşlığının da bünövrəsini qoydu. Bu müqavilə, həmçinin regionda digər qlobal investisiya layihələrinin reallaşmasına yol açmış, ən başda ABŞ olmaqla Qərb dövlətlərinin Azərbaycanla bütün sahələrdə genişmiqyaslı əməkdaşlığa marağını artırmış, beynəlxalq maliyyə qurumları ilə münasibətlərdə keyfiyyətcə tamamilə yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Eyni zamanda, "Əsrin Müqaviləsi" vəya "Mega Layihənin" həyata keçirilməsi yeni neft strategiyası və doktrinasının təməlini təşkil edir. Yeni neft strategiyası ilk öncə Azərbaycanın ABŞ və Avropa

İttifaqı ölkələri ilə münasibətlərinə xeyli dərəcədə müsbət təsir göstərdi. Xüsusən, ABŞ hökuməti Azərbaycanın enerji siyasəti, yeni neft-qaz ixracı təşəbbüslərini, eləcə də Şərq-Qərb nəqliyyat-kommunikasiya dəhlizi yaratmaq istiqamətindəki əksər səylərini ardıcıl surətdə dəstəkləmiş və bütün transmilli layihələrin təkcə Azərbaycana deyil, bütün regiona fayda gətirməsinə yardım etmişdir.

Əsrin müqaviləsi, Azərbaycanın beynəlxalq aləm üçün geosiyasi və geoiqtisadi dəyər ölçülərini xeyli artırdı, regional və beynəlxalq perspektivini yüksəltdi, xarici aləmlə tərəfdaşlıq münasibətlərinə və milli inkişafına ciddi təsir göstərdi. Ölkənin təbii-mineral ehtiyatlarından, Qərblə-Şərq, Şimalla-Cənub arasındakı siyasi, hərbi, ticarət və s. əlaqələrə müsbət təsir göstərdi. Hətta, sabiq ABŞ prezident U.Klinton 1994-cü il 20 sentyabr tarixində göndərdiyi teleqramda, ABŞ-ın bu müqavilənin imzalanmasının bütün tərəflər üçün faydalı olacağını və ikitərəfli münasibətlərdə mövcud iqtisadi-ticarət əlaqələrinin daha da artmasına, inkişafına xidmət edəcəyini bəyan etmişdir. Daha sonra, ABŞ-ın sabiq prezidenti C. Buş 2001-ci il 14 iyunda ümummilli lider Heydər Əliyevə ünvanladığı məktubunda, həyata keçirilən neft-qaz layihələri sayəsində Azərbaycan tez bir zamanda güclü, sabit və dinamik inkişaf edən iqtisadiyyata malik dövlətə çevriləcəyini ifadə etmişdir. Bundan başqa, ABŞ administrasiyası bu gün də Azərbaycanın və Xəzəryanı bölgənin iqtisadi cəhətdən güclənməsini, region dövlətlərinin müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsini hərtərəfli dəstəkləyir. Bu baxımdan, bölgədəki transmilli layihənin həyata keçirilməsinə hər vasitə ilə kömək edir (5, s.87-90). Ümumiyyətlə, Azərbaycanın həyata keçirdiyi yeni neft strategiyası və onun təşəbbüsü ilə reallaşdırılan çoxsaylı transmilli enerji layihələri faktiki olaraq ölkəmizi Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz regionunda lider dövlətə çevirdi. Başqa ifadə ilə desək, bu kimi enerji layihələri Azərbaycana Cənubi Qafqaz regionunda qonşu ölkələrin geosiyasi kursunu müəyyənləşdirən lider dövlət statusu qazandırdı.

Bundan başqa, Azərbaycan ABŞ-ın Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşı hesab olunur. İki ölkə arasında ticarət, nəqliyyat və investisiya sahəsində imzalanmış mühüm sazişlər, sərmayə qoyuluşunun qarşılıqlı qorunması və təşviq edilməsi haqqında müqavilə və sazişlər Azərbaycan-ABŞ münasibətlərinin daha da inkişaf etdirilməsinə xidmət edir. Misal olaraq, 2016-ci il aprel ayında Azərbaycan-ABŞ arasında " Açıq Səmalar" haqqında ikitərəfli saziş imzalanmışdır. Hazırda Bakı və Nyu York şəhərləri arasında birbaşa uçuşlar təşkil edilir. Həmçinin, Azərbaycan və Boing ilə bir sıra mühüm müqavilələr də imzalanmışdır. Azərbaycan Dövlət Neft Şirkəti, Federal Home Loan Bank, Fannie Mae, Freddie Mac bonds da daxil olmaqla ABŞ Xəzinədarlığı, həmçinin ABŞ borcu və səhmləri üçün 8 milyard dollardan artıq sərmayə yatırmışdır (11). Azərbaycan Respublikası Dövlət Statistika Komitəsindən əldə edilən məlumatlara əsasən son 4 il ərzində iki ölkə arasında ticarət dövriyyəsinin həcmi illər üzrə müvafiq olaraq 2016-ci ildə 552 255,9 min ABŞ dolları, 2017-ci ildə 781 785,7 min ABŞ dolları, 2018 -ci ildə 858 501,9 min ABŞ dolları və nəhayət 2019-cu ildə isə, 791 884,9 min ABŞ dolları təşkil edir (12). Bütün sadalanan fikirlər və statistik göstəricilər hər iki dövlətin iqtisadi sahədə əməkdaşlıqda maraqlı olduğunu və münasibətlərin hər iki dövlərin maraqları çərçivəsində inkişaf etdiyini bir daha sübut edir.

Azərbaycan-ABŞ ikitərəfli münasibətlərdə hərbi amil də xüsusi rol oynayır. Belə ki, mövcud beynəlxalq münasibətlər sisteminə qarşı olan kənar təhdidlər, risklər, həmçinin beynəlxalq münasibətlərin aktual problemləri, xüsusən də terrorizm kimi bütün bəşəriyyətdə köklü dəyişikliklərə səbəbiyyət verən mənfi halların geniş vüsət alması dövlətlərin bu sahələrdə əməkdaşlığının artmasına olan ehtiyacı gündəmə gətirir. Ümumiyyətlə, ABŞ-ın dünyada, o cümlədən Xəzər-Qara dəniz hövzəsində və Cənubi Qafqaz regionunda həyata keçirdiyi təhlükəsizlik siyasətindəki yeni mərhələ 2001-ci ilin 11 sentyabr hadisələrindən 2008-ci il Barak Obamanın hakimiyyətə gəlməsinə qədər davam edib. Bu mərhələdə ABŞ super güc olaraq öz diqqətini əsasən, bölgənin beynəlxalq və regional təhlükəsizlik və NATO-nun Şərqə doğru genişləndirilməsi məsələlərinə yönəldərək, Cənubi Qafqaz, Xəzər-Qara dəniz hövzəsi və Mərkəzi Asiyada fəal təhlükəsizlik siyasətinə başlayıb. Həmin tədbirlər sırasında ABŞ və NATO qoşunlarının bölgənin strateji, hərbi-geosiyasi hədəflərinə, hərbi hava yollarına sərbəst çıxışının təmin edilməsi, bölgə ölkələri ilə qurumlarla hərbi tərəfdaşlıq münasibətlərinin yaradılması, onların dünyanın münaqişəli bölgələrindəki beynəlxalq sülhyaratma proseslərinə cəlb edilməsi kimi məsələlər diqqət mərkəzində idi.

Bu baxımdan iki dövlət arasında hərbi əlaqələrin və əməkdaşlığın daha da gücləndirilməsi zəruri amillərdən hesab olunur. Azərbaycan-ABŞ hərbi əməkdaşlığın əsası, 1997-ci 31 iyunda ümummilli lider Heydər Əliyevin ABŞ-a ilk rəsmi səfəri zamanı ABŞ müdafiə naziri ilə müdafiə və hərbi sahələrə dair birgə bəyanatın imzalanmasıyla qoyuldu. 2001-ci il ərzində hərbi attaşelik aparatı tərəfindən ABŞ Müdafiə Nazirliyinin mərkəzi aparatı, Birləşmiş Qərargah Qoşun Növləri, ABŞ-ın Avropadakı Komandanlığı və Sahil Mühafizəsi Qoşunlarının ölkəmizə cavabdeh olan müvafiq strukturları və rəsmiləri ilə sıx əlaqələr yaradıldı. İkitərəfli hərbi əlaqələrin dörd əsas stratejik dayaq üzərində qurulduğunu deyə bilərik. Buraya, Rusiyanın Azərbaycanda hərbi-siyasi mövcudluğunun qarşısının alması, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli, Azərbaycan neftinin beynəlxalq bazarlara nəqli prosesində siyasi-iqtisadi təhlükəsizliyin birgə həyata keçirilməsi və NATO-nun SNT (Sülh Naminə Tərəfdaşlıq) proqramı çərçivəsində hərbi əlaqələrin daha da inkişaf etdirilməsi aiddir. Bu baxımdan Azərbaycanın NATO ilə əlaqələri xüsusi əhəmiyyət daşıyır.

Beləliklə, 1992-ci ilin mart ayında Azərbaycan Şimali Atlantika Əməkdaşlıq Şurasına (ŞAƏŞ) daxil olub. Azərbaycan-NATO əlaqələri 1994-cü ilin 4 may tarixində “Sülh Naminə Tərəfdaşlıq” proqramının çərçivə sənədinin imzalanmasıyla yeni mərhələyə qədəm qoyub. 1996-cı ildə Azərbaycanın Fərdi Tərəfdaşlıq Proqramına qoşulmasıyla ikitərəfli münasibətlər istər hərbi-siyasi, istərsə də təhlükəsizlik sahəsində inkişaf etməyə başlamışdır. Hazırda ölkəmiz NATO ilə bir sıra fəaliyyət planları əsasında əməkdaşlığını davam etdirir. Bu sənədlərin əsas məqsədi, Azərbaycanın təhlükəsizlik və müdafiə strukturlarının Avroatlantik məkana inteqrasiyasını təmin etməkdən ibarətdir. Bundan başqa, prezident İlham Əliyev tərəfindən 2003-cü il 3 avqust tarixində təsdiqlənmiş sərəncam ilə Azərbaycan Republikasının NATO ilə Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı yuxarıda göstərilən planların icrasında əsas hüquqi çərçivə hesab olunur (4, s. 161-162).

Xüsusən də Azərbaycan-NATO arasında imzalanmış “Sülh Naminə Tərəfdaşlıq” proqramı Azərbaycan-ABŞ hərbi əlaqlərinin güclənməsində mühüm rol oynamışdır. ABŞ-ın keçmiş prezidenti Bill Klintonun fikrincə, proqramın əsl mahiyyəti, bütün ölkələrdə demokratiyanın inkişafı və təhlükəsizlik sisteminin güclənməsidir. Həmin proqram sayəsində Azərbaycan NATO-nun təhlükəsizlik sisteminə daxil olan Avropa ölkələri ilə və ABŞ-la dünya təhlükəsizlik sistemi və beynəlxalq münasibətlərin sivil qaydaları çərçivəsində hər cür əməkdaşlıq etmək imkanı əldə edir. Bu da öz növbəsində NATO-nun hərbi strukturları ilə Azərbaycan ordusunun sülh naminə əməkdaşlıq etmək, birgə təlim və manevrlər keçirmək, onların ordu quruculuğu təcrübəsindən yararlanmaq, kadr hazırlığı və s. sahədə birgə hərəkət etmək imkanı verir. Həmçinin torpaqlarının 20%-i Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan üçün Qarabağ probleminin sülh yolu ilə həll olunması, torpaqlarımızın işğaldan azad edilməsi, bir milyondan çox qaçqın və məcburi köçkünün öz doğma yurdlarına dönməsində NATO kimi nüfüzlu bir təşkilat böyük töhfə verə bilər.

Azərbaycan-ABŞ ikitərəfli münasibətlərində mədəni amil də böyük rol oynayır. İki dövlət arasındakı mədəni əlaqələri təhsilin inkişafına dəstək proqramları çərçivəsində qiymətləndirə bilərik. Bu konteksdə, ABŞ-ın təqaüd proqramları qarşılıqlı mədəni əməkdaşlığı şərtləndirir. Belə ki, ABŞ höküməti Amerikda təsilin bakalavr, magistr və doktorantura səviyyəsində təhsil almaq istəyən əcnəbi tələbələr üçün çox sayda təqaüdlər təklif edir. UGRAD (Qlobal Bakalavr Mübadiləsi Proqramı) çərçivəsində I-III kurs tələbələrinə təqaüd verilir. Bu proqramla 1 və ya 2 il ərzində bir sıra sahələr (biznes, pedaqogika, kənd təsərrüfatı, iqtisadiyyat, beynəlxalq əlaqələr və s.) üzrə təhsil almaq mümkündür. Qeyd etmək olar ki, həmin proqramda 1995-dən 200-dən çox azərbaycanlı tələbə iştirak edib. Fulbright Proqramı isə, hüquq, jurnalistika, psixologiya, incəsənət, humanitar və ictimai elmlər, texniki və təbiət elmləri və digər sahələrdə magistratura üzrə təqaüd proqramıdır. Həmçinin, həmin proqram üzrə Azərbaycan vətəndaşları üçün də təqaüdlər verilir. Bu proqram üzrə təqaüdlərin verilməsi hər tədris ilində ABŞ-ın ölkəmizdəki səfirliyi tərəfindən, açıq müsabiqə yolu ilə həyata keçirilir. Ali təhsili ən azı bakalavr dərəcəsi olan, ingilis dilini bilən Azərbaycan vətəndaşları həmin proqrama qoşulmaq üçün ərizə verə bilərlər. Bundan əlavə, proqram Amerika universitetlərində və arxivlərində namizədlik dissertasiyası üçün material toplamaq məqsədiylə, elmi-tədqiqat işləri aparmağa dair birillik və bu universitetlərdə magistr (Master of Arts) dərəcəsini almaq üçün ikiillik qrantlar təklif edir.

Edmund S.Maski Magistr Proqramı (Edmund S.Muskie Graduate Fellowship Program) Avrasiya məkanında demokratiya və iqtisadiyyatın inkişafına kömək edir. 1992-ci ildə yaradılan

proqram, IREX tərəfindən həyata keçirilsə də, ABŞ Dövlət Departamentinin Təhsil və Mədəniyyət İşləri üzrə Bürosunun proqramıdır. Həmin proqram Azərbaycan, Rusiya, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Tacikistan, Türkmənistan, Ermənistan, Özbəkistan və Ukraynadan olan aspirant və mütəxəssislərə ABŞ-da 1 il dərəcəsiz, 1 və ya 2 il müddətində isə, dərəcə almaq üçün təhsil almaq fürsəti verir. 1998-2008-ci illər üzrə təqribən 280-ə yaxın azərbaycanlı gənc bu proqramda iştirak edib. Ali təhsili (ən azı bakalavr dərəcəsi) olan, ingilis dilini bilən və biznes idarəçiliyi, hüquq, iqtisadiyyat, ictimai siyasət, ətraf mühit, beynəlxalq əlaqələr, kitabxanaçılıq, ictimai idarəetmə, jurnalistika ixtisaslarından birinə yiyələnmək istəyən istənilən Azərbaycan vətəndaşı proqram üzrə təqaüd almaq üçün müraciət edə bilər.

1998-ci ildən bəri hər il 55 azərbaycanlı şagird ABŞ-da FLEX Proqramı çərçivəsində təhsil alır. Bugünədək 800-dən artıq şagirdimiz bu proqramda iştirak edib. Proqram üzrə ABŞ-da 1 il təhsil almaq hüququ qazanan məktəblilər arasında Bakı, Sumqayıt, Naxçıvan, Mingəçevir,Quba, Şəki, Lənkəran məktəblərinin şagirdləri vardır. JFDP (Gənc Müəllimlərin İnkişafı Proqramı) gənc ali məktəb müəllimləri üçün nəzərdə tutulur. Bu proqram çərçivəsində müəllimlər ABŞ və Azərbaycanın ali məktəbləri ilə sıx əməkdaşlıq edirlər. 1999-2007-ci illər ərzində Azərbaycandan 35 nəfər bu proqramda iştirak edib. 2010-2011-ci tədris ili üzrə JFDP proqramı üzrə 42, Open World proqramı çərçivəsində 50, UGRAD (Qlobal Bakalavr Mübadiləsi Proqramı) üzrə 10, Edmund S.Maski Proqramı çərçivəsində isə 15 nəfər ABŞ-a göndərilib.

*Nəticə.* Sonda qeyd etmək olar ki, Azərbaycan-ABŞ arasındakı ikitərəfli münasibətlər gələcək perspektiv baxımından hər iki ölkə üçün də böyük ölçüdə faydalı olacaqdır. İkitərəfli münasibətlər siyasi, iqtisadi, hərbi və mədəni amillərin təsiri ilə həm ayrı-ayrılıqda ölkələrin maraqlarına uyğun olacaq və eyni zamanda regionda sülhün bərqərar olmasında xüsusi rol oynayacaqdır. İkitərəfli münasibətlərin gələcək perspektivli cəhətlərini araşdırarkən, bir sıra önəmli xüsusiyyətlərə diqqət yetirmək lazımdır. Burada Azərbaycan-ABŞ münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi, qarşılıqlı-faydalı əlaqələrin siyasi və hüquqi bazasının mövcuduluğu, beynəlxalq enerji layihələrinin reallaşdırılması sahəsində səmərəli əməkdaşlıq, enerji təhlükəsizlik tədbirləri çərçivəsində aparılan məqsədyönlü siyasət, beynəlxalq terrorizm və regional təhlükəsizlik istiqamətindəki fəal hərbi əməkdaşlıq, erməni diasporası və lobbisinin ABŞ-da mövqeyinin zəiflədilməsi və ABŞ Konqresindəki təsir gücünün azaldılması, Azərbaycan diasporası və lobbisinin formalaşdırılması və möhkəmləndirilməsi, ölkəmiz əleyhinə qəbul edilmiş 907-ci düzəlişin ləğvi yolunun açılması, ABŞ kapitalı və investisiyasının ölkəmizə nüfuz etməsi, ölkəmizin AvroAtlantik məkana inteqrasıyası peosesində yeni-yeni fürsətlər əldə etməsi Azərbaycanın ABŞ-la beynəlxalq münasibətlərin bütün sahələrində əməkdaşlığını tələb edir.

Bundan başqa, Azərbaycanın tarixən Avropa ilə Asiya arasında körpü rolu oynaması, xüsusiylə də bu iki qitə arasındakı nəqliyyat və enerji dəhlizlərinin yaradılmasında geosiyasi stratejik üstünlüyə sahip olması, eyni zamanda mürəkkəb və çətin Cənubi Qafqaz regionunda qonşu ölkələrlə (Gürcüstan və Ermənistanla) müqayisədə, həmin regionun qabaqcıl, daha çox inkişaf etmiş və lider dövlət statusunda olması, ən əsas da bu regionda Rusiya və İran kimi dövlətlərinin nüfuz uğrundakı mübarizəsi və bu ölkələrin Cənubi Qafqazdakı maraqlarının, ABŞ-ın maraqlarıyla dabandabana zidd olması kimi səbəblər istər qonşu ölkələrin, istərsə də qlobal güclərin Azərbaycana marağının artmasına, onunla müxtəlif xarakterli əlaqələr qurmasına, siyasi, iqtisadi, hərbi, humanitar, mədəni vs. sahələrdə əməkdaşlıq etməsinə və mövcud əlaqələrin yüksələn xətlə inkişaf etməsinə öz töhfəsini vermişdir. Təbii ki, bütün bu reallıqları nəzərə aldığımız təqdirdə Azərbaycan Respublikasının ABŞ-la beynəlxalq münasibətlərin bütün sahələri üzrə hərtərəfli və qarşılıqlı faydalılıq prinsipi çərvəsində çoxşaxəli münasibətləri və əməkdaşlığı gələcəkdə də yüksək inkişaf tempi ilə inkişaf edəcək və ikitərəfli münasibətlər qarşılıqlı surətdə hər iki ölkənin maraqlarının təmin edilməsinə xidmət edəcəkdir.

## ƏDƏBİYYAT

1. Nəsibov E.M. ABŞ və Türkiyənin Qafqaz Geosiyasi Regionunda Strateji Maraqları və Azərbaycan Respublikası. Bakı: “Çıraq” nəşriyyatı, 2006, 311 s.

2. Azərbaycan Respublikası Strateji Araşdırmalar Mərkəzi, Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016). Bakı: “Poliart” MMC, 2017, 904 s.

3. İsmayıl Musa. Çağdaş Beynəlxalq Münasibətlər və Azərbaycanın Xarici Siyasəti. Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2011, 776 s.
4. Məmmədov Novruz. Xarici Siyasət Reallıqlar və Gələcəyə Baxış. Bakı: "Qanun" nəşriyyatı, 2013, 264 s.
5. Həsənov Əli. Xəzər-Qara Dəniz Hövzəsi və Cənubi Qafqazın Geoiqtisadiyyatı: Azərbaycanın Enerji Siyasəti. Bakı: "Zərdabi Ltd MMC", 2016, 263 s.
6. Əliyeva Almaz. NATO-da Hərbi Siyasi İslahatlar və Azərbaycan Respublikası. Bakı: "Yeni Poliqrafist MMC", 2012, 279 s.
7. Сеидов М. Нефтяная Стратегия Азербайджана как Важный Фактор Регионального Развития и Дипломатии. Баку, Самарский научный вестник, 2013, 56 с.
8. Oztarsu, M.F. A Pragmatic Policy Case: Us-Azerbaijan Relations. "Manas Journal of Social Studies". 2019. №3 (Vol.8). 3063 p.
9. Aslanlı Aras, Hesenov İlham. Haydar Aliyev Dönemi Azərbaycan Dış Politikası (1993-2003). Ankara: "Platin Yayınları", 2005, 282 s.
10. Kasım Kamer. Soğuk Savaş Sonrası Kafkasya. Ankara: "Usak", 2009, 292 s.
11. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi. - https://www.stat.gov.az/source/trade/ [Müraciət tarixi: 5 dekabr 2020].
12. Azərbaycan və ABŞ: Ticarət və kommersiya tərəfdaşları / Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarındakı səfirliyinin rəsmi internet səhifəsi. https://washington.mfa.gov.az/az/content/167/azerbaycan-ve-abs-ticaret-ve-kommersiya- terefdaslari [Müraciət tarixi: 5 dekabr 2020].

**TARANA TAGIYEVA**
*Associate Professor of Diplomacy and Modern Integration Processes,*
*Faculty of International Relations and Economics, Baku State University*

**LALA MEHTIYEVA**
*Master Degree Student of Diplomacy and Modern Integration Processes,*
*Faculty of International Relations and Economics, Baku State University*

## FACTORS AFFECTING AZERBAIJAN-US RELATIONS

Relations between countries goes on according to the interests of both countries. From this point of view, Azerbaijan's relations with the United States, the status of the United States as a superpower, a superpower government, are problematic both in international relations and in the South Caucasus. In terms of its ability to influence events and support for transnational and international economic projects in the Caspian-Black Sea basin, it is clear that these bilateral relations are based on the principle of mutual benefit for both countries. At the same time, if we look at the issue from the US point of view, taking into account such factors as Azerbaijan's rich hydrocarbon resources, international oil and gas projects, geopolitical position in the South Caucasus, these bilateral relations are expected to continue successfully. At the same time, the political, economic, military and cultural factors affecting Azerbaijan-US relations, in turn, determine and form the nature of relations between these two countries and contribute to further development and strengthen existing ties within mutually beneficial cooperation.

*Keywords:* mutually beneficial cooperation, Azerbaijan, USA, bilateral relations, economic factor, political factor, military factor, cultural factor, international oil and gas and transnational energy projects, superpower, Treaty of the Century, Nagorno-Karabakh conflict, mutual interests of states.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 05 dekabr 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2020-ci il.*
*Rəyçilər: t.e.d. İsmayıl Musa, s.e.d. Adil Mirabdullayev.*

**UOT 32:93/94**

**MƏTİN MƏMMƏDLİ**
*Bakı Dövlət Universitetinin*
*"Diplomatiya və müasir inteqrasiya prosesləri" kafedrasının dosenti,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*
**E-mail: Metin_memmedli@mail.ru**

**AYŞƏN ASLAN-MƏMMƏDLİ**
*Bakı Dövlət Universitetinin*
*"Diplomatiya və müasir inteqrasiya prosesləri" kafedrasının müəllimi*
**E-mail: ayshan.aslan@gmail.com**

# BEYNƏLXALQ TƏHLÜKƏSIZLİYİN EKOLOJİ ASPEKTLƏRİ

*Məqalədə beynəlxalq təhlükəsizliyin ekoloji aspektləri təhlil olunur. Ekoloji problemlərin yaranma səbəbləri və nəticələri ümumiləşdirilərək dəyərləndirilir. Ətraf mühitin qorunması problemlərinin aktuallaşması və beynəlxalq münasibətlərə təsiri yazıda geniş tədqiq edilir. Ekoloji problemlərin həlli ilə bağlı keçirilən beynəlxalq konfranslar, qəbul edilən bəyannamələr məqalədə xronoloji ardıcıllıqla qeyd olunur. Ümumiyyətlə, müasir beynəlxalq münasibətlərin əsas aspektlərindən biri ətraf mühitin qorunması problemləridir. Son onilliklərdə dünya dövlətləri xarici siyasətlərində ekoloji təhlükəsizlik məsələlərinə xüsusi önəm verirlər. Bu faktor da ətraf mühitin qorunması problemini beynəlxalq təhlükəsizliyin əsas aspektlərindən birinə çevirir. Ekoloji problemlərin bir çox hallarda transmilli xarakter daşıması ölkələri bir – biri ilə daha yaxından əməkdaşlıq etməyə təşviq edir. Bu amil də məqalədə xüsusi olaraq vurğulanır.Bütövlükdə, məqalə kifayət qədər aktual mövzuya həsr olunub və müəyyən elmi kriteriyalara cavab verir.*

*Açar sözlər*: Ekoloji təhlükəsizlik, ətraf mühit, ekoloji problemlər, ekoloji təhdidlər, milli təhlükəsizlik, beynəlxalq təhlükəsizlik problemləri, bəyannamə, münasibətlər, demoqrafik vəziyyət, insan həyatı, beynəlxalq əməkdaşlıq, "davamlı inkişaf", beynəlxalq konfrans, iqlim dəyişikliyi, iqtisadi maraqlar, nüvə sınaqları, Roma Klubu, texnogen faktorlar, hərbi faktorlar, sosial-iqtisadi faktorlar, təbii fəlakətlər.

*Giriş*. Müasir dövrdə ətraf mühitin qorunması problemləri aktuallığına və əhəmiyyətinə görə həm milli təhlükəsizliyin, həm də beynəlxalq təhlükəsizliyin ən vacib aspektlərindən, elementlərindən biri hesab olunur. Bir çox hallarda ekoloji problemlərin transmilli xarakter daşıması bu problemlərin dünya dövlətləri tərəfindən qlobal təhdid kimi qəbul etməsinə səbəb olur və ekoloji təhlükəsizliyin təminatı sahəsində beynəlxalq əməkdaşlığı təşviq edir. Son 50 ildə ətraf mühitin qorunması ilə bağlı dünya ölkələri arasında çoxsahəli əməkdaşlıq münasibətləri formalaşdırılmışdır və bunun nəticəsində də uğurlu, geniş beynəlxalq təşəbbüslər irəli sürülərək həyata keçirilmişdir. Ekoloji təhlükəsizliklə bağlı beynəlxalq əməkdaşlığa keçməzdən əvvəl fikrimizcə ətraf mühitin qorunması ilə bağlı bəzi anlayışlara, təriflərə nəzər salmağa ehtiyac var.

Ekoloji təhlükə insan və cəmiyyətin həyati vacib maraqlarına, ətraf mühitə antropogen və təbii təsirlər nəticəsində təhlükə yaradan vəziyyətdir. "Təhlükə" termini altında ətraf mühitdə elə bir vəziyyət başa düşülür ki, müəyyən şəraitdə arzuedilməz hadisə və proseslərin yaranması mümkün olsun və bu proseslər insan və ətraf mühitin vəziyyətinə mənfi təsir göstərərək aşağıdakılardan birinə və ya onların məcmusuna gətirib çıxara bilsin:

- Insan sağlamlığına mənfi təsir
- Ətraf mühitin vəziyyətinin kəskinləşməsi

Təhlükənin ekoloji faktorları – təbii xüsusiyyətlərə malik səbəblərə əsaslanır (insan, bitki və heyvanat aləminin həyatı üçün əlverişsiz iqlim şəraiti, təbii fəlakətlər).

Təhlükənin sosial-iqtisadi faktorları – ictimai, iqtisadi və psixoloji xüsusiyyətlərə malik səbəblərə əsaslanır (qida, səhiyyə, maddi sərvətlərlə təminatın kifayət etməyən səviyyəsi, pozulmuş cəmiyyət münasibətləri, kifayət qədər inkişaf etməmiş sosial struktur).

Təhlükənin texnogen faktorları – insanların təsərrüfat fəaliyyətinə əsaslanır (ətraf mühitə

həddən artıq təsərrüfat tullantılarının atılması, təbii ehtiyatların təsərrüfat dövriyyəsinə həddən artıq cəlb edilməsi).

Təhlükənin hərbi faktorları – hərbi sənayenin işinə əsaslanır (hərbi materialların və avadanlığın nəqli, silah-sursat növlərinin sınaqdan keçirilməsi və məhv edilməsi) (1, s.8).

Ekoloji problemləri doğuran əsas səbəblər kimi ətraf mühitdə baş verən obyektiv və subyektiv prosesləri qeyd edə bilərik. Obyektiv proseslərə zəlzələ, vulkan püskürməsi, daşqınlar və s. nəticəsində meydana çıxan təbii təhdidlər, subyektiv proseslərə isə məqsədyönlü, antropogen fəaliyyət nəticəsində yaranan qeyri-təbii təhdidlər aid edilir. Təhlükəsizlik problemlərinin tədqiqi ilə məşğul olan bəzi tədqiqatçılar əsərlərində ekoloji təhdidləri qruplaşdıraraq müəyyən edir. Məsələn, B.Buzan təhlükəsizlik sektoru ilə bağlı digər həmmüəlliflərlə birgə yazdığı əsərində ekoloji təhdidləri 3 qrupa ayırır: 1) Ətraf mühitdən bəşər sivilizasiyasına qarşı yönələn və insan fəaliyyətinin nəticəsi olaraq meydana gəlməyən təbii təhdidlər (zəlzələ, vulkan püskürməsi, metriorit düşməsi və s.). 2) Planetin təbii sistemini korlayan, ekoloji dəyişikliklərə səbəb olan insan fəaliyyətinə cavab olaraq ətraf mühitin bəşər sivilizasiyasının mövcudluğu üçün yaratdığı təhdidlər (sənaye tullantılarının atılması nəticəsində ozon qatının deşilməsi, karbon qazı tullantıları ilə əlaqəli olan parnik effektinin yaranması və s.). 3) İnsan fəaliyyətinin nəticəsi olaraq planetin təbii sisteminə qarşı yönələn, ancaq bəşər sivilizasiyasının mövcudluğuna təhlükə yaratmayan təhdidlər. Buna misal olaraq müxtəlif mineral resurların tükənməsini göstərə bilərik ki, bu tükənmədən insan sivilizasiyasının mövcudluğu üçün təhlükə yox, müəyyən narahatlıq yarana bilər (2, s.80).

Müasir dövrdə beynəlxalq gündəmi məşğul edən əsas məsələlərdən biri də ətraf mühitin qorunması problemləridir. Ümumiyyətlə, XX əsrin 2-ci yarısından başlayaraq həm beynəlxalq münasibətlərdə, həm də ayrı-ayrı ölkələr daxilində ekoloji problemlərin həllinə marağın xeyli artdığını müşahidə etmək olar. Ekoloji problemlərin həllinə göstərilən bu maraq xüsusilə siyasi, elmi-akademik səpgidə özünü biruzə verirdi. Ötən əsrin 60-cı illərindən başlayaraq ekoloji problemlərin aktuallaşmasının əsas səbəbləri kimi elm və texnikanın sürətli inkişafı, sənaye inqilabları, əhalinin şəhərlərdə cəmləşməsi (urbanizasiya), nüvə və digər kütləvi qırğın silahlarının sınaqlarının keçirilməsi, əhalinin sürətli artımı və s. qeyd etmək olar. Nəticədə, gedən bu proseslər cəmiyyətin təlabatı ilə təbiətin imkanları araında ciddi təzadlar meydana çıxartdı.

Beləliklə, qeyd etdiyimiz dövrdə ekoloji problemlərin aktuallaşması beynəlxalq müstəvidə istər dövlətlər, istərsə də qeyri-dövlət qrumları tərəfindən müxtəlif təşəbbüslərin, layihələrin həyata keçirilməsinə səbəb oldu. Burada bəzi təşəbbüsləri, tədbirləri xronoloji ardıcıllıqla qeyd etsək fikrimizcə yerinə düşərdi. Məsələn, 1968-ci ildə italyan sənayeçisi Aurelio Peççi tərəfindən yaradılan və özündə dünyanın müxtəlif ölkələrindən alimləri, təhlilçiləri, iş və siyasət adamlarını, mədəniyyət xadimlərini birləşdirən Roma Klubu bəşəriyyətin sosial-iqtisadi inkişafı ilə bərabər, ətraf mühitin təhlükəsizliyi ilə bağlı da olduqca ciddi elmi-nəzəri, praktiki fəaliyyət göstərmişdir. Onu da qeyd edək ki, Roma Klubu ətraf mühitin mühafizəsi məqsədi ilə yaradılan ilk beynəlxalq təşkilat idi. Yarandığı ilk illərdən Roma Kulubu məruzələri ilə dünya ictimaiyyətinin diqqətini qlobal ekoloji problemlərə yönəltməyi əsas vəzifə kimi öz qarşısına qoymuşdur. Bu məqsədlə klub mütəmadi olaraq elmi tədqiqat əsərləri və məruzələrlə çıxış etmişdir.

1970-ci illərin əvvəllərindən ətraf mühitin qorunması problemi həm də dövlətlərarası münasibətlərin əsas prioritetlərindən birinə çevrilməyə başladı. BMT-nin təşəbbüsü ilə ilk beynəlxalq konfrans 1972-ci il iyunun 5-dən 12-nə kimi Stokholmda keçirildi. Konfransda ətraf mühitə dair Bəyannamə və Fəaliyyət Planı qəbul edildi. Stokholm Bəyannaməsi ətraf mühitin qorunması problemlərinə dövlətlərin ümumi baxışını və bu istiqamətdə görməli olduğu işləri ehtiva etməklə Girişdən, 26 prinsipdən ibarət idi (3). 113 dövlətin iştirakı ilə keçirilən Stokholm Konfransı həm beynəlxalq, həm də milli səviyyədə ekoloji fəaliyyətin xeyli fəallaşmasına səbəb oldu. Onu da əlavə edək ki, Stokholm Konfransının başladığı gün, 5 iyun Beynəlxalq ətraf mühitin mühafizəsi günü kimi qeyd olunur.

Beynəlxalq münasibətlərdə ətraf mühitin qorunması ilə bağlı genişlənən əməkdaşlıq proseslərində növbəti mərhələ 1980-1990-cı illər hesab olunur. Məhz bu mərhələdə ekoloji təhlükəsizliklə bağlı yeni anlayışların yaranmasına səbəb olan “Davamlı inkişaf“ konsepsiyası və yaxud termini elmi-siyasi dövriyyəyə daxil oldu. “Davamlı inkişaf“ konsepsiyası – gələcək nəsillərin istehlak tələblərinin ödənilməsi imkanlarına mane olmadan, indiki nəsillərin tələbatının normal

şəkildə ödənilməsini nəzərdə tutur. "Davamlı inkişaf" konsepsiyasının fəlsəfi mahiyyəti planetin təbii ehtiyatlarından səmərəli və qənaətlə istifadə, ətraf mühitin qorunub saxlanılması, indiki və gələcək nəsillərin həyat keyfiyyətinin yaxşılaşdırılmasından ibarətdir. Bununla yanaşı bu konsepsiya insanların tələbatının ağıllı şəkildə ödənilməsi və bütün planetdə sülhün saxlanılmasına yönəlmiş sosial-iqtisadi və ekoloji inkişafı nəzərdə tutur.

1992-ci ildə Braziliyanın Rio-de-Janeyro şəhərində (Rio) keçirilmiş ətraf mühit və inkişaf üzrə BMT konfransı "XXI əsrin gündəliyi", 27 prinsipdən ibarət olan "Rio Bəyannaməsi" (4) və digər sənədləri əhatə edən müasir cəmiyyətin Davamlı İnkişafa keçid konsepsiyasını qəbul etdi. Bu sənəd təkcə ətraf mühitin mühafizəsi ilə məhdudlaşmır, eyni zamanda ayrı-ayrı ölkələrdə insanla ətraf mühitin ahəngdarlığına əsaslanan uzunmüddətli iqtisadi, sosial və ekoloji inkişaf strategiyasını nəzərdə tutan bütöv bir konsepsiyadır. Sammitin işində 179 dövlət nümayəndələri, beynəlxalq və qeyri-hökumət təşkilatları iştirak edirdilər.

2000-ci illərin əvvəllərində də ekoloji problemlərin həllinə diqqətin artdığını ifadə edən mühim beynəlxalq forumlar, görüşlər keçirilmişdir. Məsələn, BMT-nin təşəbbüsü ilə 2000-ci ilin sentyabrında "Minilliyin Forumu" keçirilmişdir. Bu Beynəlxalq Forumda iştirak edən dünyanın 147 ölkəsinin dövlət və hökumət rəhbərləri qlobal miqyasda davamlı inkişafa nail olmaq məqsədi ilə "Minilliyin Bəyannaməsi" sənədini qəbul etmişlər. Qeyd edək ki, o vaxt Azərbaycan dövlətinin başçısı kimi Heydər Əliyev də bu Forumda çıxış edərək müzakirə olunan qlobal məsələlərə öz münasibətini bildirmişdir.

2002-ci ildə Cənubi Afrika Respublikasının Yohannesburq şəhərində Rio + 10 və yaxud Yer sammiti keçirildi (26 avqust - 4 sentyabr 2002-ci il). Sammitin Rio + 10 kimi adlandırılmasının əsas səbəbi 1992-ci ildə keçirilən Rio-de-Janeyro sammitinin 10 illiyi ilə bağlı keçirilməsi idi. Bu sammitdə Davamlı İnkişaf məsələsinin beynəlxalq gündəliyin əsas və vacib elementi olduğu xüsusi qeyd edildi. Sammitin əsas məqsədi XXI əsrin Gündəliyinin və Rio-de- Janeyro sammitinin digər yekun sənədlərinin realizasiyasının qiymətləndirilməsi, eləcə də qəbul edilmiş sazişlərin həyata keçirilməsi üçün atılacaq sonrakı addımların müəyyənləşdirilməsi idi (5).

Son onilliklərdə dünya dövlətlərinin ekoloji problemlər içərisində diqqət yetirdiyi əsas məsələlərdən biri də iqlim dəyişikliyidir. 2015-ci il 30 noyabr – 12 dekabr tarixlərində Parisdə BMT-nin İqlim Dəyişikliyi Konfransı keçirilməsini də, bu konfransda imzalanan Paris Sazişini də bu diqqətin ifadəsi hesab etmək olar. Konfransın iştirakçıları 1992-ci ildə imzalanmış Birləşmiş Millətlərin İqlim Dəyişikliyiyinə dair Çərçivə Konvensiyasının və 1997-ci ildə imzalanmış Kioto protokolunun tərəfləri idi. Paris Sazişinin məqsədi havaya buraxılan sənaye, istixana tullantılarını, qazını 2° C-dən aşağı saxlamaq və iqlim dəyişikliyi risklərini, təsirlərini azaltmaqdan ibarətdir. 2020-ci ilin fevralına kimi Birləşmiş Millətlərin İqlim Dəyişikliyiyinə dair Çərçivə Konvensiyasının bütün iştirakçıları Paris Sazişini imzaladı və 189 dövlət, İran və Türkiyə istisna Sazişə tərəfdar olduğunu bəyan etdi. Obama administrasiyası dövründə ABŞ da Paris Sazişi imzalasa da 2017-ci ildə yeni president seçilən Tramp ölkəsinin sazişdə iştirakını dayandıracağını bəyan etdi (6). Tramp bu qərarını Sazişin ABŞ-ın iqtisadi maraqlarına cavab verməməsi ilə əsaslandırdı. Belə ki, Trampın iddiasına görə Birləşmiş Ştatlar Sazişdə qalsa idi ölkəsi Ümumdaxili Məhsulda 3 trilyonluq zərərə və 6.5 milyon vətəndaşının isə işsiz qalmasına səbəb olardı (7). Onu da qeyd edək ki, Paris Sazişinin şərtlərinə uyğun olaraq ABŞ-ın Anlaşmadan çıxması proseduru 2020-ci ilin noyabrın əvvəllərində yekunlaşacaq.

*Nəticə*. Beləliklə, göründüyü kimi son 50-60 ildə ekoloji problemlərin sürətlə artaraq bəşəriyyətin mövcudluğuna, gələcəyinə ciddi təhdidlər yaratması dünya dövlətlərini, iqtisadi-elmi mərkəzlərini öz aralarında ətraf mühitin qorunması ilə bağlı geniş əməkdaşlıq münasibətləri qurmasına sövq etmişdir. Məhz bu əməkdaşlıq münasibətlərinin nəticəsi olaraq beynəlxalq münasibətlər sistemində xeyli sayda konvensiyalar, bəyannamələr, fəaliyyət planları, ikitərəfli və çoxtərəfli müqavilələr meydana çıxmışdır. Həmçinin dünya dövlətlərində elmi-akademik səviyyədə də ekoloji problemlərin öyrənilməsinə, onların həlli yollarına maraq xeyli artmışdır. Hətta bir sıra dövlətlərdə ətraf mühitin qorunması platformasında yaranan partiyalar, hərəkatlar öz ölkələrində çox ciddi siyasi qüvvəyə çevriliblər. Bütün bunlar artıq ekoloji təhlükəsizliyin həm milli, həm də beynəlxalq səviyyədə təhlükəsizlik kompleksinin olduqca vacib bir aspektinə çevrildiyini təsdiq edir.

## ƏDƏBİYYAT

1. Ağayev T., Əhmədov Ş., Xəlilov T. Ekoloji təhlükəsizlik. Sumqayıt, SDU nəşriyyatı, 2013, 177 s. http://elibrary.bsu.az/books_aysel/N_-55.pdf [Müraciət tarixi: 10.10.2020].
2. Barry Buzan, Ole Waever, Jaap De Wilde. Security: A New Framework for Analysis, Lynne Rienner Publishers, 1997, 239 p.
3. Декларация Конференции Организации Объединенных Наций по проблемам окружающей человека среды. Стокгольм, 1972 год. Mənbə: https://www.un.org/ru/documents/decl_conv/declarations/declarathenv.shtml [Müraciət tarixi: 10.10.2020].
4. Рио-де-Жанейрская декларация по окружающей среде и развитию. Рио-де-Жанейро, 3-14 июня 1992 года. Mənbə: https://www.un.org/ru/documents/decl_conv/declarations/riodecl.shtml [Müraciət tarixi: 10.10.2020].
5. Johannesburg Plan of Implementation / UN Department of Economic and Social Affairs, Plan of Implementation of the World Summit on Sustainable Development, 62 p. Mənbə: https://www.un.org/esa/sustdev/documents/WSSD_POI_PD/English/POIToc.htm [Müraciət tarixi: 10.10.2020].
6. Chakraborty Barnini. Paris Agreement on climate change: US withdraws as Trump calls it “unfair” / Fox News, June 1, 2017. Mənbə: https://web.archive.org/web/20170731203105/http://www.foxnews.com/politics/2017/06/01/trump-u-s-to-withdraw-from-paris-climate-pact-calls-it-unfair-for-america.html [Müraciət tarixi: 10.10.2020].
7. "Paris climate deal: Trump pulls US out of 2015 accord" // BBC News, 1 June 2017. Mənbə: https://www.bbc.com/news/world-us-canada-40127326 [Müraciət tarixi: 10.10.2020].

**MATİN MAMMADLİ**
*Associate Professor of Baku State University*
**AYSHAN ASLAN-MAMMADLİ**
*Lecturer of Baku State UNiversity*

## THE ENVIRONMENTAL ASPECTS OF INTERNATIONAL SECURITY

The environmental aspects of international security is analysed in this article. The causes and consequences of environmental problems are also summarized and evaluated. Moreover, the topicality of environmental issues and their impact on international relations is examined in the article. International conferences and declarations on the solution of environmental problems are listed in chronological order in the article. In general, the problem of environmental protection is one of the main issue in modern international relations. In recent decades, world powers have paid special attention to environmental security in their foreign policies. This factor also makes the problem of environmental protection one of the key aspects of international security. The transnational nature of environmental problems encourages countries to work more closely with each other in many cases. This factor is also emphasized in the article. In general, the article is quite relevant and meets certain scientific criteria.

*Key words*: environmental security, environment, environmental problems, environmental threats, national security, international security, declaration, relations, demographic situation, human life, international cooperation, "sustainable development", international conference, climate change, economic interests, nuclear weapons tests, Club of Rome, man-made factors, military factors, socio-economic factors, natural disasters.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 oktyabr 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2020-ci il.*
*Rəyçilər: s.e.f.d. Afət Səfərova, s.e.d. Adil Mirabdullayev.*

**UOT 94"19/..."**

**ABBAS MƏSİMOV**
*Tarix üzrə fəlsəfə doktoru*
*Azərbaycan Kooperasiya Universitetinin baş müəllimi*
**E-mail: TarixVeOnunProblemleri@gmail.com**

# BERLİN (POTSDAM) KONFRANSINDA ERMƏNİ HAVADARLARI

*Məqalədə 17 iyun – 2 avqust 1945-ci il tarixlərində SSRİ, ABŞ və Böyük Britaniya hökumət rəhbərlərinin Berlin (Potsdam) konfransında qəbul etdikləri qərarlar nəzərdən keçirilir. Müttəfiq güclər konfransda müharibədən sonrakı dövr üçün xalqların antifaşist azadlıq mübarizəsinin nəticələrini əks etdirən məsələlərlə bağlı razılaşdırılmış qərarlar qəbul etdilər. Qeyd edilir ki, konfransda ilk növbədə, gələcəkdə Alman torpaqlarında ola biləcək hər hansı təcavüz təhlükəsinin qarşısını almaq məqsədilə Almaniyanın demilitarizasiyası və denazifikasiyası üçün zəruri tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdu. Qeyd edilir ki, bundan başqa, SSRİ rəhbərləri xarici ermənilərin köçürülüb Ermənistan SSR-ə yerləşdirilməsi üçün Türkiyə əleyhinə ərazi iddiaları irəli sürmüşdülər. Məqalədə SSRİ rəhbərlərinin bu qərarı və onun nəticələri ilə bağlı məsələlərdən də bəhs olunur.*

*Açar sözlər*: konfrans, koalisiya, faşist, proqram, problem, militarizm, nasional, sosializm, demokratik, demarş, atom, terminal.

*Giriş*. İkinci Dünya müharibəsi antihitler koalisiyasının faşist Almaniyası üzərində tam qələbəsi ilə qurtardı. Faşizm üzərində qələbə ümumdünya tarixi əhəmiyyətə malik idi, bəşəriyyəti faşist əsarəti təhlükəsindən xilas etdi və dünyanın müharibədən sonrakı inkişafına böyük təsir göstərdi. Antihitler koalisiyasına daxil olan ən böyük dövlətlərin – SSRİ, ABŞ və Böyük Britaniyanın başçıları İ.Stalin, T.Trumen və U.Çörçill iyulun 28-dən isə K.Ettli bir sıra siyasi məsələləri və dünyanın müharibədən sonrakı quruluşu planını işləyib hazırlamaq üçün 1945-ci il iyulun 17-dən [1; s. 5] avqustun 2-si tarixində Berlin (Potsdam) konfransına toplaşdılar.

*Berlin (Potsdam) konfransının işə başlaması.* Berlin (Potsdam) konfransı 1945-ci il iyulun 17-dən avqustun 2-dək [1; s.5] keçirilmiş və antihitler koalisiyasına daxil olan dövlət başçılarının iştirakı ilə bir sıra tarixi məsələlər müzakirə edilərək, qərarlar qəbul edilmişdir. İkinci Dünya müharibəsi dövrünün gedişində müttəfiq dövlətlərin başçılarının keçirdikləri Tehran konfransı və Kırım konfransından fərqli olaraq Berlin (Potsdam) konfransı Faşist Almaniyası tamamilə ağır məğlubiyyətə uğradıldıqdan sonra keçirilmişdir. Berlin (Potsdam) konfransı öz qərarlarında SSR-nin və digər antihitler ittifaqına daxil olan dövlətlərin faşist Almnasiyası üzərində qələbəsini təsdiq etməli, Avropada möhkəm və ədalətli sülh proqramı hazırlanmalı idi.

Müttəfiq dövlət başçılarının əvvəlki beynəlxalq konfransları antihitler koalisiyasına daxil olan dövlətlərin həmrəyliyi ruhunda keçmişdirsə, Berlin (Potsdam) konfransı artıq "Soyuq müharibənin" başlanğıcı dövrünə təsadüf etmişdi.

Berlin (Potsdam) konfransının qərarları Avropanın müharibədən sonrakı problemlərinin nizamlanması, alman militarizminin və nasional-sosializminin aradan qaldırılması üçün böyük əhəmiyyət kəsb edirdi. Müttəfiq dövlətlərin "Soyuq müharibə" şəraitində razılaşdırılmış kursdan geri çəkilməsinə baxmayaraq, bu qərarlar Avropa ölkələrinin siyasi həyatının demokratik əsaslarla yenidən qurulmasına imkan yaratdı.

Berlin (Potsdam) konfransının 1945-ci il iyulun 15-də [1; s. 13] başlanılması ABŞ prezidneti tərəfindən təklif edilmişdi. Sonra aydınlaşdırıldı ki, ABŞ Atom bombasını sınaqdan keşirdikdən sonra konfrans işə başlamışdı. Konfans şərti olaraq "Terminal" [1; s.13] adını almışdı və Almaniyanın paytaxtı Berlinin şəhərətrafı ərazisi Potsdamda çağrılması müəyyənləşdirilmişdi.

Berlin konfransının gedişində iyulun 24-də ABŞ prezidenti T.Trumen İ.Stalinlə danışıq zamanı ona təzyiq göstərmək məqsədilə onun ölkəsinin "böyük dağıdıcı qüvvəyə malik silaha" [1; s.14] sahib olduğunu xəbər verdi. Bu məlumat T.Trumenin konfransdakı demarşı ABŞ-ın "atom diplomatiyasının" ilk aktı idi.

Berlin (Potsdam) konfransı Alaniya ilə müharibə başa çatdıqdan sonra beynəlxalq vəziyyətin mürəkkəbləşdiyi bir şəraitdə keçirildi. Müharibə dövründə böyük dövlətlər SSRİ, ABŞ və Böyük Britaniya arasında yaranmış əməkdaşlıq müharibədən sonra çox mürəkkəb xarakter almışdı. Avropa ərazisinin əksəriyyəti müttəfiq qoşunlarının nəzarəti altında idi və işğal zonalarından ordu hissələri geri çəkilməmişdi. Belə bir şəraitdə Berlin (Potsdam) konfransı öz işini davam etdirirdi. Konfransın əvvəlindən sonunadək üç müttəfiq dövlətin – SSRİ, ABŞ və Böyük Britaniyanın dövlət başçıları İ.Stalin, H.Turmen və U.Çörçil iyulun 28-dən isə K.Ettli arasında danışıqlar davam etdirilmişdir.

Konfransın işində həm də müttəfiq dövlətlərin xarici işlər naziriləri - SSRİ xarici xarici işlər naziri V.M.Molotov ABŞ-ın xarici işlər naziri D.Brins, Böyük Britaniyaın xarici işlər naziri A.İden daha sonra E.Bevin və onların müavinləri iştirak edirdilər.

Krım konfransının qərarlarına uyğun olaraq Avropada müharibə başa çatdıqdan sonra üç müttəfiq dövlət – SSRİ, ABŞ və Böyük Britaniya arasında hərbi əmliyyatların əlaqələndirilməsi, öncə SSRİ-nin ABŞ-la birlikdə Yaponiyaya qarşı hərbi əməliyyatların başlanması tezliklə militarist Yaponiyasını darmadağın etmək məqsədilə ümumiyyətlə hərbi əməliyyatlar əlaqələndirilməli idi. Bu konfransda nəinki hərbi məsələləri, həm də müharibədən sonrakı dövrdə dünyada yeni quruculuq qaydalarının nizama salınması nəzərdə tutulmuşdu. Hətta 1945-ci il aprelin 25-də ABŞ-da Birləşmiş Millətlər Təşkilatının konfransını çağırmağı müəyyənləşdirilmişdi.

ABŞ prezidenti T.Trumenin başçılıq etdiyi nümayəndə heyəti 1945-il iyulun 15-də [1; s.13] Berlinə gəldi. Böyük Britaniyanın U.Çörçilin başçılıq etdiyi nümayəndə heyəti də həmin gün Berlinə gəldi. U.Çörçillə birlikdə Böyük Britaniya nümayəndə heyətinin tərkibində K.Ettli də iştirak edirdi. Çünki Böyük Britaniyada keçirilmiş parlament seçkilərində mühafizəkarlar partiyası məğlub olmuş və leybonistlər partiyası qalib gəldikdən sonra hökumətə partiyanın lideri K.Ettli başçılıq etmişdi.

SSRİ Xalq Komissarları Sovetinin Sədri İ.V.Stalinnin başçılıq etdiyi nümayəndə heyəti 1945-ci il iyulun 16-da [1; s.14] Berlinə gəldi. İyulun 17-də ABŞ-ın yeni prezindeti T.Trumenin İ.V.Stalinlə ilk görüşü oldu və o, bəyan etdi ki, "generalissimus Stalinin prezindet Ruzveltlə olduğu dostluq münasibətləri kimi əlaqələr yaratmaq istərdi". İ.V.Stalin bildirdi ki, Sovet hökuməti ABŞ-la birgə hərəkət etməyə hazırdır.

Göstərildiyi kimi Berlin konfransı ərəfəsində ABŞ-da atom bombası sınaqdan keçirildi. 1945-ci il iyulun 24-də [1; s.14] ABŞ prezindeti T.Trumen Sovet nümayəndə heyətinin başçısına atom bombasının sınaqdan keçirilməsi haqqında məlumat verdi. Lakin bu məlumat SSRİ nümayəndə heyətində gözlənilən təəssürat yaratmadı və konfrans Sovet İttifaqının faşist Almaniyasının darmadağın edilməsində həlledici rol oynamasının təsiri altında öz işini davam etdirirdi.

1945-ci il iyulun 17-də saat 17-də [1; s.14] Potsdam konfrasnı rəsmi surətdə işə başladı. Sovet nümayəndə heyəti başçısının təklifi ilə konfransa sədrlik etmək ABŞ prezidentinə həvalə edildi. ABŞ və Böyük Britaniya nümayəndə heyətləri müzakirə ediləcək məsələləri konfransa təqdim etdilər. Nümayəndə heyətləri istənilən məsələni müzakirəyə çıxara bilərdilər.

ABŞ prezindeti, İtaliya, Rumıniya, Finlandiya, Bolqarıstan və Macarıstanla sülh müqavilələri imzalamaq məqsdilə, həm də Avropada müharibənin başa çatması ilə əlaqədar olaraq ərazi məsələrini tənzimləmək üçün xarici işlər nazirlərindən ibarət Nazirlər Şurası yaradılmasını, Almaniyaya nəzaərtin başlanğıc dövrü üçün memorandum hazırlamasını, azad edilmiş Avropa ilə bağlı Krım konfransının qərarlarının yerinə yetirilməsi və İtaliyaya münasibətlə əlaqədar olaraq qərar qəbul edilməsini təklif etdi. U.Çörçil Polşa məsələsinin və Krım Konfransında Yuqoslaviyaya dair sazişin yerinə yetirilməsi məsələsi haqqında məlumatların gündəliyə daxil edilməsini təklif etdi.

İ.V.Stalin konfransın gündəliyinə Almaniyadan təzminat alınması haqqında, Almaniya donanmasının bölüşdürülməsinin, əvvəllər Almaniya tərəfində vuruşmuş olan, sonra isə onunla əlaqəni kəsmiş ölkələrlə diplomatik əlaqələarin bərpa edilməsi, Polşada milli birlik hökumətinin təşkil edilməsilə əlaqədar olaraq Polşa mühacir hökumətinin ləğv edilməsi, İspaniyada Franko rejimi və daha bir neçə məsələlərin daxil edilməsini təklif etdi.

Berlin konfransında başlıca olaraq Almaniya məsələsi küzakirə edildi. Bundan əvvəl "Böyük üçlüyün" bundan əvvəlki Tehran və Krım görüşlərində də Almaniya məsələsi müzakirə edilmiş, problem həm də Avropa Məsələhət Komissiyasında (AMK) müzakirə edilmişdi. Almaniyaya aid müttəfiqlərin razılaşdırılmış qərarlarının yerinə yetirilməsi işğalın başlanğıc mərhələsində

Almaniyanın idarə edilməsi müxanizminin yaradılmasına şərait yaradırdı.Razılaşdırılmış qərarların əsasını Krım konfransının Almaniyaya aid sazişi, Almaniyanın məğlub edilməsi haqqında bəyanat, Almaniyanın işğal dairələrinə bölüşdürülməsi və Böyük Berlinin idarə edilməsi təşkil edirdi. Avropa Məsləhət Komitəsi tərəfindən Almaniyaya daha bir tələb verilməsi haqqında razılaşdırılmış və 1945-ci ilin iyulun 25-də [1; s.15] konfransda təsdiq edilmişdi. Bu sazişdə Almaniyanın hərbsizləşdirilərək tərksilah edilməsi və faşist rejiminin tamamilə ləğv edilməsinə yönəldilmiş tədbirlər həyata keçirilməsi nəzrədə tutulmuşdu. Sovet nümayəndə heyətinin təkidilə sazişə Almaniyanın bütün SS, SA, SD və gestaponun, digər hərbi və yarım hərbi birləşmələrin ləğv edilməsi maddələri daxil edilmişdi.

*Berlin (Potsdam) konfransının qərarları.* Artıq konfransın ikinci günü üç böyük müttəfiq dövlət tərəfindən Almaniyaya aid razılaşdırılmış siyasi qərarlar qəbul edildi. Müttəfiqlərin razılaşdırılmış qərarlarında Almaniyanın militarizmdən azad edilərək demokratikləşdirilməsi, alman nasizminin aradan qaldırılması və digər elə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulurdu ki, Almaniya bir daha qonşularına qarşı və bütün dünyada sülh üçün təhlükə yaratmasın. Konfransın iyulun 31 və avqustun 1-də [1; s.16] keçirilmiş iclaslarında müttəfiqlərin qəbul etdiyi sazişdə işğalın başlanğıc mərhələsində Almaniyanın idarə edilməsinin siyasi və iqtisadi prinsipləri müəyyənləşdirilmişdi. Sazişin siyasi prinsipləri haqqına maddəsinə əsasən SSRİ, ABŞ, Böyük Britaniya və Fransa Respublikasının silahlı qüvvələrinin Ali Baş komandaqlıqları bölüşdürülmüş işğal zonalarında öz ölkələrinin hökumətlərinin təlimatlarına uyğun olaraq Almaniyada ali hakimiyyəti həyata keçirirdilər. Üç böyük müttəfiq dövlətin razılığına əsasən işğalın ilk dövrlərində Almaniyada heç bir mərkəzi dövlət yatadılmırdı. Lakin Almaniyaya Nəzarət Şurasının (ANS) rəhbərliyi altında bir neçə departament yaradılması məqsədəuyğun hesab edilirdi.

Konfransın qərarına əsasən elan edilirdi ki, işğalın məqsədi Almaniyanın tamamilə tərksilah edilməsi, militarizmin məhv edilməsi, hərbi istehsala səbəb olacaq sənaye sahələrinin ləğv edilməsi və mürtəce millətçilik fəaliyyətinin qadağan edilməsi, nasional-sosialist partiyasının ləğv edilməsi, hərbi canilərin cəzalandırılması və Almaniyada siyasi həyatın demokratik əsaslarla yenidən qurulmasına nail olmaqdan ibarətdir.

Almaniyanın idarə edilməsinin iqtisadi prinsiplərinə dair konfransın qərarlarına müttəfiqlər arasında əldə edilmiş sazişə əsasən dağ-mədən, emal sənayesi, kənd təsərrüfatı və meşə materiallarının bölüşdürülməsi, idxal və ixracın, əmək haqqının, qiymətlərin, pul, maliyyə-bank sisteminin tənzimlənməsi, Almaniya işğalçıları tərəfindən zərər çəkmiş ölkələrlə qismən təzminat ödənilməsi və sair mühüm məslələr daxil idi.

ABŞ nümayəndə heyətinin təklifilə qəbul edilmiş qərar əsasında Almaniyanı işğal zonalarına bölüşdürmüş dövlətlərin hər biri öz təsir dairəsindəki ərazidən təminat ala bilərdilər.

Sovet nümayəndə heyəti 1945-ci il iyulun 23-ü və 31-də [1; s.19] təzminat haqqında öz təkliflərini konfransa təqdim etdi. SSRİ müharibədə daha çox dağıntılara məruz qaldığı üçün onun iqtisadiyyatına 2 trilyon 600 [2; s.552] milyardlıq zərər dəymişdi. Bu səbəbdən də sovet nümayəndə heyəti maddi zərərin nəinki öz işğal zonasından alınan təzminat hesabına hətta Qərb işğal dairəsindən avadanlıqların verilməsi müqabilində təzminat ödənilməsi təklifini vermişdi.

Konfransda qərara alındı ki, təzminat hər bir işğal zonasından elə həcmdə ödənilməlidir ki, gələcəkdə alman xalqının tələbatını ödəmək üçün kifayət qədər resurslar saxlanılsın. Sovet nümayəndə heyəti Böyük Britaniyanın ələ keçirdiyi Almaniya hərbi-dəniz və ticarət donanmasının bərabər bölüşdürülməsini təklif etmişdi. Bu təklifi ABŞ və İngiltərə nümayəndələri yubatmğa çalışmalarına baxmayaraq alman donanmasının üş böyük müttəfiq dövlət arasında bərabər bölüşdürülməsi qərara alındı.

Sovet nümayəndə heyətinin təkidilə 1945-ci ilin sentyabrınadək olan alman nasist hərbi canilərinin siyahısı mətbuatda dərc edilməli və onlara ən ağır cəza verilməli idi.

Konfransda İtaliya, Polşa, Yuqoslaviya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan, Finlandiya və bir sıra ölkələrin sərhədləri, hakimiyyət və başqa məsələlər müzakirə edildi və 1945-ci il iyulun 22-də [1; s.25] ABŞ həmin dövlətlərin Birləşmiş Millətlər Təşkilatına qəbulu təklifini irəli sürdü.

ABŞ-ın atom amilindən istifadə edərək SSRİ-yə təzyiq göstərməyə cəhd etməsinə baxmayaraq Sovet dövləti konfransda özünü faşist Almaniyasının darmadağın edilməsində əsas rol oynayan dövlət kimi aparırdı və bunun nəticəsində bir sıra torpaqların ilhaq edilməsinə nail oldu.

Berlin (Potsdam) konfransında üç müttəfiq dövlətlərin qoşunlarının İrandan çıxarılması məsələsi də müzakirə edilmişdir. Məlumdur ki, hələ Krım konfransında [3; s.158-159] qərara alınmışdır ki, müttəfiq qoşunları hərbi şəraitlə əlaqədar olaraq mərhələlərlə İrandan çıxarılmalıdır. Bu qərara əsasən konfransda bir daha qərara alındı ki, bütün hərbi əməliyyatlar başa çatdıqdan sonra "altı aydan gec olmayaraq" [1; s.323] müttəfiq qoşunları İrandan çıxarılmalıdır.

Konfransın qəbul etdiyi qərarlarda Almaniyanın demokratikləşdirilməsi və nasizmin yox edilməsi nəzərdə tutulurdu ki, bir daha alman torpağından müharibə təhlükəsi yaranmasın. Konfrasda Avropa dövlətlərinin sərhədləri müəyyənləşdirildi və müharibədən sonrakı dinc quruculuq dövrünün əsasları qoyuldu.

Berlin (Potsdam) konfransının qərarına əsasən Macarıstandan, Çexoslovakiyadan, Polşa və b. ölkələrdən alman əhalisi Almaniya ərazisinə köçürülməli idi. Bu qərara əsasən bir sıra Avropa ölkələrindən milyonlarla alman əhalisi Almaniya ərazisinə köçürüldü.

Bununla belə Sovet İttifaqı yeni ərazilər ələ keçirməyə çalışırdı. 1945-ci il iyulun 23-də [1; s.149] dövlət başçılarının yeddinci iclasında İ.Stalin Türkiyəyə qarşı ərazi iddiaları və Türkiyənin Qara dəniz boğazlarında gəmilərin təmiri üçün Sovet hərbi-dəniz bazalarının tikilməsi təklifilə çıxış etdi.

Sovet İttifaqı Türkiyəyə qarşı öz ərazi iddialarını hələ 1945-ci il iyulun 16-da [1; s.37-38] Potsdamda SSRİ xarici işlər nazirinin Böyük Britaniyanın xarici işlər naziri ilə söhbətində səsləndirmişdi. 1945-ci il iyulun 22-də [1; s.135-136] dövlət başçılarının iclasında bu məsələ ilə bağlı İ.Stalinin təklifi ilə Molotov çıxış edərək bildirmişdi ki, bir sıra sahələrdə SSRİ ilə Türkiyə arasında sərhəd düzgün deyildir. 1921-ci ildə Türkiyə Qars, Artvin və Ərdahan ərazilərini Sovet Ermənistanının və Sovet Gürcüstanının əlindən almışdır. Ona görə də SSRİ və Türkiyə arasında təhlükəsizlik müqaviləsini imzalamaq üçün həmin ərazilər geri qaytarılmalıdır. Böyük Britaniyanın baş naziri U.Çörçil öz arqumentli sualları və çıxışları ilə bu iddiaların əsassız olduğunu sübut etdi.

1945-ci il iyulun 23-də dövlət başçılarının yeddinci iclasında yenə SSRİ ilə Türkiyə arasında təhlükəsizlik müqaviləsinin imzalanması məsələsinə toxunaraq İ.Stalin qeyd etmişdi ki, belə bir müqaviləni imzalamaqdan əvvəl Birinci Dünya müharibəsinə qədər mövcud olmuş sərhədlər bərpa edilməlidir. Daha sonra o bildirmişdi ki, mən keçmiş sərhədlərin bərpa olunması dedikdə Birinci Dünya müharibəsindən əvvəl Ermənistanın tərkibində olmuş Qars və Gürcüstanın tərkibində olmuş Ərdahan ərazilərini nəzərdə tuturam. O, həmin ərazilərin qaytarılmasını və Türkiyənin Qara dəniz boğazlarında Sovet hərbi-dəniz bazarlarının yaradılmasının vacibliyini qeyd etmişdi.

Hələ 1943-cü il noyabrın 28-dən [4; s.135] dekabrın 1-dək SSRİ, ABŞ və İngiltərənin iştirakı ilə keçirilən Tehran konfransında Sovet-İran münasibətləri müzakirə edilərkən ermənilər əlverişli şəraitdən istifadə edərək, SSRİ xarici işlər naziri V.Molotova müraciət edib, İranda yaşayan ermənilərin SSRİ-yə köçürülməsinə icazə istəmişdilər. V.Molotov məsələ ilə bağlı İ.Stalinlə danışdırqdan sonra onların Ermənistan SSR ərazisinə köçürülməsinə razılıq vermişdi.

Konfransda İ.Stalinin və SSRİ xarici işlər naziri V.Molotovun Türkiyəyə qarşı irəli sürdükləri iddialarından hiss edilir ki, bu idddiaların hazırlanaraq qaldırılmasında gizli məsləhətçi əlləri vardır. Həmin dövrdə Anastasi Mikoyan İ.Stalinin əsas məsləhətçilərindən biri idi. Xatırladaq ki, A.Mikoyan dəfələrlə Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-ə birləşdirilməsi məsələsini qaldırmışdır. O, siyasi fəaliyyətinin bütün dövrlərində Sovet rəhbərbərlərinin məsləhətçisi olmuşdur. Xalq arasında onun haqqında çox müəmmalı və kinayəli sözlər yayılmışdır. A.Mikoyanın həmkarı olmuş və onunla birlikdə işləmiş. Fyodor Burlatskinin "Rəhbərlər və məsləhətçilər" ("Вожди и советники") kitabında A.Mikoyanın siyasi və məsləhətçilik fəaliyyəti geniş verilmişdir. Həmin kitabın Mikoyan haqqında yazılmış mətn kitabın 276-cı [5; s.274] səhfəsində tərcümə edilmədən olduğu kimi verilir:

"О чем раздумывал Микоян, выслушав рассказ Галюкова? Быть может, вспоминал свою молодость, когда каким-то странным образом ему удалось ускользнуть из тюрьмы в Баку? Он был в числе 27 бакинских комиссаров, но расстреляно было только 26, а Микоян

спасся. Или он вспоминал, как Сталин при его участии расправился с Каменевым, Зиновьевым, Бухариным? Или свое выступление в 1937 году на одном из партийных совещаний, когда он требовал: бить, бить, бить? Но быть может, он думал о неудачной попытке снять Хрущева в 1957 году и своих колебаниях в тот момент – на чью сторону встать?

Кто знает. Но не напрасно, ох, не напрасно сложилась в народе о Микояне притча: от Ильича до Ильича без инфаркта и паралича (имелось в виду – от Ленина до Брежнева). Такие люди, увы, живут долго в политике. Микоян уже после снятия Хрущева продолжал занимать высокий пост и ушел только по старости, с почетом и сохранением всех благ для себя и своей семьи. Вручил ли он пресловутый протокол, написанный сыном об отце, самому Брежневу и когда – до заседания Президиума ЦК или в перерыве, когда соотношение сил стало для него вполне ясным - неизвестно. Но, так или иначе, сыгранная им во всей этой истории роль выглядит крайне сомнительной" [5; s.274].

A.Mikoyan müharibə dövründə Dövlət Müdafiə Komitəsinin üzvü olmuş köçürmə məsələlərinə baxmışdır. Çox ehtimal ki, azərbaycanlıların müharibədə alman faşistləri ilə əməkdaşlıq edəcəkləri məsələni də o bu mülahizəni irəli sürərək azərbaycanlıların Orta Asiya və Qazaxıstana köçürülməsini təklif etmişdir.

A.Mikoyanın Sovet rəhbərlyində yaratdığı fikrə görə xaricdəki erməniləri SSRİ-yə köçürmək üçün Ermənistan SSR-nin ərazisini genişləndirmək lazımdır. Ona görə də 1946-cı il oktyabrın 19-da [4; s.134] SSRİ Ali Soveti Rəyasət Heyəti xarici ölkələrdə yaşayan ermənilərin Ermənistan SSR ərazisinə köçürülməsi ilə bağlı Fərman verdi.

Bu fərmanı həyata küçirmək üçün SSR Nazirlər Soveti 1947-ci il dekabrın 23-də [4; s.134] "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalisinin Azərbaycan SSRİ-in Kür-Araz ovalığına küçürülməsi haqqında qərar verdi. Az sonra isə 1948-ci il 10 [4; s.134] mart tarixli "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalisinin Azərbaycan SSRİ-nin Kür-Araz ovalığına küçürülməsi ilə əlaqədar tədbirlər haqqında" daha bir qərar verdi. Göstərilən qərarlara əsasən Qərbi Azərbaycandan on minlərlə azərbaycanlı ailəsi Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürüldü.

*Nəticə.* Berlin (Potsdam) konfransı bir sıra mühüm siyasi məsələləri müzakirə edərək dünya əhəmiyyətli tarixi qərarlar qəbul etdi. Konfransın qəbul etdiyi qərarlarla Avropanın və dünyanın müharibədən sonrakı quruluşu planı işlənib hazırlandı. Konfransda sovet nümayəndə heyəti diplomatik yolla Türkiyənin mənafeyinə toxunan ərazi iddiaları ilə çıxış etdi. Bu iddiaların yerinə yetirilməsi dolayısıyla Azərbaycanın da mənafeyinə toxunurdu. Bu iddialar əsasən Böyük Britaniya nümayəndə heyəti tərəfindən təkzib edildi. Diplomatik yolla xaricdəki ermənilərin Sovet İttifaqı ərazisinə köçürülməsinə çalışan İ.Stalin, V.Molotov dolayısı Anastasi Mikoyan öz məqsədlərinə nail ola bilmədikdə bu problemi həll etmək üçün başqa vasitələr axtarmağa başladılar. Onlar bu problemin həllini Azərbaycan SSR-ni ərazisi hesabına həll edilməsində "gördülər". Nəticədə xaricdə yaşayan ermənilərin Sovet İttifaqına köçürülməsi problemi Qərbi azərbaycanlıların öz doğma yurdlarından deportasiyası hesabına "həll edildi".

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi, VII cilddə, VII c. Bakı, Elm, 2008, 135 s.
2. Берлинская (Потсдамская) конференция руководителей трех союзных держав-СССР, США, и Великобритании. (17 июля-2 августа, 1945 г.). Сборник документов. Москва, Политиздат, 1984, с.1-323.
3. Великая Отечественная война Советского Союза, 1941-1945. Краткая история, Москва, Воениздат, 1965, 552 с.
4. Крымская конференция руководителей трех союзных держав-СССР, США и Великобритании. (4-11 февраля 1945 г.). Сборник документов. Москва, Политиздат, 1984, с.158-159.
5. Феодор Бурласский. Вожди и советники. Москва, Политиздат, 1990, 274 с.

**ABBAS MASIMOV**
*PhD in history, head teacher of the ACU*

## ARMENIAN AMATEURS AT THE BERLIN (POTSDAM) CONFERENCE

The article examines the decisions of the Berlin, Potsdam Conference of Heads of Governments of the USSR, the United States, and the United Kingdom from July 17 until August 2, 1945. At the conference, the Allied nations developed coordinated decisions reflecting the aftermath of the war on peoples' antifascist freedom struggle. The decisions of the conference were to create conditions for the disarmament of Germany and the implementation of measures to eliminate Nazism so that there would be no new war threat from the German lands. It is later explained that the leaders of the USSR made territorial claims against Turkey to expand the territory of the Armenian SSR and to resettle Armenians living abroad.

*Key words*: conference, coalition, fascism, program, problem, militarism, nationalism, socialism, democratic, demarche, atom, terminal.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 21 fevral 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2020-ci il.*
*Rəyçilər: t.e.d.Ə.Qasımov, t.e.d.Məmməd Fətəliyev.*

**UOT 94**

**ƏSGƏR ZEYNALABDİNOV**
*Bakı Dövlət Universiteti*
*Slavyan ölkələri tarixi kafedrasının müəllimi*
**E-mail: asgarzeynalabdinov@bsu.edu.az**

# ŞİMALİ QAFQAZDA TƏHLÜKƏSİZLİK PROBLEMLƏRİ VƏ ABŞ

*XX əsrin 90-cı illərinin əvvəllərindən başlayaraq rəsmi Vaşinqton Rusiya siyasəti kontekstində Şimali Qafqazda baş verən təhlükəsizlik məsələlərinə xüsusi önəm verməyə başladı. Şimali Qafqaz xalqlarının öz suveren hüquqlarının bərpası uğrunda mübarizəsinə ABŞ administrasiyası tərəfindən dərhal reaksiya verildi. Mübarizə ilə bağlı Ağ Ev tərəfindən müxtəlif bəyanatlar verilsə də, ümumilikdə rəsmi Vaşinqton Şimali Qafqazı Rusiyanın bir subyekti hesab edərək, rəsmi Moskvaya yönəlik siyasətində ehtiyatlı mövqe tutmağa üstünlük verdi.*

*Açar sözlər*: ABŞ, Rusiya, Şimali Qafqaz, mübarizə, xarici siyasət.

*Giriş*. XX əsrin 90-cı illərinin əvvəllərində dünyanın siyasi xəritəsində baş verən dəyişikliklər nəticəsində Cənubi Qafqaz regionunda olduğu kimi, Şimali Qafqazda yaşayan xalqlar arasında öz suveren hüquqlarının bərpası uğrunda mübarizə genişlənməyə başladı. Bu uzun müddət Sovet hakimiyyəti altında qalan xalqların artıq yaranmış şəraitlə əlaqədar, bu əsarətdən qurtularaq, müstəqil olmaq istəkləri ilə bağlı idi. Ona görə də qeyd edilən dörvrdə çeçen xalqının müstəqillik uğrunda mübarizəyə başlaması və nəticədə rus-çeçen müharibəsinin ortaya çıxması, Şimali Qafqazda canlanmaya səbəb olmaqla yanaşı İnquşetiya, Dağıstan ərazilərində də yaşayan xalqların azadlıq uğrunda mübarizəsinin geniş vüsət almasına gətirib çıxara bilərdi.

Şimali Qafqazın tarixən Avropa ilə Asiya arasında körpü rolunu oynayaraq, islam və xristian sivilizasiyaları arasında əlaqə zonası olmaqla yanaşı [78,12], Qafqazın giriş qapısı rolunu icra etməklə, həm regionu, həm də Şərqi Aralıq dənizi və Bəsrə körfəzini nəzarətdə saxlamağa imkan verən strateji bir bölgə olması, onu Rusiya ilə yanaşı, ABŞ üçün də önəmli bir duruma gətirirdi. Qeyd edilən bu reallıqlar baxımından Şimali Qafqazda baş verən proseslər rəsmi Vaşinqtonun diqqət mərkəzindən kənarda qala bilməzdi.

*ABŞ-ın mövqeyi*. Şimali Qafqazda baş verən proseslər XX əsrin 90-cı illərinin əvvəllərində regionda vəziyyətin kəskinləşməsi ilə nəticələndi. Bu zəmində rəsmi Vaşinqton Çeçenistan Respublikasındakı proseslərin digər Şimali Qafqaz respublikalarına və qonşu müsəlman ölkələrinə təsirindən narahatlığını vurğuladı.

ABŞ Dövlət Departamentinin sözçüsü Maykl Makkarri verdiyi açıqlamada bütün dünyanın bu ehtimaldan narahat olduğunu qeyd edərək, Rusiya Federasiyasının ərazi bütövlüyünün qorunmasının vacibliyini bildirdi [3,109]. Rusiya Federasiyasının Prezidenti Boris Yeltsin 1994-cü ilin iyulunda BMT-nin 49-cu sessiyasında iştirak etmək üçün Nyu-Yorka səfəri zamanı ABŞ Prezidenti Bill Klintonla görüşdü. Yalta-2 adlandırılan Vaşinqton zirvə toplantısında ABŞ Rusiyanın Çeçenistan siyasətini dəstəklədi [4, 471]. Elə həmin ilin dekabrında ABŞ-ın Dövlət Katibi Kristofer Varren Rusiya Prezidenti Boris Yeltsinin Çeçenistana ordu göndərməsini anlayışla qarşıladıqlarını bildirərək, onun bu qərarı heç bir seçim qalmayınca vermiş olduğundan əminliyini ifadə etdi. [3,108].

1996-cı il avqustun 31-də Xasavyurtda Rusiya Federasiyası Prezidentinin Çeçenistandakı səlahiyyətli nümayəndəsi Lebed və çeçen hərbi qüvvələri ştabının rəisi Aslan Məshədov sülh sazişi imzaladılar. Tərəflər atəşkəs elan edilləsi və Çeçenistan ərazisindən federal qüvvələrin çıxarılması haqqında razılığa gəldilər. ABŞ Prezident administrasiyası RF ilə Çeçenistan arasındakı razılığa görə əldə edilən atəşkəsi dəstəklədi. 1997-ci ilin yanvarın 27-də Çeçenistanda keçirilən növbəti prezident seçkilərində A.Məshədov qalib gəldi. Elə həmin ildə isə Rusiya ilə "Sülh və qarşılıqlı münasibətlər" haqqında müqavilə imzalandı.

Buna baxmayaraq 1999-cu ilin avqust ayında baş nazir Vladimir Putinin Dağıstana səfərindən sonra da regionda vəziyyətin stabilləşməməsi və sonrakı aylarda terror aktlarının genişlənməsi həmin ilin oktyabrında rus qoşunlarının yenidən Çeçenistana müdaxiləsi ilə nəticələndi. Elə həmin ildə

Çeçenistan Prezidenti Aslan Məshədov Papa II Jon Paulun adından ABŞ Prezidenti Bill Klintondan yardım istədi. Məsxədov ABŞ Prezidenti Bill Klintona göndərdiyi mesajda çeçen böhranının həll edilməsi üçün vasitəçilik etməyini, o cümlədən Rusiyanın çeçen xalqının azadlıq və təhlükəsiz yaşama hüquqlarına hörməti müqabilində ikitərəfli danışıqlara hazır olduğunu bildirdi. Artıq bu zəmində 1999-cu ildən ABŞ-ın Çeçenistan siyasətində dəyişiklik baş verdi. Qeyd edilən dövrdən başlayaraq, rəsmi Vaşinqton problemin beynəlxalq səviyyədə həlli istiqamətində siyasət yeritməyə başladı. Bu baxımdan ABŞ administrasiyası Çeçenistan böhranının ATƏT-in İstanbul sammitində əsas müzakirə mövzusu olmasına çalışırdı.

Fikrimizcə, bu yolla ABŞ administrasiyası böhranla bağlı Rusiyaya təsir göstərmək niyyətində idi. Məsələnin beynəlxalq səviyyədə müzakirəsi ABŞ-a Rusiyaya problemlə bağlı təzyiq etməyə imkan verə bilərdi. Buna görə də, artıq sammit ərəfəsində qeyd edilən problemlə bağlı rəsmi Vaşinqtonun mövqeyində dəyişikliklər baş verdi. Klinton administrasiyası Çeçenistandakı müharibəni artıq Rusiyanın "daxili işi" hesab etməkdən imtina etdi. İstanbul sammitində isə Dövlət Katibi Madlen Olbrayt bunu daha açıq şəkildə bəyan etdi.

1999-cu ilin 12 noyabrında ABŞ Prezidenti Bill Klinton Dövlət Departamentinin Əhali, Qaçqınlar və Miqrasiya Bürosuna Qaçqınlar və Miqrasiya Yardım Fondundan Rusiya Federasiyasının Şimali Qafqaz regionu üçün 10 mln dollar həcmində humanitar yardım göstərilməsi haqqında göstəriş verdi. ABŞ hökuməti 2000-ci ilin 29 fevralında Beynəlxalq Qızıl Xaç Cəmiyyətinin konfliktlə bağlı Çeçenistanda fəaliyyətini dəstəkləmək üçün 2.4 mln dollar vəsait ayırdı [12].

Bunun ardınca isə 2000-ci ilin avqust ayının 11-də Çeçenistanda münaqişə nəticəsində məcburi qaçqın düşmüş 250.000-dən çox insana yardım etmək üçün 2.6 mln dollar vəsait ayrıldı. Bu vəsait Rusiya Federasiyasında Çeçenistan, İnquşetiya və Dağıstanda məcburi köçürülmüş insanların qorunmasına və onlara yardım edilməsinə yönəlmişdi. Nəzərdə tutulmuş yardıma Rusiya Federasiyasiyasında BMT Qaçqınlar üzrə Ali Komissarlığının proqramlarını dəstəkləmək üçün 880.000 dollar, Gürcüstanda eyni adlı təşkilatın proqramlarını dəstəkləmək üçün 565.000 dollar, BMT Uşaq Fondu üçün 505.000, Dünya Səhiyyə təşkilatı üçün 447.000 dollar, Humanitar İşlər üzrə Koordinasiya idarəsi üçün 260.000 dollar vəsait daxil idi [11].

Fikrimizcə, bununla ABŞ hökuməti insan hüquqlarının qorunmasında maraqlı olduğunu və bu kimi məsələlərə biganə qalmadığını nümayiş etdirmək fikrində idi. Digər tərəfdən administrasiya nümayəndələri Çeçenistana beynəlxalq müşahidəçilərin göndərilməsinə çalışırdılar. Beynəlxalq müşahidəçilərin ölkə ərazisinə daxil olması rəsmi Vaşinqtona böhranla bağlı siyasətinin müəyyənləşməsinə kömək edə bilərdi. Ona görə də, prezident Klinton Oklendə (Yeni Zelandiya) baş nazir Vladimir Putinlə görüşü zamanı bu məsələni ortaya qoydu. Lakin bu heç bir nəticə vermədi.

Bundan sonra Bill Klinton Rusiyanın Çeçenistanda apardığı müharibənin regionda antirus əhval ruhiyyəsi yaradacağı və Moskvanın xarici aləmdəki nüfuzuna zərbə vuracağını söylədi. 2000-ci ilin yanvar ayında Dövlət Katibi Madlen Olbrayt bildirdi ki, Çeçenistandakı müharibə Rusiyanın maraqlarında deyil və Moskvanı beynəlxalq təcridə doğru aparır .

Lakin onu da qeyd etmək lazımdır ki, ABŞ dövlət xadimləri tərəfindən Çeçenistan böhranı ilə bağlı bir sıra fikirlər söylənilsə də, Klinton administrasiyası Rusiya ilə münasibətlərin pisləşməsində maraqlı deyildi. Bu baxımdan Prezidentin mövqeyi də fərqli idi. Bill Klintonun fikrinə görə, Çeçenistan kimi kiçik məsələlər ABŞ-ın Rusiyaya münasibətinin mərkəzində dayana bilməz [9, 333].

*ABŞ siyasi dairələrində Şimali Qafqazda baş verən proseslərə münasibətində fərqli yanaşmalar*. Mövzunun araşdırılması zamanı diqqət çəkən məsələlərdən biri də ABŞ-ın siyasi dairələrində Şimali Qafqazda baş verən proseslərə münasibətində fərqliliklərin olmasıdır.

Belə ki, Boris Yelsinin 1994-cü ildə Çeçenistana hərbi güc tətbiq etmək planı Klintonun Rusiya komandasını çaşdırdı. Hərbi müdaxilədən əvvəl Klinton administrasiyasının Çeçenistanla bağlı siyasəti yox idi. Yalnız 1993-cü ilin aprel ayında çeçen məsələsi Dudayevin nüvə silahına malik olma iddiası ilə bağlı olaraq müzakirə edildi. Bu məsələnin yalan olduğu ortaya çıxsa da, Klinton administrasiyasının bəzi məmurları üçün Dudayevin təhlükəli, qeyri-sabit lider olmasını təsdiq etmiş oldu. Rəsmi Vaşinqtonu Rusiyanın öz respublikalarından birinə qarşı hərbi əməliyyat aparmaq qərarı təəccübləndirdi. Rusiyada ilk dəfə demokratik yolla seçilən Boris Yelsin rəhbərliyi Klinton prezidentliyi dövründə ABŞ üçün xüsusi əhəmiyyətli idi. Onun administrasiyası açıq şəkildə

hiss edirdi ki, Yelsin rəhbərliyi Rusiyada demokratik proseslər üçün vacibdir və bu hiss Klintonu Çeçenistandakı müharibəni tənqid etməkdən çəkindirirdi. Məhz elə buna görə də 1994-cü ilin dekabrın 11-də prezident Klinton Mayamidə keçirilən mətbuat konfransında bu müharibənin Rusiyanın "daxili işi olduğunu" qeyd etdi [8].

Bill Klinton administrasiyası Rusiyanın ərazi bütövlüyünü dəstəkləyərək çeçenlərə qarşı edilən təzyiqlərə ciddi əhəmiyyət vermədiyi halda, konqresdəki müxtəlif müxalifət liderləri vəziyyətlə bağlı öz narahatlıqlarını bildirdilər. Klintonun prezidentliyi dövründə senator Jessi Helms Çeçenistan məsələsinin gündəmə gətirilməsində mühüm rol oynadı. Dövlət Xarici İşlər Komitəsi sədri olan Jessi Helms Rusiyanı çeçenlərə qarşı güc tətbiq etdiyi üçün qınadı .

Konqresdəki respublikaçılardan olan xarici məsələlər üzrə komitənin nümayəndələrindən senator Jessi Helms başda olmaqla, onun tərəfdaşları Stiven Beyqan və Yan Bjezisinski Bill Klinton admistrasiyasını Çeçen böhranı ilə bağlı Rusiyaya yönəlik yeritdiyi xarici siyasət strategiyasında görə tənqid edirdilər. Bununla bağlı Helms konqresdə bir neçə dinləmələr keçirdi. Onun əsas tələblərindən biri Rusiyanın "böyük səkkizlikdən" çıxarılması idi [9,280].

ABŞ konqresində çıxış edən Stiven Sestanoviç isə bildirdi ki, çeçen üsyançıları ABŞ obyektlərinə zərbələr endirmiş və ya onun maraqlarına təhlükə törədən xaricdən radikal qruplardan, o cümlədən Usama ben Ladenin təşkilatından yardım alır [9, 330].

Millət vəkili Kristofer Cox isə ABŞ-ın Çeçen böhranı ilə bağlı Rusiyaya yönəlik xarici siyasət strategiyasını əks etdirən Cox hesabatını təqdim etdi. 2000-ci ilin fevralında digər senator Paul Vellston 2789 saylı qərarın qəbul edilməsi üçün təkid etdi. Qərar Birləşmiş Millətlər Təşkilatı İnsan Hüuqları Yüksək Komissarlığının Rusiyanın müharibə hərəkətlərini araşdırılmasını təsdiq etməsilə yanaşı, Bill Klintonu "Rusiya Federasiyası və Çeçen liderlər arasında sülh danışıqlarının ATƏT və BMT vasitəçiliyi ilə olmasını təşviq etməyə " dəvət edirdi [2, 167-168].

Digər bir respublikaçı senator Kentukki ştatından olan Mitç Makkonel idi. O, Klinton adminstrasiyasının Çeçen böhranı ilə bağlı siyasətindən narazı idi. Mitç Makkonel çıxışlarının birində qeyd etdi ki, Rusiyanın Çeçenistandakı hərbi fəaliyyəti Miloşeviçin Kosovoda etdiklərinə bənzəyir. Bu baxımdan mən başa düşə bilmirəm ki, nəyə görə biz Kosovodakı etnik təmizləməyə yönələn hərbi cinayətlərə qarşı çıxdığımız halda, Çeçenistanda dinc əhaliyə qarşı edilən barbarlığa biganə qaldıq [9,139].

ABŞ-da Harvard Universitetində təşkil edilən bir paneldə Rusiya mövzusunda mütəxəssis olan alimlər, Çeçenistanın işğal əmrini verən Yeltsinin aldadıldığını irəli sürərək, islahatların təhlükəyə girdiyini bildirdilər [3,135].

Beynəlxalq İnsan Hüquqları Monitorinq orqanı olan Helsinki Watch, Rusiyanın Çeçenistanda apardığı qanlı əməliyyatın ABŞ tərəfindən dəstəklənməsindən dolayı ABŞ Prezidenti Bill Klintonu günahlandırdı. Helsinki Watch Bill Klintona göndərdiyi məktubda Rusiyanın Çeçenistanın paytaxtı Qroznıda bir çox mülki vətəndaşın həyatına son qoyulması ilə nəticələnən əsgəri hərəkatına yetərli bir münasibət göstərmədiyi üçün Prezidenti qınadı. Helsinki Watch idarə heyətinin sədri Jeri Laber tərəfindən göndərilən məktubda qısaca olaraq deyilirdi ki, çeçen böhranında RF Prezidenti Boris Yeltsinə verdiyiniz dəstək, Rusiya ilə bağlı siyasi məqsədlərinizi heçə endirməyə yarayacaq. Sizə Yeltsinə Çeçenistandakı hərəkatın insan hüquq və azadlıqlarına zidd olduğunu açıq şəkildə bildirmək üçün səslənirik [3,146].

Bütün bu qeyd etdiklərimiz baxımından ABŞ-ın çeçen böhranı kontekstində Şimali Qafqazda təhlükəsizlik məsələlərinə münasibəti ilə bağlı bir sıra fərqli fikirlər söylənilmişdir. Belə ki tədqiqatçı Aziza Xatonun [2] fikrincə, ABŞ Rusiyanın parçalanmasını beynəlxalq təlükəsizliyin qorunmasına zidd hesab etdi və bu baxımdan müstəqil Çeçenistan dövlətinin qurulmasını xarici siyasət strategiyası maraqlarına uyğun gəlmədiyi qərarına gəldi .

Cimmi Karter dövründə prezident administrasiyasının milli təhlükəsizlik üzrə müşaviri olan Zbiqnev Bjezinski isə Bill Klintonu və onun xarici siyasət məsələləri üzrə komandasını Çeçen böhranı ilə bağlı günahlandırdı. O qeyd edirdi ki, faciə bundan ibarətdir ki, administrasiyanın Çeçenistanda baş verənlərə qarşı biganəliyi, görünür çeçenlərə qarşı törədilən soyqrımın genişlənməsinə kömək etdi. Hərbi kampaniya gedişində Kreml bir neçə dəfə Qərbin reaksiyasını

qiymətləndirməyə çalışsa da, Klintondan ancaq "çeçen üsyançılarına xoş münasibət bəsləmədiyini" eşitdi. Ruslar bunu özlərinin qəddar siyasəti üçün "yaşıl işıq" hesab etdilər [9,342].

1999-cu ilin dekabrında "Severnaya Osetiya" qəzetində isə bildirilirdi ki, 90-ci illərin birinci yarısında Qafqazda millətlərarası münaqişələr, insan haqqlarının pozulması kimi hallar baş verdiyi halda, ATƏT və Qərb heç bir narahatlıq ifadə etməsələr də, ikinci çeçen müharibəsinin başlanmasından sonra daha böyük fəallıq göstərməyə başladılar [6, 387].

Fikrimizcə, Klinton adminstrasiyası bu münaqişənin həlli üçün Rusiyaya ciddi bir təsir göstərməyərək, ikitərəfli münasibətləri böhranın həllindən üstün tutdu. Qeyd edilən reallıqlar baxımından ABŞ özü birbaşa müdaxilə etməsə də, Şimali Qafqazda təhlükəsizlik problemlərinin həll edilməsinə təsir göstərmək potensialına malik dövlətlərə dəstək verdi. Bu baxımdan rəsmi Vaşinqton üçün ən əhəmiyyətli ölkə Gürcüstandır. Buna ən bariz nümunə Pankisi vadisində antiterror əməliyyatlarıdır .

Pankisi vadisində (Pankisi vadisi Gürcüstanın şimal-şərqində Borbalo dağlarından Alazani çayına qədər ərazidə 34 km$^2$ ərazidir [1,253].) Çeçen mücahidlərinin gizləndiyini iddia edən Rusiya bu bölgəyə müdaxilə etmək niyyətində idi. Lakin məlum hadisələrdən sonra ABŞ bu vadidə Əl-Qaidə terrorçularının olduğunu bildirdi. Bununla da Pankisi vadisində ABŞ-Rusiya rəqabəti meydana gəldi. Bu zəmində ABŞ-ın yardımı ilə Gürcüstan hökuməti Pankisi vadisində antiterror əməliyyatları keçirdi və regionun kriminalist qüvvələr tərəfindən təmizlənməsi üçün bir sıra ciddi addımlar atdı [10, 101].

*Nəticə*. Beləliklə, vurğulamaq lazımdır ki, ABŞ SSRİ-nin dağılmasından sonra varis rolunu oynayan Rusiya ilə münasibətlərə önəm verməyə başladı. Rusiyanın demokratik yolla inkişafına nail olmaq üçün rəsmi Vaşinqton tərəfindən xeyli miqdarda maliyyə yardımı edildi. ABŞ Rusiya siyasəti kontekstində Şimali Qafqaz regionunda baş verən təhlükəsizlik məsələlərinə diqqət yetirməyə başladı. İnquşetiya, Çeçenistan, Şimali Osetiya və Şimali Qafqazın digər ərazilərində baş verən iğtişaşlar nəticəsində yaranan qeyri stabil vəziyyət rəsmi Vaşinqtonun diqqət mərkəzindən kənarda qalmadı. Lakin bütün bu proseslərdə ABŞ Rusiya ilə münasibətləri üstün tutaraq, Şimali Qafqaza Rusiyanın bir subyekti kimi baxmaqla, rəsmi Moskvaya yönəlik xarici siyasət strategiyasında ehtiyatlı mövqe tutdu.

## ƏDƏBİYYAT

1. İyikan N. Orta Asya ve Güney Kafkasya siyasi gelişmeler (1991-2010). İstanbul: Hiperlink yayımları, 2011, 812 s.
2. Khatoon A. ABD dış politikasında Çeçenistan. s.164-187 / Yaşar F.T. Çeçenistan yasak ülke, kayip vicdan. İstanbul: İHH yayınları, 2005, 296 s.
3. Sunçkale C. Çeçen savaşı (Çeçen Cumhuriyyeti bağımsızlık savaşı) (1994-1995). Ankara: Sam yayınları, 1995, 660 s.
4. Tarık C. Çeçen direniş tarihi. İstanbul: Anka yayınları, 2005, 637 s.
5. Алиев А.К. Современные этнополитические процессы на Северном Кавказе / Северный Кавказ в современной геополитике России, 25 сентября 2008. с.11-23.
6. Гаджиев К.С. Большая игра на Кавказе вчера, сегодня, завтра. Москва: Международные отношения, 2010, 344 с.
7. Carlotta G., Wall. T. Checnya: A small victorious war. London: Pan books, 1997, 416 p.
8. Elizabeth B. US Ambivalence and the Russo-Chechen Wars: Behind the Silence. - http://www.stanford.edu/group/sjir/pdf/Chechnya_11.1.pdf [Müraciət tarixi: 1 dekabr 2020].
9. Goldgeier M.J., McFaul M. Power and Purpose. U.S. Policy toward Russia after the Cold War. Washington: Brookings Institution Press, 2003, 475 p.
10. Japaridze T. The South Caucasus: An insecurity dynamic or crunch time? // Insight Turkey. July-September 2004, vol 6, N 3, p. 96-107.
11. U.S. Department of State.Office of the Spokesman. Press Statement by Richard Boucher. U.S. Contributes $2.6 Million to UN Humanitarian Efforts in Checnya. August 11, 2000.
12. U.S. Department of State. Office of the Spokesman. Press Statement by James P. Rubin. Checnya: U.S. Helps Fund Red Cross Efforts in North Caucasus Region. February 29, 2000.

**ASGER ZEYNALABDINOV**
*Lecturer of the Department of History of Slavic countries*

## SECURITY PROBLEMS IN THE NORTH CAUCASUS AND THE UNITED STATES

Since the early 1990s, Washington, in the context of Russian policy, began to pay special attention to security issues in the North Caucasus. The US administration reacted immediately to the struggle of the peoples of the North Caucasus for the restoration of their sovereign rights, . Despite various statements by the White House about the struggle, in general, official Washington, considering the North Caucasus a subject of Russia took a cautious stance on foreign policy towards Moscow.

*Keywords*: USA, Russia, North Caucasus, struggle, foreign policy.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 1 dekabr 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2020-ci il.*
*Rəyçilər: t.ü.f.d. Abutalıb Cəlilov, t.e.d.Məmməd Fətəliyev.*

**UOT 1(09)**

**ELŞAD HƏSƏNLİ**
*AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun*
*böyük elmi işçisi, siyasi elmlər üzrə fəlsəfə doktoru*
**E-mail: TarixVeOnunProblemleri@gmail.com**

# MİLLİLİK PROBLEMİ VƏ MÜASİR TƏLƏBLƏR

*Tədqiqatda qloballaşma və millilik problemi, Azərbaycanın dövlətçilik təcrübəsi, keçdiyi tarixi yol, dövlət siyasəti müasir dünyanın tələbləri çərçivəsində araşdırılır, dünyəvi çağırışlar kontekstində aparılan milli siyasət, onun inteqrativ prinsiplərə uyğunlaşdırılması məsələləri diqqət mərkəzində saxlanılır. Qloballaşmanın müsbət və mənfi tərəfləri ilə bağlı məsələlər təhlil olunur, dünya təcrübəsi baxımından millilik probleminin yeri və rolu ön plana çəkilir. Eləcə də millilik və bəşərilik prinsiplərinin inkişafa təsiri, onun əhəmiyyəti barədə mülahizələr irəli sürülür. Bu yöndə dünya siyasətçilərinin rəyləri elmi əsaslarla izah olunur.*

*Açar sözlər:* Dağlıq Qarabağ, ATƏT, Avropa Şurası, dövlət, milli maraqlar, millət, etnos, qloballaşma, təhlükəsizlik, siyasət, milli məsələ, münaqişə.

*Giriş.* Tarixin bütün zamanlarında dövlətçilik və onun mühüm amili olan millilik aktuallıq kəsb etmiş, bu istiqamətdə lazımi işlər görülmüş, müvafiq siyasi istiqamətlər müəyyənləşdirilmişdir. Bu məsələ həmişə olduğu kimi bu gün də diqqət mərkəzində saxlanılır. ”Millilik və müasir tələblər” mövzusunda tədqiqat işində ölkəmizin keçdiyi 4 mərhələ - Rusiya imperiyası, Azərbaycan Xalq Cümhuriyyəti, Sovetlər birliyi və müasir şəraitdə mililiklə bağlı məsələlər təhlil olunur. Mililik və zaman məsələsi bu araşdırmada ön plana çəkilməklə tarixi təcrübə araşdırılmış və müasir dövrün tələbləri istiqamətində siyasi məsələlər nəzərdən keçirilir. Müasir dövrün əsas tələbi olan qloballaşmanın bu kontekstdə müsbət və mənfi cəhətləri araşdırılır, ölkəmiz və dünya politoloji fikir tarixində tanınmış mütəxəssislərin fikirləri sərf-nəzər olunur, onların əsərlərinə istinad edilir.

*Azərbaycanda milli məsələ.* Dövlətçiliyin təşkili, onun qorunub saxlanılması və inkişaf etdirilməsi hər bir ölkənin milli ideologiyası, milli siyasəti, milli birliyinə əsaslanır. Milli məsələ, milli ənənə və gerçəklik nəzərə alınmadan xalqların birgə yaşayışı, dinc yanaşı yaşamaq və inteqrasiya qeyri-mümkün olardı. Hər bir dövrün öz tələbi, hər bir dövlətin öz qanuna uyğunluqlarının olduğu, milli müxtəlifliyin mövcudluğu şəraitində milli münasibətlərin tənzimlənməsi, milliliyin əsas xətt kimi saxlanılması xüsusi həssaslıq tələb edir. Qloballaşma şəraitində, inteqrasiya və müəyyən mənada maraqların toqquşduğu, bəzən konfrontasiya halına gələn vəziyyətin yarandığı indiki mühitdə də millilik amilinin nəzərə alınması vacib məsələlərdən biridir. Belə ki, inteqrasiya mühitində milliliyin əriyib sıradan çıxması, milli əqidə, dil və ənənələrin yox olması nəticəsində azsaylı millət və xalqların mövcudluğuna son qoyula bilər. Böyük dövlətlərin və millətlərin təsir dairəsinə düşmək, onların apardığı siyasətdən zərər çəkməmək üçün milli siyasət də milli iqtisadiyyat, milli təhlükəsizlik qədər zəruridir.

20-ci əsrin əvvəllərində milli şüurun oyanması ilə başlayan milli çağırışlar “Dildə, fikirdə, işdə birlik” ideyası fonunda milli birlik tələbinin reallaşması üçün zəmin hazırlayırdı. O zaman təşəkkül tapmış ideya-siyasi cərəyanlar və məktəblər milli mətbuatın maarifləndirmə işığında müəyyən fikir birliyinə nail olmağa imkan yaradırdı. Milli mətbuatın milli hiss, duyğu və düşüncələrin xalqın istiqlal və azadlığına yönəlik çıxışları demokratik meyllərin artmasına gətirib çıxarır, xalq və cəmiyyəti bilgiləndirir, aparıcı siyasi partiyaların yaranmasına rəvac verirdi. Bu dövrdə satirik üslublu “Molla Nəsrəddin” və romantik düşüncəli “Füyuzat” ədəbi məktəbləri xalqın maariflənməsində və milli təfəkkürün formalaşmasında mühüm rol oynayırdılar. Hələ o zaman irəli sürülən “Bizə türk qanlı, müsəlman etiqadlı, firəng fikirli, Avropa qiyafəli fədai lazımdır” tezisi sonradan “türkləşmək, islamlaşmaq və avropalaşmaq (müasirləşmək) formasında təkmilləşdirildi [9, s,87]. Aydın məsələ idi ki, Ə. Hüseynzadə və ümumilikdə, füyuzatçılar millətimizi təmiz etiqadlı, inkişaf etmiş, sivil davranışlı, elmli, yüksək mədəniyyətə sahib bir millət kimi görmək istəyir və bu yolda çalışırdılar. Belə ki, inkişafa, müasirləşməyə gedən yol maarifçilikdən keçir. Bu istiqaməti əvvəldə qeyd etdiyimiz

kimi,19-cu əsrdə fəaliyyəti dövründə böyük mütəfəkkir, yazıçı M.F. Axundov da tutmuşdu. Bu xətt sonradan inkişaf etdirilmiş, müstəqillik ideyalarının hərəkətverici amilinə çevrilmişdir.

1918-1920-ci illəri əhatə edən Azərbaycan Xalq Cümhuriyyəti dövrü həm də ideoloji mübarizənin aparıldığı ağır bir dövr kimi xarakterizə olunur. Bu dövrün mətbuatında o zaman ən çox müzakirə olunan məsələ müsavatçılarla bolşeviklər arasında ziddiyyətlərə səbəb olan milli məsələ və müstəqil dövlət qurmaqla bağlı problemlər idi. İstər Cümhuriyyət dövründən əvvəl nəşr olunan ”Açıq söz” və demokratik fikirli bir sıra digər mətbu orqanlar milli kimlik, istiqlal, siyasi hüquqların təminatı, mədəni, mənəvi inkişafı təbliğ edirdisə, sırf bolşevik-daşnak ideyalarına xidmət edən bəzi qəzet və jurnallar düşmənçilik mövqeyində dayanırdı. Rus dilində dərc olunan “Znamya truda”, ”Yedinaya Rossiya”, ”Vperyod” kimi qəzetlər isə milli hökumətə qarşı aqressiv xətt tuturdu. Cümhuriyyət dövrünün aparıcı mətbu orqanı olan “Azərbaycan” qəzeti əvvəlcə C. Hacıbəyli, sonradan isə Ü. Hacıbəylinin redaktorluğu ilə ölkənin ictimai-siyasi, mənəvi-əxlaqi dəyərlərinin qorunması işinə xidmət edirdi.

İstənilən dövrün mətbuatında cəmiyyət həyatı, onun problemləri öz əksini tapır. Mətbuat, ümumilikdə KİV real həyat hadisələrini özündə əks etdirir. Dövrün ideoloqları, siyasətçiləri bu tribunanın geniş imkanlarından istifadə edərək çağırışlar etmiş, xalqı, milləti istiqamətləndirmişlər. 70 il yaşadığımız sovet dövründə xalqlar dostluğu, beynəlmiləlçilik təbliğ olunsa da, milli məsələ bir qədər arxa plana çəkilmişdi. Tanınmış siyasətçi, vaxtilə ABŞ prezidentinin milli təhlükəsizlik üzrə köməkçisi Z. Bzejinski hesab edirdi ki, “ABŞ öz siyasətini prioritetinin qorunmasına, dünyada hegemonluğa deyil, liderliyə istiqamətləndirməlidir. Etiraf edək ki, belə olan halda demokratiya və bazar iqtisadiyyatı ABŞ maraqlarının təsirli silahına çevrilir və onlar nə dərəcədə yalnız ABŞ-a əlverişlidirlərsə, bir o qədər də öz xüsusiyyətlərini itirmiş olurlar. Demokratiya hökmranlıq və diktatla, bazar isə transmilli korporasiyaların hökmranlığı ilə əvəzlənə bilər. Buna görə hazırkı dünyanın bu iki fundamental fenomeni ilə ehtiyatlı olmalı, dünya birliyi, xüsusilə də Qafqaz və Azərbaycan maraqlarının əleyhinə işləmələrinə imkan verilməməlidir” [8, s.93-94]. Tarixə nəzər saldıqda görürük ki, alimlər qlobal hadisələrin baş verməsində siyasət və iqtisadiyyatın xüsusi rolunu əsas götürsələr də mədəniyyətin bu işə təsirini danmaq mümkün deyil. Din və kilsənin cəmiyyət həyatına, idarəçiliyə müdaxiləsi tarixi gerçəklikdir. Tarixin ayrı-ayrı dövrlərində Qərbin müstəmləkəçilik siyasəti, Şərqə olan ekspansiya, səlib yürüşləri dediklərimizə əsas verir. Lakin indi zaman dəyişib və yeni tələblər meydana çıxıb. İndi “qərbyönümlülük”, ”vesternləşmə” daha sivil yolla, ”qloballaşma” adı ilə diktə olunur. ”Qloballaşmanın indiki mərhələsi Qərbin siyasi, iqtisadi və maliyyə vektorunun möhkəmləndirilməsi ilə simvolizə edilir. Bununla yanaşı, onun mədəni dəyərləri əsasən müasir informasiya texnologiyaları vasitəsilə yayılır və bunun açarları hələ ki daha inkişaf etmiş qərb ölkələrinin əlindədir” [7, s,127]. Dünya siyasətində milli maraqlara gəldikdə isə demək olar ki, bu məsələdə heç nə dəyişməyib. Rusiya XİN-in İkinci Avropa Departamentinin Litva şöbəsinin rəisi ,siyasi elmlər namizədi A. Skaçnov tədqiqatçı E. P. Blajnova istinadən bildirir ki, ”son illərin hadisələri göstərir ki, etnik və dini amillərin təsiri ilə” daha güclü ölkələr əvvəlki kimi liderlik uğrunda mübarizə apararaq, orta və kiçik ölkələri öz qanadları altına salmağa çalışırlar(şallaq və boyunduruqla)”[5, s.26]. Mədəni sahədə qloballaşmanın ümumi istiqamət vektoruna gəldikdə isə o, heç şübhəsiz, anqlosakson (Amerika) istiqamətini özündə ehtiva edəcək. Bu təsir özünü xüsusilə də zəif və lokal mədəniyyətlərə zərbə vurmaqla göstərəcək. Həmin mədəniyyətlərin daşıyıcısı olan xalqlar hegemon yad təsirlərə, onların həyat tərzi, siyasi və iqtisadi inkişaf steorotiplərinə məruz qalacaqlar.

*Müasir qloballaşma dövründə milli siyasətin əsas istiqamətləri.* Qloballaşma sosial nəzəriyyəsinin əsas məsələlərindən biri sistemyaradıcı qruplar kimi etnos və millətin münasibətləri ilə bağlıdır. Qloballaşma təcrübəsi göstərir ki, xüsusən də postsovet dövlətlərində etno-siyasi proseslər zəminində zəifləmələr fərdlərin “seçim” etmələrinə və onların faktiki olaraq mənsub olduqları etnosla öz nəslinin gələcəyini sosial mühit transformasiyasından asılı olmayaraq müəyyənləşdirməyə sövq edir. Başqa sözlə desək, qloballaşma millət və milli təfəkkürün formalaşmasını zəifldən mülki və siyasi institutların yaranmasına, öz etnik sərhədlərini aşaraq qlobal etnos forması, qlobal etnik diaspor yaradır. Qloballaşma nəticəsində bəzi millətlər isə yeni ənənələrlə üzləşərək etnos səviyyəsinə düşür. Rus tədqiqatçı Andrey Safanov yazır ki, ”etnos və millətin mövcudluğu qarşılıqlı və bir-birini tamamlayan institut kimi sosial böhran, faciə, qəzalar,

inqilab və xarici müdaxilələr zamanı bu məsələlərə yeni baxış dinamikasını müəyyənləşdirməyə imkan verir. Xüsusilə də sosial tənəzzül və faciələr dövründə dövləti təşkil edən etnos milli-siyasi üstünlüyünü büruzə verir, hətta yuxarı dairələrin radikal yeniləşməsi vəziyyətində belə, özünün milli-tarixi dəyərlərini qoruyub saxlamağa çalışır. Bu, dövlətin ideologiyasının dəyişməsi və xarici istila zamanı da özünü göstərir" [6, s.164]. Lakin qeyd etməliyik ki, bütün hallarda özünün milli kimliyini -vahid dil, ərazi və mədəniyyətini qoruyub saxlayan millət və etnoslar özlərinin müxtəlifliyi və sərbəstliyi ilə mövcudluqlarını təmin edə bilirlər. Aydın məsələdir ki, mövcud dövlətin yeritdiyi siyasət, onun ideologiyası insan hüquqlarının tam təmin olunmasına zəmanət verdiyi hallarda bu mümkün olur. Əks təqdirdə milli ayrı-seçkilik, dözümsüzlük özünü göstərəcək və cəmiyyətin idarə olunmasında problemlər yaranacaq. Fəlsəfə elmləri doktoru, professor İlham Məmmədzadə yazır ki, "qloballaşma şəraitində siyasət, iqtisadiyyat və mədəniyyətdə mürəkkəblik artmışdır. "İki sistem"in qarşıdurması dövründə hər şey nisbətən bir qədər sadə idi. "Biz haqlıyıq, onlar yox". Bütün fəlsəfə, ideologiya elə bundan ibarət idi. İndi isə fərdiyyət, şəxsiyyət cəmiyyətin sosial, mədəni və iqtisadi həyatının ayrılmaz fenomeni olduğu bir zamanda, onun reaksiyaları, münasibət bildirməsi, hərəkətləri və dəyərləri ictimai həyata dediyimiz mürəkkəbliyi gətirir [8, s,18].

Однако в начальный период независимости, в связи с проводимыми в области науки и образования реформами, тема Кореи, как самостоятельная тема, некоторое время продолжала оставаться вне поля зрения. Это можно объяснить тем, что историки находились в поисках новой концепции. Именно в 90-е годы периодизация истории, пересмотр истории современности стали в азербайджанской исторической науке объектом дискуссий, среди историков превалировала мысль о необходимости преподавания истории стран мира в новом контексте. Продолжалось преподавание истории Кореи в рамках предмета дисциплины

«История стран Азии и Африки». При этом использовались учебники, изданные в России. К сожалению, за исключением небольшого труда, подготовленного сотрудниками созданного Азиатским институтом культуры и развития Республики Корея на историческом факультете БГУ «Центра связи с алтайскими народами» (9), с 90-х годов на азербайджанском языке не было издано ни одно исследование, посвященное истории Кореи. Положительным в этой книге было то, что наряду с краткой историей всех алтайских народов, здесь был представлен также краткий обзор истории Кореи с древних времен до 1995 года.

Только в 2002 году впервые в период независимости на азербайджанском языке было издано учебное пособие «Современная история стран Азии и Африки» (6). В учебнике, охватывающем только 1945-2000 гг., истории Кореи отведено большое место и в этом плане она отстает только от Японии. Это, несомненно, стало воплощением высокого уровня отношений, возникших между нашими странами в 90-е годы. Надо отметить, что РК была одной из первых азиатских стран, признавших Азербайджан и установивших с ним дипломатические отношения.

В учебнике история Кореи была представлена в интерпретации, полностью отличающейся от традиционных стереотипов, принятых в советский период. В изложении планов союзников в отношении Кореи по окончании войны, возникновение двух Корей и даже причин начала, хода и результатов войны превалировала западная точка зрения. А история после 1953 года была абсолютной противоположностью изданных в советский период учебников: история КНДР представлялась в монотонных, серых тонах, а история РК – в розовых тонах торжества демократии. Вина за все еще незавершенный процесс мирного воссоединения Кореи и за его нарушение неизменно возлагалась на Северную Корею. Все это объясняется тем, что при подготовке учебника авторы основывались, в основном, на труды западных исследователей и их деятельность в этой области наносила сильный удар по существовавшему до сих пор в истории изучения Кореи одностороннему ее толкованию. Несмотря на то, что хронологические рамки учебника ограничивались только 1945-2000 годами, его создание послужило толчком для восполнения существующего в данной области пробела и создания новых учебников, охватывающих и историю Кореи.

В 2004 году вышла в свет монография ученого-японоведа О. Джалилбейли «Алтайская теория языка и японский язык» (5). Хотя, как видно и из названия, это и была чисто научная лингвистическая работа, посвященная исследованию японского языка, ее результатами автор берет под сомнение существовавшие до сих пор доводы теории противников Алтайской семьи языков и на протяжении всего труда защищает принадлежность японского и корейского языков к этой семье посредством лексических параллелей. А написавший к монографии вступительное слово доктор филологических наук М. Махмудов отмечает, что «в своем исследовании О.Джалилбейли основывается на труды исследователей, уверенных в принадлежности японского и корейского языков алтайской семье языков» (4, 4). Таким образом, доводы О.Джалилбейли о родстве азербайджанского и корейского языков еще более усилили интерес к Корее в Азербайджане.

Так, именно после этого появились несколько учебников, некоторые из которых приобрели особое значение в плане периодизации и историчности. Изданный доцентом Гянджинского государственного университета П.Керимзаде в 2008 году учебник (7) сыграл определенную роль в устранении имеющихся в азербайджанской историографии пробелов по истории Кореи в указанный период. В посвященном Корее и состоящем всего из 6 страниц разделе часто используются изданные в советский и постсоветский период учебники. Однако, не довольствуясь только ими, П.Кяримзаде часто обогащает текст своим анализом и даже заново интерпретирует ряд событий, уже получивших свою политическую оценку в истории. Например, демонстрацию 1 марта 1919 года, воспринимаемую до сих пор как результат недовольства корейского народа, он расценивает как недовольство национальной корейской буржуазии и даже как логическое продолжение «смерти бывшего императора» (7, 146). Очень позитивно, что в разделе, хотя и немного, но отражена деятельность не только деятельность лидеров Северной Кореи в 20-30-е годы, но и освящена в небольшом объеме деятельность

общественно-политических деятелей, впоследствии возвысившихся в Южной Корее до уровня президентов. В целом, выход учебника в свет, хоть и не стал событием в азербайджанской историографии, но имел большое значение в заполнении имеющегося в этой области пробела.

Более плодотворным в плане издания учебников может считаться период после 2010 года, т.к. в эти годы один за другим было издано достаточно много учебников по истории стран Азии и Африки. Так, именно в 2010 году вышел в свет написанный профессором БГУ ученым-востоковедом Н.Ахундовой учебник «История стран Азии и Африки средних веков» (2). Небольшой объем учебника позволил автору совершить только краткий экскурс в историю стран Азии и Африки, за исключением бывших азиатских государств постсоветского пространства. Несмотря на то, что автор была арабистом, в учебнике отражены основные этапы социально-политического и экономического развития Кореи в средние века. Начав посвященную этой стране главу непосредственно с попыток государства Силла объединить Корею, ограничившись краткой информацией о создании государства Корё, монгольской оккупацией, установлении власти династии Ли, автор завершила ее кратким описанием войн Имчжин. Несмотря на небольшой объем, правильная с методической точки-зрения разработка учебника в концептуальном плане увеличила ее научную значимость и сделала доступной для читателей. Так как это было первое пособие по средневековой истории Кореи на азербайджанском языке, оно сыграло незаменимую роль в заполнении пробелов в области преподавания истории этой страны и послужило толчком для создания новых трудов об этом периоде.

Именно после этого в 2011 году был издан одноименный учебник (8) доцента БГУ А.Мамедли. Большой объем учебника (566 страниц) позволил автору уделить теме Кореи достаточно пристальное внимание. Периодизация была проведена с механическим применением к истории Кореи принятой в Европе периодизации. Так как информация о события и процессах с I по XVIII век состоит из совокупности фактов, изложенных в изданных в различные годы учебников, данный учебник приобрел несколько компилятивный характер, что нанесло определенный урон его научной значимости в концептуальном плане. Однако насыщенность в плане фактологии позволяет учебнику играть роль проводника для подготовленных студентов.

Более рациональную роль сыграл изданный в 2014 году учебник «Новая история стран Азии и Африки» (11), подготовленный доцентом АГПУ Ш.Нурузаде. В нем, наряду с другими странами региона, был отражен 200 летний период истории Кореи. При выборе периода автор принял за основу, несомненно, имевшийся в азербайджанской исторической науке пробел (с издания посвященного этому периоду последнего учебника прошло 52 лет). Ш.Нурузаде сохранил принятую в Европе периодизацию. На самом же деле автор представил читателям историю последних 200 лет принятого в Корее нового периода (с XIV века по 1860 год – кынсе са). Здесь, хотя и в краткой форме, отражены политическая и социально-экономическая жизнь Кореи, аграрные отношения, экспансия европейских стран, политика колонизации, формы и этапы национально-освободительного движения.

В 2014 году впервые в азербайджанской историографии вышла в свет первая часть учебника «История Японии» (3), принадлежавший перу специалиста по странам Дальнего Востока, доцента кафедры Истории стран Азии и Африки БГУ Г.Давудова. Значение учебника Г.Давудова выходит далеко за рамки истории Японии, являясь значительным вкладом в изучении истории стран Дальнего Зарубежья. Как видно и из названия, главным объектом данного учебного пособия является Япония. Вышедшая пока в свет первый том охватывает ее средневековую и новую историю. Однако, как ни парадоксально, в учебном пособии встречаются более обширные и всесторонние сведения об истории Кореи в рассматриваемый период. Причиной тому, географическая близость этих стран, наличие в упомянутый исторический период присущих им обоим общих черт в социально-политической и экономической областях и главенствующая роль Кореи в системе японо-китайских отношений. Правда, в учебнике имеет место подход к истории Кореи в аспекте внешней

политики Японии. Однако то, что учебник является продуктом сравнительного анализа изданных на различных языках учебников, монографий и научных работ по истории Японии, Китая и Кореи позволяет ему играть роль незаменимого проводника в плане изучения и истории Кореи периода с III века по 1918 год. В конце почти каждой главы отдельно затронуты японо-корейские отношения, а войнам Имчжин и японо-корейскому договору 1609 года отведено отдельное место. Автор связывает победу корейцев в войне не только с тем, что правда была на их стороне, но и с превосходством корейского флота в тот период «и в качественном отношении, и в плане опыта», а также с изобретением корейцем Ли Чжан Соном мины ("пигек чингхонне"). В учебном пособии представлено обстоятельное описание японско-китайской и русско-китайской войн, тема которых была непосредственно связана с Кореей, рассмотрены планы этих государств в отношении Кореи в преддверие войн. Ожидается издание второй части учебного пособия, которая, несомненно, будет еще более богата интересными сведениями по истории Кореи.

Интересный и являющийся продуктом кропотливой работы последний учебник под названием «Страны Азии в системе международных отношений» (12) подготовлен доцентом БГУ Р.Талыбовым и издан в 2015 году. В учебнике представлены место, позиция и значение ряда основных государств Азии, в том числе Республики Корея в мировой политике и системе международных отношений. Учебник состоит из 6 глав, и третья глава называется «Республика Корея в мировой политике». В каждом из входящих в эту главу параграфов автор, отказавшись от присущего учебникам принципа хронологии, отдает предпочтение проблемной постановке тем.

В параграфе 1 автор исследует причины стремительного развития Кореи и приходит к выводу, что это развитие обеспечили «направленная на экономическое развитие государственная идеология» и «непрерывная система образования». В параграфе 2 автор отмечает активность РК в таких международных структурах, как APEC и Организация экономического сотрудничества и развития, несмотря на членство в ООН с 1990 года. Параграф 3 посвящен ядерной программе КНДР и в связи с этим ее проблемам с МАГАТЕ. В параграфе 4 отведено большое место многосторонним связям Азербайджанской Республики с Республикой Корея. Подчеркивается, что РК была одной из первых азиатских стран, признавших независимость Азербайджана. Здесь же говорится о сотрудничестве Кореи с Азербайджаном в экономической области, о безвозмездной помощи азербайджанским университетам в области образования.

Однако развитие Корееведения в области истории не завершается подготовкой учебников. Появляются и статьи изучающие проблемы современной Кореи. Так в своем докладе сделанном в 2017 г. на научно-практической конференции республиканского масштаба, посвященной 25-и летию основания Кафедры Истории тюркских народов И.Агаев проследил развитие турецко-корейских отношений на протяжении последних 60 лет и пришел к выводу что эти отношения на тот момент достигли стратегического партнерства (1, 145).

*Заключение*. Таким образом, проанализировав исследования азербайджанских историков по истории Кореи, мы приходим к следующим выводам: 1) Корееведение является относительно молодой областью в азербайджанской исторической науке; 2) исследование истории Кореи ограничено, в основном, подготовкой учебников, которые охватывают также и историю этой страны; 3) в этих учебниках при периодизации истории Кореи использована периодизация принятая не в корейской историографии, а в Европе; 4) подготовка подобных учебников и учебных пособий развивается по восходящей линии и обуславливает необходимость создания учебника по истории Кореи. Отрадным является то, что специалисты БГУ по истории стран Азии и Африки, исследующие страны Дальнего Востока, уже приступили к этой работе.

## ЛИТЕРАТУРА

1. Агаев И. Из истории турецко-корейских отношений // Вопросы исследования и преподавания истории тюркских народов в Азербайджане. Республиканская научно-практическая конференция, посвященная 25-летию кафедры Истории тюркских народов БГУ. Баку, 17-18 мая 2017. Баку, Изд-во БГУ, 2017, с.141-145. (на азербайджанском языке).
2. Ахундова Н. История стран Азии и Африки средних веков. Баку, Изд-во БГУ, 2010, 326 с. (на азербайджанском языке).
3. Давудов Г. История Японии. Часть 1-я. Баку, Elm və Təhsil, 2014, 567 с. (на азербайджанском языке).
4. Джалилбейли О. Алтайская теория языка и японский язык. Баку, "Nurlan" nəşriyyatı, 2004, 112 с. (на азербайджанском языке).
5. Искендеров А. Тоётоми Хидэёси. М., Наука, 1984, 444 с.
6. Исмайлов Р., Ахундова Н. Современная история стран Азии и Африки (1945-2000). Баку, Адильоглу, 2002, 406 с. (на азербайджанском языке).
7. Керимзаде П. Современная история стран Азии и Африки (1918-1945 гг.). Баку, Нурлан, 2008, 246 с. (на азербайджанском языке).
8. Мамедли А. История стран Азии и Африки средних веков. Баку, Элм ве Техсил, 2012, 566 с. (на азербайджанском языке).
9. Махмудов Я., Магеррамли Н., Мамедли К., Джу Хонг. Алтайские народы. Баку, Azərnəşr, 1996, 96 с. (на азербайджанском языке).
10. Новый период зарубежных стран Азии и Африки. Баку, Azərnəşr, 1962, 622 с. (на азербайджанском языке).
11. Нурузаде Ш. История стран Азии и Африки. I том: I половина XVII века и 70-е годы XIX века. Баку, Adiloğlu, 2018, 478 с. (на азербайджанском языке).
12. Талыбов Р. Страны Азии в системе международных отношений. Баку, Элм ве Техсил, 2015, 309 с. (на азербайджанском языке).

**IQBAL AGHAYEV**
*Ph.d., Associated professor of Baku State University,*
*head of the Department of the history of Asian and African countries*

## THE HISTORY OF KOREA IN AZERBAIJANI HISTORIANS' RESEARCHES

The article is dedicated to the reflection of Korean history in the researches of Azerbaijani historians. The main results are followings: 1) Korean studies is a relatively young field in Azerbaijan history; 2) The coverage of Korean history is largely limited to textbooks, including the history of the region countries; 3)The periodization of Korean history in these textbooks is not followed by the periodization adopted in Korean historiography, but by the periodization adopted in Europe. 4) The preparation of such textbooks gave an impetus for further publications about Korean history.

*Keywords:* Korea, Azerbaijan, Historiography, Russia, textbook, Altai theory.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 17 fevral 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2020-ci il.*
*Rəyçilər: t.ü.f.d. Qismət Davudov, t.e.d.Sani Hacıyev.*

**UOT 94(479.24)**

**ZƏHRA İSLAMOVA**
*Tarix üzrə fəlsəfə doktoru,*
*Bakı Dövlət Universitetinin müəllimi*
**E-mail: zahraislamova@bsu.edu.az**

# ŞAMAXI ŞƏHƏRİNİN XVIII ƏSR TARİXİ DÖVRÜN QAYNAQLARINDA

*Azərbaycan tarixində Şamaxı siyasi, iqtisadi, ticarət mərkəzi kimi xüsusi önəm daşıyırdı. Diplomatlar və səyyahlar Rusiya, Osmanlı, Avropa dövlətlərindən Şamaxıya gəlir, öz gündəlik və məruzələrində Şirvan və onun əsas şəhəri Şamaxı haqqında mühüm qeydlər edir, əsas etibarilə şəhərin ticarət mərkəzi olaraq əhəmiyyətini, coğrafi mövqeyini, inkişaf etmiş iqtisadi bölgələrini, ticarət yerlərini, bazar, memarlıq abidələri və s. qeyd edirdilər. Mənbələrdə Azərbaycan tarixşünaslığı üçün bir sıra maraqlı faktlar və qeydlər vardı ki bu məlumatlar tarixi reallığa, obyektiv nəticə əldə etməyə faydalı olacaqdır.*

*Açar sözlər*: Səfəvilər, Azərbaycan, Şamax; diplomatik missiyalar, qaynaqlar.

*Giriş.* Azərbaycan tarixinin siyasi cəhətdən mürəkkəb dövrlərindən hesab edilən XVIII əsrin öyrənilməsi müasir tarix elminin qarşısında duran əsas vəzifələrdəndir. Həmin dövrdə ölkənin əsas bölgələrindən biri olan Şirvanın siyasi, iqtisadi, sosial və mədəni tarixinin bir sıra problemlərinin dövrün mötəbər qaynaqları əsasında hərtərəfli şəkildə araşdırılmasının böyük elmi əhəmiyyəti vardır. XVIII əsrin əvvəllərində Şərqin ən nüfuzlu dövlətlərindən biri olan Azərbaycan Səfəvi imperatorluğunun zəifləməsi, tənəzzülü və süquta uğraması, ardınca Nadir şah Əfşarın qısamüddətli hakimiyyəti və müstəqil xanlıqların yaranması ilə siyasi dağınıqlığın hökm sürməsi araşdırdığımız dövrdə Azərbaycanın, o cümlədən Şirvanın sosial-iqtisadi və siyasi həyatında dərin izlər buraxmışdır. Belə bir ziddiyyətli şəraitdə XVIII əsr ərzində Azərbaycana gəlmiş xarici diplomatik elçiliklərin sənədlərini araşdırmadan nəinki Şirvanın, ümumilikdə ölkənin bu dövr tarixinin bütöv bir mənzərəsini yaratmaq mümkün deyildir. XVIII əsrdə Azərbaycan Rusiya, Osmanlı kimi qonşu imperiyalarla yanaşı, Avropanın Britaniya, Fransa, İsveç kimi imperialist dövlətlərinin də maraq dairəsində olması Azərbaycana həmin dövlətlərdən çoxlu sayda diplomatik missiyalar, elçiliklər, tacir və səyyahlar göndərilməsinə səbəb olmuşdur. Onların əsas məqsədi bölgənin siyasi, iqtisadi durumunu dərindən öyrənmək, sosial-etnik tərkibini müəyyənləşdirmək və digər mühüm məsələləri əhatə edən hesabat hazırlamaq idi. Gələn əcnəbilər Azərbaycanın əsas şəhərlərində, həmçinin Şamaxıda olmuş, onlara verilmiş təlimata uyğun raportlar hazırlamışdılar. Müasir dövrdə bu hesabat və raportların araşdırılması zamanı əsas bölgələrdən olan Şirvan, həmçinin Şamaxıya dair bir sıra maraqlı fakt və materiallara rast gəlinir. Yeni elmi materialların tarixşünaslığa cəlb edilməsi Şirvan tarixinin bir sıra qaranlıq səhifələrinə aydınlıq gətirilməsi baxımından mühüm elmi əhəmiyyət kəsb edir. Azərbaycanın ən qədim şəhərlərindən biri olan Şamaxı bir neçə əsr ərzində Şirvanşahlar dövlətinin paytaxtı, Səfəvilər sülaləsinin hakimiyyəti dövründə Şirvan bəylərbəyiliyinin mərkəzi olmuşdu. Yarandığı vaxtdan əlverişli strateji mövqeyi ilə seçilən Şamaxı Azərbaycanın mühüm şəhərlərindən olmuş və bir sıra tarixi siyasi hadisələrin düyün nöqtəsi olaraq 1859-cu il zəlzələsinədək həm siyasi-iqtisadi, həm də ticarət və mədəni cəhətdən özünün üstünlüyünü qoruyub saxlaya bilmişdi. Bu möhtəşəm şəhəri bir sıra əcnəbi səyyahlar, tacirlər və diplomatlar təsvir etmişdilər. Şamaxının strateji mövqeyini nəzərə alaraq xaricdən gələnlər siyasi-iqtisadi maraqlarından asılı olmayaraq mütləq ki, bu mühüm şəhəri ziyarət edir və öz gündəliklərində, yol qeydlərində, hətta öz hökumətlərinə göndərdikləri raportlarında Şamaxı haqqında məlumat verib təsvir edirdilər. Əlbəttə ki, müasir Azərbaycan tarixşünaslığı üçün bu qeydlərin əhəmiyyəti danılmazdır. Lakin, bu materialların hər birinə tənqidi yanaşma mütləqdir, çünki gələnlərin hər biri təmsil etdikləri dövlətin maraqlarından çıxış edir və öz hökumətləri tərəfindən verilən təlimata uyğun hərəkət edirdilər. Bundan əlavə, bəzən həmin müəlliflər müəyyən məsələ üzrə şişirtmələrə və ya əksinə həmin məsələnin şərhinə gəldikdə susmağa və Azərbaycan tarixi üçün əhəmiyyətli olan

faktların gizlədilməsinə yol verirdilər. Bununla belə, Azərbaycan tarixşünaslığında kök salmış bir sıra problemlərə, xüsusilə Nadir xan tərəfindən Şamaxının dağıdılması kimi aktual məsələyə məhz diplomatik missiya sənədləri əsasında aydınlıq gətirə bilərik. Araşdırma zamanı əcnəbi müəlliflərin əsərlərinə daha çox diqqət ayrılsa da, təbii olaraq verilən fikir və faktlar yerli mənbələr ilə də müqayisə edilmiş, təhlillər aparılmış və obyektiv tarixi gerçəkliyin əldə olunmasına cəhd edilmişdir.

XVIII əsrin əvvəllərində Şamaxı şəhərinin təsviri



Cornelis de Bruins. Reizen over Moskovie door Persie en Indie:Amsterdam, 1714. pp.101-102

Nadir şah Əfşar dövründə (1736-1747) Azərbaycana gələn Fransanın Bəsrədəki diplomatı Cin Otter (1707-1748) öz əsərində Azərbaycana dair maraqlı qeydlər etmişdir, hətta səfir Şirvanın sərhədlərini verməyə çalışmışdı: "Azərbaycanın Muğan və Şirvan əraziləri üç tərəfdən Gilan, Deyləm və ...Van ilə sərhədlənir", hətta səfir sərhədləri qeyd edərkən bölgənin şərq tərəfdən "Xəzər və ya Şirvan dənizi ilə" əhatələndiyini qeyd edir [4, c.290]. Əvvəla onu deyək ki, Xəzərin Şirvan dənizi kimi qeyd edilməsi bölgənin siyasi və iqtisadi cəhətdən mahiyyətinin yüksək dərəcəsini göstərir, eyni zamanda ölkənin Azərbaycan kimi göstərilməsi bu dövr mənbələrində az rast gəlindiyinə görə böyük maraq doğurur və mühüm elmi əhəmiyyət kəsb edir. Bu məsələ Rusiya hərbiçisi S.D.Burnaşovun qeydləri ilə müyyən mənada uyğun gəlir. XVIII əsrin son rübündə Peterburq hökuməti tərəfindən Cənubi Qafqaza göndərilmiş rezident S.D.Burnaşov Şirvanı belə təsvir edir: "Şirvan əvvəllər Səfəvilərin sahilyanı vilayətlərindən biri olmuş, indi isə Azərbaycan torpaqlarına aiddir" [8, s.9] .

Rusiyanın Səfəvilər paytaxtına göndərdiyi "böyük elçiliyin" üzvü olan ingilis mənşəli, ixtisasca həkim Con Bel 1715-1722-ci illər arasında iki dəfə Şamaxıda olmuş və qədim Azərbaycan şəhərini belə təsvir etmişdir: "Şamaxı Midiyanın bir hissəsini təşkil edirdi. Hazırda isə "Şirvan" adlanan böyük bir əyalətin paytaxtıdır. Şəhər dağın ətəyində amfiteatr şəklində salınmışdır. Şəhər böyükdür. Lakin canişin, hakim və bəzi varlı adamların evlərindən başqa burada evlər pis tikilmişdir. Şəhərin küçələri dar və əyridir" [6, c.59]. Peterburqun 1718-1725-ci illərdə Buxaradakı səfiri Florio Beneveni Mərkəzi Asiyaya yollanarkən bir müddət Şamaxıda ləngimiş və özünün yol gündəliyində Azərbaycana, o cümlədən Şamaxıya dair bir sıra dəyərli məlumatlar vermişdir. C.Belin qeydini təsdiqləyən F.Beneveni şəhərin təsvirini belə verir: "Şamaxıda Xan sarayına gedən yol dardı və atlarla buradan keçmək olmur" [11, c.51].

Şamaxının strateji mövqeyini nəzərə alaraq onu qeyd etməliyik ki, şəhər XVIII əsr ərzində bir neçə dəfə dağıntıya məruz qalmışdı. 1720-1721-ci illərdə Şamaxı şəhəri Hacı Davud və Surxay xanın dəstələri tərəfindən darmadağın edilir. Səfir F.Beneveni bunu təsdiqləyərək "üsyançılar hamısı birləşərək, Şirvana hücum edib, şəhəri aldılar" [11, c.47]. Bu üsyanlar haqqında I Pyotrun

Xəzərsahili vilayətlərə yürüşünün iştirakçısı olan hərbiçi İ.Q.Gerber maraqlı məlumatlar vermişdir. O, Bakının rus donanması tərəfindən 1723-cü ildə mühasirəsi zamanı topçu dəstəsinə başçılıq etmiş, daha sonra Rusiya-Osmanlı dövlətləri arasında sərhədlərin müəyyənləşməsi komissiyasının üzvü olmuşdur. Təyinatını Dağıstana alaraq 1729-cu ilədək orada fəaliyyət göstərmişdir. Güman ki, öz qeydlərini məhz burada olarkən yazmışdır. Onun Azərbaycanın bölgələrini ayrı-ayrılıqda təsvir etməsi mühüm əhəmiyyət kəsb edir. Belə ki, təsvir zamanı bölgələrin ərazisi, təbiəti, əhalisi, əhalinin məşğuliyyəti, siyasi və iqtisadi münasibətlər, ticarət yolları, hətta adət-ənənələrlə bağlı dəyərli məlumatlar verilmişdir. İ.Q.Gerber şəhər barədə yazırdı: "1720-ci ildə Davud bəyin başçılığı ilə qiyamçılar Şamaxını ələ keçirmiş və 1723-cü ilədək oraya sahib olmuşdular. 1728-ci ilədək türklərin himayəsində olmuş, bu zaman Şamaxını Osmanlı sultanının vassalı Hacı Davud idarə edirdi. 1728-ci ildə Hacı Davud həbs edilərək Şamaxıdan sürgün edilir. Surxay xan Şamaxı və Şirvan hakimi təyin edilir. Üsyançılar bütün şəhəri, manufakturaları, ticarəti dağıtmış, yerli əhalini öldürmüş və qovmuşdular" [9, c.94]. XVIII əsrin 20-ci illərində Şamaxının dağıdılması şəhərin hərbi-siyasi, xüsusən də iqtisadi-ticarət mərkəzi kimi rolundan, kifayət qədər böyük ticarət dövriyyəsindən və ölkəyə gələn tacirlərin əsas etibarilə burada cəmləşməsindən irəli gəlirdi. Bunun təsdiqini İ.Q.Gerberin Şamaxı şəhəri haqqındakı fikirlərində tapırıq: "farslar (Səfəvilər-Z.İ.) dövründə burada iri ticarət gedir, ipək fabriki və manufakturaları vardır. Burada bahalı parça və xalça hazırlayırlar, fars, rus, Osmanlı, erməni, hindli və digər xalqlardan olan əcnəbi tacirlər buraya ticarət üçün gəlir və yaşayır, bunun nəticəsində Şamaxıda böyük var-dövlət yığılır, yerli sakinlər bundan yararlanaraq dolanır və varlanırlar" [9, c.94].

Böyük Britaniyanın Rusiyadakı ticarət şirkətinin nümayəndəsi Conas Hanvey 1743-1744-cü illərdə Azərbaycanda olmuş və bölgə haqqında mühüm məlumatlar vermişdir. C.Hanvey əsərində Şamaxı şəhərinə yüksək qiymət verərək yazırdı: "Şamaxı qədimdən bu zamana qədər dünyanın ən abad və mötəbər şəhərlərindən biri olub, bərəkətli torpaqlar həyatı xoşagələn edir və bura daim intensiv ticarət mərkəzlərindən biridir. Fars, türk, erməni, gürcü və rus tacirləri buradan çoxlu sifarişlər edir və ona görə də, bura bütün bu ölkələr, eyni zamanda Avropa üçün əsas ştapeldir. Bura eyni zamanda müdafiə ərazisidir" [2, c.333]. İngilisdilli tarixşünaslıq ilə Rusiya nümayəndələrinin əsərlərini müqayisə edərkən ziddiyyətli məqamlara daha çox rast gəlinir. Azərbaycan tarixşünaslığında belə bir fərziyyə vardır ki, Nadir xan 1734-cü ildə Şamaxı şəhərinə daxil olan kimi buranın Hacı Davud üsyanı zamanı ona tərəf çıxmasını bəhanə edərək oranın dağıdılması əmrini verir. Bu məsələyə C.Hanvey öz əsərində "şəhər ləzgilərin üzünə açıq olduğuna görə, Nadiri bərk hirsləndirdi və o, şəhəri yerlə-yeksan etmək, əhalisini qırmaq qərarını verdi. Lakin Nadirin hirsi soyuduqdan sonra dağlara qaçmış əhalinin geri qayıtmasına və dağın qərb səmtində yeni şəhər salmağa imkan verdi" [2, c.333]. C.Hanvey öz əsərində "qiyamçıların sığınacağı" kimi qeyd edilən Şamaxının ticarət yollarının qovuşağında yerləşməsi şəhərin tezliklə bərpasını şərtləndirir" deyə yazmışdır [2, c.334]. Səyyahın bu qeydləri Nadir şah tərəfindən şəhərin ancaq qala divarlarının dağıdıldığını, mərkəzin isə Ağsuya köçürüldüyünü, lakin bütün bunların şəhərin iqtisadi həyatına çox ciddi təsir etmədiyindən xəbər verir. "Şəhər düşmən üçün açıq olduğuna" görə Ağsuya köçürülməsi haqqında mülahizələr digər ingilisdilli mənbələrdə də öz təsdiqini tapır. C.Frezerin əsərində Təhmasibqulu xanın Tiflis, İrəvan, Gəncə, Dərbənd, Bakı kimi şəhərlərini hücum ilə aldığı göstərildiyi halda, "Şamaxını kapitulyasiya ilə ələ keçirmişdir", yəni hərbi əməliyyatların dayandırılması və könüllü təslimolma kimi qeyd edilmişdir [3, c.114]. Beləliklə, bu əsərdə də Şamaxıda dağıntıya məruz qalacaq heç bir işarə görmürük.

Dövrün məxəzlərinə əsasən əminliklə deyə bilərik ki, bu dövrdə Şamaxı ilə yanaşı Ağsu şəhəri də inkişaf edir və tezliklə qala divarları ilə əhatə olunaraq "Yeni Şamaxı" adını alır. Yeni Şamaxı dördkünc formalı, xəndək və çiy kərpicdən olan qala divarları ilə əhatə olunur ki, burada Şərq üslubuna uyğun dördkünc və dairəvi qüllələr vardı. Təəssüflər olsun ki, bundan sonra Azərbaycanın ən qədim, zəngin və məşhur şəhəri Şamaxı şəhəri bir müddət siyasi-iqtisadi mərkəz kimi öz əhəmiyyətini itirir, bu vəzifə Yeni Şamaxının öhdəsinə düşür. Daha bir ingilis müəllifi C.Kuk qeyd edilən fikirlərdən fərqli məlumatlar verir. Adı çəkilən müəllif yeni şəhərin təsvirini belə verir: "gilli torpaqla üç kəndin xarabalığını ötdük və ölkənin cənub-şərqində Yeni Şamaxıya çatdıq. Dağlar qoynunda şimal-şərqdə yerləşən Köhnə Şamaxı Nadir şah tərəfindən məhv edilmişdi. Yeni

Şamaxı Nadir şah tərəfindən tikilmiş, paraleloqram formasında dağların ətəyində düzənlikdə yerləşir. Şəhər şimal və cənub tərəfdən kərpic divarlarla əhatələnib, qırx addımdan bir ona yaxın hücrəsi vardır, şərq və qərb divarları doqquz hücrə ilə möhkəmlədirilsə də heç birinin üzərində top-silah yoxdur. Şəhərin şimaldan cənuba uzanan üç əsas, daşla döşənmiş, dar, düz yolu vardır, eyni zamanda şərqdən qərbə doğru uzanan kiçik küçələr bu əsas yollarla kəsişir və şəhərin mərkəzində ticarət üçün dördkünc meydan yaradır ki, orada bir neçə çox kiçik dəmir toplar görmüşdük. Bu şəhərdə Dərbənd və Bakının birgə əhalisindən daha çox adam vardır. Bütün şəhərdə yaxşı bir evə rast gəlmədik, ancaq acınacaqlı vəziyyətdə olan bir neçə karvansaray gördük" [5, c.390-391]. Hesab edirik ki, Şamaxının tərk edilməsi və ölkənin əsas iqtisadi ticarət mərkəzi olaraq əvvəlki mövqeyini itirməsi buraya gələnlərdə şəhərin dağıdılması təəssüratını yaratmışdır. Belə ki, mötəbər mənbə hesab edilən A.Bakıxanovun "Gülüstani-İrəm" əsərində də dağılmaq məsələsinə işarə belə edilmir. Əsərdə yazılır: "Şamaxı şəhəri və qalası münasib bir yerdə olmayıb, düşmən hədəfi altında idi. Hicri 1148-ci (=1735) ilin may ayında, buranın dörd ağaclığında, mövqe etibarilə çox əlverişli olan Ağsu adlı yerdə yeni şəhərin əsası qoyuldu. Az bir zamanda hasarlar və bürclər tikdirildi. Şəhərin qədim əhalisi bu yeni şəhərə köçürüldü, bura Şirvan hakimlərinin mərkəzi oldu" [1, c.107].

1747-ci ildə Əfşarların süqutundan sonra Şamaxı xanlığını yaradan Məhəmməd Səid və Ağası qardaşları öz iqamətgahlarını "yenidən abad etdikləri qədim Şamaxı şəhəri"nə köçürürlər [1, c.122]. Qısa müddətdə Köhnə Şamaxı yenə də bölgənin vacib siyasi və iqtisadi mərkəzinə çevrilir, lakin 1766-cı ildə qubalı Fətəli xan tərəfindən məğlub edilən Xançobanı qardaşları şəhəri təslim edirlər. 1767-ci ildə Xəzərətrafına səyahət etmiş Peterburqdan göndərilmiş səyyah S.Qmelin bunu təsdiqləyərək bildirir ki, "Şirvan hakimi qubalı Fətəli xan" idi [10, c.9] Bu dəfə Köhnə Şamaxının yenidən dağıdılması, əhalinin isə Yeni Şamaxıya köçürülməsi əmri verilir. Onu qeyd etməliyik ki, 1776-cı ildə Fətəli xan Xançobanı qardaşlar ilə barışaraq, qohumluq əlaqələri yaradır. Qısa müddətə şəhərdə sabitlik yaransa da, Ağa Məhəmməd xan Tiflisdən qayıdarkən 1795-ci ildə Şirvan əyanlarından xəyanətdə şübhələnərək şəhəri tamamilə dağıdır. Bunun ardınca, 1796-cı ildə ruslar şəhərə daxil olurlar, Mustafa xan şəhər sakinləri ilə birgə Fitdağda gizlənir. Bu dövrdə Şamaxıda olan daha bir Rusiya nümayəndəsi M.Biberşteyn şəhərin dəhşətli zəlzələdən dağıldığını qeyd edir [7, c.467]. Əlbəttə, Şamaxının seysmik zonada yerləşməsini nəzərə alaraq şəhərdə zəlzələ kimi təbiət hadisələrinin intensivliyi mümkündür. Onu da qeyd etməliyik ki, A.Bakıxanovun qeydlərinə əsasən Ağsu şəhərində bir neçə dəfə taun xəstəliyi baş vermişdir. "Hicri 1176-cı (=1763) ildə, Şirvanda və xüsusilə Ağsu şəhərində şiddətli taun xəstəliyi baş verdi", "Hicri 1213-cü (=1799) ildə, Şirvan vilayətinə və xüsusilə Ağsu şəhərinə şiddətli taun xəstəliyi düşdü, bir çox adam tələf oldu [1, s.121, 137]. Mənbədəki məlumatda taun xəstəliyinin Şirvanda və əsas etibarilə Ağsuda baş verməsi deyilsə də, bütöv Şirvanı əhatə etmiş, o cümlədən Şamaxını da bürüdüyünü ehtimal edə bilərik. Bir tərəfdən siyasi qüvvələr arasında çəkişmə meydanına çevrilmiş, digər tərəfdən təbii fəlakət və xəstəlik nəticəsində dağılan Şamaxının bir daha özünə gəlməsi bir neçə on il çəkir.

*Nəticə.* Dövrün mötəbər mənbələrindəki materialların təhlili belə bir nəticəyə gəlməyə imkan verir ki, Şamaxı XVIII əsrboyu Azərbaycanın əsas siyasi-iqtisadi, ticarət mərkəzi olmuş, strateji mövqeyi ilə seçilmişdir. Bir neçə dəfə dağıntıya məruz qalmış şəhər buna baxmayaraq öz əhəmiyyətini müəyyən mənada qoruyub saxlaya bilmişdi. Qeyd etməliyik ki, XVIII əsr qaynaqlarının təhlili əsasında Şirvanın siyasi və iqtisadi tarixinin öyrənilməsi, Şamaxı şəhərinin dövlətin siyasi həyatında yeri və rolu, həmçinin tarixi keçmişin obyektiv, hər cür təzyiqlərdən azad surətdə yenidən yazılması mühümdür. Hesab edirik ki, bu diplomatik sənədlər elmi araşdırmalardan kənarda qalmamalı, əldə olunan yeni fakt və materiallar elmi dövriyyəyə cəlb edilməlidir, çünki bu materialların bir sıra mübahisəli məsələlərə aydınlıq gətirilməsi, o cümlədən tarixi gerçəkliyin əldə edilməsi üçün faydalı olacağını düşünürük.

## ƏDƏBİYYAT

1. Bakıxanov A. Gülüstan-i İrəm. Bakı: Elm, 1991, 256 s.
2. Hanway Jonas. A Historical Account of British Trade over the Caspian Sea… London: Mr. Waugh, in Lombard-street and Mr. Willock, in Cornhill, 1753, p.301.
3. J.Fraser. The history of Nadir shah, formerly called Tahmaskuli khan, the present Emperor of Persia. London: Printed by W. Straban, 1742, p.234.
4. Jean Otter. Voyage en Turquie et en Perse. Avec un Relation des expeditions de Tahmas Kouli-Khan. T.II. Paris: Chez les Frères Guerin, rue Saint Jacques là Saint Thomas d'Aquin, 1748, p.386.
5. Voyages and travels through the Russian Empire, Tartary, and Part of the Kingdom of Persia by John Cook in two volumes. II vol. Edinburgh: Printed for the Author, 1770, p.628.
6. Бель Д. Белевы путешествие через Россия в разных Азиатские земли, а именно: Пекин, Дербент и Константинополь. (Перевод с французского М. Попов) кн. I-III, СПб.: При Имп. Акад. наук, 1776 г., 250 с.
7. Биберштейн М. Описание провинций, расположенных на левом берегу Каспийского моря, между реками Терек и Кура. НАИИ НАН Аз., 466, л. 56.
8. Бурнашов С.Д. Описанiе областей Адербижанскихъ въ Персiи и ихъ политическаго состоянiя. Курск, 1793, 27 с. // Кавказ XVIII века глазами русского тайного агента. Репринтное издание трех трудов. Баку: Издательский дом TEAS Press, 2017, 108 с.
9. Гербер И.Г. Описание стран и народов вдоль западного берега Каспийского моря 1728 г. // История, география и этнография XVI-XIX вв. Архивные материалы. Москва: Издательство восточной литературы, 1958, с.60-119.
10. Гмелин С.Г. Путешествие по России для исследования всех трех царствь в природе, ч.III. СПб., Иждивением Императорской Акад Наукъ, 1785, 737с.
11. Посланник Петра I на Востоке. Посольство Флорио Беневени в Персию и Бухару в 1718 - 1725 годах. Москва: Издательства "Наука", 1986, 158 с.

**ZAHRA ISLAMOVA**
*Ph.D., Baku State University*

## XVIII CENTURY'S HİSTORY OF SHAMAKHİ İN SOURCES OF THE PERİOD

The paper deals with history of the ancient city Shamakhi. Strategic position of Shamakhi has always provided the political relevance. Diplomats and travelers came in Azerbaijan from Russia, Ottomans, Europe states and etc. They made important notes about our country and its main city Shamakhi on their way diaries and reports. These materials may clarify to some controversial issues and those would be useful for the acquisition of historical reality.

*Keywords*: Safavids, Azerbaijan, Shamakhi, diplomatic missions, sources.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 21 fevral 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 dekabr 2020-ci il.*
*Rəyçilər: t.ü.f.d. Mehman Abdullayev, t.e.d. İsmayıl Məmmədov.*

**Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlər qarşısında qoyulan tələblər**

- Məqalələrdə müəllif(lər)in adı və soyadı açıq şəkildə, elmi adı və dərəcəsi, işlədiyi müəssisə, həmçinin elektron poçt ünvanı göstərilməlidir.

- Məqalələr  Azərbaycan, rus və ingilis dillərində çap oluna bilər. Məqalənin yazıldığı dildə annotasiya, əlavə digər 2 dildə xülasə verilməlidir. Xülasənin üstündə məqalənin adı mütləq göstərilməlidir. Xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununu əks etdirməli, elmi və qrammatik baxımdan ciddi redaktə olunmalıdır.

- Məqalələrin mətnləri azərbaycan dilində latın əlifbası, rus dilində kiril əlifbası və ingilis dilində (ABŞ) əlifbası ilə Times New Roman-14 şrifti ilə, 1,5 intervalla 8-12 səhifə həcmində qəbul edilir (A4 format, səhifənin ölçüləri: yuxarı – 2 mm, aşağı – 2,5 mm, sol – 3 mm, sağ – 1,5 mm).

- Məqalədə UOT indekslər, 3 dildə açar sözlər göstərilməlidir.

- Məqalə Giriş, Əsas mətn (yarımbaşlıqlar göstərilməklə) və Nəticə hissələrindən ibarət olmalıdır. Məqalədə elm sahəsinin xarakterinə uyğun olaraq elmi işin yeniliyi, müəllifin gəldiyi nəticə aydın şəkildə verilməlidir.

- Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı ya əlifba ardıcıllığı ilə, ya da mətndə rast gəlindiyi ardıcıllıqla və [1] və ya [1, s.119] kimi nömrələnməlidir. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbilərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Dissertasiyaların tərtibi qaydaları"  barədə qüvvədə olan təlimatının "İstifadə edilmiş ədəbiyyat" bölməsinin 10.2 – 10.4.6. tələbləri əsas götürülməlidir.

- Məqalələrin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir.

- Məqaləyə mütləq 1 mütəxəssis rəyi (rəyçinin adı (tam şəkildə), elmi dərəcəsi, elmi adı və elmi titulu, iş yeri), məqaləni çapa tövsiyə edən müəssisənin elmi şurasının (kefedranın, şöbənin) iclas protokolundan çıxarış əlavə olunmalıdır.

- Elmi jurnallarda "*əvvəli ötən sayımızda*", *"ardı növbəti nömrədə"* adı altında seriya məqalələrin dərs olunmasına icazə verilmir.

- Texniki baxımdan düzgün tərtib edilməyən, həmçinin plagiatlıq faktı aşkar edilən məqalələr çap olunmayacaq.

***Redaksiya ilə əlaqə*:**
**TarixVeOnunProblemleri@gmail.com**

## Требования к оформлению научных публикаций

- В статье должны быть указаны место работы и адрес, электронный адрес автора (авторов).

- Статьи могут быть опубликованы на Азербайджанском, турецком, русском и английском языках. Резюме статьи должно быть на двух языках, помимо языка написания статьи. Оба резюме должны быть одинаковыми и отображать содержание статьи. В резюме должны быть показаны научный результат, научная новизна, практическая ценность и др. Резюме должно быть научно и грамматически отредактировано. В резюме должны быть полностью указаны название статьи, имя автора (авторов).

- Текст статьи должен быть набран шрифтом Times New Roman, кегль 14, 1,5 интервал латинской графикой для статей на азербайджанском турецком языках и английском, кириллицей для статей на русском языке.

- В статье должны быть указаны UOT индексы или коды типа PACS, а также ключевые слова. Ключевые слова должны быть на трех языках (на языках написания статьи и резюме).

- В конце статьи должны быть даны научная новизна, практическая ценность, экономический результат и др.

- В статье должны быть даны ссылки на научные источники. Список литературы должен быть либо по порядку (например, [1] или [1, с.119]) или же по порядку шифра. Если дается сноска на ту же литературу в другом месте текста, тогда номер сноски должен быть таким же как и прежде.

- Информация о каждой сноске, данной в списке литературы, должна быть полной и точной. Библиографическое описание источника должно быть дано в соответствии с его видом (монография, учебник, научная статья и т.д.). При ссылке на статью, материалы симпозиумов, конференций и других научных изданий, должно быть указано название доклада или тезиса. При библиографическом описании ссылаемых источников должны браться за основу требования 10.2-10.4.6 отдела «Используемая литература» действующей инструкции по «Правилам составления диссертационных работ» Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики.

- В статье преимущество должно быть дано научным статьям, монографиям и другим источникам, опубликованным в течении последних 5-10 лет.

- К статье должны быть приложены 1 рецензия (с указанием имени, научной степени, научного звания и научного титула, места работы рецензента), выписка из протокола научного совета (кафедры, отдела) учреждения, рекомендующего публикацию статьи.

- Статьи, которые не являются технически корректными, а также содержат плагиат, не будут опубликованы.

***Электронный адрес журнала "История и ее проблемы":***
**TarixVeOnunProblemleri@gmail.com**

## Requirements for scientific publications

- The place of work and the address, e-mail address of the author(s) should be indicated in the article.

- Articles may be published in Azerbaijani, Turkish, Russian and English. The summary of the article should be in two languages, in addition to the language of the article. Both summaries should be the same and display the content of the article. The summary should show the scientific result, scientific novelty, practical value, etc. The summary should be scientifically and grammatically edited. The summary should contain the full title of the article, the name of the author(s).

- The text of the article should be typed in Times New Roman, 14, 1.5 interval, Latin script for articles in Azerbaijani Turkish and English, Cyrillic for articles in Russian.

- The article should indicate UOT indexes or PACS type codes, as well as keywords. Keywords should be in three languages (in the languages of the article and resume writing).

- At the end of the article scientific novelty, practical value, economic result, etc. should be given.

- The links to the scientific sources should be given in the article. References should be either in order (for example, [1] or [1, p.119]) or in order of cipher. If a footnote is given for the same literature elsewhere in the text, then the footnote number should be the same as before.

- Information about each footnote given in the list of references should be complete and accurate. The bibliographic description of the source should be given in accordance with its type (monograph, textbook, scientific article, etc.). When referring to an article, materials of symposia, conferences and other scientific publications, the title of the report or thesis should be indicated. In the bibliographic description of the referenced sources, the "Used literature" section 10.2-10.4.6 of the current instruction on the "Rules for writing dissertations" of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan should be taken as the basis.

- In the article, the advantage should be given to the scientific articles, monographs and other sources published in the last 5-10 years.

- The article should be accompanied by 1 review (indicating the name, scientific degree, academic title and scientific title, place of work of the reviewer), an extract from the protocol of the scientific council (chair, department) of the institution that recommends publication of the article.

- Articles that are not technically correct, as well as plagiarism, will not be published.

**Email**: **TarixVeOnunProblemleri@gmail.com**

| | |
|---|---|
| *Çapa hazırlayanlar:* | *Sevinc Ruintən, Şəbnəm Cəfərova, Elmar Axundov* |
| *Tərcüməçi radaktorlar:* | *Anar Kərimov, Aynur Məmmədova, Elmira İsmayılova* |
| *Web-redaktor:* | *Nigar Nurəddin qızı İsmayılova* |

**Yığılmağa verilmişdir: 17.12.2020. Çapa imzalanmışdır: 17.12.2020.**
**Redaksiyanın ünvanı: Bakı – 370148, akad.Z.Xəlilov küç.23**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi. Tel.: 539 08 56**
**E-mail: TarixVeOnunProblemleri@gmail.com**

Jurnal "ADİLOĞLU" nəşriyyatında nəşrə hazırlanmış və
ofset üsulu ilə çap edilmişdir.

**Ünvan:** Bakı şəh., Tbilisi pr., 307-44C
Tel.: (050) 593 27 77
(055) 339 75 77
E-mail: adiloglu2000@mail.com